QÜDRƏTULLAH MƏŞAYİXİ

İSLAMDA HÜQUQ NƏZƏRİYYƏSİ

BAKI -2015

O gələcək...

Kitabın orijinal adı:

İmam Səccadın (ə) "Risalətül-hüquq" kitabının şərhi

Müəllif: **Qüdrətullah Məşayixi**

Tərcümə edən: **Faiq Vəlioğlu**

Redaktor: **Cabbarov Rüfət**

Korrektor: **Əliyev Çingiz**

Azərbaycan Respublikasının Dini Qurumlarla
İş Üzrə Dövlət Komitəsi
DK-206/Q saylı, 13 may 2010-cu il tarixli məktubu ilə
çap olunmasına razılıq verilmişdir.

İSLAMDA HÜQUQ NƏZƏRİYYƏSİ

Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2015, 424 səh.

ISBN: 978 - 9952 - 490 - 83 - 1

© Faiq Vəlioğlu, 2015

O gələcək...

BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM

MÜƏLLİFİN ÖN SÖZÜ

İnsanların həyatı ilə birbaşa əlaqəli olub, onun ictimai təbiətindən irəli gələn haqq və hüquq məsələsi tarixən bəhs olunub və alimlər tərəfindən bu məsələ mövzusunda fikirlər söylənmiş, kitablar yazılmışdır.

İlahi peyğəmbərlər məktəbində, xüsusilə insanı kamilliyə doğru aparan İslam dinində, hüquq mövzusunun özünə məxsus yeri vardır. Bu mövzu barəsində müxtəlif ifadələr və ibarətlərlə söz açmışlar. Həzrət Əli (ə) haqq barəsində belə buyurur:

"Haqq vəsf edilərək barəsində danışılan zaman hər şeydən geniş, lakin ona əməl və riayət məqamında isə ən dar və məhdud mərhələdədir. Heç bir iş başqalarının müqabilində məsuliyyət və vəzifələri nəzərə alınmadan kimsənin xeyrinə əmələ gəlməz. Kimsənin faydasını nəzərə almadan onun zərərindən danışmaq olmaz. Heç bir məsuliyyət olmadan kiməsə haqq qazandırmaq məxluqa deyil, qüdrəti bütün bəndələri əhatə edib, ədaləti tədbir və təqdirlərdə hakim olan, eyb və nöqsan sifətlərdən pak olan Allaha məxsusdur."[1]

Peyğəmbər (s) məktəbində, xüsusilə İslamda, hüquq sistemi qəti və şübhəsizdir. Müsəlmanlar arasında ictimai əlaqələrin və ixtilafların Quranın hökmü və onun açıqlamaları əsasında həll olunması aydın məsələdir. Necə ki, İslam cəmiyyəti və müsəlmanlar üçün bu həqiqət Qurani-Kərimdə izah olunub.

"Maidə" surəsində buyurulur:

"Allahın nazil etdiyi ayələr üzrə hökm etməyənlər, əlbəttə günahkarlardır."[2]

Digər ayələrdə həmin şəxslər, küfr edən və sitəmkar (zülmkar) kimi tanıtdırılır.

"**Allahın nazil etdiyi [kitab və şəriət] ilə hökm etməyənlər, əlbəttə kafirdirlər!"**[3]

---

[1] Nəhcül-bəlağə. Feyzül İslam, 207-ci xütbə.
[2] Maidə surəsi, ayə 47.
[3] Maidə surəsi, ayə 44.

O gələcək...

"Allahın nazil etdiyi ilə hökm etməyənlər, əlbəttə zalimdirlər."[1]

"Ey peyğəmbər! Onların arasında Allahın nazil etdiyi ayələrlə hökm et və onların nəfslərinin istəyinə uyma!"[2]

Peyğəmbərlər məktəbində, xüsusilə, islamda hüquq nizamnaməsinin hədəfi ali və müqəddəs olub, İlahiyyət və insaniyyət hökmləri əsasında qurulur və həyatın bütün sahələrində, cəmiyyətdə dəqiq hüquqları ilə ədalətin icra olunmasına xidmət edir.

İslamın hüquq sistemi cəmiyyəti kəramət (izzət və hörmət) əsasında təşkil edib, düzgün ideologiya aparır. Bu qurumda bütün təəssübkeşliklər, o cümlədən, millətçilik, tayfaçılıq, irqçilik, ərəb və əcəmlik kənara qoyulub, Allaha iman gətirənləri vahid bir cəmiyyət hesab edir. İslam quruluşunda hökümət yalnız Allahındır. Hətta hakimiyyət başında olanlar cəmiyyət arasında İlahi qanunları icra etməli, ictimai qanunları Allahın əmri əsasında təşkil etməli və özləri də tamamilə Allaha tabe olmalıdırlar.

İslam qanunları insanın fitrəti ilə uyğundur. İnsanın istək və meyllərini lazımi səviyyədə nəzərə alır. Hər bir şəxsin və ya cəmiyyətin mənafelərini əsas tutmaqla, azadlıq, istiqlal, inkişaf, iqtisadi genişlik və mədəni sahələrdə cəmiyyəti idarə edir. Bundan əlavə cəmiyyətdə bir sıra sabit və dəyişkən qanunlar icra etməklə, insanın yaradılışının hədəfi olan əsl məqsədinə, kamala doğru aparır.

HAQQ

Hüquqlar barəsində bəhs edən hər bir kəs, hər şeydən əvvəl özü haqqı tanımalıdır. Bu səbəbdən də, əvvəlcə, lüğət elmində "haqq" kəlməsinin mənasını araşdırmalı, daha sonra isə onun elmi termində mənası və növləri ilə tanış olmalıyıq. Nümunə üçün haqqın mənası, mahiyyəti, mülklə haqqın fərqi və hökmlə haqqın fərqlərini bilməliyik.

HAQQ LÜĞƏTDƏ

"Haqq" sözünün lüğətdə bir neçə mənası vardır. Onların ən mühümlərinə işarə edirik:

[1] Maidə surəsi, ayə 45.
[2] Maidə surəsi, ayə 49.

O gələcək...

Rağib İsfahani yazır: Haqq, əslində uyğun olmaq və müvafiqliyə deyilir. Görürük ki, bu uyğunluq və həmahənglik çox yerdə "haqq" kəlməsində işlənilir. O cümlədən:

1. "Haqq", Allah və yaradan mənasındadır. Çünki, yaranmışları öz hikmətinə uyğun yaratmışdır.[1]

2. "Haqq", yaranmış mənasında. Çünki, yaranmışlar Onun hikmətinə uyğun yaranmışlar.[2]

3. "Haqq", əsl həqiqətlə uyğun olan mənasında.[3]

4."Haqq", olan və olmalı şeylə uyğun və düzgün olan söz mənasında.[4]

Bəzi alim və dilçilər belə bir fikirdədirlər ki, o yerlərdə ki, haqq kəlməsi işlənib, onların mənalarını araşdırdıqdan sonra belə nəticəyə gəlmək olur ki, "haqq" əslində, "sabit olmaq" mənasını daşıyır. Amma, qalan digər mənalarının nəticəsi sabit olmağa gəlib çıxır.

Beləliklə "haqq" istər həqiqi olsun, istərsə də nisbi, bir işin sabit olunmasından ibarətdir. Allaha "haqq" deyirik, çünki, sabit və həqiqidir. Qurana haqq deyirik, çünki, Allah tərəfindən nazil olması sabitdir. Həqiqi və sabit olan hər bir işə haqq deyirik. Ədalətə haqq deyirik, çünki, hər şeyin sabit olması və qalmasının əsli ədalətdir. Həqiqi və sabit olmasına görə İslama da haqq deyirik.

"Haqq", bəzən müəyyən bir şəxsin mülkünə və faydasına da deyilir. Bu da həmçinin, onun qanun vasitəsilə həmin şəxsin barəsində mötəbər və sabit olmasına görədir. "Batil" sözü də "haqq" kəlməsinin müxtəlif mənaları müqabilində onun ziddinə mütənasib şəkildə qərar tutmuşdur.

HAQQIN MƏNASI

"Haqq" sözü ərəb dilində məsdər (kök) mənasında işlənməsi ilə yanaşı, Qurani-Kərimdə müxtəlif mövzularda işlədilmişdir:

"**Onlar bilirlər ki, Allah aşkar haqqdır.**"[5]

Həmçinin, Allah-taalanın işi mənasında gəlmişdir:

"**Göyləri və yeri haqq olaraq yaradan Odur.**"[6]

Digər bir yerdə, Allahın dini mənasında gəlir:

[1] Yunus surəsi, ayə 32.
[2] Yunus surəsi, ayə 5.
[3] Bəqərə surəsi, ayə 213.
[4] Yasin surəsi, ayə 7.
[5] Nur surəsi, ayə 25.
[6] Ənam surəsi, ayə 73.

O gələcək...

"**Peyğəmbərini hidayətlə [Quranla] və haqq dinlə göndərən Odur!**"[1]
Allah vədəsində də işlənmişdir:
"**O ki deyilmiş oldu Allahın vədi haqdır.**"[2]
Bundan əlavə, "haqq" sözü "vəhy" mənasında da işlənib:
"**Sənə kitabdan vəhy etdiyimiz haqdır.**"[3]
Hekayə mənasında da işlənmişdir:
"**Həqiqətən, bu Quran və zikr olunanlar haqq hekayələrdir.**"[4]
Nəhayət, haqq sözü hökm mənasında da işlənmişdir:
"**Bəs insanlar arasında haqla hökm et.**"[5]

Bunlardan əlavə, "haqq" sözü Quranda xüsusi və etibari mənalarda da işlənmişdir. Bu da insanla başqa şeylər arasında rabitəyə işarə olunur. Belə halda bəzən mütləq işlənilir:
"**Öz qohum-əqrəbana haqlarını əta et!**"[6]
Bəzən mənfəət mənasında gəlir:
"**Və mallarında saillər və mərhumlardan ötrü haqq vardır.**"[7]

İmam Zeynul-abidin (ə) və digər məsum İmamların (ə) kəlmələrində olan "haqq" sözü, çox vaxt hüquqi deyil, bəlkə də, "əxlaqi" məna daşıyır. İnşallah əsl hüquqi-haqq barəsində bu kitabda bəhs olunacaq.

HAQQ, ELMİ TERMİNDƏ

Qərb filosofları, İslam alimləri və elm əhli arasında, "haqq" sözünün mənası barəsində və tərifində ixtilaflar vardır, onlardan bəzilərinə işarə edirik:

Birinci: Sosioloq və iqtisadçı fransız alim Lirmi Niye haqqın tərifində belə deyir: "Haqq, bəşərin rabitə müvazini və həmahəngliyidir." Əvvəlcədən qeyd etdiyimiz kimi "haqq" sözünün lüğəti mənalarından biri də "ədl," varlıqlar arasında ədalət həmahənglikdir. Hər bir varlığın payını özünə vermək. Beləliklə, fransız aliminin tərifi, eyni "ədl" mənasında olmasa da, ona həddən artıq yaxın mənasındadır.[8]

[1] Fəth surəsi, ayə 28.
[2] Casiyə surəsi, ayə 32.
[3] Fatir surəsi, ayə 31.
[4] Ali-İmran surəsi, ayə 62.
[5] Sad surəsi, ayə 26.
[6] Rum surəsi, ayə 38.
[7] Zariyat surəsi, ayə 19.
[8] İslam hüququnda ümumi cəza tətbiqi, səh 12.

O gələcək...

İkinci: bəziləri haqqın tərifində belə demişlər:

"Haqq" təbii surətdə olan və yaxud saziş və qərar əsasında əmələ gələn bir reallığdır ki, öz sahibinə, onu qorumaq ya da ələ gətirmək üçün qüdrət və imkan bəxş edir. Məsələn, həyat və yaşamaq haqqı, azadlıq haqqı, bərabərlik haqqı, evlənmək haqqı, qisas və başqa haqlar...

Üçüncü: 13-cü hicri əsrinin böyük şiə alimi Seyid Məhəmməd Əl-Bəhrul-Ulum buyurur: "Haqq, bəzən mülk məfhumunun müqabilində, bəzən də onunla bərabər mənada işlədilir. Hər iki mənada haqq, elə bir qüdrətdir ki, etibari və qərarlaşma üzrədir. Ona əsasən, hər bir insan, hər hansı bir mülkə və ya şəxsə, yaxud, hər ikisinə hakim olur. Məsələn, kirayə olunan evə, çünki, kirayəçi kirayə sahibinin şəxsi mülkündən birinə müvəqqəti sahib olur."[1]

Dördüncü: Şeyx Ənsari (r) buyurur: "Haqq, bir növ hakimlik və qüdrətdən ibarətdir ki, ona əsasən, haqq sahibi özünə aid hər hansı bir məsləhəti ələ gətirir."[2]

Beşinci: Axund Mövla Kazim Xorasani buyurur: "Haqq, xüsusi etibar və xüsusi nisbətdir ki, qərarlaşma və ya təklif yaxud, başqa mənşədən ələ gəlmişdir. Məsələn, mülkiyyətdən ələ gələn mülkdən istifadə etmək haqqı, meyvə bağının yanından keçməkdən ələ gələn və meyvələrindən təkcə yeməyə haqqı olan "yolçu haqqı" və sair.[3]

Altıncı: Ayətullah Seyid Möhsün Həkim buyurur: "Haqq, mülkün bir növüdür. Mülk, malik və məmluk arasında olan xüsusi etibari bağlılıq və nisbətdir."[4]

Yeddinci: Seyid Məhəmməd Kazim Yəzdi Təbatəbai buyurur: "Haqq, bir şeyin üzərində olan nisbi bir qüdrətdir ki, ya bir predmetə aid olur, məsələn istifadəyə qadağa qoyma haqqı (təhcir haqqı); ya qeyri predmetə aid olur, məsələn müamiləni ləğv etmə haqqı (fəsx etmə haqqı). Yaxud da bir şəxsə aid olur, məsələn qisas haqqı. Beləliklə, haqq səltənət və iqtidarın kiçik formasıdır, yaxud da ondan bir növdür.[5]

Səkkizinci: Başqa bir nəzəriyyədə haqqı, mülkün zəif mərtəbələrindən və hər ikisi (haqq və mülkü) səltənət və sahibliyin mərtəbəsindən hesab edirlər. Ayətullah Seyid Əbul Qasim Xoyi buyurur: "Malikiyyət, ümumi qüdrət və səltənətdən ibarətdir. Lakin, haqq, xüsusi səltənət və sahiblikdir."

---

[1] Bələğətül-fiqh, cild 1, səh 13.
[2] Məkasib, Bey kitabının əvvəli.
[3] İslam hüququnda bəhs, cild 1, səh 26.
[4] İslam hüququnda bəhs, cild 1, səh 26.
[5] İslam hüququnda bəhs, cild 1, səh 26.

O gələcək...

Doqquzuncu: Mərhum Əllamə Təbatəbai buyurur:

"Haqq, bir növ özəlləşmədir. Özəlləşmə ümumi və icmali formada cəmiyyətin qurulmasından öncə də mövcud olub, cəmiyyət qurulduqdan sonra isə müxtəlif şəkillərdə təzahür edir. Onlardan biri də haqdır."[1]

HAQLA MÜLKÜN FƏRQİ

Əvvəldə haqqın mənası aydın oldu. İndi də haqla mülkün fərqlərini araşdırmaqdan ötrü mülk və malikiyyətin qısa da olsa, mənasını izah etməliyik ki, hər ikisinin fərqi aydın olsun.

1. "Mülk hər hansı bir vücuda yaxud, mənfəətə bağlı olan şəri hökmdür. Malik sahib olduğuna görə onlardan əvəz almaq, yaxud istifadə etməyə qadirdir."[2]

2. Mülkiyyət, sahibinə ondan istifadə etməyə imkan verir və başqalarını ondan çəkindirir. Yalnız, bəzi müstəsna hallarda, şəri hökm ondan istifadə etməyə imkan vermir.[3]

3. Mülk etibari bir bağlılıqdır ki, ona əsasən, məmluk malikə məxsus olur. Malikin qanun çərçivəsində ondan istədiyi kimi bəhrələnməyə və başqalarını onun istifadəsindən çəkindirməyə haqqı vardır. Yalnız, şəri maneələr malikə mane olsa, öz malından istifadə edə bilməz. Buna misal olaraq, müflis olmağı göstərmək olar.

Keçmiş mətləblərdən məlum olur ki, bəzi fəqihlər, "haqq"ı, mülkiyyətin zəif mərtəbəsi bilmiş, bəziləri isə, onu mülkiyyətlə bərabər səviyyədə qeyd etmişlər.

Haqq və mülk barəsində izahları nəzərə almaqla aydın olur ki, haqqın dairəsi, misdaq və nümunələrinə görə mülkdən genişdir. Mənasına və lüğətə görə isə bir-birindən tamamilə ayrıdır və demək olar ki, onların arasında iki əsas fərq vardır:

1. Haqq, həm müxtəlif təsərrüflərdən diqqət mərkəzində ola bilər, həmçinin bir və ya bir neçə xüsusi zəmində nəzərə alınar. Əksinə, mülkiyyət, həm eyni vücudi olan şeylərin istifadəsinə, məsələn yemək, içmək, geyinmək və s. aid olur. Həm də etibari istifadə, məsələn, satmaq, bağışlamaq və s. aid ola bilər. Hər iki mərhələdə mülkiyyət, qanuna əsasən, məhdud, yaxud da qadağan oluna bilər. Məsələn, yetkinliyə çatmamış uşağın öz malından istifadəsi, müflis şəxsin öz malından istifadəsi və s.

[1] İslam hüququnda bəhs, cild 1, səh 26.
[2] İslam hüququ barədə, səh 5.
[3] İslam hüququ barədə, səh 5.

O gələcək...

2. Mülkiyyətin məfhumu, təkcə nisbət tələb edir. O da, maliklə məmlukun arasında olan nisbətdir. Halbuki, haqqın məfhumu və mənası, haqq sahibi və haqla bağlı olan şeydən əlavə, başqa bir nisbət də özünə götürür. O da "haqq sahibi" ilə "haqq əleyhinə" olanın bağlılığıdır və heç birinin bir-biri ilə rabitəsi yoxdur.

HAQQIN NÖVLƏRİ VƏ BÖLÜMLƏRİ

Haqqın mənası və məfhumunu araşdırıb, onun mülk ilə fərqinə vardıqdan sonra bölümlərinə işarə edək:

1. Təbii haqq və qanuni haqq

Haqq və hüquqa aid olan kitablarda onun bölümləri barəsində bəhslər olunmuşdur. Onlardan, "təbii haqq" və "qanuni haqq"ı göstərmək olar. Bəşərin təbii hüququnun əsası bir şeydən artıq deyil. O da, bəşərin, Allahın insan bəqası və kamalı üçün yaratdığı hər bir şeydən yararlanması və bəhrələnməsindən ibarətdir. Başqa sözlə desək: Təbii hüquq elə bir hüquqdur ki, etibari deyildir. Cahana hakim olan təbii həqiqətlər şəklində təcəlli etməsidir. Məsələn, "hər kəsin doğulması ilə birlikdə əmələ gələn həyat və azadlıq haqqı və hüququnu qeyd etmək olar. Beləliklə, bəşər hüququnun əsas şüarı həmin təbii hüquq üzərində qurulmuşdur.

Qanuni haqq isə, insanın özü müxtəlif mövzularda qanun təyin etdiyi hüquqdur. Ayətullah Mərhum Seyid Məhəmməd Kazim Yəzdi, hüququ belə bölmüşdür.(Bu bölgü haqqın nəql-intiqal və aradan getməsi cəhətindəndir).

1. O hüquqlar ki, sahibinin ölümü ilə başqasına keçmir və aradan getmir. Bu hüquqların, nəql və intiqalı düzgün deyil. Məsələn, atalıq haqqı, hakimin vilayət haqqı, vəsiyyət haqqı və s.

2. Aradan getməsi mümkün olan hüquqlar. Lakin, bu hüquqları digərlərinə yönəltmək düzgün deyil və hüquq sahibi ölməklə, haqq qəti olaraq başqasına aid olmur. Məsələn, qeybət etmək haqqı, söyüş söymək haqqı, töhmət vasitəsilə vəsiyyət etmək haqqı, tövbə kifayət etmədikdə, haqq sahibindən halallıq tələb edib və onu razı salmaq vacib olduqda, kötək vurmaq haqqı.

3. Sahibinin ölümü ilə vərəsəyə keçə biləcək hüquqlar. Bu hüquqları da aradan aparmaq olar. Lakin, onları başqalarına aid etmək olmaz. Məsələn, bəzi dəlillərə görə "şüfə haqqı"nı (iki şərikdən biri öz haqqını yalnız öz şərikinə sata bilər) digərinə vermək olar.

O gələcək...

4. Köçüb-köçürülməsi, həmçinin, aradan getməsi səhih olan hüquqlar. Məsələn, müamiləni pozmaq haqqı, qisas haqqı və sair.

5. Heç bir əvəz almadan köçürülməsi də, aradan getməsi də mümkün olan hüquqlar. Məsələn, bir dəstə alimlərin, o cümlədən, "Lümə" kitabında Əllamənin nəzərinə görə "and içmək haqqı".

6. Aradan getməsi və köçürülməsi şübhəli olan hüquqlar. Məsələn, övlad və valideyn kimi qohumların xərclərini vermək haqqı.[1]

2. Haqqullah və haqqunnas

İslam alimləri ümumiyyətlə, hüquqları iki qismə bölüblər. **Haqqullah və haqqunnas!**

İmam Xomeyni "Təhrirul-Vəsilə" kitabında yazır: "**Hüquqlar bütün şaxələrinə baxmayaraq iki qismə bölünür. Haqqullah və haqqunnas.**" Həmin kitabda, bu barədə başqa bölumə işarə olunmuşdur. Bu əsasla ki, haqqullah iki qismdir: Təkcə haqqullah. Məsələn, zina etməyin cəzası, ləvvatlığın həddi və s.

İkincisi, Haqqullah və haqqunnas ilə müştərək olan hüquqlar. Məsələn, zina nisbəti vermək, oğurluğun həddi və s.[2]

Haqqunnas, qanun verən, onun məxsus şəxs və ya şəxslər üçün nəzərdə tutulmuş bir hüquqdur ki, bu hüququn sayəsində insan öz məqsədindəki mənafeini əldə edə bilsin. Məsələn, şüfə haqqı (şərik öz payını satmaq istəsə, əvvəlcə öz şərikinə təklif etməlidir) haqqunnasdır. Bu haqdan istifadə etməklə şərik daşınmaz əmlakını satmaq istəsə, ilk növbədə yalnız, öz şərikinə təklif etməlidir və birbaşa başqasına satmağa haqqı yoxdur. Qisas haqqı da haqqunnasdan sayılır. Necə ki, bu hüquqdan, təkcə can sahibləri istifadə edə bilərlər.

Bir halda ki, haqqunnasdan məqsəd, bir və ya bir neçə nəfərə aid olan hüquqlardır, onda deyə bilərik ki, haqqullah bu hüquqların qarşı tərəfində qərar tutur və ondan məqsəd, ümumi cəmiyyətin haqqıdır. Xüsusilə, "haqqullah", öz həqiqi mənasında (Allahın haqqı) işlədilə bilməz. Çünki, Allah-taalaya haqq və qanun-qayda öyrətməyə heç kəsin haqqı yoxdur, əksinə, Allahın hər bir işi haqq və qanunidir. Bu cəhətdən, Allahı hüquq bəhslərinə qarışdırmaq olmaz. Amma haqqullah sözünün tərifində demək olar ki, qanun təyin edənin, bütün İslam cəmiyyətləri və müsəlman ümməti ilə bağlı təyin etdiyi haqqı adətən, "haqqullah" adlandırırlar. İslam alimləri "Səbilillah" (Allah yolunda)

[1] Cəza qanunda tətbiq, səh 46-47.

[2] Təhrirul- Vəsilə, cild 2, səh 446-449.

O gələcək...

kəlməsini mənalandırdıqda belə bir nəticəyə gəlirlər ki, bu sözü öz həqiqi mənasına aid etmək mümkün deyil. Bu sözdə məqsəd, ümumi müsəlmanların mənfəətinə xidmət edən işlərdir. Elə bir mənfəət ki, bütün cəmiyyəti əhatə etsin və bütün insanlara faydası olsun. "Şərhi lümə" kitabının zəkat bölməsinin üçüncü fəslində deyilir: Allahın razılığına səbəb olan savab və bizi Ona yaxınlaşdıran bütün işlər və ümumi mənafelər "Allah yolunda" olan işlər adlanır. Nümunə üçün, məscid tikmək, fəqirlərə kömək, küsülüləri barışdırmaq, elmi məktəblərin tikilməsi və din hökümətinin qurulmasını qeyd etmək olar.

3. İxtisaslaşmış haqq, üstünlük və mülkiyyət haqqı

İslam alimlərinin hüquqlarının bölünməsi barəsində başqa bölgüləri də vardır ki, bunlar da haqq, ixtisasa, üstünlüyə (övləviyyət) və malikiyyətə bölünür.

İxtisasi hüquq o yerlərə bağlıdır ki, şəri və ürfi (cəmiyyət içində) heç bir dəyəri (qiyməti) olmamış olsun. Beləliklə də, belə şeylərə malik olmaq şəraiti aradan getmiş olur. Bu haqqın, "üstünlük" haqqı ilə fərqi də bundadır. Çünki, ixtisasi haqqın maliyyati yoxdur və digərləri ilə hər hansı mal müqabilində onun vasitəsilə sülh (saziş) etmək olmaz. Amma, "üstünlük" haqqı ilə saziş etmək olar. Məşhur İslam alimi Şeyx Ənsari bu barədə yazır: "Eyni zati nəcis olan əşyanı, faydası olacağı ümidi ilə saxlamağa icazə verir." Belə nəzərə gəlir ki, bu işlərdə ixtisasi haqq deyilən hüquq, ya hamıdan əvvəl o əşyanı ələ gətirdiyinə, yaxud da, əvvəlcədən ona malik olduğuna görə burada özünü nişan verir. Məsələn, birisinin ölmüş heyvanını yaxud, ətinin xarab olması hallarında, əvəzində heç bir şey almadan hansısa bir şeylə müsalihə və ya saziş etmək hüququna malikdir. Bəlkə də, əgər eyni xarab olmuş malı nəzərə almadan və ona qiymət qoymadan başqa bir şeylə əvəz etmək olar.[1]

Həmçinin, mərhum Naini buyurur: "Hər bir şəri qiyməti olmayan əşyalara ixtisasi haqq qazandırmaq, sirkə olmağa qabiliyyəti olan şəraba qazandırılan haqqa oxşayır."[2]

Qaynamış və şəraba dönmüş üzüm suyu nəcisdir. Şərabın islamda heç bir qiyməti və dəyəri yoxdur. Amma, bu şərabı bir qədər də qaynadıb sirkəyə çevirmək imkanı olduğuna görə və qiymətli bir əşyaya çevrilə bilmək imkanını nəzərə alaraq, hazırda dəyəri olmasa da ixtisasi və ya xüsüsi haqq olaraq onun hüquqi sahibinə məxsusdur.

[1] Məkasib, səh 14.

[2] Məniyyətüt-talib cild 1, səh 8.

O gələcək...

Üstünlük haqqı. Bu halda, ixtisasi haqqın arasındakı fərq bundadır ki, üstünlük haqqına bağlı olanların hamısının şəri maliyyəti və qiyməti vardır. Nəticədə, əgər bir kəs bu haqqı tələf etsə zamindir. Onun özünü və ya qiymətini sahibinə qaytarmalıdır. Məsələn, "təhcir" barəsində (malından istifadə etməsi qadağan olmuş şəxs) qeyd etmək lazımdır ki, heç kəsin haqqı yoxdur ki, sahibinin icazəsi olmadan onun malından əstifadə etsin. Əgər kimsə, haqq sahibinin icazəsi olmadan onun malından istifadə edirsə, bu iş heç də ona haqq qazandırmır.

Malikiyyət haqqı. Əvvəlcədən malikiyyət barəsində bəhs olunmuşdur. Bu bəhsə əlavə olunur ki, hər bir şəxs, öz zehni təsəvvürlərinə malikdir. Belə ki, nə vaxt istəsə, təsəvvür edib şəkil yaradar və istədiyi vaxtda da onları zehnindən yox edər belə malikiyyəti, təxmini malikiyyət adlandırırlar. İnsan hər vaxt xaricdəki əşyalara qarşı belə bir etibar edib, sahibliyə malik olsa, "malikiyyətə" sahib olur. Beləliklə, demək olar ki, malikiyyət, elə bir etibardır ki, (şəxsi və hüquqi cəhətdən) ixtiyarında olduğu şeydən istədiyi kimi istifadə edə bilər və başqalarının ondan istifadə etməsinə mane ola bilər. Bəziləri deyirlər: "Malikiyyət", nisbi bir etibar olaraq, "maliklə", "məmluk" arasında bağlılıqdır.

HÜQUQ, İMAM SƏCCADIN (ə) NƏZƏRİNDƏ

Bu müqəddimədə, buraya qədər hüquq bəhsini İslam alimlərinin nəzəri və onları bu hüquqları bölmələri cəhətindən bəhs etmişik. İndi də həzrət Əli ibn Hüseyn İmam Zeynul-abidinin (ə) fərdi, ictimai və əxlaqi cəhətlərdən hüquqlara işarə etdiyi və "Hüquq" kitabının izahı bəhsinə başlayırıq. Fərdi hüquqların əksəriyyətində fiqhi hüquqlara da işarə edəcəyik.

İNSAN VƏ MƏSULİYYƏT

Digər yaranmışlarda olmayan, yalnız insana məxsus olan xüsüsiyyətlərdən biri, həyatındakı ağır məsuliyyətlərdir. Bu da onun əql, dərk, şüur və ictimai cəhətdən yüksək səviyyədə olmasından irəli gəlir. Bu məsuliyyət, mərifətlər, kökləri etiqadlar, bəhəri böhran və hadisələrdən ibarət olan bir ağaca bənzəyir. Nə qədər bol və mərifətli olsa, hər bəhəri meyvə verər və zərər görməz. Çünki, zərər, naqisliyin nəticəsidir.

O gələcək...

Məsuliyyətlərin kökləri

Allah-taala, nemətləri səbəbsiz verməz və səbəbsiz də almaz. Verdiklərini üstünlük meyarı qərar verməz, insanın naçar halında ona verdiklərinin hesab-kitabı vardır. Üstünlüklər, yenidən nemətlər qaytarılanda bilinir. Məsuliyyətlər də bu cəhətdən qaynaqlanır. Allah-taala buyurur:

"**Həmin gün nemətlər barəsində mütləq sorğu-sual olunacaqsınız!**"[1]

Beləliklə, sərmayələrdən istifadə etmək lazımdır, yoxsa, israfçılıq olar. Verilənlərin alınması da vardır. Sərmayələr fayda verməlidir. Ondan olan şey, Ona qaytarılmalıdır.

Məsuliyyətlərin tanınması yolları

Məsuliyyəti tanımaqdan ötrü bir neçə əsası bilmək lazımdır. Birincisi əsas, həqarət və həva-həvəslərdən azad olmaq. İkincisi, məsuliyyəti icra etməkdən ötrü qüdrət əldə etmək. Üçüncü, Onu tanımaq. Quran buyurur:

"**Doğru yol tutan xeyrinə doğru yol tutmuş, haqq yoldan azan ancaq özünə zərər edər. Heç kəs başqasının yükünü çəkməz. Biz peyğəmbərlər göndərməmiş heç bir ümmətə əzab vermərik.**"[2]

İnsanın məsuliyyəti, özündən başlayır. İki növ məsuliyyət vardır. Fərdi məsuliyyət və ictimai məsuliyyət. Fərdi məsuliyyət barəsində Quran buyurur:

"**Hər kəs öz əməlinin girovundadır.**"[3]

Yenə də buyurur:

"**Mömin olub yaxşı işlər görən hər bir kişi və qadına xoş və pakpakizə həyat bəxş edəcəyik. Etdikləri yaxşı əməllərin əvəzində onlara daha yaxşı mükafat verəcəyik**!"[4]

İctimai məsuliyyətlər barəsində Quran buyurur:

"**İnsanların öz əməlləri üzündən suda və quruda fəsad əmələ gələr ki, bununla onlara etdikləri bəzi işlərin cəzasını daddırsın və bəlkə, qayıtsınlar.**"[5]

---

[1] Təkasur surəsi, ayə 8.
[2] İsra surəsi, ayə 15.
[3] Muddəssir surəsi, ayə 38.
[4] Nəhl surəsi, ayə 97.
[5] Rum surəsi, ayə 41.

O gələcək...

Zövq və istedad əsasında məsuliyyət

Hər kəs öz zövq, istedad və imkanlarına əsasən, məsuliyyət qəbul edir. Əkinçi, heyvandarlıq, dəmirçi və dərzilik. Necə ki, hikmət sahibləri deyiblər. "İnsan təbiətinə görə ictimaidir. Bu söz də həmin mənadadır." İnsanın ictimai həyatda olan meyllərini, həmin yol aydınlaşdırır. İnsanın həyatı qarşılıqlı olduqda, məsuliyyətlər və vəzifələrin cəmiyyət daxilində bir-birinə qarşı məsuliyyətləri qarşımıza çıxır. Digər tərəfdən özünü istəmək və təkəbbür hissi insanda tüğyan edir. Məşhur məsələ görə: "Hər kəs qalib gəlsə, haqqdır." Başqalarının haqqına təcavüz edir. İctimai hərc-mərclik hər tərəfdən qaynaqlanıb hər yeri tutur. Bu səbəbdən də, cəmiyyətdə qanunun zəruriliyi məsələsi qarşıya çıxır. Bununla da, bir sıra nizam və qayda-qanunlar, hasar şəklində cəmiyyətin bütün şəxslərini əhatə edib onların mənafelərini qorumalıdır.

Buraya qədər, insanda məsuliyyətlərin olması, onun hüquqları olmaqla bərabər, başqalarının da hüququna riayət etmələri, nəhayət, ona verəcəklərdən sual olunacağı barəsində bəhs etmişik. Necə ki, Quran buyurur:

"**Həqiqətən, gözdən, qulaqdan, qəlbdən və bütün verilmişlərdən sual olunacaq**!"[1]

Bu mətləbi aydınlaşdırmaqla insan, özünün məsuliyyətlərini tanımalı və bununla da, hansı hüquqi məsuliyyətləri olduğunu bilməlidir.

HÜQUQ KİTABI VƏ İMAM SƏCCADIN (Ə) HƏYATI

Hüquq barəsində müxtəlif cəza və qəza cəhətlərindən müxtəlif məktəblərdə hüquqi bəhslər olunmuşdur. Məşhur şəxslər insanlara aid fərdi və ictimai hüquqlar barəsində söz demiş və kitablar yazmışlar. Amma demək olar ki, fərdi, ictimai və əxlaqi hüquqlar barəsində İmam Zeynul-abidinin (ə) buyurduğu kimi ümumi şəkildə bəhs olunmamışdır.

İmam Zeynul-abidin (ə) dünya şiələrinin dördüncü rəhbəridir. O həzrət, 37 və ya 38-ci hicri-qəməri ilində, Mədinədə dünyaya gəlmiş, 94 və ya 95-ci hicri-qəməri ilində isə şəhadət feyzinə nail olmuşdur. "Bəqi" qəbristanlığında, alicənab əmisinin qəbrinin kənarında dəfn olunmuşdur. Şeyx Kuleyni, o həzrətin təvəllüdünü 38-ci ildə, şəhadətini isə

[1] İsra surəsi, ayə 36.

O gələcək...

hicrətin 95-ci ildə olduğunu qeyd etmişdir. O həzrətin mübarək ömrünü, 57 il qeyd etmişdir.[1]

Məşhur tarixçi Yəqubi, onun şəhadətinin 99-cu ildə, yaşını isə 58 il qeyd etmişdir.[2]

Şeyx Müfid, o həzrətin təvəllüdünü 38, şəhadətini 95, ömrünü isə 57 il yazmışdır.

Həzrətin həyatı barəsində xüsüsi bir kitaba ehtiyac vardır. Tarixçilər və həyat yolunu yazanlar, o həzrətin həyatının müxtəlif dövrləri barəsində kitablar yazmışlar. O, həzrət, İmamət, vilayət, ismət, sədaqət və paklıq məqamına malikdir. İmam Səccad (ə) elə bir uca məqama malik idi ki, ibadət məqamında onu, "Zeynul-abidin" yəni, ibadət edənlərin zinəti, səcdə etməkdə "Seyyidüs-sacidin", səcdə edənlərin ağası, ləqəbini özünə ixtisas vermişdir. Hissiyyat və ağlamaqda "Tacul-bukain" (ağlayanların tacı) ləqəbini almış, elm və Allahla münacat etməkdə ən böyük dərs ünvanı, dua və Allahla necə münacat etmək sahəsində, "Səhifeyi-Səccadiyyə" kitabını həmçinin, Allahdan necə hacət istəmək və nə istəmək yolunu insanlara müxtəlif kitablarında yadigar qoymuşdur.

Səbr, dözüm və əziyyətlər sahəsində, canlı Kərbəla hadisələrinin hər anını öz gözləri ilə müşahidə etmiş və dözmüşdür. Zülm və sitəm əleyhinə olan mübarizədə, Şamın (Dəməşq) məscidində özünü tanıtdırmaq haqqındakı odlu və alovlu çıxışı, öz əzəməti ilə tanınmışdır. Bəniüməyyənin amansız zülmlərinə qarşı həmişə mübarizə aparmışdır.

Məqam, mənəviyyat və qəlblərə nüfuz cəhətdən elə bir kəs idi ki, Məkkədə təvaf edən cəmiyyətin toplusuna daxil olduğu zaman ixtiyarsız olaraq hamı ona yol açır, o da "Qara daşa" toxunmağa başlayır. Cəmiyyətin çoxluğundan təvaf edə bilməyən, Hişam ibn Əbdül Məlik (zəmanənin xəlifəsi) cəmiyyətin çoxluğundan və ona yol verilməməsi səbəbindən bir kənarda oturub bu mənzərəyə tamaşa edir və İmam Zeynul-abidinin (ə) əhalinin qəlbində olan ehtiramına və nüfuzuna məəttəl qalmışdı. O kimdir ki, belə bir əzəməti vardeyə soruşur. Fərəzdəq adlı məşhur şair, onun cavabında həzrəti vəsv edərək, Hişama buyurur:

"**Tanımırsan, yoxsa özünü tanımamazlığa vurursan? O elə bir şəxsdir ki, Bətha ölkəsi onun möhkəm qədəmlərinin izini tanıyır.**

Allahın evi, Beytul- həram və başqa yerlər onu yaxşı tanıyır..."

Bəli! Fərəzdəq bu uzun şerində onun əzəmət və məqamını şərh edir (bu qısa bəhsdə bütün mətləbə işarə etməyə fürsət yoxdur). Hişam ibn

[1] Üsuli-kafi, cild 2, səh 367.

[2] Tarixi Yəqubi, cild 2, səh 303.

O gələcək...

Əbdul Məlik, qəzəb və paxıllıq üzündən Fərəzdəqin hüququnu kəsir. Bəli! O həzrət, vəhy olan evdə dünyaya gəlmişdir ki, Allah onun məqam və mərtəbəsini ucaltmağa icazə vermişdir. O, İmamın nəzarəti altında tərbiyə almış vəhy övladıdır. İnsanın bütün ruhi cəhətlərinə agah olan və insan tanıyandır.

Əlli (50) haqqa hüquqa aid olan, fərdi, ictimai, mədəni və siyasi "Hüquq" kitabı yazmışdır. Bu kitab, çoxlu hədis və rəvayət kitablarında tərif olunmuş və haqqında danışılmışdır. Zaman keçdikcə alimlər tərəfindən bu kitaba şərhlər yazılmış və izahlar edilmişdir. Biz onlardan bəzilərinə işarə edəcəyik.

"HÜQUQ" KİTABININ BƏZİ TƏRCÜMƏ VƏ ŞƏRHLƏRİ

Bu "Kitab"a tarix boyu, İslam elmlərinin alimləri tərəfindən diqqət olunduğuna görə, onun ətrafında çoxlu şərh və izahlar yazmışlar. Məşhur və alicənab alim, institut müəllimi doktor Seyid Cəfər Şəhidi özünün yazdığı, "Əli ibn Hüseynin (ə) həyatı" adlı kitabında bu kitabın bəzi şərh və tərcümələrinin adını gətirmişdir. Biz onların bəzilərinin adını çəkirik:

1. "Hüquq" kitabı toplayan, mərhum Seyid Sibtul Hüseyn Lokonohevi.
2. "Hüquq" kitabı - Əbdül Hadi Muxtar.
3. "Hüquq" kitabı - hüquqşünas Tofiqil Fəkiki.
4. "Səccadın sözləri" - doktor Sahib Zamani.
5. Hüquq" kitabının kamil tərcüməsi - Hacı Şeyx Məhəmməd Baqir Kəmreyi.
6. "Hüquq" kitabı - Əli Gülzadə Ğəfuri.
7. "Hüquq" kitabının tərcüməsi - Ayətullah Cənnəti.
8. "Hüquq" kitabı - Hicri Qəməri.
9. "Hüquq" kitabının tərcüməsi Seyid Əhməd Fərdi Zəncani.
10. Hüquq" kitabı - Cənab Sipehri. Bu kitabda, bir neçə başqa tərcümə və şərh kitablarınında adı çəkilmişdir. Onlardan:

1. Kiçik həcmli cüzvədə dördüncü İmamın (ə) sadə və xülasə tərcüməsi.
2. Bu kitabın tərcümə və şərhi, İslamda müdiriyyətçilikdə insani münasibətlər - Seyid Məhmud Siyahpuş.
3. "Seçilmiş sözlər" Seyid İbrahim Miyanəçi.
4. "Siratul-möminin" - Qivam İslami Casibi.
5. "İmam Zeynul-abidinin (ə) "Hüquq" kitabının şərhi Seyid Əli Qalapçı.

O gələcək...

HÜQUQ KİTABININ SƏNƏDİNİN ARAŞDIRILMASI

Bildiyiniz kimi bu kitab, tarix boyu İslam alimlərinin diqqət nəzərində olmuşdur. Çoxlu məşhur alimlər, öz mötəbər kitablarında bu risaləyə istinad etmişdir. Ən qədim mənbələrdə bu kitabdan nəql olunmuşdur. Onlardan:

1."Töhəful-üqul"-Mərhum ibn Şöbə Hərrani (vəfatı 381-ci hicri ili).
2."Mən la yəhzuruhul fəqih"- Şeyx Səduq (vəfatı 382-cı hicri ili.)
3."Məkarimul əxlaq" Şeyx Təbərsi (vəfatı 548-ci hicri ili.)
4."Əl-Xisal" , "Əmali" - Şeyx Səduq.
5."Biharul-ənvar" 74-cü cild - Əllamə Məclisi.
6."Şərh Nəhcül-bəlağə" 14-cü cild - Ayətullah Xoyi.
7."Əyanuş-şiə" 1-ci cild - Seyid Möhsin Əmin.
8."Müstədrəkül-Vəsail" 2-ci cild, -Mühəddis Nuri.
9."Miratul-kamal" 3-cü cild, Əllamə Mamaqani.

"Töhəful üqul" kitabının müəllifi, bu kitabı sənədsiz qeyd etmişdir. Amma, mərhum Şeyx Səduq, həm "Mən la yəhzuruhul fəqih" həm də, "Xisal" kitabında bu kitabın sənədini qeyd etmişdir. Əlbəttə, hər hansı bir kitabın sənədlərini araşdırmaq həm çətin və eyni zamanda faydalı işlərdən biridir. Çox çətin zəhmətlərlə, hədis və tarix yazanları tanımaqla, pak məsum İmamların (ə) nurlu çöhrələri ilə tanış olur, beləcə də yalançı ravilərin iç üzlərindən pərdələr götürülür. Bu bölümdə, cənab Sipəhrinin bu kitab barəsindəki sənəd araşdırmalarını gətiririk. O, bu kitabın sənədini, Mən la yəhzuruhul fəqih" kitabı qərar vermişdir. Çünki, mərhum Şeyx Səduqun özünün bu kitab barəsində söylədiklərinə tam etiqadı vardır. O, bu kitabın sənədlərinin araşdırılmasında belə yazır: "Mərhum Şeyx Səduq əvvəlcə bu kitabı sənədsiz qeyd edərək yazır:

"Fəzlin oğlu İsmail, Dinarın oğlu Sabitdən, o da ibadət edənlərin sərvəri həzrət Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talibdən (ə) nəql edir."

Sonra kitabın sonunda alimlər özünü tanıtdırdığı kimi buyurur: "İsmail Fəzl oğlundan nəql olunan bu kitabda gələnlər İmam Zeynulabidinin (ə) hüquq barəsində söylədikləridir. Mən, şübhəsiz ki, onu Əli, Əhməd oğlu Musa oğlundan nəql etmişəm. O dedi: Bizə Məhəmməd Cəfər oğlu Kufi Əsədidən nəql olunmuşdur. O dedi: Bizə Məhəmməd İsmail oğlu Bərməki nəql etmişdir. O dedi: Bizə Əbdullah oğlu Əhməd nəql etmişdir. O dedi: Bizə, İsmail Fəzl oğlu nəql etmişdir. O da Sabit

O gələcək...

Somali oğlundan, o da ibadət edənlərin rəhbəri Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talibdən (ə) nəql etmisdir.

Yuxarıdakı sənədlərin vəziyyəti ilə tanış olmaqdan ötrü "Usul-ərbə Ricaliyyət" adlı məşhur, ən qədim şiə mənbələrinə və başqa kitablara müraciət etdim

Əli ibn Əhməd ibn Musa "Rical" kitablarında bu şəxsin adı ilə zikr olunmamışdır. Ona görə də, bu sənədə məchul sənəd adı vermişlər.[1]

Məhəmməd, Cəfər ibn Əsədi Kufi adları çəkilən kitablarda inanılmış şəxs kimi tanıtdırılmışdır.[2]

Məhəmməd İsmail ibn Bərməki, hədis söyləyən inanılmış şəxslərdəndir. Tərifləmiş ravilərdəndir. İbn Əl-Ğəzairi, onu zəif qələmə versə də, ravi araşdıranlar onun inanılmış şəxs olduğunu üstün tutmuşlar.[3]

Abdullah ibn Əhməd, bir neçə nəfər arasında müştərək adla məhşurdur. Cənab Əkbər Ğəffari, ehtimal verir ki, bu şəxsdən məqsəd, Abdullah, Əhməd ibn Razidir.[4]

Abdullah Əhməd ibn Razi də inanılmış və etimad edilmişlərdən deyildir. İndi Abdullah, Əhməd oğlu bu sənəddə "Razi" olsun və ya başqalarının adı ilə müştərək olsun, əməli cəhətdən heç bir fərqi yoxdur. Çünki, ravilərin inanılması, nə qədər ki, bütün hədislərdə eyni səviyyədə deyil, belə ravilərə etimad etmək olmaz.

İsmail Fəzl oğlu - inanılmış və etimad olunmuş şəxsdir.[5]

Silsilə sənədlərin sonunda gələn şəxsin adı, Əbu Həmzə Somali yaxud, Sabit ibn Əbi Səfiyyədir. O, təmiz və inanılmış şəxs olub. Demək olar ki, onun dəyanət və əxlaqının bərəkətindəndir ki, cansıxıcı və qara günlərdə üç oğul böyüdüb, Əli ibn Zeydin bayrağı altında qiyama göndərir, onlar da bu yolda şəhid olurlar.

Nəcaşi onun barəsində yazır;

"Onun Nuh, Mənsur və Həmzə adlı üç oğlu, Zeydin yanında şəhid olurlar. O, Əmirəl-möminin, İmam Hüseyn (ə), İmam Səccad (ə) və İmam Baqirin (ə) həyatını dərk etmiş, onlardan rəvayətlər və hədislər nəql etməkdə onların ən yaxşı, inanılmış və etimad edilmiş şəxslərindən sayılır. İmam Hüseyndən (ə) onun barəsində belə buyurduğunu nəql

[1] Möcəmül-Rical hədis, cild 10, səh 104.
[2] Rical Nəcaşi, səh-373; Möcəmül-Rical, cild 5, səh-177; Möcəmül-Rical, cild 15, səh-167.
[3] Rical Nəcaşi, səh-348; Möcəmül-Rical, cild 4, səh-512.
[4] Mən la yəhzuruhul fəqih, cild 4, səh-512; Rical Nəcaşi, səh-348. Fehresti Şeyx Tusi.
[5] Möcəmül-Rical, cild 1, səh 221; Rical Tusi, səh 104.

O gələcək...

edirlər"Əbu Həmzə öz dövranında, Somalinin öz zamanında olduğu kimidir."[1]

Sənədlərin araşdırılmasından nəticə

Cənab Sipehri hədis sənədlərinin araşdırılmasında belə yazır: "Bir neçə dəlilə görə bu hədisin məsum İmamdan (ə) olmasına inanmaq olar. "Onlar aşağıdakılardan ibarətdir;

1. Mərhum alim Qohpayi, "Məcməur-rical" kitabının 7-ci cildinin 219-cu səhifəsində yazır; Alimlər arasında Şeyx Səduqun (hədis) icazə verdiyi şəxslər vardır ki, "Rical" kitabında onlar barəsində tərif və ya pis cəhətlər qeyd olunmamışlar. Amma, mərhum Şeyx Səduqun belə şəxslərin adını çəkdikdən sonra "Rəziəllah" (Allah ondan razı olsun) və "Rəhmətullah" (Allahın rəhməti ona olsun) kimi kəlmələrini zikr etməsi buna dəlalət edir ki, mərhum Səduqun özünün bu şəxslərə möhkəm etiqadı və inamı olub. Əks halda, Şeyx Səduq, onlara Allahdan rəhmət diləməz, hətta onların batil və ya fasiq əqidəli olmalarını aşkar şəkildə qeyd edərdi.

2. Şeyx Səduqun "Mən la yəhzuruhul fəqih" kitabının müqəddiməsində oxuyuruq:

"Bu kitabı yazmaqda hədəfim digər ravilər kimi qarşıya çıxan bütün rəvayətləri cəm edib yazmaq deyil. Məqsədim onun əsasında fətva verib, doğruluğuna hökm etdiyim rəvayətlərdən bu kitabda istifadə etmək olub. İnanıram ki, bu rəvayətlər mənimlə Allah arasında höccətdir."

3. Əvvəlcə işarə etdiyimiz kimi əksər məşhur alimlər bu rəvayətləri bəzilərinin mötəbər kitablarında qeyd ediblər və tarixən bütün yazıçıların diqqət nəzərində olub. Bütün məşhur İslam alimlərinin bu "Hüquq risaləsini" qəbul edib, etinad etməklərinin səbəblərindən biri də, mərhum Şeyx Səduqun onu öz kitabında nəql etməsidir.

4. Hədis ravilərini tanımaq sahəsində mütəxəssis mərhum Ayətullahul-üzma Bürucerdi, mərhum Şeyx Səduqun nəql etdiyi rəvayətlər barəsində buyurur:

Allahın adı ilə

"Həzrət İmam Zeynul-abidindən (ə) nəql olunan "Hüquq risaləsi" kitabı Bəsrə şəhərinin inanılmış şəxslərindən və hədis söyləyənlərindən olan İsmail ibn Fəzl ibn Nofəl ibn Haris ibn Əbdülmütəllib Haşimi Nofəlidən

[1] Möcəmül-Rical, cild 3, səh 383.

O gələcək...

nəql olunmuşdur. Sabit ibn Dinar həmin inanılmış və etimad olunmuş Əbu Həmzə Somalidir. Şeyx Səduq (r) Cəfər ibn Məhəmməd Amir Şeyx Kuleynidən, o da öz əmisi Əbdullah ibn Amirdən, o da Məhəmməd ibn Əbi Ümeyrdən, o da Əbdürrəhman ibn Məhəmməddən, o da Fəzl ibn İsmail ibn Fəzldən rəvayət etmişdir ki, hamısının sənədi inanılmışdır."[1]

Cənab Sipehri öz nəticə almağının sonunda yazır:

Zikr olunan dəlil və nişanələrdən əlavə, İslam alimlərinin hədisləri qəbul etmək qanunu, əxlaq, maarif və müstəhəb işləri nəzərə almaqla, o cümlədən, sənədlər də, nəzərdən keçirilməlidir. Şəri məsələlərin dəlillərində diqqətli olmaq qanunu məşhurdur. Bu qanuna əsasən, hədislərin ali şəkildə məzmunu olmalı, əqidə üsulları, məzhəbin ümumi qanunlarının ziddinə olmamalıdır.

"Hüquq risaləsi" bütün bu yaxşı xüsusiyyətləri özündə cəm etmişdir.

"Hüquq risaləsi" kitabının şərhində müəllif "Töhəful-üqul" kitabında nəql olunan hədislərin mətnini iki səbəbə görə seçdiyini qeyd edir.

Birinci: Sənədə işarə etməsə də, bu hədisi nəql edən ən qədim kitab "Töhəful-üquldur". Çünki, kitabın nəql etdiyi bütün hədislərdə sənədləri qeyd olunmamışdır.

İkincisi: Bu kitabdan nəql olunan "Hüquq risaləsi" hədisi, digər kitablarla müqayisədə ən geniş və ətraflı şəkildə gətirilmişdir.

Bu kitabda bir çox hüquqlarda, "Məkarimul-əxlaq" kitabında işlənən ifadələrdən istifadə edilmişdir. "Həccin haqqı" bəhsi, "Töhəful-üqul" kitabında gəlmədiyinə görə "Məkarimul-əxlaq" kitabından götürmüşük. Bu kitabda İmam Səccadın (ə) rəvayətlər əsasında söylədiyi əlli ədəd "haqqı" qısa da olsa, izah etməyə çalışmışıq. Bəzi hüquqların izahında lüğət cəhətdən daha çox araşdırmaya ehtiyac olduğundan, onları araşdırmışıq. Bu "Hüquq risaləsinin" şərhinin xüsusiyyətlərindən biri də, onun mətninin əsasən əxlaqi cəhətləri olmasıdır. Biz möhtərəm oxucuların nəzərinə müqəddəs İslam dinində hüquq məsələlərinin müxtəlif cəhətlərinə diqqət edilməsini çatdırmaqdan ötrü bacardıqca bu kitabda hüquqların fiqhi cəhətini izah etmişik.

İmam Səccaddan (ə) arzum budur ki, özünün lütf və şəfaət nəzəri ilə bu kiçik bəndənin üzünə baxsın və Qiyamətin günündə xətalarımın bağışlanmasını Pərvərdigari-aləmdən istəsin.

Allahdan arzulayıram ki, bu bəndəni, din və Əhli-beyt (ə) məktəbinin xidmətçilərindən qərar versin.

[1] Ayətullah Bürucerdinin öz dəst xətti ilə yazdığı sözlər "Rah və rəsm zindəgi İmam Səccad (ə), səh 12.

O gələcək...

“HÜQUQ RİSALƏSİNİN” MÜQƏDDİMƏSİ

“İMAM SƏCCADIN (Ə) HÜQUQ RİSALƏSİ ADI İLƏ TANINMIŞ KİTABI”

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ

اعْلَمْ رَحِمَكَ اللهُ أَنَّ لِلّٰهِ عَلَيْكَ حُقُوقًا مُحِيطَةً بِكَ فِي كُلِّ حَرَكَةٍ تَحَرَّكْتَهَا، أَوْ سَكَنَةٍ سَكَنْتَهَا، أَوْ مَنْزِلَةٍ نَزَلْتَهَا، أَوْ جَارِحَةٍ قَلَّبْتَهَا وَآلَةٍ تَصَرَّفْتَ بِهَا، بَعْضُهَا أَكْبَرُ مِنْ بَعْضٍ. وَأَكْبَرُ حُقُوقِ اللهِ عَلَيْكَ مَا أَوْجَبَهُ لِنَفْسِهِ تَبَارَكَ وَتَعَالَى مِنْ حَقِّهِ الَّذِي هُوَ أَصْلُ الْحُقُوقِ وَمِنْهُ تَفَرَّعَ. ثُمَّ أَوْجَبَهُ عَلَيْكَ لِنَفْسِكَ مِنْ قَرْنِكَ إِلَى قَدَمِكَ عَلَى اخْتِلَافِ جَوَارِحِكَ.

فَجَعَلَ لِبَصَرِكَ عَلَيْكَ حَقًّا وَلِسَمْعِكَ عَلَيْكَ حَقًّا وَلِلِسَانِكَ عَلَيْكَ حَقًّا وَلِيَدِكَ عَلَيْكَ حَقًّا وَلِرِجْلِكَ عَلَيْكَ حَقًّا وَلِبَطْنِكَ عَلَيْكَ حَقًّا وَلِفَرْجِكَ عَلَيْكَ حَقًّا، فَهَذِهِ الْجَوَارِحُ السَّبْعُ الَّتِي بِهَا تَكُونُ الْأَفْعَالُ. ثُمَّ جَعَلَ عَزَّ وَجَلَّ لِأَفْعَالِكَ عَلَيْكَ حُقُوقًا فَجَعَلَ لِصَلَاتِكَ عَلَيْكَ حَقًّا وَلِصَوْمِكَ عَلَيْكَ حَقًّا وَلِصَدَقَتِكَ عَلَيْكَ حَقًّا وَلِهَدْيِكَ عَلَيْكَ حَقًّا وَلِأَفْعَالِكَ عَلَيْكَ حَقًّا. ثُمَّ تَخْرُجُ الْحُقُوقُ مِنْكَ إِلَى غَيْرِكَ مِنْ ذَوِي الْحُقُوقِ الْوَاجِبَةِ عَلَيْكَ.

وَأَوْجَبُهَا عَلَيْكَ حُقُوقُ أَئِمَّتِكَ ثُمَّ حُقُوقُ رَعِيَّتِكَ ثُمَّ حُقُوقُ رَحِمِكَ. فَهَذِهِ حُقُوقٌ يَتَشَعَّبُ مِنْهَا حُقُوقٌ: فَحُقُوقُ أَئِمَّتِكَ ثَلَاثَةٌ أَوْجَبُهَا عَلَيْكَ حَقُّ سَائِسِكَ بِالسُّلْطَانِ ثُمَّ سَائِسِكَ بِالْعِلْمِ، ثُمَّ حَقُّ سَائِسِكَ بِالْمُلْكِ، وَكُلُّ سَائِسٍ إِمَامٌ. وَحُقُوقُ رَعِيَّتِكَ ثَلَاثَةٌ أَوْجَبُهَا عَلَيْكَ حَقُّ رَعِيَّتِكَ بِالسُّلْطَانِ، ثُمَّ حَقُّ رَعِيَّتِكَ بِالْعِلْمِ، فَإِنَّ الْجَاهِلَ رَعِيَّةُ الْعَالِمِ، وَحَقُّ رَعِيَّتِكَ بِالْمُلْكِ مِنَ الْأَزْوَاجِ وَمَا مَلَكَتْ مِنَ الْأَيْمَانِ.

وَحُقُوقُ رَحِمِكَ كَثِيرَةٌ مُتَّصِلَةٌ بِقَدْرِ اتِّصَالِ الرَّحِمِ فِي الْقَرَابَةِ فَأَوْجَبُهَا عَلَيْكَ حَقُّ أُمِّكَ ثُمَّ حَقُّ أَبِيكَ ثُمَّ حَقُّ وَلَدِكَ ثُمَّ حَقُّ أَخِيكَ ثُمَّ الْأَقْرَبُ فَالْأَقْرَبُ وَالْأَوَّلُ فَالْأَوَّلُ. ثُمَّ حَقُّ مَوْلَاكَ الْمُنْعِمِ عَلَيْكَ، ثُمَّ حَقُّ مَوْلَاكَ الْجَارِيَةُ نِعْمَتُكَ عَلَيْهِ، ثُمَّ حَقُّ ذِي الْمَعْرُوفِ لَدَيْكَ، ثُمَّ حَقُّ مُؤَذِّنِكَ بِالصَّلَاةِ، ثُمَّ حَقُّ إِمَامِكَ فِي صَلَاتِكَ، ثُمَّ حَقُّ جَلِيسِكَ، ثُمَّ حَقُّ جَارِكَ، ثُمَّ حَقُّ صَاحِبِكَ، ثُمَّ حَقُّ شَرِيكِكَ، ثُمَّ حَقُّ مَالِكَ،

ثُمَّ حَقُّ غَرِيمِكَ الَّذِي تُطَالِبُهُ،

ثُمَّ حَقُّ غَرِيمِكَ الَّذِي يُطَالِبُكَ، ثُمَّ حَقُّ خَلِيطِكَ، ثُمَّ حَقُّ خَصْمِكَ الْمُدَّعِي عَلَيْكَ، ثُمَّ حَقُّ خَصْمِكَ الَّذِي تَدَّعِي عَلَيْهِ، ثُمَّ حَقُّ مُسْتَشِيرِكَ، ثُمَّ حَقُّ الْمُشِيرِ عَلَيْكَ، ثُمَّ حَقُّ مُسْتَنْصِحِكَ، ثُمَّ حَقُّ النَّاصِحِ لَكَ، ثُمَّ حَقُّ مَنْ هُوَ أَكْبَرُ مِنْكَ، ثُمَّ حَقُّ مَنْ هُوَ أَصْغَرُ مِنْكَ، ثُمَّ حَقُّ سَائِلِكَ، ثُمَّ حَقُّ مَنْ سَأَلْتَهُ، ثُمَّ حَقُّ مَنْ جَرَى لَكَ عَلَى يَدَيْهِ مَسَاءَةٌ بِقَوْلٍ أَوْ فِعْلٍ أَوْ مَسَرَّةٌ بِذَلِكَ بِقَوْلٍ أَوْ فِعْلٍ عَنْ تَعَمُّدٍ مِنْهُ أَوْ غَيْرِ تَعَمُّدٍ مِنْهُ، ثُمَّ حَقُّ أَهْلِ مِلَّتِكَ عَامَّةً ثُمَّ حَقُّ أَهْلِ الذِّمَّةِ، ثُمَّ الْحُقُوقُ الْجَارِيَةُ بِقَدْرِ عِلَلِ الأَحْوَالِ وَتَصَرُّفِ الأَسْبَابِ. فَطُوبَى لِمَنْ أَعَانَهُ اللهُ عَلَى قَضَاءِ مَا أَوْجَبَ عَلَيْهِ مِنْ حُقُوقِهِ وَوَفَّقَهُ وَسَدَّدَهُ.

HÜQUQ RİSALƏSİNİN MÜQƏDDİMƏSİNİN TƏRCÜMƏSİ

Bil ki, etdiyin hər bir hərəkətdə, sakitlik və ya aramlığında, əldə etdiyin məqamda, bədən üzvlərində, təsərrüfatında Allahın sənin boynunda haqqı vardır və bu hüquqlar səni əhatə etmişdir. Onların bəziləri digərinə üstündür.

Allahın sənin üzərindəki ən böyük haqqı, Öz haqqından, sənə Özünə görə vacib etdiyi haqdır. (Bu haqq, bütün haqların mənşəyi və köküdür.) O vaxt bütün bədən və əzaların müxtəlif fərqlərini nəzərə almaqla, səndən ötrü hüquq vacib etmişdir. Gözündən ötrü sənə haqq qərar vermişdir. Qulağından ötrü sənə haqq qərar vermişdir. Dilindən ötrü sənə haqq təyin etmişdir. Bütün əməllər bu yeddi əzalarla yerinə yetirilir. Sonra Allah-taala, əməllərindən ötrü sənə haqq təyin etmişdir. Namazının, orucunun və zəkatının sənə haqqı vardır. Qurbanlığının da sənə haqqı vardır. İşlərindən ötrü də hüquqlar vardır.

Sonra hüquqlar, can və cisim dairəsindən kənara çıxıb, sənin üzərində haqqı olanları əhatə edir. Beləliklə, bütün bu haqların hamısından ən vacibi, rəhbərlərin sənin üzərindəki haqqıdır. Sonra rəiyyətin haqqı, sonra qohum-əqrəbalarının haqqı. Bunlar bir neçə başqa hüquqlara ayrılan hüquqlardır ki, sənin rəhbərlərinin sənə olan haqqı üç haqdır: Onlardan, sənin boynunda olan ən vacib haqq, sənə siyasi cəhətdən rəhbərliyi və himayəsi olan kəsin haqqıdır ki, sənin işlərinin asayişi onun əlindədir. Sonra ən çox sənin boynunda olan haqq, sənə elm öyrətmək cəhətdən səni öhdəsinə alan kəsin haqqıdır. Sonra mülkiyyət cəhətdən ixtiyarında olduğun kəsin haqqıdır ki, hər bir tədbir və himayən onun əlindədir.

O gələcək...

Sənin ixtiyarında olanların da, üç növ hüququ vardır: Onların ən vacibi sənin öz ixtiyarında olan kəsin haqqıdır. Sonra o kəsin hüququdur ki, mülki cəhətdən ona maliksən - zövcələr, kənizlər, kölə və sair.

Qohum-əqrəbalarının da sənin boynundakı haqları çoxdur və hamı bir-birinə bağlıdır. Qohumların bir-birilərini ziyarət və yoxlamaqla əldə olunan mehribanlıq və rəhm yolu. Onların sənə ən vacibi olanı ananın haqqıdır. Sonra atanın haqqı. Sonra övladlarının haqqı. Sonra sənə ardıcıllıqla yaxın olan qohumların haqqı.

Sonra səni azad edənin və sənə nemət verən vəlinin haqqı. Sonra hal-hazırda, sənə neməti çatan mövlanın haqqı. Sonra öz azan səsi ilə səni namaza çağıran azançının haqqı. Sonra camaat namazında iqtida etdiyin şəxsin haqqı. Sonra onunla bir yerdə oturduğun şəxsin haqqı. Sonra qonşunun haqqı. Sonra səfərdə sənin bir yerdə olanın haqqı. Sonra sənin şərikin haqqı. Sonra malının haqqı. Sonra sənə borclu olanların haqqı. Sonra sənin borclu olduğun şəxsin haqqı.

Sonra dostunun haqqı. Sonra sənin düşmənçilik edən və sənin əleyhinə iddia edən düşmənin haqqı. Sonra öz məşvərəti ilə sənə kömək edənin haqqı, sonra səndən moizə və nəsihət istəyənin haqqı.

Sonra səndən böyük olanın haqqı, sonra səndən kiçik olanın haqqı, sonra səndən bir şey istəyənin haqqı, sonra sənin özünün ondan bir şey istədiyin şəxsin haqqı, sonra tərəfindən sənə istər danışıq, istərsə də əməli yolla olsun - pislik və zərər gələn şəxsin haqqı. Yaxud əməl və danışığı ilə sənin ziyanına şadlıq və ya xoşhallıq edənin haqqı, istər qəsdən olsun, istərsə də qəsd olmadan. Sonra sənin dində olan millətin haqqı. Sonra İslam dininin pənahında qalan kafir əhli zimməsinin haqqı. Sonra həyatda baş verən bir sıra dəyişikliklərdən vücuda gələn hüquqlar.

Beləliklə, xoş olsun o kəsin halına ki, Allah, ona vacib hüquqlarını icra etməkdə kömək etmişdir. Bu işdə ona fürsət vermişdir. Bu yolda onu möhkəm və sabitqədəm etmişdir.

Buraya qədər, İmam Zeynul-abidinin (ə) hüquq barəsində sonradan geniş şəkildə izah edəcəyi məsələlərin xülasə şəklində müqəddiməsidir. İlk haqq, Allahın haqqı ünvanı ilə bəyan olunmuşdur.

Allahdan, Onun Özünün razılığını əldə etməkdən ötrü kömək istəyirik.

O gələcək...

1. ALLAHIN HAQQI

فَأَمَّا حَقُّ اللهِ الأَكْبَرُ فَإِنَّكَ تَعْبُدُهُ لا تُشْرِكُ بِه شَيْئاً، فَإِذَا فَعَلْتَ ذَلِكَ بِإخلاص جَعَلَ لَكَ عَلى نَفْسِهِ أَنْ يَكفِيَكَ أَمْرَ الدُّنْيَا وَالآخِرَةِ وَيَحْفَظَ لَكَ مَا تُحِبُّ مِنْهَما.

«Sənin boynunda olan bütün hüquqların ən üstünü sayılan, Allahın haqqı budur ki, Ona ibadət edəsən və Ona heç bir şərik qərar verməyəsən. Hər vaxt Allahın bu haqqını yerinə yetirə bilsən və ixlasla zinətlənsən, Allah Özünə vacib etmişdir ki, dünya və axirətdə sənə kifayət etsin. Bu barədə istədiyini sənin üçün saxlasın!»

PEYĞƏMBƏRLƏRİN GÖNDƏRİLMƏSİNİN SON HƏDƏFİ ALLAHA PƏRƏSTİŞDİR

Peyğəmbərlərin təkidli proqramlarından biri də, insanı Allah müqabilində pərəstişə və hər cür şirkə qarşı mübarizəyə dəvət etsin. Quran bu barədə buyurur:

«Biz, hər ümmətə Allaha ibadət edin, tağutdan və təcavüzdən çəkinin deyə peyğəmbərlr göndərmişdik. Belə olan təqdirdə onların bir qismini Allah doğru yola yönəltmiş, bir qismi isə haqq yoldan azmış oldu. Yer üzündə gəzib dolanıb görün ki, peyğəmbərlərə qarşı yalan nisbət verənlərin axırı necə oldu!»[1]

Yuxarıdakı ayədə, Allaha doğru və Ona pərəstişə dəvət olunur. Allaha şərik qoşmağın müxtəlif cəhətləri ilə mübarizə etmək, bütün İlahi peyğəmbərlərin vəzifəsi kimi bəyan olunur. Onlar, bütün qüvvələri və qüdrətləri ilə bu yolda çalışaraq öz vəzifələrini ən yaxşı şəkildə icra ediblər. İnsanları bütpərəstlik, günəş və aypərəstlik, inəkpərəstlik və bəşərpərəstlikdən, Allahpərəstliyə tərəf çəkiblər.

Allaha pərəstiş fitridir

Allah müqabilində təvazökar olub ibadət etmək, bəşərin fitrətindəndir. Fitrətin mənalarından biri də meyldir. Bu meyl, bəşərin əsas vücudundan bir qismini təşkil edir və bütün insanlarda aşkar şəkildə özünü büruzə verir.

İslam Peyğəmbəri (s) bu barədə buyurub:

[1] Nəhl surəsi, ayə 36.

O gələcək...

«**Bu dünyaya gələn hər bir uşaq, dünyaya, Allaha pərəstiş fitrəti və meyli ilə qədəm qoyur. Əgər bu meylin əksi olaraq yəhudi, xaçpərəst və ya məcusi olursa, bu iş onun ata-anasının tərəfindəndir.**»[1]

Psixoloqlar, insanın zatən və kəsbsiz olan meyllərini xatırlatmış və ondan «ali meyllər» ünvanı ilə ad aparmışlar. Deyirlər: İnsanın həqiqət axtarma meyli olduğu kimi, elm, hikmət və fəlsəfə axtarışında olmaq meyli də həmin meyldən qaynaqlanır. Yəni, insanın həqiqəti və haqqı tanımağa zatən meyli var ki, bu meyl, insanda uşaqlıq vaxtlarından başlayıb ömrünün sonuna qədər davam edir. Uşağın hər şeylə maraqlanma hissi və ata-anasına müxtəlif suallar etməsi, həmin həqiqət axtarmaq hissindən qaynaqlanır.

O, əşyaların müxtəlif səbəblərə görə yaranması və yaradılışın sirrindən xəbərdar olmaq istəyir. İnsan, fəzilətlər və əxlaqi cəhətlərdən işlərə meyli olduğu kimi batində, zati cəhətdən yaxşılıq, ehsan və bir-birinə sədaqətdən ləzzət alır. Hər şəkildə olursa olsun, insanın gözəlliyə, gül-çiçək, çəmən, şəlalə və s. bəlkə də, bütün mənəvi, maddi və əxlaqi gözəlliklərə meyli vardır. Bu meyllərin heç birinin sübutunda dəlil və sübuta ehtiyac yoxdur. İnsanın mütləq kamala çatmağa, elm və hər şeyi yaradanın kim olmasına, bütün kamalların mənbəsinə və ona tərəf qayıdanların kim olmasına olan meyllərini də sübut etməkdən ötrü dəlilə ehtiyac yoxdur.

Qurani-kərim insanın zatən, Allahı axtarma hissinə malik olması barəsində buyurur:

«**Haqqtələb olduğun halda, diqqətini Allahın fitri olaraq insanlara verdiyinə tərəf et. Bu elə bir şeydir ki, Allah sizi o xasiyyətdə yaratmışdır. Bəs bu fitrət və hissiyyata həmişə nəzər et. Bu Allahın yaradılışıdır və onda heç bir dəyişiklik yoxdur!**»[2]

Bu ayədə, dini iki mənadan biri kimi qələmə vermək olar:

1. Dinin hökmlərinin və əsas qanunlarının insanın fitrət və hissiyyatı ilə müvafiq olması.

2. Allaha tərəf meyl etmək, Quranın «İslam» adlandırdığı, Allah qarşısında təslim və təvazökar olmaq halı və hər nəyin bu vəsfi özündə cəm etməsi ilə müsəlman adlandırılması.

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, dinin fitri olması bu mənadadır ki, hər kəsin zatında və xüsusiyyətində bir növ, Allaha tərəf meyl etmək və Onun əhkamları və əmrləri müqabilində tam şəkildə təslim olmaq meyli vardır.

---

[1] Mənşur Cavid, cild 2, səh 58.

[2] Rum surəsi, ayə 30.

O gələcək...

Əmirəl-möminin Əli (ə), Nəhcül-bəlağədə fitri din barəsində belə buyurur:

«Allah-taala, Öz elçilərini insanların arasına bir-birinin ardınca göndərdi ki, fitrət əhdinə vəfa etməyi onlardan tələb etsinlər.»[1]

Başqa bir yerdə Həzrət buyurur:

«Tövhid (la ilahə illəllah) və ixlas kəlməsi, insanın fitrətində var!»[2]

İNSANIN MÜSİBƏTLİ HALDA ALLAHA PƏNAH APARMASI, ONUN FİTRİ OLMASINA DƏLİLDİR

Fitri məsələnin dəlilə ehtiyacı olmasını qeyd etdiyimizə baxmayaraq, bəzən görürük ki, insan, vəzifə, məqama xatir öz məbudundan qafil olduğuna görə bütünlüklə unutqanlığa düçar olduğu halda, hər hansı bir hadisə, qəflətən onu yuxudan ayıldır və onun öz diqqətinin məbuduna cəlb olmasına səbəb olur. Bu halda insan, ehtiyac əlini Ona tərəf uzadır. Bununla da, başa düşülür ki, bu iş insanın zatındadır. Lakin, qəflət və məqam tozu, müvəqqəti olaraq onun üstünü örtmüş və bu pərdə nə vaxt aradan getsə, insan Allahını tanıyar. Məşhur hədislərdən birində oxuyuruq:

«Bir nəfər, İmam Sadiqin (ə) hüzuruna gəlir və Allahşünaslıq barəsində öz təəccübündən söz açaraq, ərz edir:

- Mən elm pəhləvanları ilə mübahisə etmişəm, lakin, heç biri Allahı mənə sübut edə bilməyiblər. Həzrət onu, fitrət yolu ilə təəccübə gətirərək soruşur:

- Ey Allahın bəndəsi! İndiyə kimi gəmidə olmusanmı? Dənizdə səfərin olubmu?

Cavab verir:

- Bəli!

Həzrət buyurur:

- Heç olubmu gəmi batmaq halında olsun və sən də axırda bir taxta parçasından tutub dalğalar arasında qalasan?

Cavab verir:

- Bəli!

Həzrət buyurur:

[1] Nəhcül-bəlağə, xütbə 1.

[2] Nəhcül-bəlağə, xütbə 110.

O gələcək...

- Quraqlıq gözünə dəyməyən vaxt və heç kəsin səni xilas edə bilməyəcəyini bildiyin halda, qəlbində səni bu haldan hansısa bir qüdrətin nicat verə biləcəyi barədə fikirləşmisənmi?

Cavab verir:

- Bəli!

Buyurur:

- O qüvvə, Allahdır! O şəxs, bununla da dinsizlikdən nicat tapır.[1]

İndi ki, Allaha tərəf meyl etməyin bəşərdə fitri olması sübut olundu və aydınlaşdı ki, bütün peyğəmbərlər insanların fitrətinin oyanmasından ötrü gəliblər, İmam Sadiqin (ə) ən böyük haqq hesab etdiyi «ibadət» barəsində bəhsə başlayırıq. O da Allaha ibadət etmək və şirkdən uzaq olmalıdır. Əvvəlcə, «ibadət» sözünün lüğətdə mənasını xülasə şəkildə araşdırıb daha sonra İslamda hansı əməllərin ibadət adlanmasından bəhs edəcəyik. Şirk nədir və hansı mərtəbələri vardır?

LÜĞƏTDƏ İBADƏT SÖZÜNÜN MƏNASI

Məşhur dilçi alim Rağib İsfahani, «ubudiyyət» və «əbd» sözünün mənası barəsində belə yazır:

«Ubudiyyət (bəndəlik), insanın, Allah müqabilində özünü kiçik hesab etməsi və zillətdə olmasını bilməsidir. Amma, «ibadət», daha geniş mənaya malikdir. Çünki, ibadət, insanın nəhayət dərəcədə özünü kiçik hesab etməsi deməkdir. Bu cür ibadətə, hədsiz dərəcədə fəzilətlərə, bütün nemətlərə və cəmal-cəlal sifətlərinə malik olan layiqdir ki, o da Allahdır və ibadət də yalnız ona məxsusdur.»

Bundan əlavə, o alim əlavə edərək ibadəti iki növə ayırır:

Birinci, ram olmaq ibadətidir ki, bununla insan özünü Allaha itaətkar hesab etsin və bütün vücudunu Onun məxluqu bilsin.

İkinci qisim isə nitq və söz sahiblərinin ixtiyarında olan ibadətdir.

Quran surələrində, Allaha ibadət etməyi tövsiyə edən göstərişlər belə ibadət növündəndir. Belə ibadət, ixtiyari şəkildə insanın iradə etdiyi halda yerinə yetirdiyi ibadətdir.

«İtaət»lə «ibadətin» arasında fərq var. İbadət yalnız, Allaha məxsusdur. Lakin «itaət», həm Allaha, həm də ondan başqasına da aid olur. Misal üçün, övladın valideynə, yaxud qadının həyat yoldaşına itaətini qeyd etmək olar.

[1] Əş-Şafi, cild 1, səh 40.

O gələcək...

QURANDA «ƏBD» SÖZÜNÜN MƏNASI

«Əbd» sözü, Quranda iki mənada gəlmişdir:

Birincisi, bəndə və məmluk mənasında. Necə ki, Allah-taala buyurur:

«Öldürülənlərdə sizin üçün qisas almaq hökmü qərara alındı. Azad şəxsi azad şəxsin, qulu qulun, qadını qadının əvəzində.»[1]

Başqa surədə buyurur:

«Allah məsəl çəkdi, heç bir şeyə gücü çatmayan və özündən heç bir ixtiyarı olmayan qulu və məmluku.»[2]

Başqa bir ayədə yenə buyurur:

«Göylərdə və yerdə olan bütün məxluqatlardan bir eləsi yoxdur ki, Rəhmanın hüzuruna bir qul kimi gəlməsin.»[3]

«Əqrəbül-məvarid» kitabında yazır:

«Əbd» (Allahın qulu), istər azad, istərsə də qul olsun, insan mənasındadır.

«Əbd» sözü, aşağıdakı ayələrdə, «abid», «Allaha ixlasla itaət edən», «ibadət və itaət» mənasında gəlmişdir:

«Ey Nuhla birlikdə gəmilərinə mindirdiyimiz insanların nəsli! Bilin ki, həqiqətən Nuh şükür edən bir bəndə idi.»[4]

«Bəndəsini bir gecədə, Məscidül-həramdan Məscidül-əqsaya aparan Allah, pak və müqəddəsdir!»[5]

«Və bəndəmiz Əyyubu da yad et!»[6]

Bu ayədə «əbd» sözü, layiqli bəndə, Allaha ən yaxşı ibadət edən mənasında işlənib. Nuh, Əyyub və İslam Peyğəmbəri (s) Allahın ən layiqli bəndələrindəndirlər.

Allah barəsində iki növ ibadət vardır:

Birinci, halal və haram barəsində Allahın əmrlərinə itaət etmək. Bu ibadət, itaət və ya əmrə tabe olma adlanır. Necə ki, Allah-taala Quranda buyurur:

«Mənə ibadət et və namazı Məni anmaq üçün qıl!»[7]

«Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım.»[8]

---

[1] Bəqərə surəsi, ayə 178.
[2] Nəhl surəsi, ayə 75.
[3] Məryəm surəsi, ayə 93.
[4] İsra surəsi, ayə 3.
[5] İsra surəsi, ayə 1.
[6] Sad surəsi, ayə 41.
[7] Taha surəsi, ayə 14.
[8] Zariyat surəsi, ayə 56.

O gələcək...

«İnsanlardan eləsi də vardır ki, Allaha şəkklə ibadət edərlər. Əgər ona bir xeyir toxunsa, qəlbi onunla sakitləşər. Yox, əgər ona bəla, müsibət üz versə, küfrə qayıdar. Beləsi dünya və Axirətdə ziyana uğrayar. O açıq-aşkar bir ziyandır.»[1]

Çox güman ki, axırıncı bu iki ayədə, «əbd» sözü, itaətkar olmaq və əmrə əməl etmək kimi izah edilir.

İbadət sözünün başqa bir mənası, qarşı tərəfi müqəddəs bilməklə onun müqabilində itaətkar halında qalmaqdır. Yəni, bəndənin, Allah-taalanın müqabilində son dərəcədə öz təvazökarlıq və itaətini izhar etməsidir. Eyni halda, Onu bütün nöqsanlardan pak və bütün kamal sifətlərinə malik olan kimi dərk etsin. Nəticə etibarı ilə, İslamda, «Allaha ibadət» mənasında bəşər, Allahdan qeyrisinin müqabilində bəndəlik və ibadət etməkdən çəkinməlidir. Xüsusilə, hakimlər, padşahlar, qəddar və zalimlər müqabilində «bəndəlik» etməkdən çəkinmək lazımdır. İslam buyurur: «Xeyir və ziyan Allahın əlindədir.» Dünyadakı qüdrətlərdən heç birisi, xeyir və zərər verməyə qadir deyillər. Allah Qurani-kərimdə buyurur:

«De ki: Allahı qoyub sizə nə bir zərər və nə də bir xeyir verən şeylərəmi ibadət edirsiniz?»[2]

«Sizin Allahdan başqa ibadət etdikləriniz sizə ruzi verməyə qadir deyillər. Ruzinizi Allahdan diləyin.»[3]

«Ey insanlar! Sizi və sizdən əvvəlkiləri yaratmış Pərvərdigarınıza ibadət edin. Yaradılış Onun əlindədir.»[4]

İSLAMDA İBADƏTİN HƏDDİ

İslamda hansı şeylərin ibadət olunması sualına cavab olaraq belə demək olar. İslam dinində ibadət, yalnız xüsusi bir əmələ deyilmir. Bəlkə də ibadət, qədim bir ağaca bənzəyir ki, çoxlu qol-budaqları və kökləri vardır. Bir çox halətlər və məsəllər ibadət sayılır ki, biz onlardan bəzilərinə işarə edirik:

[1] Həcc surəsi, ayə 11.
[2] Maidə surəsi, ayə 76.
[3] Ənkəbut surəsi, ayə 17.
[4] Bəqərə surəsi, ayə 21.

O gələcək...

1. Şükr etmək (təşəkkür) ibadətdir.

Quranın bir çox ayələrində şükr etmək ibadət sayılmışdır. Biz əvvəlcə şükr etməyi tərif edəcək, daha sonra isə şükrü ibadət anladan ayələrə işarə edəcəyik. Alimlər şükrün tərifində belə izah verirlər. Şükr elə bir əməl və ya işdir ki, nemət verənin nemətinə görə onun müqabilindəki ehtiram və əzəmətindən xəbər verir. Bu ehtiram həm dildə, həm əqidədə və həm də qəlbdə məhəbbət bəsləməklə ola bilər.

Şükr, nemətin öz yerində istifadə edilməsidir. Əgər insan hər bir neməti yerli yerində istifadə etsə və ondan bəhrələnsə, deməli o nemətin şükrünü yerinə yetirmişdir. Məsələn, göz nemətinin şükrü, İlahi nişanələri və möcüzələri görmək və onlardan ibrət götürməkdir. Quran buyurur:

«Ya Peyğəmbər! De ki: Bir görün göylərdə və yerdə [Allahın birliyini və qüdrətini sübut edən] nələr var.»[1]

Həzrət Əli (ə) «Nəhcül-bəlağə»də, «Müttəqin» xütbəsində buyurur:

«Müttəqi şəxslər, öz nəzərlərini Allahın haram buyurduğu şeylərdən çəkər, qulaqlarını faydalı bilik və elmlərə vəqf edərlər.»

Başqa bir yerdə Həzrət buyurur:

«Hər bir nemətin şükrü, Allahın haram buyurduğu şeylərdən çəkinməkdir.»[2]

Beləliklə, insan ona verilmiş nemətlərdən günah işlərdə istifadə etməməlidir.

Tərbiyə və rəhbərlikdə təşəkkürün təsiri

Bu gün alimlər, şükr və təşəkkür məsələsinə, tərbiyə və rəhbərlik nəzərindən belə bir tərif verirlər. Müdir, yaxşı iş sahiblərinə təşəkkür etməkdə ciddi və məsuliyyətli olmalıdır. Belə ki, əgər məsul şəxsin zəhmət və çalışmalarına təşəkkür olunmazsa, meyilsizliyə və şəxsin öz işində səhlənkarlığa yol verməsinə səbəb olacaqdır. İmam Əli (ə) bu barədə buyurur:

«Ey Malik! Yaxşı iş görənlə pis iş görən kəs sənin yanında bir səviyyədə olmamalıdır. Çünki bu, yaxşı əməl sahiblərini yaxşılıq etməkdə həvəsdən salar, pis əməlliləri isə pislik etməyə məcbur edər.»[3]

Qurani-məcid bu barədə buyurur:

---

[1] Yunus surəsi, ayə 101.
[2] Səfinətül-Bihar, cild 1, səh 71.
[3] Nəhcül-bəlağə, məktub 53.

O gələcək...

«Məgər biz müsəlmanları günahkarlar və cinayətkarlarla bir sırada qərar veririkmi? Siz bu barədə nə hökm edirsiniz?»[1]

Sual, inkari sualdır. Yəni, biz heç vaxt belə iş görmərik.

Təşəkkür, əxlaq alimlərinin nəzərində

Əxlaq alimləri şükrün üç qismdən ibarət olduğunu söyləyirlər:

Birinci, nemət və onu verəni tanımaq. **İkinci,** nəfsin xeyirxah şəxs müqabilində sevinclə birgə olan təvazökar halı. **Üçüncü,** nemət verənin məqsədinə uyğun istifadə etmək. Nemət tanımaq barəsində İmam Sadiq (ə) buyurur:

«Allah hər kəsə nemət əta etsə və o da bu neməti qəlbdən tanısa, beləliklə, onun şükrünü yerinə yetirmişdir.»[2]

Digər bir yerdə buyurur:

«Şükrün ən aşağı mərtəbəsi budur ki, insan, nemətin Allahdan olmasını bilsin.»[3]

İmam Əmirəl-möminin Əli (ə) mərifətlə yaltaqlığın fərqi barəsində buyurur:

«Layiq olduğundan artıq tərifləmək yaltaqlıqdır. Layiq olduğundan az tərifləmək isə acizlik və ya paxıllıqdır.»[4]

Qeyd etdiyimiz kimi Allah, Onun nemətlərinə şükr etməyi ibadət hesab edir. Necə ki, aşağıdakı ayələr bunu bəyan edir:

«Əgər Allaha ibadət etmək istəyirsinizsə, Onun nemətlərinin şükrünü edin.»[5]

«Yalnız Allaha ibadət et və şükr edənlərdən ol.»[6]

Bu iki ayədə Allah-taala şükr etməyin ibadət olduğunu bildirir. Necəki, böyük və ilahi şəxsiyyətlər öz əməl və rəftarlarında belə olublar. Allah-taala Qurani-kərimdə buyurur:

«Miniyə mindiyiniz zaman Rəbbinizin nemətini yada salaraq deyin, bunları bizə ram edən Allah pak və müqəddəsdir. Bizim onlara gücümüz çatmazdı.»[7]

Həzrət Süleyman (ə) Allahdan şükr etmək bacarığını belə istəyir:

---

[1] Nəml surəsi, ayə 35-36.
[2] Üsuli-kafi, cild 2,səh 96, hədis 15.
[3] Səfinətül-bəhar, cild 1, səh 710.
[4] Nəhcül-bəlağə, hikmətli kəlamlar 339.
[5] Bəqərə surəsi, ayə 172.
[6] Zumər surəsi, ayə 66.
[7] Zuxruf surəsi, ayə 13.

O gələcək...

«Pərvərdigara! Mənim özümə və ata-anama ehsan buyurduğun nemətə şükr etmək üçün tofiq ver.»[1]

2. Ruzi qazanmaq ibadətdir

İslam dinində ibadət sayılan mövzulardan biri də ruzi ardınca gedib halal nemət qazanmaqdır. Bu niyyətlə ki, öz ehtiyacına görə başqalarına əl açmasın. Qurani-kərim bu barədə buyurur:

«[Cümə] namazını qılıb qurtardıqdan sonra yer üzünə dağılıb Allahın kərəmindən ruzi diləyin! Və Allahı çox zikr edin ki, bəlkə nicat tapıb səadətə qovuşasınız!»[2]

«Allahın kərəmindən ruzi diləyin» ifadəsi Quranda, ruzi diləyib ticarət istəmək mənasındadır. Lakin, demək olar ki, bu ifadənin məfhumu kimi, ruzi və ticarət onun nümunələrindən biridir. Beləki, bəziləri bu ayədən istifadə etməklə, belə izah edirlər ki, cümə namazından sonra ruzi ardınca olub ticarət etməyin bərəkəti vardır. Hədislərdə nəql olunur ki, İslam peyğəmbəri (s) cümə namazından sonra bazara baş çəkərdi.[3]

Aşağıdakı rəvayətlər ruzi əldə etməyin ibadət olduğunu bəyan edir.

İmam Baqir (ə), İslam Peyğəmbərindən (s) nəql edərək buyurur:

«İbadətin yetmiş qismi vardır və onların ən yüksəyi, halal ruzi tələb etməkdir.»[4]

Əbu Həmzə İmam Baqirdən (ə) nəql edərək buyurur:

«Hər kim əhalidən ehtiyacsız olmaq, onların yanında öz hörmətini qorumaqdan ötrü dünya malının ardınca olsa, bu mal-dövlət istəmək və çalışmaq, insanın öz ailəsinə və qonşularına kömək üçün olsa, qiyamət günü üzü on dörd gecəlik ay kimi parlayan halda, Allahın hüzuruna gələr.»[5]

İşləyən və çalışan halda ölmək

Rəvayətlərdən birində, cənab Məhəmməd ibn Yaqub Kuleyni, Əli ibn İbrahimdən, o da atasından və həmçinin, digərlərindən olan Məhəmməd ibn İsmaildən, o da Fəzl ibn Şazandan, o da İbni Əbu Ümeyrədən, o da İbn Həccacdan, o da İmam Sadiqdən (ə) nəql edir:

---

[1] Nəml surəsi, ayə 19.
[2] Cümə surəsi, ayə 10.
[3] Təfsiri nümunə, cild 24, səh 128.
[4] Vəsailüş-Şiə, cild 12, səh 11, hədis 6.
[5] Vəsailüş-Şiə, cild 12, səh 11, hədis 5.

O gələcək...

«Məhəmməd ibn Münkədir nəql edir: Zənn etməzdim ki, Əli ibn Hüseyn (İmam Səccad əleyhissəlam), Məhəmməd ibn Əli kimi oğlundan yaxşısını öz canişini təyin etsin. Bu fikirlə günlərin birində qərara aldım ki, ona moizə edim və bu işi ona işarə edim. Lakin, o mənə nəsihət etdi. Məhəmməd ibn Münkədirin dostları ondan imamın ona etdiyi nəsihət barədə soruşdular. İsti günlərin birində, gündüz günorta vaxtı Mədinənin ətrafındakı küçələri gəzirdim. İmam Baqirə (ə) rast gəldim. O, dolu və ağır bir şəxs idi. İki qara qulamı ilə birlikdə işləməklə məşğul idilər. Öz-özümə fikirləşdim ki, Qureyş tayfasının böyüklərindən biri, günün bu isti çağında dünya ardıncadır. Gedim ona moizə edim.

Yaxınlaşıb salam verdim. Alnından tər sel kimi axırdı. Ərz etdim: Qureyşlərin böyüklərindən birinin günün bu istisində dünya ardınca olması necədir? Əgər bu halda əcəl tamam olarsa, nə olar?

Həzrət cavabında buyurdu:

- Əgər ruhu alan mələk, bu halda mənim sorağıma gəlsə, Allahın itaətində olmuş hesab olaram. Ailə uşağımın dolanışığından ötrü işləyirəm. Əhaliyə əl açmıram. Mən qorxuram ki, ölüm mələyi mənim sorağıma gəldikdə, günah halında olmayım!

Dedim: Doğru deyirsiniz, ey Peyğəmbər övladı! Mən sizə nəsihət vermək istədim, lakin siz mənə nəsihət etdiniz!»[1]

Bu şərif hədisdə İmam Baqir (ə), yaşayış üçün çalışıb ruzi qazanmağı, Allaha itaət və ibadət hesab edir. Digər bir rəvayətdə Müsab ibn Bəkr Həzrət Əbül-Həsən Musa ibn Cəfərin (ə) buyurduğunu nəql edir:

«Hər kəs özü və övladlarından ötrü halal ruzi ardınca olsa, Allah yolunda cihad edən bir əsgər kimidir.»[2]

Çalışmaq və fəaliyyətlə Allahdan ruzi istəyin

Məhəmməd ibn Əli ibn Hüseyn, Fəzl ibn Yasardan nəql edir ki, İmam Sadiqə (ə) ərz etdim:

-Ey Peyğəmbər övladı! Mən iş və fəaliyyətdən əl çəkmişəm.

Həzrət buyurdu:

- Belə iş görmə! Dükanının qapısını aç, olanını ortaya qoy və Allahtaaladan ruzini dilə!»[3]

[1] Vəsailüş-Şiə, cild 12, səh 9-10.
[2] Vəsailüş-Şiə, cild 12, səh 11, hədis 4.
[3] Vəsailüş-Şiə, cild 12, səh 18, hədis 11.

O gələcək...

Zəhmətkeş abidlər, işsiz abidlərdən üstündür

Ruh ibn Əbdürrəhim, İmam Sadiqdən (ə) nəql edir:

O həzrət, «**O şəxslər ki ticarət və alış-veriş, Allahı xatırlamağı unutdurmur**»[1] - ayəsinin təfsirində buyurur:

«Onlar, hesab-kitab əhli idilər. Hər vaxt namazın vaxtını eşitsəydilər, ticarəti saxlayıb namaza gedərdilər. Bunlar, mükafat cəhətdən də üstündülər!»

Zəhmət və çalışmağın, onun müqabilində mükafat və üstünlüyünə dəlalət edən belə rəvayətlər çoxdur. Bu barədə, həmin bir neçə rəvayətlə kifayətlənirik. Hədəfimiz budur ki, İslamda, möminin işi ilə ibadəti arasında ziddiyətin olmadığı anlaşılsın. İşləmək insanın dolanışığından ötrü olarsa, ibadətdən də üstündür. Çünki, işsiz və fəaliyyətsiz ibadətin qiyməti olmaz. İbadətlə məşğul ola bilmək və onu ixlasla yerinə yetirmək üçün, əvvəlcə insanın iqtisadi vəziyyəti yaxşı olmalıdır. Əmirəl-möminin Əli (ə) buyurur:

«**Torpağı və suyu olub, fərasətsizliyi üzündən iqtisadi vəziyyəti fəqirliklə olanı, Allah öz rəhmətindən uzaqlaşdırar.**»[2]

Bir gün Rəsuli-Əkrəmin (s) hüzurunda, zöhd və təqvada üstün olan, oruc və namazla məşğul olan bir nəfər haqqında söz açılır. Deyirlər:

- Ya Rəsuləllah! Biz, ondan üstün abid tanımırıq!

Peyğəmbər (s) buyurur:

- Nə ilə məşğuldur?

Deyirlər:

- İşsizdir.

Buyurdu:

- Bəs yaşayış xərcini haradan ələ gətirir?

Dedilər:

- Onun yaşayış xərcini biz veririk.

Buyurdu:

Sizi hamınız ondan abidsiniz![3]

3. İbadətlərin biri də duadır

Dua, çağırmaq mənasında olub, ibadətin növlərindən hesab olunur və bəndə ilə Allah arasında bir rabitə vasitəsidir. İnsanın həyat yolunda

[1] Nur surəsi, ayə 37.

[2] Vəsailüş-Şiə, cild 12, səh 24, hədis 13.

[3] Kar və huquqe kargər, səh 119.

O gələcək...

qarşısına çoxlu hadisələr və yeniliklər çıxır. Digər tərəfdən də, insanın özü təkbaşına çətinliklər və problemləri həll etməyə qadir deyildir. Bu səbəbdən, insana, arxa və pənah yeri lazımdır. O da, Allahdır. Dua da, Allaha yaxın olmaq üçün bir vasitədir, necə ki, özü Qurani-kərimdə buyurur:

«Rəbbiniz buyurdu: Məni çağırın, Mən də sizin dualarınızı qəbul edim. Mənə ibadət etməyi təkəbbürlərinə sığışdırmayanlar tezliklə zillət və xarlıqla Cəhənnəmə girəcəklər.»[1]

Bu ayədən məlum olur ki, Allahı çağırmaq, Onun xoşuna gəlir və Onun özünün razılığına səbəb olur. Allah, onu çağırana, duasını mütləq deyil, lazımi şərait olduğu təqdirdə qəbul etməsini vəd edir.

Dua, özü bir ibadət növüdür. Necə ki, Bəqərə surəsində 186-cı ayədə ibadət dua mənasında buyurulur:

«Bəndələrim Məni səndən soruşanda söylə ki: Mən yaxınam. Dua edib Məni çağıranın duasını qəbul edərəm. Bununla da, ola bilsin ki, doğru yola yetişsinlər.»

Bu ayədə, Allah-taala yeddi dəfə Öz pak zatına və yeddi dəfə də Öz bəndələrinə işarə edir. Bununla da, Allahın bəndələrinə nə qədər yaxın və sıx rabitədə olduğu təcəssüm olunur. Dua bir növ təvazökarlıq və ibadətdir. Hər bir ibadətin tərbiyəvi təsiri olduğu kimi, duanın da belə təsiri vardır. Bu ayənin nazil olması barəsində nəql olunur. Ərəblərdən bir nəfər İslam Peyğəmbərinin (s) hüzuruna gələrək belə sual edir. Allahımız bizə yaxındır ki, Onunla raz-niyaz edək, ya uzaqdır, Onu nida edib çağıraq? Peyğəmbər (s) sükut edir. Cəbrail nazil olub Allahdan bu ayəni gətirir.

Dua və Allahı çağırmaq ruhi xəstəliklərin əlacı

Dərd-qəmə batmış insanın zehninə daim müxtəlif fikirlər gəlir və çalışır ki, qəlbində bu fikirlərin vasitəsilə özünü sakitləşdirsin. Belə hallarda dua, insanın rahatlıq tapıb şəfa əldə etməsinə səbəb olur.

Əziyyətlər Allahı xatırlamağa səbəb olur

Bəzi insanların təbiətinə əsasən, neməti bol olduqca, öz Allahından qafil olur. Lakin, özünü giriftarçılıq bataqlığında gördükdə, qəflət pərdələri gözünün önündən kənara çəkilir və insan, öz məbuduna diqqət edir. Allah-taala, bu barədə buyurur:

[1] Mömin surəsi, ayə 60.

O gələcək...

«İnsana nemətlər bəxş etdiyimiz zaman üz döndərər [məbuduna] diqqət etməz, ancaq ona pisliklər yetişdikdə isə pislikləri aradan aparması üçün dualarını çoxalar.»[1]

Rəvayətlərdə dua necə bəyan olunur

İslam Peyğəmbərindən (s) nəql olunan rəvayətlərdən birində oxuyuruq: **«Dua etmək ibadətdir».**[2]

Digər bir hədisdə ravi İmam Sadiqdən (ə) nəql edir:

«Dostlarımdan biri, o həzrətin hüzuruna gəlib və soruşur: İki nəfərin məscidə gəlib, biri çoxlu namaz qılıb, digəri isə çoxlu dua etməsi barəsində nəzəriniz nədir? (hansının daha çox savabı var?) Həzrət buyurdu: Hər ikisi yaxşıdır! Sual edən soruşdu: Hansı daha savab iş görür? İmam buyurdu: O kəs ki, çox dua etməklə məşğuldur, o daha böyük ibadətdir!»[3]

4. Bəzi baxmaqlar ibadətdir

Baxmaq və nəzər salmaq, insanın elminin və mərifətinin artmasına, yaxud onun ibrət almasına səbəb olur. İslam nöqteyi-nəzərindən, bəzi baxmaqlar və nəzər salmalar ibadət hesab olunur. Əmirəl-möminin Əli (ə) buyurur:

«Adil, ədalətli alim və rəhbərliyin üzünə baxmaq, ibadətdir. Ata-anasının üzünə lütf və rəhmət üzündən baxmaq, ibadətdir. Həmçinin, Allah yolunda onu dost tutmaqdan ötrü qardaşın çöhrəsinə nəzər salmaq, ibadətdir.»[4]

Təbii ki, nəzər salmaq və ya baxmaq, Allaha görə olarsa, ibadət sayılır və Allah da, belə ibadətə savab verir.

BÜTÜN HALLARDA İBADƏT

Müqəddəs dinimizə görə, insan Allaha ibadəti bütün hallarda hifz etməli, daim özünü Allahın hüzurunda hiss etməlidir. Qəm-qüssə, şadlıq, fəqirlik, dövlət, sağlamlıq, ümumiyyətlə heç bir səbəb onun bu

[1] Fussilət surəsi, ayə 51.
[2] Məcməül-bəyan, cild 8, səh 528.
[3] Məcməül-bəyan, cild 8, səh 529.
[4] Məcmueyi-vərram, cild 2, səh 175.

O gələcək...

niyyətinə təsir etməməlidir. Allah-taala bir tərəfli ibadət edən bəndlərin halına işarə edərək buyurur:

«İnsanlardan elələri var ki, Allaha dildə ibadət edər. Əgər dünya ona tərəf gəlib bir xeyir yaxud, fayda verərsə möhkəmləşərlər, yox əgər imtahan üzündən onlara bəla, müsibət üz verərsə, dəyişərlər, küfrə üz tutarlar. Beləliklə, həm dünyanı əldən verər, həm də axirəti. Bu açıq-aşkar ziyan və xəsarətdir.»[1]

«Dillərində» ifadəsi ola bilsin, bu məsələyə işarə olunsun ki, onların imanları ən çox dillərindədir, qəlblərində zəif iman nurundan başqa bir şey yoxdur. Həmçinin, buna işarə ola bilər ki, onlar İslam və imanın mətnində qərar tutmamışlar. Bəlkə də, onun kənarında və qırağındadırlar. Necə ki, hər kəs bir şeyin kənarında olsa, möhkəm olmaz və azacıq təkan vurmaqla öz yolundan xaric olar.

Bu ayənin şərhində Zürarə, İmam Baqirdən (ə) nəql edir: «Bir dəstə şirkdən uzaqlaşıb, Allaha ibadətlə məşğul olurlar, lakin imanlarının şəkk üzündən olduğundan Peyğəmbəri (ə) qəbul etmirlər. Onların fikrinə əsasən, əgər Allah onların mal-dövlətini və övladlarını artırsa, Allah rəsulunu qəbul edərlər. Əks halda qəbul etməzlər. Allah bu ayədə buyurur: **«Onların ibadəti bir tərəfli və dəyərsizdir.»**

SƏMİMİ QƏLBLƏ İBADƏT

Məhəmməd ibn Yəhya, Əhməd ibn Məhəmməddən, o da iki vasitə ilə İmam Məhəmməd Baqirdən (ə) nəql edir ki, İslam Peyğəmbəri (s) buyurur:

«Agah olun! Hər ibadətin bir ləzzət və rəğbəti var. Bir az keçdikdən sonra insanı tənbəlliyə çəkir. Beləliklə, hər kəs ibadətin ləzzətini mənim adətim üzrə yerinə yetirsə, hidayət olar. Hər kim mənim yolum və adətimlə müxalif olsa, zəlalətə düşər, əməli isə ziyan və zərər olar. Agah olun! Mənim adətim budur: Namaz qılıram və yatıram, oruc tuturam və iftar edirəm, gülürəm və ağlayıram. Hər kəs mənim yolumdan dönsə, məndən deyil. Moizədən ötrü ölüm kifayətdir, yəqin və inanmaqdan ötrü təkcə ehtiyacsızlıq, məşğuliyyətdən ötrü təkcə ibadət kifayətdir.»[2]

İmam Sadiq (ə) buyurur:

[1] Həcc surəsi, ayə 11.
[2] Üsuli-Kafi, cild 2, səh 85.

O gələcək...

«Hər kəsin bir meyl və rəğbəti var. Hər rəğbətdən ötrü bir meyilsizlik, bəs xoş o kəsin halına ki, meyilsizliyi də xeyirə tərəf olsun.»[1]

Həfs ibn Boxtəri, İmam Sadiqdən (ə) nəql edir:

«İkrah və yorğun halında ibadəti özünüzə yük eləməyin.»[2]

İBADƏTDƏ İFRATA YOL VERMƏMƏK

Qeyd edildiyi kimi rəvayətlər bizə yaxşı ruhiyyə və səmimi qəlbdən ibadət etməyi tövsiyyə edir. İbadətin bizə təsir bağışlamasından ötrü aşiqanə ibadət etməli, yorğunluq və rəğbətsiz halında olan ibadətdən çəkinməliyik. Süst insan Allahla münacat meylini əldən vermişdir və belə bir şəxsin ibadəti, ruhsuz heykəlin ibadətinə bənzər. Həmçinin, ibadətdə ifrat-təfritə də yol verilməməlidir. İbadətdə insan özünü orta səviyyədə qərar verməlidir. Necə ki, İslam Peyğəmbəri (s) tövsiyyə edir ki, yorğun halda ibadətdən çəkinin.

Əmr ibn Cəmi, İmam Sadiqdən (ə) nəql edir: **«İslam Peyğəmbəri (s) buyurur: Əlican! Bu din, möhkəm və mətindir. Ona şad ürəklə daxil ol. Yorğun və ya qəzəbli halda ibadəti özünə yük etmə. Çünki, ifrata varan şəxsin nə arxası, nə də yolu olar ki, onu keçsin. Beləliklə, əməl vaxtı qocalıb ölməyə hazırlaşan, Allahdan sabah öləcək şəxs kimi qorx.»**[3]

İmam Sadiq (ə) başqa bir hədisdə buyurur: **«Mən (Kəbə evinin) təvaf halında idim. Kiçik yaşlı idim. Atam yanımdan ötüb mənə baxdı. Möhkəm təvaf ibadəti ilə məşğul idim. Üz-gözümdən tər dənələri axırdı. Buyurdu: Ey Cəfər, oğlum! Əgər Allah bəndəsini sevirsə, onu Behiştə daxil edər və onun az ibadətinə də razı olar.»**[4]

Qeyd olunanlardan belə nəticəyə gəlirik ki, bütün işlərdə olduğu kimi, ibadətdə də ifrat-təfritə yol verilməməlidir.

İslam dünyagörüşündə, Allahı tanımaq fəlsəfəsi məktəbində ilk səbəb və birinci təsiredici qüvvə, Allahdır. Qalan digər səbəblər, bu səbəbin ətrafında deyil, bəlkə də, onların səbəb olmalarının hamısı, Allah tərəfindəndir. Allahpərəst bir şəxslə, materialist bir şəxsin də fərqi həmin məsələdədir. Materialist, maddi səbəblərə əsas verir və bütün təsirləri müstəqil sayır. Halbuki, Allahpərəst və müvəhhid bir şəxs, sə-

[1] Üsuli-Kafi, cild 2, səh 86.
[2] Üsuli-Kafi, cild 2, səh 86.
[3] Üsuli-Kafi, cild 2, səh 87.
[4] Üsuli-Kafi, cild 2, səh 86.

O gələcək...

bəb və nəticə qanununa etiqad bəsləməklə, yanaşı hər şeyi Ona istinad verir.

Təbii və maddi səbəblərin, müstəqil və qeyri-müstəqil olması məsələsi tövhidlə şirkin əsas sərhəddidir. Bu hüdudu qorumaqla, müvəhhid şəxs (Allahpərəst), müşrikdən yaxşılıqla fərqlənir. Quran ayələrinin mütaliəsindən aydın olur ki, yaradılış dünyasında heç bir qüdrətin, Allahın qüdrətinin hətta kənarında durmağa qabiliyyəti yoxdur. Heç bir səbəbin təsiri, onu vücuda gətirənsiz ola bilməz. Necə ki, Quran buyurur:

«Qurunun və dənizin zülmətlərində sizə doğru yol göstərən kimdir? Küləkləri öz rəhməti önündə bir müjdəçi olaraq göndərən kimdir? Məgər Allahdan başqa tanrı varmı? Allah ona şərik qoşanlardan ucadır!»[1]

«İnsanlar ümidsizliyə qapılandan sonra, yağmur göndərən nemətini açıb paylayan Odur!»[2]

Quran tövhid, yəqinlik və xalis niyyətlə pərəstiş etməyən şəxslərin vəziyyətini belə bəyan edir:

«İnsanlara bir fəqirlik toxunduğu zaman Rəbbinə tərəf dönüb ona tövbə edərlər. Sonra Allah Öz mərhəmətindən onlara daddıran kimi içərilərindən bir qismi Rəbbinə şərik qoşar.»[3]

«Gəmiyə mindikləri zaman xalis niyyətlə Allahı çağırarlar, ancaq Allah onları sağ-salamat sahilə çıxaran kimi yenə də [Ona] şərik qoşarlar.»[4]

«De ki: Sizi ondan xilas edən və hər bir qəmdən qurtaran Allahdır! Sonra sizlər yenidən müşrik olursunuz.»[5]

İnsanın ilahi məqamı və üçlüyün Quran nəzərindən əsassızlığı

İmam Səccad (ə) buyurur:

«Allahın böyük haqqı budur ki, Ona heç bir şeyi şərik qoşma!» Biz buraya qədər ibadət və hansı əməllərə ibadət deyilməsi barəsində bəhs etmişdik. İndi də hədisdəki «**Allaha heç bir şeyi şərik qoşma**» cümləsi barəsində, yəni, şirk və onun müxtəlif mərtəbələrini xülasə

[1] Nəml surəsi, ayə 63.
[2] Şura surəsi, ayə 28.
[3] Rum surəsi, ayə 33.
[4] Ənkəbut surəsi, ayə 65.
[5] Ənam surəsi, ayə 64.

O gələcək...

şəkildə bəhs edəcəyik. Tövhidin mərhələləri müxtəlif olduğu kimi şirkin də mərhələləri müxtəlifdir.

Nümunə üçün zatda tövhid, vəsfdə tövhid, işlərdə tövhid, ibadətdə tövhid və s. olduğu kimi şirkin də özünəməxsus mərtəbələri vardır.

ALLAHIN ZATINA ŞƏRİK QOŞMA

Quran nazil olan əsrdə xaçpərəstlər, İsa Məryəm oğlunu, Allah adlandırırdılar. Quran onları kafir adlandırır:

«Məryəm oğlu Məsih Allahdır, deyənlər şübhəsiz ki, kafir oldular. Onlara de: Əgər Allah Məryəm oğlu Məsihi, anasını və yer üzündə olanların hamısını məhv etmək istəsə [bu işdə] kim Ona bir şeylə mane ola bilər?»[1]

«Allah üç nəfərdən biridir, deyənlər əlbəttə kafir oldular. Halbuki bir olan Allahdan başqa heç bir tanrı yoxdur.»[2]

Birinci ayədə, aydın dəlillə buyurur: Allah, Məsihi həlak edə bilər. Təkcə Məsihi deyil, hətta bütün insanları məhv edə bilər.

Şübhə yoxdur ki, bütün məsihilər İsanı, Məryəmin oğlu kimi tanıyırlar və bunu həmişə deyirlər ki, İsa Məryəmin oğludur. Bir halda ki, Məryəmin övladıdır, deməli digər insanlar kimi ölümü və həyatı öz əlində deyil. Belə olduğu halda, o, özünün ölümü və həyatının sahibi deyilsə necə Allah ola bilər? Bu ayədə İsanın bəşər olmasına tam şəkildə diqqət yetirilmişdir. Ona görə də, İsa «Məryəmin övladı» kimi ünvanla vəsf olunmuşdur.

Quranın digər bir ayəsində, İsanın yemək yeməsinə və onun qidaya olan ehtiyacını vurğulayır:

“Məsih [İsa] və anası təam meyl edirdilər.”[3] Yəni, İsa və anasının digər peyğəmbərlərlə fərqi yoxdur. İsa Məsihin, Allahın övladı olması məsələsi, Allahın zatına şirkin nisbət verilməsi, əslində, tək olan Allahı, üç allahlar şəklində cilvələndirməkdən ibarətdir. Quranın sözü isə budur ki, xaçpərəstlərin, Allah ünvanı ilə ibadət etdikləri İsa Məsih Allahın məxluqu olub, Onun rəhməti sayəsində böyüyəndir.

«Allahdan başqa ibadət etdiklərinizdə sizin kimi bəndələrdir.»[4]

---

[1] Maidə surəsi, ayə 17.
[2] Maidə surəsi, ayə 73.
[3] Maidə surəsi, ayə 75.
[4] Əraf surəsi, ayə 194.

O gələcək...

«Sizin Allahdan başqa tanıdıqlarınız isə nə sizə, nə də özlərinə bir köməklik edə bilər!»

«Əgər siz onları doğru yola tərəf çağırsanız, eşitməzlər. Sən onları sənə baxan görərsən, halbuki onlar görməzlər».[1]

Quran kitab əhlini bu mövzuda müxatəb qərar verərək buyurur:

«[Ya Muhəmməd!] Söylə ki: Ey kitab əhli! Sizinlə bizim aramızda eyni olan bir kəlməyə tərəf gəlin! [O kəlmə budur ki] Allahdan başqasına ibadət etməyək. Ona bir şeyi şərik qoşmayaq və Allahı qoyub bir-birimizi [özümüzə] Rəbb qəbul etməyək! Əgər onlar yenə də üz döndərərlərsə, o zaman [onlara] deyin: İndi şahid olun ki, biz həqiqətən müsəlmanlarıq!»[2]

Yuxarıdakı ayə, şirkin bütün mərtəbələrini izah edir. Yəni, heç bir sahədə Allaha şərik qərar verməmək.

İBADƏTDƏ ŞƏRİK

Quran buyurur:

«**[Ya Peyğəmbər!] Onlara de ki: Mən də sizin kimi ancaq bir insanam. [Mənim üstünlüyüm bundadır ki] Mənə vəhy olunur ki, sizin tanrınız tək olan Allahdır. Hər kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı iş görməkdə ciddi olsun və Rəbbinə etdiyi ibadətə heç kəsi şərik qoşmasın!»**[3]

Bu ayə, ibadətdə Allaha şərik qoşmaqdan çəkindirməklə yanaşı, insanın öz ibadət və pərəstişini yalnız Allahdan ötrü etməli olduğunu aydınlaşdırır. Həmin ayənin izahında, ravi Əbül-Carud, İmam Baqirdən (ə) nəql edir:

«İslam Peyğəmbərindən (s) bu şərif ayə barəsində sual olundu. Peyğəmbər (s) buyurdu: Özünü əhaliyə göstərməkdən ötrü namaz qılan şəxs müşrikdir, özünü əhaliyə göstərməkdən ötrü zəkat verən şəxs müşrikdir, özünü əhaliyə göstərməkdən ötrü həccə gedən müşrikdir. Allahın ona əmr etdiyi işi görüb, bu işə görə əhaliyə minnət qoyan, müşrikdir.»[4]

Digər bir hədisdə, Cərah Mədaini İmam Baqirdən (ə) bu ayə barəsindəki sözünü nəql edir:

---

[1] Əraf surəsi, ayə 197-198.
[2] Ali-İmran surəsi, ayə 64.
[3] Kəhf surəsi, ayə 110.
[4] Nur əs-Səqəleyn təfsiri, cild 3, səh 314.

O gələcək...

«Bir kəs savab iş görür, lakin Allahın razılığını nəzərə almır. Çox istəyir ki, öz əməlini insanlara göstərsin. Çox istəyir ki, əhali onun əməlini tərifləsin. Belə bir şəxs, ibadətdə Rəbbinə şərik qərar vermişdir.» Sonra buyurur: **«Elə bir bəndə yoxdur ki, gizlində xeyir bir iş görsün, zaman keçdikdən sonra Allah onun xeyir işini zahir etməsin. Elə bir bəndə yoxdur ki, çirkin işi gizlətsin, zaman keçdikcə Allah onun işini şər ünvanı ilə aşkar etməsin.»**[1]

Ravilərdən Zürarə və Həmran İmam Baqirin (ə) və İmam Sadiqin (ə) buyurduqlarını nəql edirlər:

«Əgər bəndə yaxşı bir iş görüb, Allahdan rəhmət və axirəti tələb etsə, həmçinin, Allahdan başqasının da razılığını nəzərə alsa, belə şəxs müşrikdir.»[2]

Quranda müşriklərin əməllərinə ən yaxşı misal

Qurani-kərim müşriklərin şirklə bulaşmış əməllərini belə mənalandırıb misal gətirərək, buyurur:

[Həcc əməllərini yerinə yetirin] batildən haqqa dönərək yalnız Allaha təslim olduğunuz və Ona şərik qoşmadığınız halda! Allaha şərik qoşan kimsə, göydən düşən, quşların onu sürətlə alıb apardığı, yaxud küləyin sovurub uzaqlara atdığı bir şeyə bənzər.»[3]

Əslində bu ayədə göy, tövhidə kinayədir (işarədir). Şərik qoşmaq, insanın bu aləmdən aşağı düşməsinə səbəb olur. İnsan, bu uca məqamdan aşağı endikdə iki aqibətdən biri ilə üzləşir. Ya yerə çatmazdan öncə leş yeyən quşlara yem olur, başqa sözlə desək, insan tövhid sahəsindən çıxmaqla, hər biri insan varlığını məhv edən həva-həvəslər caynağına giriftar olur. Yaxud, tövhidi əldən verdikdən sonra salamat qalarsa, sonradan elə bir tufan burulğanına düşür ki, bu tufan, insanı bir anda yerə çırparaq bədənini parça-parça edir. Bu tufan isə, sanki insanın həmişə yanında olan şeytana işarədir.

Doğrudan da, şirk qoşmağa bundan daha gözəl və aydın bənzətmə ola bilərmi? Bir mətləbə də daha çox diqqət olunmalıdır. Bu gün sübut olunmuşdur ki, insan, azad şəkildə aşağı tullanan anda heç bir çəkisi olmur. İnsanın bu zaman fövqəladə iztirab hissi keçirməsi də, həmin çəkisizliyinə görədir.

[1] Nur əs-Səqəleyn təfsiri, cild 3, səh 319.
[2] Nur əs-Səqəleyn təfsiri, cild 3, səh 317.
[3] Həcc surəsi, ayə 31.

O gələcək...

Belə ki, insan imandan çıxıb şirkə tərəf getsə, sabit güvənc yerini əldən verməklə ruhunda belə bir çəkisizlik yaranar və onun ardınca da, həmin şəxsə fövqəladə qəribə bir iztirab hissi hakim olar.[1]

Bəni-Üməyyə, şirkin tanınmasına mane olub

İmam Sadiq (ə) buyurur:

«Bəni-Üməyyə, iman və onun mahiyyətini öyrənməyi əhalidən ötrü azad buraxmışdılar. Lakin, şirk qoşmağı və onun tanınmasını azad qoymamışdılar. Ona görə ki, müsəlmanları şirkə tərəf çağıranda, Bəni-Üməyyənin onları şirkə tərəf dəvət etməsini onlar anlaya bilməsinlər.»[2]

Mərhum Feyz Kaşani bu hədisin şərhində, «Şafi» kitabında belə yazır:

«Bəni-Üməyyə, əhalinin onlara sözsüz-söhbətsiz itaət etməsinə çox həris idi. Ona görə də, iman və tövhid yolunu tanımağı azad, amma şirki tanıyıb ondan çəkinmək yollarını bağlamışdılar. Çünki, əhali şirkin mahiyyətini anlamasa, onu tez qəbul edər. Lakin, şirkin mənasını dərindən bilib anlasalar, qəti şəkildə Bəni-Üməyyəyə itaət etməyəcəkdilər.»

Ümumiyyətlə, təkcə Bəni-Üməyyə deyil, bəlkə də, dünyanın bütün qüdrət sahibləri çalışırlar ki, insanlar elm və mərifət sahəsinə qədəm qoymasınlar. Nə qədər anlamasalar, yaxşı itaətdə olarlar. O, səbəbdəndir ki, İslam mədəniyyətində öyrətmək və maarifləndirmək, cəhalət və savadsızlığa qarşı mübarizə, ən yaxşı ibadət və ən mühüm vəzifədir.

GİZLİ ŞİRK

Gizli və batini şirki bəyan etməkdən ötrü İmam Sadiqin (ə), İslam Peyğəmbərindən (s) nəql etdiyi rəvayətə işarə edirik:

Müsədət ibn Sədəqə, İmam Sadiqdən (ə) nəql edir ki, o həzrətdən, Peyğəmbərin (s) gizli şirk barəsindəki sualın cavabında buyurduğu: «**Gizli şirk, gecənin zülmətində qara daşın üzərində hərəkət edən qarışqadan da görünməzdir**» hədisi haqqında soruşurlar. Peyğəmbərin bu hədisi barəsində İmam Sadiq (ə) buyurur: **«Möminlər, Peyğəmbərin (s) zamanında müşriklərin bütlərini təhqir etmişdilər. Nəticədə, müşriklər də möminlərin Allahına cavab qaytarmışdılar.»** Müşrikləri

[1] Təfsiri Nümunə, cild 14, səh 96.

[2] Əş-Şafi, cild 1, səh 146.

O gələcək...

susdurmaq üçün, Allah-Taala tərəfindən möminləri belə bir işdən çəkindirməkdən ötrü ayə nazil olur. Belə olmayan halda, möminlər özləri də bilmədən Allaha şərik qərar verərlər. Allah-Taala, Ənam surəsinin 108-ci ayəsində buyurur:

«**Müşriklərin Allahdan başqalarına tapındıqlarını söyməyin».**

Bu hədisdə, «gizli və batini» şərik qoşmanın İslamda nə qədər ciddi məsələ olması məlum olur. Belə şirkdən Allaha pənah aparırıq. İndi də, İmam Səccadın (ə) buyurduğu bu cümləyə işarə edək:

«**Allahın sənin boynundakı haqqı budur ki, Ona ibadət edəsən və Ona şərik qərar verməyəsən. Əgər belə bir işi (ibadəti) xalis niyyətlə yerinə yetirsən, Allah Özünə vacib etmişdir ki, dünya və axirət işlərində sənə şəfaət etsin. Sənin çox bəyəndiyin şeyi sənin üçün saxlasın!»**

Allahdan belə bir haqqı yerinə yetirə biləcəyimizə münasib fürsət istəyirik!

2. NƏFSİN HAQQI

وَأَمَّا حَقُّ نَفْسِكَ عَلَيْكَ فَأَنْ تَسْتَوْفِيَهَا فِي طَاعَةِ اللهِ فَتُؤَدِّيَ إِلَى لِسَانِكَ حَقَّهُ وَإِلَى سَمْعِكَ حَقَّهُ وَإِلَى بَصَرِكَ حَقَّهُ وَإِلَى يَدِكَ حَقَّهَا وَإِلَى رِجْلِكَ حَقَّهَا وَإِلَى بَطْنِكَ حَقَّهُ وَإِلَى فَرْجِكَ حَقَّهُ وَتَسْتَعِينَ بِاللهِ عَلَى ذَلِكَ.

“Sənin öz nəfsinə haqqın [hüququn] budur ki, onu tamamilə Allah yolunda itaətdə qərar verəsən. Belə olan halda dilinin, gözünün, qulağının, əlinin, ayağının, qarnının və cinsi üzvlərinin haqqını [hüququnu] əda et. Onların haqqını əda etməkdə, Allahdan kömək istə!”

NƏFS SÖZÜNÜN LÜĞƏTDƏ MƏNASI VƏ İSTİFADƏ YERLƏRİ

İlk öncə, “nəfs” sözünün lüğətdə mənaları və onun işlədilmə yerləri ilə tanış olaq. Tanınmış dilçi Rağib İsfahani, **nəfs** sözünü **ruh** mənasında bilir. Bu iddiasına, nümunə olaraq Qurani-Kərimdən bir neçə ayə gətiririk.[1]

[1] Əl-Müfrədat, Nəfs bölməsi.

O gələcək...

1. "Çıxarın canlarınızı"[1]

2. "Bilin ki, Allah sizin qəlblərinizdə olanı bilir. Allahdan qorxun!"[2]

3. "Sən mənim ürəyimdə olan hər şeyi bilirsən, mən isə Sənin zatında olanı bilmirəm."[3]

Bütün bu ayələrdə **nəfs** sözü, **ruh** və ya **can** mənasında işlədilmişdir. Rağib İsfahani, **nəfs** sözünə əlavə olaraq hava mənasını da vermişdir ki, insan onu oksigen şəklində udur, karbon qazı şəklində bədənindən xaric edir. Bu nəfəs, insanda qida maddəsi rolunu oynayır və onun kəsilməsi insanın ölümü ilə nəticələnir.

Mərhum Şeyx Təbərsi **"ancaq, özlərini aldadırlar"**[4] ayəsinin şərhində buyurur:

Əvvəl **ruh** mənasındadır, ikincisi **təkid** mənasında, məsələn "Zeydin **özü** gəldi". Üçüncüsü **zat** mənasındadır. Əsl məna, elə həmin üçüncü mənadır.

QURANDA NƏFS SÖZÜNÜN MƏNALARI

1. Təbərsinin buyurduğu kimi Qurani-Kərimdə, **nəfs** sözü ən çox **ruh** mənasında işlədilmişdir. Necə ki, ayələrdən birində buyurulur:

"Allah [əcəli çatan kimsələrin] canlarını [ruhlarını] onlar öldüyü zaman, ölməyənlərin [hələ əcəli çatmayanların] canlarını isə yuxuda alar. Ölümünə hökm olunmuş kimsələrin canlarını [ruhlar aləmində] saxlayar. Digər kimsələrin canlarını isə müəyyən bir müddətədək qaytarar."[5]

2. **Nəfs**, zat mənasında işlədilir. Nümunə üçün bu ayədə buyurulur:

"Qorxun o gündən ki, heç kəs heç kəsin karına gələ bilməsin."[6]

3. **Nəfs**, qəlb və batin mənasında da işlədilib.

"Səhər-axşam yalvararaq, qorxaraq, səsini qaldırmadan qəlbində və batində Rəbbini yad et."[7]

"Yusif onu qəlbində və batində saxladı"[8]

"Rəbbiniz qəlblərinizdə və ürəklərinizdə olanları ən yaxşı biləndir."[9]

---

[1] Ənam surəsi, ayə 93.
[2] Bəqərə surəsi, ayə 235.
[3] Maidə surəsi, ayə 116.
[4] Bəqərə surəsi, ayə 9.
[5] Zumər surəsi, ayə 42.
[6] Bəqərə surəsi, ayə 48.
[7] Əraf surəsi, ayə 205.
[8] Yusuf surəsi, ayə 77.
[9] İsra surəsi, ayə 25.

O gələcək...

HİKMƏT SAHİBLƏRİNİN NƏFSİN NÖVLƏRİ BARƏSİNDƏ NƏZƏRLƏRİ

Sədri Mütəəllihin, Əbu Əli Sinadan (Şeyxürrəisdən) “Şifa” kitabında “nəfs” qüvvəsinin üç qismə bölündüyünü nəql edir:

1. Nəbati nəfs - təbii cismdən ötrü təkcə qida və inkişaf təməli sayılan kamaldır.

2. Heyvani nəfs - təbii cismdən ötrü təkcə iradə ilə birlikdə, hiss və hərəkətdən ibarət olan ilk kamal hesab olunur.

3. İnsani nəfs - insani nəfs, qəlbi cismin, ağıl və ümumiliyin dərk etmək qüvvəsinə malik olub, çalışıb müxtəlif rəyləri gətirmək qabiliyyəti olan kamaldır.[10]

Əbu Nəsr Farabi (İkinci müəllim), özünün “Füsusul-hikəm” kitabının 22-ci fəslində, nəfs barəsində belə deyir:

“Həqiqətən, arxayın nəfs odur ki, öz dərrakəsi ilə ilk haqqı tanısın. Tanıdığı da ilk haqq olsun.”

Bu ifadənin izahında cənab İlahi Qomşeyi belə buyurur:

Natiq nəfsin (insani nəfsin) çox cəhətləri və tərəfləri vardır. Ləzzətə və heyvani şəhvətə şiddətli meyli olduğu cəhətinə görə ona “**əmmarə nəfsi”** deyirlər. Şəhvətin çoxluğundan, çirkin əməlləri insanın gözündə gözəl göstərdiyinə görə ona **“müzəyyinə nəfsi**” deyilir. Heyvani məqsədindən ötrü hiyləgərlikdən istifadə edib, öz əməllərində yalan çöhrələri göstərdiyi cəhətinə görə ona, “**müsəvvələ nəfsi**” deyilir.

İnsan, hər vaxt çirkin bir iş gördükdə, əsas fitrətinə qayıdır və vicdanı özünü məzəmmət etdiyinə görə ona, “**ləvvamə nəfsi**” deyirlər. Heyvani ləzzətlərdən xilas olub, şəhvət və qəzəb qüvvəsindən aram tapıb, ağıl ləzzətlərindən bəhrələndiyinə görə ona, “**mütməinnə nəfsi**” deyilir.

Nəhayət, insan öz nəfsini tamamilə həqiqi məşuq (məbud) müqabilində təslim edib, Onun meyl və razılığına görə özünü fani hesab etdiyinə görə onu, “**raziyyə**” və ya “**mərziyyə nəfsi**” adlandırırlar. Bu sözlərin və terminlərin hamısı Qurani-Kərimdən götürülmüşdür. **Mütməinnə nəfsi**, nəfsin kamal və ilk haqqı tanıyan mərhələsidir. Beləliklə, **mütməinnə nəfsi** - yəni, pak və hər cür çirkinliklərdən, kin-küdurətdən təmiz olan ruh.[11]

Bu, Molla Sədranın Əbu Əli Sinadan nəql etdiyi və İlahi Qomşeyinin izah etdiyi mətləbin xülasəsidir. Biz də, Allahın köməyi ilə nəfsin

[10] Əsfar-ərbəə, cild 8, səh 53.

[11] Hikməti İlahi am və xas, səh 31-32.

O gələcək...

mərtəbələrini Quran baxımından bəhs edəcək və bu barədə nazil olan ayələrə işarə edəcəyik.

NƏFSİN QURANDA QİSİMLƏRİ VƏ MƏRTƏBƏLƏRİ

Qurani-Kərimdə nəfsin müxtəlif mərtəbələrinə işarə olunmuşdur. Biz xülasə şəklində onlara işarə edəcəyik.

1. ƏMMARƏ NƏFSİ

Ləzzət və şəhvət meyli olan nəfsin ilk mərhələsi - **əmmarə nəfsi**, daim insana onun xahiş və istəklərini yerinə yetirməyi əmr edir. Quran dili ilə **"əmmarə"** (çox əmr edən) adlanan nəfsin bu mərtəbəsi, insanın ən böyük düşmənidir. Hətta böyük şəxsiyyətlər bu nəfsin şərrindən Allaha pənah aparmışlar. Quran, həzrət Yusifin dilindən belə deyir:

"**Mən öz nəfsimi təmizə çıxartmıram. Rəbbimin rəhm etdiyi kimsə istisna olmaqla, nəfs pis işlər görməyi əmr edər".**[1]

Başqa bir ayədə buyurur:

"Amma kim Pərvərdigarın məqamından qorxmuş və nəfsinə istədiyini qadağan etmişsə, həqiqətən, onun yurdu Cənnətdir".[2]

Hədəf budur ki, insan **əmmarə nəfsinin** istək və tələblərinə cavab verməsin. Həzrət Əli (ə) bu barədə buyurur:

"Nəfsin təbiəti və adəti həmişə ədəbsizliyə tərəf yönəlmək və tüğyan etməkdir. Bəndənin vəzifəsi budur ki, öz nəfsini yaxşı ədəbləndirsin. Nəfs həmişə müxalifət meydanında cövlan edir. Bəndə çalışır ki, onun istəklərini nəzarətə alsın. Hər zaman onun cilovunu azad buraxsa, fəsad və tüğyanda onunla şərikdir. Hər kim nəfsinin istəklərində ona köməklik göstərsə, özünün ölümündə nəfsi ilə şərikdir".[3]

İmam Sadiq (ə) bu barədə buyurur:

"Öz nəfsindən ayrılmazdan əvvəl onun sənə zərər vurmağını azalt və zərərinin qarşısını al. Qeyri-şəri işlərdən onu azad buraxmamağa çalış. Nəfsinə həyatda ciddiyyətlə yaşadığın kimi rəftar et. Çünki nəfsin sənin əməlinin girovundadır".[4]

---

[1] Yusuf surəsi, 53.
[2] Naziyat surəsi, ayə 40-41.
[3] Müstədrəkül-Vəsail, cild 2, səh 270.
[4] Müstədrəkül-Vəsail, cild 2, səh 310.

O gələcək...

Meyillərlə cihad

Həzrət Əli (ə) buyurur:

“Ən fəzilətli cihad insanın öz nəfsinin istəklərinə qarşı etdiyi cihaddır”.[1]

İslam Peyğəmbəri (s) bu barədə buyurur:

“Şücaətli və güclü insanlara qalib gələn şəxs deyil, bəlkə də, o kimsə möhkəm və qüdrətlidir ki, öz nəfsinə hakimlik edə bilsin”.[2]

Yenə də həzrət Əlidən (ə) bu mövzuda nəql olunur:

“Əyri işlərdən düzlüyə yönəlmək və həyatda möhkəm istiqamətli olmağına görə öz nəfsinin istəkləri ilə (əlbəttə, qeyri-şəri istəklərlə) mübarizəyə qalx. Alim olub cəhalətdən uzaqlaşmağına görə alimlərlə oturub dur”.[3]

Həzrət başqa bir əmrində buyurur:

“Hər kim öz nəfsinə hökumət və rəhbərlik edə bilsə, axirətdə yaxşı dərəcəyə çatar”.[4]

Qəhrəmandan da güclü

İslam Peyğəmbəri (s) bir dəstənin yanından keçirdi. Onlardan biri ağır bir daşı yerdən qaldırırdı. Cəmiyyət onu tərifləyib alqışlayırdı. Əhali onun bu işindən təəccübə gəlmişdi. Peyğəmbər (s) onların yanına gəlib soruşdu: “Bu nə səhnədir?”

Cavab verirlər: “Ya Rəsuləllah! Bu kişi ağır daşları qaldırır. Ona ağır daş qaldıran pəhləvan deyirlər”.

İslam Peyğəmbəri (s) buyurdu: “İstəyirsiniz ki, ondan da güclü və möhkəm şəxsdən sizə xəbər verim?”

Dedilər: “Bəli!”

Buyurur: **“Bir şəxsə söyüş verilsin, amma o şəxs nəfsinə qalib gəlib onun müqabilində səbr etsin. Həm öz şeytanına, həm də dostun şeytanına qalib gəlsin!”**[5]

2. LƏVVAMƏ NƏFSİ

Buraya qədər haqqında ayə və rəvayətlərdən istifadə etməklə bəhs etdiyimiz mövzu, insanı daim pisliyə və çirkinliyə tərəf çəkən **əmmarə**

[1] Şərh Ğürər və dürər, cild 2, səh 389.
[2] Müstədrəkül-Vəsail, c. 2, səh. 270.
[3] Şərh Ğürər və dürər, cild 3, səh 462.
[4] Şərh Ğürər və dürər, cild 5, səh 254.
[5] Məcmueyi-Vərram, cild 2, səh 10.

O gələcək...

nəfsi (çox əmr edən nəfs) idi. Bu nəfsin müqabilində insanı pis işlərinə görə məzəmmət edən **ləvvamə nəfsi** də (çox məzəmmət edən nəfs) vardır. Qurani-kərim bu ayədə and içərək buyurur: "**And olsun Qiyamət gününə! And içirəm insanı günah etdiyi üçün qınayan nəfsə!**"[1]

Əli ibn İbrahim öz təfsirində İmam Sadiqdən (ə) nəql edir:

"**Ləvvamə nəfsi, elə bir nəfsdir ki, Adəm oğlu günah etdi və qınanmış oldu**".[2]

Günaha mürtəkib olan şəxs öz batinindən məzəmmət nidasını eşidər. O nida insana əzab və işgəncə verər.

Quranın **ləvvamə nəfsi** adlandırdığı məzəmmət edici nəfsi, psixoloq və alimlər **"vicdani əxlaq"** adlandırırlar. Ayədə nəfs sözünün işlədilməsi, insanı günah zamanı məzəmmət edən, hədislərdə də söylənilən bu ruhi qüvvə lap əvvəlcədən insanın vücudunda olub, onun orqanizminin bir hissəsini təşkil edir.

Ümidsizlik xəstəliyi və onun əlacı

İmam Səccad (ə) təvaf edərkən camaatın məscidin bir tərəfində cəm olduğunu görür. Soruşduqda, Məhəmməd ibn Şəhab Zöhri adlı bir şəxsin ruhi xəstəliyə tutulduğunu deyirlər. Sanki əqlini əldən verib. Ağzın açıb bir kəlmə danışmır. Əhli-əyalı onu Məkkəyə gətiriblər ki, bəlkə əhalini görməklə dilə gəlsin. Təvaf qurtardıqdan sonra İmam Səccad (ə) cəmiyyətə tərəf gedib Məhəmməd ibn Şəhabın yanına gəlir. O, həzrəti tanıyır. İmam (ə) ondan soruşur:

- Sənə nə olub?

Cavab verir:

- Şəhərlərin birində başçı idim. Günahsız bir şəxsin qanını tökdüm. Bu böyük günah məni bu günə salıb.

Günahsızın qətli şəhər başçısını əldən salmış və batini işgəncələri, onun ruhi xəstəliyinə səbəb olmuşdur. Günahının xəcalətində ağzını açıb bir söz belə danışa bilmir. Beləliklə də, zahirdə divanə olan bir adam surətinə düşüb.

İmam Səccad (ə) onun sözlərindən başa düşür ki, günahının bağışlanmasından naümid olub. Ona görə də buyurur:

- Mən, sənin Allahın rəhmətindən ümidini üzmək günahının qorxusunu, günahsız şəxsi öldürməyindən çox bilirəm.

---

[1] Qiyamət surəsi, ayə 1-2.

[2] Təfsiri-Nur Səqəleyn, cild 5, səh 461.

O gələcək...

Həzrət yenə davam edir:

- Qətlə yetirilənin qan bahasını varisə ver.

Günahkar cavab verir:

- Mən qan bahasını verdim, ancaq onlar qəbul etmədilər.

İmam (ə) buyurdu:

- Gözlə, nə vaxt onlar evdən çıxıb namaza getsələr, evin bacasından pul kisəsini evin içinə at.[1]

İmam (ə) bu yolla ona ümidsizlik xəstəliyindən əlac verdi. Ləvvamə nəfsinin və vicdan əxlaqının təsiri budur.

3. MÜSƏVVƏLƏ NƏFSİ

Nəfsin başqa növlərindən biri də **müsəvvələ** nəfsi adlanır. Nəfsin bu xüsusiyyəti insana çirkin və pis içləri gözəl göstərərək, onu bu işləri görməyə təşviq edir. Qurani-kərimdə **müsəvvələ nəfs**in iki nümunəsi gəlmişdir.

Yusif və qardaşları

Yəqub peyğəmbərin övladları, Yusifi atasından ayırıb onu quyuya atdıqda nəfsləri onları aldatdı. Necə ki, Quran buyurur:

"Onlar Yusifin köynəyinin üstünə yalandan bir qan ləkəsi yaxıb gətirmişdilər. Yəqub dedi: "Xeyr! Sizin öz həvayi-nəfsləriniz bu işi sizə gözəl göstərmişdir. Mən gözəl və yaxşı səbr etməliyəm. Dediklərinizin yalan olduğunu (sübut etməyə isə) ancaq Allahdan kömək istəyirəm".[2]

Bu ayədə "səvəllət" cümləsi ərəbcədən "təsvil" kökündən olub "zinət vermək" mənasındadır. Bəzən onu "rəğbətləndirmək", bəzən də "vəsvəsə etmək" mənaları kimi təfsir edirlər. Ümumilikdə, bunların hamısını bir mənada cəm etmək olar ki, tüğyanedici həvəslər, insanın ruhuna və fitrətinə sahib çıxdıqda ən çirkin günahları, o cümlədən, qətlə yetirmək və ya qardaşı sürgün etməyi, insanın nəzərində elə zinətləndirir ki, günah sahibi onu zəruri və müqəddəs bir əməl kimi təsəvvür edir. Bu da ruhi məsəllərdə ümumi bir qanuni yoldur. Hər hansı bir məsələyə ifrat dərəcədə meyl etmək, xüsusilə bu meyl, çirkin əxlaqla yanaşı olduqda, insanın həqiqəti aramaq fikrinin üstünə pərdə çəkilir və həqiqətlər onun nəzərində tamamilə dəyişir. Ona görə də insan nəfsini pak etməyincə düzgün və doğru şəkildə mühakimə yürüdə bilməz.

---

[1] Məcmueyi-Vərram, cild 2, səh 4.

[2] Yusif surəsi, ayə 18.

O gələcək...

Bu əhvalatdan aydın olur ki, Yusifin qardaşları yalandan qanlı köynək düzəltməklə öz yalanlarını doğru və düzgün şəkildə cilvələndirməklə **müsəvvələ nəfsin** (aldadıcı nəfsin) vasitəsilə ən böyük cinayəti edirlər. Həmin əhvalatda qardaşlar, Misirdən qayıdıb qardaşlarının oğurluq xəbərini atalarına verdikdə Yəqub (ə) buyurdu:

"Sizin öz nəfsiniz mövzunu nəzərinizdə belə zinətləndirdi. Mən səbr edirəm. Gözəl səbr. Ümidvaram ki, Allah onların hamısını mənə qaytarsın. Çünki O, bilən və hikmət sahibidir".[1]

Samiri

Quran buyurur: **"Musa Tövratın lövhələrindən ötrü Tur dağına gedir. Gedərkən camaata buyurur: Mənim bu işim otuz gün çəkəcək. Ancaq, Allah onun işini on gün də artırır, qırx gün çəkir. Bu on günlük gecikmə fasiləsində Samiri adlı şəxs Bəni-İsraili aldada bilir və onları buzova pərəstiş etməyə vadar edir. Həzrət Musa qayıdır və belə bir narahatedici mənzərə ilə rastlaşır. Əvvəlcə, qardaşı Harunu danlayıb məzəmmət edir. Qardaşının təqsirkar olmadığı məlum olduqda Samirini xitab qərar verib, buyurdu: Ey Samiri! Nəyə görə bu işi gördün? Samiri belə cavab verdi: Mən onların görmədiklərini gördüm. Mən o rəsulun (Allah elçisinin) ləpirlərindən bir az götürdüm sonra onu atdım. Beləcə, öz nəfsim məqsədimi gözlərim önündə cilvələndirdi!"**[2]

Samiri təkəbbürlü və özündən razı bir şəxs idi. Özünün ayıqlığı, qüdrəti və xüsusi məharəti vasitəsilə İsrail övladlarının zəif cəhətlərindən istifadə edib böyük bir fitnə yarada bilmişdi. Musanın (ə) zəhmətlərini görməməzliyə vurub, əhalini buzovpərəstliyə dəvət etmişdi.

Ayədə Samiri, öz çirkin əməlini, yəni, İsrail övladlarını zəlalətə salmasını **müsəvvələ nəfsinə** və ya özü-özünü aldatmasına nisbət verir. Söyləyir: **"Beləcə nəfsim məqsədimi gözlərim önündə cilvələndirdi."**

Ayədəki, **"Mən o rəsulun (Allah elçisinin) ləpirindən bir az götürdüm"** cümləsində, "ləpirdən" məqsəd, ayağın altında olan torpaqdır. "Atdım" sözündən məqsəd isə o torpağı qızıldan düzəldilmiş buzovun heykəlinin içinə atmasıdır. Yaxud, belə mənalandırmaq olar ki, "iz və ya ləpirdən" məqsəd, təlimatlardan bir qismini bilmək, "atmaq"dan məqsəd isə "Musanın təlimatlarını kənara atmaqdır."

[1] Yusif surəsi, ayə 83.
[2] Taha surəsi, ayə 96.

O gələcək...

Hər iki ehtimal olunmuş mənanın hansını qəbul etsək, belə bir mənanı çatdırmaq istəyir ki, Samiri, İsrail övladlarını zəlalətə salmaq əməlində öz nəfsinə aldanmış və belə bir böyük cinayətə əl atmışdır.

Həsən Bəsrinin müsəlman ümmətində Samiri rolunu oynaması

Təbərsinin “Ehticac” kitabında belə bir hədis nəql olunur: Əmirəlmöminin Əli (ə) Bəsrəni fəth edən zaman əhali onun ətrafına yığışır. Onların arasında Həsən Bəsri adlı bir şəxs özü ilə yazı yazmaqdan ötrü xüsusi lövhələr gətirmişdi. Həzrət Əlidən (ə) hər nə söz eşidirdisə, dərhal yazırdı. İmam Əli (ə) əhali arasında ondan uca səslə nə etdiyini soruşduqda cavab verir:

- Sizin əsərlərinizi və sözlərinizi gələcəkdə araşdırmaqdan ötrü qeydə alıram!

Əmirəl-möminin (ə) buyurdu:

“Agah olun! Hər bir tayfanın və cəmiyyətin bir Samiriyə bənzər şəxsi var. Həsən Bəsri də bu ümmətin Samirisidir. Təkcə, Musanın (ə) dövründəki Samiri ilə fərqi budur ki, hər kim Musanın (ə) dövründəki Samiriyə yaxınlaşsaydı, deyərdi ki, mənimlə ünsiyyətdə olmayın. Lakin bu Samiri əhaliyə deyir ki, döyüşmək olmaz, hətta yolunu azmışlarla olsa belə.” Bu sözlər, Həsən Bəsrinin Cəməl döyüşünə qarşı etdikləri təbliğlərinə görə idi.[1]

4. MÜTMƏİNNƏ NƏFSİ

Nəfsin mərtəbələrindən biri də, **mütməinnə** (arxayın, xatircəm olan) **nəfsdir**. Bu mərtəbə, nəfsin ən uca mərtəbəsidir. Qurani-kərimdə belə oxuyuruq:

“Ey xatircəm olan nəfs! Rəbbinə tərəf dön! Sən ondan, O da səndən razı olaraq! Bəndələrimin zümrəsinə daxil ol! Cənnətimə daxil ol!”[2]

Pərvərdigari-aləmin, iman sayəsində xatircəmlik və arxayınlıq halında olan nəfsi Behiştə dəvət etməsi necə də səfalıdır! Hər iki tərəfin razılığı ilə qarışmış dəvət, öz məşuquna qəlbini vermiş aşiqin razılığı və onun ardınca məhbub və həqiqi məhbubun razılığı! Bəndələrin iftixar, bəndəlik libası ilə onu fəxri etmək, xüsusi şəxslərin yolunu ona vermək və nəhayət, mömini Behiştə dəvət etmək!

---

[1] Təfsiri Nur Səqəleyn, cild 3, səh 392.

[2] Fəcr surəsi, ayə 27-30.

Xatircəmlik, bir sıra dəyişiklikdən sonra qəlbdə olan sakitlik və aramlıqdır. Nəfsin sakitliyi, yəqinliyə və mərifətə çatmış haldır. Məşhur alim Kaşifi yazır:

"Ey xatircəm nəfs! Çətinlikdə və nemətli hallarda səbirli və dözümlü olub, Mənə şükr etdin! Allahın Öz kəramətindən sənə verdiyi yerə qayıt. Sənə verdiyim nemətlərdən razı olduğun halda!"[1]

Mütməinnə nəfsi ölüm zamanı

Mütməinnə nəfsinin ən gözəl cilvəsi, insanın ölüm vaxtı və xatircəmliklə bu maddi aləmi tərk edib əbədiyyət aləminə qovuşması zamanı aşkara çıxır. Ravilərdən biri İmam Sadiqdən (ə) bu hal barəsində nəql edərək, yazır:

"İmam Sadiqə (ə) ərz etdim: "Qurbanın olum! Ey Peyğəmbərin (s) övladı! Məgər möminin ruhunun bədənindən çıxmasından ikrah edərmi?"

Buyurdu: "Xeyr! Allaha and olsun, ölüm mələyi gələndə möminin ruhu azca narahat olar. Ölüm mələyi ona deyər: "Ey Allahın dostu narahat olma! And olsun o Allaha ki, Peyğəmbəri (s) göndərmişdir. Mən sənə atadan da mehribanam! Əgər sənin yanına gəlsə, gözlərini aç və gör!"

Sonra buyurdu: "Mömin can verəndə, Peyğəmbər, Əli, Fatimə, Həsən, Hüseyn və başqa imamlar (ə) onun yanında olarlar. Ona deyərlər: "Ey Muhəmmədin övladlarına görə aram tutmuş nəfs! Əlinin (ə) vilayətini qəbul edib, Rəbbinin sənə verdiyi mükafatdan razı halda ona tərəf qayıt! Muhəmməd və onun Əhli-beyti kimi bəndələrimin zümrəsinə gəl və Behiştə daxil ol! Ruhun yanında o səsdən yaxşı və nida edəni görməkdən başqa yaxşı şey yoxdur".[2]

Kamilliyin son mərhələsi, nəfsin istəkləri ilə mübarizə aparmaqdır

İnsanın kamilliyə çatmasından ötrü ilk mərhələdə, insan öz nəfsini tanımalı və bütün maddi meyllərinə göz yummalıdır. Bu mənanı Müşace adlı ravi, İslam Peyğəmbərindən (s) nəql edir:

Ğəvali-Ləali kitabının müəllifi, bəzi xəbərlərdə nəql edir ki, Mücaşe adlı bir kişi, İslam Peyğəmbərinin (s) hüzuruna gəlib və o həzrətə çoxlu suallar verir. O cümlədən soruşur:

[1] Təfsiri Ruhul-bəyan, cild 10, səh 432.
[2] Təfsiri Nur Səqəleyn, cild 5, səh 577.

O gələcək...

“Ya Rəsulallah! Haqqı tanımağın yolu nədir?”
Peyğəmbər (s) cavab verir: “Nəfsi tanımaqlıqda!”
Soruşur: “Haqla müvafiq olmağın yolu nədir?”
Buyurur: “Nəfslə müxalifətçilik etmək”.
Soruşur: “Haqqın razılığına çatmağın yolu nədir?”
Buyurur: “Nəfsi qəzəbə gətirmək”.
Soruşur: “Haqqa çatmağın yolu nədir?”
Buyurur: “Nəfsin meyllərindən mühacirət etmək”.
Soruşur: “Haqqa itaət etməyin yolu nədir?”
Buyurur: “Nəfsin istəklərindən boyun qaçırmaq”.
Soruşur: “Haqqı xatırlamağın yolu nədir?”
Buyurur: “Nəfsi unutmaqlıq”.
Soruşur: “Haqqa yaxın olmağın yolu nədir?”
Buyurur: “Nəfsdən uzaqlaşmaq”.
Soruşur: “Haqla ünsiyyətdə olmağın yolu nədir?”
Buyurur: “Nəfsdən qorxmaq”.
Soruşur: “Bütün bunların hamısı ilə ünsiyyətdə olmağın yolu nədir?”
Buyurur: “Nəfslə mübarizə aparmaqdan ötrü Allahdan kömək istəmək”.[1]

Bu maraqlı hadisədə, insanda kamilliyin ən yuxarı həddinə çatmasını, onun haqqa yetişməsi və nəfsi ilə müxalifətçilik etməsində görür. Hədisdə, haqqın müqabilində zikr olunan yollar daha diqqətə layiqdir. Haqqı və nəfsi tapmaq, haqqla müvafiqlik və nəfslə müxalifətçilik, haqqın razılığı və nəfsdən uzaqlaşmaq, haqqa itaət və nəfsi unutmaq, haqqa yaxınlaşmaq və nəfsdən uzaq olmaq.

İslam Peyğəmbərinin (s) bu hədisdə qeyd etdiyi vəsfləri ələ gətirməklə insan əsl ariflər sırasına düşə bilər.

NƏFSİN FİQHİ CƏHƏTDƏN HÜQUQU

Nəfsin hüququ bəhsinin sonunda, onu fiqhi cəhətdən araşdıracağıq. Qurani-kərimdə istifadə olunan (nəfsin) mənalarından biri də “həyat” (və insanın canı) mənasındadır. Elə bir məna ki, insanın ondan üstün heç bir qiymətli şeyi yoxdur. Qurani-kərim insanın canının qiymətini belə bəyan edir:

[1] Müstədrəkül-Vəsail, cild 2, səh 270.

O gələcək...

"**Hər kəs bir kimsəni icazəsi və haqqı olmadan, yaxud, yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o bütün insanları öldürmüş kimi olur. Hər kəs birisinin həyatının davam etməsinə səbəb olsa, o bütün insanları diriltmiş kimi olur."**[1]

Quran, günahsız bir mömini öldürməyi, ən böyük günahlardan sayır və cəriməsini bütün cərimələrdən üstün hesab edir.

"Hər kəs bir mömin şəxsi qəsdən öldürsə, onun cəzası əbədi qalacağı cəhənnəmdir. Allah ona qəzəb və lənət edər, (Axirətdə) onun üçün böyük əzab hazırlayar."[2]

Quran başqa yerdə buyurur: "**Haqsız yerə öldürülən məzlum bir şəxsin sahibinə qisas ixtiyarı verdik. Lakin, o da qətl etməkdə ifrata yol verməsin."**[3]

Qisas hökmü, Qurani-kərimin əbədi hökmlərindən biridir:

"Ey ağıl sahibləri, bu qisas [qisas hökmü] sizin üçün həyat deməkdir."[4]

Qətl üç qisimdir:

1.Qəsdən öldürmə.

2.Qəsdən öldürməyə oxşama.

3.Səhvən öldürmə.

Qəsdən qətlə yetirməkdə oldürülmüş şəxsin sahibinin ixtiyarı var ki, ya qisas alsın, ya da qan bahası almaqla qatili əfv etsin. Amma, qəsdən öldürməyə oxşar və ya səhvən qətldə qisas yoxdur. Öldürülən şəxsin yaxın qohum-əqrəbası yalnız, qan bahası ala bilər. Qəsdən öldürməyə oxşar olan qətldə buyurulur ki, ölüm, öldürücü alətlərlə olmasın (bıçaq və s.). Qatilin də öldürmək qəsdi olmasın. Lakin, zərbə nəticəsində ölüm hadisəsi baş vermiş olsun.

Quran baxımından qisas, cəmiyyətdə həyata zəmanət verəndir. Qisas hökmünü qadağan etmək canilərə meydan verməkdir. Bununla belə qisas hökmündə ifrata yol vermək haramdır. Azad insanın qan bahası aşağıdakılardan biridir:

1 - Altı yaşına keçmiş yüz dəvə; 2 - 200 inək; 3 -1000 qoyun; 4 - 200 top Yəmən parçası; 5 - Hər misqalı 18 noxud olan, 1000 şəri qızıl misqal; 6 - 10000 dirhəm.

Xatırladaq ki, qadının qan bahası, kişinin qan bahasının yarısı qədərdir.[5]

---

[1] Maidə surəsi, ayə 32.
[2] Nisa surəsi, ayə 93.
[3] İsra surəsi, ayə 33.
[4] Bəqərə surəsi, ayə 179.
[5] Muxtəsərun-nafe, kitabe diyad, səh 294.

O gələcək...

BƏDƏN ÜZVLƏRİNİN HAQQI

3. DİLİN HAQQI

وَأَمَّا حَقُّ اللِّسَانِ فَإِكْرَامُهُ عَنِ الْخَنَى وَتَعْوِيدُهُ عَلَى الْخَيْرِ وَحَمْلُهُ عَلَى الْأَدَبِ وَإِجْمَامُهُ إِلاَّ لِمَوْضِعِ الْحَاجَةِ وَالْمَنْفَعَةِ لِلدِّينِ وَالدُّنْيَا وَإِعْفَاؤُهُ عَنِ الْفُضُولِ الشَّنِعَةِ الْقَلِيلَةِ الْفَائِدَةِ الَّتِي لَا يُؤْمَنُ ضَرَرُهَا مَعَ قِلَّةِ عَائِدَتِهَا. وَيُعَدُّ شَاهِدَ الْعَقْلِ وَالدَّلِيلَ عَلَيْهِ وَتَزَيُّنَ الْعَاقِلِ بِعَقْلِهِ حُسْنُ سِيرَتِهِ فِي لِسَانِهِ. وَلَا قُوَّةَ إِلا بِاللهِ الْعَلِيِّ الْعَظِيمِ.

“Dilin haqqı (hüququ) budur ki, onu çirkin işlərə bulaşdırmaqdan qoruyub, hörmətini saxlayasan. Əksinə, onu yaxşı və ləyaqətli söz deməyə vadar et! Onu ədəbli və yerində saxla! Yalnız ehtiyac olanda dünya və Axirətinə faydası olan zaman ondan istifadə et! Onu çox danışdırmaqdan və zərərindən amanda qalmadığın faydasız sözlərdən qoru! Dil, ağıla şahidlik edəndir. Ağılın zinəti dilin vasitəsi ilədir. Böyük Allahdan başqa heç bir tərəfdən güc-qüvvət yoxdur!”

İmam Səccad (ə) dil barəsində buyurur: “Onu bütünlüklə Allah yolunda itaətdə saxla və yeddi üzvünün hüquqlarını qoru. O həzrət bədənin əzalarının hüququnda, əvvəlcə dildən başlayır və onu qorumağın yolunu bəyan edir.

DİL, İNSANDA ƏN BÖYÜK NEMƏTDİR

Şübhəsiz, yaradılış aləmində insana məxsus olan ən böyük ilahi nemətlərdən biri də, dil və danışmaqdır.

“**Ər-Rəhman**” surəsinin 3-4-cü ayələrində bu böyük nemətə aşkar şəkildə işarə olunur və buyurur:

“İnsanı yaratdı, ona danışmağı (fikrini və duyğularını bəyan etməyi) öyrətdi”.

Müfəssirlər ayəyə belə məna vermişlər. Bir şeyin üzərindən pərdə götürmək. Dil insanın batinindən xəbər verir və onun mütərcimidir. Pərdələri kənara atır və qəlbdə olanların hamısını izhar edir. Əgər dil olmasaydı, bəşər də, digər heyvanlar kimi sakit qalar, anlamaq və anlatmaq qapısı onun üzünə bağlı qalardı.

O gələcək...

Dillərin müxtəlifliyi ilahi əlamətdir

Allah-taala Qurani-kərimdə buyurur:

"Göylərin və yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun qüdrət əlamətlərindəndir. Şübhəsiz ki, bunda bilənlər üçün nişanələr vardır".[1]

Dil, insanı tanımağın amilidir

Hər bir şəxsi tanımağın müxtəlif yolları vardır. Onlardan biri də onun danışığıdır. Hər bir insan, şəxsiyyətini öz dili ilə tanıtdırır. Dil, onun batininin gözəl və ya çirkin olmasının göstəricisidir. Hər bir kəsin sözündən, onun saleh və ya fasiq şəxs olduğunu anlamaq olar. Həzrət Cavad (ə) buyurur:

"Kişi öz dilinin altında gizlənmişdir".[2]

Dil, pərdələri kənara atır və həqiqəti cilvələndirir.

Dilin mahiyyəti və maddəsi

Həzrət Əli (ə) dil barəsində qısa bir cümlə söyləyib və dilin həqiqətini tam mənada aydınlaşdırmışdır. Həzrət (ə) buyurur: **"Dilin çəkisi çox az, lakin günahı çox ağırdır!"**

Allahın insana bəxş etdiyi əzaların hər birisinin xüsusi vəzifəsi vardır. Məsələn, gözün, rəngləri və şəkilləri görməkdən başqa qüdrəti yoxdur. Qulağın, səsləri, danışıqları eşitməkdən başqa bir qabiliyyəti yoxdur. Əl, cisimləri ləms etməklə ayırd edə bilər. Lakin dilin meydanı genişdir. Xeyir və şər meydanı, xoşbəxtlik və bədbəxtlik meydanı vardır. Nə vaxt xeyirə söz danışarsa, səadət meydanında dolanır və hər zaman pisliyə və şər danışarsa, insanı yolundan azdırmaqdan ötrü Şeytanın ən böyük tələsinə çevrilə bilər.

Cəmiyyətin islah və ya fəsada getməsində dilin rolu

Cəmiyyətin islah və ya fəsada doğru getməsindən ötrü müxtəlif yollar var. Ən təsiredici yollardan biri, həmin "**söz danışmaqdır**".

Hər bir zirək və söz ustası cəmiyyəti islaha, insani dəyərlərə və fəzilətlərə tərəf çəkə bilər. Həmçinin əksinə, həmin şəxs cəmiyyəti səadət yolundan ayırıb fitnə-fəsad, çirkinlik və əxlaqi pozğunluğa çəkə bilər.

---

[1] Rum surəsi, ayə 22.

[2] Müntəhəl-amal, cild 2, səh 358.

Mahir söz ustası, tənbəllik və uçuruma uğramış cəmiyyəti hərəkətə gətirərək, onların həyatını dəyişə bilər. Həmçinin cəmiyyətin tünd həssasiyyətlərini və alovlarını söndürüb, onları hər şeyə qarşı biganə edə bilər. Xətib, haqq tələbində olan cəmiyyəti batilə doğru, həmçinin batil yolda qərar tutmuş cəmiyyəti isə haqqa doğru çəkə bilər. İndi də bu mövzuda bir neçə nümunə gətirək:

Həzrət Əlinin (ə) şəhadət xəbəri bütün islam şəhərlərinə yayıldı. Həzrətin (ə) mehrabda şəhadətə çatması xəbəri Şama yetişəndə, Müaviyənin öyrətdiyi şəxslərin yalan təbliğinin təsirindən aldanmışlardan bəziləri dedilər: "Məgər Əli namaz və mehrab əhli olub?"

İnsanların ən abidi olub, ömrünü namazı təbliğ etmək yolunda döyüşdə keçirən, namaz halında müqəddəs budundan oxu çıxarılan və bunu hiss etməyən bir şəxs, indi Şamda namazsız bir insan kimi tanıtdırılıb. Əhali onun məscidə getməsindən təəccüblənir. Bu, dilin haqqı batil sifətində cilvələndirməsinin nəticəsidir.

Bosr ibn Ərta və Bəni-Həmdan qəbiləsi

Müaviyə, Bosr ibn Ərtanı Bəni-Həmdana hakim təyin etdiyi vaxt o, heç bir cinayətdən geri qalmayıb, elə bir zülm edirdi ki, nəfəslər sinələrdə boğulub, heç kəs söz danışmağa belə cürət etmirdi.

Belə bir həssas və böhranlı vəziyyətdə, şücaətli və şir ürəkli Sudə adlı bir qadın, müqəddəs dinin hörmətini və əhalini qorumaqdan ötrü Şama yola düşür. Müaviyəyə xəbər verilir ki, Sudə adlı bir qadın sənninlə görüşmək istəyir. Müaviyə təəccüblə deyir: "Göydə gəzdiyim bir şəxs, öz ayaqları ilə sarayıma gəlib». Sudənin gəlməsinə icazə verir. Sudə saraya daxil olub Müaviyəyə acı bir salam verir. Müaviyə soruşur: "Gördün ki, axırda əlacsız qalib bizim xilafətimizə salam verdin!"

Sudə onun cavabında deyir: "Özünə güvənmə! Hər bir şeyin sonu və zamanı var. Bu müvəqqəti məqama ürək bağlama. Tezliklə, vaxtın sona yetəcək."

Müaviyə deyir: "Ey Sudə! Əlinin qoşunu döyüşərkən onların arasında qəhrəmanlıq şeri oxumağını xatırlayırsanmı? De görüm, bu işdən məqsədin nə idi? Sözsüz ki, mənim həlakət və məhv olmağımı istəyirdin? O şerlərdən bir də oxu!"

Sudə cavabında deyir: "Sənin zülmkarlığın və amansızlığın hər şeyi yadımdan çıxarıb. Mən indi sənin yanına Bosr ibn Ərtadan şikayətə gəlmişəm. O, bizlərə zülm edir, əhalinin mallarını qarət edir və kişilərimizi qətlə yetirir. Müaviyə deyir: "İndi səni onun yanına gön-

O gələcək...

dərərəm və sənlə nə cür istəsə, rəftar etsin. Sudə bu məzmunda şeri zəmzəmə edir:

Allahın salam və rəhməti o pak bədənə olsun ki, qəbir onu özünə çəkdi və onun getməsi ilə ədalət onunla dəfn olundu!

Müaviyə dedi: "O şəxsdən hədəfin kimdir? Cavab verdi: Ağam Əli (ə), ey Müaviyə! Necə ki, bu gün sənin yanına şikayətə gəlib kömək istəyirəm və sən mənə belə cavab verirsən, günlərin birində məsulların birindən şikayət etməkdən ötrü Əlinin (ə) yanına getdim. O həzrət tək idi. Namaz qılmaq istəyirdi. Gözləri məni görcək soruşdu: Nə işdən ötrü gəlmisən? Cavab verdim: Sənin təyin etdiyin qoşun başçısından şikayətə. Ey Əli!

Əli (ə) əllərini üzünə tutub, uca səslə ağlamağa başladı və ərz etdi:

"İlahi! Sən özün şahidsən ki, mən onu bəndələrinə zülm etməkdən ötrü göndərməmişəm."

O vaxt həmin şəxsin işdən götürülməsi barəsində əmrini yazıb mənə verdi. Amma, sən şikayətə yetişmək əvəzinə məni qorxudursan! Budur Əli ilə sənin fərqin! Müaviyə qəmgin olub, əlacsız halda Bosr ibn Ərtana cinayət və qətllərdən əl çəkməsi haqda məktub yazır.

Bəli, dil elə bir iti bıçaqdır ki, hərəkətə gəldiyi zaman Müaviyə kimi daş ürəkli bir şəxsi belə dəyişdirir. O vaxt Müaviyə dedi: Əli ibn Əbi Talib sizi məğrur edib. O sizin tayfanın barəsində belə söyləyir:

Əgər Behiştin qapısı olsam, Həmdan qəbiləsinə deyərəm: Salamatçılıqla Behiştə daxil olun![1]

BƏLAĞƏTLİ SÖZÜN TƏSİRİ

Bu barədə başqa bir nümunəyə işarə edək. Əli ibn Əbu Taliblə (ə) Müaviyənin arasında çoxlu məktublaşmalar olub. Onlardan birini Əli (ə) xoş surət və xoş söz danışan Termah adlı birinə verib Müaviyəyə göndərir.

Termah uzaq yol keçib Şama çatır. İlk dəfə Müaviyənin müşaviri Əmr ibn As və Yəzidlə görüşür. Bu iki nəfərə sözlə qalib gəlib onları utandırır. Sonra Müaviyə ilə görüşür. Onu da özünün təsiredici danışığı ilə təsir altına alır.

Müaviyə qərara alır ki, bu gözəl danışıq qabiliyyəti olan şəxsi alsın və öz xeyrinə istifadə eləsin. Ona görə də, ona deyir: "Ey ərəb! Əgər sənə bir şey versəm, qəbul edərsən? Cavab verir: "Nəyə görə qəbul etməyim?

[1] Əlamun nisa, cild 2, səh 270.

O gələcək...

Sənin canını bədənindən çıxarıb almaq istəyirəmsə, nəyə görə pulunu da qəbul etməyim?»

Müaviyə göstəriş verir ki, ona 10000 dirhəm pul versinlər. Müaviyə deyir: "Əgər azdırsa de artırsınlar. Səfir cavab verir: "Göstəriş ver ki, artırsınlar. Sən ki, atanın pulundan vermirsən? Müaviyə əmr edir ki, 10000 dirhəm də artırsınlar. Bu vaxt Termah deyir: "Göstəriş ver ki, 10000 dirhəm də artırsınlar. Bunula 30000 min dirhəm olsun. Çünki, Allah da təkdir.

Termah dirhəmlərin yolunu gözləyib onların verilməsini gördükdə, Müaviyəyə deyir: "Məni məsxərə edirsən? Sənin sözlərin dağ başından əsən küləklərə bənzəyir.»

Müaviyə göstəriş verir ki, pulları versinlər. Bu vaxt Əmr ibn As ona deyir: "Əmirəl-möminin verdiyini necə gördün? Termah cavab verir: "Bu müsəlmanların malı olub, İlahi xəzinədən bəndələrindən birinə qismət oldu. O, kimdir?!»

Bu zaman Müaviyə dedi: "Bu kişi dünyanı gözümdə qaraltdı."

Sonra öz katibini çağırtdırıb, Əlinin (ə) məktubuna çaşqınlıqla cavab yazdırdı.

Termah dedi: "Ey Müaviyə! Əlini döyüşlə qorxudursan? Su quşunu su ilə qorxudursan? Allaha and olsun! Əlinin (ə) elə böyük xoruzu var ki, sənin bütün əsgərlərini öz çətənəsində yerləşdirər. Müaviyə dedi: "Düz deyir. O, Malik Əştərdir!"

Termah getdikdən sonra Müaviyə öz ətrafındakılarına müraciət edib dedi: "Mənim nəyim varsa, sizə versəm də, bu səhrada yaşayan kişinin Əliyə elədiyi xidmətin onda birini mənə xidmət edə bilməzsiniz. Əmr ibn As dedi: "Əgər Əlinin Peyğəmbərə olan nisbət və onun yanındakı fəziləti səndə də olsaydı, biz də sənə daha çox xidmət edərdik. Müaviyə dedi: "Allah ağzını əysin! Allaha and olsun! Sənin sözlərin o ərəb kişinin sözlərindən də baha oturdu.

İmam Səccad (ə) buyurur:

"Dilini xeyirə, saleh işlərə və yaxşı sözlərə adətləşdir.»

Bəli, dil, islam və haqqa xidmət yolunda işə düşdükdə, belə bir əzəmət tapır və Müaviyə kimi düşməni diz çökdürüb, hökumət və dünyanı onun gözündə qaranlıqlaşdırır.

Sakitliyin hikməti

Bir sıra rəvayətlərdə dilin sakit dayanmasına tövsiyə olunmuşdur. Belə ki, bəzən sakitliyi danışmaqdan üstün hesab etmişlər. Bu sakitlik nədir və hansı yerlərdə olar?

O gələcək...

Əvvəlcədən qeyd etdiyimiz kimi dil, insanın şərhi halını bəyan edən və onun batinindən xəbər verəndir. Dil, hər bir insanın şəxsiyyətinin göstəricisidir. Bununla belə dilə bir sıra zərər və ziyanlar ariz olur. Əli (ə) bu barədə buyurur:

"Dil elə bir yırtıcıdır ki, əgər azad olsa, yara vurar".[1]

Başqa yerdə buyurur:

"Bəşərə təəccüblənin ki, bir tikə piylə görür, bir tikə ətlə danışır və bir tikə sümüklə eşidir və burun deşiyi ilə nəfəs alır!"[2]

DİL, BEHİŞT VƏ YA CƏHƏNNƏMƏ DAXİL OLMAĞIN ƏN MÜHÜM AMİLİ

Səhl ibn Saidi, İslam peyğəmbərindən (s) nəql edir ki, buyurdu:

"Hər kəs mənə, iki dodağın və iffətin, yəni dil və namusunu qorumağı zəmanət versə, mən də Behişti ona zəmanət verərəm".[3]

İslam peyğəmbərindən (s) insanları Behiştə getmələrinə səbəb olan amillərdən soruşurlar. Həzrət (s) cavabında buyurdu: **"Təqvalı və yaxşı xasiyyətli olmaq".** Yenə də soruşurlar: "İnsanların Cəhənnəmə getmələrinin ən çox səbəbi nədir? Buyurdu: **"Ağzını və iffətini gözləməmək!"**

Məaz ibn Cəbəl İslam peyğəmbərindən (s) soruşdu: "Məgər danışıqlarımıza görə sorğu-sual olunacağıq?"

Həzrət buyurdu: **"Anan sənə ağlasın! Məgər Cəhənnəmə düşməkdən ötrü dil yaralarından böyük amil varmı?"**

İslam peyğəmbəri (s) bu üç danışıq və bəyanda insanın ən böyük səadətini, yersiz danışığın tərki və dilin günaha düşməsini qorumaqda görür. Bu da insanın Behiştə daxil olmasının ən böyük və mühüm amillərindəndir.

Ənəs ibn Malik İslam peyğəmbərindən (s) belə buyurduğunu nəql edir:

"Bəndənin imanı o vaxt möhkəm olar ki, qəlbi möhkəm olsun. Qəlb o vaxt möhkəm olar ki, dil möhkəm olsun və qonşusuna əziyyət edən şəxs heç vaxt Behiştə daxil olmaz!"[4]

---

[1] Nəhcül-bəlağə, 57-cu hikmət.
[2] Nəhcül-bəlağə, 7-ci hikmət.
[3] Əl-Mühəccətül-beyza, cild 5, səh 192.
[4] Əl-Mühəccətül-beyza, cild 5, səh 193.

O gələcək...

Bu hədisdə iman durumu qəlbin durumuna, qəlbin durumu da dilin sakitliyinə bağlanır. Yəni hər bir kəsin dili öz yerində olmazsa, vücudunun heç bir yerində aramlıq və möhkəmlik olmaz.

Susmaq ən asan ibadətdir

Səffan ibn Səlim İslam peyğəmbərindən (s) belə nəql edir:

"Sizə insanın bədəninə ən az zəhmət verən ən sadə ibadəti tanıtdırımmı? Biri sükut, digəri isə yaxşı xasiyyət."[1]

Bura ibn Azəb nəql edir: Ərəblərdən birisi İslam peyğəmbərinin (s) hüzuruna gəlib dedi: "Mənə elə bir əməl öyrət ki, Behiştə gedim".

Həzrət buyurdu: **"Ac müsəlmanı doydur! Susuza su ver! Yaxşı işlərə dəvət və pis işlərdən çəkindir. Əgər qüdrətin olmasa, dilini xeyir olmayan işlərdən qoru!"**[2]

Yenə də İslam peyğəmbəri (s) buyurur:

"Möminin dili, onun qəlbinin arxasındadır. Söz demək istədikdə, əvvəlcə sözü qəlbə nişan verir. Belə ki, əgər qəlb imzalasa və icazə versə, söz danışır. Əgər icazə verməsə, ağzını yumur. Münafiq isə möminin əksinədir!"[3]

Həmçinin nəql olunur ki, bir dəstə Müaviyənin sarayında söhbətə məşğul idi. Əhnəf ibn Qeys də kənarda oturub danışmırdı. Ona dedilər: "Ey Əbu Bəhr! Nə üçün danışmırsan?"

Belə cavab verir: "Əgər yalan desəm, Allahdan qorxuram! Əgər doğrusunu desəm, sizdən qorxuram. Yaxşı olar ki, heç danışmayım!"

Söylədiyimiz bütün rəvayətlərdən sakitliyin əhəmiyyəti aydın oldu. İnsan susarkən, günahların xətərli təsirindən amandadır. Aqil insan öz sözünü ağlın və vicdanın qəzavətinə nişan verər. Əgər danışmağa icazə verməsə, susar. İnsanı susmağa təşviq edən rəvayətlər, onun yersiz danışıqların acı nəticəsindən qorunmasına işarədir. Yaxud, qeyd edildiyi kimi danışıq hər bir fərdin və cəmiyyətin təkamül və inkişaf amilidir.

DİLİN BƏLALARI

Əxlaq elminin alimləri deyirlər: Aləmdə hər bir şeyin bəlası vardır və dil də bu qanundan müstəsna deyil. Onun da çoxlu bəla və zərərləri var. Bəzi alimlər, dilə iyirmi ədəd bəla sayıblar. Onlara xülasə şəkildə işarə edirik:

[1] Əl-Mühəccətül-beyza, cild 5, səh 194.
[2] Əl-Mühəccətül-beyza, cild 5, səh 195.
[3] Əl-Mühəccətül-beyza, cild 5, səh 198.

O gələcək...

1. Faydasız danışıq

İnsanın xeyrinə olmayıb, ancaq vaxtını tələf etməsi dilin zərərlərindən biri sayılır. İslam peyğəmbəri (s) bu barədə buyurur:

"İslamın gözəlliyindən biri də odur ki, müsəlman faydasız danışıqdan çəkinsin."[1]

2. Həddən artıq danışmaq

İslam peyğəmbəri (s) buyurur:

"Xoş o kəslərin halına ki, həddən artıq danışmaqdan çəkinsin və malı çoxaldıqca aclara xərcləsin."[2]

3. Batillə danışmaq

Bu qəbildən olan danışıqlar qadınların və ya şərabxorların məclisinə düşüb, fasiqlər, dövlətlilər və padşahlarla danışmaqdan irəli gəlir. İslam peyğəmbəri (s) buyurur:

"Qiyamət günündə, xəta cəhətdən ən çox o şəxslərdir ki, batildə olublar!"

Quranda, Cəhənnəmə düşənlərdən, ora düşmələrinin səbəbləri kimi onların sözünə işarə edilərək, belə buyurulur: **"Biz batilə düşmüş və onlarla oynamaqla məşğul idik."**[3]

Salmandan nəql olunur, buyurur:

"Qiyamət günü ən çox günahkarlar onlardır ki, dilləri ilə ən çox günah etmişlər."[4]

4. Boş danışmaq və mübahisə

Məzəmmət etmək və mübahisə, dilin başqa zərərlərindəndir. Şəriət sahibi bu işləri qadağan etmişdir. Boş-boşuna mübahisə edənlər məzəmmət olunmuşlar. Bu barədə İslam peyğəmbərinin (s) sözlərinə işarə edirik:

"Din qardaşınla yersiz zarafatı və vədə xilafı tərk et."[5]

Başqa yerdə buyurur:

"Bəndə o zaman kamala yetər ki, yersiz danışıq və mübahisəni tərk etsin. Hətta haqq onunla olsa belə."[6]

Başqa bəyanda buyurur:

---

1 Əl-Mühəccətül-bəyza, cild 5, səh 200.
2 Əl-Mühəccətül-bəyza, cild 5, səh 200.
3 Əl-Mühəccətül-bəyza, cild 5, səh 200.
4 Əl-Mühəccətül-bəyza, cild 5, səh 200.
5 Əl-Mühəccətül-bəyza, cild 5, səh 200.
6 Əl-Mühəccətül-bəyza, cild 5, səh 208.

O gələcək...

"Hər kəs haqq onunla olan halda yersiz mübahisəni tərk etsə, Behiştin ən yüksək təbəqələrində onun üçün ev tikilər. Hər kəs yersiz mübahisəni batil olduğu halda tərk etsə, Behiştin aşağı təbəqələrində onun üçün ev tikilər."[1]

Yersiz mübahisədən məqsəd, başqasının sözünə yersiz etiraz, yaxud başqasının cümləsini söz və ya məna cəhətdən istehza etməklə izhar edəsən. Yaxud tərəf, özünün fəzilətini izhar etməklə, başqasını alçatmaq niyyətində olsun. Ümumiyyətlə, başqasına minnət qoymaq, əməldə xalis olmamaq deməkdir.

5. Düşmənçilik

Dilin zərərlərindən biri də, şəriətdə qadağan olunmuş düşmənçilikdir. Qeyd etdik ki, yersiz mübahisə, başqasının sözünə lağ etməklə və ya müxatəbə təhqir niyyətlə baxmaqdan yaranır. Həmçinin bəziləri bununla öz məzhəblərini sübuta yetirmək istəyirlər. Düşmənçilik, hər hansı bir haqqı və ya malı əldə etməkdən ötrü edilən inadkarlığa deyilir. Əbu Hüreyrə, İslam peyğəmbərindən (s) nəql edir:

"Hər kəs elm və biliksiz mübahisəyə girişib düşmənçilik etsə, dünyadan gedənə qədər Allahın qəzəbində olar."[2]

Başqa yerdə İslam peyğəmbəri (s) hər bir müsəlmanı öz sözlərində ədəb ərkanlı olmağa çağırmaqla, töhmətli və təhqirli sözlərlə başqalarını təhqir etməkdən çəkindirir. Bu yolla müsəlman ədəbli sözlərlə digərlərinin qəlbində özünə qarşı məhəbbət yaratmalıdır!

6. Danışıq həddindən kənara çıxmaq

Danışıq həddindən kənara çıxmaq, yəni danışıqda saxta və mətanətli olmamaq.

Fatimeyi-Zəhra (s), atası İslam peyğəmbərindən (s) nəql edir ki, buyurur:

"**Mənim ümmətimin ən kərahətliləri onlardır ki, ilahi nemətləri yeyir, müxtəlif təamlardan istifadə edir, rəngli libaslar geyir, amma söz danışanda özlərini zəhmətə salır və saxta sözlər danışırlar."**[3]

İslam peyğəmbərinin (s) bu sözlərindən aydın olur ki, insan söz danışarkən özünü zəhmətə salmasın, əhalinin anlaya bilmədiyi sözlərlə çalışıb özünü fəsahətli və bəlağətli cilvələndirməsin.

Amma yüksək dərəcəli maarifi, gözəl və ürəyəyatan səpkidə əhaliyə bəyan etmək nəinki pislənmir, bəlkə də dini nəzərdən ən bəyənilmiş işdir.

---

[1] Əl-Mühəccətül-bəyza, cild 5, səh 208.
[2] Əl-Mühəccətül-bəyza, cild 5, səh 211.
[3] Əl-Mühəccətül-bəyza, cild 5, səh 214

O gələcək...

7. Söyüş və nalayiq danışmaq

Söyüş və nalayiq sözlər danışmaq şəriətdə pislənilib və dilin zərərlərindən biri kimi tanıtdırılıb.

İslam peyğəmbəri (s) buyurur:

"Özünüzü söyüş söyməkdən uzaqlaşdırın. Çünki Allah söyüşü və söyüş söyməyi adət edən şəxsi sevməz."[1]

Başqa rəvayətdə Həzrətdən (s) nəql olunur:

"Hər kəs söyüş söymək xəstəliyinə tutulsa, Behişt ona haram olar və oraya daxil olmaz."[2]

Başqa bir rəvayətdə İslam peyğəmbəri (s) Aişəyə buyurur:

"Ey Aişə! Əgər söyüş kişi olsaydı və ya kişi şəklində mücəssəm olsaydı, hökmən, bütün cəhətdən ən çirkin bir şəxslərdən sayılardı."[3]

Söyüş söymək, ən çirkin və bəyənilməz sifətlərdəndir. Hər kəs bu bəlaya düçar olsa, müalicəsi barədə fikirləşməlidir. Alimlər söyüşü belə izah edirlər: "**Çirkin və xoşagəlməz işləri açıq və aydın cümlələrlə izhar etməyə söyüş deyilir."**

Hər kim söyüş söyürsə, ya qarşı tərəfi incitmək istəyir, (başqalarına əziyyət vermək haramdır), yaxud da fasiqlər və pis fitrətli şəxslərlə oturub durmaqdan belə bir adətə vərdiş etmişdir. Bütün bunlar şəriətdə pislənmişdir.

Ərəblərdən biri İslam peyğəmbərinin (s) hüzuruna gələrək ərz edir: "Mənə nəsihət və tövsiyə edin!"

Həzrət (s) buyurur: "**Allahdan qorx! Əgər bir nəfər səni səndə olan bir səbəblə məzəmmət etsə, sən onu onda olan bir eyiblə məzəmmət etmə! Nəticədə əməlin pis ağırlığı onun, savab və mükafatı sənin olacaq. Allahın yaratdığı heç bir şeyə söyüş vermə!"**[4]

Bu tövsiyədə nəzərə çarpan ən mühüm mətləblərdən biri budur ki, insan başqasının eybini bilə-bilə, onun abrını qorumaqdan ötrü hər yerdə onun üzünə vurmasın.

Əyan ibn Səmar adlı şəxs nəql edir. İslam Peyğəmbərinə (s) ərz etdim: "Ya Rəsuləllah! Mənim qohumlarımdan biri, özü şəxsiyyətcə məndən aşağı olduğu halda, mənə söyüş verir. Onun müqabilində özümü müdafiə edib, onu söyə bilərəmmi?

---

[1] Əl-Mühəccətül-bəyza, cild 5, səh 215
[2] Əl-Mühəccətül-bəyza, cild 5, səh 215
[3] Əl-Mühəccətül-bəyza, cild 5, səh 216
[4] Əl-Mühəccətül-bəyza, cild 5, səh 217

O gələcək...

İslam Peyğəmbəri (s) buyurdu: "**Hər iki nəfər ki, bir-birini söyüb təhqir edirlər və söyüş söyürlər, bir-birinə kömək edən şeytan kimidirlər.**"[1]

8. Lənət

Dilin bəlalarından biri də lənət deməkdir. Hər kəs birisini lənətləsə, onu Allahın rəhmətindən uzaqlaşdırır.

Lənət bəhsi Qurani-kərimdə bir çox ayələrdə bəyan olunmuşdur. Allah-taala bir çoxlarını Quranda lənətləmiş və onları Öz rəhmətindən məyus etmişdir. Onlardan biri də Şeytandır.

Allah-taala buyurur:

"Qiyamət gününə qədər Mənim lənətim sənin üstündən əskik olmasın!"[2]

Həqiqətləri gizlədənlər də lənətlənmişlər.

"Kitabda insanlara aşkar etdiyimiz dəlillərdən sonra göndərdiyimiz nişanələr və doğru yol göstərən ayələrimizi gizlədən şəxslər Allahın lənətinə düçar olar və bütün lənət edə bilənlər onlara lənət oxuyar!"[3]

İslam peyğəmbəri (s) ilə xaçpərəstlərlə mübahilə günündə (and içmə mərasimində) yalançılar lənətlənmişlər.

"İsanın Allah bəndəsi və peyğəmbəri olması barədə sənə göndərilən bilikdən (məlumatdan) sonra buna (İslamın əhvalatına) dair sənin lə mübahisə edənlər olsa, onlara de: Gəlin biz də oğlanlarımızı siz də oğlanlarınızı, biz də qızlarımızı siz də qızlarınızı, biz də qadınlarımızı siz də qadınlarınızı, biz də özümüzü siz də özünüzü (bura) çağıraq! Sonra Allaha yalvarıb yalançılara Allahın lənət etməsini diləyək!"[4]

"Mübahilə" lüğətdə azad etmək, bir şeyin üstündən qeyd və şərti götürməkdir. Belə ki, heyvanı öz halına buraxıb, döşlərini kisədən azad etməklə öz balasına istədiyi vaxt süd verilməsinə imkanı olan heyvana "bahil" deyirlər.

İbtihal, duada yalvarış və işi Allaha tapşırmaq mənasındadır. Əgər bəzən onu həlakət, lənət və Allahdan uzaqlaşmaq mənasında işlədilirsə, ona görədir ki, bəndəni öz halına buraxmağın nəticəsi budur.

Məna cəhətdən ayə, iki nəfərin bir-birinə nifrin etməsinə dəlalət edir. Belə ki, bir sıra şəxslər mühüm məzhəbi məsələlər barəsində bir-

[1] Əl-Mühəccətül-bəyza, cild 5, səh 217
[2] Sad surəsi, ayə 78.
[3] Bəqərə surəsi, ayə 159.
[4] Ali-İmran surəsi, ayə 61.

O gələcək...

biri ilə danışığa başlayırlar. İxtilaf zamanı Allahdan istəyirlər ki, yalançını rüsvay etsin. Bu şərif ayədə həmin bəhsdə Əhli-beytin (ə) ismət və təharətinə ən böyük dəlildir.

Kafirlər və yəhudilər Peyğəmbərin (s) zühur etməsinin intizarında idilər. Elə ki, o həzrət zühur etdi, onu tanıyandan sonra inkar etdilər. Qurani-kərim buyurur:

"Onlara Allah tərəfindən əllərindəkini (Tövratı) təsdiq edən bir kitab (Quran) göndərildiyi zaman onu qəbul etmədilər. Tanıdıqları gəldikdə isə ona inanmadılar. Allah kafirlərə lənət eləsin!"[1]

Bəzi vaxtlar İslam peyğəmbəri (s) və Əli ibn Əbu Talib (ə) də bəzi şəxslərə lənət oxumuşlar. Onlardan iki nümunəyə işarə edirik:

İslam Peyğəmbəri (s) Əbu Süfyanı yeddi yerdə lənətləmişdir.[2]

Həzrət Əlidən (ə) nəql olunur ki, buyurur:

"İslam peyğəmbəri (s) buyurur: Yeddi dəstə var ki, Allah və Peyğəmbəri onları lənətləmişdir:

1. Allahın kitabını dəyişdirəni;

2. Allahın göstərişini inkar edəni;

3. Peyğəmbərin (s) qoyduğu qanunu dəyişəni;

4. Allahın, mənim Əhli-beytimə haram bildiyini, özlərinə halal bilənlər;

5. Qüdrətli olan zaman Allahın əziz tutduğu şəxsi zəlil edənlər;

6. Allahın zəlil etdiyini əziz tutanlar;

7. Allahın haram buyurduqlarını halal bilib, Allaha ibadət etməkdə təkəbbür edənlər.[3]

Mömin lənət əhli deyil

İslam peyğəmbəri (s) buyurur:

"Hər kim iman əhlidirsə, öz vaxtını başqalarına lənət deməyə sərf etməz".[4]

İslam nəzərində heyvana da lənət demək pislənmişdir. Lənət barəsində əldə olunan ayə və rəvayətlərdən məlum olur ki, lənət mütləq şəkildə insana, heyvana və canlılara haram buyurulmuşdur. Bəzi yerlərdə Əli (ə) və övladlarına icazə verilmişdir ki, kafirlərə, münafiqlərə və haqlarını qəsb edənlərə lənət desinlər.

[1] Bəqərə surəsi, ayə 89.
[2] Səfinətul-bihar, cild 2, səh 513.
[3] Səfinətul-bihar, cild 2, səh 512.
[4] Əl-Mühəccətül-bəyza, cild 5, səh 219.

O gələcək...

9. Şeir və ğina

Dilin doqquzuncu zərəri şeir və ğina sayılır. Şəham adlı ravinin nəql etdiyi səhih rəvayətlərdən İbn Əbi Ümeyr, Əbu Bəsrin "Kafi" kitabında nəql etdiyi, həmçinin "Məanil-əxbar"dakı Əbdüləlanın rəvayəti, "Təfsiri Qummi" kitabındakı Hişamın rəvayəti, həmçinin Qurani-kərimdə gələn «**yalan sözlərdən çəkinin**»[1], **"O kəslər ki, yalan yerə şahidlik etməz**"[2] – ayələrin ğina barəsində olduğunu vurğulayırlar.

Aşağıdakı ayədəki «yalan və zor» sözü də ğina kimi təfsir edilmişdir.

"İnsanların arasında elələri vardır ki, nadanlıq üzündən xalqı Allah yolundan döndərmək və bu minvalla onu məsxərəyə qoymaq üçün mənasız oyun-oyuncaq sözləri satın alar."[3]

Amma, şeir barəsində rəvayətlərdə, iki cür nəzərlə rastlaşırıq. Bir dəstə şeri tərifləyir, başqa bir dəstə rəvayətlər isə şeri məzəmmət edir. Əlbəttə, şer və ğinadan məqsədimiz, onun mənasını nəzərə alıb dilin zərəri hesab etmək olar. Səs yalnız, dilə aid deyil və yaxşı mənalı şer tərifə layiqdir.

10. Yersiz zarafatlar

Həddən artıq yersiz zarafat, İslamda məzəmmət olunmuşdur. İslam Peyğəmbəri (s) rəvayətlərin birində buyurur:

"Qardaşınla yersiz danışmaqdan çəkin və həddən artıq yersiz zarafatdan pəhriz et!"[4]

Başqa bir hədisdə, İslam Peyğəmbəri (s) buyurur:

"Mən zarafat edirəm və həddən xaric olmuram. Həmçinin, haqq sözdən başqa bir söz demirəm."[5]

İslam Peyğəmbərinin (s) zarafatı

İslam Peyğəmbərindən (s) yaxşı zarafatlar nəql olunur. Onlardan biri də budur ki, günlərin birində qoca qadınlardan biri həzrətin hüzuruna gəlir. Peyğəmbər (s) buyurur: **"Qoca qadın cənnətə getməyəcək. Qadın ağlamağa başlayır. İslam Peyğəmbəri (s) buyurur: "Sən o gün qoca olmayacaqsan, əksinə, cavan olacaqsan!"**

---

[1] Həcc surəsi, ayə 30.
[2] Furqan surəsi, ayə 72.
[3] Loğman surəsi, ayə 72.
[4] Əl-Mühəccətül-beyza, cild 5, səh 231.
[5] Əl-Mühəccətül-beyza, cild 5, səh 232.

O gələcək...

Allah-taala Qurani-Kərimdə buyurur:

"Şübhəsiz ki, Biz Cənnət qadınlarını başqa cür (yeni bir yaradılışla) yaradacağıq! Onları bakirə qızlar, ərlərini sevən həmyaşıdlar edəcəyik."[1]

Əli (ə) buyurur:

"Gülüş gətirən zarafatın nəticəsi budur ki, ağılı aradan aparar və insanı vüqarsız cilvələndirər."[2]

11. İstehza və lağlağa

Əxlaq elminin alimləri, istehza və başqalarına lağ etməyi də dilin bəlalarından biri hesab edirlər. Allah-taala Qurani-kərimdə buyurur:

"Ey iman gətirənlər! Bir qövm digərini lağa qoymasın. Ola bilsin ki, lağa qoyulanlar lağa qoyanlardan (Allah yanında) daha yaxşı olsunlar. Qadınlar da bir-birinə rişxənd eləməsinlər. Bəlkə, rişxənd olunanlar rişxənd edənlərdən daha yaxşıdırlar. Bir-birinizə tənə etməyin, eyb tutmayın və bir-birinizi pis ləqəblərlə çağırmayın. İman gətirdikdən sonra fasiq adını qazanmaq necə də pisdir. Məhz tövbə etməyənlər zalimlərdir!"[3]

Ayədə zikr olunan ilk mövzu, müsəlman şəxsin şəxsiyyətinə ehtiramın əsasıdır. Müsəlmanlar, fərdi və ictimai qarşıdurmalardan birbirinin ehtiramlarını gözləməlidirlər. Ümumiyyətlə, maddi şəxsin tərzi-təfəkkürü, Allahı tanıyan şəxsin tərzi-təfəkkürü ilə fərqlidir. Maddiyyata etiqadlı insan, şəxsiyyətinin ehtiramını, bədənin vəzni və gözəl çöhrədə axtarır. Lakin, müsəlman şəxs, tərzi-təfəkkürü və qəzavəti, insani və əxlaqi xüsusiyyətlərdə axtarır.

Ayədəki, "Ola bilsin lağa qoyulanlar lağa qoyanlardan yaxşıdır" cümləsi, Quranın, məsxərə və istehzanın qarşısını almasına sənəddir. Bəşərin bir-birinin batinindən və ruhiyyələrindən xəbərdar olmadıqları, əsil insanla, insana bənzərlər, qiyafə və oxşarlıq cəhətdən bir olduğuna görə çox ola bilər ki, pis qiyafəli şəxslərə istehza olunsun, halbuki, əgər onların batini xüsusiyyətləri cilvələnsə, istehza olunmazdılar. Bu əsasa görə insanın şəxsiyyətinin əsası və meyarı bir sıra görünməyən xüsusiyyətləridir. Müsəlmanlardan heç birinin istehza olunmasına icazə verilmir.

---

[1] Vaqiə surəsi, ayə 34-35.
[2] Nəhcül-bəlağə, 442-ci hikmət.
[3] Hücurat surəsi, ayə 11.

O gələcək...

Məsxərə etməyin psixoloji hədəfi

Psixoloji cəhətdən, insanları məsxərəyə qoyub, lağ edənlər, şəxsiyyətcə aşağı səviyyəli insanlardırlar. Onlar başqalarını kiçiltməklə, özlərinin şəxsiyyətsizliklərini aradan aparmaq istəyirlər. Bu səbəbdəndir ki, şəxsiyyətli insanlar, heç vaxt başqalarına lağ edib məsxərəyə qoymazlar.

Başqa amil də budur ki, başqalarını təhqir edib məsxərəyə qoyanlar, onların təhqir olunmasından ləzzət alırlar. Onlar, həyatda bir növ yırtıcı ruhiyyəlidirlər. Yırtıcılar kimi, insanların cisminə hücum edib, abır-həyasını arada aparırlar.

İmam Səccadın (ə) tələxəklər barəsində nəzəri

Günlərin birində tələxəklərdən biri, İmam Zeynul-abidinin (ə) çiynindən əbasını çəkir. İmam bir söz demir. Camaat əbanı alıb, İmamın mübarək çiyninə atır. Həzrət soruşur: «Bu işi kim gördü?» Dedilər: «Əhalini güldürən tələxək». Həzrət buyurdu:

"Ona deyin ki, Allahın elə bir günü var ki, ömrünü bihudə keçirən, başqalarını məsxərəyə qoyanlar, o gündə zərər və ziyandan başqa bir şey görməyəcəklər!"[1]

Əlilləri lağa qoymaq haramdır

İnsanlardan bəziləri müxtəlif səbəblərə görə bədən üzvlərini itirməklə, naqisliyə mübtəla olub, zahiri sağlamlıq nemətindən məhrum olurlar. Belə şəxslərə kimsə lağ etməklə, onlara əziyyət vermiş olarlar. Əvvəla, başqasına məsxərə etdiyinə görə, ikincisi, mümkündür ki, özü də sağlamlığını itirsin. Ona görə də, Əmirəl-möminin (ə), dua edərkən, Allaha yalvarıb buyurur:

«İlahi! Mənə əta etdiyin bütün böyük nemətlərdən alacağın canı, mənə ən böyük nemət qərar ver. Mənə tapşırdığın bütün ən böyük əmanətlərdən, məndən alacağın həyat əmanətini, birinci əmanət qərar ver!»[2]

İmam Hüseyn (ə) özünün «Ərəfə» duasında, əllərini Allah dərgahına qaldırıb ərz edir:

«İlahi! Məni bədənimin bütün üzvlərindən bəhrələndir! Göz və qulağımı mənim varisim qərar ver. Yəni, ömrümün axırına kimi məni korluqdan, karlıqdan və əlil olmaqdan hifz elə!»

---

[1] Mənaqib ibn Şəhr Aşub, cild 4, səh 158

[2] Nəhcül-bəlağə, 206-cı xütbə.

O gələcək...

Cahiz və lağlağının təsiri

Cahiz, təhsil almış şəxslərdən idi. Hicrətin üçüncü əsrində yaşayırdı. Çoxlu kitablar yazmış, elmi əsərlər yadigar qoymuşdur. Onun çox çirkin sifəti və bədəni vardı. Həzrət Əli (ə) ilə müxalifət edib düşmənçilik göstərdiyinə görə Bəni-Abbas xəlifəsi ona himayədarlıq edirdi. Günlərin birində öz şagirdlərinə belə söyləyir: «Bütün ömrüm boyu bir qadından başqa kimsə məni xəcalətli etməyib. Əhvalat belə oldu. Yoldan keçərkən bir qadınla rastlaşdım. Məndən xahiş etdi ki, onunla birlikdə gedəm. Qəbul etdim. Məni heykəltəraşın yanına aparıb, dükan sahibinə göstərib dedi: «Bu şeytan kimi! – sonra çıxıb getdi. Heyrətdə qaldım. Mağaza sahibindən əhvalatı soruşdum. Cavab verdi: «Bu qadın bir neçə müddətdir ki, mənə Şeytan heykəli düzəltməyi sifariş verib. Ona demişəm ki, mən Şeytanı görməmişəm ki, ondan sənə düzəldim. Bu səbəbdən səni mənim yanıma gətirib və fikirləşir ki, sən Şeytansan.

12.Sirləri aşkar etmək

Dilin zərərlərindən biri də, başqalarının sirrini aşkar etməkdir ki, müqəddəs şəriətimizdə məzəmmət edilmişdir. Bu barədə İslam Peyğəmbəri (s) buyurur:

"Hər vaxt bir şəxs söz desə, sonra üzünü başqa tərəfə çevirsə, sözü eşidənin yanında əmanətdir.[1]

Başqa bir yerdə həzrət buyurur:

"Başqalarının dedikləri sizin yanınızda əmanətdir."[2]

İmam Həsəndən (ə) nəql olunur, buyurur:

"Müsəlman qardaşının sirrini aşkar etmək xəyanətdir."[3]

13.Yalan vəd

Dilin başqa zərərlərindən biri də, vədə verib ona əməl etməməkdir. Əhdə vəfa etmək, Allah adamlarının nişanələrindən biridir. Quran buyurur:

"Ey iman gətirənlər! Verdiyiniz vədələrə vəfadar olun!"[4]

İslam Peyğəmbəri (s) buyurur:

" Vədə, insanın dinindən sayılır."[5]

---

[1] Əl-Mühəccətül-beyza, cild 5, səh 37.
[2] Əl-Mühəccətül-beyza, cild 5, səh 37.
[3] Əl-Mühəccətül-beyza, cild 5, səh 37.
[4] Maidə surəsi, ayə 1.
[5] Əl-Mühəccətül-beyza, cild 5, səh 237.

O gələcək...

Allah-taala, İsmail peyğəmbəri vədəsində doğru olduğuna görə onu, Qurani-Kərimdə "Sadiqul-vəd" ləqəbi ilə tərifləmişdir.[1]

14. Yalan danışmaq və and

Yalan, böyük günahlardan olub insanın abır-həyasının aradan getməsinə səbəb olur. Quran və rəvayətlərdə yalan danışma və yalan andın pislənməsinə çox rast gəlinmişdir ki, biz onlardan bəzilərinə işarə edəcəyik.

Əbu Səid nəql edir, İslam Peyğəmbərindən (s) eşitdim ki, Allaha dua edərkən belə buyurdu:

"**İlahi! Qəlbimi nifaq və ikiüzlülükdən pak et! Zinaya mürtəkib olmaqdan və dilimi yalandan qorumaqla məni pak et!**»[2]

İmam Baqir (ə) buyurur:

"Yalan, imanın viran olub aradan getməsinə səbəb olur."[3]

Əmirəl-möminin Əli (ə) buyurur:

"İmanın dadını yalnız, o şəxslər dada bilər ki, istər zarafata, istərsə də doğrudan yalan danışmasın."[4]

Bir nəfər İslam Peyğəmbərinə (s) ərz etdi: **Ya Rəsuləllah! Mömin rüsvay olarmı?**

Buyurdu: Bəzən.

Soruşdu: Mömin oğurluq edər?

Buyurdu: Bəzən.

Soruşdu: Mömin yalan danışar?

Buyurdu: Heç vaxt!

Allah-taala buyurur: "Yalan və iftira o kəslərə aiddir ki, Allaha imanları yoxdur."

İmam Həsən Əsgəri (ə) buyurur:

"Bütün günahlar bir evə yığılsa, o evin açarı yalandır."[5] Yəni, hər kəs yalan desə, bütün günahlara mübtəla olar.

Yalanın mənbəyi və kökünün tapılması

İslam Peyğəmbəri (ə) buyurur:

"Hər bir yalançı, yalanına görə öz nəfsində alçaqlıq hiss edər."[6]

---

[1] Məryəm surəsi, ayə 54.
[2] Əl-Mühəccətül-beyza, cild 5, səh 241.
[3] Üsuli-kafi, cild 2, səh 339.
[4] Üsuli-kafi, cild 2, səh 340.
[5] Müstədrəkül-vəsail, cild 2, səh 100.
[6] Müstədrəkül-vəsail, cild 2, səh 100.

O gələcək...

Beləliklə, yalanın kök və sərçeşməsi nəfsin çirkinliyidir. Müqabil tərəfi, yəni, sədaqət və doğruluq, nəfsə etimaddan sərçeşmə alır. Günlərin birində, Həccac mənbərdə sözü çox uzadır. Cəmiyyətin arasından bir nəfər uca səslə deyir: Namaz vaxtıdır sözünü qısalt! Nə, vaxt sənə görə dayanar və nə də, Allah əzabından keçər. Həccac əhali arasında olan bu aşkarlıqdan narahat olur. O kişinin tutulmasına əmr verir. Qohumları yığışıb Həccacın yanına gedib deyirlər ki, o kişi divanədir, onu azad et. Həccac deyir: Əgər özü etiraf etsə, azad edərəm!

Kişinin yanına gedirlər ki, ona öz divanəliyini etiraf etdirsinlər. Zindanda cavab verir: Allah məni sağlam yaratmışdır. Özüm də ağıllıyam. Divanə deyiləm, nəyə görə özümü dəliliyə vurmalıyam? Həccaca xəbər verirlər ki, kişi belə deyir. Həccac sədaqət və düz danışdığına görə onu azad edir.

15. Qeybət

Dilin on beşinci zərəri qeybətdir. Bəhsə başlamazdan əvvəl, qeybətin tərifi ilə tanış olaq. Böyük alimlərdən mərhum Şəhid Sani özünün "Kəşfür reybə" kitabında, qeybəti belə izah edir:

"Başqası olmayanda, onun haqqında danışmaq, belə ki, bu söz, əhali arasında nöqsan sayılsın və danışan qarşı tərəfə nöqsan yetirmək niyyətində olsun."

Əbuzərdən qeybət barəsində soruşurlar, o da cavab verir: **"Müsəlman qardaşının olmadığı yerdə, ondan danışılsın, belə ki, əgər özü eşitsə, narahat olar."**[1]

Müqəddəs İslam şəriətində qeybət haram sayılır. Şeyx Mürtəza Ənsari özünün «Məkasib» kitabında qeybətin haram olması barədə çoxlu dəlillər gətirmiş və aşağıdakı ayəni zikr etmişdir.

"Bir-birinizin qeybətini qırmayın! Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı!? Bu sizdə ikrah hissi oyadar (qeybət də belədir)."[2]

Qeybətin çirkinliyi bundadır ki, iki nəfər, müdafiəsiz və qeybətdə olan bir nəfər barədə danışırlar və ona hücum edirlər. Birisi, heç bir hiss və hərəkəti olmayan ölü ətini yeyir. Başqası, eləsinə hücum edir ki, məclisdə olmayıb özünü müdafiə edə bilmir. Quran bu bənzətmədə dörd mətləbi nəzərdə tutur:

1. Müsəlmanlar və bir məzhəbdə olanlar, bir-biri ilə qardaş hökmündədirlər;

[1] Məkasib, səh 41.

[2] Hücurat surəsi, ayə 12.

O gələcək...

2. Müsəlmanın abır-həyası, onun əti kimidir;

3. Müsəlmanın olmadığı yerdə onun ardınca danışmaq, onun abır-həyasını aradan aparmaq və ətini yemək kimi bir şeydir;

4. Haqqında qeybət olunan şəxs məclisdə deyil və bu namərdcəsinə danışıqdan xəbərsiz olub, özünü müdafiə edə bilmir, sanki həmləyə məruz qalmış ölü kimidir. Ola bilsin, həmin məsələyə görə həzrət Əli (ə) qeybət edəni biçarə və əlacsız adlandıraraq, buyurur:

"Qeybət əlacsız və biçarə insanın işidir!"[1]

Dəlil kimi istifadə olunmuş ikinci əsas da budur ki, Allah-taala buyurur:

"Möminlər arasında onları nüfuzdan, hörmətdən salmaq məqsədilə pis söz yaymaq istəyənləri dünyada və Axirətdə şiddətli bir əzab gözləyir. Ancaq Allah bilir, siz bilməzsiniz!"[2]

İnsan, ictimai varlıq olduğuna görə yaşadığı mühit onun öz evi kimi sayılır və o mühitin abır-həyasını, öz ailəsinin abır-həyası kimi qoruyub, fəsad və çirkinliyin oraya daxil olmasının qarşısını almalıdır. Bu əsasa görə İslamda hər hansı bir növlə olursa, yaşayış mühitini korlayanlarla mübarizə aparılmalıdır. Əgər qeybətlə şiddətli mübarizə olunarsa , ona görədir ki, qeybət zamanı eyblər aşkar olur və İslam bunu bəyənmir. Müsəlman qardaşın eyblərinin gizlədilməsi əmri də bu göstərişdə məna tapır.

Şeyx Ənsarinin üçüncü dəlil kimi qeybətin haram olmasına istifadə etdiyi ayə budur:

"Allah kiminsə öz sözləri ilə pislikləri izhar etməsini sevməz. Yalnız, zülm izhar olunmuş şəxslər müstəsnadır. Allah hər şeyi eşidən və biləndir!"[3]

Qeyd eymək lazımdır ki, ayədəki "pislik"dən məqsəd, hər cür pislik və çirkinlik, "izhar"dan isə məqsəd, hər cür söz, danışıq və ya izhar vasitəsidir.

İstər şikayət şəklində, istər hekayət, ya nifrin, ya da zülm etməklə izhar olunsun. Ona görə də, ayə, qeybətin haram edilməsinə dəlalət edir.

Qeybətin haram olmasının dördüncü dəlili budur: "**(Dalda) qeybət edib tənə vuran hər kəsin vay halına."**[4]

Müfəssirlərdən bir dəstənin rəyinə görə bu ayə, Vəlid ibn Müğeyrə barəsində nazil olmuşdur. Bu şəxs, İslam Peyğəmbərinin (s) ardınca

[1] Şərhi Ğürər və Dürər Xansari, cild 1, səh 268.
[2] Nur surəsi, ayə 19.
[3] Nisa surəsi, ayə 148.
[4] Huməzə surəsi, ayə 1.

O gələcək...

qeybət edir, üzdə isə o həzrətə tənə və istehza edirdi. Hər halda ayədə buyurur:

"(Dalda) qeybət edib, eyib tutanların vay halına!"

Ayənin kəlmələrindən, "Huməzə" və "Luməzə" kəlmələri bir işdə mübaliğə bildirirlər. Birinci, kəlmə əslində "həmz" sözündən olub, "sındırmaq" mənasındadır. Qeybət edənlər başqasının şəxsiyyətlərini sındırdıqlarına görə onlara "huməzə" deyilir. "Luməzə" isə əslində, "ləmz" kökündən olub, qeybət edən və eyib tutanlara deyilir.

İslam qanunlarında qeybətin haram olunması

Şiə və sünni ravilərin vasitəsilə qeybətin haram olması və onun acı təsiri barəsində çoxlu rəvayətlər nəql olunmuşdur. Bu günahı müxtəlif təmsillər və oxşatmalarda bəyan etmişlər. Onlardan bəzilərinə işarə edək:

İslam Peyğəmbəri (s) buyurur:

"Bütün müsəlmanların malları və abır-həyaları bir-birinin yanında hörmətdir."[1]

Feyz kaşani, "Əl-Mühəccətül-beyza" kitabında qeybəti, abır-həya və şərəfin əksi kimi qeyd etmişdir.

Cabir və Əbu Səid hər ikisi, İslam Peyğəmbərindən (s) nəql edirlər:

"Qeybətdən çəkinin, çünki, qeybət müqayisə olunsa, zindan da pisdir. Çünki, insanın bəzən zina vasitəsilə abrı gedir, sonradan peşman olub tövbə edir. Allah-taala da onun tövbə və peşmançılığını qəbul edir. Ancaq, qeybət edənin günahı bağışlanılmır, o vaxta kimi ki, qeybət etdiyi şəxs onun günahından keçsin."[2]

Merac gecəsində mühüm xəbər

Ənəs adlı ravi, İslam Peyğəmbərindən (s) nəql edir: "Merac gecəsində dırnaqları ilə üzlərini cıran bir dəstənin yanından keçdim. Cəbraildən onların kim olduqlarını soruşduqda, buyurdu: "**Bunlar o kəslərdir ki, camaatın qeybətini etmiş, onların abır-həyasını hərraca qoymuşlar."**[3]

Qeybət və onun əks təsiri

Bu dünyanın sabit qanunlarından biri də budur ki, insanda baş verən hər hansı bir əməlin əks-təsiri olur. Başqa sözlə desək, hər bir

[1] Əl-Mühəccətül-beyza, cild 5, səh 251.
[2] Əl-Mühəccətül-beyza, cild 5, səh 251.
[3] Əl-Mühəccətül-beyza, cild 5, səh 251.

O gələcək...

hərəkətin əks-hərəkəti də vardır ki, aşağıdakı nümunələr bu məsələyə şahiddir:

Daşın müqabilndə durub fəryad edən şəxs, mümkündür ki, öz səsini eşitsin. Topu sürətlə yuxarı atdıqda, həmin sürətlə də aşağı düşəcək. Turşu adını eşidəndə ağızın suyu hərəkətə gəlir. Bütün bunlar əməl müqabilində, əksül-əməl adlanır. Şair Məsnəvi demişkən:

Bu dünya bir dağdır, işimiz nida!

Özümüzə qayıdar, çox etmə nida!

İndi də qeybət və onun əksül-əməli. Borra adlı bir ravi nəql edir: "İslam Peyğəmbəri (s) bizlərə moizə oxudu. Belə ki, azad olmuşlar da, evlərində eşitdilər. Buyurdu:" **Ey o kəslər ki, qəlbdə deyil, dildə iman gətirmisiniz! Müsəlmanların qeybətini qırıb, onların sirlərini axtarmayın! Hər kəs belə etsə, Allah da onun sirlərini açar, belə şəxs öz evinin içində də rüsvay olar!"**[1]

Bəli! Budur əməlin əksül-əməli! Qeyd etdik ki, mövzuda sünni və şiə ravilərindən rəvayətlər nəql olunmuşdur. Buraya kimi sünni ravilərinin rəvayətlərini söylədik. İndi də, şiə ravilərindən də bir neçə hədis nəql edək. Şeyx Səduq, öz sənədi ilə İslam Peyğəmbərindən (s) nəql edir, buyurur:

"Hər kim din qardaşının qeybətini edib, onun gizli sirlərini açmağa səy etsə, ilk götürdüyü addım Cəhənnəmə tərəfdir. Allah da, onun sirrini insanların gözü önündə aşkar edər. Hər kim müsəlmanın qeybətini qırsa, orucu və dəstəmazı batil olar. Əgər belə halda ölsə, Allahın haram buyurduqlarını halal bilən kimi ölmüş olar."[2]

Aydın məsələdir ki, namaz və orucun batil olmasından məqsəd, fiqhi hökm deyil. Çünki, alimlər, qeybəti, namaz və orucu batil edənlər sırasında qeyd etməmişlər. Bəlkə də, məqsəd namaz və orucun təsirinin aradan getməsini izah etməkdir.

İmam Sadiq (ə), İslam Peyğəmbərindən (s) nəql edir:

"Qeybət, insanın imanının aradan getməsində, xərçəng xəstəliyinin cismə etdiyi təsirdən də güclüdür![3]

Belə olan halda qeybəti dində xərçəng xəstəliyi kimi adlandırmaq olar. Müfəzzəl ibn Ömər, İmam Sadiqdən (ə) nəql edir:

"Hər kim möminin zərərinə söz danışa və məqsədi onu xar etmək, abır-həyasını xalqın gözündən salmaq olsa, Allah onu Öz

[1] Əl-Mühəccətül-beyza, cild 5, səh 252.
[2] Əl-Mühəccətül-beyza, cild 5, səh 254.
[3] Əl-Mühəccətül-beyza, cild 5, səh 250.

O gələcək...

himayəsindən çıxarıb Şeytanın himayəsinə atar. Şeytan da onu qəbul etməz!"[1]

Qeybət, təkcə dillə deyil

Başqasının eyb və nöqsanını çatdıran, haqqında deyilənin xoşuna gəlməyən hər şey qeybət adlanır. İstər sözlə, işlə, aşkar, işarə, rəmz, tənə vurmaq, yazmaq və s. olsa da, hamısı qeybətdir.

Dillə qeybət ona görə haramdır ki, qardaşının nöqsanlarını başqasına anladır. Beləliklə, hansı yolla başqasının eybini anlatmaq istəsə belə, qeybət və haram olur. Başqasının yerişini yamsılamaq və ya özünü ona oxşatmaq haramdır. Bəlkə də, bunlar qeybətdən də pisdir. Çünki, eybi daha çox aşkar edir. Qadınlardan biri Aişənin yanına gəlir. Çıxıb gedərkən, Aişə əli ilə onun balaca boyluğuna işarə edir. İslam Peyğəmbəri (s) buyurur: **"Qeybət etdin!"**[2]

Qulaq asan da qeybətə şərikdir

İslam Peyğəmbəri (s) buyurur: **"Qeybətə qulaq asan da, qeybət edənlə şərikdir."**

Beləliklə, qeybəti eşidən də günahdan kənarda qalmır. Lakin dili ilə onu pisləməklə, başqa sözlə onun sözünü kəsməklə, yaxud məclisdən çıxmaqla günah qazanmır. Əgər bütün bunları bacarmasa da, qəlbində qeybəti, çirkin və bəyənilməz işlərdən hesab etsin. Əgər dili ilə desə ki, "sakit ol", amma qəlbində qeybət edənin əməlindən razı qalsa, münafiq sayılır.

İslam Peyğəmbəri (s) buyurub:

"Hər kimin yanında bir mömini xar və rüsvay etsələr və o şəxs imkanı olan halda möminə kömək etməsə, Allah-taala Qiyamət günündə bütün məxluqatın gözü önündə onu xar və rüsvay edəcək."[3]

Yenə buyurur:

«Hər kim gizlində mömin qardaşının abır-həyasını qorusa, Allah Özünə vacib bilir ki, Qiyamətdə onun abır-həyasını qorusun.»[4]

Yenə də buyurur:

"Hər kim gizlində mömin qardaşının abır-həyasını qorusa, Allah Qiyamətdə onu Cəhənnəm odundan saxlayar."[5]

---

[1] Əl-Mühəccətül-beyza, cild 5, səh 255.
[2] İslam əxlaq elmi, cild 2, səh 393-396.
[3] İslam əxlaq elmi, cild 2, səh 393-396.
[4] İslam əxlaq elmi, cild 2, səh 393-396.
[5] İslam əxlaq elmi, cild 2, səh 393-396.

O gələcək...

Qeybətdən hədəf

Alimlər aşağıdakıları qeybətin hədəfləri bilirlər:

1. **Qəzəb, kin-küdurət, həsəd.**

Bu halda əxlaq alimləri qeybəti qəzəb qüvvəsinin rəzilətindən hesab edirlər.

2. **Məsxərə və istehza.**

Zarafat, şənlik, təəccübə gətirmək, yamsılamaq, əhalini güldürməkdən ötrü nəql etmək, bütün bunlar, insanın şəhvani qüvvəsinə bağlıdır.

3. **İftixar etmək və deyişmək.**

Bu halda insan, başqasının nöqsanını deməklə özünü yuxarı qaldırır. Məsələn, "filankəs bir şey bilmir" deməklə ətrafında özünün fəzilətini sübuta yetirmək istəyir. Belə rəzilətlər, qəzəb qüvvəsindən qaynaqlanır.

4. Çirkin işlərdə birini başqasına nisbət vermək.

Bunu söyləməklə, özünü bu xüsusda pak bildirmək istəyir. Bəzən başqalarını da, özünün pis işində şərik kimi yada salır və bununla özünü üzürlü hesab etmək istəyir.

5. Yoldaşlıq və dostluğun nəticəsi.

Ona qarşı nifrət etməsinlər deyə, qeybət edən dostlar arasında müsəlmanların eyblərini izhar edir. Belə ki, kiçik hədəflə deyilən qeybət, nəfsin zəifliyindəndir.

6. Başqasının onun çirkin işlərinin açıqlamaq istəməsindən xəbər tutmaq və onun zərərinə şəhadət versin.

Qarşı tərəfin sözünü təsirdən salmaqdan ötrü qabağa düşüb onunla düşmənçilik etdiyini izhar edir. Bu məsələnin mənşəyi də, qorxu və zəifliyin nəticəsidir.

7. Mehribanlıq və rəhimdillik.

Belə ki, başqasının giriftarçılığına, "biçarə özünün çirkin işi ilə məni qəmgin etdi, mən bu dərdi-sərdə onunla şərikəm". Necə ki, belə bir şəxs, başqasının adını və eybini çəkməklə, qeybət edənlərdən hesab olur.

8. Pis və çirkin işlərdən təəccüblənmək.

Məsələn, "filankəsdən çox təəccüblüdür ki, filan çirkin işi görüb" deməklə şəxs, öz qəzəbini aşkar etmək üçün başqasını pis iş görüb, yaxşı işə dəvət etməsindən istifadə edir. Özü də bilmədən, günaha mübtəla olur.

Bu səkkiz qismi, əxlaq alimləri insanların qeybətdən olan hədəflərini bəyan edirlər.

Qeybətin əlac yolları

Belə bir çirkin əməlin islah yollarından biri budur ki, ilk mərhələdə, qeybətin axirətdəki əzablarını xatırlamaq lazımdır. İkinci mərhələdə isə qeybətin dünyadakı pisliklərini fikirləşmək lazımdır. Bütün bunlardan əhəmiyyətlisi isə qeybətdən olan hədəflərinin kökünü kəsmək lazımdır.

Özünün çirkin işini başqasına nisbət verməyin müalicə yolu budur ki, Allahın qəzəbində olmaq, məxluqla düşmənçilik etməkdən daha çox çətin olduğunu bilib, bu əməli son dərəcədə cahilliyin əlaməti olduğunu güman etmək lazımdır.

Amma, başqasının günahını nəzərə alıb, o bəhanə ilə qeybət etmək və özünü üzürlü hesab etmək, məsələn, mən filan kəs haram yediyinə görə haramyeyəcəyəm demək, yolunun əlacı odur ki, Allaha müxalifət edən hər kim olsa, ona tərəfdarlıq etmək lazım deyil. Hər kim öz çirkin əməlini daim başqasının pis işi ilə müqayisə edirsə, onun üzrü ən böyük cəhl və pisliklərdən sayılır.

Əgər qeybətin hədəfi dostlar və yoldaşlarla müvafiq olmaqdırsa, müalicəsi odur ki, hər kim məxluqun xoş olmağını, Allahın razılığına üstün qərar verirsə, Allah, onu möhkəm giriftarçılığa düçar edər. Mömin şəxs heç vaxt belə işə razı olmaz.

Əgər qeybətin hədəfi, başqasının onun barəsində qeybətinin qarşısını almaqdan ötrüdürsə, əlac yolu budur ki, bilməlidir ki, təkcə güman etmək işin baş verməsinə dəlalət etmir. Ola bilsin, tərəf, ondan qeybət edib, əleyhinə şəhadət verməsin. Beləliklə, xəyal və gümanla vaqeiyyət arasında fərq var.

Əgər, qeybətin hədəfi başqasına rəhmdillik edib Allaha xatir qəzəblənməkdirsə, bunların hamısı yaxşı əlamət olsa da, qeybətlə olduğuna görə mükafat və savabı aradan gedər. Belə qeybətin əlacı budur ki, insan fikirləşməlidir ki, rəhmdilliyin və təəccübün, hədəfi, iman və dini qorumaqdır. Əgər bunlar qeybətlə bərabər olsa, bilməlidir ki, bu dindən himayət deyil.

Qeybət və islamda söz azadlığı

Dilin bəla və zərərləri barəsində, xüsusilə, qeybət haqqındakı bəhsdən sonra İslamda söz azadlığı barəsində bəhsə başlayırıq.

Görəsən, İslamda söz azadlığı varmı? Əgər varsa, hansı hədəfdir? Heç bir şübhə yoxdur ki, İslam hüquq məktəbində, söz azadlığı möh-

tərəm sayılır. Buna aşağıdakı ayə və rəvayətlər şahiddir. Qurani-kərim bu barədə buyurur:

"Müjdə ver o kəslərə ki, sözü dinləyib onun ən gözəlinə (düzgününə) uyarlar. Onlar, Allahın doğru yola yönəltdiyi kimsələrdir. Ağıl sahibləri də elə onlardır."[1]

Aydındır ki, sözün yaxşısını seçib, ona tərəfdarlıq etmək o yerdədir ki, söz və bəyan azadlığı olmuş olsun.

Bununla da, sözlər bir-biri ilə müqayisə olunub yaxşısı və pisi seçilsin. Həzrət Əlidən (ə) nəql olunur, buyurur:

"Sözləri eşidəndə, sözün özünə diqqət et, sözü danışana yox."[2]

Yenə də Əli (ə) buyurur:

"Zəlalətdə olanlardan da olsa hikməti alın. Müşrikdən də olsa, hikməti alın!"[3]

Məsum imamların (ə) müxalif fikirlilərlə rəftarı

Məsum rəhbərlərin (ə) həyatından məlum olur ki, ən çox tövsiyyələri, müxalif etiqadlı şəxslərlə düzgün və sağlam ağılla rəftar olunmasıdır. Nümunə üçün həzrət Əli (ə) xilafətin ilk günlərində, onunla beyət etməyənlərlə, Səid, Vəqqas, Əbu Musa Əşəri və başqalarına mane olmur. Təlhə və Zübeyr kimi əhdi pozanlarla, o həzrətlə döyüşə başlamayınca döyüşdən kənara çəkilirdi. "Vəsailuş-şiə" kitabında oxuyuruq:

"Əli (ə) onunla döyüşənləri heç vaxt münafiq və müşrik adlandırmamışdı. Təkcə buyururdu: "Onlar bizə zülm və təcavüz edən qardaşlarımızdır".[4]

Həmçinin İmam Sadiq (ə), İbn Əbul-Əvca kimlərlə yaxşı rəftar edir. Beləliklə İslamda söz və bəyan azadlığının olmasına heç bir şəkk-şübhə yoxdur. O həddə qədər ki, hərc-mərc və sui istifadə, İslamda hansı yolla olsa qadağandır.

ŞƏRİ BAXIMDAN DİLİN DƏYƏRİ

Dilin əhəmiyyəti böyük olduğuna görə bəhsin uzadılmasına baxmayaraq, sonda dilin şəriətdə dəyərinə işarə edirik. Müqəddəs şəriət, mömin

[1] Zumər surəsi, ayə 17-18.
[2] İslam hüququ, səh 271.
[3] İslam hüququ, səh 271.
[4] Vəsailuş-şiə, cild 11, səh 62.

O gələcək...

bir insanın dilinə görə kamil bir insanın qan bahasını (diyə) təyin etmişdir. Bunun özü də dilin əhəmiyyət və dəyərinə dəlildir. Dahi mühəqqiq Əllamə Hilli özünün "Müxtəsər nafe" adlı kitabında buyurur:

"Doğru və düzgün dilin qan bahası, kamil bir insanın diyəsi (qan bahası) qədərdir. Əgər dilin bəzi hissəsi kəsilmiş olsa, onun dəyəri 28 hərfin tələffüzündən asılıdır (nə qədər hərf tələffüz edə bilər). Eyibli və lal insanın dilinin qan bahası, sağlam insanın dilinin qan bahasının üçdə biri qədəridir".[1]

Ayətullahül-üzma Hacı Seyid Əbul Qasim Xoyi özünün "Məbaniltəkmilətil minac" kitabında yazır:

"Dilin kəsilməsi və qan bahasında ödəmə, ölçü və uzunluqda deyil, dilin faydasından məhrum olmaqladır. Əsas ödəmə, tələffüz etdiyi hərflərin sayı qədərdir. Beləliklə, əgər uzunluq cəhətdən dilin dörddə biri kəsilərsə, amma hərflərin yarısı tələffüz olunarsa, belə olan halda, insanın tam qan bahasının ikidə biri qədər qan bahası ödənilməlidir. Əgər ölçü cəhətdən, dilin yarısı aradan getsə, lakin hərflərin tələffüzü cəhətdən dörddə bir qədər tələffüz qabiliyyəti aradan getsə, dörddə bir qədər qan bahası verilməlidir. Əslində dilin kiçik və ya böyük miqdardan xəsarət görməsi qan bahasına aidiyyatı yoxdur. Bəlkə də dilin qan bahasının təyinində hərflərin hansı qabiliyyətdə tələffüz olunmasıdır.[2]

4. QULAĞIN HAQQI

وَأَمَّا حَقُّ السَّمْعِ فَتَنْزِيهُهُ عَنْ أَنْ تَجْعَلَهُ طَرِيقًا إِلَى قَلْبِكَ إِلا لِفُوهَةِ كَرِيمَةٍ تُحْدِثُ فِي قَلبِكَ خَيْرًا أو تَكسبُ خُلقًا كَرِيمًا فَإِنَّهُ بَابُ الْكَلامِ إِلى الْقَلْبَ يُؤَدِّي إِلَيْهِ ضُرُوبُ الْمَعَانِي عَلَى مَا فِيهَا مِن خَيْرٍ أو شَرٍّ. وَلا قُوَّةَ إِلا بِاللهِ.

"Qulağın haqqı, onu qəlbinin yolu qərar verib pak saxlamağındadır. Sənin qəlbində xeyir icad edən yaxşı xəbərlər eşitsin və ya sənə kəramətli xüsusiyyət nəsib etsin. Çünki qulaq qəlbin qapısıdır. Yaxşı mənaları eşidir, xeyirlə şəri qəlbə çatdırır. Allahdan başqa heç bir güc qüvvət yoxdur!"

Allah-taala buyurur:

"De ki: Sizi yoxdan yaradan, sizə qulaq, göz və qəlb verən Allahdır. Nə az şükr edirsiniz!"[3]

[1] Muxtəsərru nafe, səh 300.
[2] Məbani təkmilətül-minhac, cild 2, səh 290.
[3] Mülk surəsi, ayə 23.

O gələcək...

EŞİTMƏYİN İNSANIN TƏKAMÜLÜNDƏ ROLU

İnsan dünyaya göz açarkən bu aləmin mövcud olanlarla heç bir tanışlığı olmur. Lakin zaman keçdikcə onları görüb tanıyır. Tanımaq vasitələrindən biri də, insanın qulaq və eşitmək hissidir. İnsan, qulaq vasitəsilə eşidir və sözləri xatirində saxlayır. Eşitmək, məqsədə çatmağın müqəddiməsidir. Həzrət Əli (ə) ondan xeyir işlərə yol göstərməyi tələb edən bir nəfərin cavabında buyurur:

"Ey sual soruşan! Əvvəl eşit! Sonra anla! O vaxt inan və sonra işə salıb əməl et!"[1]

Bu cəhətdən görürük ki, bütün anlaşılmalar, etiqad və əməl, eşitmək və qulaq asmaq yolu ilə başlayır. Ona görə də eşitmək hissini, ictimai hiss adlandırıb, onu bu baxımdan görmək hissindən də üstün qərar vermək olar.

QULAĞIN QURULUŞU

Səs nədir?

Səs, cisimlərin hərəkətindən hasil olur. İnsanın səsi də boğazındakı səs tellərinin hərəkətindən yaranır. Ümumiyyətlə təcrübələr sübut edir ki, havasız yerdə, çəkisizlikdə səs yayılmır. Lakin o demək deyil ki, səsin yayılması üçün mühit yalnız havadır. Hətta mayelər, qazlardan tez və cəmadat isə mayelərdən tez səsi ötürürlər.

Qulağın quruluşunun müxtəlif hissələri

Qulaq, üç ayrı hissələrdən təşkil olunmuşdur:
1. Xarici qulaq;
2. Ortancıl qulaq;
3. Daxili qulaq.

Xarici qulaq

Bu qismət iki üzvdən təşkil olunub. Birinci, qulağın xarici görünüşü və əyrisi. İkinci, qulağın içi. Qulağın xarici görünüşü həlqəvari ətdən

[1] Üsuli-kafi, cild 2, səh 456.

O gələcək...

olub, xüsusi kanallara malikdir. Bədənə zinət olmasından əlavə, qulağın bu hissəsi çöldən müxtəlif səsləri alıb, səsin cəhətini təyin edir və səsin şiddətindən də azaldır.

Qulağın içi üç santimetrə qədərdir. Onun axırında, "səmax" adlı pərdə vardır. Bu pərdə, xarici qulağı ortancıl qulaqdan ayırır. Qulağın deşiyinin bu hissəsinin divarı, xüsusi dəridən olub, tərkibində yapışqan və zəhərli maddələr vardır. Bu maddələr mikrobları öldürməklə yanaşı, həşəratların və toz-torpağın qulağın içinə daxil olmasına mane olur.

Orta qulaq

Qulağın pərdəsinin arxasında, "pərdənin sandığı" adlanan xüsusi boşluq vardır. Bu fəza, iki kanalla daxili qulağa birləşir. Bu boşluq və ya sandıqda çox nazik və lətif sümüklər yerləşir. Bu sümüklərin adlarından əməlləri də məlum olur.

1. Səmax pərdəsinə söykənmiş çəkicə bənzər sümüklər.
2. Çənə sümükləri və onun üzərində olan səndah sümükləri.
3. Daxili qulağa söykənmiş kəmərvari sümüklər.
4. Səndahi və kəmərvari sümükləri birləşdirən noxudu sümüklər.

Daxili qulaq

Qulağın bu hissəsi eşitməyin ən mühüm və həssas hissəsidir. Hər hansı zərbədən qorunmaqdan ötrü gicgah sümüyünün arxasında yerləşmişdir. Mürəkkəb bir quruluşa malikdir. Dəqiq quruluşu var. Ümumiyyətlə üç müxtəlif hissədən ibarətdir:

Birinci, iki çökəkliyə malik dəhliz hissəsi. **İkinci**, üç yarım dairədən təşkil olunan yarım dairə hissəsi. **Üçüncü**, iki dəfə bir-birinə dolanmış lülə şəkilli hissə.

Üç hissədən ibarət bu quruluşlu mexanizm, daxili qulağın fəzasında mayenin içərisində qərar tutub və üzən haldadır. Bu üç hissənin hər birinin içərisində xüsusi maye var. Sinir sistemlərinin hər biri, bu üç hissədə yayılıb. Onların hər biri bir növ səsləri qəbul zehnə ötürməyə məmurdur.

Necə eşidirik?

Səs dalğaları qulağa daxil olur və qulağın pərdəsini silkələyir. Çəkic səndani və kəmərvari sümüklər, bu səsləri qulaq pərdəsindən götürüb daxili qulağın girəcəyində yerləşən ağ kanala ötürür. Ağ kanal da, öz

növbəsində bu dalğaları alıb, daxili qulağın içində yerləşən mayelərə ötürür. Bu mayelər arasında yerləşən eşitmə telləri, bu səsdən təsirlənir. Bu təsirləri sinir sistemləri alıb beyində yerləşən mərkəzə çatdırır. Beləliklə də səsi hiss edib eşitmək hasil olur.

Eşitmək qabiliyyəti

Eşitmək qabiliyyətinin bir neçə amillə münasibəti vardır. Səsin mövqeiyyəti, cismin vəziyyəti, qida və qidalanmaq. İnsanın yaşı və ömrünün bir başa eşitməklə əlaqəsi var. Belə ki, yaş çoxluğu qulağın eşitmə ağırlığını artırır.

Eybsiz qulaq, zəif və anlaşılmaz səsləri havadan alıb zehnə çatdırmaq qüdrətində olur. Xarici qulaq, pərdə ilə bağlı olub, səsi düzgün şəkildə alıb zehnə çatdırır.

QURANİ-KƏRİMDƏ QULAĞIN GÖZƏ VƏ QƏLBƏ ÜSTÜN OLMASININ SƏBƏBİ NƏDİR?

İndi də insanın qulağın yolu ilə təkamülə çatmasına işarə edək. Qulağı, xüsusiyyət və quruluşu cəhətdən araşdırdıq. Qurani-kərimdə bir çox ayələrdə qulaq, göz və qəlbdən söz açılmışdır. Onların hamısında qulaq, gözə və qəlbə üstün zikr olunmuşdur. Bu üstünlüyün səbəbini tapmaq olarmı? Əvvəlcə bu ayələrin bəzilərinə işarə etmişdik.

"De ki: Sizə göydən və yerdən kim ruzi verir? Qulaqlara və gözlərə sahib olan kimdir?"[1]

"Qulaq, göz və ürək – bunların hamısı sorğu-sual olunacaqdır!"[2]

Həmçinin Nəhl surəsinin 78, Muminun surəsinin 78, Bəqərə surəsinin 7, Fussilət surəsinin 20 və bir çox başqa ayələrdə qulaq, göz və qəlbə üstün zikr olunmuşdur.

Alimlər elmi cəhətdən qulağın başqa əzalara görə üstünlüklərini zikr ediblər. O cümlədən, eşitməyin, ən az və çox fasiləsi min bərabər olduğu halda, bu fasilə görməklikdə çox azdır. Göz rənglərdən yalnız, müəyyən bir dəstə rəngi görə bilir. Məsələn, bənövşə rənginin əksini və qırmızıdan aşağı rəngi görə bilmir. Amma qulaq, ən aşağı və uzaq fasilə imkanında, yüzlərlə növ səsləri eşitməyə qadirdir. Ümumiyyətlə qulaq, 33300 növ səsi eşidib ayırmağa qadirdir.

[1] Yunis surəsi, ayə 31.

[2] İsra surəsi, ayə 36.

O gələcək...

Göz, bəşərin bu günə kimi ələ gətirə bildiyi 300 min rəngi görməkdən ötrü müxtəlif texnikalardan istifadə etməlidir. Halbuki, qulaq xəstələnməyincə belə texnikaya ehtiyac yoxdur.

Həmçinin göz, çox şiddətli nur bərabərində xətərə məruz qalır. Belə ki, günəşin tutulmasına baxmaq, yaxud müxtəlif filmlər və televizor səhnəsi gözə əziyyət verir. Halbuki yüzlərlə müxtəlif səslər qulağa ziyan vermir.

Nəhayət, gözün görmə meydanı məhduddur. Ancaq qabağı və ya sağ-solu görə bilər. Halbuki, qulaq bütün altı cəhəti eşitməyə qadirdir. Bütün bunlar qulağı fizioloji cəhətdən gözə nisbətən üstünlükləridir. Amma Qurani-kərimdə qulağın gözə üstün olmasının əsas səbəbini, qulağın nəfsin paklaşmasında nisbət üstünlüyünə görədir. Yəni belə nəzərə gəlir ki, (ayələrə əsasən) qəlbin və ruhun paklaşmasında qulağın rolu gözünkündən çoxdur.

Nəyə görə Quranda eşitmək sözünün cəm şəkli gəlməyib?

Məşhur İslam alimlərindən Şeyx Tusi özünün məşhur, "Təfsiri Tibyan" kitabında tanınmış ədəbiyyatçıların birinin dilindən belə nəql edir ki, Qurani-kərimdə eşitmək sözünün tək şəkildə gəlməsinin iki səbəbi ola bilər:

Birinci, "eşitmək" sözü ərəb dilində bəzən, cismin cəm şəkli mənasında işlədilir. Bu səbəbə görə bu sözün cəm şəkildə gəlməsinə ehtiyac yoxdur.

İkinci, Quran ayəsində "eşitmək" sözünün məsdər mənasında işlədilməsi nəzərdə tutulsun. Məcdərin öz-özündə həm aza, həm də çoxa dəlalət etməsinə görə daha onu cəm şəklində gətirməyə ehtiyac yoxdur.

Bundan əlavə, bu fərqin elmi və zövqi cəhətini də qeyd etmək olar. O da budur ki, dərk olunmalılar eşidilməlilərə nisbət daha çoxdur. Ona görə də "qəlblər" və "gözlər", cəm şəklində işlənib. Lakin, "eşitmək" (qulaq) tək şəkildə işlədilib.

QULAĞIN ŞƏRİƏTDƏ DƏYƏRİ

Gördüyümüz kimi, İmam Səccadın (ə) nəzərincə, iki qulağın insanın boynunda haqqı var. Həzrət, o hüququ bəyan etdi. Şəri cəhətdən də qulağın öz dəyəri vardır. Şəriət sahibi onu bəyan etmişdir. Mühəqqiq Əllamə Hilli buyurur:

"İnsanın iki qulağında tam qan bahasının yarısı nəzərdə tutulub. Qulağın yumşaq yerinin kəsilməsinə görə insanın tam qan bahasının üçdə biri qədərdir. Qulağın yumşaq yerinin deşməyin isə insanın qan bahasının üçdə biri qədər qan bahası verilməlidir." Təxminən yuxarıdakı ifadə kimi Ayətullah Xoinin "Məbanil-təkmilətil minac" kitabında gəlib:

"İnsanın iki qulağında tam qan bahası var. Kar qulaqda, yarım qan bahası, bəzilərində isə həmən qanun üzrə. Qulağın yumşaq yerində isə üçdə bir qan bahası var". Müctehidlərin "Tozihil-məsailin"də yazılır:

Əgər iki qulaq kəsilib atılsa, insanın tam qan bahası verilməlidir. Yaxud, qulağa dəyən zərbənin nəticəsində kar olsa, tam qan bahasın verməlidirlər. Əgər qulağın yumşaq yerini kəssələr, ehtiyat odur ki, onunla, sülh etsin.[1]

5. GÖZÜN HAQQI

أَمَّا حَقُّ بَصَرِكَ فَغَضُّهُ عَمَّا لا يَحِلُّ لَكَ وتَرْكُ ابْتِذَالِه إلاّ لِمَوضِعِ عِبْرَةٍ تَسْتَقْبِلُ بِهَا بَصَرًا أو تَسْتَفِيدُ بِهَا عِلْمًا، فَإِنَّ الْبَصَرَ بَابُ الاِعْتِبَارِ.

"Ancaq gözünün sənin boynunda haqqı budur ki, onu sənə halal olmayan hər şeydən qoruyasan və onu günaha batırmayasan. Yalnız, ibrət götürüb, elm və biliyini artırmaqdan ötrü bəzi şeylərə baxmayasan. Çünki, görmək bir növ ibrət vasitəsidir."[2]

"Bəsər" lüğətdə iki mənada, görmək istedadı və göz mənasında işlənir. Rağib İsfahani özünün "Müfrədat" kitabında yazır: "Bəsər, lüğətdə həm göz, həm də görmək istedadına deyilir. "Bəsurə" yəni, görən oldu. "Bəsər" və "əbsərə" yəni, gördü, dərk etdi, müşahidə etdi."

"Bəsər" həm gözə və həm də görmək hissinə deyilir. Məsələn, ayədə deyilir: "**Qiyamətin qopması (əmri) bir göz qırpımında, yaxud daha tez olar".[3]**

"Bəsər" sözünün cəm şəkli "əbsardır".

Quran buyurur: **"Sonra sizə qulaq, göz və qəlb verdi."[4]**

"Bəsirət" sözü, qəlbin görməsi mənasında olub, mərifət və dərk sözləri ilə sinonimdir. "Əqrəbul-Məvarid" kitabında nəql olunur ki, "bəsər" sözünün mənalarından biri də elmdir. Məşhur alim Təbərsi,

[1] Ayətullah Xoinin risaləsi.
[2] Məkarimul-əxlaq.
[3] Nəhl surəsi, ayə 77.
[4] Nəhl surəsi, ayə 78.

O gələcək...

Quranın, "**Mən və mənə tabe olanlar, açıq aşkar bir dəlillə (insanları) Allaha çağırırıq"** – ayəsində, "bəsirət" sözünü, mərifət və qəlbin görməsi mənasında qeyd etmişdir. Həmin səbəbə görə bəsirəti, ağıl və zirəklik mənasında işlədiblər.

GÖRMƏK ÜZVÜ, NEÇƏ ELMİN HƏDƏFİ

Göz, hiss və idrak vasitəsi olduğuna görə psixologiya elmində daim diqqət mərkəzində olub. Nur və işıq qanunlarına bağlı olduğuna görə fizikada da ondan bəhs olunur. Görməyin sirri keyfiyyətinə görə fəlsəfə elmini də özünə cəlb etmişdir. İnsan orqanizminin bir üzvü olub, xüsusi vəzifə yerinə yetirdiyinə görə anatomiya və fiziologiya elmində gözün incəlikləri bəyan olunur. Bütün bunlara görə gözü bir neçə elmin hədəfi adlanırsaq, mübaliğə etmərik. Bunun vasitəsilə də rəngləri, şəkilləri və cisimlərin məsafələrini dərk edirik.

GÖZDƏN DÜZGÜN ŞƏKİLDƏ BƏHRƏLƏNMƏK

Allah-Taala, göz nemətinin əzəmətini "Bələd" surəsinin 8-ci ayəsində insanlara bəyan edir:

"Məgər biz insana iki göz vermədikmi?"

Göz, insanın xarici aləmlə mühüm əlaqə vasitəsidir. Onun qəribəlikləri o qədərdir ki, doğrudan da, insanı, Xaliqin müqabilində təvazökarlığa gətirir. Lakin, insanların bəziləri bu nemətlərdən istifadə etmirlər.

Əraf surəsinin 179-cu ayəsində insanların bir dəstəsi barəsində buyurur:

"Onların gözləri vardır, lakin onunla görməzlər."

Bu nemətdən düzgün istifadə etmirlər.

İslam Peyğəmbəri (s), Bələd surəsinin 8-ci ayəsinin təfsirində buyurur:

"Allah, Adəm övladlarına buyurur: Ey Adəm oğlu! Əgər dilin səni, sənə haram etdiyim şeyə vadar etsə, onun qarşısını almaqdan ötrü sənə iki dodaq vermişəm; Əgər gözün səni haram tərəfə çəksə, Mən, onları örtməkdən ötrü sənin ixtiyarında iki kiprik qoymuşam."[1]

Göz, Allahın haram buyurduqlarına bağlanmış olmalıdır. Kəhf surəsinin 101-ci ayəsində kafirlər barəsində belə buyurulur:

[1] Nur-Səqəleyn, cild 5, səh 581.

O gələcək...

"O kəslər ki, gözləri Məni anlamaqdan qapalı idi və eşitməyə də qadir deyildilər."

Bu ayədə buyurur ki: Kafirlər haram olunmuşlardan gözlərini yummadılar. Əksinə, o şeylər ki, Allahı yada salır ona gözlərini örtdülər. Onlar eşitmək qüdrətləri olduğu halda, qulaq asmadılar. Əslində, kafirlər ən mühüm həqiqət axtaran və faktları dərk edən vasitələrindən istifadə etmirdilər. Maraqlıdır ki, göz barəsində buyurur: **"Gözlərini Məndən uzaqda qapalı saxlayırlar."**

İşarə olunur ki, qəflət hicabında olduqlarına görə Allahın nişanələrini görmürdülər. Həqiqəti də görmədiklərinə görə əfsanə yolunu tuturlar. Allah, digər cisimlər kimi gözlə görünən deyil. Görünən yalnız, Onu xatırlamağa səbəb olan əlamət və nişanələridir.

İnsanın öz xilqətinə baxışı

Gözdən düzgün şəkildə istifadə etməyin yollarından birini Quran bəyan etmişdir. Qurani-kərim "Tariq" surəsinin 5, 6 və 7-ci ayələrində insanı görməyə dəvət edərək, buyurur:

"Elə isə insan nədən yaradıldığına bir baxsın! O axıb tökülən bir sudan (nütfədən) yaradılmışdır. O su [kişilərin] bel sümüyündən, [qadınların] köks sümüyündən çıxar!"

Beləliklə, Quran, bütün insanların əlindən tutub onları ilk yarandığı vaxta qaytarır. Bu sual cümləsi ilə onlardan soruşur: Sizin yaranışınız nədən olmuşdur? Onların cavabını gözləməmiş, Özü suala cavab verir ki, (kişinin nütfəsinə işarə olunan) "**atıcı sudan"** yaranmısınız. O nütfə, kişinin sülbündə üzən haldadır. Çölə çıxanda isə sıçrayır. Sonra sülb və sinələr məsələsini qarşıya qoyur. Müfəssirlərin bu barədə nəzəriyyələri müxtəlifdir. Hədəfimiz, Quranın, insanın nədən yaranmasına diqqət etməsi dəvətini araşdırmaq olduğundan, bu barədə onların hamısını sadalamaq mümkün deyil.

Yemək və təamlara baxış

Qurani-Kərimin ikinci dəvət etdiyi məsələ, insanın yemək və təamlarına diqqət yetirməsidir. "Əbəsə" surəsinin 24-cü ayəsində buyurur: **"İnsan hələ bir yeməyinə baxsın."**

İnsana ən yaxın əşya, qida maddələridir ki, bir az dəyişməklə insanın vücudunun bir hissəsinə çevrilir. Əgər onun vücuduna keçməsə, tezliklə fəna yolunu tutur. Ona görə də Qurani-kərim bütün mövcudat-

ların arasında yeməklərə, xüsusilə, bitkilər və ağaclar vasitəsilə insana aid olan yeməklərə işarə edir.

"Baxmaq"dan məqsədin nə olması barəsində müfəssirlər arasında fikir ayrılığı vardır. Bir dəstə zahiri baxışa üstünlük verib, məqsəd, insan süfrəyə baxıb halal və ya haram yeməsinə diqqət etməsidir. Yemək ona xeyirdir, yaxud zərər? Bəzi rəvayətlərdə bu yeməyin "elmi qida" olduğu söylənilir. İmam Baqir (ə) buyurur.

"Öz elminə bax ki, kimdən və hansı yolda qərar tutub və ya yeməyin tərkibi barəsində fikirləş. Hər nə olursa-olsun, Quran insanı bu sahəyə diqqət etməyə dəvət edir."[1]

Qurani-kərimdə çox yerlərdə, insan baxmağa dəvət olunur. Məsələn: **Yer üzündə dolaşıb görün ki, haqqı inkar edənlərin axırı necə oldu?"**[2]

Başqa yerdə buyurur: **"Yer üzünü gəzib məxluqatı yaratmağa ilk əvvəldən nə cür başladığına baxın."**[3]

NAMƏHRƏM QADINLARA BAXMAQ HARAMDIR

Qurani-kərim buyurur: **Mömin kişilərə de ki: Gözlərini haram edilmiş şeylərdən çevirsinlər, (naməhrəmə baxmasınlar). Ayıb yerlərini qorusunlar. Bu, onlar üçün daha yaxşıdır. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır."**

"Mömin qadınlara da de ki, gözlərini haram buyurulmuş şeylərdən çevirsinlər, (naməhrəmə baxmasınlar). Ayıb yerlərini qorusunlar."[4]

Ərəb dilində "yəğuzzu" feli əslində "əzz" sözündən olub, azaltmaq və naqisliyə deyilir. Çox yerlərdə səsi azaltmaq və nəzəri azaltmağa deyilir. Beləliklə, ayə buyurur: **"Öz nəzərinizi azaldın."**

Bu ifadə, naməhrəm qadınla üzləşən zaman insanı tərbiyəli olmağa sövq edən ən lətif ibarətdir. Əgər gözünüzü bir dəfəlik örtsək, yol yerimək mümkün olmaz. Lakin, baxışımızı qadının surət və bədən hissəsindən döndərsək, sanki, öz baxışımızı azaltmış olur və qadağan olunmuş səhnəni birdəfəlik öz nəzərimizdən uzaqlaşdırırıq.

---

[1] Təfsir Safi, cild 2, səh 789.
[2] Nəhl surəsi, ayə 36.
[3] Ənkəbut surəsi, ayə 20.
[4] Nur surəsi, ayə 30-31.

O gələcək...

Qeyd etdiyimiz kimi Allah-Taala, Qurani-kərimdə naməhrəm kişi və qadınlara bir-birinə baxmağı qadağan buyurmuşdur. Çoxlu rəvayətlərdə bu əmr bəyan olunmuşdur. Bəzi yerlərdə baxışların zərər və ziyanları açıqlanmışdır.

"Vəsailüş-Şiə" kitabında bu mövzuda xüsusi "fəsl" açılmışdır. Bu fəslin adı "Naməhrəm qadınlara baxmanın haram olunması və onun təsirlər"dir. Bu mövzudakı rəvayətlərin birincisində buyurulur:

İmam Sadiqdən (ə) nəql olunur ki, buyurur:

"Naməhrəmə baxmaq, Şeytanın oxlarından biridir və zəhərlidir. O qədər baxışlar var ki, uzun həsrətlərə səbəb olur!"[1]

Bu hədisdə baxışın Şeytanın oxuna oxşadılması o cəhətdəndir ki, ox, hədəfə yetişdikdə onu dağıdır, yersiz baxış da ismət və paklıq pərdəsini dağıdır. Hədisin ardınca buyurur: **"Yersiz baxış, çox vaxt uzun-uzadı həsrətə çevrilir."**

Bəli! Çox haram baxışlar var ki, onun ardınca insan ömrünün axırına kimi aradan getməz bədbəxtçiliklərə düçar olur. Ömür boyu peşmançılıqda olub, heç bir nəticə də əldə edə bilmir.

Bu mövzuda başqa rəvayət də gəlib. İmam Sadiqdən (ə) nəql olunur, buyurur: **"Bir baxışdan sonrakı (naməhrəmə) baxış, insanın qəlbində meyillər və şəhvət toxumunu səpir. Baxışdan səpilmiş toxum, sahibini fitnəyə salmaqdan ötrü kifayətdir."**[2]

Başqa rəvayətdə yenə də İmam Sadiqdən (ə) nəql olunur, buyurur:

"Hər kim, gözü naməhrəmə sataşdıqdan sonra baxışını kəssə, ya göyə tərəf baxsa ya da baxışını azaldıb gözünü örtsə, həmin anda, Allah-Taala Behiştdə ondan ötrü "Hurul-eyn" qərar verər."[3]

ŞƏRİƏTDƏ BƏZİ YERLƏRDƏ NAMƏHRƏMƏ BAXMAQ İSTİSNA OLUNUB

Quran ayələrindən və İmam Səccadın (ə) "Hüquq risaləsi" kitabından aydın oldu ki, Allahın haram buyurduğu şeylərə baxmaq olmaz və onlara göz yummaq lazımdır. İndi isə elə hallara işarə edək ki, şəriətdə o halda naməhrəmə baxmaq istisna olunub. O yerlərdən biri də, insanın həmin naməhrəmlə evlənmək istədiyi vaxtdır. "Vəsailüş-Şiə" kitabında həmin mövzuda İmam Baqirdən (ə) nəql olunur:

[1] Vəsail-Şiə, cild 14, "Kitabun Nikah" səh 138-139.
[2] Vəsail-Şiə, cild 14, "Kitabun Nikah" səh 138-139.
[3] Vəsail-Şiə, cild 14, "Kitabun Nikah" səh 138-139.

O gələcək...

"Bir nəfər İmam Baqirdən (ə) evlənmək istədiyi qadına baxmağa icazəsi olub-olmadığını soruşur? Həzrət buyurur: Bəli! Baxa bilər. Həqiqətən, o qadını ən baha qiymətə almaq istəyir."

Bu rəvayətdə yalnız baxmağa icazə verilib. Amma hansı yerə baxmağı bəyan olunmur. Lakin, digər bir rəvayətdə hansı yerlərə baxmaq bəyan olunur. İmam Sadiqdən (ə) nəql olunur ki, buyurur:

"Kişi qadınla evlənmək fikrində olsa, onun üzünə və biləklərinə baxmağın eybi yoxdur."[1]

Üçüncü rəvayətdə ravi yazır: İmam Sadiqə (ə) ərz etdim: **"Bir nəfər kişi bir qadınla evlənmək istəyir. Diqqətlə ona nəzər edir, üzündən və arxasından baxır. Bu işə nəzəriniz necədir?" Həzrət buyurdu: "Əgər onunla evlənmək niyyətindədirsə, üzünə və arxa tərəfdən baxmağın eybi yoxdur."**[2]

Başqa rəvayətlərdə, evlənmək niyyəti ilə olub, ləzzət aparmamaq şərti ilə qadının saçlarına və zinətli yerlərinə baxılmasına da icazə verilir.

Həkimin xəstə qadına baxması

Naməhrəm qadına baxmağın istisna olunmuş yerlərindən biri də həkimin xəstə qadını müalicə etməsi vaxtıdır. O şərtlə ki, kişi həkimdən başqası onu müalicə edə bilməsin. "Vəsailüş-şiə" kitabında bu barədə rəvayətdə oxuyuruq:

"Əbu Həmzə Somali, İmam Baqirdən (ə) nəql edir ki, Həzrətdən soruşdum: "Müsəlman qadın xəstələnərsə, ya bədənində xəsarət olarsa, yaxud sınıqlıq olsa və elə bir yerdə olsa ki, ora baxmaq haramdır, həmçinin, həmin sahədə kişi həkim qadın həkimdən savadlı olsa, icazə var ki, kişi həkim qadının bəzi yerlərinə baxsın?"

Həzrət cavabında buyurur: "Zəruri vaxtda eybi yoxdur. Əgər qadın istəyirsə, kişi onu müalicə edə bilər."[3]

Əhli-Zimmə[4] və səhralarda yaşayan köçəri qadınlara baxmaq

Naməhrəm qadınlara baxmağın istisna olunmuş hallarından biri də, zimmə əhli və köçəri qadınlardır. Bu barədə "Vəsail-Şiə" kitabının 112-ci fəslində, rəvayətdə oxuyuruq:

[1] Vəsail-Şiə, cild 14, səh 59.
[2] Vəsail-Şiə, cild 14, səh 59.
[3] Vəsail-Şiə, cild 14, səh 172.
[4] Kafir olub müsəlman ölkəsində yaşayan yəhudi və ya xaçpərəst qadınlar.

O gələcək...

"Zimmə əhlindən olan qadınların saçlarına və əllərinə baxmağın eybi yoxdur."[1]

"Kənd və köçəri qadınlarının baş və tüklərinə baxmağın eybi yoxdur. Çünki, əgər onları bu işdən çəkindirsəniz də, öz saçlarını örtməyə hazır deyillər. Həmçinin, divanə və ağıldankəm qadınlar da qəsdən bu işi görməsələr onların hökmündədir."[2]

İBRƏTAMİZ BAXIŞ

İmam Səccad (ə) buyurur: "Baxmalı şeylərdən ibrət almaq lazımdır. Çünki, göz ibrətlərə tərəf açılmış qapıdır. İnsanın baxış növlərindən biri də onun ibrət almasına səbəb olan ibrətamiz baxışdır. Belə baxışın insana faydası var. Harun İmam Rzaya (ə) yazır: **"Qısa bəyanla mənə moizə et! Həzrət cavabında yazır: Elə bir şey yoxdur ki, sənin gözün ona düşsün və səndən ötrü onda ibrət və nəsihət olmasın."[3]**

Əmirəl-möminin Əli (ə) buyurur:

"İbrət götürməli şeylər çoxdur. Lakin, ibrət götürən azdır."[4]

Başqa hədisdə Həzrət buyurur:

"Hər kim ibrət gözü ilə baxsa, gözü açılar. Hər kimin gözü açılsa, anlayar, hər kim də anlasa, elm və bilik dərəcəsinə yüksələr."

Rəvayətlərdən birində nəql olunur ki, Əmirəl-möminin Əli (ə) Mədain şəhərindən keçəndə, Kəsranın yerdə qalan əsərlərini müşahidə edir. Onun qalaları uçub yerlə bərabər olmaq üzrə idi. Həzrətin əshabından olan, şair ibni Yəfur Yəmənin yazdığı şeri xatırlayır:

"Küləklər onların yerdə qalan əşyalarının üzərindən əsirlər (onların qəsrlərindən küləyin səsindən başqa bir şey qulağa dəymir). Sanki hamısının vədə olunmuş yerləri var və hamısı o yerə gediblər!"

Əmirəl-möminin Əli (ə) buyurur: **"Nəyə görə bu ayələri tilavət etmirsiniz?"**

"Onlar özlərindən sonra neçə-neçə bağlar, çeşmələr qoyub getdilər, neçə-neçə əkinlər, gözəl yerlər, möhtəşəm qəsrlər və zövq aldıqları neçə-neçə nemətləri (tərk etdilər). Onları belə cəzalandırdıq və sərvətlərinə, mülklərinə başqalarını varis etdik. Bunlardan ötrü nə göy, nə də yer ağladı. Onlara möhlət də verilmədi."[5]

---

[1] Vəsail-Şiə, cild 14, səh 149.
[2] Vəsail-Şiə, cild 14, səh 150.
[3] Səfinətül-bihar, cild 2, səh 146.
[4] Səfinətül-bəhar, cild 2, səh 146.
[5] Duxan surəsi, ayə 25-29.

O gələcək...

Bu ayələr, bütün zülm və zillətlərdən sonra hökumətinin axırda İsrail övladlarının əlinə düşüb, özlərinin isə dəryada qərq olmasına aiddir. Onları heç bir qüvvə xilas edə bilmədi. Bəli! Belə bir baxış, aqil insanların ondan dərs aldığı ən mühüm bir baxışdır.

İMAM ƏLİYYƏN-NƏQİ (ə) VƏ XƏLİFƏ MÜTƏVƏKKİL

Tarixçi Məsudi yazır: "Mütəvəkkilin məmurları İmam Əliyyən-Nəqinin (ə) evinə hücum edib, axtarışdan bir şey tapmadıqlarını Mütəvəkkilə xəbər verdilər. O, məclisdə şərab içib məst olmuşdu. Göstəriş verir ki, İmamı öz evindən onun yanına gətirsinlər. Həzrəti gətirirlər. O, İmama (ə) ehtiram göstərib yanında otuzdurur, ona şərab camını təklif edir. Həzrət buyurur: "Şərab, heç vaxt mənim canıma və ətimə daxil olmayıb. Məni üzürlü hesab et." Mütəvəkkil deyir: "Mənə şer oxu! Həzrət bu məzmunda şer buyurur:

"Bir müddət uca qəsrlərdə yaşadılar, onların qorunması özlərinin əsgərlərinin boynunda idi. Lakin, uca qüllələr, onlara fayda vermədi. Azad və izzətlə yaşadıqları qalalardan endilər, qəbr çökəkliklərində məskun oldular. Necə də pis yerə düşdülər. Nida edən, onların dəfnindən sonra car çəkdi: Onların tacları və zinətləri və qol bağları hara getdi? Gülər üzlər necə oldu? Unudulduldular və itdilər. Bu vaxt qəbirdən bir səs ucalır: O üzlər qurd-quşlara yem oldular. Çox günləri yeyib-içdilər. Halbuki, günlərin birində özləri yeyilmiş olub, xırdalandılar."[1]

Mütəvəkkil bu şeri eşitcək elə göz yaşları tökdü ki, nəql olunduğuna görə şərab camını yerə vurdu.

Bəli! Budur ibrətamiz baxış! Çox heyif ki, Mütəvəkkilə fayda vermədi. Mühəddis Qumi "Səfinətül-bihar" kitabında İmam Sadiqdən (ə) Yerusəlim əhvalatını belə nəql edir ki, buyurur:

"Həzrət Davud, mənzilindən çölə çıxır və Zəburdan tilavət edirdi. Quşlar və heyvanlar da onunla birlikdə həmavaz olurlar. Cizqil adlı bir abidin ibadət etdiyi dağın yanından keçirdi. Cizqilə dedi: "Mənə burdan keçməyə icazə verirsənmi?"

Abid dedi: "Xeyr!"

Davud ağladı. Allah abidə nida göndərdi ki, Davuda əziyyət etmə. Ona görə də abid, Davuda öz yanında yer verir. Davud ondan soruşur: "İndiyə kimi günah etməyi qərara almısanmı?"

[1] Müntəhal-amal, cild 2, səh 400.

O gələcək...

Cavab verdi:" Xeyr!"
Yenə buyurdu: "Heç əməllərində qürrələnmisənmi?"
"Xeyr!" - deyə cavab verdi.
Soruşdu: "Heç dünyaya meyl etmisənmi?"
Cavab verdi: "Bəli!"
Soruşdu: "Belə halda özünü dünya meylindən necə qurtarırsan?"
Cavab verir: "Bu gördüyün dərəyə gedirəm".

O vaxt abid, Davud peyğəmbəri dərəyə aparır. O yerdə dəmir bir taxt görürlər. Bu taxta baş sümüyü bərkidilmişdi. Kənarında isə belə yazılı lövhə vurulmuşdu:

"Bu Yerusəlimin başının kəllə sümüyüdür. Min il hakimlik etdi. Min şəhəri abad etdi. Min cavan qızla evləndi. Axırı bura çatdı ki, torpaq mənzil və qurd-quşlarla ünsiyyətdə oldu. Hər kim məni görsə, dünyaya aldanmaz!"[1] Budur ibrətamiz baxışlar.

GÖZÜN FİZİOLOJİ QURULUŞU

Göz, iki hissədən təşkil olunub. Birinci, cüzi hissələr, ikinci, göz yumrusu. Cüzi hissələr bunlardır:

Hədəqə, kiprik, gözün üst qapağı, qaş, göz yumrusunu hərəkət etdirən əzələlər.

1. Gözün hədəqəsi: Çoxlu xırda sümüklər birləşib, gözün lətif və sirli kürəsi üçün möhkəm sandıqça əmələ gətiriblər ki, göz onun içində qorunur. Belə bir həssas orqandan ötrü möhkəm yer lazımdır ki, adı çəkilən sümüklər, yuxarı qisimdən alının sümüyünə, daxildən isə burun sümüyünə yaxın yerə birləşmişdir.

Gözün kürəsinin və başqa lətif əzalarının bu sandıqçada kamil qərar tutub, rahat qorunmasından ötrü sandıqçanın içi axıcı qabiliyyəti olan piyli maddə ilə dolmuşdur. Gözün hədəqəsi, pərdə vasitəsilə iki hissəyə bölünür. Qabaq hissə, gözün kürəsinin yeri, arxa hissədə isə təsvirləri zehnə çatdıran görmə-sinir sistemləri, göz kürəsini hərəkət etdirən, gözə qan çatdıran damarlar yerləşir.

2. Göz qapaqları. Gözün önündə onun lətif səthini soyuqdan, istidən və s. təsirlərdən qoruyan iki zərif və möhkəm göz qapaqları yerləşmişdir. Bu qapaqlar yuxu və təhlükə zamanı tamamilə bir-biri ilə birləşərək gözə qarşı ehtimal olunan hər hansı bir təhlükənin qarşısını alır. Həmçinin, şuaların gözə düşməsini də orta səviyyədə saxlayır.

[1] Səfinətül-bihar, cild 2, səh 146.

O gələcək...

Adi halda, göz qapaqları bir dəqiqədə, bir neçə dəfə bir-birinə qırpılmaqla, gözün yuxarı hissəsində olan vəzilərdən göz yaşını əmələ gətirir. Bu suyu, göz səthinə axıdaraq onu yuyub həmişə təzə və nəm saxlamaqla gözün fəaliyyətini asanlaşdırır. Göz yaşının gəlməsi, gözə iki cəhətdən lazımlı və faydalıdır. Birinci: Gözün səthini yuyub, hava və toz-torpağın oraya daxil olub göz səthinin çirklənməsinin qarşısını alır. Digəri isə budur ki, bu mayenin anti-bakterial xüsusiyyətli olduğuna görə göz kürəsinin sağlam qalmasında böyük rolu vardır.

3. Kipriklər. Göz qapaqlarının ucunda, münəzzəm şəkildə düzülməklə toz-torpağın gözə düşməsinə mane olur. Təhlükəli şuaların müqabilində müqavimət göstərərək onun təsirini azaldır. Göz qapaqlarının yanında vəzilər vardır ki, göz qapaqlarını və kiprikləri yaxşı şəkildə saxlamaqdan ötrü maye ifraz edirlər. Bununla da, gözün suyu adi halda öz-özünə gözə tökülmür, həmçinin, göz qapaqlarının bir-birinə birləşdiyi vaxt insana əziyyət vermir.

4. Gözü hərəkətə gətirən əzələlər. Gözün, ətrafı asan və sürətlə görməsini təmin etmək üçün göz kürəsini hərəkət etdirən altı əzələ onun ətrafını əhatə etmişdir. Bununla da gözün müxtəlif cəhətlərə, yəni yuxarıya, aşağıya, sağa və sola, daxilə və xaricə hərəkətləri təmin olunur.

5. Qaş. Gözlərin üst qapağının yuxarısında, münəzzəm şəkildə bitmiş tüklər, gözəllik əlamətindən əlavə, tərin gözün içinə düşməsinin də qarşısını alır. Həmçinin, yuxarı tərəfdən gözə düşən şuaların təsirini azaldıb orta səviyyədə saxlanılmasında çox böyük təsiri vardır.

GÖZ KÜRƏSİNİN TƏBƏQƏLƏRİ

Göz təbəqələri xaricdən daxilə doğru üç dəri ilə əmələ gəlmişdir:

1. Səlbiyyə

Bu, gözün bütün hissəsini örtmüş möhkəm və ağ bir pərdədir. Bu pərdə çox zərif olub, qalınlığı bir millimetrdən çox olmur. Nisbətən çox möhkəm olduğuna görə gözün kürəsini qorumaq vəzifəsini daşıyır.

Şəkilçəkən aparatın qarşıda dairəvi xırda gözlüyü və həssas şüşəsi olub, onun daxilində çox zərif və həssas bir əza yerləşir. Bu pərdədən görünən miqdar, həmin gözün ağıdır. Həmçinin, qarşı tərəfdə bu ağlıq, bir qədər irəli çıxmış nazik və şəffafdır. Bununla da, bu hissə "səlbiyyə" pərədəsinin doqquzda biri qədərdir. Elmi termində ona, "qərniyyə" deyilir. "Səlbiyyə"nin arxasında, gözün kürəsinə daxil olan görmə sinir

sistemi yerləşir. Bu zərif pərdə tibbi terminlərdə "göz qabı" adlanır. O qədər möhkəmdir ki, yalnız, iti bir şeylə möhkəm vurmaqla zədələnə bilər. Belə ki, həkimlər cərrahiyyə əməliyyatı zamanı burada iti bıçaqdan istifadə edirlər.

2. Müşəymiyyə

O, nazik və zərif bir pərdə olub "səlbiyyə" örtüyünün daxilini tamamilə örtür. Çoxlu damarları vardır. Onun əsas vəzifəsi gözün qidalanmasını təmin etməkdir. Uşaqlıq pərdəsinə oxşar olduğuna görə "müşəymiyyə" adlanır.

Bu pərdənin ön hissəsi, "ənbiyyə" adlanır. Surət və rənginə görə fərqlidir. Yəni, surət cəhətdən enli və uzundur. Belə bir şəkildə olması səbəbindən, gözün bu hissəsi "zülaliyyə" adlı maye ilə dolu olur. Rəng cəhətdən əksər hallarda qara olur ki, bu da gözün qarasını təşkil edir. Bəzi insanlarda bu yaşıl və göy rəngdə olur.

"Ənbiyyə" hissəsinin ortasında təxminən, 3-6 millimetrdə olan "mərdumək" adlı deşik vardır. Bu deşiyin ağzının genişliyi şuanın müqabilində az və ya çox olması ilə fərqlənir. Yəni, şua nə qədər şiddətli olarsa, ağız yığılır və nə qədər zəif olarsa, ağız genişlənir. Özü tənzimlənən bu əməllə, şuanın gözə hansı miqdarda daxil olması müəyyənləşir. Əslində, fotoaparatın diafraqması kimidir. Yalnız fərq bundadır ki, bu əməl əllə tənzimləmədən, gözdə öz-özünə tənzim olunur. Bu deşik, ona görə "mərdumək" adlanır ki, iki nəfər bir-birinin müqabilində durduqda, gözlərin içində bir-birinin şəkillərini görürlər. İnsanlarda arxasında qaranlıq fəza olduğundan "mərdumək" qara və girdə olur. Lakin, heyvanlarda bu müxtəlif rənglərdədir.

3. Şəbəkiyyə

"Şəbəkiyyə", "müşəymiyyə" pərdəsinin arasında olub, lətif və həssasdır. Pəncərəyə oxşar olduğuna görə ona bu adı veriblər. Şəbəkiyyə, sinir pərdəsidir. Yəni, görmə sinir sistemlərinin ardına birləşərək beyinə əlaqəlidir. Arxa hissəsində iki müşəxxəs nöqtə vardır ki, birincisi gözün görmə sinir sistemlərinin daxil olduğu kor nöqtə, ikincisi isə, sarı rəngli "sarı ləkə"adlı yumurtavari nöqtədir. Əşyaların şəkli əvvəlcə bu nöqtənin üzərində öz əksini taparaq oradan beyinə ötürülür.

O gələcək...

GÖZÜN KÜRƏSİNİN ŞƏFFAF MÜHİTLƏRİ

Gözün kürəsinin bir neçə hissəsi var ki, şua ondan keçərək, cisimlərin şəklini şəbəkiyyədə olan sarı ləkənin üzərinə salır. Bu mərhələlər aşağıdakılardan ibarətdir:

1. Zülaliyyə

Qərniyyə və ənbiyyə hissələri arasındakı fəza təxminən 3-4 millimetr həcmində olub, maye və zülalla doludur. Ona görə də bu hissəyə zülaliyyə deyilir.

Bildiyimiz kimi işıq qanunlarına görə, işıq, nazik mühitdən qalın mühitə keçdikdə dəyişir. Bu dəyişikiliyə "işığın sınması" deyilir. Həmin qanuna əsasən, həcmi az olan yerdə olan işıq, belə bir nisbətən qalın yerə düşdükdə, yəni, zülalın içinə düşdükdə, "işıq sınması" alınır. Bu da şəklin şəbəkiyyəyə verilməsini təmin edir.

2. Cildiyyə

Gözün qarası adlanan bu üzv, möhkəm və şəffaf olub, adi mikroskoplara oxşayır. 1,4 millimetr olmaqla, gözün ikinci pərdəsinin, yəni, ənbiyyə pərdəsinin arxasında yerləşmişdir. Mərkəzi hissəsi ətraf tərəflərdən möhkəmdir. Üzünü şəffaf pərdə örtmüşdür. Həmçinin, ətrafında onun şəklinin dəyişməsinə səbəb olan əzələlər yerləşmişdir.

Bu üzvün, gözə düşən işığın sınması və cisimlərin şəklini sarı ləkənin üzərinə verilməsində mühüm rolu vardır. Çünki, bütün şəkillər müəyyən bir nöqtəyə düşməlidir. Digər tərəfdən də bilirik ki, bütün cisimlər gözün qarası ilə eyni məsafədə olmayıb əksinə, bəziləri yaxın, bəziləri isə uzaqdırlar. Bu halda gözün qarası, cisimlərin yaxın və uzaqlığını tənzimləyib uyğun şəkildə şəbəkiyyəyə ötürür. Uyğunlaşdırmaq adlanan bu proses, asanlıq və qəribə sürətlə baş verir.

3. Zücaciyyə

Şəffaf maddə olub, gözün kürəsinin içini tam şəkildə doldurur. Gözün qarasının arxasında yerləşməklə, hər tərəfdən şəffaf dəri ilə örtülmüşdür. Bu üzvün də işi, işığın sınması və cisimləri uyğun şəkildə sarı şəbəkiyyəyə ötürməkdir.

Gözün şəkil çəkən aparatla oxşarlığı

Fiziki cəhətdən şəkil çəkən aparatla göz arasında oxşarlıq vardır. Şəkil çəkən aparatda, təsvir ölçülər vasitəsilə lentin üzərinə cəm olu-

nur. Gözün bəzi əzaları da ölçü kimi əşyaların təsvirini sarı şəbəkiyyə üzərinə cəmləşdirir.

Şəkil çəkən aparatda, ölçü vasitələrini irəli və geri verməklə dəyişmək olar və bununla təsviri aydın salmaq olar. Gözdə də pərdələrdə dəyişiklik etməklə təsviri şəbəkiyyə üzərinə aydın salmaq olur.

Aparatın diafraqması və gözün ənbiyyə hissəsi, işığın şiddətinin tənzimlənməsində müştərəkdirlər. Nəhayət, istər şəkli çəkəndə, istərsə də gözdə, əşyanın şəkli düşür. Beyin, qismən gözə düşmüş şəkli düzəldib, nəticədə, əşyanı olduğu kimi görməkdə bizə kömək edir.

Gözün fizioloji quruluşu

Görmək üçün əşyaların şəkli gözün şəbəkiyyə hissəsinə düşür. Bu da gözün görmə sisteminin hərəkətə gəlməsinə səbəb olur. Sinir dalğası, görmə sinir sistemləri vasitəsilə beyinə çatır və orada dərk olunur. İşığın tənzim olunması, refleks vasitəsilə olur. Bu refleks, işığın şiddəti və əşyanın məsafəyə nisbət gözün xırda mexanizmini kiçik və böyük edir. Çox işıqda göz mexanizmi xırda, az işıqda isə böyük olur.

GÖZ XƏSTƏLİKLƏRİ

Təbii halda əşyaların təsviri gözün şəbəkiyyəsinin üzərinə düşür. Bəzən əşyanın təsviri şəbəkiyyənin üzərinə düşmür. Ön yaxud da, arxa hissəyə düşür. Əgər əşyanın təsviri şəbəkiyyənin önünə düşərsə, göz "yaxın görən", yaxud onun arxasına düşərsə göz "uzaq görən" olur.

Bəzi göz xəstəliklərindən - Astiqmatizm, Daltonizm, Katarakta, Konyunktivit, Korluq, Toyuq korluğu və s. adlarını qeyd etmək olar.

Gözün yaxını görməsi

Qərniyyə və göz qarası ilə məsafə, adi haldan çox və ya göz şəbəkiyyəsindəki məsafə, təbii haldan çox olduqda, göz yaxın görən olur. Yaxud, göz qarasının qüdrəti həddən çox olmuş olsun. Bu cür hallarda, əşyanın təsviri göz şəbəkiyyəsindən qabaqda görünür.

Gözün uzaq görməsi

Uzaq görmə, yəni qərniyyə təbəqəsinin məsafəsi, gözün qarası ilə az olsun. Yaxud gözün qarasında zəiflik olsun. Bu zaman əşyaların

təsviri şəbəkiyyə sisteminin arxasında qərar tutur. Yaşlı halda çox vaxt göz, uzaq görən olur. Ona görə də bu eybi, "göz qocalığı" adlandırırlar. Göz qocalığında göz getdikcə öz qüvvəsini itirir və şəbəkiyyə üzərində təsvirləri cəmləşdirə bilmir. Təxminən bir metrə yaxın məsafədən əşyanın şəkli göz şəbəkəsinə uyğun şəkildə düşmür. Beləliklə, göz qocalığında əşyanı bir metrədən az məsafədə görmək olur. Ondan uzağı görməkdən ötrü, münasib vasitədən kömək almaq lazımdır.[1]

Gözün fiziki quruluşu ilə tanış olduqdan sonra indi də onun şəri dəyərinə diqqət edək.

GÖZÜN ŞƏRİ CƏHƏTDƏN DƏYƏRİ

İmam Xomeyni özünün "Təhrirul-vəsilə" kitabında yazır:

"İki gözün qan bahası, insanın tam qanbahası qədərdir. Onların hər birisi, tam qan bahasının yarısıdır. Bu məsələdə fərq etmir ki, gözü torlu görən olsa və ya gözü çəp olub iki-iki görən olsa, balaca göz olsa, gecə yaxşı görüb gündüz kor olsa, gecə kor olsa, gözü xəstə olsa, bütün bunlar qan bahasında sağlam göz hökmündədir.

Əgər qaranlıqda, onun gözündə ağlıq olsa və bu ağlıq görmə qabiliyyətinə zərər yetirməsə, tam qan bahası var. Əgər bu hal gözün görməsinə təsir etsə, o qədər də qan bahasından əksilir. Bu o haldadır ki, müəyyən olunmaq qabiliyyəti olsun. Əgər müəyyən oluna bilməsə, onda "ərş" var. Yəni sağlam və eybli gözlə fərqi hesablanmalıdır".[2]

"Məbani təkmilətil-minhac" kitabında, qan bahası barəsində yazılır:

"İki gözün qan bahası, insanın qan bahasıdır. "Bu cümlənin izahında yazılır: Əshab arasında bu məsələdə ixtilaf yoxdur. Bəlkə də, Şeyx Tusi və ibn Zöhrə, şiə alimlərindən qeyriləri arasında da ixtilaf olmadığını iddia etmişdilər. "Məmalik" kitabında bu məsələdə "icma" iddiası olunmuşdur. O cümlədən rəvayətlərdən sənəd kimi Əbdullah ibn Sənan, İmam Sadiqdən (ə) nəql edir, buyurur:

"İnsanın bədənində hər nə cütdürsə, hər biri üçün insanın qanbahasının yarısı qədərdir."

Sonra cümləni, göz haqqında bu cümlə ilə davam etdirir:

"Onların hər birisində, insanın yarım qanbahası qədərdir. Bunda, sağlam və qeyri-sağlam gözün arasında fərq yoxdur."

---

[1] İnsan bədənini tanımaq, səh 5-22.

[2] Təhrirul-vəsilə, cild 2, səh 572.

O gələcək...

Ayətullah üzma Gülpayiqani, bir qızın gözünün kor olması sualına cavabında buyurur:

"Qadının bir gözünün qanbahası, kamil bir qadının qan bahasının yarısı qədərdir."[1]

Bəli! İnsanın iki gözünün dəyəri, bütün bədəninin dəyəri qədərdir.

6. AYAĞIN HAQQI

وَأَمَّا حَقُّ رِجْلَيْكَ فَأَنْ لا تَمْشِي بِهِمَا إِلَى مَا لا يَحِلُّ لَكَ وَلا تَجْعَلْهُمَا مَطِيَّتَكَ فِي الطَّرِيقِ الْمُسْتَخِفَّةَ بِأَهْلِهَا فِيهَا فَإِنَّهَا حَامِلَتُكَ وَسَالِكَةٌ بِكَ مَسْلَكَ الدِّينِ وَالسَّبْقُ لَكَ، وَلا قُوَّةَ إِلا بِاللَّهِ.

"İki ayağının haqqı odur ki, onlarla, sənə rəva olmayan yerlərə qədəm götürmə. Onlarla, yol gedənin abır-həyasını aradan aparacağı yerə getmə. Çünki, onlar səni həml edirlər və səni dinə tərəf aparırlar. Sənin qarşıya getməyinə səbəb olurlar. Allahdan başqa heç bir güc-qüvvə yoxdur![2]

Qurani-Kərimdə, "ricl" (ayaq) kəlməsi çox işlənib. Buyurur:

"Ayağınla qədəm at və yol yeri."[3]

"Ricl" sözünün cəm şəkli, "ərcul" vəznində olur. "Əraf" surəsinin 195-ci ayəsində buyurur:**" Məgər onların yeriyən ayaqları var?"**

Həmçinin, Quranda, yol yeriyərkən iki ayaq arasındakı fasilə mənasını bildirən "xütvə" və qədəm mənasında olan "xətvə" kəlməsindən istifadə edilib. Birinci kəlmənin cəm şəkli, "xutuvat" kimi işlənir.[4] Quran buyurur:

"Ey insanlar! Yer üzündəki şeylərin təmiz və halal olanlarını yeyin, Şeytanın izi ilə getməyin! Həqiqətən, Şeytan sizinlə açıq-açığına düşməndir."[5]

Şeytanın izinə düşmək, ona tabe olmaq deməkdir. Yəni, Şeytanın vəsvəsə və iztirablarına tabe olmaq. Həqiqətdə, yol getməkdə tabeçilik odur ki, tabe olan, ayağını tabe olunanın ayaq izinin yerinə qoysun və onun kimi yol getsin. Bu kəlmə (xutuvat), cəm şəklində Quranda beş

[1] Məcməul-məsail, cild 3, səh 255.

[2] "Məkarimul-əxlaq" kitabında cümlə belə gəlib: Həmin iki ayaqla Siratın körpüsündə duracaqsan. Diqqət et ki, səni titrətməsin və Allahın qəzəb atəşinə atmasın.

[3] Sad surəsi, ayə 42.

[4] Məcməul- bəyan, cild 1, səh 252.

[5] Bəqərə surəsi, ayə 168.

O gələcək...

yerdə gəlmişdir: Bəqərə surəsi, 168-208-ci ayələr; Nur surəsi, 21-ci ayə; Ənam surəsi, 142-ci ayə. Bütün bunlarda məqsəd, insanın öz həyatında, Şeytanın həva-həvəslərinə tabe olmayıb, Peyğəmbərlər vasitəsi ilə nişan verilmiş doğru, düzgün və məntiqi yolla getmələrinə təşviqdir.[1]

ALLAHIN XALİS BƏNDƏLƏRİ NECƏ YOL GEDİRLƏR?

Allah-Taala "Furqan" surəsində, xüsusi bəndələrdən (ibadur-rəhman) on iki xüsusiyyət zikr edir və onlardan birincisi belə bəndələrin yol getməsidir. Buyurur:

"Rəhmanın (əsl) bəndələri o kəslərdir ki, onlar yer üzündə təmkinlə, təvazökarlıqla gəzərlər."[2]

MƏSDƏRİN İŞ GÖRƏN MƏNASINDA İŞLƏNMƏSİ BURADA TƏKİD ÜÇÜNDÜR

Yəni, sanki onlar eyni təmkin və təvazökardırlar.[3] Bəli! Allahın xalis bəndələrinin ilk xüsusiyyəti, təkəbbür, qürur və özbaşnalığı inkar edib, insanın bütün əməllərində hətta, yol yeriməyində də təvazökarlıq göstərməsidir. Çünki, əxlaqi xüsusiyyətlər həmişə özünü insanın əməlləri, sözləri və hərəkətləri arasında nişan verir.

Allahın bu mövzuda peyğəmbərə mühüm göstərişi

Allah-Taalanın Peyğəmbərə göndərdiyi mühüm göstərişlərdən biri budur ki: **"Yer üzündə təkəbbürlə gəzib dolanma. Çünki, sən nə yeri yara bilər, nə də (boyca) yüksəlib dağlara çata bilərsən."[4]**

Bu ayə işarə edir ki, məğrur təkəbbürçülər yol yeriyərkən ayaqlarını yerə möhkəm vururlar. Bununla da, əhalini öz yerişlərindən agah edirlər. Başlarını yuxarı tuturlar ki, öz üstünlüklərini digərlərinə göstərsinlər. Quran belə şəxsə buyurur: "Sən ki, ayağını yerə vurursan, yeri yara bilərsənmi? Sən bu böyük yer üzündə zərrəyə bənzəyirsən.

[1] Qamus Quran, cild 2, səh 264.
[2] Furqan surəsi, ayə 63.
[3] Təfsiri nümunə, cild 15, səh 147.
[4] İsra surəsi, ayə 37.

O gələcək...

Başını niyə yuxarı tutursan, məgər başın dağlara çatarmı? Öz boyunu ən azı bir neçə santimetr ucalda bilərsənmi?

Bəzi şəxslərin belə hala düşmələrinin səbəbi odur ki, özlərini unudub, təkəbbürlük bəlasına mübtəla olublar. İslam Peyğəmbərindən (s) nəql olunan maraqlı bir hədisdə oxuyuruq:

"**Günlərin birində küçədən keçirmiş. Bir nəfər dəli özünün gülünc əməlləri ilə əhalinin diqqətini özünə cəlb etmişdi. Peyğəmbər (s) əhalini özlərini anmağa dəvət edib buyurur: Əsl dəlinin kim olduğunu sizə tanıtdırımmı? Hamı sakit olub bütün vücudları ilə qulaq asırdılar. Buyurur: "O kəs ki, həmişə o tərəf bu tərəfinə baxa-baxa, təkəbbür və qürurla yol gedər. Çiyinləri ilə ətraflarını hərəkətə gətirər (özündən başqasını görməz və fikri özündən yuxarı olmaz). O kəs ki, əhalinin ondan xeyir iş baş verməsinə ümidi yoxdur və şərrindən də amanda deyillər. Əsl dəli, odur. Amma bu gördüyünüz, təkcə bir xəstədir."**[1]

Yol yeriyərkən təvazökarlıq bu demək deyil ki, yorğun, yavaş-yavaş qədəm atasan. Əksinə, təvazökarlıqla yanaşı, addımlarını möhkəm, ciddi və qətiyyətlə atmalısan!

İSLAM PEYĞƏMBƏRİNİN (S) YOL YERİMƏSİ

"Məkarimul-Əxlaq" kitabında, Peyğəmbərin (s) yol getməsi barəsində xüsusi ünvanda bəhs olunub. Orada rəvayətlərdən birində oxuyuruq:

"Əli ibn Əbu Talibdən (ə) nəql olunur, buyurur: **"İslam Peyğəmbəri (s) yol gedərkən, tələsik olmayan halda sürətlə qədəm götürərdi. Sanki, üzü aşağı yol gedirdi. Ondan əvvəl və ondan sonra belə yol yeriyən görmədim."**[2]

Peyğəmbərin (s) səhabələrindən biri nəql edir: **"Mən Peyğəmbərdən (s) sürətlə yol gedən görmədim. Sanki, yer ayağının altında cəm olmuşdu. Biz zəhmətlə özümüzü ona yetirirdik. O isə əhəmiyyət vermirdi."**[3]

İbn Abbas nəql edir: "**İslam Peyğəmbəri (s) yol gedərkən, yol getməsi nə halsız və tənbəllər kimi, nə də aciz və natəvanlar kimi idi."**[4]

---

[1] Təfsiri nümunə, cild 15, səh 149.
[2] Məkarimul-Əxlaq, səh 22.
[3] Təfsiri nümunə, cild 15, səh 153.
[4] Məkarimul-Əxlaq, səh 22.

O gələcək...

Loğmanın yol getmək barədə vəsiyyəti

"Loğman" surəsində, Loğmanın oğluna etdiyi tövsiyyələr arasında gələn cümlələrdən biri budur:

"Yer üzündə qürurla yol getmə. Həqiqətən, Allah heç bir özündən razını, lovğalanıb fəxr edəni sevməz."[1]

Sonrakı ayədə yol yeriməyin qaydasını bəyan edir: **"Yerişində müvazinəti gözlə (nə çox yeyin, nə də çox asta get)."**[2]

Hədislərdən birində, İslam Peyğəmbərindən (s) nəql olunur, buyurur:

"Hər kim yer üzündə qürur və təkəbbürlə yol gedərsə, yer, yerin altındakılar və yerin üzərində olanların hamısı ona lənət deyərlər."

Şeyx Səduqun "Əmali" kitabında, Peyğəmbərin (s) "nəhy etdikləri" bölməsində nəql olunur ki, İslam Peyğəmbəri (s) məğrurcasına və təkəbbürcəsinə yol getməyi nəhy edib, buyurur: "**Hər kim libas geyinib onunla təkəbbürlənsə, Allah-Taala onu Cəhənnəmin kənarındakı yerin təkinə atar və Qarunun yoldaşı olar. Çünki, (insanlar arasında) ilk qürur və təkəbbürün əsasını qoyan o olmuşdur. Allah, onu evi ilə birlikdə yerə batırıb həlak edər."**[3]

Həmçinin, İmam Sadiqdən (ə) nəql olunan hədisdə oxuyuruq:

"Allah imanı insanın əzalarına vacib edib, onların arasında bölmüşdür. O cümlədən, insanın ayaqlarına günaha tərəf getməməyi və Allahın razılığı yolunda qədəm götürməyi vacib etmişdir."[4]

QİYAMƏTDƏ ŞAHİDLƏR

Allah-Taala Qurani-Kərimdə buyurur:

"Bu gün onların ağızlarını möhürləyərik. Etdikləri əməllər barəsində, onların əlləri Bizimlə danışar, ayaqları isə şəhadət verər."[5]

"Nur" surəsinin 24-cü ayəsində oxuyuruq:

"Qiyamət günü dilləri, əlləri və ayaqları etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcəklər."

Əzaların necə danışması barəsində müfəssirlər arasında müxtəlif nəzəriyyələr var:

---

[1] Loğman surəsi, ayə 18.
[2] Loğman surəsi, ayə 19.
[3] Təfsiri Nurus-Səqəleyn, cild 4, səh 207.
[4] Üsuli Kafi, cild 2, səh 34.
[5] Yasin surəsi, ayə 65.

O gələcək...

1. Allah-taala, o gün hər bir əzada şüur, dərk və söz danışmaq qüdrəti yaradacaq. Onların hamısı doğru danışacaq. Heç bir təəccüb yeri də yoxdur! Bu qüdrəti, dil adlı bir tikə ətdə yaradan, başqa əzalarda da yarada bilər.

2. Onların şüur və dərki olmayacaq. Lakin, Allah onları danışmağa məcbur edəcək. Əslində, əzalar danışığın zühur etdiyi yer olacaq. Allahın əmri ilə həqiqətləri aşkar edəcəklər.

3. Hər bir insanın əzaları, ömrü boyu etdiyi əməllərin təsirini özündə saxlayacaqdır. Çünki, bu kainatda heç bir əməl məhv olub birdəfəlik aradan getmir. Bu təsirlərin zühuru, onların şəhadəti mənasındadır. Bu ifadə, gündəlik və ədəbiyyatçıların sözündə də çox işlənilir. Məsələn deyirlər: "Gözlərin sənin yuxusuzluğuna şəhadət verir."[1]

Şair demişkən: "Rəngi-rüxsarın, batini sirrindən xəbər verir!"

Möminlərin hacətlərini yerinə yetirmək yolunda qədəm ataq

İmam Səccad (ə) ayağın haqqı barəsində buyurur: "Ayağınla haram olunmuş yerlərə getmə və sənin alçalıb abır-həyanın getməsinə səbəb olan yolda qədəm götürmə. Çünki, bunlar insanın qiymətsiz olmasına səbəb olar. Əgər özümüzə qiymət vermək istəyiriksə, Allahın mömin bəndələrinin hacətlərini yerinə yetirmək yolunda qədəm götürək.

İmam Sadiqdən (ə) nəql olunur, buyurur:

"Hər mömin, mömin qardaşının hacətini yerinə yetirmək yolunda qədəm götürsə, Allah-Taala onun hər bir addımına görə bir ehsan yazar və bir günahını pozar. Bu da onu uca məqama qaldırar!"

"Məkarimul-əxlaq" kitabının nəql etdiyinə görə İmam Səccad (ə) buyurur:

"Ayağınla Siratın körpüsündə duracaqsan. Bax ki, ayağın titrəməsin və səni atəşə atmasın!"

İnsanların cəhənnəmə daxil olması

Allah-Taala, "Məryəm" surəsinin 71-72-ci ayələrində bu mövzuda belə buyurur:

"Sizdən elə bir kəs olmaz ki, Cəhənnəmə daxil olmasın. Bu, Rəbbinin (əzəldən) buyurduğu vacib bir hökmdür. Sonra Biz, Allahdan qorxub pis əməllərdən çəkinənlərə nicat verəcək, zalimləri isə orada diz üstə çökmüş halda saxlayacağıq."

[1] Təfsiri nümunə, cild 18, səh 431.

O gələcək...

Bu iki ayənin təfsirində, təfsirçilər arasında müxtəlif fikirlər var. Yəni ayədə Cəhənnəmə daxil olmaqdan məqsəd nədir? Bəzi müfəssirlər əmindirlər ki, Cəhənnəmə daxil olmaq, yaxşı və pis insanların Cəhənnəmə yaxınlaşması və onun üzərində durması mənasındadır. Sonra yaxşılar azad olub, pislər Cəhənnəmə düşəcəklər. Bu mənanı "Qəsəs" surəsində Musa (ə) barəsində olan ayə ilə sübut edirlər. Buyurur:

"Musa, Mədyən kənarındakı bir quyuya çatanda"[1]

Əksər müfəssirlərin onu ixtiyar etdikləri ikinci təfsir odur ki, "Cəhənnəmə" daxil olmaq", ona yaxınlaşmaq mənasında deyildir. Bəlkə də, həmin Cəhənnəmə girmək mənasındadır. Əslində bütün insanlar Cəhənnəmə daxil olacaqlar. Lakin, möminlər nicat tapıb, müşriklər, uyğunluqları olduğuna görə atəşdə qalacaqlar. Bu sözü, ayənin sonundakı: **"Sonra Biz, Allahdan qorxub pis əməllərdən çəkinənlərə nicat verəcək, zalimləri isə orada dizi üstə çökmüş halda saxlayacağıq"** – ifadələri tamamilə təsdiq edir. Bundan əlavə, ayənin təfsiri haqqında gələn rəvayətlər də həmin mənanı təsdiqləyir.

O cümlədən, Cabir ibn Abdullah Ənsaridən belə nəql olunur ki: "**Bir nəfər bu ayənin mənası barəsində ondan soruşur. Cabir iki barmağı ilə iki qulağına işarə edib buyurdu: Bu iki qulağımla İslam Peyğəmbərindən (s) bu mətləbi eşitmişəm. Əgər yalan deyirəmsə, hər ikisi kar olsun! İslam Peyğəmbəri (s) buyurdu: Ayədəki "varid" sözü, "daxil olmaq" mənasındadır.**

Atəş, İbrahim peyğəmbərə olduğu kimi möminlər üçün də bu zaman soyuq və sağlam olacaq. O vaxta kimi ki, atəş və ya Cəhənnəm (Cabir tərəddüdlə deyir) soyuqdan fəryad çəkəcək. Sonra Allah pəhrizkarlara nicat verib, zalimləri zəlilcəsinə atəş içində saxlayacaq."[2]

İslam Peyğəmbərindən (s) başqa hədisdə oxuyuruq:

"Qiyamət günündə atəş, mömin şəxsə deyəcək: Məndən tez keç ki, nurun mənim şöləmi söndürür."[3]

Bu mənaya, Siratın körpüsü barəsində rəvayətlərdəki, Cəhənnəmin üstündən çəkildiyini, tükdən nazik və şəmşirdən iti olacağı da şahidlik edir. İslam Peyğəmbərindən (s) nəql olunan bir hədisdə oxuyuruq, buyurur: **"İnsanların hamısı Cəhənnəmə daxil olacaq. Sonra**

[1] Qəsəs surəsi, ayə 23.
[2] Təfsiri Nurus-Səqəleyn, cild 3, səh 353.
[3] Təfsiri Nurus-Səqəleyn, cild 3, səh 354.

O gələcək...

əməllərinin hesabına görə oradan çölə çıxacaqlar. Bəziləri işıq kimi, sonra ondan az sürətli külək kimi, bəziləri şiddətli qaçan kimi, bəziləri səvar olub yol gedən kimi, bəziləri tez-tez gedən şəxs kimi, bəziləri də adi halda yol gedən kimi atəşdən xaricə çıxacaq."[1]

AYAQ VƏ ONUN FİZİKİ QURULUŞU

Beldən aşağı insanın bədəni, bud, baldır və ayaqdan təşkil olunmuşdur. Bel, insanın bütün aşağı hissəsi ilə yuxarı hissəsini bir-birinə bağlayır. Bel, oturacaq sümüyünün axırı, iki tərəfdə və qarşıdakı sümükdən təşkil olunmuşdur. Arxadakı sümüklər qabaq sümüklərlə bir-birinə bağlanır. Sümüklər ümumilikdə oturacaq sümüyü, qabaq sümüklər və vərək sümükləri adlanan üç sümükdən ibarətdir.

Bud sümüyü

Bu sümük, təklikdə budun bənd sümüyünü təşkil edir. Yuxarı tərəfdən oturacaq sümüyü, aşağı tərəfdən isə baldır sümüyü ilə birləşmişdir. Bilmək lazımdır ki, bud sümüyü ayaq üstə durarkən daxilə tərəf meyilli olur. Qadınlarda oturacaq geniş olduğundan bu sümüyün daxilə tərəf əyilməsi daha çoxdur.

Bud sümüyü, bədənin uzun sümüklərindən olub, bir tikədən və iki sonluqdan ibarətdir. Bud sümüyünün quruluşu üçbucağa oxşar və üç tərəflidir. Bud sümüyünün yuxarı tərəfinin özü iki hissədən ibarətdir: Baş və boyun tərəf.

Bud sümüyünün yuxarı hissəsi, saf və kürə şəklindədir. Yuxarı, daxil və qarşı tərəf istiqamətindədir. Eni təxminən, 5 sm. həddindədir. Bud sümüyünün baş tərəfi möhkəm xətlə oturacaq çökəkliyinə bağlıdır. Bu yolla, qan damarları bud sümüyünə gedir. Yaşlı şəxslərdə əgər bu bağlılıq pozulsa, ola bilsin qan çatışmamazlığı üzündən bud sümüyünün baş tərəfi aradan getsin. Boğaz hissəsi nazik sümük olub, bud sümüyünün baş sümüyü özünə birləşdirir.

Bud sümüyünün aşağı sonluğu geniş şəkildə olub, aşağıdan baldır sümüyü ilə birləşir. Bu oynağa, diz oynağı deyilir. Diz sümüyünün quruluşu geniş olub, daxilində sinir sistemi və damarlar yerləşir.

[1] Təfsiri Nurus-Səqəleyn, cild 3, səh 353.

O gələcək...

Diz sümüyü

Diz sümüyü, dairəvi şəkildə bədəndə olan ən böyük üçbucağa oxşar sümükdür. Bu sümük dizin qabağa əyilməsinə mane olur və diz oynağına bitişikdir.

Ayağın baldır sümükləri

Ayağın baldır sümükləri, iki uzun sümükdən təşkil olunmuşdur. Biri daxili tərəfdə, ikincisi isə xarici tərəfdə yerləşir. Bu iki sümük, yuxarı və aşağı hissələrdə oynaq vasitəsi ilə bir-birinə birləşmişdir. Ancaq, qalan yerlərdə bir-birindən ayrıdırlar.

Baldır sümüyünün qalınlığı

Baldır sümüyünün qalınlığını bu şəkildə təsəvvür etmək olar ki, iki sonluq tərəfi olan sümükdən ibarətdir. Bu sümüyün qalınlığı o birisinə nisbətən çoxdur. İki çıxıntısı var. Yuxarı tərəfdən bud sümüyünün sonuna bitişik, aşağı tərəfdən isə ayağın oynağına bağlıdır.

Baldır sümüyünün nazik hissəsi

Bu sümük də nazik və uzundur. Baldır sümüyünün xarici tərəfində yerləşir. Bir quruluşu və iki başı var. Yuxarı baş hissəsi, bud sümüyünə birləşmir. Lakin, o biri qalın sümüyün yuxarı tərəfi bud sümüyü ilə birləşir.

Ayaq sümükləri

Ayağın bənd sümükləri üç hissədən təşkil olunmuşdur:
1 - Ayağın oynaq sümükləri;
2 - Ayağın alt sümükləri;
3 - Ayağın barmaq sümükləri.

1. Oynaq sümükləri. Ayağın oynaq sümükləri yeddi sümükdən ibarətdir. Bunların hamısı iki sırada qərar tutmuşdur. Aşağı hissədə iki qab və oturacaq sümüyüdür. Qabaq hissəsində isə beş kiçik sümük var. Burada baldır sümüyünə birləşmiş qab sümüyünün quruluşu sadalayırıq.

Qab sümüyü. Bu qısa sümük, yuxarıdan baldır sümüyünə, aşağıdan oynaq sümüyünə, qarşı tərəfdən isə ayaq oturacaq sümüyünə birləşmişdir.

O gələcək...

Oynaq sümüyü. Bu qısa sümük təklikdə ayaq çıxıntısını təşkil edir və qab sümüyünün altında yerləşir.

2. Ayaq pəncəsi sümükləri. Ayaq pəncəsi beş uzun sümükdən ibarətdir. Onların sonluğu ayaq daraqarxası sümüklərinə, öndən isə barmaq falanqalarına birləşir. Bu sümükləri içəridən önə götürsək, onlara ayaq pəncəsinin beş darağı sümükləri deyilir və hər birinin bir gövdəsi və iki başcığı vardır.

Ayağın pəncəsinin qövsü. Ayağın altının sümükləri tərtiblə düzülməklə ayağın altında əyrilik əmələ gətirmişdir. Yəni, ayağın altı, adi halda oturacaqlı deyil, bəlkə də qövsvari olub, ayağın altının orta tərəfi, ayağın arxa və qarşı tərəfindən yuxarıda qərar tutmuşdur. Bu qövslər ayağın eni və uzunu istiqamətindədirlər.

Onların məcmuəsi, ayaq üstə durarkən sıxıntıya dözümlü olub, yol gedərkən isə fənər şəklinə düşür. Bu qövslərin azalması elə bir hala səbəb olur ki, ona ayağın taxtı deyilir.

3. Ayaqın barmaq sümükləri. Ayağın barmaq bəndinin sümükləri əl sümüklərindən bir az qısadır. İki ayaq baş barmağı, ən uzundurlar. Hər barmağın üç bəndi var. Ayaq barmaqlarının sümükləri, əl sümüklərinin əksinə olaraq daxildən xaricə tərəf sayılır. Bu tərtiblə, birincidən beşinciyə qədər ayaq barmağı adlanır. Başqa sözlə desək, ayağın baş barmağını birinci barmaq adlandırırlar.

AYAĞIN ŞƏRİƏTDƏ DƏYƏRİ

Ayağın fiziki quruluşunu öyrəndikdən sonra, onun fikri dəyəri və şəriətdəki hökmü barədə bəhs edək. İmam Səccad (ə) bu böyük nemət barəsində, ayağın işlərinin əxlaqi cəhətlərini xatırlatdı. Amma insanın hərəkət və yol getməsinə səbəb olan bu üzvün nə qədər dəyəri var?

"Təkmilətül-minhac" kitabında belə yazılır:

"İnsanın iki ayağının kəsilməsi, tam bir insanın qanbahası qədərdir. Hər bir ayağın qanbahası isə insanın qanbahasının yarısı qədərdir. Bu işdə heç fərq yoxdur ki, ayaq oynaqdan, baldırdan, yaxud dizdən kəsilmiş olsun".[1]

[1] Məbani Təkmilətül-minhac, cild 2, səh 314.

O gələcək...

Ayaq barmaqlarının hamısının kəsilməsi də, insanın tam qanbahası qədərdir. "Müxtəsərün-nafe" kitabında oxuyuruq:

"İki ayağın kəsilməsi tam insanın qanbahası qədərdir. Onların hər birinin kəsilməsi isə insanın tam qanbahasının yarısına bərabərdir. İki ayağın həddi, ayağın baldırdan ayrılması yeridir. Ayağın barmaqlarının da hökmü, əlin barmaqlarının hökmündədir". (Necə ki sonrakı bəhsdə deyiləcək.)

7. ƏLİN HAQQI

وَأَمَّا حَقُّ يَدِكَ فَأَنْ لا تَبْسُطَهَا إِلَى مَا لا يَحِلُّ لَكَ فَتَنَالَ بِمَا تَبْسُطُهَا إِلَيْهِ مِنَ اللهِ الْعُقُوبَةَ فِي الآجِلِ، وَمِنَ النَّاسِ بِلِسَانِ الِلائِمَةِ فِي الْعَاجِلِ، وَلا تَقْبِضَهَا مِمَّا افْتَرَضَ اللهُ عَلَيْهَا وَلَكِنْ تُوَقِّرَهَا بِقَبْضِهَا عَنْ كَثِيرٍ مِمَّا يَحِلُّ لَهَا وَبَسْطِهَا إِلَى كَثِيرٍ مِمَّا لَيْسَ عَلَيْهَا، فَإِذَا هِيَ قَدْ عُقِلَتْ وَشُرِّفَتْ فِي الْعَاجِلِ وَجَبَ لَهَا حُسْنُ الثَّوَابِ فِي الآجِلِ.

"Əlin sənin boynundakı haqqı budur ki, Allah-Taalanın əzabından və əhalinin məzəmmətli dilindən amanda qalasan deyə, sənə halal olmayan şeyə əlini uzatmayasan. Gözlə ki, sənə vacib olan işlərdə əlin qarşısını alma. Ona elə ehtiram et ki, haram olunmuşlardan saxla! Çünki əgər əl, bu dünyada haramdan çəkinsə və ya məntiq, əql və şərafətlə iş görsə, axirətdə qiymətli mükafat və savaba nail olacaq".

"Yəd" sözü ərəbcə "əl" mənasında, cəm şəkli isə Quranda "əydi" gəlmişdir. "Fəth" surəsinin 20-ci ayəsində gəlib:

"Allah, insanların sizə qarşı uzanmış əllərini kəsdi!"

Lakin "yəd" sözü Quranda bir neçə mənada işlənib:

1. Qüdrət, səltənət və mülk mənasında. Ali-İmran surəsinin 26-cı ayəsində oxuyuruq:

"Xeyir yalnız sənin səltənət və qüdrətindəndir. Həqiqətən Sən hər şeyə qadirsən!"

Quranda "yəd məğlulə" (bağlanmış əl), bir şeyin qarşısının alınmasına və simicliyinə deyilir. Necə ki, "yəd məbsutə" (açıq əl) onun əks mənasındadır. Maidə surəsinin 64-cü ayəsində oxuyuruq:

"Yəhudilər dedilər: "Allahın əlləri bağlıdır". Bu dedikləri sözə görə onların öz əlləri bağlansın və lənətə gəlsinlər. Xeyr! Allahın əlləri açıqdır. İstədiyi kimi lütf və ehsan edər!"

O gələcək...

2. Qüvvə mənasında: "Sad" surəsinin 45-ci ayəsində oxuyuruq:

"Bəsirət və qüvvə sahibi olan bəndələrimizi İbrahimi, İshaqı və Yəqubu da yad et!"

ƏL, FƏSADIN MƏNBƏYİ OLA BİLƏR

Allahın insana verdiyi iki əl, böyük nemətlərdən hesab olunub, insanın tam qanbahası qədər varsa da, bir çox günahlar və bədbəxtçilikər həmin əllər vasitəsilə edilir. Quran onlardan bəzilərinə işarə edir. Rum surəsində buyurur:

"İnsanların öz əlləri ilə etdikləri əməlləri üzündən, suda və quruda fəsad, pozuntu əmələ gəlir ki, Allah (bununla) onlara etdikləri bəzi günahların cəzasını daddırsın və bəlkə, onlar (haqqa tərəf) qayıtsınlar!"[1]

Şübhəsiz, hər bir xilaf iş cəmiyyətdə, daha sonra isə hər bir şəxsdə təsir qoyur. Bunlar da ictimai fəsadın yaranmasına səbəb olur. Təsir və əks təsir öz işini yerinə yetirir. Bir çox bədbəxtliklər insanın əli ilə icra olunur. Şura surəsində buyurulur:

"Sizə üz verən hər bir müsibət, öz əllərinizlə qazandığınız günahların ucbatındandır. Allah çoxunu əfv edər".[2]

Bu ayə, insanın başına gələn hər bir müsibətin bir növ ilahi cəza olmasına sübutdur. Ona görə də Allah-Taala "Bəqərə" surəsində buyurur:

"Allah yolunda xərcləyin. (İnfaqı tərk etməklə) öz əlinizlə özünüzü təhlükəyə atmayın. Yaxşılıq edin! Allah yaxşılıq (ehsan) edənləri sevir".[3]

Bu ayədən məlum olur ki, bir çox təhlükələr və həlakətlər insanın öz əli ilə baş verir. Ona görə də Quran xəbərdarlıq edir və ondan çəkindirir.

İnsan bəzən öz əlləri ilə tikdiyi evi həmin əlləri ilə də viran edir. "Həşr" surəsində oxuyuruq:

"Allahın əzabı onlara gözləmədikləri yerdən gəlib ürəklərinə qorxu saldı. Belə ki, onlar öz evlərini həm öz əlləri, həm də möminlərin əlləri ilə uçurdub dağıdırdılar.[4]

Bu ayə, yəhudilərə aiddir. Bəziləri deyirlər: Onlar qalaların daxilindən divarları uçurub qaçırdılar. Mümkündür, bu mənada olsun ki, nadanlıq və inadkarlıqlarına görə öz həyatlarını bada verdilər.

---

[1] Rum surəsi, ayə 41.
[2] Şura surəsi, ayə 30.
[3] Bəqərə surəsi, ayə 195.
[4] Həşr surəsi, ayə 2.

O gələcək...

Hər halda Allah-Taala buyurur: "Bəzi insanlar öz səadətlərini öz əlləri ilə aradan aparırlar".

QƏTL, ƏLİN GÜNAHIDIR

Həzrəti Adəmin (ə) əhvalatında, ən dərdli hadisə qətl və öldürmək mövzusudur. O vaxt ki, birinin qurbanlığı qəbul olub, digərininki rədd oldu, qardaş qardaşı ölümlə hədələyir. Qardaş onun cavabında deyir: "Əgər sən öz hədəfinə əməl etsən də, mən sənin kimi etməyəcəyəm." Quranda buyurur:

"Sən məni öldürmək üçün mənə əl qaldırsan da, mən səni öldürmək üçün sənə əl qaldıran deyiləm. Mən aləmlərin Pərvərdigarı olan Allahdan qorxuram."[1]

Bu ayədə, əl məsələsindən bəhs olunur. Qardaş başqa qardaşa deyir: "Əgər sən əlini günaha batırsan belə, mən əlimi günaha batırmayacağam." Quranda bəzi günahların ələ nisbət verilməsinə işarə edək. İndi də qısa şəkildə hədislərdə əlin vəzifəsinə işarə edək.

"Kafi" kitabında, "İman insanın əzalarına bölünüb" ünvanı ilə bəhs var. Burada İmam Sadiqdən (ə) nəql olunan hədislərdən birində oxuyuruq:

"Allah-Taala, ələ vacib etmişdir ki, ona haram olanlara əl uzatmasın. Allahın əmr etdiyini yerinə yetirsin. O iki ələ: Sədəqəni, sileyi-rəhimi, Allah yolunda cihadı və namaz üçün təharəti vacib etmişdir. Sonra bu ayəni zikr edir: "Ey iman gətirənlər! Namaza başlayarkən əvvəl üz və əllərinizi dirsəyinizə qədər yuyun, baş və ayaqlarınıza məsh edin!"

Qurani-Kərim müxtəlif yerlərdə əldən çoxlu ifadələrlə ad aparmış, mühüm mövzuları ələ nisbət vermişdir. Qısa şəkildə onlardan bəzilərinə işarə edək:

ƏL İLƏ BEYƏT ETMƏK

Quran buyurur: **"Ağac altında sənə beyət etdikləri zaman Allah möminlərdən razı oldu. Allah onların ürəyində olanı (sədaqət və imanı) bildi. Ona görə də Öz dərgahından onlara xatircəmlik, rahatlıq göndərdi və onları yaxın gələcəkdə qazanılacaq bir qələbə ilə mükafatlandırdı."**[2]

[1] Maidə surəsi, ayə 28.
[2] Fəth surəsi, ayə 18.

"Beyət" sözü ərəbcə, "bey" kökündən olub, müamilə (alver) zamanı iki tərəfin bir-birinə əl verməsinə deyilir. Sonradan isə ümumi məna alıb, bütün əhd-peyman zamanı əl verməyə aid olur. Birinin digərinə vəfadarlığını elan etmək istəsə, onu rəsmi tanıyıb əmrinə itaət etsə, onunla beyət etməlidir. Bu kəlmənin "mütləq" mənası belə ola bilər ki, əhd zamanında müamilədə olduğu kimi iki tərəf bir-birinin müqabilində qərar tuturlar. Bəzən beyət edən, itaət yolunda mal-dövlət və övladlarına qədər verməyə hazır olur. Beyət qəbul edən də onun himayə və müdafiəsini öz öhdəsinə alır. İbn Xəldun özünün "Tarix müqəddiməsi" kitabında yazır: **"Əmirlə beyət edərkən, təkid üçün əl-ələ verirdilər. Bu da alıcı ilə satıcının işinə oxşayır."**[1]

"Fəth" surəsində Allah, Peyğəmbərə (s) buyurur:

"Sənə beyət edənlər, şübhəsiz ki, Allaha beyət etmiş olurlar."[2]

Kişilərin İslam Peyğəmbəri (s) ilə beyəti əllə olurdu. Lakin, qadınlara beyət, su ilə dolu qab vasitəsi ilə olurdu.

Peyğəmbər (s) və İmamlar (ə) barəsində olan belə beyətlər, əhalinin onlarla olan vəfadarlıqlarına təkidi üçün olub, onun sındırılması böyük günahlardan sayılır. İmam Musa ibn Cəfər (ə) buyurur:

"**Üç günah var ki, insanı həlak edir: Beyəti sındırmaq, sünnəti tərk etmək və əhalidən ayrılmaq."**[3]

Əlin mühüm işlərindən biri olan beyət mövzusu barəsində kamil bəhs etmək fikrində deyilik.

CİZYƏNİN[4] ƏLLƏ VERİLMƏSİ

Qurani-Kərimdə "əl" mövzusunda olan bəhslərdən biri də "cizyə"nin əllə verilməsidir. "Tövbə" surəsində belə oxuyuruq:

"Kitab əhlindən Allaha və qiyamət gününə iman gətirməyən, Allahın və Peyğəmbərin haram buyurduqlarını haram bilməyən və haqq dini (İslamı) qəbul etməyənlərlə zəlil vəziyyətə düşüb, öz əlləri ilə cizye verincəyə qədər vuruşun!"[5]

"Cizyə" sözü ərəbcə, "cəza" sözündən olub, qeyri-müsəlmanların İslam hökumətində pənah tutduqlarına görə verdikləri maliyyatdır. Bu

[1] "İbni Xəldunun müqəddiməsi", səh 209.
[2] Fəth surəsi, ayə 10.
[3] Təfsiri nümunə, cild 22, səh 70.
[4] Cizyə, müsəlman ölkəsində qeyri-müsəlmanlardan alınan vergidir.
[5] Tövbə surəsi, ayə 29.

O gələcək...

ad ona görədir ki, onu "canları və mallarının qorunması" müqabilində verdikləri "cəza"dır.[1]

"Sağir" sözü ərəbcə, "səğr" sözündən olub, kiçik və xar olmağa razı olana deyilir. Ayədə məqsəd budur ki, cizyə vermək, İslam dini və Quran müqabilində təvazökarlıq ünvanı olmalıdır.

Cizyə, bir növ İslam dövlətinin aldığı maliyyatdır ki, torpaq və əraziyə yox, yalnız, şəxsin özünə aiddir. Başqa sözlə desək, "illik maliyyat"dır.

Bəzi alimlərin fikrincə, bu sözün kökü ərəb deyil, qədim fars kəlməsi olan "kiryət" sözündən olub, nizami qoşunların möhkəmlənməsi üçün yığılan vergiyə deyilir. Lakin, çoxları belə fikirdədirlər ki, bu söz xalis ərəb sözüdür.

İslam hökuməti dövründə müsəlmanlarla kitab əhli arasında cizyə almaqdan ötrü əhdnamələr bağlanmışdır. Nümunə üçün onlardan birinə, Xalid ibn Vəlidlə xaçpərəstlər arasında bağlanmış əhdnaməyə işarə edək:

"Bu, Xalid ibn Vəlidlə, Səlubə (xaçpərəstlərin başçısı) və cəmiyyəti arasında olan peymandır.

Mən sizinlə cizyə və müdafiə üçün əhd bağlayıram. Onun müqabilində siz bizim himayəmizdə qərar tutursunuz. Nə qədər ki, sizə himayə edirik, bu cizyəni almağa haqqımız var.

Bu əhdnamə hicrətin 12-ci ilində, səfər ayında yazıldı!"

Cizyəni əllə vermək lazımdır. Bu da əlin əhəmiyyətini bəyan edir.

ƏLİN FİZİKİ QURULUŞU

Əlin sümük quruluşu əlin biləyi, əlin içi və əlin barmaqları olmaqla üç hissədən təşkil olunmuşdur.

Bu sümüklər ümumilikdə səkkiz xırda sümükdən ibarət olub, iki sırada yerləşmişdir. Yuxarı sıradakı sümüklər aşağıdakı sümüklərə kömək edir. Onlardan üçü bilək-oynaq sümüyünü təşkil edir. Aşağı hissədə olan sümüklər əlin iç sümükləri ilə biləkdə birləşir.

Əlin iç sümükləri

Əlin iç sümüklərinin sayı beş olub, daxildən xaricə tərəf tərtiblə sayılır (birinci, ikinci). Yuxarıda bilək sümüklərinin aşağı sümüklərə, aşağıdan isə birinci barmaq sümüyünə birləşir.

[1] Müfrədat (cizyə).

Əlin barmaq sümükləri

Əlin baş barmağından başqa, bütün barmaqlarının üç bəndi var. Hər bir barmağın bəndi başqa bir tərəfə bitişikdir. Hər bir barmaqda əlin sümüyü ilə birləşən birinci bəndə, birinci barmaq bəndi deyilir. Yerdə qalan tərtiblə, birinci, ikinci və üçüncü bəndlər vardır. Birinci bənd sümüyü, tamamilə ikinci bənd sümüyünə oxşardır. Təkcə hər barmağın üçüncü bənd barmağın ikinci bənd sümüyü bir az enlidir.

Bütün bunlar əlavə, əlin içində başqa xırda sümüklər də ola bilər ki, onlara "küncüd" sümüklər deyilir.[1]

ƏLİN ŞƏRİƏTDƏ DƏYƏRİ

İslam dinində, insanın iki əlinin qanbahası, insanın tam qanbahası qədərdir. Hər bir əlin qan bahası insanın tam qanbahasının yarısı qədərdir. "Məbani-təkmilətul-minhac" kitabında oxuyuruq:

"İki əlin kəsilməsində tam qanbahası var. Hər birisində isə tam qan bahasının yarısı qədərdir. Bu məsələdə fəqihlər (alimlər) arasında ixtilafi nəzər yoxdur. Bəlkə də, hər ikisində "icma" nəql olunur. Bundan əlavə, müsəlmanlar arasında bu hökmün əksinə heç bir hökm yoxdur."[2]

Bu mövzuda çoxlu rəvayətlər nəql olunur ki, onlardan Hişam ibn Salim, İmam Sadiqdən (ə) nəql edərək, buyurur:

"İnsanda hər nə qədər cüt əza varsa, qanbahası tam qan bahasıdır. Onların hər birində isə tam qan bahasının yarısı qədərdir."[3]

Ayətullah Xomeyni (r.ə) buyurur: **"İki əl kəsilərsə, tam qanbahası verilməlidir, hər birində isə yarı qanbahası. Sağ və sol arasında heç bir fərq yoxdur. Hər kim xilqətində bir əli olsa və ya əlinin birini əvvəlcədən əldən vermişsə, yerdə qalan əli kəsilsə yarı qanbahası verilir."[4]**

Yenə də əlin qanbahasının ikinci məsələsində buyurur: "Bu qədər dəyəri olan əlin həddi hara qədərdir? Buyurur: Həddi, əlin içi ilə dirsək arasındadır. Beləliklə, əgər birinin əli dirsəkdən kəsilsə, onda barmaq olsa da, yarı qan bahası qədərdir. Belə olan tərzdə hər bir barmaqdan

[1] İnsanın bədənini tanıma, səh 71-72.
[2] Məbani Təkmilətul Minhac, cild 2, səh 299.
[3] Vəsailuş-Şiə, cild 19, səh 217.
[4] Təhrirul-Vəsilə, cild 2, səh 578.

O gələcək...

ötrü ayrı qan bahası yoxdur. Əgər təkcə barmaqlar kəsilsə, 500 dinar ölçüsündə, yəni, tam qanbahasının yarısı qədərdir."

ƏLİN DƏYƏRİ ONUN ƏMİN OLMASI İLƏDİR

Qeyd etdik ki, insanın iki əlinin tam qanbahası qədər dəyəri vardır. Hər bir əldən ötrü isə yarı, 500 misqal qızıl sikkə qədər.

Günlərin birində, Əbul Əla Müərri, məşhur İslam alimi Seyid Mürtəzanın yanına gəlir və oğurluqda əlin kəsilməsi qanununa irad tutur. Öz iradını belə bir məzmunda şerlə ifadə edir: "Qiyamətdə 500 misqal dəyəri olan əli, dinarın ½-i qədər oğurluğa görə kəsməyin nə mənası?"

Əbül Əla müsəlman olmadığına görə bu qanunu qəbul etmir və ona irad tutur. Dahi alim Seyid Mürtəza onun cavabını bu məzmunda bir şerlə verir:

"Ələ bu izzəti, onun əmanətdar olması verir. Zillət və xəyanət isə bu dəyəri aşağı salır. Ey Əbul Əla! Allahın hikməti budur. Məsələni yaxşı anla və Allahın qanununa etiraz etmə!"

Başqa mənbədə yazırlar ki, Seyid Mürtəza belə cavab verir:

"Qanı və malı qorumaq ələ dəyər verir. Qana və mala təcavüz isə onun qiymətini aşağı salır. Belə olan halda, Rəbbinin hikmətinə bax!"

Tarixdə məşhur budur ki, həmin məclisdə başqası belə cavab verir:

"O yerdə ki, əl məzlumdur və insanların hüquqlarına təcavüz etmir, dəyəri var, lakin, zülm rəva bilib oğurluq etsə, Allah dərgahında dəyəri yoxdur!"

Bütün bunlar əlin yalnız, xəyanət etməyib əmin olan halda dəyəri olmasına dəlalət edir.[1]

8. QARNIN HAQQI

وَأَمَّا حَقُّ بَطْنِكَ فَأَنْ لا تَجْعَلَهُ وِعَاءً لقَلِيلٍ مِنَ الْحَرَامِ وَلا لكَثِيرٍ، وَأَنْ تَقْتَصِدَ لَهُ فِي الْحَلالِ وَلا تُخرِجَهُ مِنْ حَدِّ التَّقْوِيَةِ إِلى حَدِّ التَّهْوِينِ وَذَهَابِ الْمُرُوَّةِ، وَضَبْطُهُ إِذَا هَمَّ بِالْجُوعِ وَالظمأِ فَإِنَّ الشَّبْعَ اَلْمُنْتَهِي بِصَاحِبِهِ إِلَى التُّخمِ مَكسَلَةٌ وَمَثْبَطَةٌ وَمَقْطَعَةٌ عَنْ كُلِّ برٍّ وكَرَمٍ. وَإِنَّ الري الْمُنْتَهِي بِصَاحِبِهِ إِلى السُّكرِ مَسْخَفَةٌ وَمَجْهَلَةٌ وَمَذْهَبَةٌ لِلْمُرُوَّةِ.

[1] Rovzatul Cənnat, cild 1, səh 271.

"Qarnın haqqı odur ki, onu az və ya çox da olsa, harama qab etməyəsən. Halaldan da müəyyən ölçüdə verəsən. Hər vaxt aclıq və susuzluğa giriftar olsa, onu sakitləşdir. Çünki, hədsiz yemək qarnı üsyana qaldırır. Tənbəllik gətirib, geridə qalmaq və hər cür xeyir və ehsan etməkdən dala saxlayır. Öz sahibini məst edən içki, insanı yüngüllük, nadanlıq və mürüvvətsizliyə çəkir!"

İmam Səccad (ə), insanın qarnını qaba bənzədir və tövsiyyə edir ki, onu doldurmaqla mötədil olmalısan. Qarının yeməyi haramdan deyil, halaldan olmalıdır. Bu qabı qüvvətləndirməklə yanaşı, yeməkdə ifrat-təfritə yol verilməməlidir.

İNSANIN QİDAYA EHTİYACI VAR

Bəşərin bütün fərdlərinin qidaya ehtiyacı vardır. Əgər yeməkdən kəsilsələr, həyatlarını davam etdirə bilməzlər. İnsanlardan bəziləri elə zənn edirlər ki, İlahi peyğəmbərlərin yeməyə ehtiyacları olmayıb. Quran bu əqidənin rədd olunmasında buyurur:

"Biz, peyğəmbərləri yeməz-içməz bir bədən yaratmadıq. Onlar dünyada əbədi də deyillər."[1]

Bəzi yerdə Quran, peyğəmbərləri inkar edənlərin dilindən belə nəql edir: **"Müşriklər dedilər: Bu necə peyğəmbərdir ki, yemək yeyir, bazarları gəzib dolaşır?"**[2]

Quran insanları öz yeməklərinə diqqət etmələrinə dəvət edərək, buyurur: **"İnsan hələ bir yeməyinə baxsın! Həqiqətən, Biz yağışı bol yağdırdıq. Sonra yeri yaratdıq. Beləki, orada dən göyərtdik."**

İnsana ən yaxın əşya yemək olub, azacıq dəyişikliklə onun vücudundan sayılır. Əgər ona çatmazsa, tezliklə aradan gedər. Ona görə də, Quran, bütün varlıqlar arasından qida maddələrinə, özü də bitki və ağaclar vasitəsi ilə insana aid olan maddələrə işarə edir.

İndi də görək Quranda "yeməyə baxmağın" mənası nədir? Aydındır ki, baxmaq dedikdə zahiri baxış deyil, əksinə, bu yeməklərin maddələrinə, quruluşuna, həyatbəxş hissələrinin insanın vücuduna olan möcüzəli təsirlərinə diqqət və təfəkkürlə baxmaq nəzərdə tutulur. Həmçinin, onu yaradan barəsində fikirləşmək.

Bəziləri deyirlər: Məqsəd, həmin zahiri baxışdır. Nəticədə, insanda, dad bilmə vəzilərinin təhərrükünə və o da yeməyin yaxşı həzm olun-

[1] Ənbiya surəsi, ayə 8.
[2] Furqan surəsi, ayə 7.

O gələcək...

masına səbəb olur. Lakin belə təfsir çox uzaq mənadır. Çünki sonrakı ayələrə əsasən, ayə belə məsələləri bəyan etmək məqsədində deyil.

Bəziləri isə əxlaqi və şəri mövzuya işarə etməklə süfrə başında yeməyin halal, yaxud haram yolla ələ gəldiyinə diqqət olunmasını tövsiyə edirlər.

Məsum İmamlardan (ə) nəql olunan rəvayətlərdə qeyd olunur ki, ayədə yeməkdən məqsəd, ruh və elm qidasıdır. Yeməyinə baxsın, yəni elmini hansı yolla ələ gətirir? İmam Baqir (ə) ayənin təfsirində buyurur:

"Aldığı elm və biliyə baxıb görsün, kimdən və hansı yolla alır?"

İmam Sadiq (ə) da həmin mənanı təsdiqləyir:

Sonrakı ayələrin ümumi mənasından istifadə olunur ki, yeməkdən məqsəd, zahiri yemək və cisimdir. Çünki yağış, dənin yarılması, qidanın əmələ gəlməsi məsələsi araşdırılır. İnsan yeməyinə diqqət etməli və onun mənbəsini yağış bilməklə, özünün ruhani yeməyinə də diqqət etməlidir. Bu qida, vəhy yağışı vasitəsilə Peyğəmbərin (s) pak "qəlb ölkə"sinə nazil olmuş və oradan da məsum İmamların sinələrində saxlanmışdır. Onlar aşıb daşan çeşmələr kimi qəlblərdə gəzir və ləzzətbəxş təqva və iman meyvələri yetişdirir.[1]

QİDA MADDƏLƏRİNİ SİZ YARATMISINIZ, YOXSA ALLAH?

Qurani-kərimdə qida maddələri və pak içməli şeylərə çox əhəmiyyət verilmişdir. Quran buyurur:

"Əkdiyiniz bitkilər barədə heç düşünmüşünüz? Onları siz yetişdirirsiniz yoxsa biz? Əgər istəsək onları quru çör-çöpə döndərərik, siz də mat-məəttəl qalarsınız!"[300]

Hədislərin birində, İslam Peyğəmbərindən (s) nəql olunur:

"Sizlərdən heç biriniz heç vaxt deməyin ki, mən bitirdim, bəlkə deyin ki: Mən əkdim. Çünki əsildə bitirən Allahdır!"

Bu ayələrdə insanın diqqəti Allaha yönəlir. Bütün insanların xaliqi və ruzi verənidir. Əgər istəsə, onların ruzisini verməz, yaxud məhv edər. Quran buyurur:

"Bəs içdiyiniz suya nə deyirsiniz? Onu buluddan endirən sizsiniz, yoxsa Biz? Əgər istəsəydik onu acı bir su edərdik. Elə isə niyə şükr etmirsiniz?"[2]

---

[1] Təfsiri-Nümunə, cild 26, səh 146.

[2] Vaqiə surəsi, ayə 68-70.

Bu ayələrdə Allah, insanların vicdanını hökm etməyə çağırır və ya vicdanlarını oyadır ki, yemək və içməli şeylər barəsində fikirləşib, Allahın əzəmətinə iman gətirsinlər.

QİDANIN İNSANIN RUHUNA TƏSİRİ

Yeməklərin, insanın təkcə bədəninə deyil, bəlkə də mənəvi və əxlaqi baxımdan da ruhuna yaxşı və ya pis təsir edir. Bunu bütün dünya alimləri qəbul edirlər. Dünyanın ən çox inkişaf etmiş analiz texnikaları, qida maddələrinin təbii ünsürlər və kimyəvi cəhətdən tərkibinin miqdarını təyin edə bilərlər. Lakin qidanın insana mənəvi cəhətdən təsirini ölçməyə qabiliyyəti yoxdur. Ən azı bugünə qədər belə bir texnika tapılmayıb.

Həzrət İmam Sadiq (ə) bu barədə buyurur: **"Allah-Taala hər bir yemək və içməli şeyi yalnız onların mənfəət və məsləhətlərinə görə halal etmişdir. Həmçinin hər bir haram olan yemək və içmək yalnız onlarda fəsad və zərər olduğuna görədir".**[1]

İslamda övliyalar, həmişə cisimlərin zərərlərinə, yemək və içməli şeylərin ruha təsirinə diqqət yetirmişlər. Bəzi vaxtlar cisimlərin fəsad cəhətlərini, mənəvi zərərlərini və ruha mənfi təsirlərini zikr etmişdir.

Qan içmək və qəsavət

İmam Sadiq (ə) qan içməyin bədənə olan zərərlərini zikr etdikdən sonra haram olma səbəbi barəsində buyurur:

"Qan içmək insanı pis xasiyyətli və qəlbi qəsavətli edir. Mehribançılığı o qədər azaldır ki, öz övladını öldürmək, yaxud əlini atasının qanına batırmaq kimi xətərli işlər görə bilər."[2]

Şərabın təsirləri

İmam Sadiq (ə) şərabın haram olma səbəbi barəsində buyurur:

"**Daim şərab içməyə adət edən şəxs bütpərəst kimidir. Şərab insanı iflic edir. Şəxsin əxlaqi və kişilik xarakterini aradan aparıb məhv edir. Qanaxmaya səbəb olub, sonsuzluq gətirir".**[3]

[1] Müstədrəkül-vəsail, cild 3, səh 71.
[2] Müstədrəkül-vəsail, cild 3, səh 71.
[3] Müstədrəkül-vəsail, cild 3, səh 71.

O gələcək...

Şərab insanı cəsurlaşdırıb ağlını əlindən almaqla, qan tökməkdən belə qorxusu olmaz. Şərab və qan içməyin zərərlərini ölçmək olar, lakin qəlbin daşlaşmasını heç bir laboratoriyada ölçmək mümkün deyil.

Şərabın zehnə, sinirlərə və bədənin digər üzvlərinə təsiri

1. Şərabın təsirindən beynin hüceyrələri fəaliyyətdən düşür, kapilyar qan damarları deşilir və ya zehndə qan laxtalanması baş verməklə, qan dövranın qarşısını alır. Bu da naqis, yaxud kamil şəkildə infarkta səbəb olur, nəticədə iflic olmağa, yaxud bədən üzvlərinin naqisliyinə səbəb olur.

2. Şərab müxtəlif xəstəliklərə səbəb olur. O cümlədən, iflic, əl və ayaqlarda taqətsizlik, insanın bədən üzvlərini idarə edə bilməməsi, zahiri və batini hisslərin zəifləməsi və yuxusuzluq xəstəliyinə tutulmasına səbəb olur.

3. Şərab, dilin üzünü və dadma hissini zay edir. Ağzın dadını azaldıb, ağız suyunun nizamını pozur, həmçinin, mədə şirəsini azaldır. Həzm sistemlərini bağlamaqla (pipsin xəstəliyinə), çox vaxt qanlı qusmaya səbəb olur. Müxtəlif mədə xəstəlikləri, bağırsaq və onun genişlənməsinə, bağırsaq genişlənməsi və həzm sistemlərinin infeksiyası, nəhayət, çətin sağalan qarın ağrısı xəstəliklərinə səbəb olur.

4. Şərab, qaraciyəri işdən salır və onu şiş-şiş edir. Ciyər zəifləyir və funksiya pozğunluğuna düçar olur. Qarın nahiyəsindən duyduğu ağrı və narahatlığa görə sərtləşir. Çox hallarda, qaraciyərə xas olan sarılıq xəstəliyi bütün əzalarda, o cümlədən gözdə peyda olur.

5. Şərabın ən mühüm tərəfi, tənəffüs sistemində vərəm və təngnəfəslik yaratmasıdır. Çünki, şərab qanla birlikdə ağciyərlərə daxil olub onu vərəmləşdirir.[1]

Şərab, dəliliyin amili

Alkoqollu içkilər divanəlik və dəliliyin ilk amillərindəndir. Xəstəxanalardan götürülmüş statistik məlumatlardan məlum olur ki, əksər divanələr uzun illər şərab içməklə ömürlərini keçirmişlər. "İctimai bəlalar" kitabında məqalələrdən birinə əsasən yazır:

"Həkimlərin araşdırmalarına görə Fransada iki yüz min divanə var. İngiltərədə dəqiqləşib ki, divanələrin 90%-i şərab içkiləri nəticəsində bu hala düşmüşlər.

[1] Böyük günahlar, cild 1, səh 235.

O gələcək...

Şərabın nəsilə təsiri

Yuxarıda adı çəkilmiş kitabda yazılır: "Şərab nütfə hüceyrələrində pis təsir qoyur. Belə ki, alman həkimlərindən biri sübuta yetirmişdir ki, əgər üç nəsil şərab içən olmasa da, şərabın təsiri üç nəsil davam edir."

İslam bütün bu bildiyimiz və bilmədiyimiz zərərlərə görə spirtli içkiləri haram buyurmuşdur. İmam Səccad (ə) buyurur: "Qarnını və mədəni İslam dininin haram buyurduqlarından qoru!"

"Hər kim şərab içənlə bir süfrə başında otursa, Allahın rəhmətindən uzaqdır."[1]

Məşhur İslam alimi, ayətullah Dəstğeyb, Seyid Əbül Əla Mədudinin "Tənqih" kitabından nəql edir: "Amerika hökuməti şəraba qarşı mübarizədə bütün vasitələrdən, o cümlədən jurnal, qəzet, təbliğ, filmlər və konfranslardan istifadə edib bu yolda, səkkiz milyon dollardan çox pul sərf edir. On milyon sayda səhifədən ibarət kitab və jurnal çap etdirir. On dörd il ərzində təxminən 250 milyon dollar, şərabın qadağan olunmasına sərf edib. Şərabxorlardan cərimələr alınmış, zindana salınmış və hətta əmlakları müsadirə edilmişdir. Lakin, bütün bu mübarizələr şəraba olan eşq və əlaqəni heç də azaltmamışdır. Belə ki, 1932-ci ildə şərabın qadağan olunması qanunu ləğv olunmuş, onu içməyi bütünlüklə azad etmişlər. Amma müqəddəs İslam dini, şərabın cahiliyyət dövründə su kimi içilməsinə baxmayaraq, az bir müddətdə onu haram bilmiş, İslam cəmiyyətini onun zərər və ziyanlarından hifz etmişdir.

Şərabın cismə olan təsirləri alimlərə gizlin deyil, lakin, kişilik xarakteri, əxlaqsızlıq xüsusiyyətlərinə vurduğu təsirləri laboratoriyalarda ələ gətirmək olmaz.

Bəzi şəxslər öz qida sağlamlıqlarına və təmizliyinə o qədər diqqətlidirlər ki, azacıq da olsa ehtimal versə ki, yeməkdə zərər var, onu yeməkdən çəkinərlər. Lakin, öz ruhlarının sağlamlığına o qədər etinasızdırlar ki, hər bir çirkin sözü eşitməyə qadirdilər. Əmirəl-möminin Əli (ə) bu barədə buyurur:

"Təəccübdəyəm o şeydən ki, insanları qaranlıqda süfrə başında oturanda, nə yediklərini görməkdən ötrü çıraq yandırdıqlarını görürəm. Amma, öz ruh və canlarına diqqət etmirlər. Nadanlıq və cahiliyyəti aradan aparıb, ağıl çırağını elm nuru ilə yandırmırlar, beləliklə də, etiqadlarında və əqidələrində sağlam olsunlar."[2]

---

[1] Səfinətul-bəhar, cild 1, səh 427.

[2] Səfinətul Bəhar, cild 2, səh 84.

O gələcək...

İmam Həsən Müctəba (ə) bu barədə buyurur:

"Yeməklərdə fikirləşib, ruh qidası barəsində fikirləşməyən kəsdən təəccüb edirəm. Halbuki, qarnından ona bir fayda gəlmir. Ruhu və fikri qorumaq isə onu pis işlərdən qoruyur."[1]

İslam dininin geniş və ali təlimlərindən biri insanın yeyib-içdiyi şeylərə aid olub, insanlara düzgün qidalanma yolunu göstərməkdir. Faydalı və faydasız ətlər, qidalanmada miqdarını gözləmək, yağları, meyvələri və sirin şeylərdən istifadə etmək və göy-göyərti barəsində çoxlu rəvayətlər nəql olunmuşdur. Günlərin birində, günorta yemək vaxtı Suveyd ibn Ğəflə, Əlinin (ə) yanına gəlir. Nəql edir ki: "Həzrət süfrə başında oturmuşdu. Əlində elə quru çörək vardı ki, arasında arpa dənələri gözə dəyirdi. Xidmətçilərin yanına gedib dedim: Nəyə görə Ağanın halına riayət etmirsiniz? Nəyə görə ona içində bu qədər arpa görünən, yaxşı üyüdülməmiş undan çörək verirsiniz?"

Fizzə dedi: "Bu Ağanın öz göstərişidir. Sonra İmamın (ə) yanına gedib onunla maraqlanır. Həzrət buyurur: Peyğəmbərdən (s) öyrənmişəm."[2]

İmam Sadiq (ə) buyurur: **"Həzrəti Süleymanın yediyi çörəyin unu, üyüdülmüş arpadan idi."**[3]

Əhməd ibn Harun, İmam Rzanın (ə) hüzuruna gəlir. Həzrət göstəriş verir ki, yemək gətirsinlər. Süfrə salırlar və yemək gətirilir. Lakin, süfrə başında təzə göyərti olmur. Həzrət yemək yeməyib xadimə buyurur: Məgər bilmirsən ki, süfrədə təzə göyərti olmasa, yemək yemirəm? Xadim göyərti hazırlayıb gətirir. Həzrət yeməyi meyl edir.[4]

MƏDƏNİN SAĞLAMLIĞI HAQQINDA ƏN MÜHÜM GÖSTƏRİŞ

Allah-Taala Qurani-Kərimdə buyurur: **"Yeyin, için, lakin israf etməyin, çünki, Allah israf sevməz!"**[5]

Bu gün tibb elmində sübut olunmuşdur ki, sağlamlığın ən mühüm göstərişi budur. Çünki, alimlər öz təhqiqlərində belə bir nəticəyə gəlmişlər ki, bir çox xəstəliklərin mənbəsi, qidanın həzm olunmamış

[1] Səfinətul Bəhar, cild 2, səh 84.
[2] Müstədrəkül-vəsail, cild 3, səh 103.
[3] Müstədrəkül-vəsail, cild 3, səh 103.
[4] Kudək, cild 2, səh 251.
[5] Əraf surəsi, ayə 31.

şəkildə bədəndə qalmasıdır. Bunlar qəlbdən ötrü ağır yük hesab olunur və bir çox xəstəlik və infeksiyaların səbəbidir. Beləliklə, mədənin sağlamlığının ilk addımı artıq zir-zibilləri yandırmaqdır. Belə zərərverici maddələrin əsası isə yemək-içməkdə israf və çox yeməkdir. Bütün bunları, yeməkdə ifrat-təfriti gözləməklə aradan aparmaq olar.

XAÇPƏRƏST HƏKİMİN HARUN BARƏSİNDƏ NƏZƏRİ

Dahi Quran təfsirçisi şeyx Təbərsi özünün "Məcməul-bəyan" təfsir kitabında belə nəql edir ki, Harun Ər-Rəşidin tibb sahəsində tanınmış bir həkimi varmış. Günlərin birində, bu həkim İslam alimlərindən birinə dedi: Sizin səmavi kitabınızda tibbdən bir şey görmürəm. Halbuki, ən faydalı elm, din və bədən elmləridir?!

Müsəlman cavabında dedi: Allah-taala bütün tibb göstərişlərini bir ayənin yarısında buyurub: **"Yeyin, için, lakin israf etməyin!"**

İslam Peyğəmbəri (s) tibb haqqında göstərişini belə buyurub:

"Bütün xəstəliklərin evi mədədir. Pərhiz etmək, bütün xəstəliklərin dərmanıdır. Bədəninə nə adət vermisənsə, ondan qaçma!"

Xaçpərəst həkim dedi: **"Sizin kitabınız və Peyğəmbəriniz tibb elmində Calinusa (özünün adı) bir şey saxlamayıb."**[1]

İSLAMDA BAŞQA SAĞLAMLIQ GÖSTƏRİŞLƏRİ

Çox yemək və az yemək hər ikisi pislənir. Əli (ə) bu barədə belə buyurur: **"Az yemək, bir çox xəstəlikləri aradan aparar."**[2]

Əlbəttə, o qədər az yox ki, insana zəiflik gətirsin. İmam Səccad (ə) buyurur: **"Əmirəl-möminin (ə) buyurur: Yemək və yuxuda ifrat-təfritə yol vermək, nəfsi fasid edir və bədəni isə pis zərərlərə salır."**[3]

İmam Kazim (ə) buyurur:

"Pərhiz, bütün dərmanların başlıcasıdır. Xəstəliklərin məkanı mədədir."[4]

---

[1] Təfsiri-nümunə, cild 6, səh 153.
[2] Fehreste Ğurərul-hikəm, səh 13.
[3] Fehreste Ğurərul-hikəm, səh 14.
[4] Səfinətul-Bihar, cild 1, səh 345.

O gələcək...

Qarnın doymasında pəhriz etmək lazımdır

İslam Peyğəmbəri (s) buyurur:

"Doyduqdan sonra təzədən yemək, "ekzema" xəstəliyinə səbəb olur."[1] Yenə də buyurur: **"Qəlbi, çox yeyib-içməklə öldürməyin. Çünki, tarlaya çox su veriləndə xarab olduğu kimi, qəlb də bununla ölür."**[2]

Haram yeməkdən çəkinin

İslam Peyğəmbərindən (s) nəql olunur, buyurur:

"Hər kim haram tikə yesə, qırx gecə namazı qəbul olmaz. Qırx gün duası qəbul olmaz və haramdan bitmiş ət atəşə layiqdir".[3]

Yenə də İslam Peyğəmbəri (s) buyurur:

"Haram tikə, şəxsin qarnına düşdükdə, yerin və göylərin mələkləri ona lənət oxuyar. Nə qədər ki, haram tikə onun bədənindədir, Allah ona nəzər etməz. Hər kim haram tikədən yesə, Allahın qəzəbinə gələr. Əgər tövbə etsə, Allah onu bağışlayar. Yoxsa Cəhənnəmə layiqdir".[4]

Onun müqabilində halal yemək barəsində buyurur:

"Hər kim qırx gün yeməyində halallığı gözləsə, Allah-taala onun qəlbini nurani edər və hikmət çeşmələrini qəlbindən dilinə cari edər".[5]

Sağlamlıq rəmzi

İslam Peyğəmbəri (s) buyurur:

"Hər kim yeməyində təmizliyi gözləsə, yeməyi yaxşı çeynəsə, iştahası olan halda yeməkdən ayrılsa və nəhayət bağırsağı dolarkən boşaltmağı gecikdirməsə xəstələnməz, ölüm gəlincəyə qədər heç bir xəstəliyə tutulmaz".[6]

İmam Səccad (ə) göstəriş verir ki, qarını doldurmaqda ifrat və təfritdən çəkinək və yeməkdə mötədil olmağa çalışaq.

Çox yeməyin pisliyi və təsirlərinə işarə olundu. İndi isə aclığın və qarının haqqının qorunmasının zərərlərinə işarə edək.

Aclıq, bəşərin ən xətərli halətidir. Ac insan, sanki din və imanını yaddan çıxarıb, mehr və rəhməti unudur. Qarınını doldurmaqdan ötrü

---

[1] Məkarimul-Əxlaq, səh 147.
[2] Məkarimul-Əxlaq, səh 15.
[3] Səfinətul-bihar, cild 1, səh 24.
[4] Məkarimul-əxlaq, səh 150.
[5] Möhcətül-beyza, cild 3, səh 204.
[6] Məkarimul-əxlaq, səh 146.

vəhşi yırtıcı kimi olur. Hicrətin üçüncü ilində Bəsrə şəhərində böyük bir inqilab olur. "Zənci sahibi", bir neçə il hakimiyyəti dövründə, dəhşətli qətllərə əl atır. Minlərlə kişi, qadın və uşağı qılıncdan keçirir. Canlarını qurtaranlar qorxudan gizlənmiş, yemək ələ gətirməkdən ötrü gecələr qorxa-qorxa, gizli çölə çıxırdılar. İş-güc aradan getmiş, əkincilik və heyvandarlıq yox idi. Bütün məntəqəni aclıq və qıtlıq bürümüşdü. İnsanlar bir müddət it və pişik ətindən yeyirlər. Sonra ölü ətlərini yeməyə başlayırlar. Bəzən yarı can veräni öldürüb, onun ətini yeyirdilər.

O zaman bir qadını, kəsik başı əlində tutub ağladığını görürlər. Ağlamağı barəsində soruşdular. Cavab verir:

"Aclar bacımın başının üstünü almışdılar ki, ölsün, onun ətini yesinlər. Hələ ölməmişdi ki, onu tikələdilər və ətini böldülər. Lakin mənə qarşı zülm etdilər və ətindən mənə pay vermədilər. Yalnız başını mənə verdilər ki, yeyəm".[1]

Bacı, aclığın təsirindən hissiyyatını elə itirir ki, bacısının öldürülməsi barəsində yox, onun ətindən ona pay düşməməsi barəsində fikirləşib ağlayır.

QARININ ŞƏRİ HÖKMÜ

Fəqihlər, bovl və ğaitini saxlaya bilməmək həddində zərərə səbəb ola biləcək qarına vurulan zərbəyə görə insanın tam qanbahasının üçdə biri qədər təyin etmişlər. "Təkmilətul-minhac" kitabında oxuyuruq:

"Əgər birisi digərinin qarınına zərbə vursa, belə ki, öz bovl və ğaitini saxlaya bilməmək həddində olsa, insana qanbahasının üçdə biri qədər ödəməlidir. Yaxud zərbəni elə vursa ki, özünü bulasa, (həmin hökmdədir)".

Yenə buyurur: Əksər alimlər İmam Sadiqin (ə) də rəvayətini təsdiqləyirlər.

"Birisi digərinin qarınına zərbə vurmuşsa, belə ki, özünü bulamışsa, hökmünü Həzrət Əlidən (ə) soruşdular. Həzrət buyurdu: **"Ya onun qarınına həmin zərbəni vursun (qisas), yaxud insanın tam qanbahasının üçdə biri qədər qanbahası versin!"**[2]

[1] Tətimmətül-müntəha, səh 380; Murucuz-zəhəb, cild 4, səh 108.
[2] Məbani Təkmilətul-minhac, cild 2, səh 371.

O gələcək...

9. NAMUS HAQQI

وَأَمَّا حَقُّ فَرْجِكَ فَحِفْظُهُ مِمَّا لا يَحِلُّ لَكَ وَالاستِعَانَةُ عَلَيْهِ بِغَضِّ الْبَصَرِ – فَإِنَّهُ مِنْ أَعْوَنِ الأَعْوَانِ– وَكَثْرَةُ ذِكْرِ الْمَوتِ وَالتَّهَدُّدِ لِنَفْسِكَ بِاللهِ وَالتَّخوِيفِ لَهَا بِهِ، وَبِاللهِ العِصْمَةُ وَالتَّأْيِيدُ وَلا حَوْلَ وَلا قُوَّةَ إلا بِهِ.

“Amma abır-həyanın (namusunun) sənin boynundakı haqqı odur ki, onu, sənə halal olmayandan qoruyasan. Bu yolda gözünü haram olunmuşlara örtməklə kömək al. Çünki göz, ən yaxşı köməkdir. Bundan başqa ölümü çox yada salıb, nəfsini Allahın qorxusu ilə hədələməklə kömək al. Bu yolda özünü qorumaq və möhkəm olmaq fürsəti Allahdandır. Onun tərəfindən başqa heç bir güc və qüvvə yoxdur!”

“Fərc” ərəbcədə “iki şeyin arasındakı boşluğa deyilir və cəm şəkli, “furuc”dur. Həmçinin deşik, para mənalarında da gəlir. “Fərc” kişi və qadında bovl və ğait çıxan yerdir. Dilşünas Rağib İsfahani yazır: “Fərc” iki ayağın arasına deyilir. Bəzən onlara “qubul” və “dubur” da deyilir. Çox vaxt həmin mənalarda istifadə olunur.

“Məcməul-bəyan” təfsir kitabında, “Muminin” surəsinin 5-ci ayəsinin şərhində “Leysi” adlı lüğətçinin dilindən yazır: “Fərc”, kişi və qadında olan ayıb yerlərə deyilir.[1]

“Fərc”i və namusu qorumaqdan məqsəd (rəvayətlərdə qeyd olunduğu kimi) onu başqalarının gözündən örtməkdir. İmam Sadiqdən (ə) nəql olunan hədisdə gəlib:

Quranda hər yerdə “fərcləri qorumaq”dan söz deyilibsə, məqsəd zinadan qorumaqdır. Yalnız bu ayədəki “fərc”i qorumaq, yəni baxmaqdan qorumaq mənasındadır”.

Bu hədis “Nur” surəsinin 31-ci ayəsinin şərhində gəlib:

“Mömin qadınlara de ki, gözlərini haram buyurulmuşlardan örtsünlər və fərclərini qorusunlar!”[2]

CİNSİ HİSSİYYAT

Cinsi hissiyyat, bəşərin həyatında ən mühüm ləzzət meyllərindən biridir. Güclü cazibə və qüdrətli çəkməsi ilə qadın və kişini bir-birinə tərəf şiddətlə aparır. Onlar eşq və əlaqə ilə çalışırlar ki, bir-birinə qovuş-

[1] Qamusu Quran, cild 5, səh 157.

[2] Təfsiri Nur-səqəleyn, cild 3, səh 588.

sunlar. Bu cəhətdən, "kişi və qadın rabitəsi" məsələsi, cinsi cəhətdən bütün əsrlərdə dini və elmi sahədə mübahisələrə səbəb olmuşdur. Bu barədə ifrat, təfrit və mötədil şəkildə müxtəlif nəzəriyyələr irəli sürülüb.

İfrat nəzəriyyə

Hissiyyatların azad hesab olunması nəzəriyyəsi və tərəfdarlarından Freyd və başqaları, cinsi meyllər barəsində hədsiz dərəcədə ifrata varmışlar. Freyd, öz sözlərində cinsi meyllərin fəaliyyət miqyasını genişləndirmiş, öz məktəbinin əsasını təşkil edən "cinsiyyət" məsələsini geniş mənada şərh etmişdir. Nəticədə insanın bir çox müstəqil fitri məsələlərinin cinsi meyllərdən ayrıldığını iddia etmişdir. Ən mühümü budur ki, bu meyli, bəşərin mədəniyyətinin və inkişafının əsası qərar vermişdir.

Freydin nəzəriyyəsinə görə cinsiyyətdən qaynaqlanan ləzzəttələblik və murada yetmək meyli, həddi-büluğa yetmiş şəxslərə məxsus deyil. Cinsi meyl, həyatın bütün dövrlərində var. Xırda uşaqlar analarının döşünü həmin niyyətlə əmirlər və ondan ləzzət alırlar. Hədsiz cinsiyyət meylləri, Freydin psixoloji bəhslərinin əsasıdır. O iddia edir ki, cinsi meyllər ictimai və ya başqa amillər vasitəsilə boğulduğda geri çəkilir və batində özünə yer açır. Şiddətli sıxıntılarla batini pozuntular əmələ gətirir və bu da insanı ruhu xəstəliklərə düçar edir.

Freydin əqidəsinə görə bütün inhiraf növləri və ruhi pozuntular cinsi meyldən başlayır. Ruhu müalicə edən şəxs, xəstənin bütün batini keçmişindən xəbərdar olmasına müvəffəq olmalıdır.[1]

Freydin müxalifləri tibbi cəhətdən deyirlər: Nəyə görə bütün ruhi inhirafların əsas səbəbini şəhəvani qüvvədə axtarır, müalicə yolunu oradan başlamaq lazımdır? Freydin ən böyük səhvi budur ki, o, psixoloji pozuntuları cinsi meyllərin adi halda olmamasının səbəbi bilir və şəxsin maddi, iqtisadi, ictimai mühitinin səviyyəsinə diqqət yetirmir. Məsələn, əgər birisi işsizlik, fəqirlik, həyat yoldaşının və uşaqlarının aclığının səbəbindən ruhi pozuntuya düçar olarsa, cinsi meylin bu xəstəlikdə heç bir rolu yoxdur. Bu problemi aradan qaldırmaqdan ötrü, cinsi meyllərə yox, iş, çalışmaq və pula ehtiyac var.

Kilsə və cinsi meyillər (təfrit nəzəriyyəsi)

Kilsə tərəfdarları və bir sıra məzhəblər, həmçinin bəzi fəlsəfə və əxlaq alimləri, cinsi meylləri heyvani əməl bilib, onu pis və çirkin he-

[1] Yaşlı və cavan (Bozorgsal və cəvan), cild 1, səh 205.

O gələcək...

sab edirlər. Onlar cinsi meyllər yolunda təfrit yolunu tutub, bu meyli tamamilə özlərində məhv etməyə çalışırlar. Xaçpərəstlərin böyük şəxsiyyətlərindən biri sayılan Sen Jern həmişə təkidlə deyərdi: "Evlənmək ağacını subaylıq baltası ilə kökündən kəsək!"

Kilsə əməlində görürük: Kilsənin böyük ruhani şəxsiyyətlərindən sayılan Poles, həyatında evlənməmiş və heç bir qadınla cinsi rabitədə olmamışdır. Həmçinin kişi və qadınları evlənməməyə dəvət etmişdir. Polesin birinci məktubunda "Qernitlərə" xitabən gəlir:

"Amma mənə yazdığınız haqqında, yaxşı olar ki, kişi qadına toxunmasın. Lakin zinadan çəkinməkdən ötrü bir zövcə ala bilər və hər bir qadın ər seçə bilər. Ər, arvadın haqqını əda eləsin, arvad da kişinin".

O yerə qədər ki, yazır:

"Arzu edirəm ki, bütün kişilər mənim kimi olsunlar. Lakin hər bir kimsənin Allah tərəfindən bir bəxşişi var".

Biri belə deyir, digəri başqa cür. Ona görə də subaylara və dul qadınlara deyirəm ki, mənim kimi olsunlar. Lakin əgər dözə bilməsələr evlənsinlər. Ona görə də yaxşı olar ki, Cəhənnəmdə yanmaqdansa, evlənsinlər!"

İslamın mötədil nəzəriyyəsi

İslam dini, ifrat və təfrit yollarını məhkum edir. Əmirəl-möminin Əli (ə), ifrat və təfrit yolunun mənbəsini, cəhalət və nadanlıq bilir və buyurur:

"Cahil şəxs, həmişə ifrat və təfrit yolundadır."[1]

Cinsi meyllərdə orta səviyyəli olmaq, Allahın izni və yaranmışın qanunu ilə uyğundur. Bu qanuna görə cinsi meyllər, nə bütünlüklə azad olunmuş, nə də birdəfəlik qarşısı alınmışdır. Bəlkə də, bu təbii meyllər, düzgün istifadə edilməklə əxlaq qanunlarına uyğun olub, himayə olunur. Fərdi və ictimai məsləhətə uyğun, insanı razı salır. Bu yol, İlahi Peyğəmbərlərin yoludur ki, Allahın əmri ilə bir tərəfdən insanları ailə həyatı qurmağa çağırır, başqa tərəfdən hər cür cinsi pozğunluqlarla mübarizə aparır və bəşər cəmiyyətini belə işlərdən çəkindirir.

İSLAM VƏ AİLƏ HƏYATI

Allah-taala Quranda, "Möminin" surəsində imanlı şəxslərin üstün xüsusiyyətləri barəsində belə buyurur:

[1] "Ğürər və Dürər" kitabının şərhi, cild 6, səh 389.

O gələcək...

"O kəslər ki, ayıb yerlərini (zinadan) qoruyub saxlayarlar; Ancaq zövcələri və kənizləri istisna olmaqla; Onlarla cinsi bəhrələrinə görə qınanmazlar. Bundan artığını istəyənlər, həddi aşanlardır."[1]

Cinsi meyllər, insanda ən tüğyanedici meyllərdən biri olduğuna görə İslam, öz tərəfdarlarına evlənməyi əmr edir və halal zövcələrdən, yaxud, ixtiyarlarında olan kənizlərdən bəhrələnməyi tapşırır. Kənizlərdən məqsəd, həm daimi, həm də müvəqqəti evlənmələri anlamaq olar. "Qinanmayanlar" sözü, belə bir mətləbə işarə ola bilər ki, xaçpərəstlər öz yanlış tərzi-təfəkkürlərində hər cür cinsi əlaqəni əxlaqa zidd hesab edirlər. Belə ki, Katolik kişilər dünyanı tərk etmiş, qadınlar da kişilər kimi ömürlərinin axırına qədər subay qalırlar. Hər cür evlənməyi insan ruhiyyəsinin əksinə olduğunu qeyd edirlər. Əvvəlcədən bu məsələyə işarə olundu.

İslam Peyğəmbəri (s), İslam təlimlərində cinsi meylləri diqqət mərkəzində saxlamış, öz tərəfdarlarına evlənməyi tərk etməyi qadağan etmişdir. Hədislərdən birində buyurur:

"Hər kimin mənim fitrətimə meyli varsa, mənim getdiyim yola riayət etməlidir. Mənim yolumdan biri evlənmək və qadınlarla ünsiyyətdə olmaqdır."[2]

Evlənmək, günahdan amanda qalmaq

İslam Peyğəmbəri (s) buyurur: "**Ey cavanlar! Hansınızın evlənməyə gücü çatırsa, hökmən evlənin! Çünki, bu yol, gözləri xəyanət və günahdan saxlamaq, övrəti iffətsizlik və günahdan hifz etməkdən ötrü ən yaxşı vasitədir. Hər kimin evlənməyə qüdrəti və imkanı olmazsa, çox vaxt oruc tutsun. Çünki, oruc, şəhvət tufanını yatırmaqda ən yaxşı rol oynayır."**

Evlənmək, həyatın ən möhkəm binası

İslam dini öz tərəfdarlarını ailə həyatı qurmağa çağırır və bu işi Allah dərgahında ən yaxşı işlərdən bilir. İslam peyğəmbəri (s) belə buyurur:

"İslamda, Allah dərgahında, evlənməkdən sevimli bir bina qoyulmamışdır."[3]

Ona görə də belə işdə tələsmək lazımdır. Həzrəti İmam Sadiqdən (ə) nəql olunur ki, günlərin birində İslam Peyğəmbəri (s) mənbərə çıxıb, Allaha həmd və səna etdikdən sonra belə buyurur:

---

[1] Möminin surəsi, ayə 5-7.
[2] Məkarimul-Əxlaq, səh 196.
[3] Müstədrəkül-Vəsail, cild 2, səh 531.

O gələcək...

"Ay camaat! Cəbrail (ə) Allah dərgahından yanıma gəlib dedi: Bakirə qızlar, ağacın meyvələri kimidirlər. Əgər vaxtında dərilməsə günəş şüası çürüdüb, külək dağıdacaq. Həmçinin, qızlar həddi buluğa yetişdikdə və başqa qadınlar kimi özlərində cinsi meyllər hiss etdikdə ərdən başqa dərmanları yoxdur. Əgər ərə getməsələr fəsaddan amanda deyillər. Çünki, bəşərdirlər və bəşər xətadan amanda deyil."[1]

Evlənmək, pis işlərdən örtükdür

Qurani-Kərim, ailə həyatını qadın və kişinin sifəti kimi diqqət mərkəzində saxlayıb buyurur:

"Qadınlar sizin, siz kişilər də onların libasısınız."[2]

Bəli, libas pisliklərı və övrəti örtür. Libas, insanı bir çox namülayim şeylərdən, isti və soyuqdan hifz edir. Evlənməkdə insanın vücudunda paklıq və təmizlik yaradır. İslam Peyğəmbəri (s) buyurur:

"Hər kim Allahın hüzuruna pak və təmiz getmək istəyirsə, şəri yolla özünə həyat yoldaşı seçib, iffət və paklığa səbəb olanı özündə hazırlasın."[3]

İslam peyğəmbərinin (s) evlənməyi tərk etməyi məzəmmət etməsi

İslam, insanları günaha düşməsindən çəkindirmək üçün evlənməyə imkanı olub, evlənməyənləri məzəmmət edir. Nümunə üçün aşağıdakı mətləbə diqqət edin:

"Əkaf adlı bir kişi İslam Peyğəmbərinin (s) hüzuruna gəlir. Həzrət ondan soruşur: Evlənmisənmi? Ərz edir: Xeyr! Ya Rəsulallah! Həzrət buyurur: Bədənin sağlam, mal dövlətin varmı? Cavab verir: Bəli! Həzrət müxtəlif ifadələrlə onu evlənməyə təşviq edir və bu işi tərk etməsini tapşırır!

O cümlədən buyurur: **"Ey Əkaf! Vay olsun sənə! Evlən! Evlən ki, sən indi xətakarlardansan! Evlən! Yoxsa, günahkarların sırasında dursan. Yoxsa, Xaçpərəst rahiblərdən hesab olunarsan. Evlən! Yoxsa, Şeytanın qardaşlarından olarsan."**

Başqa bir rəvayətdə evlənməyi tərk etməklə, Allaha daha yaxın olmaq istəyən qadını, İmam bu işdən çəkindirir. İmam Rza (ə) buyurur:

---

[1] Bozorgsalan və cavan, cild 1, səh 192; "Furui Kafi" kitabından nəql edir, cild 5, səh 337.
[2] Bəqərə surəsi, ayə 187.
[3] Müstədrəkül-Vəsail, cild 2, səh 530.

O gələcək...

"Qadınlardan birisi İmam Baqirdən (ə) soruşur: Mən mütəbəttiləyəm. Həzrət buyurur: Təbəttül olmaqdan məqsədin nədir?

Qadın cavab verir: Qərara almışam ki, ömrümün axırına qədər ərə getməyim! Həzrət buyurdu: Nəyə görə? Dedi: Fəzilət və kamala yetişməkdən ötrü. Həzrət buyurdu: Bu fikrindən dön! Əgər ailə həyatı qurmamaq fəzilət olsaydı, Zəhra (s) bu fəziləti ələ gətirməkdə səndən layiqdir. Halbuki, fəzilətdə birisi ona çata bilməz."[1]

Bu iki hədisdən aydın olur ki, İslam övliyaları kişi və qadınları, subay qalmalarından çəkindirmək üçün onları müxtəlif ifadələrlə evlənməyə təşviq etmişlər ki, bununla, günaha düşməkdən özlərini qorusunlar.

İSLAM VƏ QADINLARDAN QAÇMAQ

İslam Peyğəmbərinin (s) səhabələrindən bir-iki nəfəri nəfslərini paklamaq və ruhiyyələrini möhkəmləndirməkdən ötrü qadınlarla ünsiyyətdə olmağı, yemək yeməyi və gecə yatmağı özlərinə haram edirlər. Ümmü Sələmə onların işlərini Peyğəmbərə (s) xəbər verir. Peyğəmbər onların yanına gələrək, buyurur:

"Məgər qadınlarınızı tərk etmisiniz və onlardan çəkinirsiniz? Mən sizin Peyğəmbəriniz olan halda, qadınlarımın yanına gedirəm, gündüz yemək yeyirəm və gecə yatıram. Hər kim mənim getdiyim yolla getməzsə, mənim ümmətimdən deyil."[2]

Bu hədis, evlənməyi tərk edib, nəfslərini paklandırmaqdan ötrü qadınlardan uzaqlaşanı möhkəm məhkum edir və onların yolunun düzgün olmamasını aşkar şəkildə elan edir.

ZİNA, BÖYÜK GÜNAHLARDANDIR

Evlənmək istəməyən bəzi şəxslər, zinaya mübtəla ola bilərlər. Bu cəhətdən müxtəlif bədbəxtliklərə də mübtəla olunur. Həmin səbəbdən, Qurani Kərim bu yolu pis yol elan edib, insanları bu işə yaxın düşməkdən çəkindirir. "İsra" surəsində buyurur:

"Zinaya da yaxın düşməyin. Çünki, o çox çirkin bir əməl və pis bir yoldur!"[3]

---

[1] Bozorgsalan və cavan, cild 1, səh 194.
[2] Vəsailuş-şiə, cild 14, səh 8.
[3] İsra surəsi, ayə 32.

O gələcək...

Bu qısa cümlədə üç məsələyə işarə olunur:

1. Ayədə, zina etməyin deyil, hətta, bu rüsvayedici əmələ yaxın belə düşməyin. Bu təkid, belə bir əmələ nə qədər çirkin olmasına dərin işarə etməsindən əlavə, maraqlı bir nöqtəyə də işarə edir. O da budur ki, bir sıra işlər var ki, müqəddimə ünvanı ilə insanı, tədriclə zinaya yaxınlaşdırır.

Bu əmələ müqəddimə işlərindən biri, əvvəlcədən işarə etdiyimiz kimi, çılpaqlıq, hicabsızlıq, həmçinin, pis mətləbli kitablar, çirkin filmlər və fasid nəşriyyatlardır. Hər hansı bir fəsad mərkəzi, belə işlərin müqəddiməsi ola bilər. O cümlədən, naməhrəm kişi ilə qadının xəlvətdə tək qalmaları da bu işin vəsvəsələrindən sayılır.

2. Ayədəki, **"O, çox çirkin bir əməldir"** ifadəsi, yuxarıdakı mətləbə aid olur və bu günahın böyüklüyünə dəlalət edir.

3. **"Zina yolu çox pis bir yoldur"** ifadəsi, belə bir həqiqəti bəyan edir ki, bu yol cəmiyyətdə başqa fəsadlara da yol açır və ona tərəf çəkir.

Zinanın haram olmasının hikməti

1. Ailə həyatında hərc-mərclik olması, ata-oğul əlaqələrinin aradan getməsi, təkcə ictimai anlaşmanın yox, bəlkə də, tamamilə uşaqlara himayənin aradan getməsinə səbəb olar. Bununla da, insanın omrü boyu onu yaşamağa sövq edən övlad məhəbbəti aradan gedir.

Bu mövzunun əhəmiyyətini dərk etməkdən ötrü bir an fikirləşək ki, əgər bütün insan cəmiyyətində zinaya icazə verilsəydi və evlənmək aradan getsəydi, bu əmələn nəticəsində dünyaya gəlmiş şəxsi kim himayə edəcəkdir? Onu, nə doğulanda, nə də böyüyəndə kimsə himayə etməyəcəkdir. Bundan əlavə, cinayətlə mübarizədə böyük rol oynayan məhəbbət və sevgidən məhrum olmaq, insan cəmiyyətini hərtərəfli vəhşiliyə malik olan heyvani bir mühitə çevirir.

2. Bu rüsvayedici əməl, həvəsbazlar arasında müxtəlif növ fərdi və ictimai çəkişmələrə səbəb olur. Bir sıra fəsad mərkəzlərinin vəziyyətlərindən nəql edən dastanların yazdıqları, aydınca nişan verir ki, bu əməllə yanaşı, cəmiyyətdə ən pis cinayətlər baş verir.

3. Təcrübə və elm sübüt etmişdir ki, bu çirkin əməl, müxtəlif növ xəstəliklərə səbəb olur. Bu gün belə növ xəstəliklərin aqibətlərinə qarşı bütün vasitələrdən istifadə edilməsinə baxmayaraq, çoxları bu yolda öz sağlamlıqlarını əldən vermişdir.

4. Bu əməl, çox vaxt uşağın ana bətnindən salınmasına, övladın öldürülməsi və nəslin kəsilməsinə səbəb olur. Çünki, zinadan doğulmuş uşağı heç kim saxlamağa hazır olmur. Adətən, belə əməl sahibləri, uşa-

ğın dünyaya gəlməsini, özünün çirkin əməli müqabilində ən böyük maneə kimi görür.

5. Unutmaq lazım deyil ki, evlənməkdən məqsəd, təkcə cinsi meylləri doydurmaq deyil, bəlkə də, həyatda müştərək həyat qurub, ruhi ünsiyyət, fikir cəhətdən aramlıq, övlad tərbiyə etmək və həyatın bütün sahələrində həmkarlıq etməkdir. Hər bir qadının bir kişiyə məxsus olub, zinanı qadağan etmədən bu işlərin heç birinin baş verməsi mümkün deyil.[1]

Heyrətli statistika

Britaniyanın "Dairətul-maarif" (ensiklopediya) kitabın 23-cü cildinin 45-ci səhifəsində yazılır:

"ABŞ-da (Amerika Birləşmiş Ştatları) olunmuş təhqiqatlara əsasən, ümumiyyətlə, bu ölkənin əhalisinin 90%-i cinsi yaxınlıq xəstəliyinə tutulurlar. Bu cəmiyyətdən, həmin xəstəlik üzündən rəsmi şəkildə xəstəxanada müalicə olunanların sayı 360 min nəfərdir. ABŞ-ın bütün xəstəxanalardan 650 xəstəxana yalnız, cinsi yaxınlıq üzündən əmələ gələn xəstəlikləri müalicə etməyə məxsusdur. Halbuki, bu xəstəxanalarda müalicə olunanlardan iki dəfədən artıq əhalinin çoxusu, xüsusi və ailə həkimlərinə müraciət edirlər."

"Cinsi qanunlar" kitabın 304-cü səhifəsində yazılır: **"1957-ci ildə Amerikada 201700 nəfər uşaq zinadan doğulmuşdur və keçən 20 ildə bu rəqəm, beş dəfə artmışdır. Bu ildə toysuz, mərasimsiz hamilə olan qadınların sayı 24000 nəfərdir. Onların yuxarı yaş həddi 18-dən azdır. Fransanın paytaxtı Parisdə 43515 nəfər uşağın arasından 4145 nəfər uşaq zinadan doğulur. İsveçrədə hər il 17000 uşaq qanunsuz doğulur."** İranda çıxan "Keyhan" jurnalının 5354-cü sayında yazır: London şəhərinin cənub tərəfində həkim işləyən Doktor Mulnter öz məqaləsində yazır: **"Londonda hər il, 50000 nəfər uşağı hamilə vaxtı qanunsuz öldürürlər. Hər doğulan iyirmi uşaqdan biri zinadandır."**[2]

ZİNANIN DÜNYA VƏ AXİRƏTDƏKİ TƏSİRLƏRİ

Bura kimi zinanın haram olması, çirkin təsirləri və qərb ölkələrindəki zina barəsindəki statistikaya müxtəsər də olsa, işarə etdik. İndi də zinanın dünya, Axirət və Bərzəx əzabına işarə edək.

[1] Təfsiri Nümunə, cild 12, səh 103-104.

[2] Böyük günahlar, cild 1, səh 194.

O gələcək...

İmam Əli ibn Əbu Talib (ə) rəvayət edir ki, İslam Peyğəmbərindən (s) eşitdim ki, buyurdu:

"Zinanın altı pis zərəri var. Üç qismi dünyada, digər üç qism isə axirətdədir. Dünyadakı zərərlərindən biri budur ki, insandan səfa və nuraniyyəti alır. Ruzini kəsir və insanın tez məhv olmasına səbəb olur. Amma, Axirətdəki üç təsiri odur ki, Allahın qəzəbinə, hesab-kitabın çətinliyinə, Cəhənnəmə daxil olmağa yaxud, orada əbədi qalmağa səbəb olur."[1]

Zina, viranlıq və fəqirlik gətirir

İslam Peyğəmbəri (s) buyurur:

"Zina, fəqirlik və müflisliyə səbəb olub, şəhərlərin dağılmasına və boşalmasına gətirib çıxarar."

Bunlar, zinanın çirkin təsirləridir. Həmçinin, zina, qəflətən ölümlərin çoxalmasına səbəb olar. İmam Baqirdən (ə) nəql olunur, buyurur:

"İmam Əli (ə) öz kitabında İslam Peyğəmbərindən (s) nəql edir, buyurur:

"Məndən sonra zina artsa, qəflətən ölümlər çoxalacaq və bu ölümlə çoxları əbədi olaraq dünyadan gedəcəklər."[2]

Zinakarın bərzəx həyatı

İmam Sadiqdən (ə) nəql olunur ki, cəddi İslam Peyğəmbərindən (s) nəql edir, buyurur:

"Agan olun! Hər kim müsəlman, yəhudi, xaçpərəst və ya məcusi qadınla zina etsə, qadın azad yaxud, kəniz olsa, etdiyi əməldən tövbə etməsə, ölümünə yaxın olsa və bu işə israr etsə, Allah-taala, onun qəbrinə üç yüz qapı açar. Bu qapıdan böyük ilanlar, əqrəblər və əjdahalar xaric olar. Qiyamətə kimi yanar. Qəbirdən çıxarkən insanlar onun pis qoxusundan əziyyət çəkər. Hər kəs onu pis qoxusu və dünyada etdiyi çirkin əməllərə görə tanıyarlar. Nəhayət, onu atəşin içinə atarlar."

Bəli! Budur zinakarların bərzəx əzabı! Onlar Qiyamətdə də Cəhənnəm əzabındadırlar.

---

[1] Təfsiri Məcməul-bəyan, cild 6, səh 414.

[2] Vəsailuş-Şiə, cild 14, səh 233.

O gələcək...

ÖLÜMÜ YADA SALMAQLA ZİNADAN AMANDA QALMAQ

İmam Səccad (ə), bu kitabında insanın şərəf və namusunun qorunmasından ötrü yollar buyurmuşdur. Birinci, naməhrəmə baxmamaq, bəlkə də, insanabaxması haram olan hər şeydən göz örtmək. İkinci, ölümü çox yad etmək. Quran, ölüm barədə buyurur: **"Ölüm həqiqətən gəlir. Bu, sənin qaçdığın şeydir!"**[1]

Ayədə buyurduğu "səkr" kəlməsi ərəbcədən əslində, "su yolunun bağlanması"na deyilir. İnsanın ağlı ilə öz arasında bihuşluq vaxtı sədd olduğuna görə "ölümünə" bu adı verirlər.

"Ölüm bihuşluğu", məstlik halına oxşar bir vəziyyətdir. İnsanda ölümün ilkin əlamətləri təzahür etdikcə, müxtəlif fövqəladə həyəcan və dəyişikliklər əmələ gəlir. İnsanın ağlını əlindən almaqla onu həyəcanlandırır. Bunun da səbəbi odur ki, ölüm, illər boyu dünya ilə qurduğu bağlılığa son qoymaqla insanı başqa bir aləmə köçürən bir haldır. Bu halda insanı böyük bir qorxu bürüyür və ona bihuşluq halı üz verir.

ÖLÜM NƏDİR?

Rəvayətlərdən birində İmam Səccaddan (ə) soruşurlar: "Ölüm nədir?"

Həzrət (ə) cavabında buyurur:

"Ölüm, mömindən ötrü çirkli və həşəratla dolu bir libası soyunmaq, ağır zəncirləri açmaq, onları ən fəxrli və ətirli libaslarla, ən yaxşı yol gedən miniklərlə və ən rahat mənzillərlə dəyişmək kimi bir şeydir. Amma kafirdən ötrü ölüm, fəxrli libası soyunmaq, sevdiyi mənzillərdən ayrılmaq, onları ən çirkin və pis libaslarla və dəhşətli mənzillərlə dəyişmək kimi bir şeydir".[2]

İmam Hüseyn (ə) Kərbəlada ölümün həqiqəti barədə lətif və aydın bir açıqlama buyurmuşdur.

İmam Hüseyndən (ə) ölümün təfsiri

"Səbr edin! Ey dahi insanların övladları! Ölüm, sizləri narahatlıqlar və əziyyətlərdən geniş və əbədi Cənnət bağlarına köçürən bir körpü-

[1] Qaf surəsi, ayə 19.

[2] Kifayətül-müvəhhidin, cild 3, səh 203.

O gələcək...

dür. Sizlərdən hansınız zindandan saraya köçməyinə narahatdır? Amma ölüm, sizin düşmənlərinizə saraydan zindana köçən bir şəxs kimidir!

Atam, İslam Peyğəmbərindən (s) nəql edir ki, buyurur: "Dünya, möminin zindanı və kafirin Behiştidir. Ölüm, möminlərin bağlarına və kafirlərin Cəhənnəminə körpüdür."[1]

İmam Sadiqdən (ə) ölümün şərhi

İmam Sadiqə (ə) dedilər: **"Ölümü bizə şərh edin! Həzrət buyurdu: Ölüm, mömindən ötrü onu vəcdə gətirən xoş ətri iyləməsidir. Zəhmət və dərdlərin hamısı ondan uzaqlaşır. Amma ölüm, kafirdən ötrü əqrəb və əfi ilanların onu çalması kimidir."**[2]

Həzrət Əli (ə) "Nəhcül-bəlağə"də, dünya pərdələri yoxa çıxıb, mələklərin gəlməsini və ölüm anını belə şərh edir:

"Əgər sizin ölənlərinizin gördüklərini siz görsəydiniz, dəhşətə gələrdiniz və qorxardınız. O vaxt haqq sözü eşidib, itaət edərdiniz. Lakin onların gördükləri sizdən gizlindir və tezliklə pərdələr kənara çəkiləcək və siz də onları müşahidə edəcəksəniz!"

ÖLÜMÜN HƏQİQƏTİ

Adətən, bir çoxları təsəvvür edir ki, ölməklə insan yox olub gedir. Lakin bu fikir, Quranda gələn və əqli dəlillərin bizi yönəltdiyi etiqadlarla uyğun gəlmir. Ölüm, Quran nəzərinə görə vücudu olan bir şeydir. Bir dünyadan başqa dünyaya köç. Ona görə də Quranda çox yerdə ölümdən, "təvəffa", yəni, geri almaq və ruhun mələklər vasitəsi ilə bədəndən ayrılması kimi təfsir olunur.

Bəzi rəvayətlərdə gəlib ki, insanın üç dəhşətli günü var: **"Doğulub, bu dünyanı tanınmamış bir yer kimi gördüyü gün; Ölüb, ölümdən sonra müşahidə etdiyi aləmi gördüyü gün; Nəhayət, məhşərə (Qiyamətə) daxil olub, dünyada görmədiyi hökmləri gördüyü gün."**[3]

Allah-taala, bu üç gün barəsində Zəkəriyya oğlu Yəhyaya buyurur: **"Yəhyaya doğulduğu gündə, öləcəyi gündə, diriləcəyi gündə salam olsun!"**[4]

---

[1] Məanil-əxbar, cild 2, səh 196.
[2] Kifayətül-müvəhhidin, cild 3, səh 203.
[3] Təfsiri-Nurus-Səqəleyn, cild 3, səh 327.
[4] Məryəm surəsi, ayə 15.

Qurani-Kərim Həzrəti İsanın (ə) dilindən buyurur: **"Doğulduğum gündə, öləcəyim gündə, diriləcəyim gündə mənə salam olsun!"**[1]

İmam Sadiq (ə) buyurur:

"Ölümü yad etmək meyllər və şəhvani istəkləri öldürür."[2]

İslam Peyğəmbəri (s) buyurur:

"Ləzzətləri məhv edib bir-birinə vuranı xatırlayın! Soruşdular: Ya Rəsulallah! Ləzzətləri məhv edən nədir? Buyurdu: Ölümdür ki, yetişməklə bütün arzuları aradan aparır."

Qeyd edildiyi kimi İmam Zeynul-abidin (ə) də şəhvətlər tufanını aradan aparmaqdan ötrü ən böyük amillərdən birini **"ölümün xatırlanması"**nı tövsiyyə edir. Bundan əlavə, insan, öz nəfsini Allahın qorxusu və əzabından qorumağa adət etməlidir. Bu da şəhvətin sönməsindən ötrü bir amildir. Bütün bunlardan mühüm, Həzrətin sonda buyurduğu ifadə, yəni, **"bu işdə Allah taaladan kömək istəmək lazımdır"** – sözü daha diqqətə layiqdir. Əgər cavanlar, Allahı xatırlayıb, onu bütün hallarda hazır olduğunu dərk etsələr, Allah da onlara, günahdan qurtarmağa fürsət verər. Necə ki, Yusif peyğəmbər Allaha ərz etdi:

"Əgər qadınların hiylə və məkrlərini məndən uzaqlaşdırmasan, mən də insana uyğun təbiətinə görə onlara tərəf meyl edərəm!"[3]

Beləliklə, özünü Allaha tapşırır. Allah da ona nicat verir.

ZİNANIN ŞƏRİƏTDƏ HÖKMÜ

Müqəddəs İslam şəriəti, bu ictimai və cansıxıcı bəlanın qarşısını almaqdan ötrü həddə və qanunlar təyin etmişdir. Sözsüz ki, əgər icra olunarsa, müsəlman cəmiyyətini təmizləyib, namus və ailə əmniyyəti yaradar. Quranda, "Nur" surəsində bu mövzuda bəhs olunub. "Nur" surəsinin ikinci ayəsində belə gəlib:

"Zinakar kişiyə və zinakar qadına yüz çubuq vurun. Allaha və axirət gününə inanırsınızsa, Allahın dini barəsində (bu işin icrasında) ürəyiniz onlara yumşalmasın və möminlərdən bir dəstə də onların əzabına şahid olsun!"

Bu ayə üç göstərişə aiddir:

1. Fahişəliyə qurşanmış kişi və qadınların cəzalandırılması hökmü. (Zinadan məqsəd, şəri icazələri olmadan subay kişi ilə qadının cinsi əlaqəsidir.)

[1] Məryəm surəsi, ayə 33.
[2] Məcmueyi Vərram, səh 268.
[3] Yusif surəsi, ayə 53.

O gələcək...

2.Təkid olunur ki, bu İlahi hökmün icrasında yersiz məhəbbət və hissiyata qapılmayın. Belə niyyətləri aradan aparmaqdan ötrü Allaha və qiyamət gününə imanı irəli çəkir. Heç kəsin bu qanunun keyfiyyəti və kəmiyyəti barəsində nəzər verməyə haqqı yoxdur.

İslam Peyğəmbərindən (s) bu mövzuda maraqlı bir rəvayət nəql olunur. Buyurur:

"Qiyamət günü, İlahi həddin icrasında bir şallaq azaldan hakimləri məhşərə gətirəcəklər və ona deyiləcək: Nəyə görə belə etdin? Cavab verəcək: Sənin bəndələrinə rəhm etdiyimə görə etdim.

Pərvərdigari aləm buyuracaq: Məgər sən onlara nisbət, Məndən çox mehriban idin?! Göstəriş verəcək ki, onu atəşə atın!

Başqasını gətirərlər ki, İlahi həddən bir şallaq da artıq vurublar. Ona deyiləcək ki, nəyə görə bu işi gördün? Cavab verəcək: Bununla, Sənin bəndələrini günahdan çəkindirirdim. Allah-taala buyurar: Sən, Məndən çox agah və hakim idin? Sonra göstəriş veriləcək ki, onu da cəhənnəmə atın![1]

3. Möminlərdən bir dəstəsinin cəzalanma səhnəsində iştirak edib, onu müşahidə etməsində məqsəd təkcə bu deyil ki, günahkar ibrət alsın, bəlkə də hədəf budur ki, onun cəzalanması başqalarına da ibrət dərsi olsun. Ona görə ki, əxlaq pozğuntuları şəxsdən cəmiyyətə sirayət edir. Hökm, məhkəməyə çəkildiyinə görə hökmün icrasında günahkarın abır-həyasının gözlənilməsinin heç bir mənası yoxdur. Əksinə, onu, qanunu pozan kimi tanıtdırıb, şəri qanunun möhtərəm və müqəddəs olmasını elan etmək lazımdır.

Bu ayədə, kişi ilə qadın, zinakarlıq əməlinə görə yüz şallaq (qamçı) vurulması hökmü gəlib. Hökm ümumidir. Əlbəttə, bəzi yerlərdə istisnalar var ki, sonradan ona işarə edəcəyik. Belə bir hökmün icrasında müəyyən şəraitlər sadalanmışdır:

Birinci: Zinakar şəxs həddi buluğa yetsin. Yəni, qadın və ya kişi həddi buluğa yetişmiş olsun. Beləliklə, bu hökm, həddi buluğa yetişməyən uşaqlar barəsində icra olunmur.

İkinci: Zinakar, özünün ixtiyarı ilə və azad şəkildə bu əmələ mürtəkib olmuş olsun. Beləliklə, hər kim zorla bu əmələ məcbur edilsə, haqqında hökm icra olunmaz.

Üçüncü: Zinakar kişi və qadın ağıllı və aqil olmalıdırlar. Beləliklə, divanə və məcnunlar müstəsnadır.[2]

---

[1] Təfsiri Fəxri Razi, cild 23, səh 148.

[2] Məbani Təkmilətül-minhac, səh 169.

O gələcək...

Ayətullah Xomeyni buyurur: "Zina əməlinə mürtəkib olan şəxs, bu əməlin şəriətdə haram olmasını bilib, ya özü müctehid olsun, ya da təqlid yolu ilə bilməli olsa, onun haqqında hökm icra olunur. Beləliklə, hər kimin bu işin haram olmasından xəbəri olmasa, hökm onun barəsində icra olunmaz.

Yuxarıdakı hökmlərdən istisna olunanlardan, "möhsin və möhsinənin" zinakarlığıdır. "Möhsin"dən məqsəd budur ki, kişi, arvadı ola-ola və arvadına əli çatan halda, zina etsin. Hər vaxt belə şəxslər şəri yolla cinsi əlaqə olmaq imkanı olan halda, zina etsələr, hökmləri edamdır. Başqa müstəsna isə kişinin məhrəmləri ilə zina etməsidir. Onun da hökmü edamdır. Həmçinin, başqasını zorla zinaya çəkmək, onun da icrası edam hökmüdür.

Zina hökmünün icrasının şəraiti

1. Zinakarlıq əməlinin sübut olunmasından ötrü və həddin icrasına görə dörd nəfər adil şahid, kişi yaxud, üç kişi və iki qadın şahid və ya iki kişi və dörd adil qadın şəhadət verməlidirlər.

2. Şəhadət verənin sözləri ilə zina işinin baş verməsi imkanı eyni olmalıdır.

3. Şahidlərin sözləri, zinanın baş verdiyi zamanla uyğun gəlməlidir (hamının sözü).

4. Bütün şahidlər eyni vaxtda əməli görmələrinə şəhadət verməlidirlər.

5. Əgər dörd nəfər adil kişi, zinakarlığın baş verməsinə şəhadət versələr və eyni halda zina edən qadını tanımasalar, şəhadətləri qəbul deyil.

6. Əgər dörd nəfər adil kişi, zina əməlinin baş verməsini dörd nəfərdən hekayət etsələr, qəbul deyil.

7. Əgər dörd nəfər kişidən, üç nəfəri bir yerdə zinaya şəhadət versə və dördüncüsü, şahid durmaqdan çəkinsə, yaxud, onunla üç nəfər kişinin şəhadətində ixtilaf olsa, şəhadətləri qəbul olmayıb, hər üç nəfər barəsində "qəzf" hökmü icra olunar.[1]

[1] Məbani Təkmilətül-minhac; Təhrirul-vəsilə və Şərhi lümə, "Zina" fəsli.

O gələcək...

İBADİ ƏMƏLLƏRİN HAQQI

10. NAMAZIN HAQQI

فَأَمَّا حَقُّ الصَّلاةِ فَأَنْ تَعْلَمَ أَنَّهَا وِفَادَةٌ إِلَى اللهِ وَأَنَّكَ قَائِمٌ بِهَا بَيْنَ يَدَيِ اللهِ، فَإِذَا عَلِمْتَ ذَلِكَ كُنْتَ خَلِيقًا أَنْ تَقُومَ فِيهَا مَقَامَ الذَّلِيلِ الرَّاغِبِ الرَّاهِبِ الْخَائِفِ الرَّاجِي الْمِسْكِينِ الْمُتَضَرِّعِ الْمُعَظِّمِ مَنْ قَامَ بَيْنَ يَدَيْهِ بِالسُّكُونِ وَالإِطْرَاقِ وَخُشُوعِ الأَطْرَافِ وَلِينِ الْجَنَاحِ وَحُسْنِ الْمُنَاجَاةِ لَهُ فِي نَفْسِهِ وَالطَّلَبِ إِلَيْهِ فِي فَكَاكِ رَقَبَتِكَ الَّتِي أَحَاطَتْ بِهِ خَطِيئَتُكَ وَاسْتَهْلَكَتْهَا ذُنُوبُكَ. وَلا قُوَّةَ إلا بالله.

“Amma, sənin boynunda namazın haqqı budur ki, namazın Allah dərgahına daxil olma vəsiləsi olduğunu biləsən. Onu da biləsən ki, sən namazda olarkən, Allah dərgahında dayanmısan. Bəs bu mətləbə diqqət edib, Xaliqinin müqabilində qərar tutsan, yaxşı olar ki, Allah dərgahında zəlil, təvazökar, Ondan qorxan, ümidvar, miskin, Ona müştaq halətində olasan. Qarşısında durduğunu böyük sanasan. Aram, başı aşağı və bütün əzaların təvazökar halətdə olsun. Onun əzəmətini dərk et, ən gözəl şəkildə dua və razi-niyazla istə ki, səni uçurum kənarına çəkmiş xətalar və günahların əzabından xilas etsin. Güc və qüvvə yalnız, Onun tərəfindəndir!”

İmam Səccad (ə) namazın haqqının bəyanında əvvəlcə, namazın əhəmiyyət və əzəmətinə işarə edir. O da budur ki, namaz, yük tutmaq və Allah dərgahına getmək üçün bir vasitədir. Nəhayət, maddi aləmdən hicrət etmək vasitəsidir.

Namaz, insanı özünə məşğul edən işləri unutdurub, geridə qoyur. İnsan bu yolla, İlahi əzəmətə diqqət edib, zülmət və qaranlıq aləmdən nurani bir aləmə daxil olur. Belə bir səfər və hicrət, Həzrətin qeyd elədiyi xüsusiyyətlərlə olmalıdır ki, bunlara bəhs müddətində işarə edəcəyik.

NAMAZ, ƏN BÖYÜK İBADƏTDİR

Müqəddəs İslam dini, öz ibadət proqramlarında namazı bütün əməllərin zirvəsində qərar vermiş, xüsusi tövsiyə və sifarişlə onun xüsusi əhəmiyyətini, tərəfdarlarına çatdırmışdır.

Müqəddəs İslam dini, oğlan, yaxud qız, həddi buluğa çatdığı zaman namazı beş vaxt onlara vacib edir. Belə ki, əgər hər hansı üzrlü səbəbə görə onu qıla bilməsələr belə, sonradan qəzasını yerinə yetirməlidirlər.

O gələcək...

Namazın vacib olma vaxtları gün uzunu fərq edir. Namaz əhlinin vəzifələrindən biri də namaz vaxtını bilməsidir.

QURANDA NAMAZ VAXTLARI

Quran ayələrində, namazın vaxtları bəzən işarə ilə, bəzən də aşkar şəkildə bəyan olunub. Onlardan "Hud" surəsində belə buyurur:

"Namazı, gündüzün iki başında və gecənin əvvəllərində qıl! Həqiqətən, yaxşı əməllər pis işləri (və onların təsirlərini) yuyub aparar. Bu, yada salanlara öyüb-nəsihət və xatırlatmaqdır."[1]

Ayədəki, **"gündüzün iki başı"**ndan məqsəd, gündüzün iki tərəfində olan, sübh və məğrib namazıdır. Ərəbcə "züləf" sözü "zülfə" sözünün cəm şəkli olub, gecənin başlanma və gündüzə yaxın vaxtına deyilir. Beləliklə, ayədə "işa namazı" nəzərdə tutulur. On iki məsum İmamlardan (ə) bizə çatan rəvayətlərdə həmin üç namaza, "sübh", "məğrib" və "işa" namazlarına işarə olunduğu bildirilir.

"İsra" surəsində buyurur:

"Günortadan gecənin qaranlığınadək namaz qıl. (Günorta və əsr namazlarını günortanın əvvəlində, məğrib və işa namazını isə gecənin əvvəlində qıl.) Sübh namazını da qıl. Çünki, sübh namazı gecə və gündüz mələklərinin müşahidəsindədir."[2]

"Fəcr Quranı", sübh namazına işarədir. Bu ayədə namazın beş vaxtına işarə olunub. "Bəqərə" surəsində oxuyuruq:

"Namazlara, xüsusilə orta namaza riayət edin və Allaha itaət üçün ayağa qalxın."[3]

QURANIN ƏN ÇOX ÜMİD VERİCİ AYƏSİ

Qeyd etdiyimiz "Hud" surəsinin 114-cü ayəsinin təfsirində "Məcməul-bəyan" təfsirinin müəllifi (Təbərsi), Əmirəl-möminin Əlidən (ə) maraqlı bir hədis nəql edir.

"Günlərin birində Həzrət Əli (ə) üzünü cəmiyyətə tutub soruşur: Bilirsiniz, Quranda ən ümidverici ayə hansıdır? Bəziləri belə cavab verir:

[1] Hud surəsi, ayə 114.
[2] İsra surəsi, ayə 78.
[3] Bəqərə surəsi, ayə 238.

O gələcək...

Budur **"Şübhə yoxdur ki, Allah özünə şərik qoşanları əfv etməz, amma istədiyi şəxsin bundan başqa olan günahlarını bağışlayar."**[1] İmam buyurdu: Yaxşıdır. Amma, mən istədiyim ayə deyil. Bəziləri dedilər: Bu ayədir: **"Hər kəs pis iş gördükdən və ya zülm etdikdən sonra Allahdan bağışlanmasını diləyərsə, Allahın bağışlayan və mərhəmətli olduğunu görər."**[2] İmam yenə buyurur: Mən istədiyim ayə deyil. Bəziləri dedilər: Bu ayədir: **"De ki: Ey özlərinə zülm edən bəndələr! Allahın rəhmətindən ümidinizi üzməyin!"**[3] Həzrət buyurur: İstədiyim ayə deyil! Əhali soruşur: Bəs hansı ayədir? Həzrət buyurur: Ən ümidbəxş ayə, bu ayədir:

"Namazı gündüzün iki başında və gecənin əvvəlində qıl."[4]

Həzrət Musa (ə) vəhy gələndə namaz qılmağa məmur olur

Əmirəl-möminin Əlinin (ə) dilindən nəql edir ki, Quranda ən ümid verici ayə, namaz ayəsidir. İndi də Ulul-Əzm peyğəmbərlərdən, İmran oğlu Musanın (ə) Taha surəsindəki əhvalatına diqqət edək, necə ki, Allah-Taala buyurur:

"Mən səni Peyğəmbər seçdim. Sənə vəhy olunanı dinlə! Mən, həqiqətən Allaham. Məndən başqa heç bir tanrı yoxdur. Mənə ibadət et və Məni anmaq üçün namaz qıl!"[5]

Bu ayədə əvvəlcə, tövhidin əsli bəyan olur. O da peyğəmbərlərin dəvətlərinin ən mühüm əsasıdır. Sonra ibadət mövzusu, onun ardınca isə namaza göstəriş verilir. Yəni, Xaliqlə, məxluqun ən mühüm bağlılığı və Allahın pak zatını yaddan çıxarmamaqdan ötrü ən təsirli yol, namaz qılmaqdır.

Namazın müxtəlif hikmətləri arasından bu ayədə və Musanın (ə) dəvətinin əvvəlində, "Allahı xatırlamaq" hikmətinə işarə olunur. Şübhəsiz ki, bir sıra amillər insanı qəflətə salıb, Allahı onun yadından çıxarır. Ona görə də gecə-gündüz müxtəlif vaxtlarda namaz qılmaqla bu qəflətlə mübarizə aparılır. İnsan sübh tezdən yuxudan ayıldıqda, onu bu dünyada hər şeydən qafil edən yuxudan durduqda, gündəlik planlarına başlamazdan əvvəl, Allah-Taala ona namazı (sübh namazı) vacib etmişdir. Bununla da, təzə həyatını başlayır və Allahı yad etməklə qəlbini saflaşdırır.

---

[1] Nisa surəsi, ayə 48.
[2] Nisa surəsi, ayə 110.
[3] Zümər surəsi, ayə 53.
[4] Məcməul-bəyan, cild 5, səh 201.
[5] Taha surəsi, ayə 13-14.

O gələcək...

Gündüz işin şirin yerində, günün yarısında, gündəlik işləri onu özünə məşğul etdiyi bir vaxt, birdən "həyyə ələs-səlah" eşitməklə, namaza tərəf tələsir. Namaza durub, öz Məbudu ilə razi-niyaza məşğul olur. Qəlbinə oturmuş toz-torpağı, bununla təmizləyir. Gündüzün sonunda və gecənin əvvəlində də belə olur. Gecədən bir qədər keçdikdən sonra da "yatı" namazı ilə Allahı xatırlamaqla qəlbini dirildir.

Bu ayədə Allah-taala, Musaya (ə) buyurur: "Namaz məni qəlbində xatırlamağından ötrüdür." Həmçinin, Allah-taala "Rəd" surəsində də Özünün yad və zikr olunmasını qəlblərin aramlığının əsası kimi vurğulayır. Buyurur:

"Bilin ki, qəlblər yalnız Allahı yad etməklə aram tapar!"

HƏR HALDA ALLAHI XATIRLAMAQ

"Nisa" surəsində, müsafir namazını və döyüş cəbhələrindəki qorxu namazını bəyan etdikdə, bu şərif ayə Allahı bütün hallarda xatırlamaq tövsiyə olunur:

"Namazınızı qıldıqdan sonra ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı zikr edin, arxayınlığa çıxdıqda isə namazı öz qaydasında qılın! Çünki, namaz möminlərə müəyyən vaxtlarda fərz (vacib) edilmişdir."[1]

Ayaq üstə, oturaq və uzanan hallarda Allahı yad etməkdə məqsəd, döyüş meydanında fasilə vaxtı edilən istirahət halları ola bilər. Həmçinin, əsgərlərin müxtəlif hallarda oturan, duran, uzanan vaxtı döyüşüb silahdan istifadə etdiyi də nəzərdə tutula bilər. Əslində, İslamın ən mühüm göstərişi budur ki, insan heç bir halda Allah-taaladan qafil olmamalıdır. Bir çox rəvayətlərdə yuxarıdakı ayə, xəstələrin necə namaz qılma qaydalarına aid edilmişdir. Necə ki, ayədəki, "**kitabun məvqut**" ifadəsi, "həmişə vacib" kimi təfsir olunmuşdur.[2]

Məhəmməd Ğəzzalinin söylədiklərindən

Namazın əsas ruhu təvazökarlıqdır. Qəlbin hazır və Allah-taala ilə düz olması, heybət və təzim yolu ilə Allahı zikr etmək, namazın hədəflərindəndir. Necə ki, Allah-taala buyurur:

"Məni xatırlamaq üçün namaz qılın!"

[1] Nisa surəsi, ayə 103.

[2] Təfsiri nümunə, cild 4, səh 104-105.

O gələcək...

İslam Peyğəmbəri (s) buyurur:

"Elə namaz qıl ki, sanki kiminləsə vidalaşırsan. Yəni, bu namazla, özün və həvayi-nəfsinlə vidalaşırsan. Bəlkə də, haqqdan başqa hər şeylə vidalaş. Həmişə özünü namazda hiss et!"[1]

Bura kimi Qurani-Kərimdən namazın əhəmiyyətinə və bəzi hikmətlərinə işarə olundu.

ƏSL NAMAZ

Mərhum Feyz Kaşani özünün "Əl-həqaiq" kitabında yazır: Əsl namaz bu altı mətləbə riayət etməklə ələ gəlir:

1. Hüzur qəlb; 2. Anlamaq; 3. Təzim; 4. Heybət; 5. Ümid; 6. Həya.

Hüzur qəlb

Namazda insanın qəlbində hüzur tapması və insanın diqqətinin yalnız, Allaha cəlb olunmasında əsas amillərdən biri, namazda ciddi olmaqdır. Çünki, qəlb, ciddiliyə tabedir. Necə ki, insanın fikir və diqqəti ən çox harada olarsa, qəlb də oraya yönələr. Beləliklə, demək olar ki, qəlb ciddiliyə tabe və ram olandır. İnsanda dünya həyatı ilə Axirət həyatı arasında müqayisədə, Axirət həyatına üstünlük vermə əqidəsi formalaşmalıdır. Çünki, axirət, əbədi və həmişəlikdir. Həmçinin, giriftarçılıq və narahatçılığı da yoxdur. Quran buyurur:

"Axirət dünyası əbədi həyatdır. Əgər bilsəniz!"[2]

Başqa yerdə yenə gəlib: **"Axirət daha yaxşı və ən əbədidir!"**[3]

Anlamaq üçün kifayətdir ki, belə bir əbədi həyatı və ən yaxşı yaşayışı yalnız, namaz vasitəsi ilə ələ gətirmək olar. Namaz Allaha yaxın olmaq vasitəsidir. Əgər insan özündə dünyanın doğrudan da kiçik və dəyərsiz olduğuna etiqadı olsa, o anda namazda qəlbin Allah dərgahında hazır olması alınar.

Anlamaq

Namazda hüzuri qəlb ələ etdikdən sonra "anlamaq" məsələsi qarşıya çıxır. Yəni, insanın zehni və fikri namazın ali dərəcəli mənalarını başa düşməyə çalışsın. Əgər namaz qılan, namazın mənalarına diqqət

[1] Kimyayi səadət, cild 1, səh 165-166.
[2] Ənkəbut surəsi, ayə 64.
[3] Əla surəsi, ayə 17.

O gələcək...

etsə, dünya işlərindən qafil olar. Bu halda bütün qarışıq fikirlərdən azad olar. Namazda müxtəlif mövzulu fikirlərin insanın zehn və fikrinə hücum çəkməsi, demək olar ki, o şəxsə oxşayır ki, ağacın altında oturub azad və aramlıqla fikirləşmək istəyir. Lakin, bülbüllər və sərçələrin səsküyü onu özünə cəlb edir. Əlinə çubuq alıb onları qovur lakin, yenə qayıdırlar. Namaz qılanın namaz üstə haləti belədir.

Təzim

Təzim qəlbin ondan mərifət aldığı sərçeşməsidir. Birinci, imanın əsasını təşkil edən, Allahın cəlal və əzəmətinin mərifəti. İkinci, insanın öz nəfsinin kiçik və dəyərsiz olmasını tanımaq. Onu ilahi göstərişlərə ram etmək. Bu iki mərifətdən insanda, təvazökarlıq və nəfsin sınması ələ gəlir. Bütün bu halların ələ gəlməsi ilə insanın öz Xaliq və Məbudu müqabilində təzimi daha çox özünü göstərəcək.

Heybət

İnsanın nəfsinin başqa bir halı da heybət və qorxudur. Bu hal, Allahın sonsuz qüdrətinə olan mərifətdən doğulur. O da budur ki, Allahın istək və iradəsi, aləmin bütün zərrələrinə nüfuz edir. İnsan, Allahın qüdrətinə nə qədər çox elm və mərifət əldə etsə, insanda bir o qədər çox heybət və qorxu olar. Dahi İslam alimi Mərhum Nəraqi "ixlas"ı da bu yolda xatırlatmışdır. Buyurur: "Namazda ixlaslı, qəsd qürbət və riyadan uzaq olmağın bu işdə təsiri vardır."[1]

Ümid

Ümid, Allahın lütfünün tanınmasından sərçeşmə alır. Belə ki, insan, Allahın sonsuz nemətləri, kərəm və lütflərinə diqqət etməklə, namazın müqabilində Allahın behişt vədəsinə yəqinlik edir. Bütün bunların nəticəsində, Allaha ümid hasil olur.

Həya

İnsanda həya, Allahın haqqını yerinə yetirməkdə özünü aciz bilib, öz nəfsində onu dünyanın bər-bəzəyinə dəvət edən eybləri görməklə əmələ gəlir. Digər tərəfdən, Allahın cəlal və qüdrətinə elmi olan insanın batinində, həya adlı hiss əmələ gəlir.[2]

[1] Elm əxlaq İslami, cild 3, səh 403.
[2] Əl-həqaiq, səh 223.

O gələcək...

Bura kimi əsl namaz və onun həqiqəti barəsində, Feyz Kaşaninin dilindən nəql etdik. İndi də bu barədə Ayətullah Hacı Mirzə Cavad Mələki Təbrizinin sözünə nəzər salaq. O, namazın əzəməti barəsində dahi İslam alimi, şəhid Əvvəlin kitablarına işarə edərək buyurur:

"Şəhid (Allah ona rəhmət eləsin), namazın min məsələsini bir kitabda cəmləyib onu "Əlfiyyə" (minlik) adlandırmışdır. Üç min məsələdən ibarət olan namazın müstəhəb işlərini isə başqa bir kitabda cəmləyərək, "Nəfliyyə" adlandırmışdır. Sonra Quranda namazın mühüm hikmətlərindən birinə işarə edir: **"Həqiqətən namaz, insanı çirkin və pis əməllərdən çəkindirir."**[1]

Buyurur: Namazın insanı çirkin işlərdən saxlamasının həqiqətində heç bir şəkk-şübhə ola bilməz və sözsüz qəbuldur. Çünki, Quran, aşkar şəkildə bu xüsusiyyəti sübut edir. Əgər zərrə qədər də olsa, namazın ruhu onda olsa, insanı o miqdarda çirkinlik və pisliklərdən çəkindirər. Amma, o namaz ki, onda bu xüsusiyyət yoxdur yalnız, namazın şəkli sayılır, ola bilməz ki, nifaqdan xalis olsun.[2]

Bu böyük alimin qeyd etdiyi kimi Şəhid Əvvəlin kitablarında namazda olan məsələ heç bir mövzuda yoxdur. Bu alim "namaz" mövzusunda ən böyük fiqh və hədis kitablarını özünəməxsus tərzdə ərsəyə gətirmişdir. Biz, İmam Səccadın (ə) sözlərinin şərhində bu əzəmətli dəryadan yalnız, bəzi damlalarına işarə etmişik.

Namazın fərdi, əxlaqi və ictimai xüsusiyyətləri də vardır ki, xülasə və qısa şəkildə hər birinə işarə edək.

NAMAZIN FƏRDİ TƏSİRLƏRİ

Namazın fərdi xüsusiyyətlərindən biri də budur ki, gün ərzində özünü beş dəfə Allah dərgahında hiss edən insanın ruhi qüvvəsini, əzmini və qərarını möhkəmləndirir. Nəticədə, çətinliklər müqabilində dağ kimi möhkəm dayanır.

Namazın, şəxsdə başqa bir təsiri də budur ki, insan, özünü maddiyyat aləmindən ayırıb, İlahi səfərə çıxdığına görə qəlbi dünya aləminin kin-küdurətindən təmizlənir və aramlıq mərhələsinə yetişir. Nəql olunur ki, İslam Peyğəmbəri (s) nə vaxt qarşıya çıxan hadisələrin təsirindən qəmgin olsaydı, namazın pənahına gedər və çoxlu namaz qılardı. Çün-

[1] Ənkəbut surəsi, ayə 45.

[2] "Əsrarus-salat"dan nəql, səh 176-177.

O gələcək...

ki, namaz, Allahla görüş halıdır. Allahın görüşünə tələsdiyinə görə dərd və qəm ondan ayrılırdı. Həzrət buyurur:

"Sizlərdən hər kim namaza dursa, Allahla münacat halında olar və bütün diqqəti Allaha olar. Anlayar ki, Onunla özü arasında heç bir fasilə yoxdur. Dualarını eşidir və nidasına cavab verir. Duasını qəbul edir."[1]

Namazın şəxsə başqa təsirlərindən biri də mal, məqam və dünyanın enişli-yoxuşlu həyatı üzündən insanda olan təkəbbür və qüruru aradan aparır. Bu da insandan ötrü, çalışdığı kamal nöqtəsidir.

İmam Xomeyni (r.ə) namazda qiyam, ruku və səcdələrin sirri barəsində buyurur:

"Namaz möminin kamal meracı, təqva əhlinin Allaha yaxın olmaq vasitəsi olduğuna görə biri digərinə müqəddimə olan iki işin möhkəmləndiricisidir. Birinci: Təqvanın həqiqəti sayılan, təkəbbür və özünü böyük sanmaqlıq halını tərk etmək; İkinci: Merac və Allaha yaxınlaşmağın həqiqəti sayılan, "Allahı sevmək" və "haqq tələblik" halıdır. Ona görə də rəvayətdə var:

"Namaz, hər bir təqvalı insanın Allaha yaxın olmasının amilidir."

Qiyam, ruku və səcdə məqamları ilə insanda iki hal yaranır. "Qiyam" halında, Haqqın hər işdə əsas və mütləq qüdrətli olduğunu bilərək, "özünü sevmək" halı tərk olunur. "Səcdə"də isə "özünü öymək" halı tərk olunur. Mütləq şəkildə Allahsevər və Allahtələblik halı vücuda gəlir. Bütün alimlərin məqamları bu üç haldan ələ gəlir.[2]

Namazın fərdi təsirlərindən biri də insanın özünü islah etməsinə can atması və ən ali şəkildə əxlaqi fəzilətləri ələ gətirməsinə çalışmasıdır. İnsan, öz qəlbini rəzilət tikanlarından islah edir. Ona görə də Qurani-Kərim, doğru möminləri namazdan ələ gətirdikləri xüsusiyyətlərlə tərifləyir. "Möminin" surəsində buyurur:

"Həqiqətən, möminlər nicat tapmışlar! O kəslər ki, namazlarında müti olub (Ona) boyun əyərlər!"[3]

Ayədəki "əfləhə" sözü ərəbcədən, "fələh" və "fəlah" köklərindən olub, əslində, "yarılmaq" və "kəsilmək" mənasındadır. Sonradan hər növ qələbə və məqsədə yetişməyə də aid olunmuşdur. Əslində, qələbə və nicat tapanlar, öz yollarında olan maneələri aradan aparırlar. Yollarını, son məqsədlərinə kimi yararaq irəli gedirlər. Rağib İsfahani özünün "Müfrədatul-Quran" kitabında bu mənanı şərh edərək yazır: "Fəlah" iki

[1] Qapançının "Risalətul-hüquq" kitabının şərhi, cild 1, səh 292.
[2] Adabi namaz, səh 350.
[3] Möminin surəsi, ayə 1-2.

O gələcək...

qismdir. Dünyadakı fəlah və axirətdəki fəlah. Dünyadakı fəlah üç şeydə xülasə olur: Əbədilik, ehtiyacsızlıq və izzət. Axirətdəki fəlah isə dörd şeydə olur: 1. Fənasız əbədiyyət; 2. Fəqirsiz ehtiyacsızlıq; 3. Zillətsiz izzət; 4. Cəhlsiz və nadansız elm. Bu ayədə möminlər təvazökarlıq sifəti ilə tanıtdırılır.

Ayədə "xaşiin" sözü ərəbcədən, "xuşu" kökündən olub, insanın təvazökar olub, cismi və ruhi cəhətdən ədəbinə deyilir. Bütün bu hallar böyük bir şəxsin yaxud, mühüm bir həqiqətin müqabilində əmələ gəlir. Onun təsiri insanın bədənində zahir olur. Bu ayə işarə edir ki, möminlərin namazı ruhsuz və sözlərdən ibarət olub, mənasız deyil, bəlkə də, Allaha elə diqqət edirlər ki, Ondan başqa hər şeydən ayrılırlar.

TƏVAZÖKARLIĞIN AMİLLƏRİ

1.İlk amil budur ki, insan elə bir elmə və mərifətə malik olsun ki, dünya onun nəzərində kiçik, Allah isə böyük və əzəmətli cilvələnsin. Əli (ə), müttəqi və təqvalı şəxslərin əlamətləri barəsində "Nəhcül-bəlağə"də buyurur:

"Allah, onların gözündə böyük cilvələndiyinə görə Ondan başqa nə varsa hamısı onların yanında kiçikdir."[1]

2.Namaz vaxtı müxtəlif işlər barəsində fikirləşməyib, fikrini yalnız, namaza cəmləsin və onun mənasına diqqət etsin.

3.Yer seçmək. Yəni, namazı elə bir yerdə qılsın ki, bər-bəzəkli olmasın. Ona görə də görürük ki, şəkil, mücəssimə müqabilində, keçid yolu, açıq qapı ağzında namaz qılmaq məkruhdur.

4.Günahdan çəkinmək, təvazökarlığın yaranmasında təsirlidir.

5.Namazın mənalarını, hərəkət və zikrlərinin hikmətlərini bilmək.

6.İstər müqəddimə, istərsə də namazda, müstəhəb işlərə əməl etmək.

7.Bu işin (təvazökarlığı), başqa işlər kimi çoxlu təkrara ehtiyacı olduğunu unutmaq lazım deyil.

NAMAZIN İCTİMAİ TƏSİRİ

Namazın mühüm təsirlərindən biri də şəxsin başqalarının müqabilində məsuliyyət hiss etməsindən ibarət, ictimai təsiridir. Şübhə

[1] Nəhcül-bəlağə, (Feyzül-İslam) 104-cü xütbə; Nəhcül-bəlağə, (Seyyid Rəzi) 184-cü xütbə.

O gələcək...

yoxdur ki, insan ictimai xüsusiyyətdə yaranmışdır. Dəstə, cəm şəklində yaşamağa meyl etmək, insanın fitrətində qərar verilmişdir. İnsan, tənhalıqdan əziyyət çəkir. Onun zindanda tək qalması, ondan ötrü ən çətin əzabdır.

İnsanda iki növ məsuliyyət var: Fərdi və ictimai məsuliyyəti. Fərdi məsuliyyəti barəsində Quran buyurur: **"Hər kəs özünün qazandıqlarının zaminindədir."**[1]

"Nisa" surəsində buyurur: "**Ey insan! Sənə yetişən hər bir yaxşılıq Allahdandır, sənə üz verən hər bir pislik isə özündəndir."**[2] Hər kəsin öz əməlləri və dedikləri müqabilində məsuliyyəti vardır.

Amma, insanın ictimai məsuliyyətində, hər hansı bir şəxsdən söhbət getmir. Bəlkə də, cəmiyyət və yaşayış mühiti öndədir. Hər kəsin yaşayış mühitində özünə görə vəzifələri vardır. İslam Peyğəmbəri (s) buyurur: **"Hamınız sorğu-sual olunacaqsınız!"**

Namazın təsirlərindən biri də insanda ictimai məsuliyyətin canlanmasıdır. Ona görə də şəriətdə tək namaz qılmaqla, camaatla qılınan namazın arasında böyük fərq var. Bu iki namaz, savab cəhətdən heç də bərabər deyildir. İslam, camaat namazına çox tövsiyə etmişdir. Ondan da mühüm, həftədə bir dəfə ibadi-siyasi namaz qərar vermişdir ki, bu namazda, bütün müsəlmanlar bir sırada durub, cümə gününün xətibindən siyasi məsələləri, cəmiyyətdə baş verən giriftarçılığı eşidir və həll etməyə çalışırlar. Bütün müsəlmanların cümə namazında iştirak etmələri, müsəlmanların cəlal və əzəmətini cilvələndirir. Bu da, kinli düşmənlərin müsəlmanların əleyhinə hiylə qura bilməməsinə səbəb olur. Nəticədə, müsəlmanlar müstəqil bir millət olub, özlərinə arxalanır və həmişə şövkət və əzəmətli görünür.

Camaat namazında, camaatın sıx və münəzzəm durması savabdır. Maraqlı budur ki, fəqir, dövlətli, qara, ağ, şərqli, qərbli, bir sırada durur və namazdan sonra bir-birinin əlini sıxıb görüşürlər. Bu yolla, cəmiyyətdə bərabərlik ruhu canlanır. İnsanlara daim əziyyət verən təbəqələşmə aradan gedir. Məhəbbət və səfa, düşmənçilik və kinləri əvəz edir. Əhalinin camaat namazında iştirak etməsi camaatın bir-birinin əhvalından xəbərdar olmasına səbəb olur. Əgər kiminsə çətinliyi varsa, həll olunmasına çalışırlar. Ümumiyyətlə, namaz, bütün müsəlman millətlərini bir ümmət kimi qərar verir. Nəticədə, müstəqil cəmiyyət yaranır.

---

[1] Müddəssir surəsi, ayə 38.

[2] Nisa surəsi, ayə 79.

NAMAZIN ƏXLAQİ TƏSİRLƏRİ

İnsan, vücudundan rəzilət sifətlərini və özündə kök salmış çirkinlikləri özündən uzaqlaşdırmasa, Allaha yaxın ola bilməz. Həmçinin, qəlbin saflaşmasından ötrü şərait yaratmaq lazımdır. Quran buyurur:

"Günahlardan və küfrdən təmizlənən kimsə isə nicat tapacaqdır. O kimsə ki, Rəbbinin adını zikr edib namaz qılar!"[1]

Namaz, əxlaqi xüsusiyyətlərin paklaşmasına vasitədir. Namaza davam etmək, insanı xeyirlə tərbiyələndirir. Quran buyurur:

"Həqiqətən, namaz (insanı), çirkin və pis əməllərdən çəkindirir"[2] və onun vücudunda səadət və fəzilətin kökünü qoyur.

Bu ayə də həmin məsələyə işarədir. Buyurur:

"Həqiqətən, insan (sərvətə) çox həris, tamahkar və kəmhövsələ yaradılmışdır! Ona bir pislik üz verdikdə fəryad qopardar. Ona bir xeyir nəsib olduqda isə xəsis olar. Namaz qılanlar istisnadır! O kəslər ki, daim namaz qılarlar."[3]

Müfəssirlərdən bir qismi ayədəki, "həlu" sözünü ərəbcədən "həris" bəziləri isə "kəmhövsələ və az taqətli olmaq" kimi mənalandırırlar. Beləliklə, birinci təfsirə əsasən belə insanların vücudundakı üç xüsusiyyətə işarə olunur: 1. **Həris; 2. Əli bağlılıq; 3. Xəsislik.** Amma ikinci təfsirə əsasən, iki məsələ: **Əli bağlılıq** və **xəsislik** mənasında götürülür. Çünki, ikinci və üçüncü cümlələr (bu ayədən sonra) "həlu" sözünün təfsiri sayılır.[4]

Bu ayədə namazın, insanın vücudunda hərislik, tamahkarlıq, səbirsizlik və kəm hövsələsizliyi islah etdiyi bildirilir. Namaz qılanlardır ki, namaz sayəsində özlərini islah edə bilərlər. Çünki, namaz insanın həyatının əvvəl və axırını təfsir edir. Haradan gəlmisən, hara gedirsən və nəyə görə gəlmisən?

Məşhur İslam alimi Nəraqi (Allah ona rəhmət eləsin) özünün "Camius-səadət" kitabında nəql edir: Mövlamız Əmirəl-möminin Əlidən (ə) "səcdə"nin mənası barəsində soruşurlar. Həzrət buyurur: **Onun mənası budur: "İlahi! Bizi torpaqdan yaratmısan. Səcdədən baş qaldırmaq yəni, Bizi torpaqdan çıxarmısan. İkinci səcdə işarə edir ki, bizi torpağa qaytaracaqsan. Oradan baş qaldırmaq ona işarədir ki, bizi yenidən torpaqdan çıxaracaqsan!"**[5]

---

[1] Əla surəsi, ayə 14-15.
[2] Ənkəbut surəsi, ayə 45.
[3] Məaric surəsi, ayə 19-23.
[4] Təfsiri nümunə, cild 25, səh 28.
[5] Elmul-Əxlaq İslami, cild 3, səh 442.

O gələcək...

Elə ki, insan bu ali mənaya diqqət etsə, sözsüz ki, nəfsini islah etməyə çalışacaq.

NAMAZ VƏ KAMALA MANEƏLƏR

Bura qədər namazın əhəmiyyəti, hikməti, ictimai və əxlaqi təsirləri barəsində qısa bəhs etdik. İndi də belə bir mövzuya işarə edirik ki, İmam Səccadın (ə) özü öz əməli ilə namazın haqqını tərəfdarlarına öyrədir. Bəzən, Həzrətin bəzi dostları çox namaz qılmağın ona ağır olmasını xəbərdarlıq edirdilər.

Əllamə Məclisi "Biharul-ənvar" kitabında nəql edir ki, İmam Hüseynin (ə) qızı Fatimə, Cabir ibn Abdullahın yanına gedib dedi:

"Ey Allahın Rəsulunun səhabəsi! Bizim boynumuzda sizin haqqınız var. O cümlədən, o hüquqlardan biri budur ki, əgər bizim birimizi ibadət üzündən həlakətə düşəcəyini görsəniz, ona xəbərdarlıq edib, özünü hifz etməyi tapşırarsınız. Ey Cabir! Bu, Əli ibn Hüseyndir (ə) ki, səcdənin əsərindən alnı piy bağlayıb, ayaqları şişib və əti bədənində suya dönüb. Ondan istəyin ki, özünü qorusun!

Cabir, Həzrətdən daxil olmaq icazəsi istədi. İçəri girəndə Həzrətin ibadət mehrabında oturduğunu gördü. İmam durub Cabirin yanında oturur və ondan hal-əhval tutur. Cabir soruşur:

Məgər Allah Behişti sizin üçün və Cəhənnəmi düşmənlərinizdən ötrü yaratmamışdırmı? Nəyə görə bu qədər ibadətlə məşğulsan?

Həzrət buyurur: "Ey Allahın Rəsulunun səhabəsi! Bilirsən ki, Allah onun keçmiş və gələcək günühlarından keçib, lakin, o, bir an da olsa ibadətindən əl çəkmədi? O qədər ibadət etdi ki, mübarək qədəmləri şişdi. Ona deyiləndə ki: Allah sizin keçmiş və gələcək günahlarınızı bağışlayıb! "Buyurur: Məgər şükr edən bəndə olmayım?

Cabir, xahişinin Həzrətdə heç bir təsir qoymadığını anlayır. Ərz edir: Siz o kəslərdənsiniz ki, Allah sizin vasitənizlə bəlaları dəf edir, göyləri və yeri qoruyur.

Həzrət buyurur: Onlarla görüşənə qədər, ata və cəddimə iqtida edəcəyəm!

Cabir: Peyğəmbərlərin övladları arasında Əli ibn Hüseyn kimisini görmədim!"[1]

"Fəqih Tavus" nəql edir: İmam Səccadı (ə) işa namazından sonra sübhə kimi Kəbə evini təvaf edib, ibadət etdiyini gördüm. Elə ki, təvaf

[1] "Risaleyi hüquq"un şərhi, Qapançı, cild 1, səh 305: Biharul-ənvar, cild 46, səh. 78-79.

edənlərin azadlığını və səhnənin xəlvət olduğunu gördü, başını göyə tərəf qaldırıb buyurdu:

"Pərvədigara! Ulduzlar azalıb qürub etdilər. Gözlər yuxuya getdi. Ancaq, Sənin rəhmət qapıların sual edənlərin üzünə açıqdır. Pərvərdigara! Sənin evinin qapısına gəlmişəm ki, mənə rəhm eləyəsən. Məni bağışla və mənə tərəf bax! Cəddim Məhəmmədin (s) çöhrəsini Qiyamətdə...." Sonra ağladı və ərz etdi: **İzzət və cəlalına and olsun! Günah etməklə, Sənin iradənin müxalifində olmaq fikrim yoxdur. Günah görərkən, Sənin əzab-əziyyətinə cahil deyiləm. Sənin əzabına məruz qalmaq istəmirəm. Nəfsim məni aldatmaq istədiyi zaman Sənin rəhmətin bu yerdə mənə kömək edir!**

İlahi! Sənin əzabından məni kim azad edə bilər? İlahi! Əgər nicat ipini məndən kəssən, hansı ipdən yapışaram? Vay olsun mənə ki, sabah Qiyamətdə Sənin dərgahında duracağam və yükləri yüngül olanlara deyiləcək: Gedin! Yükləri ağır olanlara: Qalın! - deyiləcək. Bilmirəm, yüngül yüklülərdən olub keçəcəyəm yaxud, ağır yüklülərdən olub saxladılacağam? İlahi! Ömrüm nə qədər çox olarsa, xətalarım çoxalar! İndi vaxt yetişib ki, tövbə edəm!" Sonra ağlayıb bu məzmunda şer oxuyur:

"Ey mənim sonsuz arzum! Məni atəşdə yandırmaq istəyirsən?
Bəs mənim ümidim kimədir? Orada dostluğum necə olacaq?
İlahi! Xətalı əməllərlə dərgahına gəlmişəm!
Ruzigarda cinayəti mənim kimi olan yoxdur!"

Sonra ağlayıb səcdə edir. Yaxşı hal tapmışdı. Tavus deyir: Həzrətin başı üstünə getdim. Mən də ağladım və göz yaşımdan Həzrətin üzünə düşdü. Həzrət buyurdu: **"Məni Pərvərdigarın zikrindən ayıran kimdir?"**

Ərz etdim: Mən Tavusam. Peyğəmbərin övladlarındanam. Nəyə görə belə edirsiniz? Bu halət və ağlamaq nədir? Biz də sizin kimi olmağa məcburuq. Ağacan! Atanız belə edib? Ananız Fatimə və cəddiniz, Allahın Rəsulu bu cür edib?

Həzrət mənə diqqət edib, buyurdu: **Ata, ana və cədd söhbətini kənara qoy! Allah-taala Behişti, qul və həbəşi olsa da, itaət edən bəndələrdən ötrü yaradıb. Atəş və Cəhənnəmi qureyşin ağası da olsa, günahkarlardan ötrü yaradıb. Məgər eşitməmisən ki, Allah-taala buyurur:**[1]

"Sur çalındığı gün artıq aralarında nə qohumluq (əlaqəsi) olar, nə də onlar bir-birindən soruşub, hal-əhval tutarlar."[2]

---

[1] Biharul-Ənvar, cild 46, səh, 81-82.

[2] Möminin surəsi, ayə 101.

O gələcək...

NAMAZ VƏ GÜNAHIN BAĞIŞLANMASI

Namazın haqqı mövzusunun sonunda İmam Səccad (ə) buyurur:

"Namazda vücudunu əhatə edib, həlakətinə səbəb olacaq günahlarının bağışlanmasını Allahdan istə!"

Əvvəlcədən işarə olundu ki, namaz, insanı çirkinlik və pis işlərdən saxlayır. İndi də İslam Peyğəmbəri (s), namazı günahların bağışlanmasını necə tanıtdırdığına nəzər salaq.

İmam Baqir (ə), cəddi İslam Peyğəmbərinin (s) dilindən nəql edir ki, buyurur:[1]

"Əgər sizlərdən birinin həyətindən çay axsa və həmin şəxs gündə beş dəfə özünü bu çayda yusa, bədənində bir çirk qalarmı? Ərz etdim: Xeyr! Buyurdu: Namaz, axan çayın məsəli kimidir. Namaz qılanın, iki namazın arasında etdiyi xətalar bağışlanılır!"

Bu bənzətmədə, İslam Peyğəmbəri (s) və namaz qılan haqqında buyurduqları, şəraitə uyğun hərəkət edərsə, şübhəsizdir və bağışlanar. Əmirəl-möminin Əli (ə) "Nəhcül-bəlağə"də əshabına tövsiyə və sifariş edərək buyurur:

"Namazın əməllərinə öhdədar olun! Namazı qoruyun! Çox namaz qılın və onun vasitəsi ilə Allaha yaxın olun. Çünki, namaz, möminlərə müəyyən vaxtlarda yazılmış və vacib buyurulmuşdur. Məgər Cəhənnəm əhlinin, onlardan soruşanda ki, **"sizin atəşə düşməyinizə nə səbəb oldu?"**- cavabını eşitməmisiniz? Cavabları bu olar ki, namaz qılan olmamışıq.

11.ORUCUN HAQQI

وَأَمَّا حَقُّ الصَّوْمِ فَأَنْ تَعْلَمَ أَنَّهُ حِجابٌ ضَرَبَهُ اللهُ عَلَى لِسَانِكَ وَسَمْعِكَ وَبَصَرِكَ وَفَرْجِكَ وَبَطْنِكَ لِيَسْتُرَكَ بِهِ مِنَ النَّارِ وَهَكَذا جَاءَ فِي الْحَدِيثِ «الصَّوْمُ جُنَّةٌ مِنَ النَّارِ» فَإِنْ سَكَنَتْ أَطْرَافُكَ فِي حَجَبَتِهَا رَجَوْتَ أَنْ تَكُونَ مَحْجُوبًا. وَإِنْ أَنْتَ تَرَكْتَهَا تَضْطَرِبُ فِي حِجَابِهَا وَتَرْفَعُ جَنَبَاتِ الْحِجَابِ فَتُطَّلِعُ إِلَى مَا لَيْسَ لَهَا بِالنَّظْرَةِ الدَّاعِيَةِ لِلشَّهْوَةِ وَالْقُوَّةَ الْخَارِجَةِ عَنْ حَدِّ التَّقِيَّةِ لِلّٰهِ لَمْ تَأْمَنْ أَنْ تَخْرِقَ الْحِجَابَ وَتَخْرُجَ مِنْهُ. وَلَا قُوَّةَ إِلَّا بِاللّٰهِ.

[1] Vəsailuş-Şiə, cild 3, səh7, hədis 7.

"Amma, orucun haqqı odur ki, biləsən, oruc, Allah-taalanın sənin dilinə, qulağına, gözünə, övrətinə və qarnına qoyduğu örtükdür. Onun vasitəsi ilə özünü atəşdən qoruyursan. Beləliklə, əgər orucu tərk etsən, Allah-taalanın sənə özünü Cəhənnəm atəşindən hifz etməkdən ötrü verdiyi pərdəni cırmırsan. Necə ki, hədisdə var: oruc Cəhənnəm atəşindən örtükdür.

Beləliklə, əgər əzaların və üzvlərin o pərdənin arxasında rahatlansalar, günahdan amanda qalmaq ümidin olsun. Əgər örtüyü tərk etsən, həyacanlı olarsan. Elə ki, hicab pərdələri götürüldü, nəzərin elə şeylərə düşər ki, ona baxmalı deyilsən. Özünü ondan saxlamaq qüvvəsini azaldarsan. Belə olan halətdə, heç də amanda olma ki, pərdə yırtılıb, ondan içəri düşməyəcəksən! Allahdan başqa heç bir güc və qüvvə gəlməz!"

Ərəbcədən "tərəf" sözü məsdər olub, cəm şəkli "ətraf"dır. "Gizlincə bir tərəfə baxdı" dedikdə, mənası budur ki, gözünün çox hissəsini yumub, bir guşəsi, qorxu və ya həya ilə baxır.

"Cunub" sözü ərəbcədən məsdər olub, "cəhət" və "nahiyə" mənasındadır. "Filan kəsin cəhətində oturdum" yəni, onun nahiyəsində qərar tutdum.

ORUCUN İMAM SADİQ (ə) NƏZƏRİYYƏSİNDƏ HİKMƏTİ

İmam Səccad (ə) bu ibadətin hikmətini ən çox nəfsin qorunması və özünü günahdan qorumaqda görür. Çünki, günah adətən dil, göz, qarın və cinsi meyillikdə azad olduqda baş verir. Həzrət, orucu bütün bu əzaları günahdan saxlayan pərdə və örtük bilir.

Quran, həmin böyük və mühüm hikməti oruc barəsində bəyan edir. "Bəqərə" surəsində oxuyuruq:

"Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə yazıldığı kimi, sizin üçün də yazıldı. Bəlkə (bunun vasitəsi ilə) siz pis əməllərdən çəkinəsiniz!"

Ayədəki, "kitabət" (yazılmış) sözü vacib olmaq mənasındadır. Möminlərin müxatəb qərar verilməsi isə onlarda hökmü qəbul etmək qüvvəsinin çox olmasına görədir. Quran da orucun əsas hikmətini təqva və özünü günahdan qorumaq kimi tanıtdırır.

"Səvm" sözü, ərəbcədən lüğətdə "özünü saxlamaq" mənasındadır. Əgər sakitliyə "səvm" deyilirsə və ya keçmişdə "sakitlik orucu" varmış-

O gələcək...

sa, ona görədir ki, bu halətdə insan söz danışmaqdan özünü saxlayır. "Məryəm" surəsində bu mənaya işarə olunur, buyurur:

"Əgər bir adam görcək olsan, işarə ilə belə de: Mən Allah yolunda sakitlik orucu tutmağı nəzir etmişəm və (nə qədər ki, orucam) bu gün heç kəslə danışmayacağam!"[1]

ORUC, İSLAMDAN ƏVVƏL

Keçmiş ayədə qeyd edilmişdi ki: **"Sizdən əvvəlkilərə vacib olduğu kimi sizə də oruc vacib olunmuşdur."** Məlum olur ki, bu "vaciblik" bir dəfə olub. Bu ibadətin çətinliyi təkcə müsəlmanlara yox, bəlkə də keçmişdəkilərə də aid olub. Ayədə, müsəlman ümmətinin orucunun keçmiş ümmətlərin orucuna bənzətməsi ədəd cəhətdəndir yaxud, başqa cəhətdən? Demək olar ki, təkcə bu ibadətin "vacibliyi" cəhətdən bənzətmişdir. Yəni, əvvəlkilərə vacib olduğu kimi sizlərə də müəyyən günlərdə vacib olur. Amma, bənzətmənin ədəd, zaman və vaxt cəhətdən də olması ehtimalı da vardır.

Tövratda oruc

Tövratda belə yazılıb: **"Mən, Allaha sizin aranızda olan əhd lövhələrini almaqdan ötrü dağa çıxdıqda, qırx gün, qırx gecə orada qaldım. Nə çörək yedim, nə də su içdim!"**[2]

İncildə oruc

İncildə oxuyuruq: **"İsa Ruhun əli ilə İblisin onu imtahan etməsindən ötrü biyabana aparıldığı zaman qırx gecə-gündüz oruc olduğuna görə ac qaldı."**[3]

Həzrət İsadan (ə) sonra həvarilərin orucu

"Beləliklə, ona dedilər: Niyə Yəhyanın şagirdləri çox oruc tutub, namaz qılırlar? Həmçinin, Fərisiyanların da şagirdləri o cür edirlər. Lakin, sənin şagirdlərin yeyib-içirlər? Bəlkə də, elə gün gələcək ki, onlardan bu fürsət alınar və o günlər oruc olarlar."[4]

[1] Məryəm surəsi, ayə 26.
[2] Tövrat, İkinci Sefr, 9-cu bab,
[3] İncil Məta, bab 4, 1-2.
[4] İncil Luka, bab 5, 33-35.

Yuxarıdakı cümlələr, İncil və Tövratın cümlələri kimi nəql olunmuşdur. Biz o qədər anlayırıq ki, onlar da oruc tuturlarmış. Hər iki kitabda qırx ədədi zikr olunub. Lakin, orucların hansı keyfiyyətdə olmağını bilmirik.

QURANDA ORUCUN VAXTI

Quran buyurur: **"Oruc tutmaq, sayı müəyyən olan (bir ay) günlərdir. Bu günlərdə sizdən xəstə və ya səfərdə olanlar oruc tutmadığı günlər qədər başqa günlərdə oruc tutmalıdırlar. Oruc tutmağa taqəti olmayanlar isə (hər günün əvəzində) bir yoxsulu doyduracaq qədər fidyə verməlidirlər. Hər kəs könüllü xeyir iş görərsə, (bir nəfərdən çox fəqiri doyurarsa) bu əməl onun üçün daha yaxşı olar. Bilsəniz oruc tutmaq sizin üçün nə qədər xeyirlidir![1]**

Ayədəki "mədudat" sözü, ərəbcədən "müəyyən və müşəxxəs" mənasındadır. Bu günlər barəsində iki nəzəriyyə var:

1. Məqsəd, Ramazan ayı deyil. Bəlkə də, hər ayın əvvəlində üç gündür və İbni Abbasın dediyinə görə "Aşura" günü də əlavə olunur. O vaxt bu üç günü oruc tutmağı bəziləri müstəhəbb, bəziləri isə vacib bilirlər.

2. İkinci nəzəriyyə budur ki, ayədə məqsəd Ramazan ayıdır. Təfsirçilərin əksəriyyəti bu nəzəriyyəni qəbul etmiş və demişlər: Allah-taala, qısa şəkildə orucu bir və ya iki gün bəyan etmişdir. Sonra buyurmuşdur: Müəyyən günlər. Daha sonra isə müəyyən günlərdən məqsədin Ramazan ayı olduğunu bildirmişdir. Bu nəzəriyyə, ən möhkəm və təfsirçilərin ittifaqa gəldikləridir. Həmçinin, ayədə heç bir ləğv hökmünə də ehtiyac duyulmur. Ayədən, xəstə və ya səfərdə olub, Ramazan ayında oruc tuta bilməyənlərin iftar etməmələrinin vacib olması da aydın başa düşülür. Allah-taala, Ramazan ayının qəza orucunu yalnız, səfərə çıxmaq və xəstə olduqdan sonra sağalmağın müqabilində qərar vermişdir. Əbdürrəhman ibn Ovfdan nəql olunur ki, İslam Peyğəmbərindən (s) nəql edir, buyurur:

"Səfərdə oruc tutan, vətənində iftar edən şəxs kimidir."[2]

Həmin mövzunu rəvayətçilər, İmam Sadiqdən (ə) nəql edirlər, buyurur: **"Ramazan ayında səfərdə olub oruc tutan, vətənində iftar etmiş şəxs kimidir." (Hər ikisi batildir.)[3]**

---

[1] Bəqərə surəsi, ayə 184.
[2] Məcməul-bəyan, cild 2, səh 274.
[3] Məcməul-bəyan, cild 2, səh 274.

O gələcək...

"Məcməul-bəyan" təfsirinin müəllifi bu ayənin şərhində belə yazır: "Ravi Əyyaşi, İmam Sadiqdən (ə) nəql edir ki, həzrət buyurur: İslam Peyğəmbəri (s) səfərdə olarkən nə müstəhəb və nə də vacib oruclardan tutardı. O vaxta kimi ki, "Kerail-ğənim" adlı yerdə zöhr namazı vaxtı bu ayə nazil olur. Peyğəmbər (s) bir qab su istədi və ondan içdi. Cəmiyyətə də ərz etdi ki, su içsinlər. Bir dəstə dedilər: Günün batmağına bir şey qalmayıb, əgər orucu tamamlasaydıq yaxşı olardı.

İslam Peyğəmbəri (s) onları "günahkarlar" adlandırır və Peyğəmbərin (s) vəfatına qədər onları bu adla çağırırdılar."

"RAMAZAN" SÖZÜ LÜĞƏTDƏ

"Ramazan" sözü ərəbcədən əslində, "rəmz" kökündən olub. "günəşin şiddətli şüa vurması"na deyilir. Bu münasibətlə, bu ayın "Ramazan" adlandırılması o ayda şiddətli isti olması ilə bağlıdır.

Başqa nəzəriyyə də budur ki, "Ramazan" sözü Allahın mübarək adlarından biridir. Ona görə də hədisdə gəlib ki, Ramazan deməyin, bəlkə də, mübarək Ramazan ayı deyin.

Üçüncü nəzəriyyə budur ki, bu ayda günahların yandığına görə ona, Ramazan adı verilmişdir.[1]

ORUC VƏ SƏBR

Qurani-Kərimdə orucdan, "səbr" kimi mənalandırılmışdır. İmam Sadiqdən (ə), Allahın Quranda buyurduğu: **"Səbr və namazdan kömək alın"** ayəsinin şərhində buyurur: Ayədəki "səbr" sözü, oruc mənasındadır. Həmçinin, buyurur: Hər vaxt bir nəfərə ciddi bir hadisə baş versə, oruc tutsun. Allah-taala buyurur: **Səbrlə, yəni, orucla kömək alın!"**[2]

Mərhum Əllamə Məclisi "Miratul-uqul" kitabında belə yazır: Səbrin əsli həbsdir. Oruca o cəhətdən "səbr" deyilir ki, insanı yemək-içmək və evlənməyin ləzzətlərindən çəkindirib saxlayır.[3]

[1] Təfsiri Məcməul-bəyan, cild 2, səh 275.
[2] Miratul-uqul, cild 16, səh 201.
[3] Miratul-uqul, cild 16, səh 201.

O gələcək...

RƏVAYƏTLƏRDƏ ORUCUN FƏZİLƏT VƏ TƏSİRLƏRİ

Hədis və rəvayət kitablarını mütaliə etməklə, orucun əhəmiyyətini daha çox anlayırıq. İndi də bu rəvayətlərdən bir qisminə işarə edək.

Birinci rəvayət

Zürarə adlı ravi, İmam Baqirdən (ə) nəql edir ki, buyurur:

"İslam dininin kökləri beş əsas üzərində qurulmuşdur: Namaz, zəkat, həcc, oruc və vilayət."[1]

Əllamə Məclisi "Miratul-uqul" kitabında bu hədisi "qəbul olunmuş" adlandırır və İslam dininin bu beş əsası barəsində yazır: Bəlkə də bunlar tamamlayıcı və təkmil edicidirlər. Çünki, bunlarsız İslamın əsasları titrəyir. Yaxud bu beş əsasa iman gətirmək imandandır. Yaxud imandan məqsəd, İslamdır. Ya da ehtimal var ki, vilayətdən məqsəd, İmamətdən əlavə olan artıq məhəbbətdir.

İkinci rəvayət

İmam Sadiqdən (ə) nəql olunur ki, ata-babalarından nəql edir ki, İslam Peyğəmbəri (s) əshabına buyurur: **"İstəyirsiniz sizə elə bir şey öyrədim ki, Şeytan sizdən uzaqlaşsın? Məşriqin məğribindən uzaqlaşdığı kimi olsun? Ərz etdilər: Ey Allahın Rəsulu! Bəli!**

Həzrət buyurur: Ramazan ayının orucu Şeytanın üzünü qaraldır. Sədəqə vermək belini sındırır. Allah yolunda dost olmaq xeyir işlərə kömək və Şeytanın nəslini kəsir. Tövbə edib günahların bağışlanmasını tələb etmək, qəlbini paralayır. Hər şeydən ötrü zəkat var, bədənin zəkatı oruc tutmaqdır."[2]

Mərhum Əllamə Məclisi bu hədisi möhkəm etibarlı hədislərdən sayır.

Üçüncü rəvayət

İmam Sadiqdən (ə) nəql olunur: **"Allah-taala, Musaya (ə) vəhy edir ki: Mənimlə münacat etməyinə, sənə nə mane olur? Ərz edir: Oruc olduğuma görə ağzımın iyi mane olur.**

Ona vəhy olunur: Ey Musa! Mən, oruc tutanın ağzının iyini müşkənbər iyindən xoş bilirəm."[3]

---

[1] Miratul-uqul, cild 16, səh 197.
[2] Miratul-uqul, cild 16, səh 198.
[3] Miratu-uqul, cild 16, səh 203.

O gələcək...

Əllamə Məclisi buyurur: Ərəbcədən "xulvuf", ağız iyinə deyilir. Yenə yazır: Heç kəs iddia etməsin ki, Allah-taalaya, iy hissini nisbət vermək olmaz. Oruc tutanın ağız iyini, Allah qəbul edir. Yaxud, bu söz fərz olunarsa, qəbuldur. Yəni, Allah yanında ətir təsəvvür olunarsa, oruc tutanın ağız iyi ətyəb (ən pak və ətirli) hesab olunur.

Dördüncü hədis

İslam Peyğəmbəri (s) buyurur: **"Oruc, insanı Cəhənnəm atəşindən qoruyan qalxandır."**[1]

ORUC VƏ GÜNAHLARIN BAĞIŞLANMASI

İmam Baqirdən (ə) nəql olunur ki, İslam Peyğəmbəri (s) Cabir ibn Abdullaha buyurur:

«Bu ay Ramazan ayıdır. Hər kim bu ayın gündüzlərini oruc tutsa, gecələrini ibadətlə məşğul olsa, qarnını haram buyurulmuşlardan hifz edib, abır-həyasını qorusa və dilini saxlasa, Ramazan ayı çıxdıqda günahları tökülər.»[2]

Cabir ərz edir: Ey Allahın Rəsulu! Bu söz nə qədər gözəldir!

İslam Peyğəmbəri (s) buyurur: Ey Cabir! Onun şərtləri nə qədər çətin və ağırdır!

Bu hədisdə, İmam Səccadın (ə) oruc haqqında dediyi təsirlərə işarə olunur. Dili, qarnı və abır-həyanı qorumaq, günahların bağışlanmasına səbəb olur. Digər bir hədisdə İslam Peyğəmbəri (s) buyurur:

«Oruc tutan həmişə ibadətdədir. Hətta, yatmış olsa da, bu şərtlə ki, qeybət etməsin!»[3]

ORUC VƏ FƏQİRLƏ DÖVLƏTLİ ARASINDA BƏRABƏRLİK

İmam Sadiqdən (ə) nəql olunur, buyurur:

"Allah-taala, fəqir və dövlətlinin bərabər olmalarından ötrü orucu vacib etmişdir. Çünki, əgər oruc olmasa, dövlətlinin acdan xəbəri olmaz və bununla da fəqirə təam vermək üçün məsuliyyət hiss etməz.

[1] Mühəccətül-beyza, cild 2, səh 123.
[2] Biharul-ənvar, cild 96, səh 371.
[3] Mühəccətül-beyza, cild 2, səh 123.

O gələcək...

Dövlətli istədiyi şeyi ala bilər. Ona görə də Allah-taala, aclıq və fəqirlərin əziyyətlərini dövlətlilərə göstərib, onları fəqirlərlə bərabər etməkdən ötrü orucu iradə etmişdir".[1]

Bu hədisdən aydın olur ki, Ramazan ayındakı orucun vacib olmasının hikmətlərindən biri təbəqələr arasındakı fasiləni azaldıb, binəvalarla fəqirləri tanıtdırır. Sərvət məsələsi həmişə cəmiyyəti iki qütbə, fəqirlik və dövlətliliyə tərəf çəkir. Adətən dövlətli və hər cür rifahdan bəhrələnənlər fəqir təbəqəsində olanların ah-naləsini və narahatçılıqlarını anlaya bilməz, onların əhvalından xəbər tutmazlar. Lakin, oruc tutmaqla, ac olur və susuzluq ona qalib gəlir, insani hissiyyatlar hərəkətə gəlir və aclığın əlacı barəsində fikirləşir. Maraqlısı budur ki, heç bir sərvətliyə şəriət icazə vermir ki, orucunu fəqirə versin ki, onun yerinə oruc tutsun. Əlbəttə, orucun heç bir hikmətini də bilməsək, bu hikmət onun üçün kifayət edir.

NƏHCÜL-BƏLAĞƏDƏ HƏZRƏT ƏLİNİN (ə) NƏZƏRİNDƏ ORUC

"Nəhcül-bəlağə"də Əlidən (ə) oruc barəsində müxtəlif ifadələr var. Onlardan bəzilərinə işarə edirik.

Bir yerdə belə buyurur: **Bədənin zəkatı orucdur."**

Bildiyimiz kimi zəkat, həm inkişaf mənasında, həm də pakizəlik mənasındadır. Bu cümlədə Həzrət, orucun hikmətlərindən birini bədənin sağlamlığı bilir.

Başqa yerdə buyurur: **"Ramazan ayının orucu, İlahi əzabın müqabilində qalxan və örtükdür."**[2]

Başqa cümlədə, mömin qardaşlar barəsində bəyanları var ki, bəziləri aşağıdakılardan ibarətdir:

"Onlar o kimsələrdir ki, qarınları oruc tutmaqdan arıqlamış, dodaqları dua etməkdən solmuş, rəngləri yuxusuzluqdan saralmış və çöhrələrinə təvazökarlıq qubarı oturmuşdur. Onlar mənim getmiş qardaşlarımdırlar."[3]

Yenə də ayrı bir hikmətli cümləsində buyurur: **"Oruc, bəndələrin ixlasını yoxlamaqdan ötrüdür."**[4]

[1] Mühəccətül-beyza, cild 2, səh 124.
[2] Nəhcül-bəlağə, Sübh-Saleh, xütbə 110.
[3] Nəhcül-bəlağə, Feyzul-İslam, 120-ci xütbə.
[4] Nəhcül-bəlağə, Sübh-Saleh, 252-ci hikmət.

O gələcək...

Əli (ə) fitr bayramı günlərində belə buyurur: **"Orucu qəbul olan və günah olunmamış gün, bayramdır."**

Daha başqa bir bəyanda gəlib: "**Sizə və bütün övladlarıma tövsiyə edirəm: İki nəfər küsülü mömini islah edib, barışdıranlardan olun! Bu işin savabı bütün oruclardan və namazlardan çoxdur."**[1]

BƏHRƏLƏNMƏYƏN ORUC TUTANLAR

"Nə çox oruc tutanlar ki, aclıq və susuzluqdan başqa bir bəhrə aparmayıblar. Nə çox gecə ibadət edənlər ki, özlərinə əziyyət verməkdən başqa bəhrələri olmayıb. Orucun və iftarın hikmətini bilərək yatmaq, necə də gözəldir!"[2]

İmam Əli (ə) məşhur "Qasiə" xütbəsində, Şeytanın hiyləsinə giriftar olmağın aqibətindən söz açır və insana nicat verən amillərə işarə edərək buyurur: **"Allah-taala, mömin bəndələrinə namaz, zəkat, cihad və vacib günlərdə oruc tutmağı tövsiyə edir. Çünki, bu amillər əlin və ayağın günahdan çəkinməsinə səbəb olur. Həmçinin, gözün təvazökar və tüğyan edici nəfsin sakitləşməsinə səbəb olur. Təkəbbürçülükdən çəkinin. Alının torpaq üstünə qoyub səcdə edilməsi və əzaların yerə qoyulması, insanın Allah dərgahında kiçik və təvazökar olmasına səbəb olur. Qarınlar, orucun səbəbindən arxaya yapışır."**

Bütün bunlar, Əmirəl-möminin Əlinin (ə) "Nəhcül-bəlağə"də oruc barəsində buyurduqlarındandır. Həzrət, orucun mənfi və müsbət təsirlərinə diqqət edib. Müsbət təsirlərdən: Bədənin zəkatı, atəşdən örtük, imtahan, ixlas və günahların tökülməsidir.

Mənfi təsirlərdən: Orucdan bəziləri yalnız, aclıq kimi bəhrələnirlər. (Əlbəttə öz günahlarına əsasən).

Nəql edirlər: Bir nəfər ərəb, dəvə ilə yol gedirmiş. Yol arasında bir nəfər namaz qılana rast gəlir. Onun qiyam, ruku, səcdə və s. əməlləri onu aldadır. Dəvəsindən düşüb, qəlbindəki səfa ilə onun yanında oturub, ona deyir: Bəh-bəh! Nə gözəl namaz qıldın! Nə yaxşı namaz qılansan! Cavab verdi! Xəbərin yoxdur. Oruc da tutmuşam. Özünü abidliyə vurmuş şəxsin namaz və orucu dəvəyə minmiş şəxsin qəlbini daha da arxayınlaşdırır və dəvəsini onun yanında əmanət kimi qoyub, işinin dalınca gedir. Qayıdarkən, nə dəvədən və nə də kişidən xəbər var idi. Ərəb çox təəccüblə qalıb barmağını dişləyir və ixtiyarsız deyir:

[1] Nəhcül-bəlağə, 47-ci vəsiyyət.
[2] Nəhcül-bəlağə, 137-ci hikmət.

"Namazı ilə qəlbini aldı. Orucu ilə iradəmə hakim oldu. Heç vaxt dəvəni oruc tutan və namaz qılana vermə!"[1]

Bura kimi "Nəhcül-bəlağə"də Həzrəti Əlinin (ə) dilindən orucun müsbət və mənfi təsirlərinə işarə etdik. Yaxşı olardı ki, indi də məşhur alim, fəqih, Şeyx Məhəmmədin "Cəvahir" kitabının dilindən orucun müsbət təsirlərinə işarə edək. Allah buyurur:

"Oruc Məndən ötrüdür və mükafatını da Mən verəcəyəm!" Müəllif bu mövzuda buyurur: Orucun Allaha məxsus olmasının dəlili budur ki, məxfi ibadətdir. Allahdan başqa heç kəsin ondan xəbəri olmur. Amma, başqa ibadətlər, məsələn, namaz, insanların gözü önündə olur. Oruca görə bədən qüvvəsi zəifləyib, ağıl və onun qoşunu güclənir. Orucun vasitəsi ilə İlahi feyzə nail olub, kamala yetişərsən.[2]

ĞƏZZALİNİN NƏZƏRİNƏ GÖRƏ ORUCUN TƏSİRLƏRİ

Əbu Hamid yazır: Oruc, Allahdan ötrü olub, xüsusi şərafətə malikdir. Doğrudur ki, bütün ibadətlərdə bu xüsusiyyət vardır, lakin, orucda iki xüsusi cəhət var:

1. Oruc, "özünü gözləmək" və "tərk etmək"dir. Bu elə bir sirrdir ki, başqaları onu müşahidə edə bilmir. Lakin, başqa ibadətlər insanların gözləri önündə olur. Orucu, Allahdan başqa heç kəs hiss etmir. Ona görə ki, batində və səbrlə olan bir əməldir. Bu da özünü günahlardan qorumaq hesab olunur.

2. Oruc, bəzi şeyləri tərk etməklə, Allahın düşməni sayılan şeytana ən böyük zərbədir. Çünki, Şeytanın vəsiləsi şəhvətdir. Şəhvət də yemək-içməklə möhkəmlənir. Həmin səbəbə görə İslam Peyğəmbəri (s) buyurur:

"Şeytan, insan bədənində olan qan dövranı kimi hərəkətdədir. Şeytanın mənzilini aclıqla bağlayın."[3]

Orucda aclıq, Şeytanı sındırandır, onun qarşısına möhkəm sədd çəkir. Hər kim Şeytanı sındırsa, Allaha kömək etmiş olur. Allaha kömək etmək isə Onun tərəfindən insanın özünə fürsət verilməsi deməkdir. Allah-taala buyurur:

---

[1] Sərmayeyi süxən, cild 1, səh 14.
[2] Cəvahirul-kəlam, cild 16, səh 182.
[3] Kimyayi-Səadət, cild 1, səh 207.

O gələcək...

"Ey iman gətirənlər! Əgər siz Allaha (Allahın dininə və Peyğəmbərinə) yardım göstərsəniz, O da sizə yardım göstərər və sizi sabitqədəm edər!"[1]

Çalışmaq və zəhmətin ibtidası, bəndənin öz tərəfindən, onun mükafatı isə Allah tərəfindədir. Quranda buyurur: **"Bizim uğrumuzda cihad edənləri Öz yollarımıza qovuşduracağıq. Şübhəsiz ki, Allah yaxşı əməl edənlərlədir."**[2]

Yenə də Allah taala buyurur:

"Həqiqətən, hər hansı bir tayfa öz taleyini dəyişməyincə, Allah da onların taleyini dəyişməz."[3]

Həqiqətən, dəyişiklik, şəhvətin sındırılmasıdır. Şəhvət, Şeytanın otlağıdır. Otlaq nə qədər təzə olsa, Şeytan ordan qaçmaz. Nə qədər ki, Şeytan insanın vücudunda var-gəl edir, Allahın cəlalı insana görünməz. Ona görə də, Allahın Rəsulu (s) buyurur:

"Əgər Şeytanlar, Adəm övladlarının qəlblərinə var-gəl etməsəydilər, insanlar göylərin mələklərini görərdilər."

ORUC VƏ İNSANIN SAĞLAMLIĞI

Orucun hikmətlərindən biri də insanın bədəninin sağlamlığıdır. Orucun, insanın bədəninin sağlamlığına olan təsirlərini şərh etməzdən əvvəl, xəstəliklərin hansı yollarla insanın bədəninə daxil olub, onu yoluxdurduğuna diqqət edək! Əvvəlcə, din övliyalarının bu barədəki nəzəriyyələrinə baxaq:

1. İslam Peyğəmbəri (s) buyurur:

"İnsanın mədəsi, hər bir dərdin mənzili, pəhrizkarlıq isə hər bir dərmanın sərçeşməsidir."[4]

2. İmam Kazım (ə) buyurur: **"Pəhriz dərdə dərman, mədə isə dərdlərin mənzilidir."**[5]

Yenə həmin Həzrətdən nəql olunur, buyurur: **"Hər bir dərman, insanda həyacan və başqa bir xəstəliyin meydana gəlməsinə səbəb olur. Bədəndən ötrü yeməklərdən pərhizlə istifadə etməkdən faydalı şey yoxdur."**[6]

---

[1] Məhəmməd surəsi, ayə 7.
[2] Ənkəbut surəsi, ayə 69.
[3] Rəd surəsi, ayə 11.
[4] Səfinətul-bihar, cild 2, səh 78.
[5] Səfinətul-bihar, cild 2, səh 79.
[6] Səfinətul-bihar, cild 2, səh 78.

O gələcək...

3. İslam Peyğəmbəri (s) buyurur: **"Oruc tutun ki, sağlam olasınız!"**

Bu rəvayətlərdə, İslam Peyğəmbəri (s) və İmam Kazim (ə) öz elmlərini vəhydən olmaqla, həm sağlamlıq, həm də tənbəllik yollarını göstərir, bütün xəstəliklərin mədədən başlanmasına işarə edirlər.

4. Ravi Əsbəğ ibni Nubatə nəql edir: Həzrəti əmirəl-möminin Əli (ə) oğlu İmam Həsənə (ə) buyurur: **"Oğlum! Sənə dörd kəlmə göstəriş öyrədim ki, əgər riayət etsən, bütünlüklə həkimlərdən ehtiyacsız olarsan? Ərz etdi: Bəli! Həzrət buyurdu: Acmayınca süfrə başında oturma! Süfrədən, yeməyə iştahan olan halda qalx! Yeməyi yaxşı çeynə! Yatmazdan əvvəl ayaqyoluna get! Əgər belə etsən, təbibdən ehtiyacsızsan!"**[1]

Bu rəvayətdə görürük ki, yenə də yemək, mədə, çox yemək, pəhriz və yaxşı çeynəməkdən söz gedir. Yəni, bütün xəstəliklərin mənbəyi, mədə və yeməkdəndir. İndi də mədənin ixrac və idxalından söz açaq.

Bədənin ixracında nəzm və idxalında nizamsızlıq

İxracedici orqanizmdən sayılan böyrək, cigər, bağırsaq və dərinin hamısı nizamlıdırlar. Böyrəklər, hətta, insanın gecə yuxuya ehtiyacı olduğuna görə bövl etməkdən ötrü çox da fəaliyyətdə olmurlar. Ona görə də gecənin qaranlığı və yuxunun ağırlığına münasib olaraq, az maddə ixrac edir və bununla da az bövl əmələ gəlir. Dəri və damarlar da bunun kimidirlər. Lakin, bədənin idxalı o qədər nəzmsizdir ki, bəzən insan pakizə, halal və təmiz yeməklərin əvəzinə, öz əlləri ilə toz-torpaq, tüstü və spirtli içkiləri öz bədəninə tökür. Nəhayət, insanın müqavimət qüvvəsi aradan gedib acınacaqlı vəziyyətə düşür.

Bədən, yeyib-içilənlərin daxil olduğu ehtiyat mənbəyidir. İnsanın bəzi bədən üzvləri həmişə zərərverici ünsürləri bədəndən xaric etmək üçün çalışdıqlarına görə, onlara bu işi görməyə fürsət vermək lazımdır. Bu fürsət və yaxşı fəaliyyət isə yalnız, qida maddələrinin keyfiyyətini və kəmiyyətini nizamlayıb, bədənə pərhizlə verilməsi ilə əmələ gəlir.[2]

VƏZİLƏR

1. Maddələr ixrac edən vəzilərin bağlılığının az və ya çox olması, bədəndə çatışmamazlığa səbəb olur.

2. Hipofiz. O vəzilərdəndir ki, bədənə yaxından bağlı olub, vəzilərin ən mühümü, xüsusilə yuxarı böyrək vəzilərinin əsası sayılır.

[1] Səfinətul-bihar, cild 2, səh 79.

[2] Əvvəlin daneşgah və axirin Peyğəmbər, cild 3, səh 37-38.

O gələcək...

3. Böyrəklərin yuxarı hissəsindən müəyyən maddələrin ifraz olunması bütün bədən hüceyrələri üçün çox əhəmiyyətlidir. Həddən artıq və ya keyfiyyətsiz yemək onların fəaliyyətinə mənfi təsir göstərir.

4. Sübut olunub ki, mədəaltı vəzi ilə böyrəyin yuxarı vəziləri insanın ömrünün uzun olmasında mühüm rol oynayır.

5. Eyni zamanda sübuta yetib ki, böyrəküstü vəzilərə mədəaltı vəzilərin yaxından bağlılığı vardır.

6. Həqiqətən yaş həddi artdıqca mədəaltı vəzinin ifraz etdiyi maddələr azalır, lakin, böyrəyin yuxarı vəziləri elə hormonlar ixrac edir ki, yaş həddi onun fəaliyyətinə təsir etmir.

7. Son vaxtlar bilogiya mütəxəssisi Vladimir Nikitin səhra siçanlarının üzərində illərlə təcrübə apardıqdan sonra sübuta etmişdir ki, siçanları xüsusi metodla ac saxlamaqla, onların iki il yarımlıq ömrünü, dörd il yarıma çatdırmaq olur. Adı çəkilən professor əmindir ki, əgər böyrəyin yuxarı vəziləri bir müddət aclıq çəksə, məcbur olacaq ki, bədənin fəaliyyətinə mane olan hormonlardan istifadə etsin. Bu cəhətdən, əgər il arasında müxtəlif çatışmamazlıqlar, pis qidalanma və s. baş verərsə, oruc tutmaqla onların fəaliyyət sistemini uzun müddət tənzim etmək olar.[1]

Metabolizmə nəzər

Çoxları təsəvvür edir ki, yediyimiz qidaların hamısı bədəndə əriyib enerjiyə çevrilir və sonradan dəf olunur. Lakin, bu çox səhv bir təsəvvürdür. Bədənin xüsusi bir hovuz olub, qidanı bir tərəfdən alıb, başqa tərəfdən xaric etməsi kimi təsəvvür olunması yanlışdır. Məsələn, "şirni maddələrin" bir tərəfdən bədənə daxil olub, başqa tərəfdən dəf olunması prosesinə "metabulizim nahiyəsi" deyilir.

Bədənə daxil olan hər şey təzədir. Təzə də olmalıdır. Bədəndən çıxan hər şey köhnə olub, çoxdan qalmadır. Köhnədən qalanlar xaric olmalıdırlar. Necə ki, dünya da belədir, uşaqlar gəlirlər, böyüklər və qocalar gedirlər. Bu gün bədənə daxil olan oksigen altı ay sonra xaric olur. Həmçinin, bədənə daxil olan bu günkü kalsium 180 gündən sonra sərf olunur. Əgər qidada azot olsa, bir neçə həftədən sonra onu bövldə görürük. Beləliklə, heç də fikirləşməli deyilik ki, bütün köhnələr tezliklə yerini təzələrə verir. Bəlkə də, bu hədəfə çatmaq üçün çoxlu sayda günlərə ehtiyac var.

Doktor Jan Frumuzan yazır: Kişidə 30% və qadında 20% cəm olan ciyər qlikogeni və qan proteini ondan ötrü bir ay kifayət edər.

[1] Əvvəlin daneşgah və axirin Peyğəmbər, cild 3, səh 40-41.

O gələcək...

Doktor Aliksis Karl özünün "İnsan, tanınmamış mövcud" kitabında oruc haqqında yazır: Oruc tutmaqla ciyərdəki şəkər tökülür və dərinin altında yığılmış piylər, əzələ proteinləri və ciyər hüceyrələri, vəzilərdən azad olub, qida kimi bədənə sərf olunur. Bütün bu nəzəriyyələrdən nəticə almaq olar ki, insan bir ay müddətindəki orucda təzə təmir olunmuş bədənə malik olub, zəhərli və köhnə maddələrin əsarətindən xilas olur.

Oruc mədə yarasına səbəb olurmu?

Səhv təbliğin nəticəsində, bəzilərinin zehnində yaranan fikirlərdən biri budur ki, oruc tutmaq mədə yarasına səbəb olur. Bu sualın cavabında demək lazımdır ki: Əgər oruc tutmaq mədə yarasına səbəb olursa, belə bir sual qarşıya çıxır ki, nəyə görə oruc tutmayan millətlər arasında statistikaya əsasən, müsəlmanlardan dəfələrlə çox mədə yarası qeydə alınıb? Bəli! Əgər mədə yarası yalnız, müsəlmanlar arasında yayılmış olsaydı və başqa millətlərdə müşahidə olunmasaydı, demək olardı ki, bu xəstəliyin müsəlmanlar arasında yayılması, onların oruc tutmalarının üzündən olardı. Halbuki, belə deyil. Qərb millətləri arasında mədə yarasının sayı getdikcə artmaq üzrədir.

İkincisi, əgər oruc tutmaq, mədə yarasına səbəb olardısa, onda 14 əsr müddətində təkrar oruc tutan müsəlmanların nəsillərində bu xəstəlik bir irs kimi qoyulardı. Halbuki, belə deyildir.[1]

Mədə yarasının amilləri və səbəbləri

1996-cı ildə Yaponiyanın Tokio şəhərində təşkil olunan "Dünya Mədə yaraları" konfransında, mədə yaralarının yaranmasının səbəbləri araşdırılmışdır. Hər bir ölkədən iştirak edən nümayəndələr, ölkələrindəki mədə yaralarının səbəblərini tibbi cəhətdən araşdırıb, səbəblərini konfrans iştirakçılarının ixtiyarına qoymuşdular. Bu məlumatda, mədə yarasının amillərindən ən çox siqaret məmulatları, həddən artıq isti qidanın yeyilməsi, həddən artıq su içmək, sinir sistemlərini oynadan maddələrə adət etmək (qəhvə, dərman), duzlu və turş yeməklərdə ifrat-təfritə yol vermək, spirtli içkilərin istifadəsi və s. işlər mədə yarasının əsas səbəbləri kimi qeyd olunmuşdur.

Konfransda Türkiyə nümayəndəsi, Ramazan ayından sonra konfransa məlumat verir ki, oruc bu işi tezləşdirir. Bu mənada ki,

[1] Orucun bu günkü elm cəhətdən əhəmiyyəti, səh 224.

oruc tutmaq mədə yarasının səbəbi deyildir. Lakin, mədə yara olduqdan sonra oruc tutmaq, yaranın artmasına təkan verir.

Bu da o haldadır ki, İslam dinində xəstələrin, yaxud, hər kəs bilsə ki, oruc tutmaq onun xəstələnməsinə səbəb olacaq, oruc tutmalarına icazə verilmir. Onun orucu sağaldıqdan sonra vacib olur.

ALEKSEY SAFRİNİN "TİBBİ ORUC" NƏZƏRİYYƏSİ

Müxtəlif yeməklərin nəticəsində bir miqdar yemək mədədən keçir və bədən hüceyrələrinə qarışıb sərf olunmur. Bəlkə də dərinin altında, ürəyin ətrafında və bədənin başqa həssas yerlərində yığılıb qalır. Həmin maddələr, bir müddət sonra infeksiya yaradır və müxtəlif xəstəliklərin əmələ gəlməsinə səbəb olur. İnfeksiya və artıq qida məddələri bədəndə nə qədər çox olsa, xəstəlik bir o qədər ciddi olar. Təbii ki, belə xəstəliklərin də təzə adları olur. Lakin, bütün bu xəstəliklərin mənbəyi artıq çirkli protenilər və qida maddələri sayəsində yaranan mikrob və viruslardır. Belə xəstəliklərin müalicəsi və mikrobları aradan aparmaqdan ötrü zibilləri bədəndən çölə atmaq lazımdır. Bu da, o halda mümkündür ki, bədənə qida yetişməsin. Bədənə təkcə, su çatmış olsun. Bu halda, bədən öz-özünə artıq qida məddələrini və infeksiyaları yığıldığı yerdən çıxarıb sərf edəcəkdir. Belə olan halda xəstəliyin kökü kəsilər və bədənin xəstəlikdən sağalma əlamətləri görünər. Bu yolla müalicənin üstünlüyü budur ki, bütün xəstəliklərin hamısını birdən müalicə edir.[1]

Bura qədər həkimlərin nəzəriyyəsinə əsasən, xəstəliklərin sağalması və bədənin öz sağlamlığını saxlamasının əsas yollarından birinin, pərhiz və oruc tutulmasında olmasını öyrəndik. Bəlkə də, bütün bu yollarla müqayisədə, oruc tutmaq ən yaxşı yoldur. Bəli! İnsanları yaradan ulu Tanrı, ibadət və bəndəlik ruhiyyəsi yaratmaqla yanaşı, öz bədəninin sağlamlığını da qorumağı insanlara vacib etmişdir. Əvvəlcədən qeyd etdik, İmam Səccad (ə) orucun hikmətlərindən əsasən bədən üzvlərinin təmiz saxlanması və onların Allah yolunda istifadə olunmasına kömək etməsidir. Bəhsin sonunda orucun batini sirlərinə işarə edəcəyik.

[1] Oruc, xəstəliklərin müalicəsində təzə yol, səh 12.

ORUCUN SİRLƏRİ VƏ BATİNİ ŞƏRAİTİ

İrfan alimləri orucun üç dərəcəsini qeyd ediblər. Ümumi oruc, xüsusi oruc, məxsus oruc. "Ümumi oruc", yəni qarnı yemək-içməkdən, övrəti, şəhvətdən və cinsi meyllərdən hifz etmək.

Amma "məxsus oruc", yəni bunlardan əlavə, qulağı, gözü, dili, əl və ayaqları və s. əzaları günahdan saxlamaq. Orucun bu mərtəbəsinə İmam Sadiq (ə) belə işarə edərək, buyurur:

"Oruc tutarkən qulağın, gözün, tükün, dərin və başqa əzaların da oruc olsun. Oruc tutduğun gününlə, oruc tutmayıb tox olduğun gün eyni olmasın."

Başqa bir xəbərlə buyurur: **"Oruc tutarkən, riya, mübahisə və xidmətçilərə əziyyəti tərk et. Vüqarla oruc tut!"**

İslam Peyğəmbəri (s) eşidir ki, bir nəfər oruc qadın, öz kənizinə söyüş verib. Həzrət ona yemək gətirib buyurur: **"Ye!** Qadın ərz edir: **Orucam.** Həzrət buyurur: **Necə orucsan ki, öz kənizinə söyüş verirsən? Oruc təkcə yemək-içməkdən çəkinmək deyil!"**[1]

Amma "ən məxsus oruc" odur ki, qəlbin dünyanın pis fikirlərindən oruc olub, əməldə Allahdan başqa heç bir şey fikirləşməyəsən. Belə orucun açılmasının səbəbi yemək-içməkdən istifadə deyil, bəlkə də, Allahdan başqa şey barəsindəki təfəkkür və dünyəvi fikirlərə uymaqdır. Hətta, bəzi irfan qəlblilər deyirlər: Hər kim oruc vaxtı fikrini nə ilə iftar edəcəyinə cəmləşdirsə, ondan ötrü xəta yazılar. Bu iş Allahın fəzlinə və ruzi verməsinə, imanın zəif olmasının təsirindəndir.

Orucun bu üçüncü mərtəbəsi, peyğəmbərlərin və ən sadiq şəxslərin mərtəbəsindəndir. O kəslər ki, Rəbbinin rəhmət qapılarına ən yaxındırlar. Allah-taala, İslam Peyğəmbərinə (s) buyurur:

"De ki, Allah! Ondan başqasını kənara qoy!"[2]

Həmin mənada İmam Sadiqin (ə) sözlərinə işarə olunur. Nəql olunur ki, buyurur: **"Oruc, dünya bəlalarından və Axirət əzabından qalxan və örtükdür."**[3]

---

[1] Mühəccətül-beyza, cild 2, səh 131.
[2] Ənam surəsi, ayə 91.
[3] Mühəccətül-beyza, cild 2, səh 131.

O gələcək...

12. HƏCCİN HAQQI

وَأَمَّا حَقُّ الحَجّ أَنْ تَعْلَمَ أَنّه وِفادةٌ إلى رَبّكَ، و فِرارٌ إليه من ذُنوبكَ وفيهِ قبولُ تَوبتِك وقَضاءُ الفَرضِ الّذي أَوجَبَه اللهُ عَليك.

"Həccin haqqı odur ki, biləsən, həcc Allaha tərəf seyrdir. Günahlarından qaçıb Ona sarı gedirsən. Həcc vasitəsilə tövbən qəbul olur və Allahın sənə vacib etdiyi "vacib" əməli yerinə yetirərsən!"[1]

"Həcc" kəlməsi ərəbcədən əslində, "qəsd" mənasındadır. Ona görə də yola "məhəccə" deyilir. Çünki, insanı öz qəsdinə yetirir. Dəlilə və sənədə də "höccət" deyirlər. Çünki, mübahisədə "məqsədi" aydınlaşdırır. Lakin, İslamda, bu mərasimdə iştirak etmək üçün hərəkət edərkən "Allahın evini ziyarət etməyi" qəsdi olduğu üçün bu xüsusi mərasimə "həcc" deyilir.

KƏBƏ, İLK EV

Qurani Kərim, "Ali-İmran" surəsində buyurur: **"Həqiqətən, insanlar üçün ilk bina olunan ev (məbəd) Məkkədəki evdir ki, şübhəsiz bütün aləmlərdən ötrü bərəkət və doğru yol qaynağıdır. Orada aydın nişanələr-İbrahimin məqamı vardır. Ora daxil olan şəxs əmin-amanlıqdadır. Onun yoluna gücü çatan hər bir kəsin həccə gedib o evi ziyarət etməsi insanların Allah qarşısında borcudur. Kim bunu (bu borcu) inkar edərsə, (özünə zülm etmiş olar). Əlbəttə, Allah aləmlərə (heç kəsə) möhtac deyildir!"[2]**

Bu ev, ilk tövhid evi olub, yer üzündə ilk qurulmuş ibadət evidir. Ondan əvvəl heç bir mərkəzdə cəm şəklində Allaha pərəstiş olunmamışdır. İslam tarixi mənbələrindən məlum olur ki, Kəbə evi ilk dəfə Adəm (ə) tərəfindən tikilmişdir. Sonra Nuhun (ə) tufanında zədələnir və İbrahim (ə) tərəfindən yenidən qurulur. İbrahimin (ə), bu müqəddəs evi yenidən qurmasınının dəlili, Quranda İbrahimin (ə) dilindən deyilən bu sözlərdir. Buyurur:

"Ey Rəbbimiz! Mən əhli-əyalımdan bəzisini Sənin Beytül-həramının yanında, əkin bitməz bir vadidə sakin etdim."[3]

Bu ayə şəhadət verir ki, İbrahim (ə), körpə uşağı və Hacərlə bu yerə daxil olarkən, Kəbədən burada yalnız əsər-əlamət varmış. Həmçinin, "Bəqərə" surəsinin 127-ci ayəsində oxuyuruq, buyurur:

---

[1] Məkarimul-əxlaq, səh 419.
[2] Ali İmran surəsi, ayə 96-97.
[3] İbrahim surəsi, ayə 37.

O gələcək...

"Onu da yadına sal ki, İbrahim və İsmail Kəbənin bünövrəsini ucaltdıqları zaman: Ey Rəbbimiz! Bu xeyirli işi Bizdən qəbul et! Sən doğrudan da (hər şeyi) eşidən və bilənsən! – deyə dua etdilər."

Ayədən məlum olur ki, Kəbənin əsası varmış. İbrahim və İsmail yalnız, Kəbənin əsasını yuxarı hörürlər.

Həmçinin, həmin mətləb, Əmirəl-möminin Əlinin (ə) "Qasiə" xütbəsində də aydın olur, buyurur:

"Məgər görmürsünüz ki, pak və münəzzəh Allah, Adəmdən əvvəl və aləmin sonuna qədər insanları nə zərər və nə də xeyir verən daşlarla imtahan edir. Allah, o evi (Kəbəni) hörmətli və əziz edir. Sonra Adəmə və övladlarına göstəriş verir ki, o evə tərəf üz tutsunlar."[1]

Bütün bu ayələr və İmam Əlinin (ə) bəyanından sonra bu məşhur tarix qəbul olunur. Kəbə evi əvvəlcə Adəm (ə) tərəfindən tikilir. Nuhun (ə) tufanında dağılır, sonradan isə İbrahimin əli ilə yenidən tikilir.

KƏBƏNİN ÜSTÜNLÜKLƏRİ

Əvvəlcədən qeyd etdiyimiz kimi Kəbənin ilk tövhid evi olmasını Qurani-Kərim aşkar şəkildə təsdiq edir. İndi isə bu evin üstünlüklərinə işarə edək:

1."Mübarəkdir." Yəni, mənəvi və maddi cəhətdən çox bərəkətli və faydalıdır. Mənəvi cəhətdən, onun sayəsində həcc mərasimində vücuda gələn İlahi cazibələr, vəhdət, birlik heç kimə gizlin deyil. Amma maddi və yaşayış cəhətdən heç bir şəraiti olmayıb, quraqlıq, otsuz-ələfsiz olmasına baxmayaraq, tarix boyu həmişə böyük və gəliş-gedişli, hətta, tacirlərdən ötrü də mühüm mərkəz hesab olunmuşdur."

2. **"Aləmləri doğru yola yönəldəndir."** Hətta, bütpərəstlər də bu evin hidayət yolundan bəhrələnmişlər.

3."Aydın nişanələri vardır." Bu evdə, Allah-taaladan, Allah pərəstlikdən və tövhiddən aşkar nişanələr vardır. Düşmənlərin onu dağıtmaları müqabilində tarix boyu davam gətirməsi bu nişanələrdən biridir.

"Zəmzəm" quyusu, Səfa və Mərvə, Rükun, Hətim, Həcərül-əsvəd, Hicr-İsmailin hər birisi, böyük və əzəmətli xatirələrin nişanələridir. Hamısı Allahın aydın əlamətlərindəndir. Bildiyimiz kimi Kəbə evinin hər bir dörd tərəfinə "Rükun" deyilir. "Həcərül-əsvəd"lə Kəbə evinin qapısı arasındakı məsafə "hətim" adlanır. Bu yerdə, əhalinin izdihamı daha çox

[1] Nəhcül-bəlağə, 192-ci xütbə.

O gələcək...

olur və eyni zamanda Adəmin (ə) tövbə etdiyi yerdir. Həmçinin, "Hicr İsmail", Kəbə evinin şimal-qərb hissəsində qövsvari bir xüsusi yerdir.

Bu aydın nişanələrdən, "İbrahimin məqamı" ayədə xüsusi zikr olunur. Çünki, bura elə bir yerdir ki, Həzrəti İbrahim, Kəbə evini bina etmək, yaxud, həcc mərasimini yerinə yetirmək və ya əhalini bu böyük mərasimə dəvət etməkdən ötrü durduğu yerdir.

4.**"Əmin evdir."** Ayədə buyurur: "Hər kim ora daxil olsa, əmin-amanlıqda qalar!"

İbrahim (ə) Kəbə evini bina etdikdən sonra Allahdan, Məkkə şəhərini əmin-aman bir yer olmasını istəyir. Buyurur: **"İlahi! Bu məmləkəti əmin-aman bir yer qərar ver!"**

Allah-taala, İbrahimin duasını qəbul edir. Məkkəni əmin bir şəhər qərar verir. Dini və şəri cəhətdən elə ehtirama malik edir ki, bu şəhərdə hər növ döyüş və mübarizə qadağandır. Hətta, heyvanlar da bu şəhərdə əmniyyətdədirlər və heç kəs onlara əziyyət edə bilməz. Hərəmin ətrafında ov etməyin ağır kəffarəsi vardır.

HƏCC, İLAHİNİN VACİB BUYURUĞUDUR

Hər bir müsəlman xüsusi şəraitə malik olması ilə ömründə bir dəfə həcc ona vacib olur. Əgər həyatda olarkən bu şəraitdə həcc yerinə yetirməmişdirsə, ölümündən sonra naib tutub yerinə yetirilməlidir. Din alimləri həccin vacib olmasını üç şəraitə qeyd edirlər:

1. Bədənin bu əməli yerinə yetirməyə qüdrəti olsun.

2. Bu yolda ehtiyacı olan qədər malı olsun.

3. Həcc yolları açıq və xətərsiz olsun.

Bu üç şərt mümkün olduğu halda, hər bir müsəlmana vacibdir ki, gedib həcc əməllərini yerinə yetirsin. Ayədə də həccin vacib olması bəyan olunmuşdur: **"Onun yoluna gücü çatan hər bir kəsin həccə gedib o evi ziyarət etməsi, insanların Allah qarşısında borcudur."**[1]

Bu ayədə, həcci yerinə yetirmək əmri bütün insanlara aiddir. Ondan, insanların hamısının boynuna gələ biləcək borc və İlahi tələb kimi ad aparılmışdır. Çünki, ayədə buyurur: **"İnsanların Allah qarşısında borcudur!"**

Həmin ayədən məlum olur ki, həcc əməli təkcə müsəlmanlara məxsus deyildir. Bəlkə də, ayədəki "nas" (insanlar) kəlməsinə əsasən,

[1] Ali İmran surəsi, ayə 97.

hamının bu əməldə borcu vardır. İnsanda belə bir tanınmış qanun var: Kafirlərin üsuliddinə inanmaları vacib olduğu kimi, füruiddinə də inanmaları vacibdir. (Doğrudur ki, bu iş baş vermir. Ancaq Qiyamətdə onlar buna görə sorğu-sual olunacaqlar)

Lakin, kafirlərdən həcc əməlinin olunması, İslam dinini qəbul etmələri ilə bağlıdır. Əgər İslamı qəbul etmədən həcc əməlini yerinə yetirərlərsə, bu zaman həccin həqiqi dəyəri əldən gedir və ona həcc deyilməsi də şübhə doğurur.[1]

İbn Əbül Ovca və onun əsassız sözləri

Bir nəfər kafir olub, dinsiz adı ilə məşhur idi. Bununla yanaşı, pis danışıqlı və təhlükə yaradan söz ustası olub. Çox vaxt öz əsrinin alimləri ondan uzaq gəziblər.

Günlərin birində, İbni Əbül Ovca, Məscidül-həramda öz həmfikirləri ilə birlikdə həcc mərasiminə tamaşa edirlərmiş. İmam Sadiq (ə) də məscidin bir kənarında oturmuş, şiələr Həzrətin hüzurunda əyləşib həzrətdən şəri suallar soruşurdular. İbni Əbül Ovcanın dostları ona deyir: İndi Cəfər İbni Məhəmmədlə mübahisə etməyin münasib vaxtıdır. O da deyir: İndi həmin işi görəcəyəm! İmamın (ə) hüzuruna gəlir və belə deyir:

"Ey Əba Abdullah! Şübhəsiz ki, məclislər əmanətdir. (Zahirdə İmamın (ə) aman istəyir ki, küframiz sözləri camaatı qəzəbə gətirməsin) Hər kimin sinəsində toz-torpaq olsa və ona əziyyət versə, ixtiyarsız olaraq onu çölə tökməlidir. (Yəni, hər kimin qəlbində şübhəsi varsa və onu narahat etsə və suala ehtiyacı olsa, o şübhəni izhar etməkdən başqa çarəsi yoxdur) İcazə verirsiniz ki, sual edim? İmam (ə) buyurdu: **Bəli!** O da tam cəsarət və həyasızlıqla belə dedi: **"Nə vaxta qədər bu xırmanı döyəcəksiniz? Bu daşa pənah aparıb, daş və gildən tikilmiş evə pərəstiş edəcəksiniz? Hürküdülmüş dəvələr kimi o tərəf bu tərəfə qaçırsınız! Hər kim bu evin mərasim proqramı barəsində fikirləşsə, anlayar ki, bu elə bir işdir ki, göstəriş verənin hikməti yoxdur. Sən bu işin başında və atan da bu işin binasını qoyandır. Mənə cavab verə bilərsənmi?**

Bu həmin batini çirkin dinsiz kişinin sözləridir. Belə şəxslər hər şeyə maddiyyat gözü ilə baxırlar. Bəli, kuzənin içində nə varsa, o da çıxar! İmam Sadiq (ə) cavabında buyurur:

[1] Təfsiri nümunə, cild 3, səh 14-17.

O gələcək...

"Allah-taala hər kimi zəlalətə salsa, qəlb gözünü kor edib həqiqətləri dərk etmək fürsətini ondan alsa, Şeytan onu həlakət sərçeşmələrinə atar və heç vaxt oradan çıxa bilməz!" Sonra İmam (ə) buyurur:

"Allah-taala bu evi bəndələri üçün imtahan qərar verib və onlara bu evi ziyarət etməyi buyurub. Bununla da insanların ixlas, təslim və ibadətlərinin dərəcəsini ölçür. Bu ev peyğəmbərlərin qərargahıdır. Namaz qılanların qibləsidir. Yəni, nə daşa, nə də evə ibadət olunur. Bəlkə də, əsl məbud Allahdır ki, cismi və insanların canlarını yaradandır."

HƏCC, İNSANLARIN RUHLARININ SEYRİDİR

Diqqət etmək lazımdır ki, həcc əməllərinin zahiri və bütün ibadətlər peyğəmbərlər və Allaha yaxın şəxslərin ruhi və mənəvi məqamlarının şərhidir. Allaha tərəf gedənlərin ruhlarından təhlil və təcziyədir. Bu mərasimdə, Allaha tərəf seyr edənlərin bəndəlik mənzillərini necə keçmələrindən söz açır və onların nəhayətdə, Allahı lütfünə necə nail olmalarını bəyan edir. Çünki, ibadətin həqiqəti, insanın ruhunun Allaha tərəf hərəkətindən ibarətdir. İslam Peyğəmbəri (s) buyurur:

"Namazın vacibliyi, həcc, təvaf və digər ibadət mərasimləri Allahı yada salıb zikr etməkdən ötrüdür. Əgər qəlb, əsl məqsədi Allahın əzəmət və heybətindən boş alarsa, bu vaxt quru dillə zikr və ibadət etməyin nə qiyməti var?"[1]

Beləliklə, həcc əməllərinin zahiri, insanın ruhunun bəndəlik mərhələlərini münəzzəm seyr etməklə və özünü dünyanın bütün meyl və bər-bəzəklərindən ayırmaq, nəfsin zülmət bataqlığından nicat tapıb aləmlərin Rəbbinin nuraniyyətinə qərq olmaqdır.

Əsl həcc, ruhda hasil olan hərəkətdir. Elə bir hərəkət ki, nəfsin cövhərində hasil olsun. Həccin hesabı, naqis təkamülün kamilə çevrilməsidir. İstedadı, hazır işə çevirmək, xammalı hazırlaşdırmaq və ya dəmir filizi başqa bir qəlibə salmaqdır. Bəzilərinin fikirləşdiyi kimi həcc, oyun və başqatan əməl deyildir. Uşaq dərkinə bənzər bu məna hara, Allah yolunda mənəviyyatla səfər edib, dəyişənlərin əməlləri hara?

Malikiyyə məzhəbinin rəhbəri Malik ibn Ənəs yazır: İllərin birində İmam Sadiqlə (ə) həccə getdim. Ehram vaxtı atına minmişdi. Nə qədər istədi ki, "Ləbbeyk" desin, səs boğazında qət olub eşidilmədi. Mərkə-

[1] Həcc, bərnameyi təkamül , səh 80-93.

O gələcək...

bindən üzü aşağı düşdü. Dedim: Ey Allahın Peyğəmbərinin övladı! "Ləbbeyk" de! Onsuz da deməlisən! Buyurdu: **"Ey Əbu Amirin oğlu! Nə cür cürət edib "Ləbbeyk, Allahummə ləbbeyk"- deyim? Halbuki, qorxuram, Allah buyursun ki: Nə qəbul edirəm və nə də yol verirəm!"**

Əgər insan, nəfsinin cövhərini islah edib, Kəbə evinin ayağına qədər gedə bilsə, əli ilə "Həcərül-əsvəd"i təbərrük etsə, qəlbini Ərəfat dağının ətəyində yerləşdirə bilsə, ruhu Allahın "Məşərül-həramı"na gedə bilsə, yəqinlik bıçağı ilə həvayi-nəfsini qoyununun başını kəsə bilsə, qayıdarkən göylərin yaqutu və mərcanı kimi olarsa, ona "hacı" demək olar. Yoxsa!!!

HƏCC VƏ GÜNAHLARIN BAĞIŞLANMASI

İmam Səccad (ə) həccin ikinci hissəsində buyurur:

"Həcc, insanın, günahlardan Allaha tərəf pənah aparmasıdır."

İnsan həccdən qayıdarkən anadan təzə olmuş uşaq kimi günahları bağışlanar və günahlarının yükü boynundan götürülər. Bu barədə çoxlu rəvayətlər söylənilmişdir. Onlardan bəzilərinə işarə edirik:

"İmam Sadiqdən (ə) nəql olunur, buyurur: Səhrada yaşayan köçərilərdən birisi İslam Peyğəmbəri (s) ilə görüşür və Ona ərz edir ki, mən evimdən həcc niyyəti ilə çıxmışam. Lakin, bəzi maneələrə görə fürsət əldən çıxdı və həccə yetişə bilmədim. Mən sərvətli və var-dövlətli bir kişiyəm. Allahın hacıya verdiyi savabı necə almağı mənə öyrədin. Mən nə etməliyəm?

Həzrət onun üzünə baxıb buyurdu: **"Əbu Qubeys dağına bax! Əgər bu dağ qırmızı qızıl olsa və sənin olsa, onu Allah yolunda infaq etsəydin, Allahın hacıya verdiyi savabı ala bilməzdin!**

Daha sonra buyurur: **"Hacı heç bir iş görməmiş, hələ özünü həccə hazırlaşdırarkən Allah ona on ehsan yazar və on günahını bağışlayar. Allah yanında məqamı yuxarı mərtəbəyə qalxar. Həmçinin, atına minib hərəkət etməmişdən əvvəl, Allah həmin savabı yenə ona əlavə edər. Kəbə evini təvaf etdikdən sonra bütün günahlardan xaric olar. Şeytana daş atdıqda günahları tökülər. Sonra İslam Peyğəmbəri (s) bir-bir dayanacaq yerlərini sayır və buyurur: Günahdan çıxar! Siz bu savaba necə çata bilərsiniz?"**[1]

İmam Sadiq (ə) sonra buyurdu: **"Həccdən qayıdarkən dörd ay günahları yazılmaz. Böyük günaha mürtəkib olmayınca ona ancaq savab yazılar."**

[1] Mühəccətül-beyza, cild 2, səh 147.

O gələcək...

HƏCC VƏ ALLAHDAN QEYRİSİNİ ÇAĞIRMA

İmam Səccad (ə) eşidir ki, bir nəfər həccdə başqasına əl açır. Buyurur: **"Vay olsun sənə! Belə bir müqəddəs məkanda Allahdan başqasına əl açırsan? Halbuki, bu gün Allahın rəhməti elə genişdir ki, ola bilsin, dağların qoynundakılar da bu ümumi rəhmətə aid olub, xoşbəxt və səadətli olsunlar."**[1]

Mərhum Feyz Kaşani bu hədisin şərhində buyurur: Hər bir şeyin xoşbəxtliyi öz halına uyğundur. Beləliklə, dağların qoynundakıların səadəti ola bilsin bu olsun ki dağda bitkilər bitir, çox dəyişikliklərdən sonra nütfəyə çevrilər və ondan xoşbəxt insan vücuda gələr.

"Müstədrək" kitabında nəql olunan başqa bir rəvayətdə "dağlar" kəlməsinin yerində "hamilə qadınlar" gəlmişdir. Belə olan halda hədisin mənası daha da aydın olar.

Bir nəfər "Məscidül-həram"da İmam Sadiqdən (ə) soruşur: Kimin günahı digərlərinin günahından daha böyükdür? İmam buyurur: **"Hər kim bu iki dayanacaqda – "Ərəfə və Məşərdə" – dayansa, bu iki dağ (Səfa və Mərvə) arasında səy edə, bu evin (Kəbə) ətrafında dolana, İbrahimin məqamında namaz qıla, bütün bu əməllərdən sonra öz yanında deyə, yaxud güman edə ki, Allah hələ onu bağışlamayıb. Bu insanın günahı hamının günahından böyükdür." (Yəni, Allahdan ümidi üzmək və rəhmətindən məyus olmaq ən böyük günahdır)**

Yenə İmam Sadiq (ə) buyurur: **"Hər bir şəhərdən və ya kənddən bir nəfər Ərəfədə dayansa, Allah-taala o şəhərin və kəndin bütün imanlı şəxslərinin günahlarını bağışlayar. Həmçinin, hər bir imanlı ailədən bir nəfər həccdə, Ərəfədə dayansa, Allahın rəhmət və əfvi onun bütün ailə üzvünə aid olar."**

Əlbəttə, diqqət etmək lazımdır ki, imanın əsas qaynağı təqvalı olmaqdır. İmansız və dini qəbul etməyənlər bu rəhmətdən kənardırlar.

Həccə dəvət, Allahın insanlara minnəti

Allah-taala, insana minnət qoyaraq kəramət tacını onun başına qoyur, yatmış fitrətini oyadır, haqqı tanımaq hissini və şükr etmək meylini onda dirçəltməklə həccə və evini (Kəbəni) təvaf etməyə dəvət edir. Buyurur:

[1] Həcc, bərnameyi təkamül, səh 228.

O gələcək...

"Onun yoluna gücü çatan hər bir kəsin həccə gedib, o evi ziyarət etməsi insanların Allah qarşısında borcudur."[1]

Yəni, sən ki, fitrətinə əsasən haqqı tanıyasan və Mən də sənin Xaliqin və mütləq şəkildə ruzi verəninəm, deməli bu haqq varımdı ki, şükr etməkdən ötrü səni Öz evimə dəvət edib, ziyarət etməyini elan edim.

HƏCCİN TƏƏCCÜBLÜ BƏRƏKƏTLƏRİ

Allah-taala tərəfindən Kəbə evinin zəvvarına əta etdiyi və bərəkətin əzəmətini dərk etməkdən və bu savabın bir guşəsini bilməkdən ötrü rəvayətlərə müraciət edək. (Əlbəttə, əvvəlcədən bir sıra rəvayətlərə işarə etmişdik)

Səd Əskaf nəql edir: İmam Baqirdən (ə) eşitdim ki, buyurur:[2] **Həccə azim olan şəxs, müqəddəmat işlərini gördükdə, həccin işinə aid hər bir işdən ötrü atdığı hər bir addıma, Allah-taala, on ehsan yazar və on günahından keçər, on dəfə məqamı Allah yanında yuxarı qalxar. Müqəddəmat işlərini qurtarıb evdən çıxıb yola düşdükcə ali mərtəbələrə çatar."**

Başqa bir rəvayətdə İmam Sadiq (ə) buyurur:

"Həccdən qayıdan hacılar üç dəstədirlər: Bir dəstəsi Cəhənnəm atəşindən xilas olanlardır. Bir dəstəsi anadan təzə doğulmuş uşaq kimi günahlardan xaric olub gələrlər. Üçüncü dəstə isə mal-dövlət və əhli-əyalının öz yerində sağlam olması halında qayıdarlar. Bu, hacıya aid olan ən az bəhrədir.[3]

Onların arasındakı fərqlər də aydındır. Çünki, niyyətlər fərq edir. Fərq, Kəbə evinin sahibinin tanınması, ibadətin şirinliyini dərk etmək və həcc əməllərindən təsir alınmasındadır.

13. SƏDƏQƏNİN HAQQI

وَأَمَّا حَقُّ الصَّدَقَةِ فَأَنْ تَعْلَمَ أَنَّها ذُخرُكَ عِنْدَ رَبِكَ وَوَدِيعَتُكَ الَّتِي لا تَحْتَاجُ إِلَى الإِشْهَادِ، فإذا عَلِمْتَ ذَلِكَ كُنْتَ بِمَا اسْتَودَعْتَهُ سِرًّا أَوْثَقَ بِمَا اسْتَوْدَعْتَهُ عَلانِيَةً، وَكُنْتَ جَدِيرًا أَنْ تَكونَ أَسْرَرْتَ إِلَيْهِ أَمْرًا أَعْلَنْتَهُ، وَكَانَ الأَمْرُ بَيْنَكَ وَبَيْنَهُ فِيهَا سِرًّا عَلَى كُلِ

[1] Ali İmran surəsi, ayə 97.
[2] Həcc, bərnameyi təkamül, səh 48.
[3] Həcc, bərnameyi təkamül, səh 48.

O gələcək...

حَالٍ وَلَمْ تَسْتَظْهِرْ عَلَيْهِ فِيمَا اسْتَوْدَعْتَهُ مِنْهَا بِإِشْهَادِ الأَسْمَاعِ وَالأَبْصَارِ عَلَيْهِ بِهَا كَأَنَّهَا أَوْثَقُ فِي نَفْسِكَ لا كَأَنَّكَ لا تثِقُ بِهِ فِي تَأْدِيَةِ وَدِيعَتِكَ إِلَيْكَ، ثُمَّ لَمْ تَمْتَنَّ بِهَا عَلَى أَحَدٍ لأَنَّهَا لَكَ فَإِذَا امْتَنَنْتَ بِهَا لَمْ تَأْمَنْ أَنْ تَكُونَ بِهَا مِثْلَ تَهْجِينِ حَالِكِ مِنْهَا إِلَى مَنْ مَنَنْتَ بِهَا عَلَيْهِ لأَنَّ فِي ذلك دَلِيلاً عَلَى أَنَّك لَمْ تُرِدْ نَفْسَك بِهَا، وَلَوْ أَرَدْتَ نفسَك بِهَا لَمْ تَمْتَنَّ بِهَا عَلَى أَحَدٍ. وَلا قُوَّةَ إلا بالله.

“Sədəqənin haqqı budur ki, biləsən, o sənin Allah yanında zəxirən və yığdığın savabdır. Elə bir əmanətdir ki, şahidə ehtiyacı yoxdur. Bunu bildinsə, gizlində verdiyin sədəqənin əmanətdə qalmasına, aşkarda verdiyindən daha çox arxayın olacaqsan. Yaxşı olarki, aşkarda gördüyün xeyir işi, gizlində görəsən və hər halda sənlə sədəqələrin arasında örtük olsun.

Sədəqələrdə, gözlər və qulaqları şahid tutma. Çünki belə bir şeyə ehtiyac yoxdur. Arxayınsan ki, onun savabı sənə qayıdacaq. O kəslər kimi olma ki, sədəqənin savabının özünə qayıtmasını etimad etmirlər.

Sonra heç bir kəsə sədəqə verdiyinə görə minnət qoyma. Çünki o, sənin öz malındır. Əgər sədəqə verdiyinə minnət qoysan, heç də arxayın olma ki, sədəqə verdiyin şəxsin gününə düşməyəcəksən. Çünki bu bir dəlildir ki, sən onu özündən ötrü istəməmisən. Əgər özündən ötrü istəsəydin, heç kəsə minnət qoymazdın. Allah tərəfindən heç bir güc-qüdrət yoxdur!”

“Həcən” sözü ərəbcədə, “başı aşağı və pisə dönmək” mənasındadır. “Həccəl-əmrə”, yəni “onu eyibli bildi və pis fikirləşdi”.

Ümumiyyətlə İmam Səccad (ə) sədəqənin haqqı barəsində üç mühüm mətləbə də işarə buyurmuşdur:

Birinci mətləb: Sədəqə zəxirə olub, aradan gedən və məhv olan bir şey deyildir. Əslində, belə bir fikir səhv olar ki, mal, sədəqə verənin əlindən çıxıb məhv olur. Bəlkə də sədəqə vermək, dünyada Axirətə görə bəhrə aparmaqdır. Necə ki, Quran buyurur:

“Allahın sənə, verdiyindən özünə Axirət qazan. (Malını Allah yolunda sərf et.) Dünyadakı nəsibini də unutma!”

Ən yaxşı bəhrə odur ki, gördüyün əməl fani yox, bəlkə də əbədi və cavidan olsun.

İkinci mətləb: Gizlində sədəqə vermək aşkarda verməkdən mühümdür. Ola bilsin aşkar sədəqə verdikdə riya və minnət qoymaq ehtimalı olsun və bununla da sədəqə alan başqalarının gözündə kiçik alçalsın.

O gələcək...

Üçüncü mətləb: Sədəqənin təsirinin aradan getməməsindən ötrü minnətlə olmamalıdır. Sonradan işarə edəcəyik ki, sədəqə, əvvəl Allahın əlinə çatır. Mühüm budur ki, sədəqə verəndə ali bir tərbiyət xüsusiyyəti əmələ gəlməlidir ki, hər şeyin həqiqi maliki Allah-taaladır. Sədəqə verən vasitədən başqa bir şey deyil. Ona görə də sədəqə verəndə bəndəlik və ibadət mənası özünü tapır.

QURAN NƏZƏRİNDƏ "SƏDƏQƏ"

İmam Səccadın (ə) sədəqə barəsində buyurduqları, Qurani-kərimdə müxtəlif bənzətmə və məsəllərlə zikr olunmuşdur. Onlardan bəzilərinə işarə edirik. Ayələrə işarə etməzdən əvvəl izah etmək lazımdır ki, sədəqə, insanın Allah yolunda öz malından bir şey verməsidir. O da zəkatdan ümumidir. Həm vacib, həm də müstəhəb vergiyə sədəqə deyilir. Amma zəkat yalnız vacib sədəqəyə deyilir. Bəqərə surəsində Allah-taala buyurur:

"Mallarını Allah yolunda sərf edənlərin halı yeddi sünbül verən bir toxuma bənzər ki, bu sünbüllərin hər birində yüz ədəd dən vardır. Allah istədiyi şəxs üçün bunu qat-qat artırar. Allahın lütfü genişdir. O, hər şeyi biləndir".[1]

Bu ayədə "buğdanı" məsəl gətirməklə, sədəqənin necə bərəkətli olması bəyan olunur. İnfaq edənlərin bərəkətli toxumlara bənzədilməsi, çox diqqəti cəlb edən və dərin mənalıdır. Quran demək istəyir ki, hər bir insanın əməli onun özünün vücudu ilə bağlıdır. Əməl nə qədər geniş olsa, insanın vücudu da böyüyər. Məgər belə deyil ki, insanın əməllərinin şəklinin dəyişməsi onun qüvvə və cisminin dəyişməsinə səbəb olur?

Misal, əslində təhəqqüq tapmış bir fərzi qissədir ki, başqa bir şeylə oxşarı vardır. Belə misallar, o cəhətdən gətirilir ki, müxatəbin zehni, oxşadılması yaxşı dərk etsin. Bu ayədə, malını Allah yolunda sərf edən şəxs, toxum əkən bir əkinçiyə bənzədilir. Toxum yeddi ədəd olsa, yüz dənə verər. Bu işin əslində vaqeiyyəti olmasa da, əsl mənanı bizə aydın şəkildə çatdırır.

"Allah yolunda xərc"dən məqsəd, Allahın razılığına səbəb olan hər bir əməldir.

[1] Bəqərə surəsi, ayə 261.

O gələcək...

İNFAQ VƏ TƏBƏQƏLƏŞMƏ MÜŞKÜLÜNÜN HƏLLİ

Ən böyük ictima müşküllərdən biri, insanın indi də düçar olduğu və bütün texnikanın inkişafına baxmayaraq, daha da genişlənməsinə səbəb olduğu "fəqirlik", digər təbəqənin isə sərvətlənməsi problemidir. Aydındır ki, cəmiyyətin bir qismi dövlətli və sərvətli olub, digər böyük hissəsi isə fəqirlik və aclıqda olarsa, belə cəmiyyət çox davam gətirməz və əsl səadətə çatmaz. Belə cəmiyyətdə iztirab, həyəcan, pislik, düşmənçilik və müharibə sözsüzdür.

Quran ayələrinə diqqət etdikdə aydın olur ki, İslam dininin mühüm hədəflərindən biri, ədalətsizlik nəticəsində cəmiyyətdə yaranmış dövlətli və kasıblıq, fəqirlik sinifləşməsini aradan aparmaqdır. Bununla da, başqalarının köməkləri olmadan yaşaya bilməyənlərin həyat səviyyələrini ən azı adi yaşayış səviyyəsinə çatdırsın. Bu mühüm hədəfə çatmaqdan ötrü İslam dinində, sələmçilik mütləq şəkildə haram buyurulmuş, İslami vergilər, o cümlədən zəkat, xüms və s. vacib infaq, borc vermək, vəqf və müxtəlif malı köməklərə təşviq olunmuşdur.

İnfaqın müxtəlif hədəfləri və nəticələri

Aşağıdakı ayələr, infaq və sədəqənin müxtəlif nəticələrini yaxşı bəyan edir. Quran buyurur:

"Ey iman gətirənlər! Sədəqələrinizi malını riyakarlıqla (özünü xalqa göstərmək üçün) sərf edən, Allaha və Axirət gününə inanmayan şəxs kimi minnət qoymaq və əziyyət verməklə puça çıxartmayın. Belə şəxslərin halı, üzərində bir az torpaq olan qayaya bənzər ki, şiddətli bir yağış o torpağı yuyub aparar və qayanı çılpaq bir daş halına salar. Onlar etdikləri işlərdən bir şey (savab) qazanmazlar. Şübhəsiz ki, Allah, kafirləri haqq yoluna yönəltməz!"[1]

Ayədə "səfvan" sözü ərəbcə, cəm şəklində olub, tək şəkli "səfvanə", yəni, saf daş mənasındadır.

"Vabil" sözü də ərəbcə, "güclü və iri dənəli yağış" deməkdir. "Səld" sözü də ərəbcə "saf daş" mənasındadır.

Nazik torpaq örtüyü olan möhkəm bir daş parçasının üzərində bitməyə hazır olan toxumların bu torpağa səpildiyini nəzərə alaq. Açıq havada günəşin təsiri altında qərar tutmuş olan bu torpağa yağan dolu yağışlar şübhəsiz ki, üzərində toxum olan torpağı yuyub aparmaqdan

[1] Bəqərə surəsi, ayə 264.

O gələcək...

başqa bir iş görməyəcək. Üzərində heç bir şey bitirməyə qabiliyyəti olmayan möhkəm daş, onun aşkar edəcəkdir. Bu heç də o səbəbə görə deyil ki, azad hava, yağışın yağmasının pis təsiri var, bəlkə də, ona görədir ki, toxumların səpildiyi yer namünasib olmuşdur. Toxum səpilən yerin zahiri yumuşaq, batini isə möhkəm olub, qeyri-nüfuzedici olmuşdur. Onun üzərini yalnız, nazik torpaq örtüyü örtmüşdür. Halbuki, bitkinin inkişafı üçün, bitkinin köklərinin inkişaf etməsindən ötrü yerin üst qatından əlavə, onun dərin qata malik olması da lazımdır.

Quran, mənbəyi daş ürəkli qəlblər olan, minnət və əziyyətlə qatışmış riyakar şəkildə infaq və sədəqəni, möhkəm daşın üzərinin nazik torpaqla örtülməsinə bənzədir. Belə daşdan heç bir bəhrə almaq olmaz. Bəlkə də, bağbanın zəhmətini bada verər. Bu ayə də, riyakar şəkildə infaq və sədəqə verənlər və minnət qoyanlar barəsində misaldır. Əvvəlcə qeyd etdik ki, İmam Səccad (ə) sədəqənin haqqı barəsində buyurmuşdu: **"Sədəqə və infaq etdikdə heç kəsə minnət qoyma. Çünki, onu özünün xeyrinə görə vermisən (savabı özünə çatır)"**

"Təfsiri nümunə" kitabında bu ayənin izahı barəsindəki bir neçə mətləbə işarə edək:

1. **"Minnət qoymaqla sədəqələrinizi puça çıxarmayın"** cümləsindən məlum olur ki, bir sıra əməllər var ki, yaxşı əməllərin savabını aradan aparır. Bu həmin "puç olmaq" məsələsidir ki, "Bəqərə" surəsinin 217-ci ayəsində onun izahını verdik.

2. Riyakarlıqla görülmüş əməlin üzərini, nazik torpaq örtmüş daş parçasına bənzədilməsi çox gözəl bir oxşatmadır. Çünki, riyakar şəxslər öz qəsavətli batinlərini zahirdə xeyirxahlıq və yaxşılıq etməklə örtürlər. Qəlblərində heç bir kökü olmayan əməlləri yerinə yetirirlər. Lakin, həyat yolları tezliklə o pərdəni kənara atır və onların batinləri aşkar olunur.[1]

Qurandan başqa bir misal

Qurani-Kərimdə oxuyuruq: **"Malların Allahın razılığını qazanmaq və nəfslərini (imanlarını) sabitqədəm etmək yolunda sərf edənlər, uca təpənin üstündə olan bir dağa bənzərlər ki, ora düşən bol yağış oranın meyvələrini ikiqat artırar. Əgər bol yağış yağmazsa, az bir şəbnəm (şeh) də ona kifayət edər. Həqiqətən, Allah nə etdiyinizi (bütün əməllərinizi) görəndir!"**[2]

[1] Təfsiri nümunə, cild 2, səh 243.

[2] Bəqərə, ayə 265.

O gələcək...

Yamyaşıl və bar verən bir bağı nəzərdə tutun ki, uca və bol məhsul verən, günəşin çox şüası və azad havası olan yerdə yerləşmişdir. Bol yağış, bu yerə yağıb bərəkət verir. Yağış yağmayan zaman bağ, xırda yağış və şeh vasitəsi ilə də öz təravət və gözəlliyini hifz edir. Nəticədə, belə bağ, başqa bağlardan iki dəfə çox meyvə verir. Çünki, uca yerdə yerləşib, azad hava və kifayət qədər günəşin nurundan bəhrələnir. İki gözün tamaşası onu özünə cəlb etməsindən əlavə, belə bağ, sel və su dağlarından da amandadır. Öz mallarını Allah yolunda sərf edib, Onun razılığını ələ gətirmək, iman və yəqinliyin möhkəmlənməsi üçün sədəqə verənlər, həmin bağ kimi olub, bərəkətli və dəyərlidir.

Ayə barəsində "Təfsiri nümunə"dən iki mətləbə işarə edirik:

1. Ayədəki **"Mallarını Allahın razılığını qazanmaq və nəfslərini möhkəmlətməkdən ötrü infaq edənlər" –** cümləsi, düzgün və Allah yolunda olunmuş xərcin hədəflərini bəyan edir. O da iki şeydir: Allahın razılığını ələ gətirmək, iman ruhunu möhkəmlətmək və qəlbin arxayınlığı. Cümlədə qeyd olunur ki, əsl infaq edənlər o kəslərdir ki, yalnız Allahın razılığını ələ gətirib, insanı fəzilətləri artırıb, öz batini ruhiyyələrini möhkəmlətmək üçün infaq edirlər. Həmçinin, belə şəxslər öz vicdanları və mərhumlar müqabilində məsuliyyət hissindən əmələ gəlmiş iztirablarını sakitləşdirməkdən ötrü xərc edirlər.

2. "Allah nə etdiklərinizi görəndir" – cümləsi, ayənin axırında zikr olunmaqla bütün yaxşı əməl götürmək istəyənlərə xəbərdarlıq edir ki, öz niyyətlərində ehtiyatlı olsunlar. Çünki, ən kiçik riyakarlıq və niyyətdə şirk, infaqlarına zərər gətirir. Çünki, Allah-taala onların əməllərindən tamamilə agahdır.[1]

GİZLİN VƏ AŞKAR SƏDƏQƏLƏR

İmam Səccad (ə) sədəqənin gizlində verilməsinə daha çox təkid edir. Bu bəyanla ki: **"Qulaqları və gözləri sədəqə verməyinə şahid tutma!"** Ola bilsin, bu ifadə müstəhəb sədəqə vermək barəsində olsun. Necə ki, vacib sədəqə sayılan zəkatı aşkar verməkdə heç bir mane yoxdur. Allah-taala "Bəqərə" surəsində bu barədə buyurur:

"Yoxsullara aşkarda sədəqə verməyiniz yaxşıdır. Lakin, onu gizlində versəniz daha yaxşı olar. Bu, günahlarınızın bir qismini örtər. Allah, etdiyiniz hər bir işdən xəbərdardır!"[2]

[1] Təfsiri nümunə, cild 2, səh 243.

[2] Bəqərə surəsi, ayə 271.

O gələcək...

Şübhəsiz ki, sədəqə və infaqın aşkarda yaxud, gizlində verilməsinin hər birinin xüsusi faydası vardır. Aşkar infaqda xüsusilə, vacib olarsa (məsələn, zəkat) insanların bununla, "bu işə təşviq olunmasından əlavə, "vacib vəzifəsinə əməl etmədi"- töhmətinə də son qoyulur. Əgər aşkar verilən sədəqə müstəhəb olarsa, əslində, insanlara mərhumların müqabilində xeyir işlər görmələrinə təşviq olan bir növ təbliğdir.

Əgər infaq gizlində olarsa, qəti olaraq riyakarlıq, özünü göstərmək hissi çox azalar. İxlası çoxalar və bununla da məhrumların abır-həyası qorunmuş olar.

Bəzi rəvayətlərdə aşkar şəkildə qeyd olunub ki, vacib infaqın aşkarda verilməsi daha yaxşıdır. Həmçinin, müstəhəb infaqlar gizlində verilsə daha yaxşıdır. Bu mətləb "Məcməul-bəyan" təfsirində nəql olunmuşdur.

Ayədəki **"Günahlarınızdan bəziləri bağışlanar"** – cümləsindən məlum olur ki, Allah yolunda xərc etməyin günahların bağışlanmasında dərin təsiri vardır. Əlbəttə, bu mənada yox ki, bütün günahlar bağışlanılır.

Hər halda, infaq etməkdə ən təsirli şey, pak və xalis niyyətlə əməl etməkdir. Əhalinin bilməsi və bilməməsi çox da mühüm deyildir. Mühüm, Allahın bilməsidir. Çünki, insanın mükafatını verən, aşkar və gizlindən agah olan yalnız, Allahdır!

İNFAQ VƏ SƏDƏQƏNİN İNSAN HƏYATINDAKI ROLU

Quran buyurur: **"Ya Məhəmməd! İnsanları (qeyri-müsəlmanları) doğru yola yönəltmək sənin borcun deyildir. Sənin vəzifən ancaq onları haqq yola dəvət etməkdir. Allah kimi istərsə, onu doğru yola istiqamətləndirər. Malınızdan sərf etdiyiniz hər hansı bir şeyin xeyri (mənfəəti) ancaq özünüz üçündür. Siz yalnız, Allahın razılığını qazanmaq üçün verirsiniz. Malınızdan verdiyiniz hər hansı bir şeyin əvəzi tamamilə sizə ödəniləcəkdir. Sizə əsla zülm edilməz!"**[1]

"Məcməul-bəyan" təfsirində bu ayənin nazil olma səbəbi barəsində, İbni Abbasdan nəql olunur ki, müsəlmanlar qeyri-müsəlmanlara infaq etmirdilər. Yuxarıdakı ayə nazil olmaqla onlara lazım olan vaxtda bu işi yerinə yetirməyə icazə verir.

[1] Bəqərə surəsi, ayə 272.

O gələcək...

Ayədəki **"Malınızdan sərf etdiyiniz hər hansı bir şeyin xeyri ancaq özünüz üçündür"-** cümləsindən başa düşülür ki, infaqın mənfəəti infaq edənin özünə çatır. Bu yolla, Quran, infaq edənləri bu insani əmələ təşviq edir. Bir mətləb də qətidir ki, insan hər hansı əməlinin mənfəəti özünə qayıdacağını bildiyi halda işə qarşı daha çox meyl edir.

İnfaq və Allah yolunda xərc etməyin həm maddi, həm də mənəvi cəhətdən mühüm təsirləri vardır. Mənəvi cəhətdən, bağışlamaq ruhiyyəsi, bəxşiş bir növ dostluq və qardaşlıq yaradır. Əslində, infaq edənin şəxsiyyətinin pərvərişində mühüm vəsilə kimi olur.

Maddi nəzərdən isə cəmiyyətdə təbəqələşmə azalsın. Əvvəlcədən işarə etdik ki, hər hansı bir cəmiyyətdə məhrum və fəqirlərin çoxalması xətərli partlayışlara səbəb ola bilər. Bu halda, həm fəqirin, həm də varlının həyatı çətinləşir. Beləliklə, infaq həm ictimai, həm iqtisadi və həm də müxtəlif maddi və mənəvi cəhətdən infaq edənlərə fayda verir.

Ancaq, ayədəki "Vəchullah" sözü ərəbcə, "vəch" surətə və bəzən də "zat" mənasında işlənir. Ola bilsin bu mənada olsun ki, infaq edənlərin niyyəti Allahın pak zatına xatir olmalıdır. "Vəch" sözü, kinayə ilə Allah barəsində işlədilir. Aydındır ki, Allah nə cisimdir və nə də surəti vardır.

Ayədəki **"Mallarınızdan verdiyiniz hər hansı bir şeyin əvəzi tamamilə sizə ödəniləcəkdir"-** cümləsindən aydın olur ki, güman etməyin ki, sizin infaqınızdan sizə yalnız, azacıq fayda olar, bəlkə də, sərf etdiyiniz hər bir şeyin əvəzi tamamilə sizə qaytarılacaqdır. Sizin bu işiniz barəsində azacıq da olsa zülm olunmaz. Bu cümlə, əməllərin təcəssüm olunmasına da bir dəlil ola bilər. Çünki, deyilir: **"İnfaq etdiyiniz şey sizə qaytarılacaqdır."** İndi də bu mövzudakı rəvayətlərə müraciət edək.

SƏDƏQƏ VƏ ONUN TƏSİRLƏRİ RƏVAYƏTLƏRDƏ

Sədəqənin təsirləri barəsində çoxlu rəvayətlərdə nəql olunmuşdur. Onlardan bəzilərinə işarə edirik:

Sədəqə və ruzinin çoxalması

Sədəqə ruzinin çoxalmasına səbəb olur. Aşağıdakı üç hədisdə bu təsirə işarə olunur.

Səkuni, İmam Sadiqdən (ə) nəql edir ki, buyurur:

O gələcək...

"İslam Peyğəmbəri (s) buyurur: Sədəqə verin! Həqiqətən, sədəqə mallarınızda bərəkətin çoxalmasına səbəb olur. Beləliklə, sədəqə verin ki, Allah-taala sizi Öz rəhmətində saxlasın!"[1]

İmam Kazim (ə) buyurur:

"Sədəqə vasitəsi ilə ruzinin verilməsini istəyin!"[2]

İmam Rza (ə) atasından, o da İslam Peyğəmbərindən (ə) nəql edir, buyurur:

"İnsanın ən yaxşı malı və zəxirəsi sədəqədir!"[3]

Sədəqə və xəstəliklərin şəfası

İslam Peyğəmbəri (ə) buyurur: **"Xəstəliklərinizi sədəqə verməklə sağaldın!"**[4]

Beləliklə, xəstələrin sağalması həm dərman və həm də sədəqə verməklə ola bilər. İmam Sadiqdən (ə) nəql olunur ki, buyurur:

"Xəstələrinizi sədəqə verməklə sağaldın! Bəlaları dua etməklə özünüzdən uzaqlaşdırın! Ruzi və neməti sədəqə verməklə özünüzə alın! Çünki, sədəqə insanı şeytanın yeddi yüz məzəmmətindən saxlayır."[5]

Yenə də İmam Sadiqdən (ə) nəql olunur, buyurur:

"Müstəhəbdir ki, xəstə öz əli ilə dilənçiyə sədəqə versin və ondan, ona dua etməsini istəsin."[6]

Sədəqə və bəlaların qarşısının alınması

İmam Rzadan (ə) nəql olunur, buyurur:

"İsrail övladları arasında uzun illər qıtlıq yaşanırdı. Belə ki, bir nəfər qadının bir tikə yeməyi vardı. Ağzına qoymaq istədikdə sail çağırır: "Ey qadın! Aclıq məni əldən salıb." Qadın öz-özünə deyir: "Sədəqə vermək vaxtıdır." Tikəsini ağzından çıxarıb dilənçiyə verir.

Bu qadının kiçik bir oğlu var idi. Odun yığmaqdan ötrü səhraya getmişdi. Birdən canavarın hücumuna məruz qalır. Fəryad səsi ucalır. Anası səsi eşitcək, səhraya tamaşa edib canavara baxırdı. Allah-taala, Cəbraili yollayır ki, uşağı canavarın ağzından alıb anasına qaytarsın.

[1] Vəsailuş-Şiə, cild 6, səh 257.
[2] Vəsailuş-Şiə, cild 6, səh 257.
[3] Vəsailuş-şiə, cild 6, səh 258.
[4] Vəsailuş-Şiə, cild 6, səh 260.
[5] Vəsailuş-Şiə, cild 6, səh 260.
[6] Vəsailuş-Şiə, cild 6, səh 262.

O gələcək...

Sonra Cəbrail o qadına buyurur: **"Razı oldunmu? Tikə, başqa tikənin müqabilində!"**

Bəli! Əgər İmam Səccad (ə) sədəqənin haqqı barəsində buyurursa: **"Allah onu saxlayıb özünə qaytaracaq" -** təsiri belə zahir olar. Bu əhvalat, sədəqənin bəlaların və gözlənilməz hadisələrin qarşısını necə almasını gözəl bəyan edir.

Bu əhvalat kimi başqa bir rəvayət də İslam Peyğəmbərindən (s) nəql olunur.

İslam Peyğəmbəri (s) bir nəfər yəhudi barəsində buyurur: Bu kişini qara bir ilan izləyəcək və onu öldürəcək. Çox çəkmir yəhudi getdiyi yerdən odunla qayıdır. Peyğəmbər (s) buyurur: o odun dəstəsini yerə qoy! Yəhudi yükünü yerə qoyur. Odunun içindən qara bir ilan çıxır. Peyğəmbər (s) buyurur: Ey yəhudi! Bu gün nə iş görmüsən? Cavab verir: Bu odunu yığmışam və iki ədəd çörəyim vardı, birini özüm yedim, başqasını isə fəqirlərdən birinə sədəqə verdim. Həzrət buyurdu: Allahtaala həmin sədəqəyə xatir bəlanı səndən dəf edib.

Yenə buyurur: **"Sədəqə, insanı ölümə giriftar olmaqdan saxlayır."**[1]

İmam Baqirdən (ə) nəql olunur, buyurur: **"Sədəqə, dünyanın yetmiş bəlasını insandan uzaqlaşdırır və pis vəziyyətdə ölümdən ona verənə nicat verir. Bundan əlavə, axirətinə çoxlu savab yığır."**[2]

Quran ayələrində oxuduğumuz kimi sədəqənin istər aşkar, istərsə də gizlində verilməsinin savabı vardır. Rəvayətlərdə də bu mətləbə işarə olunur. İmam Sadiq (ə) İslam Peyğəmbərindən (s) nəql edir: **"Gizlində sədəqə vermək, Allahın qəzəbini yatırır."**[3]

Yenə də İmam Sadiqdən (ə) nəql olunur, buyurur: "**Aşkarda sədəqə vermək yetmiş növ bəlanı dəf edir və gizlində sədəqə vermək Allahın qəzəbini yatırır."**[4]

Məşhur alim Təbərsi "Məcməul-bəyan" təfsirində İmam Sadiqdən (ə) nəql edir, buyurur:

"Gizlin sədəqə, Pərvərdigarın qəzəbini yatırır. Xətanı aradan aparır. Su atəşi söndürdüyü kimi qəzəbi yatırır və bəlaların yetmiş qapısını bağlayır."[5]

İmam Sadiq (ə) İslam Peyğəmbərindən (ə) nəql edir, buyurur:

---

[1] Vəsailuş-Şiə, cild 6, səh 268.
[2] Vəsailuş-Şiə, cild 6, səh 268.
[3] Vəsailuş-Şiə, cild 6, səh 268.
[4] Vəsailuş-Şiə, cild 6, səh 268.
[5] Vəsailuş-Şiə, cild 6, səh 277.

O gələcək...

“Qiyamətin səhnəsi, atəş və oddur. Yalnız sədəqə verən möminlərin yerləri var ki, onlara kölgə salınıb.”[1]

Əmirəl-möminin Əli (ə) buyurur:

“Gizlində verilən sədəqə, xəta və günahları bağışladır. Aşkar sədəqə mal-dövləti artırır.”[2]

Yenə İmam Əlidən (ə) nəql olunur, buyurur:

“Yeddi tayfa var ki, Qiyamətdə Allahın kölgəsindədirlər. Onlardan biri o tayfadır ki, sədəqəni elə gizlində versin ki, sol əlin sağ əldən xəbəri olmasın.”

Sədəqənin rəvayətlərdə təsirləri bunlardan ibarət idi.

14.QURBANLIĞIN HAQQI

وَأَمَّا حَقُّ الهَدْيِ فَأَنْ تُخلِصَ بِهَا الإِرَادَةَ إِلَى رَبِكَ وَالتَّعَرُّضَ لِرَحْمَتِه وَقَبُولِه ولا تُرِيدَ عُيُونَ النَّاظِرِينَ دُونَهُ، فإِذَا كُنْتَ كَذلِكَ لَمْ تَكُنْ مُتَكلفا ولا مُتَصَنِّعًا وكُنْتَ إِنَّمَا تَقْصِدُ إِلى الله. وَاعْلَمْ أَنَّ اللهِ يُرَادُ بِالْيَسِيرِ وَلا يُرَادُ بالعسيرِ كَمَا أَرَادَ بِخَلقِه التَّيْسِيرَ وَلَمْ يُرِدْ بِهِمُ التَّعْسِيرَ، وكَذلِكَ التَّذَلُّلِ أَوْلَى بِك من التَّدَهْقُنَ لأَنَّ الكُلْفَةَ وَالْمَئونَةَ فِي الْمُتَدَهْقِنِينَ. فَأَمَّا التَّذَلُّلُ وَالتَّمَسْكِنُ فلا كُلفَةَ فِيهِمَا وَلا مَئونَةَ عَلَيْهِمَا لأَنَّهُمَا الخِلْقَةُ وهُمَا مَوْجُودَانِ فِي الطَّبِيعَةِ. وَلا قُوَّةَ إِلا بالله.

“Qurbanlığın haqqı odur ki, onu xalis Allaha xatir kəsməyi iradə edib, yalnız, Onun rəhməti ilə qəbul olunmasını diləyəsən. (Qurbanlığını təkcə Ona xatir kəs) Öz qurban kəsməyini əhalinin gözü qarşısında onların başına minnət qoyma. Minnət qoymadığın halda, özünü bəhrəsiz zəhmətə salmaz və əməlində xalis olarsan. Həqiqətdə, sənin bu əməlində niyyətin Allah olmalıdır.

Bil ki, Allah dərgahında asanlıqla yük tutmaq olar və çox da zəhmətə ehtiyac yoxdur. Allah-taala, bəndələrin təkliflərini asanlaşdırdığı kimi onları zəhmətə də salmaq istəmir!

Həmçinin, Allah dərgahında təkəbbürçülük göstərməkdənsə, təvazökar olmağın sənin üçün daha yaxşıdır. Çünki, zəhmət və özünü öymək, rəyasət tələb və onlar kimilərə aiddir. Amma təvazökar olmaqlığın nə zəhməti var, nə də xərci vardır. Çünki, insanın təbiətinə və fitrətinə uyğundur. İnsan da, təbiət də məxluqdur. Allahdan başqa heç bir güc-qüdrət yoxdur!”

---

[1] Şərhi ğürər və dürər, cild 4, səh 207.

[2] Vəsailuş-Şiə, cild 6, səh 277.

O gələcək...

"HƏDY" SÖZÜ LÜĞƏTDƏ

"Hədy" (qurban) sözü ərəbcədən, həccdə və Beytullahil-həramda kəsilən qurbanlığa deyilir. Amma, başqa qurbanlığa ərəbcə "uzhiyyə" deyilir. Belə adlanmanın səbəbi, qurbanlığın Kəbəyə olan ehtiramı və kəramətinə görədir. "Hədy" sözü, hidayət və lütf mənasındadır. Yaxud, qurbanlığın Kəbə və Hərəmə xatir kəsilməsidir. Məsələn deyilir: **"Hədəl ərus ila bəliha."** Gəlini ərinin evinə tərəf apardılar.[1] Quranda oxuyuruq: **"Qurbanlığı öz yerinə çatdırmayınca başlarınızı qırxdırmayın!"**[2]

"Hədiyyə"yə, lüğət kitabı "Müfrədat"a əsasən, o səbəbdən hədiyyə deyirlər ki, bəzilərindən digərlərinə olan lütf və mərhəmətdir. Səba Mələkəsinin Süleymana (ə) hədiyyə göndərməsi barəsində Quranda oxuyuruq: **"Mən onlara hədiyyə göndərəcəyəm. Görüm göndərdiklərim nə ilə qayıdacaqlar?"**[3]

"Hədy" (qurbanlıq) sözü Quranda yeddi dəfə gəlmişdir. Hər biri də həcc və ümrədə kəsilmiş qurbanlıq mənasındadır.

QURBANLIQ

Təmättö həccində iştirak edənlərə vacib olan ikinci əməl, "Mina"da qurbanlıq kəsməkdir. Bu əmələ, ibadət və Allaha yaxın olmaqdan ötrü olduğuna görə "qurbanlıq" deyilir. "Məcməul-bəhreyn" kitabında yazır: **"Allahın rəhmətinə yaxın olmaqdan ötrü görülmüş hər bir xeyir işə "qurbanlıq" deyilir."**[4]

Biz bu bəhsimizdə İmam Səccadın (ə) qurbanlıq barəsindəki kəlamını izah etmək istəyirik. Ona görə də, Qurani-Kərimdə qurban barəsində gələn ayələrdən istifadə etməliyik. Bununla da, bu mövzunun əhəmiyyəti aydınlaşmış olar. Quran buyurur:

"Allahdan ötrü həcc və ümrə (kiçik həcc) əməllərini yerinə yetirin, əgər arada sizə maneçilik olarsa, (sizə) müyəssər olan bir qurbanlıq göndərən, qurbanlıq öz yerinə (Minayə) çatıncaya qədər başınızı qırxdırmayın. Əgər (ehramda ikən, ziyarət zamanı) sizdən xəstələnən və yaxud baş ağrısına tutulub əziyyət çəkən olarsa, belə şəxs, (başı-

[1] Qamus Quran, cild 7, səh 150.
[2] Bəqərə surəsi, ayə 196.
[3] Nəml surəsi, ayə 35.
[4] Məcməul-bəhreyn, "Qurb" kəlməsi.

O gələcək...

nı qırxdırmağın əvəzində) fidyə olaraq (üç gün) oruc tutmalı və ya sədəqə verməli, yaxud da bir qurban kəsməlidir. Əmin olduqda isə həcc vaxtına qədər ümrə ziyarətindən istifadə edən şəxs müyəssər etdiyi bir heyvan kəsməlidir."[1]

Allah-taala, bu ayədə üç dəfə qurbanlıq mövzusuna toxunur.

Birinci: Ehram bağladıqdan sonra xəstəlik və ya qorxu qarşıya çıxıb mane olsun. Bu vaxt bir qurbanlıq kəsmək lazımdır.

İkinci: Qurban bayramı günü Şeytana daş atıb, başını qırxdırmazdan öncə qurbanlıq kəsilməlidir. Qurbanlıq kəsməyincə hacı başını qırxdıra bilməz.

Üçüncü: Əmin olduqdan sonra yəni, hər vaxt təmättö həccini yerinə yetirdikdə əməllərdən biri də şübhəsiz ki, qurbanlıqdır. Bu da, Minada kəsilir.

Başqa yerdə Quran buyurur: **"Ey iman gətirənlər! Allahın müəyyən etdiyi mərasimə (həcc mərasiminə) haram (hörmətli) aya, qurbanlara, boynuna nişan taxılmış qurbanlıqlara, həmçinin, Rəbbinin lütf və razılığını diləyərək Beytül-hərama üz tutub (ziyarətə) gələnlərə hörmətsizlik etməyin!"[2]**

Bu ayədə səkkiz göstəriş gəlib. Onlardan biri qurbanlıqdır. Həcc qurbanı, istər nişanlı, istərsə də nişansız. "Hədy", ərəbcədən qurbanlıq ünvanı ilə Allah evinə aparılmış heyvana deyilir. "Qəlaid", "qəladə" sözünün cəm şəklidir. Ayədə boynuna nişan vurulub qurbanlıqdan ötrü gətirilmiş heyvana deyilir.

Bu ayədə yenə də həmin mövzu bəhs olunur, buyurur:

"Allah, Beytül-həram (müqəddəs ev) olan Kəbəni, haram ayı, boyunları bağsız və bağlı qurbanlıqları insanın düzəldib sahmana düşməsi üçün bir yol müəyyən etdi."[3]

Başqa ayədə yenə də buyurur: **"Ey iman gətirənlər! Ehramda olarkən ovu öldürməyin. Sizdən, ovu qəsdən öldürən hər bir kəsin boynuna cəza və ya kəffarə düşür. Onun cəzası içərinizdən olan iki ədalətli şəxsin hökmü ilə öldürdüyünə bənzər bir heyvanı Kəbəyə çatası qurban etməkdir."[4]**

Bu kəffarənin Kəbənin yanında qurbanlıq olunmasına göstəriş verilir. Diqqət etmək lazımdır ki, din alimləri arasında məşhur nəzəriyyə

[1] Bəqərə surəsi, ayə 196.
[2] Maidə surəsi, ayə 2.
[3] Maidə surəsi, ayə 97.
[4] Maidə surəsi, ayə 95.

O gələcək...

budur ki, ümrədə ehram halında ov etməyin kəffarəsi Məkkədə kəsilməlidir. Lakin həccdə ehram halında ov etməyin kəffarəsi isə Mina və qurbangahda kəsilməlidir.

Yenə də başqa ayədə qurbanlıq mövzusunda buyurur: **"Küfr edənlər də, sizin, Məscidul-hərama daxil olmağınıza maneçilik törədənlər də, qurbanlıqları öz yerinə (qurbangaha) gedib çatmağa qoymayanlar da məhz onlardır (Məkkə müşrikləridir)."**

Allahın Qurani-Kərimdə qurbanlıq məsələsinə işarə etdiyi yeddi mövzu bunlar idi. Bütün bu ayələrdə bəndələrə bildirir ki, qurbanlıqda Allahın rəhmətinə qovuşmaq və yaxın olmaq niyyəti olmalıdır. Xüsusilə qurbanlıq Kəbə üçün olarsa, daha diqqətli olmalıdır.

QURBANLIĞIN YARANMA TARİXİ

Hər kəsin bilmək istədiyi mövzulardan biri də, qurbanlığın nə vaxtdan meydana gəlməsidir? Çünki tarixi nişanələr göstərir ki, müxtəlif millətlər və ümmətlər arasında qurbanlıq məsələsi olmuşdur. Xoşbəxtlikdən Qurani-kərimdə bu mövzunun kökü Adəmin (ə) yaranışı və övladlarının zamanından olduğu bəyan olunur. Maidə surəsində oxuyuruq: **"Ya Məhəmməd! Onlara Adəmin iki oğlunun əhvalatını olduğu kimi söylə! Onlar qurban gətirdikləri zaman birinin qurbanı qəbul edilmiş, digərinki isə qəbul olunmamışdır. Qurbanı qəbul olunmayan Qabil qardaşı Habilə demişdi: "Səni mütləq öldürəcəyəm!" Habil ona belə cavab vermişdi: "Allah yalnız müttəqilərdən qurban qəbul edər!"**[1]

Bu ayədən məlum olur ki, Allah-taalanın rəhmətinə yaxın olmaq yollarından biri də qurbanlıqdır. Adəmin övladları özlərinin hansının Allaha daha yaxın olmaq meyarını qurban kəsmək götürürlər.

İbrahim (ə) Allaha yaxın olmağı sədəqə verməkdə bilirdi. Necə ki, "Tövrat" kitabından məlum olur ki, Allah ona heyvanları qurbanlıq etməyi əmr edir. İbrahimin (ə) övladları da həmin yolla özlərini Allahın rəhmətinə yaxın edirlər.

Həzrəti Musanın (ə) dövründə qurbanlıq iki qisim idi. Bir qisim zibh olur, digər qisim isə Allah yolunda kəsilirdi. Zibh olunan üç qisim idi:

1. Odda yandırılan üçün kəsilən.

2. Xəta və günahın kəffarəsi üçün kəsmək.

3. Sağlamlıq üçün kəsilən.

[1] Maidə surəsi, ayə 27.

O gələcək...

Birinci qisim odda yandırılmalıdır. Təkcə dərisi qalır, o da kahinə məxsus olurdu. İkinci, qurbanlığın yarısı yandırılır, yarısı isə kahinə çatırdı. Üçüncü növ qurbanlığın əti hamıya halal idi.

Rumlular öz tanrılarından ötrü qurbanlıqlar kəsirdilər və onların kahinləri, qurbanlıq vaxtı su, bal və gülab çiləyirdilər. Tarix yazır: "İnsanlar belə qurbanlıqlarda təkcə qoyun və heyvanları kəsməklə kifayətlənmirdilər, hətta, bəzən insanı da qurbanlıq qismində zibh edirdilər.

Finikiyalılar, kənanilər, farslar, rumlular və misirlilərin bir qisminin belə adəti var idi. Nəhayət, 657-ci ildə rumluların əyan və əşrəf məclisi bu növ qurbanlığı qadağan edirlər.

Nəql olunur ki, misirlilər öz bütxanalarına ehtiram göstərməkdən ötrü hər ilin isti ayında, Nil çayında, bakirə qızı gözəl şəkildə bəzədikdən sonra onu suda qərq edirdilər. Bu çirkin adət, misirlilərdə Ömər ibni Xəttabın razılığı ilə Əmr ibni As tərəfindən qadağan edilənə qədər davam edirdi. "Risalətil-hüquq" kitabının müəllifi bu mətləbi "Hikmətultəşriy və fəlsəfə" kitabından, Əl-Əzhər alimlərindən ustad Əhməd Curcaninin dilindən nəql edir.

İslam dini istər insanlar üçün, istərsə də bütlərdən ötrü olan bütün qurbanlıqları qadağan edib, səhih və düzgün qurban kəsməyi öz tərəfdarlarına öyrətmişdir. Keçmiş bəhslərdə bu mövzudakı ayələri zikr etdik. Əslində İslam, insanın fitri meyllərini nəzərə almaqla qurbanlığın yalnız Allahdan ötrü olmasını bəyənir və qurbanlığın kəsilməsi yolunu bəşərə öyrədir. Heç də güman olunmasın ki, qurbanlığın əti ya qanı Allaha çatır, xeyr, bəlkə də, bu iş insanın Allahın rəhmətinə yaxın olmasından ötrüdür. Ona görə də heyvanın başını kəsdikdə "qəsdi-qürbət" (Allaha yaxın olmaq) niyyəti olmalıdır və Allahın adı çəkilməlidir.

QURBANLIQ, ŞƏRİ VƏ ƏQLİ BİR İŞDİR

Keçmiş bəhslərdən belə nəticəyə gəldik ki, qurbanlıq, şəri və əqli bir iş olub, İslam dininin qəbul etdiyi bir əməldir. Bu iş, ruhun paklanması və cəmiyyətin iqtisadiyyatının möhkəmlənməsində geniş rol oynayır. "İləluş-şəraye" kitabında rəvayətlərdən məlum olur ki, qurbanlığın əti təkcə fəqir və yoxsul şəxslərə verilməlidir. İmam Sadiq (ə) İslam Peyğəmbərindən (s) nəql edərək buyurur:

O gələcək...

"Allah-taala, bu qurbanlığı yoxsulların iqtisadi vəziyyətlərinin yaxşılaşmasından ötrü qərar vermişdir. Onlara bu ətdən yedirdin."[1]

Əbi Bəsir nəql edir ki, İmam Sadiqə (ə) ərz etdim: Qurbanlığın səbəbi nədir? Buyurdu: **"Qurbanlıqdan yerə tökülən ilk damcı qana görə Allah-taala, qurban kəsənin günahlarından keçir. Ona görə ki, müttəqi şəxslər Allah dərgahında müəyyən olunsun."** Sonra buyurdu: **"Allah-taala buyurur: Qurbanlığın əti və qanı heç vaxt Allaha çatmır. Çünki, Allahın ona ehtiyacı yoxdur. Bəlkə də, qurbanlıq insanların təqva və pəhrizkarlıqlarından nişanədir."** Daha sonra Həzrət buyurdu: **"Görün, Allah Habilin qurbanlığını qəbul edir və Qabilin qurbanlığını necə rədd edir!"**

Bu hədisdə, qurban kəsənin savab və günahlarının bağışlanmasına, həmçinin, onun ixlasına işarə olunmuşdur. Əli (ə) buyurur:

"Əgər insanlar bilsəydilər ki, qurbanlıqda hansı əzəmət var, borc alıb qurban kəsərdilər. Həqiqətən, qurbanlıqdan yerə tökülən ilk qətrə qan zamanı Allah qurban sahibinin günahlarından keçər."

"Vəsailüş-Şiə" kitabında, İslam Peyğəmbərinin (ə) qızı həzrəti Fatimə (s) buyurur:

"Qurbanlığını kəsən zaman onun yanında hazır və şahid ol! Çünki, qurbanlığın yerə tökülən qanı zamanı günahların bağışlanmış olur." Sonra buyurur: **"Bu mətləb və savab bütün müsəlmanlara aiddir."**

İmam Kazimdən (ə) nəql olunur ki, İslam Peyğəmbəri (s) buyurur: **"Qurbanlıqlarınızı çoxaldın. Çünki, onlar sizin siratın körpüsündən keçməyinizə vəsilə olacaqlar."**[2]

[1] İləluş-Şəraye, səh 437.
[2] İləluş-Şəraye, səh 438, bab 179.

O gələcək...

HAKİM DAİRƏLƏRİN HAQQI

15.HAKİMİN HAQQI

فأَمَّا حَقُّ سَائسكَ بِالسُّلْطَانِ فَأَنْ تَعْلَمَ أنّكَ جُعلْتَ لَهُ فتنَة وأنَّهُ مُبْتَلىً فِيكَ بِمَا جَعَلَهُ اللهُ لَهُ عَلَيكَ منَ السُّلْطَان وَأَنْ تُخلصَ لَهُ في النَّصِيحَة وَأَنْ لا تُمَاحكَهُ وَقَدْ بُسطتَ يَدُهُ عَلَيْكَ فتكونَ سَبَبَ هَلاكَ نفسكَ وَهلاكَه. وتَذَلَّل وتَلطَّف لإعْطائه منَ الرِّضا مَا يَكُفُّهُ عَنْكَ وَلا يَضُرُّ بدينك وتَسْتَعينُ عَلَيْه في ذَلكَ بالله. ولا تُعَازَّهُ وَلا تُعَانَدَهُ فَإنَّكَ إنْ فَعَلْتَ ذلكَ عَقَقْتَهُ وَعَقَقْتَ نَفسَكَ فعَرَضْتَهَا لمَكرُوهه وَعَرَضْتَهُ لِلهَلكَة فيكَ وكُنْتَ خَليقًا أَنْ تَكونَ مُعينًا لَهُ عَلَى نفْسك وَشَريكا لَهُ فِيمَا أتىَ إلَيْكَ. وَلا قُوَّة إلاَ بَالله.

“Hakim dairələrin sənin boynundakı haqqı budur ki, sənin ondan ötrü imtahan amili olmağını və onun da sənin üzərindəki səltənətinə görə imtahan olduğunu bilməlisən! Xalis şəkildə onun nəsihətinə qulaq as və onunla ixtilaf və mübahisəyə qalxma. Halbuki, o sənə hakimdir, özünün və onun həlakətinə səbəb olarsan. Onun yanında özünü təvazökarlıqla apar. Belə ki, onun razılığını ələ gətir bəlkə, sənin dininə zərəri dəyməsin. Bu barədə Allahdan kömək istə! Onunla şövkət və izzətçilikdə müamilə et, düşmənçilik və inadkarlıq etmə! Çünki, əgər belə etsən, həm özünə, həm də ona qarşı naşükürlük etmisən. Özünü onun meylsizlik hüzurunda qərar verib, onu da özünün həlakətində qərar vermiş olarsan. Sən onun işlərində ona kömək etməyə layiqsən. Sənlə nə iş görsə, öz zərərinə də olsa ona şərik ol!

Allahdan başqa heç bir güc-qüvvə yoxdur!”

Hüquq kitabının bu qismində İmam Səccad (ə) cəmiyyətdə hakim dairələrin hüquqlarını bəyan edir. Əvvəlcə cəmiyyətin hakim və sultanın haqqını buyurur. Hakim və sultandan məqsəd, qüdrət sahibidir. Yəni, o kəs ki, cəmiyyətin işləri onun əlindədir.

Bütün insanlar ictimai qanunlar əsasında və əmniyyətdə yaşamaqdan ötrü hər bir cəmiyyətdə sultan və hakimə ehtiyacın olduğunu qəbul edirlər. Hakim dairələr, cəmiyyətdə hərc-mərcliyin qarşısını almaqla insanların asudə yaşayıb təkamül yolunu keçmələrinə kömək etməlidirlər.

HƏZRƏTİ ƏLİNİN (ə) NƏZƏRİNDƏ HAKİMİN VÜCUDUNUN ZƏRURİLİYİ

Həzrət Əli (ə) bu mövzuda buyurur:

"İnsanlardan ötrü bir nəfər hakim zəruridir. İstər yaxşı, istər pis. Mömin onun hökumətində ibadətlə məşğuldur. Kafir öz bəhrəsini alır. (Hamı hakimin olması ilə hərc-mərc və iztirabından amandadırlar.) Allah, onun zamanında hər kəsi öz əcəlinə çatdırar. Onun vasitəsi ilə maliyyat cəm olar. Düşmənlə döyüşər, oğruların yollarının qabağı alınar. Zəifin və gücsüzün haqqı zalimdən alınar. Bununla da yaxşı insanlar pislərin şərrindən amanda yaşayarlar!"[1]

Həzrət Əli (ə) bu sözləri Xəvaricin "həkəmeyn" əhvalatında etiraz edib "hökumət səndən yox, Allahdandır!"dediyi vaxt buyurur. Bu bəyanda Həzrəti Əli (ə) hakimin cəmiyyətdə vücudunun zəruriliyini və onun roluna işarə edir. O yaşayış mühiti möhkəmdir ki, güclü hökuməti olmuş olsun. Bununla da, onun sayəsində hamı əmin-amanlıqda öz hədəflərinə doğru hərəkət etsinlər. Bu bəyanda Həzrət, ümumiyyətlə mütləq hökumətdən və onun əsl vücudundan söz açmışdır.

İMAM RZANIN (Ə) NƏZƏRİNDƏ HAKİMİN VÜCUDUNUN ZƏRURİLİYİ

Fəzl ibni Şazan, İmam Rzanın (ə) dilindən cəmiyyətdə hakimin zəruriliyi barəsində müfəssəl rəvayət nəql edir, sonra buyurur:

"Onun səbəblərindən bəziləri odur ki, bizim heç bir dəstəyə və heç bir millətə sorağımız yoxdur ki, rəhbər və hakimsiz davam gətirsinlər. Çünki, hamı dünya və axirət işlərində hakimə möhtacdırlar. (Rəhbərin vücudu onlardan ötrü zəruridir.) Beləliklə, həkimin hikmətində icazə verilmir ki, əhali özbaşına buraxılsın, halbuki, insanların hakimə ehtiyacı var və həyat sürmələrində ondan asılıdırlar. Hakimin vasitəsilə düşmənlərlə döyüşüb, qənimətləri bölürlər. Öz cümə namazlarını bərpa edir və sitəmkarlardan məzlumların haqqını tələb edirlər."[2]

İmam Rzanın (ə) bu cümlələrindən hakimin vücudunun cəmiyyətdə zəruriliyi aydınlaşır.

---

[1] Nəhcül-bəlağə, 40-ci xütbə.

[2] Əl-həyat, cild 2, səh 386.

O gələcək...

ADİL HAKİMLƏR VƏ ONLARA MƏXSUS XÜSUSİYYƏTLƏR

Qurani-Kərimdə, Allah-taala iki dəstənin hakim və rəhbər olmasını bəyan edir: **Birinci:** Adil və ədalətli Hakimlər (rəhbərlər) **İkinci:** Zalim və sitəmkar hakimlər.

Bu dəstələrin hər birisinin özünə məxsus sifət və xüsusiyyətləri vardır. Qısa şəkildə olsa da, onlara işarə edək. Quran buyurur:

"Biz onları əmrimizlə (insanları) doğru yola gətirən İmamlar (rəhbərlər) etdik. Biz onlara xeyirli işlər görməyi, namaz qılmağı və oruc tutmağı vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər."[1]

Qeyd olunan ayədə, Allah-taala hakim təyin etməyi Özünə nisbət verdikdən sonra onların xüsusiyyətlərini sayır.

Birinci: Cəmiyyəti doğru yola yönəldən və hidayət edəndir.

İkinci: Onlara vəhy olunur. Xeyir işlər, o cümlədən xalqla Xaliqin rabitəsi sayılan namazı (camaat namazını) bərpa edirlər, fəqirlə sərvətlinin rabitəsi sayılan zəkatı verirlər. Nəhayət, onlar cəmiyyətdə rəhbərlik məqamına layiq görülməsindən ötrü abidlik və Allaha itaət etmək xüsusiyyətlərini xüsusilə vurğulayırlar.

QƏLƏBƏ, RƏHBƏRLİKDƏDİR

Allah-taala, Qurani-Kərimdə adil rəhbər və hakimdən ötrü qüvvə və qüdrəti şərt sayır. Bu barədə misallar gətirir. Onlardan biri "Talut"un əhvalatıdır. Talut, uca boylu, bədənli və xoşəndam bir kişi idi. Möhkəm və qüvvətli səbri vardı. Ruhi cəhətdən də çox güclü, alim və tədbirli bir şəxs idi. Bəziləri ona "Talut" adının verilməsini, onun uzun boyuna görə olduğunu bəyan edirlər. Quran buyurur:

"Ya Məhəmməd! Musadan sonra bir dəstə tanınmış İsrail övladının başına gələnləri görmədinmi? Onlar öz Peyğəmbərinə: Bizə bir hökmdar göndər ki, (onun köməyi ilə) Allah yolunda (zülmkarlarla) vuruşaq- dedilər."[2]

Başqa yerdə yenə buyurur:

"(İsrail övladının peyğəmbəri) onlara dedi: Allah Talutu sizə padşah göndərdi. Onlar isə: Biz hökmdarlığa layiq ikən və ona var-dövlət

[1] Ənbiya surəsi, ayə 73.

[2] Bəqərə surəsi, ayə 246.

O gələcək...

verilmədiyi halda, o necə bizə padşah (hakim) ola bilər? – deyə cavab verdilər. Peyğəmbər onlara dedi: Allah sizdən ötrü onu bəyənib seçmiş, elm və bədəncə (qüvvəcə) ona üstünlük vermişdir. Allah, Öz mülkünü (səltənətini) istədiyinə verər. Allahın (lütfü və kərəmi) genişdir. Allah (hər şeyi) biləndir."[1]

Qeyd etdik ki, hakimiyyətin qüdrət və yaxşı tədbirinin olması onun qələbə amilidir. Ayədə, aydın şəkildə İsrail övladlarının istəyi müqabilində, qüdrətli və elmi cəhətdən bilikli hakim seçilir. Talutun fəqirliyinə etiraz edən bir dəstənin müqabilində Allah-taala buyurur: "Mal-dövlətin azlığı rəhbərliyin dəyərini azaltmır. Əhəmiyyətli olan, qüdrət, elm və cismi qüvvədir.

Talut və qoşun başçılığı

Talut ordunun başçılığını öhdəsinə alır və qısa müddət ərzində məmləkəti və ordunu idarə etmək ləyaqətini göstərir. Sonra onları çox xətərli olan düşmənlərə qarşı mübarizəyə dəvət edir. Təkid edir ki, mənimlə yalnız, cihad niyyətində olanlar hərəkət etsinlər. Nəhayət, İsrail övladları qüdrətli hakimləri vasitəsilə Calutun qoşununa qalib gəlirlər.

Bu əhvalatda, rəhbər və hakimiyyətin əsas şəraitini, Allahın istəyi, elm, qüdrət və gücdə bildirilir. Hakim özünün elm və biliyi sayəsində cəmiyyətin səadət yolunu müəyyən edib, əsaslarını hazırlamalıdır. Öz qüdrət və gücü ilə bu yolda çəkdiyi planları vaxtında yerinə yetirməlidir.

İmam Zeynul-abidin (ə) də hakimlərin haqqı barəsində həmin əsaslara işarə edərək buyurur:

"Hakim, Allahın onun sənin üzərindəki hakimiyyəti ilə imtahan olunur." Onun səltənət və qüdrətini Allah verir. Onun qüdrətinə işarə edir, buyurur: **"Onun sənə geniş şəkildə qüdrəti var və sənin onun qüdrətinə diqqət etməməyin, sənin həlak olmağına səbəb olar!"**

Başqa mətləb budur ki, İmam Səccad (ə) buyurur: **"Hakim və rəiyyət hər ikisi imtahandadır".**

Talutun əhvalatında da imtahan mövzusuna işarə olunur. Quran buyurur: **"Talut qoşunu ilə (öz yurdundan, Qüdsdən) ayrıldığı zaman (əsgərlərinə) dedi: Allah sizi (axar) bir çay vasitəsilə imtahan edəcək. Kim onun suyundan içsə, o məndən (mənə tabe olanlardan) deyildir. Kim ondan dadmasa, dadsa da bir ovucdan artıq içməsə, o məndəndir! Lakin, onların az bir qismi müstəsna olmaqla, hamısı o sudan içdi".**[2]

[1] Bəqərə surəsi, ayə 247.
[2] Bəqərə surəsi, ayə 249.

O gələcək...

Qüdrətdən istifadə zövqü, Zülqərneynin əhvalatı

Qurani-Kərim bu mövzuda başqa bir misala işarə edir. Cəmiyyətin hakimi qüdrətli və bacarıqlı olub, öz qüdrətini insanların nicatı yolunda istifadə etməlidir. Bu, Zülqərneynin əhvalatıdır. Quran buyurur: **"Nəhayət, iki dağ arasına gəlib çatdıqda, onların ön tərəfində az qala söz anlamayan bir tayfa gördü."**[1]

İşarə olunur ki, Zülqərneyn dağlıq bir yerə çatır. Orada, şərq və qərbdəkindən başqa bir cəmiyyət görür və onların mədəni cəhətdən aşağı səviyyədə olduğunu müşahidə edir. Çünki, ayədə qeyd edir ki, onlar dil analmırdılar. Bəşərin ən aydın təkamül və ya mədəniyyəti sayılan, danışıqdan bəhrələnə bilmirdilər. Yaxud, fikr və zehni cəhətdən çox geridə qalmışdılar.

Bu tayfa, "Yəcuc və Məcuc" adlı qaniçən tayfadan İskəndərə şikayət edirlər. Onlar bu qaniçən tayfanın fitnə-fəsadından xəbər verir və İskəndərdən istəyirlər ki, hər nə istəyirsənsə, sənin ixtiyarında qoyuruq, yalnız, bizimlə onların arasında sədd çək! Quran bu mövzuda buyurur:

"Onlar (tərcüməçi vasitəsilə) dedilər: Ey Zülqərneyn! Yəcuc və Məcuc tayfaları bu ərazidə fitnə-fəsad törədirlər. Bizimlə onlar arasında sədd çəkmək üçün sənə müəyyən məbləğ (yaxud xərac) vermək olarmı?

Zülqərneyn dedi: Rəbbinin mənə verdiyi (qüdrət və bəsirət sizin mənə verəcəyiniz məbləğdən) daha yaxşıdır. Gəlin öz qüvvənizlə (bənna, fəhlə, dülgər və s.) mənə kömək edin, mən də sizinlə onlar arasında möhkəm bir sədd düzəldim!

Mənə dəmir parçaları gətirin! (onlar gətirdilər.) Zülqərneyn iki dağın arasını (dəmir parçaları ilə doldurub) bərabərləşdirən kimi: Köpükləri üfürün! – dedi. (Onlar köpükləri üfürdülər.) Zülqərneyn dəmiri od halına salınca: Mənə ərimiş mis gətirin, onun üstünə töküm! – dedi."[2]

Burada Zülqərneyn mühüm bir işi yerinə yetirir. Başqa hakim olsaydı, əhalinin boynuna minnət qoyardı. Amma Allah adamı olduğuna görə böyük ədəblə izah edir ki, bu mənim Pərvərdigarımın lütfündəndir.

Bu əhvalatda qüdrətli rəhbər öz imkanından cəmiyyətin mənafeyi üçün istifadə edir. Onun müqabilində əhali də ona təşəkkür edirlər. Bu-

[1] Kəhf surəsi, ayə 93.
[2] Kəhf surəsi, ayə 94-96.

O gələcək...

dur, qüdrətli və adil hakimin xüsusiyyəti! Necə ki, Həzrət Əli (ə) də öz bəyanında bu xüsusiyyəti cəmiyyətin nicatı sanaraq, buyurur:

"Saleh insanların nicatı adil və saleh hakimlərin əlindədir. Həmçinin hər bir millətin həlakəti və məhv olması, onun zalım və sitəmkar hakimlərin yetirmələrindəndir".[1]

ADİL RƏHBƏRLƏRİN TANINMASI VƏ ONLARDAN İTAƏT

İmam Sadiq (ə) buyurur:

"İmam Hüseyn (ə) öz əshabının yanına gələrək buyurur:

Ey insanlar! Allah-taala, bəndələrini Onu tanımaqdan ötrü yaratmışdır. Elə ki, Onu tanıdılar, Ona pərəstiş edərlər və Ondan qeyrisindən ehtiyacsız olarlar.

Bir nəfər soruşdu: "Atam-anam sənə qurban! Allahı tanımaq nədir?"

Buyurdu: "Hər bir əsrin insanlarının itaəti, ondan vacib olan rəhbəri (İmamı) tanımaq!"[2]

Bu bəyanda Həzrət, Allahı tanımaq yolunu adil rəhbəri tanımaqda görür.

Misirlilərin adil və alim hakimin əli ilə nicatı

Qurani-kərimdə oxuyuruq ki, Yusif (ə) zindandan çıxarkən, Misir padşahının yanında ləyaqətli olduğu aşkar olur. Padşah ona ən yüksək vəzifədə məsuliyyət almağı təklif edir. Yusif (ə) ona belə təklif edir:

"Misir ölkəsinin xəzinəsini mənim ixtiyarımda qoy! Çünki mənim iki xüsusiyyətim var, o da bu vəzifəni qəbul etməyi tələb edir: Birinci: Əhalinin malının qoruyucusuyam. Rəhbərliyin şəraitindən biri də əmanətdarlıqdır. O da məndə var. İkinci: İqtisad elmində geniş biliyə malikəm. Onun vasitəsilə ölkənin gəlirini və xərcini necə hesablamağı yaxşı bilirəm!"

Misir padşahı bu həssas vəzifəni ona tapşırır. Yusif (ə) uzun qıtlıq illərində ölkəni elə idarə edir ki, bu cəmiyyətin həlakətdən nicatına səbəb olur.

---

[1] Əl həyat, c. 2, səh 385.

[2] Biharul-ənvar, cild 5, səh 312.

O gələcək...

ƏDALƏTLİ HAKİM EHTİRAMA LAYİQDİR

İslam Peyğəmbərindən (s) və məsum imamlardan (ə) adil hakimə ehtiram olunması barədə çoxlu rəvayətlər nəql olunmuşdur. Onlardan bəzilərinə işarə edirik:

Birinci: İslam Peyğəmbəri (s) buyurur:

"Hakim dairələrinizə ehtiram və ikram edin. Çünki onlar yer üzündə Allahın sayəsi və sizin izzət və qüdrətinizə səbəbdir. Əlbəttə, əgər onlar ədalətlə rəftar etsələr hörmətə layiqdirlər!" (Adil hakimin ehtiramı lazımdır. Zalım və sitəmkar hakimə ehtiram yoxdur.)[1]

İkinci: Ömər nəql edir: "İslam Peyğəmbərinə (s) ərz etdim: Mənə elə bir hakimdən xəbər ver ki, onun müqabilində boyunlar əyilsin və bədənlər təvazökar olsunlar!

Buyurdu: **"Hakim yer üzündə Allahın kölgəsi olmalıdır. Əgər yaxşı iş görsə, mükafat və savabı var. Sizə də ona təşəkkür etmək vacibdir. Əgər pis iş görsə, ağırlığı özünün öhdəsindədir. Fitnələrinə səbr edib dözümlü olun!"**[2]

Bu hədisdə İslam Peyğəmbəri (ə) ehtiram və təşəkkürü, adil hakimin müqabilində qərar verir.

Üçüncü: İmam Kazımdən (ə) nəql olunur ki, öz şiələrinə buyurur:

"Hakimin fərman və göstərişlərindən qaçmaqla, özünüzə zillət və xarlığı rəva bilməyin. Çünki, əgər hakim adildirsə, Allahdan hakimiyyətdə uzun müddət qalmasını istəyin. Əgər zalımdırsa, Allahdan islah olunmasını istəyin. Ədalətli hakim, mehriban ata yerindədir. Özünüzə nə istəyirsinizsə ona da istəyin. Özünüzə bəyənmədiyinizi ona da bəyənməyin!"[3]

İmam Kazım (ə) bu hədisdə, ədalətli hakimi mehriban ata kimi tanıtdırır. Layiqli ata cəmiyyətə layiqli övladlar verdiyi kimi, ədalətli hakim də cəmiyyəti kamal və ləyaqətli işlərə tərəf aparacaqdır!

Dördüncü: İslam Peyğəmbəri (s) buyurur:

"Allah-taala, göyləri üç şeylə bəzəmişdir: Günəş, ay və ulduzlar. Yeri də üç şeylə bəzəmişdir: Alimlər, yağış və ədalətli hakim."[4]

---

[1] Şərhi risalətul-hüquq, Qapançı, cild 1, səh 382.
[2] Şərhi risalətul-hüquq, Qapançı, cild 1, səh 382.
[3] Şərhi risalətul-hüquq, Qapançı, cild 1, səh 382.
[4] Şərhi risalətul-hüquq, Qapançı, cild 1, səh 382.

O gələcək...

Bu hədisdə də bəşər cəmiyyətinin abad və islah olunması, ədalətli hakimin girovunda olduğu bəyan olunur.

Hülaku xanın sualı

Hülaku xan 656-cı ildə Bağdadı fəth edərkən, əmr edir ki, bütün alimlərdən soruşulsun: Ədalətli hakim üstündür yoxsa, zalım müsəlman hakim?

Bütün alimlər "Müstənsəriyyə" adlı mədrəsədə cəm olurlar. Sualı oxuyurlar. Amma cavab verməkdən çəkinirlər. Bu məclisdə Rəziəddin Əli ibn Tavus da var idi. Alimlər ona böyük hörmət edirdilər. Alimlərin suala cavab verməkdən çəkindiyini görüb, əlinə qələm alıb bu şərhlə yazır: **"Ədalətli kafirin zalım müsəlmana üstünlüyü var."** Bu həmin hədisə işarədir ki, İslam Peyğəmbəri (s) buyurur:

"Hökumət, hakim kafir də olsa ədalətlə rəftar edərsə, qalacaq. Hakim müsəlman da olsa, ədalətsiz olsa, hökumət qalmaz!"[1]

HÖKUMƏT MƏSƏLƏLƏRİNƏ ELM VƏ AGAHLIQ

İslam hakiminin ən yaxşı xüsusiyyətlərindən biri, hökumət məsələlərindən agahlığıdır. Əvvəlcədən Talutun əhvalatında Quranın nəzəri bu idi ki, hakim bədəncə qüvvətli, cəmiyyətin idarəsində agah və alim olmalıdır. Hakimin hökumət məsələlərinə elmi, yol göstərən çırağa bənzər. Bu elm, hakimə qaranlıq məsələlərdə nicat verir.

Hakimlərdən bəzilər deyirlər: **"Əgər hakimin bəhrələnə biləcəyi elmi olmasa, həmlə və hücum vaxtı heç bir şeyə fikir verməyib hər şeyi dağıdan filə bənzər. Çünki, nə ağlı, nə də elmi var. Ağıl və elmin hər ikisi zülmün qarşısını alır.**

ÇƏKİNMƏK VƏ QORXU

Hakimin yaxşı xüsusiyyətlərindən biri də Allahdan qorxmaqdır. Allahdan qorxmaq, hər bir xeyir işin əsli və bərəkət açarıdır. Hakim bu xüsusiyyətə malik olarsa, rəiyyət də onun əlindən əmin-amanlıqda olar. Həzrət Əlinin (ə) həyatı barəsində yazırlar:

[1] Şərhi risalətul-hüquq, Qapançı, cild 1, səh 385.

"Günlərin birində Həzrət xidmətçilərdən birini səsləyir. Lakin, xidmətçi cavab vermir. Yenidən çağırır. Cavab vermir. Üçüncü dəfə çağırır, yenə də cavab vermir. Bir nəfər içəri girib Həzrətə buyurur: Ya Əmirəl-möminin! Xidmətçi qapının dalında durub qəsdən cavab vermir!

Bu vaxt xidmətçi içəri daxil olur. Həzrət ondan soruşur: Mənim səsimi eşidirdinmi?

Cavabında: Bəli! – deyə buyurur.

Həzrət: Bəs nəyə görə cavab vermirdin?

Cavab verir: Siz tərəfdən əzabdan əmin olduğuma görə cavab vermədim!

Həzrət buyurur: Allah-taalaya şükr edirəm ki, məni, xalqın ondan amanda olan şəxs kimi qərar verib!"

ƏFV VƏ BƏXŞİŞ

Adil hakimin xüsusiyyətlərindən biri də əfv və bəxşiş əhli olub, əhalinin xırda xətalarını bağışlaya bilməsidir. Allah-taala Quranda buyurur:

"Onları əfv edib, (cəzalandırmaqdan) vaz keçsinlər! Məgər siz (bu yaxşılıq müqabilində) Allahın sizin (günahlarınızı) bağışlamağını istəmirsinizmi? Allah (bəndələrini) bağışlayan və rəhm edəndir!"[1]

Həzrət Əli (ə) sözlərindən birində buyurur:

"Düşmənə qələbə etdiyin vaxt onu bağışla, bununla da qələbə nemətinin şükrünü yerinə yetirmiş olarsan!"[2] Həzrət, Malik Əştərə yazdığı məktubda yazır:

"Heç vaxt bağışlamaqdan peşiman olma, əzab və cəza verməkdən şad olma!" Yenə də həmin məktuba yazır:

"Rəiyyəti əfv və bəxşişindən bəhrələndir. Necə ki, Allahın da sənin öz günahlarından keçdiyini istəyirsən. Çünki, sənin məqamın onlardan üstündür. Sənə bu vilayəti verən səndən üstün və Allah da sənə bu vilayəti verəndən üstündür."[3]

[1] Nur surəsi, ayə 22.
[2] Nəhcül-bəlağə, Qısa kəlmələr 10.
[3] Nəhcül-bəlağə, 53-cü məktub.

O gələcək...

ƏHDƏ VƏFA

Hakimin seçilmiş sifətlərindən biri də əhd-peymanlarına vəfadar olmasıdır. Allah-taala bu barədə buyurur:

"Əhdə vəfa edin. Çünki (insan) əhd barəsində Qiyamət günü cavabdehdir."[1]

ÖLKƏNİN VƏ ƏHALİNİN GÜNDƏLİK İŞLƏRİNDƏN XƏBƏRDAR OLMAQ

Adil hakimin xüsusiyyətlərindən biri də ölkənin işlərinə agah olub, cəmiyyətdə baş verənləri bilməkdir. O cümlədən, əhalinin giriftarçılığını, çatışmamazlıqlarını və onların aradan qaldırılması yollarını bilmək lazımdır. Həzrəti Əli (ə) bu mövzuda Malik Əştərə buyurur:

"Ey Malik! Rəiyyətlə özün arasında uzun pərdə çəkmə. Əhalinin işləri səndən gizlində qalmasın. Çünki hakimlərin rəiyyətdən xəbərsizliyi və onların işlərinə göz yummaları, hakimin gündəlik işlərindəki nöqsandır. Əgər əhalinin işləri hakimə gizlin qalsa və birbirlərindən xəbərdar olmasalar, sözsüz ki, hakim bilməyi lazım olan işlərdən məhrum qalacaqdır. Bu da səbəb olar ki, kiçik mövzular hakimin nəzərində böyük, böyük məsələlər isə ona kiçik görünsün. Yaxşı əməl sahibinin işi qəbih, qəbih iş görən isə yaxşı şəxs kimi tanınar. Həmçinin, haqqla batil qatışıb biri digərinə oxşayar."

Həzrət bu sözləri ilə hakimin əhali ilə sıx rabitədə olmağına işarə edir. Hakim, cəmiyyətin bütün işlərinə alim və ölkədə baş verən hadisələrə tanış olmalıdır. Bu da hakim dairənin müvəffəqiyyətlərindən sayılır.

Bura kimi ayə və rəvayətlərdə ədalətli hakimin xüsusiyyətlərindən bəhs etmişik. İndi də cəmiyyətdə zalım və sitəmkar hakimin roluna nəzər salaq.

TÜĞYANGƏR VƏ ZALIM HAKİMLƏR

Qeyd etdik ki, Allah-taala Qurani-Kərimdə iki növ hakimə işarə edir: **Adil hakimlər və nurlu rəhbərlər; Zalım hakimlər.** Tüğyangər hakimləri, Quran belə bəyan edir:

[1] İsra surəsi, ayə 34.

O gələcək...

"Biz onları (dünyada insanları) Cəhənnəm oduna (küfrə, şirkə) çağıran rəhbərlər etdik. Qiyamət günü onlara (Allahın əzabından qurtarmaq üçün) heç bir kömək edilməyəcəkdir!"[1]

Burada qarşıya çıxan sual budur ki, peyğəmbərlərin dəvətləri insanları xeyir və səadətə dəvət etmələri olan halda, Allah-taala batil rəhbərləri necə qərar verir? Sualın cavabında demək lazımdır ki: Zalım rəhbər olmaları əslində, onların öz əməllərinin nəticəsidir. Bilirik ki, hər bir səbəbin təsiri Allahın izni ilədir. Onlar elə bir yol tutublar ki, azğın rəhbərliklə nəticələnir. Bunun da dəlili odur ki, onlar cəhənnəmliklərin başçısıdır. Dünyada yollarını azmışların başçıları olduqları kimi Cəhənnəmdə də cəhənnəmliklərin başçısı olacaqlar. Ona görə də dünya və axirətdə Allahın lənətində qərar tutublar. Həmin ayənin ardınca Allah-taala buyurur:

"Bu dünyada onlara lənət damğası vurduq. (Hamı onlara lənət oxuyar.) Qiyamət günü isə onlar çirkin, iyrənc (və Allahın rəhmətindən kənar edilmiş) kimsələr olacaqlar."[2]

Allahın lənəti, yəni, Onun rəhmətindən uzaq olmaq. Mələklərin və möminlərin lənəti isə onlara nifrinlə birlikdədir.

İlahi rəhbərlər düzgün yola dəvət edirlər. Lakin, zalım hakimlər cəhənnəm atəşinə və yolsuzluğa dəvət edirlər.

Yenə də bu iki dəstənin xüsusiyyətlərindən İmam Sadiqdən (ə) nəql olunan hədisdə gəlib: Həzrət buyurur:

"Adil hakimlər, Allahın əmrini xalqın və özlərini əmrlərinə üstün və müqəddəm bilirlər. Onun hökmünü ən üstün hökm bilirlər. Halbuki, zalım hakimlər öz hökmlərini Allahın hökmündən üstün bilib, özlərinin əmrlərini Onun əmrindən əvvəl sayırlar."[3]

Dünyada hər bir rəhbər, bir cəmiyyəti öz arxasınca apardığı kimi, bu kiçik dünyanın böyük təcəssümü sayılan axirətdə də belə olacaqdır. Buşr ibn Ğalib, İmam Sadiqdən (ə) belə nəql edir: Həzrətdən **"O gün bütün insanları öz rəhbərləri ilə çağıracağıq" –** ayəsinin şərhini soruşdum. Həzrət buyurdu:

Bir hakim düzgün yola dəvət edir, bir dəstə də ona cavab verirlər. Başqa bir rəhbər zəlalətə çağırır, bir dəstə də ona cavab verib çağırışına gedirlər. Birincilər behiştdə, ikincilər isə cəhənnəmdədirlər. Budur Allahın dediyi sözlərin mənası: Bir dəstə cənnətdə və bir dəstə cəhənnəmdədir!"[4]

İmam Sadiq (ə) buyurur:

[1] Qəsəs surəsi, ayə 41.
[2] Qəsəs surəsi, ayə 42.
[3] Təfsiri Nümunə, cild 16, səh 92.
[4] Təfsiri "Nurus-Səqəleyn", cild 3, səh 192.

O gələcək...

"Həqiqətən, zalım və sitəmkar hakimin himayəsində, haqq köhnələr, batil təzələnər. Zülm, fəsad və təcavüz aşkar olub hər yeri tutar"[1].

İslam Peyğəmbəri (s) buyurur:

"Hər bir şeydən ötrü bəla vardır. İslam dininin də bəlası, fasid və tuğyankar hakimlərin hakimiyyətidir!"[2]

İmam Baqir (ə) buyurur:

"Üç nəfər var ki, cəmiyyətdə və insanlar arasında ehtiramı yoxdur:

Birinci: O kəs ki, bidət qoymaq niyyətində olar.

İkinci: Zalım hakim.

Üçüncü: Öz fasiqliyini aşkar edən fasiq".

Yuxarıdakı bəyanlardan, tüğyankar hakimin, haqqı aradan aparıb, batil və fəsadı canlandırmaqdakı rolu məlum olur.

Tüğyankar hökumət insanları nurdan çıxarıb, zülmətə doğru aparır

Allah-taala Quranda buyurur:

"Allah, Ona inananların dostudur. Onları zülmətdən çıxarıb, nura tərəf yönəldər. Kafirlərin dostu isə Şeytanlardır. Onları (kafirləri) nurdan ayırıb zülmətə salarlar".

İmam Sadiq (ə) buyurur:

"Hər kim zalım hakimin himayəsinə daxil olsa, dini yoxdur. Hər kim adil hakimə yaxınlaşsa, qorxusu yoxdur!"

İbn Əbi Yəfur nəql edir ki, İmam Sadiqdən (ə) soruşdum: "Onların dini yoxdur, ikinci dəstənin qorxusu yoxdur?!"

Buyurdu: "Bəli! O dəstənin dini yoxdur. İkinci dəstənin qorxusu yoxdur. Məgər Allahın sözünü eşitməmisən buyurur: Allah, möminlərin dostudur. Onları zülmətdən nura tərəf aparır. (Əksinə, kafirlərin hamisi, insanı nurdan zülmətə tərəf aparır.)"[3]

HƏZRƏT ƏLİNİN (Ə) NƏZƏRİNDƏ XƏYANƏTKAR HAKİM

Həzrət Əli (ə) Fars körfəzindəki öz işçisi, Müsqələ ibn Hübeyrə Şeybaniyə yazır:

[1] Əl-həyat, cild 2, səh 405.

[2] Nəhcül-Fəsahə, 2255-ci hədis.

[3] Əl-həyat, cild 2, səh 406.

O gələcək...

"Səndən elə bir şey eşitmişəm ki, əgər belə bir iş görmüsənsə, Allahın qəzəbinə gəlmisən və Onun amanında deyilsən.

Mənə xəbər çatıb ki, nizələr, atların dırnaqları ilə bir yerə yığılmış, üzərinə qanları tökülmüş müsəlmanların mallarını, səni seçən ərəb qohumlarının arasında bölürsən? And olsun o Allaha ki, toxumu yardı və insanı yaratdı! Əgər bu xəbər doğrudursa, mən səndən bizarəm və mənim yanımda özünü yüngül etmisən. Belə olan halda, Rəbbinin haqqını xar etmə, dinini azaltmaqla dünyanı artırma ki, hamıdan çox ziyanda olanlardan olarsan!"

"Biharul-ənvar"ın nəqlinə əsasən, sonra belə yazır:

"Ən böyük xəyanət, ümmətə olan xəyanət, ən böyük hiylə və sitəm hakimin xəyanətidir. Sənin yanında müsəlmanların hüququndan beş yüz min dinar var. Mənim elçim sənin yanına gələn kimi onu mənə göndər!"[1]

Bu məktubda, Müsqələ çapqınlıq əlini müsəlmanlara uzatdığına görə Əli (ə) tərəfindən məzəmmət olunur. Həzrətin mübarək nəzərində hakimin xəyanəti ən böyük xəyanətdir.

ƏBUZƏR VƏ ONUN İSTƏYİNİN RƏDDİ

Əbuzər Ğəffaridən nəql olunur, buyurur: "İslam Peyğəmbərinə (s) ərz etdim: "Məgər məni hökumətdə bir məqama seçmirsənmi?"

Peyğəmbər (s) mübarək əli ilə çiyninə vurdu və buyurdu: **"Ey Əbuzər! Sən zəifsən! Hökumət əmanətdir. Qiyamət günündə hökumət, peşmançılıq və rüsvayçılıqdır. Yalnız o kəslər ki, haqlı olaraq onu almış və onda olan hüquqları əda etmişlər".**[2]

Bu əhvalatda görürük ki, Əbuzər İslam Peyğəmbərinin (s) xüsusi əshabından sayılmasına baxmayaraq, İslam Peyğəmbəri buyurur: **"Hökuməti idarə etmək qüdrətin yoxdur!"**

Hakimin hüququndan bu qədər kifayətdir. İndi də başqa hüquqlara qayıdaq.

[1] Biharul-ənvar, cild 33, səh 416.

[2] Şərhi Risalətul-huquq, Qapançı, cild 1, səh 374.

O gələcək...

16. USTADIN HAQQI

وأَمَّا حَقُّ سَائِسكَ بالعلْمِ فالتَّعْظيمُ لَهُ والتَّوْقيرُ لمَجْلسه وَحُسْنُ الاسْتِمَاعِ إليه وَالإِقْبَالُ عَلَيْه وَالْمَعُونةُ لَهُ عَلَى نفْسكَ فيمَا لا غِنَى بكَ عَنْهُ منْ العلْمِ بأَنْ تَفرِّغَ لَهُ عَقلك وَتُحْضرَهُ فَهْمَكَ وتُزكِّي لَهُ قلْبَكَ وتُجلِّي لَهُ بَصَرَكَ بتَرْكِ اللَّذَّات وَنقْص الشَّهَوَات، وَأَنْ تَعْلَمَ أَنَّكَ فيمَا أَلقَى إلَيْكَ رَسُولُهُ إلى مَنْ لقيَكَ منْ أَهْلَ الجَهْل فلزمَكَ حُسْنُ التَّأْديَة عَنْهُ إلَيْهمْ، ولا تَخُنْهُ في تَأْديَة رسَالته وَالقيَام بهَا عَنْهُ إذا تَقلَّدْتَهَا. وَلاَ حَوْلَ وَلا قوَّةَ إلاَّ بالله.

“Müəllimin haqqı sənin boynunda odur ki, ona hörmət edəsən. Dərs məclisini möhtərəm bilib, dərsinə yaxşı qulaq as, ona diqqət et. Ona kömək et ki, sənin ehtiyacın olanı sənə öyrətsin. Bu yolda ağlını hazır, düşüncəni, huşunu və qəlbini ona tapşır. Gözlərini öyrənməkdən ötrü tamamilə ona tərəf yönəlt. Bu da yalnız, ləzzətləri tərk edib, şəhvət və istəklərini azaltmaqla mümkündür. Bil ki, elmdən sənə öyrətdiyi şeyi, onun elçisi olub, bilməyənlərə çatdırmalısan. Sənə vacibdir ki, bu risaləti yaxşı yerinə yetirəsən. Vəzifəni yerinə yetirməkdə xəyanət etməyəsən. Öhdənə aldığını çatdırmaqda və onu bərpa etməkdə yaxşı əməl et! Allahdan başqa heç bir güc-qüvvə yoxdur!”

“Məkarimul-əxlaq” kitabında həmin mövzuda başqa cümlələr nəql olunur. Ona işarə edirik:

“Müəllimin müqabilində səsini ucaltma. Onun sual soruşduğu şagirdlərin heç birinin əvəzindən özü cavab verənə qədər cavab vermə. Onun məclisində başqası ilə danışma və heç kimin qeybətini etmə. Hər vaxt sənin hüzurunda onu pisliklə yad etsələr, onu müdafiə et. Eyblərini gizlə, fəzilətlərini aşkar et. Onun düşməni ilə oturma və dostu ilə düşmənçilik etmə. Əgər belə etsən, Allahın mələkləri şəhadət verərlər ki, Allahı nəzərdə tutmusan və müəlliminin elmini insanlara görə yox, Allaha görə öyrənmisən!”

İmam Səccadın (ə) müəllim barəsində nəql etdiyi hüquqların məcmuəsi, xülasə şəklində aşağıdakılardan ibarətdir:

1. Müəllimi böyük bilib, hörmət etmək;
2. Elm və bilikdə müəllimdən kömək almaq;
3. Müəllimin hüzurunda mətləbi öyrənmək üçün qəlbi hazırlamaq;
4. Səsini ustadın səsindən çox ucaltma;
5. Sual vaxtı başqasının yerinə cavab vermə;
6. Müəllimin müqabilində qeybət etmə;

O gələcək...

7. Əgər sənin müqabilində müəlliminin pisliyinə danışsalar, onu müdafiə et;

8. Müəlliminin eybini ört;

9. Müəlliminin fəzilətlərini aşkar et;

10. Müəlliminin düşmənləri ilə oturma;

11. Müəlliminin düşməni ilə dostluq etmə.

ELMİN MƏQAMININ ƏHƏMİYYƏTİ

Müəllimin haqqı barəsindəki bəhsin başlanğıcında yaxşı olar ki, bir az da İslam və Quranda elmin dəyərindən söz açaq. Elmin dəyəri hamıya aydındır. Hər bir insan fitri olaraq elmi çox sevir, elmin və alimin müqabilində təvazökardır. İslam Peyğəmbərinə (s) ilk dəfə vəhy olunarkən, elm mövzusunda danışılır. Quran buyurur: **"Səni yaradan Rəbbinin adıyla oxu!"**

Rəbb və tərbiyət məsələsi, yaranmış və xilqət məsələlərindən olub, mühüm elmi mətləblərdəndir. Oxumağa əmr olunmasının ardınca, qələmlə təlim mövzusu bəyan olunur, buyurur:

"O Rəbbin ki, qələmlə (yazmağı) öyrətdi. O Rəbbin ki, insana bilmədiklərini öyrətdi".[1]

Təlim, bilik öyrətmək, öyrənmək, qələmlə yazmaq və nəhayət, insanın bilmədiklərini öyrətmək. Bu mövzu o qədər mühümdür ki, vəhyin başlanğıcında insanın yüksək elmi məqama çatması və insaniyyətin ali dərəcələrindən sayılıb, maddi aləmdən mələkut aləminə və Allaha yetişməklə bəyan olunur. Quran, elm və bilik mövzusunda insanların vicdanlarını münsifliyə çağırır, buyurur:

"De ki: Heç bilənlərlə bilməyənlər (alimlə - cahil) eyni ola bilərmi? Allahın ayələrindən, dəlillərindən yalnız, ağıl sahibləri ibrət alar!"[2]

Əgər Quran deyirsə: **"De ki: Murdarla təmiz bir ola bilməz!"**[3]

"Kor ilə görən eyni olmaz! Zülmətlə nur da eyni deyildir. Kölgə (sərin) ilə isti eyni olmaz!"[4] Ayələrdəki **"pak, görən, nur və kölgə ",** elm və bilik mənasındadır. Başqa tərəfdən, **"murdar, kor, zülmət və isti"** sözləri də nadanlıq və cəhalətə işarədir.

---

[1] Ələq surəsi, ayə 4-5.

[2] Zumər surəsi, ayə 9.

[3] Maidə surəsi, ayə 100.

[4] Fatir surəsi, ayə 19-21.

O gələcək...

Quran başqa yerdə buyurur:

"Onlara belə cavab ver: Mənimlə sizin aranızda Allahın və kitabı bilənlərin şahid olması yetər!"[1]

Bu ayədə, "alim", peyğəmbərliyə şahid ünvanı ilə "Allah"ın şəhadətinin yanında qeyd olunur. Bu da alimin Allah yanında məqam və ləyaqətini bəyan edir. Quran buyurur:

"Allah sizdən iman gətirənlərin və (xüsusilə) elm bəxş edilmiş kimsələrin dərəcələrini ucaldar."[2]

Elm və biliyin əhəmiyyəti müxtəsər bəyan olduqdan sonra müəllim və ustadın məqamına nəzər salaq.

MÜƏLLİMİN MƏQAMININ ƏHƏMİYYƏTİ

İslam Peyğəmbəri (s) buyurur:

"Alimləri ziyarət etmək, Allah yanında kəbə evini yetmiş dəfə təvaf etməkdən istəklidir. Həmçinin, yetmiş dəfə qəbul olunmuş həcc və ümrədən fəzilətlidir. Allah onu yetmiş dərəcə ucaldar, Rəhmətini ona nazil edər və belə bir şəxsə mələklər behiştin vacib olmasını şəhadət verər."[3]

İslam Peyğəmbəri (s) əhalini alimlərin dərslərində iştirak etməyə dəvət edərək, buyurur:

"Ey Əbuzər! Elmi müzakirə ilə məşğul olan alimin məclisində oturmaq, Allah yanında min gecə oyaq qalıb, hər gecə min rəkət namaz qılmaqdan fəzilətlidir. Ey Əbuzər! Elmi mövzuları araşdıran alimin hüzurunda bir saat oturmaq, Allah yanında min döyüşdə iştirak edib, bütün Quranı oxumaqdan əfzəldir!"[4]

İslam Peyğəmbəri (s) yenə də buyurur:

"Alim və müəllim yanında oturan hər bir möminə, Allah buyurar: Mənim dostumun yanında oturmusan. And olsun izzət və cəlalıma, səni behiştə onunla birlikdə sakin edəcəyəm və buna heç bir şey manə ola bilməz!"[5]

Bu bəyanda, tədris və elmi müzakirə ilə məşğul olan müsəlman mömin alim, Allahın dostu və həbibidir. Mərtəbələri o qədər ucadır

[1] Rəd surəsi, ayə 43.
[2] Mücadilə surəsi, ayə 11
[3] Əl-həyat, cild 2, "İddətul-dai" kitabından nəql, səh 66
[4] Biharul-ənvar, cild 1, səh 203
[5] Biharul-ənvar, cild 1, səh 203

O gələcək...

ki, onun dərsində iştirak edən hər tələbə və şagirdə behişt vacib olur. Əlbəttə bu savablar, o müəllim və şagirdə çatır ki, Allahın razılığına xatir dərs deyib, dərs öyrənsinlər. Hədəfləri dünya olmasın.

USTAD VƏ MÜƏLLİMİN ROLU

İmam Cavad (ə) buyurur:

"Hər kim natiq və danışana qulaq assa, ona pərəstiş etmiş olur. Əgər danışan Allah tərəfindən olsa və Allah sözü danışsa, eşidən ibadət etmiş olur. Əgər danışan Şeytanın dili ilə danışsa, eşidən Şeytana ibadət etmiş olur."[1]

Bu hədisdə, bəyan və sözün təsiri o həddə çatır ki, əgər eşidən danışan müəllimin sözünə diqqət etsə, sözün qiymətini yaxşı anlayar.

Həzrət Əlinin (ə) Malik Əştərə tövsiyyəsi

Həzrəti Əli (ə) Malik Əştərə buyurur:

"Ey Malik! Alimlərlə çox oturub, ariflərlə danışmağını artır. Onların bəyanlarından, ölkənin işlərini möhkəmlətməkdə və səndən əvvəlki insanların bərpa etdiklərini yenidən bərpa et!"[2]

Müəllimin roluna aid əhvalatlar

Birinci: Ömər ibn Əbdül Əzizin özü Bəni Üməyyə nəslindən idi. Uşaqlarla oynayarkən, Müaviyənin Həzrəti Əli (ə) barəsində öyrətdiyi söyüşü təkrar edirdi. Günlərin birində müəllimi onun yanından keçərkən bu söyüşləri ondan eşidir. Dərs vaxtı onunla qəzəblə və narahat şəkildə rəftar edir. Elə ki, narazılığın səbəbinin müəllimdən soruşur, müəllim deyir: "Bu gün eşitdim ki, Əlini lənətlədin. Nə vaxtdan sənə məlum olub ki, o, bu lənətə layiqdir?"

Ömər müəllimə söz verir ki, bir daha o söyüşü təkrar etməyəcək. Bu rəftar səbəb olur ki, Ömər ibn Əbdül Əziz xilafətə gəldikdə, bu şüarı aradan götürür və qadağan edir. Onun yerinə göstəriş verir ki, bu ayəni oxusunlar: **"Allah, ədalətli olmağı və ehsan verməyi əmr buyurmuşdur."**[3]

---

[1] Töhəful-uqul,səh 336

[2] Nəhcül-bəlağə, 53-cü məktub

[3] Kamil ibni Əsir,cild 5, səh 42.

O gələcək...

Bəli! Bu, müəllimin rəftarının kiçik bir təsiridir.

İkinci: Yəzidin oğlu Müaviyə xilafətə çatdıqdan bir neçə gün sonra əhalini dəvət edir və minbərə çıxıb istefa verir. Mərvan və anası nə qədər israr edirlərsə faydası olmur. Nəhayət, bu fikrə düşürlər ki, görəsən nəyə görə Müaviyə istefa verir. Təhqiqatdan sonra bu nəticəyə gəlirlər ki, müəllimi Ömər Əl-Məqsunun onun həyatında dəyişiklik olmasında böyük rolu olub. Müəllimi tapıb ona deyirlər: "Sən nəyə görə Əlini sevməyi onun qəlbində canlandırmısan?" Bu işə görə xəndək qazıb müəllimi diri-diri basdırırlar.[1]

Budur bir nəfərin həyat yolunu dəyişməkdə təsir göstərən müəllimin rolu. Bunun səbəbinə də bütöv bir millətin həyat yolu dəyişə bilər.

HANSI MÜƏLLİMİ SEÇƏK?

Allah-Taala Quranda bu mövzu ilə bizə hansı müəllimlə dərs oxumağı və kimin dərsində iştirak etməyi aydınlaşdırır:

"İnsan hələ bir yeməyinə baxsın! Həqiqətən, biz yağışı bol yağdırdıq. Sonra yeri yaratdıq. Belə ki, orada dən göyərtdik."[2]

Ayənin zahiri mənası, insanın yemək‌ləri barəsindədir. Çünki yağış yağmasından, yerin yarılıb dən bitməsindən və bitkilərdən söz açılıb. Lakin, vəhyə alim olan İmamlarımız (ə) bunları insanın ruhi və mənəvi qidalarına yozurlar. Mərhum Feyz Kaşani "Safi" təfsirində belə yazır: "İmam Baqirdən (ə) bu ayədə "qida və təam"ın mənasının nə olduğu soruşulur. Həzrət cavabında buyurur: "**Məqsəd elmdir. İnsan bilməlidir ki, elmi kimdən və hansı müəllimdən alır?"**

Həmin yerdə, Feyz Kaşani yazır: Təam iki qisimdir: Cismani və ruhani. Çünki insan cism və ruhdan ibarətdir. Cismani qidalara ehtiyacı olduğuna görə yağışın necə yağması, yerin yarılaraq toxumların göyərməsi və çətinliklə yerdən çıxması haqda fikirləşməlidir. Həmçinin, insan özünün ruhi qidası barəsində də elm və biliyin, vəhy şəklində Peyğəmbərin (s) müqəddəs qəlbinə necə nazil olması haqda fikirləşməlidir.

Tərbiyə olunmaq istedadı olan ruhlar bu vəhy yağışından istifadə edirlər. Bu qidadan məqsəd budur ki, öz elm və biliyimizi Əhli Beyt (ə) yolu ilə gətirək.

---

[1] Həyatul-həyəvan, cild 1, səh 88.

[2] Əbəsə surəsi, ayə 24-27.

O gələcək...

Aydındır ki, sağlam olmayan qida insanın cisminə pis təsir qoyub, onu ölüm həddinə qədər çatdırdığı kimi eşidilən və görülənlər də insanın ruhuna birbaşa təsir qoyur. O həddə qədər ki, onu inhirafa çəkib insanın səadət və xoşbəxtliyini viran edir. Onun dünya və axirətini dağıdır. Biz bu mövzuda, keçmiş bəhslərimizidə qulaq və göz barəsində bəhs etmişik.

İMAM BAQİRİN (ə) NƏZƏRİNDƏ MÜƏLLİMİN HAQQI

"Alim və müəllimin hüzurunda oturarkən, danışmaq əvəzinə ondan mətləbi eşitməyə daha çox meyl et. Yaxşı qulaq asmağı öyrən. Necə ki, yaxşı söz danışmağı da öyrənməlisən. Söz danışarkən kimsənin sözünü kəsmə!"[1]

Ümumiyyətlə, danışanın sözünü kəsmək ədəbsizlik və məzəmmət olunmuş haldır. Xüsusilə, danışan müəllimdirsə, şagird müəllimin danışıb qurtarmasına səbr edib sonra danışmalıdır. Əgər başa düşmədiyi mətləb varsa, bu vaxt soruşa bilər.

Bu hədisdə İmam Baqir (ə), İmam Səccadın (ə) işarə etdiyi müəllim hüququna toxunmuşdur. O da yaxşı qulaq asmaq və müəllimin sözünü yarıda kəsməməkdir.

HƏZRƏT ƏLİNİN (ə) NƏZƏRİNDƏ MÜƏLLİMİN HAQQI

İmam Sadiq (ə) Həzrəti Əlidən (ə) nəql edərək buyurur:

"Müəllimin və ustadın hüquqlarından biri də budur ki, ondan çox sual etməyəsən. Libasından tutmayasan. Onun yanına gələrkən və onun yanında başqa bir dəstə oturarkən, hamıya salam söylə və müəlliminə qarşı xüsusi salam və ehtiram göstər. Onunla üzbəüz oturub ədəb dizlərini yerə vur. Onun arxa tərəfində oturma və gözünlə ustadın dediyinin xilafına bir şeyi işarə etmə. Onun hüzurunda çox oturmaqla müəllimini yorma. Həqiqətən, alim, meyvə verən ağaca oxşayır. İntizarda olmaq da lazımdır ki, ağacdan meyvə düşsün. Müəllimin ağzına göz dikmək lazımdır ki, elm meyvələri nə vaxt insana tərəf töküləcək?"

[1] Əl-həyat, cild 2, səh 273.

O gələcək...

Həzrəti Əli (ə) bu hədisdə, İmam Səccadın (ə) buyurduğu mətləblərə işarə etmişdir.

İndi elə bir müəllim və şagirdə işarə edək ki, özü Allahın "Ulul-Əzm" peyğəmbərlərindən olub. Görək bu şagird müəlliminin müqabilində hansı ədəbə riayət edir, sorğu-sual və elm öyrənməklə, bizlərə bilik öyrənmək yolunu necə öyrədir?

QURANDA MÜƏLLİMİN EHTİRAMI

Həzrəti Musa (ə) və Xızır peyğəmbərin əhvalatı Quranda "Kəhf" surəsində gəlmişdir. Bu əhvalatda Musaya (ə) müəlliminin ardınca getmək və bilmədiklərini ondan öyrənmək məmuriyyəti verilir. Quran, həzrət Xızır peyğəmbərin adını aşkar şəkildə çəkmir, ondan **"bəndələrimizdən biri"** ünvanı ilə işarə verir. Lakin çoxlu rəvayətlər, bu alim və müəllimi, Xızır kimi tanıtdırırlar.

Musa Kəlimullah (ə), risalət sahibi olan peyğəmbərlərdən olmasına baxmayaraq, məmur olur ki, müəllimə müraciət etsin. Həzrəti Musa (ə), İsrail övladlarından "Yuşə ibn Nun" adlı şücaətli bir cavanla müəllimi ardınca hərəkətə gəlir və nəhayət, onu tapır. Quran buyurur:

"Musa və yoldaşı nəhayət, müəllimi tapırlar".

Bu dahi müəllimin xüsusiyyətlərindən biri budur ki, ona yüksək bəndə məqamı vermişik. İkinci xüsusiyyəti budur ki, Allah tərəfindən ona böyük rəhmət və fəzl əta olunmuşdur. Üçüncü xüsusiyyəti, Allahın ona elm əta etməsi idi.

Bir şey şübhəsizdir ki, bu şagird, Musa (ə) müxtəlif cəhətlərdən öz müəllimindən üstün idi. Lakin bütün elmlərin öz müəllimi tərəfindən ona verilməyəcəni bilən halda, bu çətin səfərə dözür və müəlliminin azacıq da olsa, elmindən bəhrələnmək istəyir. Müəllimi ilə görüşərək tam ədəblə sualını belə başlayır:

"Musa ondan soruşdu: Öyrədildiyin doğru yolu göstərən elmdən mənə öyrətmək şərtilə sənə tabe olummu?"(Xızır) belə cavab verdi: Sən mənimlə bir yerdə olsan (törədəcəyim işlərə) əsla dözə bilməzsən". "Axı sən bilmədiyin (batininə mahiyyətinə bələd olmadığın) bir şeyə necə dözə bilərsən?""Musa dedi: İnşallah səbrli olduğumu görəcəksən. Sənin heç bir əmrindən çıxmayacağam!"[1]

Bu sual-cavabda hər bir şagirdin onu bilməsi və əməl etməsi olan ədəblər və göstərişlər gözə dəyir:

[1] Kəhf surəsi, ayə 66-69.

O gələcək...

Birinci: Musa (ə) özünü öz müəlliminə tabe və tərəfdar kimi tanıtdırır. Ona görə də öz məqam və mərtəbəsini müəlliminin məqamından aşağı bilir.

İkinci: Böyük təvazökarlıqla sual edib, soruşur: **"İcazə verirsinizmi sizin hüzurunuzda elm öyrənim?"-** özünü ən son təvazökarlıqla müəllimə nişan verir.

Üçüncü: Bu şagird, özünü müəllimin müqabilində cahil və nadan kimi tanıtdırır. **"Əgər mənə öyrətsəniz"** cümləsi ilə müəlliminə böyük hörmət və məqam verir.

Dördüncü: Şagird və müəllim əlaqələrində bu mövzulara işarə olunur: Tabe olmaq, təlim, öyrənmək xidməti. Yəni şagird ilk növbədə müəlliminə tabe olmalıdır ki, nəhayətdə, onun elm və biliyindən bəhrələnə bilsin.

Beşinci: "**Əgər mənə öyrətsən**" cümləsindən məlum olur ki, Musa (ə) mal-dövlət və məqam ardınca deyil, yalnız, elm ardıncadır. Bu da böyük bir mətləbdir ki, tələbələr və şagirdlər təhsil mərhələlərində ona diqqət etməlidirlər. Şagirdin müəllimdən elmi cəhətdən istifadə etməsindən başqa heç bir niyyəti olmamalıdır.

Altıncı: "Öyrədildiyin elmin" cümləsindən məlum olur ki, Musa (ə) etiraf edir ki, Xızra Allah-taala tərəfindən xüsusi elm öyrədilmişdir. Belə bir nəticəyə gəlirik ki, müəllimin məqamı Allah yanında ucadır və bəşər elmini kökdə, Allahdan alır.

Yeddinci: "İnkişaf" kəlməsi, Musanın (ə) ondan irşad və elm tələb etdiyini bəyan edir. Musa (ə) Xızrın hidayət bərəkətindən bəhrələnmək istəyir.

MÜƏLLİMİN TƏRBİYƏVERİCİ SÖZLƏRİ

Birinci: "Sən mənimlə olsan, səbr edə bilməzsən" cümləsindən məlum olur ki, səbirsizlik və taqətsizliklə elm öyrənməyin faydası olmaz. Bəlkə də, insan elm öyrənmək yolunda bütün çətinliklərə dözüb səbirli olmalıdır. Bundan əlavə, səbr edənlərin məqamı mühüm və böyükdür.

İkinci: Müəllimin (Xızrın) Musadan (ə) səbri inkar etməsi ola bilsin, o cəhətdəndir ki, onu Xızrın işlərində və onların hikmətlərində tələsik nəticə almamağa hazırlaşdırsın.

Üçüncü: Musa (ə) bütün bu zəhmət, məşəqqət və səfərlə nəyin ardınca idi? Layiqli müəllim ardınca gəzirdi. Bu mətləb bizə anladır ki,

layiqli müəllimdən ötrü bütün zəhmət və əziyyətlərə dözmək lazımdır. Rəvayətlərdə gördüyümüz kimi rəhbərlərimiz, bizim öz elmimizi hər kəsdən yox, bəlkə də, vilayət məktəbindən almağı əmr edirlər. Musa (ə) bəzən öz elmi səfərində müəlliminin işlərinə etiraz edir. Müəllim gəmini deşir. Müəllim uşaqın başına vurub öldürür. Müəllim uçmuş divarı təmir edir. Bütün bunların hamısı Musanın (ə) etirazına səbəb olur. Lakin sonradan onun bütün işlərinin sirlərinə agah olur. Bu əhvalat, Quranda "Kəhf" surəsində müfəssəl gəlmişdir. Bizim hədəfimiz ondan bəzi mətləblərin istifadəsi idi.

Ğəzzalinin nəzərində müəllimin məqamı

Məhəmməd Ğəzzali yazır: İnsan öyrəndiyi elmlərdə dörd haldadır. Yəni insan təhsil sərvəti ardıncadır. Mal sahibinin halları bunlardadır:

Birinci: Mal kəsb etmək halı.

İkinci: Mal-dövlət yığmaq və toplamaq.

Üçüncü: Öz mal-dövlətindən bəhrələnmək.

Dördüncü: İnfaq, başqalarına kömək etmək, zəhmətlərinin nəticəsindən başqalarının bəhrələnməsidir. Bu, mal sahibinin ən yaxşı halıdır. Bu halda, ona səxavətli və bağışlayan deyirlər.

Alimin də bu halları var:

Birinci: Mal kəsb etmək deyil, təhsil və elmi mətləbləri cəm etmək halı.

İkinci: Elmi mətləbləri yazıb zəxirə saxlamaq.

Üçüncü: Ələ gətirdiyin elmdən bəhrələnmək və ondan istifadə etmək.

Dördüncü: Elmi bağışlamaq və başqalarına təlim etmək. Bu həmin alimin ən yaxşı halıdır və cəmiyyətə nicat verəndir.

Nəticədə, Ğəzzali əmindir ki, alim və müəllimin ən yaxşı halı, tədris edib öz elmindən başqalarını bəhrələndirməkdir. Həmçinin, insanlara dünyagörüşü və təfəkkür bəxş etməkdir.[1]

MÜƏLLİM YAXUD PSİXOLOQ?

Şagird, müəllimə bir həkim gözü ilə baxmalıdır. Həkim, dava - dərmanla xəstəni, salamatçılıq və sağlamlığa tərəf apardığı kimi müəllim də şagirdini ağıl, din və insaniyyətçilikdə sağlamlığa tərəf çağırır. Müəllim, bu yolda öyüd-nəsihət və moizə adlı şəfa dərmanlarından istifadə

[1] Möhcətül-beyza, cild 1, səh 119.

edir. Ona görə də şagird müəllimin sözlərinə yaxşı qulaq asmalıdır ki, elm öyrənməklə təkəbbür və qürur kimi xəstəliklərdən nicat tapsın.[1]

Ustada hörmət, elmin məqamına hörmətdir

Qədim alimlərdən biri müəlliminin dərsinə gedərkən yol arası fəqirə bir miqdar sədəqə verib deyir: İlahi! Müəllim və ustadımın eybini məndən gizli saxla və onun elm və biliyinin bərəkətini məndən əsirgəmə!

Başqa alim yazır: Ustadın heybətinə xatir kitabımın vərəqəsini ahəstə çevirirdim ki, kağızın xışıltısı müəllimə əziyyət verməsin.

Əlbəttə, belə işlərin riayəti o kəslərlədir ki, özlərini arif şəxslər kimi tanımış olsunlar.

Əhməd İsfahani nəql edir: Şəriklə birlikdə idim. Birdən xəlifə Əbbasinin övladlarından olan Məhdi içəri girdi. Divara söykənib Şərikdən hədislərin biri barəsində sual etdi. Şərik cavab vermədi. Yenə də sualını təkrar etdi. Şərik, yenə də etinasızlıq etdi.

Xəlifənin oğlu, Şərikə xitab edərək dedi: "Xəlifənin oğluna hörmətsizlik edirsən?"

Şərik dedi: "Xeyr! Lakin, Allah dərgahında elm və bilik o qədər əzəmətlidir ki, mən onu istədiyim vaxt zay edə bilmərəm".

Xəlifənin oğlu qarşıya gəlib, Şərikin müqabilində ədəblə dizini yerə qoydu. Bu zaman Şərik dedi: Elmi belə öyrənmək lazımdır![2]

Bəli! Həmin səbəbə görə İmam Səccad (ə) buyurur: Şagird, müəllimin müqabilində başı aşağı və təvazökar olmalıdır. Müəllim ruhani bir ata kimi fikri və ruhi qidanı, şagirdin ixtiyarında qoyur. Ona görə də şagirdin ehtiramı ona vacibdir. Müəllim, bu qidanı eşitmək qüvvəsinin yolu ilə şagirdin ixtiyarında qoyur. Şagirdə lazımdır ki, müəlliminin sözlərinə yaxşı qulaq assın.

Şagird bilməlidir ki, müəllim onun elmi atası sayılır. Elmi atanın ehtiramı, cismi atanın ehtiramından heç də az deyildir. Bəlkə də, ondan üstün və mühümdür. O cəhətdən, şagird öz səsini müəllimin səsindən ucaltmamalıdır, əksinə, ustadının müqabilində söz danışmaq ədəbinə riayət etməlidir.

Şagird müəllimin eyblərini örtməkdə ciddi və onun fəzilətlərini aşkar etməkdə çox çalışmalıdır. İskəndərə dedilər: Nəyə görə müəlliminə bu qədər ehtiram göstərib, ata-anandan da üstün bilirsən? Cavab verdi:

---

[1] Adab təlim və təəllüm dər İslam, səh 333

[2] Adab təlim və təəllüm dər İslam, səh 323.

O gələcək...

Müəllim mənim əbədi həyatıma səbəbdir. Halbuki, ata-ana fani dünyamın səbəbidirlər. Cəmiyyətin təkamül mərhələlərindən biri layiqli müəllimlərinin olmasıdır. Müəllimlər cəmiyyətə nicat verib, onu nadanlıq, cəhl, fikri və mədəni sitəmkarlıq və zülmkarlıq qaynağından qurtarmaqdan ötrü qiyam edir, bu yolda özünün ən böyük sərmayəsini, yəni ömrünü fəda edir. Sokrat zindana düşür. Şagirdləri döyüşənə qədər onun azadlığından ötrü çalışırlar. Lakin, o bunu qəbul etməyib, ölümü qanunsuzluq və hərc-mərcliyə müqəddəm bilir.

Sonda İmam Hüseynin (ə) adətinə işarə edirik. Əba Əbdürrəhman Süləmi, İmam Hüseynin (ə) övladlarından birinə "Həmd"surəsini öyrədir. Həzrət, o müəllimə min əşrəfi (pul vahidi), min libas əta edib, ağzını mirvari ilə doldurur. Bəziləri bu bəxşişi çox bilirlər. İmam Hüseyn (ə) buyurur: **"Bu əta müəllimin öyrətdiyi şeyin hansının əvəzidir? Quran təliminin müqabilində hər nə verilsə, yenə azdır!"**[1]

17.MOVLANIN HAQQI

وأمَّا حَقُّ سَائِسِكَ بالمِلْك فَنَحْوٌ مِنْ سَائِسِكَ بِالسُّلْطَان إلاّ أَنَّ هذَا يَمْلكُ مَا لا يَمْلكُهُ ذاك، تَلْزِمُكَ طَاعَتُهُ فِيمَا دَقَّ وَجَلَّ مِنْكَ إلاّ أَنْ تُخرِجَكَ مِنْ وُجُوبِ حَقِّ الله، ويَحُولَ بَينَكَ وبَيْنَ حَقِّه وَحُقُوقِ الخَلْقِ، فإذَا قضَيْتَهُ رَجَعْتَ إلَى حَقِّه فَتَشاغَلْتَ بِه. ولا قُوَّةَ إلاّ بالله.

"Sənə malik olan mövlanın haqqı hakimin haqqı kimidir. Yalnız, bu fərqlə ki, malikin xüsusi haqqı var, amma bu haqq hakimdə yoxdur. Onun xususi haqqı, az və çox hər şeydə onun itaətində olmağı lazım bilir. Bütün bunlar, o vaxtdır ki, onun haqqı ilə Allahın sənə vacib buyurduğu əməllə təzadda olmasın. Sənin əməlinlə, Allahın haqqı arasında mane olmasın. Yox əgər belə olarsa, onda Allahın haqqı müqəddəmdir. Hər vaxt Allahın haqqını yerinə yetirsən, onda malikin haqqının ədasının vaxtı yetişir, ona məşğul olmalısan. Allahın güc və qüdrətindən başqa heç bir-güc qüvvə yoxdur!"

"Məkarimül-Əxlaq" kitabında belə gəlib:

"Malikin sənin üzərində haqqı budur ki, onun itaətində olub, ona qarşı günah etməyəsən. Yalnız o şeydə itaət etmə ki, Allahın qəzəbinə səbəb iş olsun. Çünki, Allaha qarşı günah etməkdə heç vaxt bəndəyə itaət etmək olmaz!"

[1] Lö'lö vəl-Mərcan, səh 44.

O gələcək...

İmam Zeynul-abidinin (ə) gözəl bəyanlarından məlum olur ki, maliklə hakimin haqqını bir-birinə oxşar bilir. Bu fərqlə ki, malikə görə xüsusi haqqı var. O da, onu özünə itaətkar edir. Yeri gəlmişkən, bu haqqın şərhindən belə bir şərhə başlayaq ki, köləlik hansı zamandan başlayıbdır və kökü nədir? Əlbəttə, bu bəhsdə təkcə köləlik yox, ümumi mülkiyyət nəzərdə tutulur.

QULDARLIĞIN TARİXİ

Quldarlığın yaranma tarixi çox da məlum deyildir. Onun kökləri barədə müxtəlif nəzəriyyələr vardır. Montöskye quldarlığın amilləri barəsində yazır: Quldarlığın ibtidası aşağıdakı amillərdən biri ola bilər:

1. Beynəlxalq hüquq normaları zəruri bilir ki, döyüşdə əsir düşənlər ölümdən amanda qalmaqdan ötrü qulam hökmündə qalsınlar.

2. Rum dövlətinin mədəni qanunu, borcunu qaytara bilməyənlər barəsində icazə vermişdir ki, onların özləri satılsın və ya tələbkarın pulunun əvəzində ona bəndəlik etsin.

3. Təbiət qanunu atanı kölə etdiyi kimi, övladı da kölə edir. Beləliklə, oğul ataya tabe olur.

4. Köləlik haqqı, bir millətin başqa bir millətə qarşı təhqirindən qarşıya çıxır, o da adət və ənənələrin ixtilafı üzərində qurulub.

5. Quldarlığın əsas mənşəyi insan cəmiyyətində qüdrətli və zəiflərin tuğyanlar və istismarçı ruhiyyəsi ilə birlikdə olmasıdır." Sonra Montöskye yazır:

Aristotel sübut etmək istəyir ki, kölə və qul fitrətən olub və olacaq. Bu, o mənadadır ki, Allah-taala, bəzi insanları yaradıb ki, başqalarının kölələri olsunlar. Əgər biz bu filosofun dediyini qəbul etsək və qul olmağı fitri bilsək, onda qulların qulluqdan azad olması kəlamını faydasız və fitrətin xilafı kimi qiymətləndirməliyik.

Bunlar, köləlik barəsində Montöskyenin "Ruhul-qəvanin" kitabında gətirdiyi bəhsdir.

İSLAM DİNİNİN KÖLƏLİK BARƏDƏ NƏZƏRİ

Müqəddəs İslam dinində, qul olma heç də fitri deyildir. Aristotel məntiqinin əksinə olaraq, İslama görə bəşər azad yaradılmışdır. Həzrəti Əli (ə) buyurur:

O gələcək...

"Bütün bəşər azad yaradılmışdır. Məgər o, kəslər ki, öz zərərlərinə köləliyə iqrar ediblər (özləri elə bir iş görürlər ki, kölə olmaqlarına şərait yaransın)".

Həzrət başqa bir bəyanda buyurur:

"Başqalarının qulu olma! Halbuki Allah səni azad yaratmışdır."

Bu iki bəyan, bəşəriyyətin azadlıq carçısı sayılan, Həzrəti Əlidən (ə) idi.

Bəşər azad doğulmuşdur. Əgər sonradan kimin köləsi olursa, xarici amillərin təsirindəndir. Onun köləliyi daimi deyil, müvəqqətidir. Keçmiş zamanlarda kölələr necə yaşayırmışlar?

"Tarixi Rum" kitabının müəllifi Alber Male rumluların kölələri barəsində belə nəql edir:

"Qanuna görə qul və ya kölə şəxs, insan deyil. Bəlkə də qul, bir əşya və ya danışa bilən bir alətdir. Beləliklə, heç bir haqq və hüququ da yoxdur."

Montöskye yazır: Əflatunun qanununda qərara alınmışdır ki, qul özünün təbii müdafiəsindən istifadə edə bilməz. Əgər ona həmlə olarsa, bu qanuna əsasən, özünün təbii müdafiəsindən istifadə edə bilməz. Həmçinin, mədəni müdafiə haqqı ona verilmir və məhkəməyə də şikayət etməyə haqqı yoxdur. Sparta şəhərində köləyə verilmiş qanuna görə məhkəməyə müraciət etməyə haqqı yox idi.

Spartalı qullar bu cəhətdən o qədər bədbəxt olurlar ki, təkcə bir nəfərin köləsi yox, bəlkə də, bütün cəmiyyətin köləsi hesab olunurdular.

Alçalmaq, nə dərəcədə?

Rum əşraf və əyanlarının kef məclislərindən biri bu idi ki, biçarə qulları nümayiş göstərilən bir meydanda, şir, bəbir, pələng kimi vəhşi və ac heyvanlarla bir yerə salırdılar. Elə ki, qullar özlərini bu yırtıcı heyvanların caynağında giriftar görürdülər, ahu-fəğan və qışqırıqları ucalırdı. Bu vaxt əyan və əşrəflərin şadlıq ruhiyyələri ərşə çatırdı. Həmçinin, bu əsil və əşrəflərin istirahət məclislərindən biri də bu idi ki, əli qılınclı çılpaq qullardan ibarət iki dəstəni, bir-birinin canına salırdılar. O həddə kimi ki, bir-birlərinin əzalarını və üz-gözlərini yaralayıb kəsirlər. Bu cinayətkar əşrəflər, belə dəhşətli və qanlı səhnələri görməkdən ləzzət alıb sevinirdilər. Əgər bu qullar belə işə boyun qoymasaydılar, meydanın ətrafın dövrəyə almış əsgərlər tərəfindən tikə-tikə doğranardılar.

Həmçinin, rumlu cinayətkar əyan və əşrəflərin digər kef məclislərindən biri bu idi ki, kölələri məcbur edirdilər ki, öz əllərini arı və

əqrəblə dolu yuvaya salsınlar. Onlar da kölələrin qaralmış əziyyətli çöhrələrini görməklə şad olub gülsünlər.

"Tarixi Rum" kitabınm müəllifi, yenə o ölkənin kölələri barəsində belə yazır:

"Kölələr, heyvanlar kimi yalnız, ağır və müşkül işləri görməli idilər. O cümlədən, xəndəkləri təmizləmək, yolları daş asfalt etmək, tikanları təmizləmək, bağları belləmək, ziyanlı bitkiləri və kolları kəsmək, buğdanı döymək ayaq yollarını təmizləmək və sair işləri yerinə yetirirdilər.

Əgər qullardan birinin bu işləri görməməkdə qüsuru olsaydı, şiddətli və müxtəlif cəzalara məruz qalır, çubuq və şallaq vururdular. Daha sonra onu dəvə və atın yerinə zəncirə bağlayıb iş gördürürdülər. Mədən quyularına atılır və yaş zirzəmilərdə həbs olunurdular. Heyvanların bayram günlərində işlərindən azad olmalarına baxmayaraq, kölələr bu günləri işdən azad olmurdular.

İSLAMDA KÖLƏLƏRİN TƏDRİCLƏ AZAD OLUNMASININ SƏBƏBLƏRİ

Köləliklə mübarizə aparıb onları tədriclə azad etmək tarixi İslam və müsəlmanlara məxsusdur. Əgər soruşulsa ki, nəyə görə İslam bu işi birdəfəlik yox, tədriclə görür? Onda bu sualın cavabında demək lazımdır: Əvvala, İslam zühur edən zamanda Ərəbistanın qaranlıq mühitində, quldarlıq o cəmiyyətin iqtisadiyyatının rüknü idi. Bir çoxlarının ticarət və yaşayışı kölə alveri ilə bağlı olmuşdur. İslam Peyğəmbərinin (s) belə bir imkanı yox idi ki, köləlik və kölə alverini birdəfəlik aradan götürsün. Çünki, iqtisadi nizam pozulardı. Bundan əlavə, bütün sərvətini verib kölə alanlar bu işə heç vaxt razı olmazdılar. Bir dəstə hazır yeyənlər yalnız, bu yolla dolanırdılar. Bu dövrdə İslam dini əvvəlcə, iş və fəaliyyətin savabını həmçinin, işsizlik və hazır yeməyin məzəmmətli olmasını cəmiyyətdə insanlara bəyan edir. İş, İslama görə ən yaxşı ibadətlərdən sayılır, nəticəsi, insanın özünə qayıdır. Bu yolla hazır yeyənlər tədriclə iş dalınca gedir və anlayırlar ki, başqalarının əl muzdunu yeyib talan etməklə dolanmaq olmaz.

İkinci dəlil, əməl və əksül-əməl qanununa görə əgər İslam birdəfəlik kölələri azad elan etsəydi, ola bilsin zülm görmüş kölələr özlərində vücüda gəlmiş etiqadlara görə qanlı inqilablara əl atsınlar, nəticədə, ümu-

mi əmniyyətə zərbə dəyərdi. Bu mövzunun tarixdə oxşarı vardır. Montöskye, fəsadlar və kölələrin birdəfəlik azad olunması barəsində yazır: Saysız sayda kölələrin birdəfəlik azad olunması düzgün deyildir. Çünki, cəmiyyətdə intizam qanunlarının pozulmasına səbəb olar. Nümünə üçün belə yazır:

Velisin şəhərində kölələr azad olub seçkilərdə səsvermə hüququ qazanırlar. Əksər səsi ələ gətirib belə bir qanun yazırlar ki, ona əsasən, hər kim azad (kölə olmayan) şəxslərdən biri ilə evlənsə, kölələrdən birisi toyun ilk gecəsində azad bakirə qadınla yatmalı, ikinci gecə isə bəyə təhvil verməlidir. Üçüncü dəlildən ötrü tarixçi, Qustav Lebonun işarə etdiyi mətləbə diqqət etmək kifayətdir. O da budur ki, kölələr qədim zamanlarda kölə şəklində yaşadıqlarına görə və tüfeyli həyat sürdükləri üçün istedadsız və təcrübəsiz böyüyürdülər. Deyə bilərik ki, əgər İslam bütün kölələri birdəfəlik azad elan etsəydi, kifayət qədər istedadları və təcrübələri olmadıqlarına görə müstəqil yaşayış həyatı təşkil edə bilməyib, nəticədə, amerika kölələri kimi azad olduqdan sonra həmin səbəbdən məhv ola bilərdilər.

Yuxarıdakı səbəblərə görə deyə bilərik ki, İslamda qanunverici, kölələrin birdəfəlik azad olmasına əl atmır. Bəlkə də, onların azadlığının tədriclə olması şəraitini hazırlayır. İndi də İslam dininin, kölələrin azad və xilas olunmaları barəsindəki nəzərinə baxaq. Əvvəlcə, İslam, kölələrinin vəziyyətinin qanunu şəkildə tanıması və şəriətdə onların xüsusi hökmlərinə işarə etməsinə nəzər salaq. Daha sonra əxlaqi yolları araşdıraq.

İSLAMDA KÖLƏLƏRİN AZAD OLUNMA YOLLARI

Birinci: Yazışma. Bu yolla kölə və malik arasında qərar bağlanılır. Bu əsasla ki, kölə bir miqdar pul verib azad olur. Əgər öhdəsinə götürdüyü məbləğdən verə bilməsə, şəriət hakimi beytül-maldan verib onu azad etməlidir.

İkinci: Tədbir. Bu mənada ki, malik qərara alır ki, öldükdən sonra kölə azad olunsun.

Üçüncü: Əgər birisi ata-ana, baba, nənə, övlad, övladın övladı, bacı, bibi, xala, qardaş qızı, bacısı qızına malik olsa, dərhal onları azad etməlidir.

O gələcək...

Dördüncü: Əgər biri kölənin bir qismini azad etsə, o kölə tamamilə azad olar.

Beşinci: Əgər kəniz ağasından övlad dünyaya gətirsə, azad olar.

Altıncı: Əgər kölə küfr mühitində olmasından əvvəl, müsəlman olsa, azad olar.

Yeddinci: Hər vaxt malik, kölənin qulağı, burnu və ya hər hansı bir üzvünü kəssə, kölə azad olar.

Səkkizinci: Əgər kölə, kor, cüzam, bərəs, axsaq olsa və yatağa düşsə, azad olar. Yaşayış xərci isə beytül-maldan verilər.

Doquzuncu: Əgər vərəsəsi olmayan sərvətli ölsə, belə şəxsin köləsi ondan alınıb azad olunar. Mal-dövlət də köləyə çatır.

Onuncu: "Vəsailüş-Şiə" kitabında belə bir ünvanda fəsil var ki, imanlı müsəlman kölə, yeddi ildən sonra azad olunur.

On birinci: Zəkatın sərf olunan səkkiz yerindən biri də, kölələrin alınıb azad olunmasıdır.

On ikinci: Əgər birisi öz nəzir və əhdinə əməl etməsə, andını sındırsa, orucunu qəsdən yesə, birini xətadan öldürsə və məhrəmlərindən biri ilə xəta etsə, kəffarə verməlidir. Bu kəffarələrdən biri də kölə azad etməkdir.

ƏMƏLİ VƏ ƏXLAQİ YOLLAR

Müqəddəs İslam dini, əməli və əxlaqi cəhətdən kölələrin azad olunması şərtini hazırlamışdır. Nümünə üçün İslam Peyğəmbərinin (s) və məsum İmamların (ə) əməli və əxlaqi rəftarlarına baxaq.

Tarixçilər yazır: İslam Peyğəmbəri (s) Zeyd ibn Haris kimi kölələri azad edirdi. O vaxt müsəlmanlar bir-birinin ardınca Həzrətdən nümünə götürüb kölələri azad edirdilər. İslam Peyğəmbəri (s) Zeyd ibni Harisi azad etməsindən əlavə, onu Cəhişin qızı ilə evləndirir və qısa müddətdən sonra ayrılırlar. Yenə də İslam Peyğəmbəri (s) Zeydin oğlu Usaməni, İslam qoşunlarına başçı təyin edir. Mühacir və ənsarın böyüklərinin ona tabe olmalarını tələb edir.

Həzrəti Əli (ə) öz əlinin zəhməti ilə qazandığı puldan, min köləni azad edir.

Tarixçi Corc Zeydan yazır: Əbdullah ibn Süleyman yetmiş min kənizi azad etmişdir.

O gələcək...

Əxlaqi göstərişlər

İslam dini, kölələrin azad edənlərdən ötrü o qədər savab və axirət mükafatı qərara alıb ki, bununla öz tərəfdarlarını kölə azad etməyə təşviq etmişdir. Quran "Bələd" surəsində buyurur:

"Məgər Biz ona iki göz vermədikmi? EIəcə də bir dil və qoşa dodaq vermədikmi? Biz ona iki yolu (xeyir və şər, küfr və iman yollarını) göstərmədikmi? Lakin o, əqəbəni keçə bilmədi. (özünə verilən bu qədər nemətlərə şükür etmədi.) Ya Peyğəmbər! Bilirsənmi əqəbə nədir? O bir kölə azad etməkdir. Yaxud, aclıq zamanı yemək verməkdir. Qohumluq əlaqəsi çatan bir yetimə və ya taqətsizlikdən torpağa sərilmiş bir miskinə!"

İslam Peyğəmbəri (s) buyurur: **"Hər kim müsəlman köləni azad etsə, Allah-taala, o kölənin hər bir üzvünün əvəzində, azad edən şəxsin üzvünü cəhənnəmin atəşindən azad edər."**

İmam Sadiq (ə) kölə azad edənlərin barəsində buyurur: Allah-taala, azad olunmuş kölənin hər bir üzvü əvəzində azad edənin əzabını atəşdən xilas edir.

Bəhsin sonunda qeyd edək ki, İmam Səccadın (ə) bu sözləri, o zamana aiddir ki, hələ kölələr azad olmamışdılar. O, vaxt kölələr öz malikləri haqqında belə rəftar etməli idilər. Əlbəttə, bu bəhs genişdir. Biz yalnız, bu qədərinə kifayətlənirik.

ADİ ŞƏXSLƏRİN HÜQUQLARI

O gələcək...

18. ƏHALİNİN HAQQI

فَأَمَّا حُقُوقُ رَعِيَّتِكَ بِالسُّلْطَانِ فَأَنْ تَعْلَمَ أَنَّكَ إِنَّمَا اسْتَرْعَيْتَهُمْ بِفَضْلِ قُوَّتِكَ عَلَيْهِمْ فَإِنَّهُ إِنَّمَا أَحَلَّهُمْ مَحَلَّ الرَّعِيَّةِ لَكَ ضَعْفُهُمْ وَذُلُّهُمْ، فَمَا أَوْلَى مَنْ كَفَاكَهُ ضَعْفُهُ وَذُلُّهُ حَتَّى صَيَّرَهُ لَكَ رَعِيَّةً وَصَيَّرَ حُكمَكَ عَلَيْهِ نَافِذاً، لا يَمْتَنِعُ مِنْكَ بِعِزَّةٍ وَلا قُوَّةٍ وَلا يَسْتَنْصِرُ فِيمَا تَعَاظَمَهُ مِنْكَ إِلا [بِاللهِ] بِالرَّحْمَةِ وَالْحِيَاطَةِ وَالْإِنَاةِ وَمَا أَوْلَاكَ إِذَا عَرَفْتَ مَا أَعْطَاكَ اللهُ مِنْ فَضْلِ هذِهِ الْعِزَّةِ وَالْقُوَّةِ الَّتِي قَهَرْتَ بِهَا أَنْ تَكُونَ لِلّٰهِ شَاكِراً، وَمَنْ شَكَرَ اللهَ أَعْطَاهُ فِيمَا أَنعَمَ عَلَيْهِ. وَلَا قُوَّةَ إِلا بِاللهِ.

“Amma sənin hakimiyyətində rəiyyətin haqqı budur ki, həqiqətən, sən özün artıq qüdrətinin səbəbinə onları rəiyyət ünvanı ilə seçmisən. Həqiqətən, onların zəifliyi və gücsüzlüyü özlərini rəiyyət qərar verib. Belə olan halda, kimsənin zəifliyi, zilləti və səni ehtiyacsız etməsi, sənə üstünlük deyildir. Belə ki, zəiflik və zillətlik, onu sənin rəiyyətin və əlinin altında qərar verib. Sənin hökmünü onlara təsirli etmişdir. Onlar öz qüvvə və izzətləri ilə sənin müqabilində yalnız, Allahdan rəhmət, himayət, səbr və kömək intizarındadılar. Əgər anlasan ki, Allah-taala sənə hansı izzət və qüvvə əta etməklə, başqalarına qələbə çalmısan, onda daha yaxşı olar ki, Allaha şükür edəsən. Hər kim Allahın nemətinə şükür etsə, ona daha çox nemət bağışlar. Allah tərəfindən başqa heç bir güc-qüdrət yoxdur!”

Məkarimul-Əxlaq kitabında bu mövzuda yazır: **“Amma sənin hakimyyətin altında qərar tutanların haqqı budur ki, biləsən ki, onlar özlərinin zəifliyi və sənin qüdrətli oimağına xatir sənin rəiyyətinə çevriliblər. Belə olan halda, sənə vacibdir ki, onlar barəsində ədalətlə əməl edəsən və onlardan ötrü ürəkyandırıcı ata olub, nadanlıq üzündən etdikləri xətaları bağışlayasan. Onların pis əməlləri müqabilində cəza verməyə tələsmə. Allahın sənə verdiyi qüdrətə görə şükür et.”**

İmam Səccad (ə) hakim barəsində buyurur: Rəiyyət hakimin itaətində olub onunla düşmənçilikdən çəkinsinlər. Onun müqabilində rəiyyətin hüququnda buyurur: Hakim öz qüdrət və hakimiyyətinə xatir ədalətə riayət etməlidir. Bu hüquqda İmam Səccad (ə) neçə mühüm mövzuya işarə etmişdir:

Birinci: Hakimin ədalətli olması.

İkinci: Hakimin mehriban və ürəyi yanan ataya oxşaması.

Üçüncü: Rəiyyət öz həyatında xətalara yol verir. Hakim onların müqabilində bağışlamağı bacarmalıdır.

Dördüncü: Hakimin, Allahın ona bağışladığı qüdrət və hakimiyyət neməti müqabilində ona şükür etməsi.

RƏHBƏRLİKDƏ ƏDALƏT

İnsanlar, başqalarının hüquqlarına pis gözlə baxmayıb onların hüquqlarına təcavüz etməsələr, insanlar arasında haqq və hüquq cəhətdən heç bir ayrı-seçkiliyə yol verməsələr, həmçinin, hakim öz hakimiyyətində ən nəhayət tərəfkeşsizliyə hamıya bir gözlə baxarsa, belə şəxslər adil və ədalətli adlanırlar. Onların müqabilində o, şəxslər ki, başqalarının haqlarına təcavüz edir və öz hakimiyyəti çərçivəsində ayrı-seçkiliyi rəva bilib zalimlərdən tərəfdarlıq edirlərsə, belələrinə "zalim" deyərlər.

Beləliklə, demək olar ki, hüquqlara riayət edib hər bir haqq sahibinin haqqını özünə əta etməyə "həqiqi ictimai ədalət" deyilir. Bəşər qanununda buna riayət olunmalıdır. Hüquqa dayaq olan ədalətin mənası budur.

İslam Peyğəmbəri (s) buyurur: **"Hakimiyyət küfrlə davam tapar, amma zülüm və sitəmlə heç vaxt davam tapmaz."**[1]

Başqa hədisdə İslam Peyğəmbəri (s) buyurur:

"Bir saat ədalətli olmaq, altımış ilin ibadətindən üstündür."

SƏXAVƏTLƏ ƏDALƏTİN FƏRQİ

Həzrət Əlinin (ə) səxavətlə ədalət arasında fərq barəsində gözəl bəyanı vardır. Həzrətdən bu barədə soruşulanda sualın cavabında buyurur:

"Ədalət hər şeyi öz yerinə qoyur. Səxavət, onu öz yerindən çıxarır. (çünki, səxavət yəni, haqqından çox bağışlamaq).

Ədalət hər şeyi hifz edəndir. Səxavət yalnız, bəxşiş olunana fayda verir. Beləliklə, ədalət daha yaxşı və şərəflidir."[2]

---

[1] Şərh Risalətül hüquq Qapançı, cild 1, səh 385.

[2] Nəhcül Bəlağə. Qısa kəlmələr, 429.

O gələcək...

PEYĞƏMBƏRLƏR VƏ ƏDALƏTƏ DƏVƏT

Bütün İlahi peyğəmbərlər öz risalətlərində bəşəriyyətin kamal və səadəti, əxlaq və ədalət sayəsində olmasını bəyan etmişlər. Quranda bu mövzuda olan ayələrin bəzilərinə işarə edək.

"Ey iman gətirənlər Allah qarşısında (borcunuzu yerinə yetirməkdə) sabitqədəm və ədalətli şahidlər olun. Hər hansı bir camaata qarşı olan kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun. Bu təqvaya daha yaxındır. Allahdan qorxun. Allah etdiklərinizdən xəbərdardır." [1]

İslamda ədalət məsələsinə verilən əhəmiyyət kimi məsələ çox azdır. Çünki, ədalət məsələsinin tövhid kimi İslamın bütün kök və şaxələrində kökü vardır. Etiqad, əməl, fərd, ictimai, əxlaqi və hüquqi məsələlərinin heç biri tövhiddən kənarda deyildir. Həmçinin, bu məsələlərin heç birisi ədalətdən kənarda qalmır. Beləliklə, heç də təəccüblü deyildir ki, ədalət İslam dininin əsas köklərindən və müsəlmanların fikri əsaslarından sayılır.

Ayədə bəyan olunan mühüm mövzulardan biri ədalətdən yayınmağın yollarından sayılan, kin-küdurətdir. Tayfalar arasında kin, düşmənçiliklər və şəxsi hesab-kitablar ədalətin icra olunmasının qarşısını alır və başqalarının hüquqlarına təcavüzə səbəb olurlar. Çünki, ədalət bunların hamısından üstündür. Təqva və pəhrizkarlığın ən mühüm rüknü sayılan ədalətə riayət edin.

Danışıqda ədalət

Quran buyurur: **"Yetimin malına xeyirxah məqsəd (onu qoruyub saxlamaq, çoxaltmaq) istisna olmaqla, həddi-büluğa çatana qədər yaxın düşməyin. Ölçüdə və çəkidə düz olun. Biz heç kəsi gücü çatmayan işə vadar etmərik. Söz söylədiyiniz zaman əleyhinə danışdığınız adam qohumunuz olsa belə, ədalətli olun Allah qarşısındakı əhdi yerinə yetirin. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə düşünüb öyüd nəsihət qəbul edəsiniz! "**

Allah-taala bu ayədə yetimlərin hamilərini, satıcıları və tərəzi çəkənləri ədalətə dəvət edir. Bundan əlavə, danışanda da ədaləti gözləməyi tövsiyə edir. Beləliklə, cəmiyyətə danışıqda, müamilədə və yetimləri saxlamaqda ədalətli olmaq tövsiyə olunur.

[1] Maidə surəsi, ayə 8.

O gələcək...

Yetimin malı barəsində, ona "yaxın düşməmək" xəbərdarlıq olunur. Bu ifadə Quranda bəzi günahlar barəsində də işlənmişdir. Belə nəzərə çatır ki, bu ifadə vəsvəsə gətirən günahlar barəsində işlənmişdir. Məsələn, zina, fahişəlik, yetimlərin müdafiəsiz malları və sair kimi işlərdə, insanlara xəbərdarlıq olunur ki, onlara yaxın düşməyin. Bununla da, Şeytanın vəsvəsəsinin təsirinə düşməzsiniz.

Hökumətdə ədalət

Quran buyurur: **"Allah sizə əmanətləri öz sahiblərinə qaytarmağınızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etməyinizi əmr edir. Həqiqətən, bununla (belə bir tapşırıqla) sizə verdiyi öyüd necə də gözəldir. Əlbəttə, Allah hər şeyi görən və eşidəndir!"**[1]

Bu ayədə əmanəti sahibinə qaytarmaq əmrindən sonra ədalət məsələsinə işarə olunur. Bu tövsiyə yaxşı və gözəl moizə ünvanı ilə qeyd olunur. Allahın eşidən və görən vəsfindən söz açılır. Bununla Allah-taala, hakimə onun danışıq və rəftarını nəzarətdə saxladığını bildirmək istəyir.

Başqa ayədə ədalət və ehsan verməyi bir yerdə qeyd olunur, buyurur: **"Həqiqətən, Allah-taala (Quranda insanlara) ədalətli olmağı yaxşılıq etməyi, qohumlara (haqqını verməyi) buyurur, zina etməyi, pis işlər görməyi və zülm etməyi isə qadağan edir. Allah sizə, bəlkə düşünüb ibrət alasınız deyə, belə öyüd-nəsihət verir."**

Başqa yerdə Quran buyurur: **"(Ya Davud!) Biz səni yer üzündə xəlifə (və ya əvvəlki peyğəmbərlərə xələf) etdik. Buna görə də insanlar arasında ədalətlə hökm et. Nəfsdən gələn istəklərə uyma, yoxsa onlar səni Allah yolundan sapdırarlar. Şübhəsiz ki, Allah yolundan sapanları haqq-hesab günü şiddətli əzab gözləyir."**[2]

Bu ayədə, birinci, Allah-taala tərəfindən Davuda xəlifə qərar verilməsi xatırladılır. İkinci, ədalətdən çıxmamaq xəbərdarlıq olunur. Üçüncü, ədaləti aradan aparan amillərdən biri, insanın nəfsi istəklərinə tabe olmasına işarə edir. Həmçinin, insan öz zəlalətini və hesab-kitab gününü unudarsa, ədalətsizlik edər.

Bu beş ayə, nümunə ünvanı ilə bizə ədalət mövzusunu nişan verir. İslamda hər bir hakim, cəmiyyətin bütün üzvlərinə bir nəzərlə baxmalıdır. İndi də ədalətə, rəvayət nəzərindən baxaq. Nümunə üçün aşağıdakı hədisləri nəzərdən keçirək:

[1] Nisa surəsi, ayə 58.
[2] Sad surəsi, ayə 26.

O gələcək...

İmam Sadiqdən (ə) nəql olunur, buyurur: **"Ədalət teşnə insana, içmək istədiyi ən şirin su kimidir. Əgər ədalətlə rəftar olunarsa, az da olsa, yerlərdə icra olunsa, çox təsirlidir.**[1] Yenə də o, həzrətdən nəql olunur buyurur: **"Ədalət hər şirindən şirin, əldən yumşaq və müşkdən ətirlidir."**[2]

"Mən la yəhzuruhul fəqih" kitabında İmam Sadiqdən (ə) nəql olunur:

"Həzrətdən soruşurlar ki, bir nəfərin müsəlmanlar arasında şəhadətindən ötrü ədalətli olmasını nə ilə bilək? Buyurdu: Libası, iffəti, qarnını və şəhvətini haramdan hifz etmək, əli və dili gözləmək, Allahın atəş vədə verdiyi böyük günahlardan çəkinmək, şərab içməkdən qorunub, zina, riba və valideyn üzünə ağ olmamaq, cəbhə bölgəsindən qaçmamaq və sair..."[3]

Bu üç rəvayətdə ədalətin dəyəri və əhəmiyyəti bəyan olunmuşdur.

HAKİMLƏ ƏHALİNİN QARŞILIQLI HÜQUQLARI

Həzrəti Əli (ə) bu barədə, Nəhcül-bəlağədə buyurur: **"Ey camaat! Mənim sizin üzərinizdə, sizin də mənim üstümdə haqqınız var: Sizin mənim üzərimdə olan haqqınız sizə nəsihət vermək, qənimət və hüquqları bütünlüklə sizə çatdırmaq, nadan qalmamanız üçün sizlərə öyrətmək, öyrənənə qədər də tərbiyə etməkdir. Mənim sizin üzərinizdə olan haqqım beyəti saxlamanız, gizlində və aşkarda ixlas və dostluğunuz, sizi çağırdığım an cavab verməniz və sizə əmr etdiklərimə itaət etmənizdir."**

Bu qarşılıqlı hüquqlarda Həzrət, cəmiyyətdə nəsihət və moizə etmək, iqtisadi və maliyyat məsələlərini insanlara öyrədib tərbiyə etməyin hakimə vacib olduğunu vurğulayır. Hakim, cəmiyyətin maliyyatını və elmi səviyyəsinin şəraitini hazırlamalıdır.

Amma, hökumətin (əhalinin) haqqı isə evində sabitqədəm olmaq, gizlin və aşkarda hakimi moizə etmək, hakimin dəvətinə cavab vermək və işlərdə ona tabe olmaqdır.

Başqa yerdə həzrət Əli (ə) belə buyurur:

"Allah-talanın buyurduğu ən böyük vacib olan hüquqlardan biri, hakimin rəiyyətə və rəiyyətin də hakimə olan haqqıdır. Bu, Allahın

[1] Üsuli-kafi, cild 2, səh 146.
[2] Üsuli-kafi, cild 2, səh 147.
[3] Əl Mizan, cild 6, səh 221.

O gələcək...

onlardan hər birinin digərinin boynuna qoyduğu vacibdir. Bu hüquqlara riayət etməyi onlara, nəzm, ülfət, dostluq və izzət kimi qərar vermişdir. Hakimləri saleh olmayınca rəiyyətin işləri sabit olmayacaq. Hakimlər sabit qədəm, möhkəm və haqqa riayət etməyincə, islah olmazlar. Əgər bu iki təbəqə cəmiyyətdə bir-birinin haqqını əda etsələr, din onlar arasında əziz olar, yolları və ədalətləri yerində qalar, ədalət nişanələri, möhkəmlik və İlahi qanunlar öz yerində icra olunar. Bu əsaslara riayət etməklə, zəmanə saleh zəmanə olar. Hökumətin davamı çoxalar. Düşmənlərin tamahları ümidsizliyə çevrilər."[1]

Həzrət sözlərinin davamında buyurur:

"Lakin rəiyyət, hakiminin fərmanına baş qoşmasa, yaxud, hakim rəiyyətə zülm rəva bilsə, o vaxt ixtilaf yaranacaq və zülm çoxalacaq. Dinin xarab olmasına səbəb olanlar dinə daxil olacaq. İlahi qanunlar öz yolundan çıxacaq, həva və həvəslərə əməl olunar. İlahi hakimlərin icrası tətil olar. Xüsusi və ictimai xəstəliklər zühur edər. Bir daha tətil olunmuş əzəmətli hüquqlardan qorxan və çəkinən olmaz. Böyük cinayətlərin pisliyi aradan gedər, nəticədə saleh və yaxşılar zəlil olarlar. Əşrar və pis fitrətli şəxslər əziz olub, bəndələrin günahları Allah yanında böyük görünər".

Bu xütbədə, həzrət hökumətin davamının səbəbləri, hakimlə millət arasında sülh və səfanın olması, nəticədə, cəmiyyətin saədətə nail olmasına işarə etmişdir. Xütbənin digər bir yerində bunların əksinə, hökumətin dağılması, cəmiyyətdə aramlıq və əmniyyətin olmaması, yaxşı və saleh şəxslərin ölkədən getmələri, cəmiyyətin iflası, şər və fasid şəxslərin cəmiyyətin işlərini ələ almaları səbəblərinə işarə edir, nəticədə, dini nişanələrin tətil olub zəlaləti, fasidliyi və cəmiyyətin dağılması bayrağının dalğalanması qeyd olunur.

İmam Əli (ə) sərhəd əsgərlərinə yazdığı məktubda belə işarə edir:

"Hakimə şübhəsiz vacib olan haqdan biri budur ki, ona çatan nemət və fəzli rəiyyətdən əsirgəməsin və yolunu dəyişməsin. Ona yetişən xüsusi hədiyyələrdən də rəiyyəti məhrum etməsin. Allah-taalanın onun qismətinə ayırdığı nemətdən bəndələrə versin ki, onlara yaxın olsun. Qardaşlarına qarşı mehriban olsun və öz mehribançılığından qardaşlarım bəhrələndirsin.[2]

Həzrət Əli (ə) buyurduğu hər bir sözə əməl edərdi. Həqiqətən də, qısa müddətli hökuməti ədalətli hökumət olub. Cəmiyyətə qarşı meh-

[1] Nəhcül-bəlağə, xütbə 207.

[2] Nəhcül-Bəlağə, 50-ci məktub.

O gələcək...

riban ata kimi olmuşdur. Həzrət özü buyurur: **"Məgər mənə Əmirəl-möminin deyildiyinə qənaət edib, əhalinin giriftarçılıq günlərində onlara kömək göstərməyim? Xeyir! Heç vaxt belə ola bilməz.**[1]

Həzrəti Zeynul-abidin (ə) buyurur:

Hakim, mehriban ata kimi cəmiyyətin üzvlərini öz övladları bilib, onlar arasında bərabərliyə riayət etməlidir. Bu mətləb, həzrəti Əlinin (ə) qısa müddətli hökuməti dövründə əməli olur. İmam Əli (ə) özünün Malik-Əştərə yazdığı məşhur məktubunda onu bu mövzuya əməl etməsinə tövsiyə edərək, buyurur:

"Öz qəlbini, mehribançılıq və dostluqla əhalini tanış et. Onların qənimətini udmağa hazır olan canavar kimi olma. Çünki, insanlar iki dəstədirlər: Ya sənin din qardaşlarındır, yaxud da, əsl insaniyyətdə və yaranışda sənin birdilər"[2]

Həzrət Səccad (ə) buyurur: Rəiyyət və əhalinin xətaları vardır. Hakim onları görməməzliyə vurub bağışlamalıdır. Həzrəti Əli (ə) Malikə yazdığı məktubda buyurur:

"Əhalinin bəzi eybləri və çirkinlikləri vardır. Onların üstünü örtməyə ən layiq şəxs, hakimdir!"

Belə olan halda, əhalinin sənə gizlin olan eybləri ilə maraqlanma, çünki, aşkar olan eybləri örtmək sənə vacibdir!

Bu hissədə hakimin cəmiyyətdə müdiriyyət vəzifələrindən biri sayılan, eybləri biləndə özünü qəflət və görməməzliyə vurması mövzusuna işarə olunur.

İmam Səccadın (ə) rəiyyətin haqqı barəsindəki mövzusu, hakimin insanlara hökumət etməsi neməti müqabilində Allaha şükür etməsidir. Hakim bilməlidir ki, özündən heç bir şeyi yoxdur. Bu qüdrəti ona, Allah mərhəmət etmişdir. O, zəif və zəlil bəndədir. İmam Əli (ə) Malik Əştərə tövsiyyəsində buyurur:

"Əgər öz hökumətinlə, özündə qürur və təkəbbür hiss etsən, Allahın mülkünün əzəmətinə bax. Hər şey Onundur. Allah, bu qüdrəti imtahan etməkdən ötrü sənin ixtiyarında qoyub. Belə olan halda yaxşı olar ki, hakim, bu İlahi nemətə şükür etsin!"

[1] Nəhcül-Bəlağə, 45-ci məktub.
[2] Nəhcül-Bəlağə, 53-cü məktub

O gələcək...

19. ŞAGİRDİN HAQQI

وأمَّا حَقُّ رَعِيَّتِكَ بِالعِلْمِ فَأَنْ تَعْلَمَ أَنَّ اللهَ قَدْ جَعَلَكَ لَهُمْ فِيمَا آتاكَ مِنَ الْعِلْمِ وَوِلاّكَ مِنْ خَزانَةِ الحِكْمَةِ، فَإِنْ أَحْسَنْتَ فِيمَا وِلاّكَ اللهُ مِنْ ذلِكَ وَقُمْتَ بِهِ لَهُمْ مَقَامَ الخازِنِ الشَّفِيقِ النَّاصِحِ لِمَوْلاهُ فِي عَبِيدِهِ، الصَّابِرِ الْمُحْتَسِبِ الَّذِي إِذا رَأَى ذا حَاجَةٍ أَخْرَجَ لَهُ مِنَ الأَمْوَالِ الَّتِي فِي يَدَيْهِ كُنْتَ رَاشِدًا، وَكُنْتَ لِذلِكَ آمِلاً مُعْتَقِدًا وَإِلاّ كُنْتَ لَهُ خَائِنًا وَلِخَلْقِهِ ظَالِمًا وَلِسَلْبِهِ وَعِزِّهِ مُتَعَرِّضًا.

“Sənin elmi rəiyyətin sayılan şagirdlərin haqqı budur ki, bilə-sən, Allah-taala, sənə verdiyi elm və ixtiyarında qoyduğu hikmət xəzinəsinə görə onları sənin şagirdlərin qərar verib. Əgər Allahın sənə əta etdiyi bu hamiçilikdə yaxşı əməl etsən, səbirli və Allah istədiyi xeyirxah mövla və mehriban xəzinədar olarsan. Ehtiyaclı gördükdə öz mal-dövlətindən ona verən kimi olsan, ağıllı və imanlı xadimsən. Yoxsa, Allaha xəyanət, xalqa qarşı zalım olmuş olarsan. Həmçinin, izzət və nemətin aradan getməsinə səbəb olarsan!”

“Məkarimul-əxlaq kitabında yazır:

“Əgər insanları öyrəndikdə yaxşılıq edib onlarla tünd və pis dav-ranış etməsən, Allah öz fəzl və kərəmindən elminə əlavə edər. Əgər əhalini öz elmindən məhrum edib onlarla pis və çətin rəftar etsən, Allah Özünə vacib bilir ki, elmi və biliyi səndən geri alsın və əhali arasında olan məqamından çıxasan.”

İmam Səccad (ə) hüquq bəhsinin bu hissəsində aşağıdakı mövzula-ra işarə etmişdir.

Birinci: Müəllimin öyrəndiyi və ələ gətirdiyi elm və hikmət Alla-hın nemətlərindəndir. Müəllimin özünün zatında heç bir şey yoxdur. Beləliklə, bu mövzuya diqqət etməklə, müəllimdə qürur hissi aradan gedir.

İkinci: Müəllim, bu bilik və hikmətdə başqalarının xəzinədarıdır. Bu xəzinənin bölünməsində mehriban üzügülər və üzüaçıq olmaqdır.

Üçüncü: İmam Səccad (ə) müəllimi elm və hikmətin xəzinədarı bi-lir. Elm xəzinəsindən bağışlamağı, mal-dövlət xəzinəsindən bağışlama-ğa bənzədib, bildirir ki, bu işdə xəsislik edilməməlidir.

Dördüncü: Əgər müəllim öz vəzifəsinə əməl etsə, öz əmanətinin hifzində ciddi olan əmanətdar kimidir. Əgər öz vəzifəsinə əməl etməsə, insanlar barəsində zülm və sitəmi rəva bilib, onların hüquq və izzətini azaltmış xəyanətkar şəxs kimidir. Nəhayət müəllim, elm öyrətmək yo-

lunda yaxşı yol və bəyənilmiş rəftar seçməklə şagirdləri elm və biliyə olan həvəslərini artırsın. Müəllimin pis rəftarı, əsəbləşməsi və pis xasiyyəti səbəb olur ki, şagird sinifdən soyusun, bəlkə də, təhsili tərk etməyə səbəb olsun. Əslində, müəllim bu əməllə öz elm və biliyinə qarşı xəyanət edir və şagirdlərin öyrədilməsində xəsislik göstərir.

YAXŞI MÜƏLLİMİN XÜSUSİYYƏTLƏRİ

Layiqli və yaxşı müəllim odur ki, onda müəllimlik, tədris və şagirdlərlə yaxşı davranış xüsusiyyətləri olmuş olsun. Layiqli müəllim aşağıdakı xüsusiyyətlərə malik olmalıdır:

Birinci: Yaxşı müəllim o kəsdir ki, istedad və qabiliyyət ələ gətirməyincə tədris kürsüsünə söykənməsin. Elə məqama çatsın ki, yaxşı və saleh müəllimlər onun tədrisini təsdiq etsinlər.

İkinci: Müəllim, öz rəftarı ilə elmi məqam və mənzilətinin azalıb zillətə düşməsinə səbəb olmasın. Belə ki, öz elmini, əhli olmayanın ixtiyarında qoymasın.

Üçüncü: Müəllim, sözün tam mənasında öz elminə amil olsun və vücudundan elm meyvələri asılmış olsun. Əgər belə olmasa, bu mübarək ayənin misdaqına çevriləcək. **"Əhaliyə yaxşılığı əmr edirlər, lakin özlərini unudurlar."**[1]

İmam Sadiq (ə) Quranda gələn **"Həqiqətən, Allah bəndələrindən, alimlər Allahdan qorxarlar!"-** ayəsinin şərhində buyurur:

"Alim o kəsdir ki, əməli dediyini təsdiq etsin. Hər kimin əməli elmini və dediklərini təsdiq etməsə, alim deyil."[2]

Dördüncü: Müəllimin yaxşı rəftarı və xasiyyəti, səbr və hövsələ ilə elmini öyrətməsi zəruridir. İslam Peyğəmbəri (s) alimlər barəsində buyurur:

"Ümmətimin alimləri, İsrail övladlarının peyğəmbərləri kimidirlər."[3]

Peyğəmbərlərdə yaxşı rəftar və təvazökarlıq olduğu kimi müəllimlər də belə olmalıdır.

Beşinci: Müəllim, şagirdlərə xalis niyyətləri olmaması bəhanəsi ilə elm öyrətməkdən çəkinməsin. Əksinə, onları qəbul edib, dərs zama-

[1] Bəqərə surəsi, ayə 44.
[2] Üsuli-Kafi, cild 1, səh 36.
[3] Munəyətul Murid, səh 182.

O gələcək...

nı yavaş-yavaş onlarda ixlas yaratsın. Əgər elm xalis niyyətlə olmasa, Həzrət Əli (ə) dediyi kimi: **"Donuzun boynuna salınmış boyunbağıya bənzəyir!"**

Altıncı: Müəllim hər vaxt elm öyrənmək istəyən şəxs görsə, onu başından etməsin. İmam Baqirdən (ə) nəql olunur ki, buyurur: **"Elmin zəkatı, Allahın bəndələrinə elm öyrətməkdir."**[1]

Yeddinci: Müəllimin hərəkət və əməlləri sözlərinin əksinə səbəb olmasın. Məsələn, bir şeyi haram bilib, ona əməl edən kimi olmasın.

Səkkizinci: Haqqı izhar etməkdə qüdrəti çatana qədər ciddi olsun və yersiz bəhsdən çəkinsin. İslam Peyğəmbəri (s) buyurur:

"Əhali arasında bidət və batil zühur etdikdə, alimlərə lazımdır ki, öz elmini izhar etsin. Əgər belə etməsə, Allahın lənəti ona olsun!"

YAXŞI MÜƏLLİMİN ŞAGİRDLƏRƏ VƏ SİNİFƏ GÖRƏ VƏZİFƏLƏRİ

Birinci: Müəllim, şagirdlərə tədriclə ədəb və əxlaq xüsusiyyətlərini öyrədib, dini məsələlərlə tanış etməli və onlarda dünyaya qarşı zahid olmağı anlatmalıdır.

İkinci: Elmin fəzilətlərini şagirdlərə izah etməli, alimlərin məqamlarını, peyğəmbərlərin məqamı kimi olduğunu anlatmalıdır.

Üçüncü: Müəllim, özünə rəva bildiyini şagirdlərə də arzu etsin, özünə rəva bilmədiklərini onlara da istəməsin.

Dördüncü: Müəllim, təhsil alan şagirdləri, pis əxlaqlı olmaq, harama düşmək və onların zərərinə olanlardan çəkindirməlidir.

Beşinci: Müəllim, şagirdlərin müqabilində təkəbbür göstərməməli və onlarla təvazökarcasına rəftar etsin. İslam Peyğəmbəri (s) buyurur: **"Dərs öyrətdiyiniz və dərs aldığınız şəxslərin müqabilində təvazökar olun".**

Altıncı: Müəllim, şagirdlərin rəftarına diqqət göstərsin. Hər vaxt dərsdə iştirak etməsə, bunun səbəbi ilə maraqlansın. Bəzən özü, yaxud başqalarının vasitəsi ilə şagirddən xəbər tutsun. Xəstələndiyi halda ona baş çəksin. Ehtiyacı olduğu halda, onu ödəməyə çalışsın.

Yeddinci: Şagirdləri xüsusi adlarla tanısın.

Səkkizinci: Elm öyrətməkdə ən sadə yolu seçsin. Şagirdə qabiliyyətinə uyğun dərsi anlatdığı şəkildə ondan tələb etsin.

[1] Üsuli-Kafi, cild 1, səh 41.

O gələcək...

Doqquzuncu: Dərs otağına şövq və rəğbətlə getsin. Şagirdin onu anlaya bilməyə qüdrəti olmayan məsələlərdən çəkinsin.

Onuncu: Şagirdlərin hamısına bir gözlə baxsın. Şagirdlərin hamısı eyni səviyyədə olduğu halda bəzilərini digərlərindən (yersiz) üstün tutmasın. Lakin, əgər şagirdlər arasında mərtəbə, yaş və elmi cəhətdən fərqlər olsa, üstünlərə, aşağı səviyyədə olanların təşviq olmasından ötrü daha çox ehtiram qoysun.

Tədris zamanı müəllimə zəruri olan ədəb qaydaları

Birinci: Tədrisə gələrkən, tam vüqar və heybətli olub, təmiz libas geyinsin, bədən və zahiri paklığına tamamilə riayət etməklə, dərs otağına daxil olsun.

İkinci: Tədrisə gələrkən, Allahın adını zikr etsin, Peyğəmbər və İmamlardan (ə) ali mənada nəql olunan dualardan oxusun. Məsələn, **"İlahi! Məni yolumu azmaqdan, yoldan azdırmaqdan, kəc anlamaqdan və pis fikirlərdən hifz et!"** kimi dualarla dərsini başlasın.

Üçüncü: Otağa girərkən dərsdə iştirak edənlərə salam versin. Əgər dərs yeri məsciddirsə, iki rəkət "Təhiyyə" namazı qılsın və Allahdan ona xətalardan nicat verib, fürsət verməsini istəsin.

Dördüncü: Oturarkən, ruhi aramlıq, vüqar və tam hazırlıqla keçmiş dərsin mütaliəsinə başlasın.

Beşinci: İmkan olana qədər üzü qibləyə oturub, mənasız və batil söz danışmaqdan çəkinsin.

Altıncı: Dərs zamanı yersiz zarafatlardan çəkinin. Lakin, yerliyerində azca zarafat və yaxşı lətifələrlə şagirdlərin yorğunluq və tənbəlliklərini aradan aparsın.

Yeddinci: Dərsə gələrkən, xalis niyyətdə olub öz hədəfini elmi yaymaq və İlahi hökmləri çatdırmağa yönəltsin.

Səkkizinci: Bütün şagirdlərin onu görəcəyi yerdə otursun. Söz danışarkən diqqət nəzərini bütün şagirdlərə yönəltsin. Əgər ondan sual olunarsa, tam diqqətlə şagirdin cavabını versin.

Doqquzuncu: Dərs deyərkən, özündən şad və təbəssümlü çöhrəli olsun. Üzünü turşudub, pis xasiyyətli olmaqdan çəkinsin.

Onuncu: Dərsə başlayarkən, Quran oxumaqla dərs məclisini mübarək etsin.

On birinci: Müəllim üçün ən mühüm mövzulardan biri də budur ki, cavabını dəqiq bilmədiyi bir şey haqqında ondan sual edilərsə, tam cəsarətlə **"bilmirəm"** desin.

Həzrəti Əli (ə) buyurur:

"Əgər bilmədiyiniz bir şeyi soruşsalar, cavab verməyin. Ərz etdilər necə cavab verməyək? Həzrət buyurdu: Allah bilir! - deyin."[1]

Diqqət etmək lazımdır ki, əgər müəllim bilmirəm deməklə, elmindən bir şey azalmaz. Bəlkə də, əhalinin qəlbində özünə daha çox yer tapacaq. Bunu da onun dəyanət və təqvalı olmasına yozacaqlar.

İSLAM PEYĞƏMBƏRİNİN (s) NƏZƏRİNDƏ, ELM ARDINCA OLANLARIN MƏQAMI

Mərhum şəhid Sani, "Munəyətul-murid" kitabında bir çox ədəbləri nəql edir. Biz bu bəhsdə, müxtəsər nəqllə kifayətlənirik.

Allahın elm axtaran və təhsil ardınca olanlara verdiyi savab və məqama işarə etmək istərdik:

Birinci: İslam Peyğəmbəri (s) buyurur:

"Hər kim elm ardınca gedib elm öyrənərsə, Allah ona iki savab və iki mükafat mərhəmət edər. Hər kim elm öyrənmək ardınca gedərsə, lakin, elmdən bəhrə ələ gətirə bilməzsə, Allah ona bir savab və bir mükafat əta edər."[2]

İkinci: İslam Peyğəmbəri (s) yenə buyurur:

"Hər kim Allah tərəfindən Cəhənnəm odundan nicat tapanları ziyarət etmək istəyirsə, alimlər və elm dalınca gedənlərə baxsın. And olsun ruhumun qəbzi, Onun əlində olan Allaha ki, alimlərin evinə elm öyrənməkdən ötrü gedən hər bir tələbəyə, Allah-taala hər bir qədəminə görə bir ilin ibadətinin savabını yazır. Atdığı hər bir addıma görə behiştdə ondan ötrü bir şəhər tikilər. Yol getdiyi yerdə, yer ondan ötrü Allahdan bağışlanmaq istəyər. Sübh və şam, Allahın bağışlaması ilə birlikdədir. Mələklər şəhadət verirlər ki, bunlar atəşdən azad olunmuşlardır."[3]

Başqa bir hədisdə Rəsuli Əkrəmdən (s) nəql olunur, buyurur:

"Hər kim elm ardınca gedirsə, gündüzləri oruc, gecələri isə oyaq qalıb ibadət edənlər kimidir. Elmdən öyrəndiyi hər bir fəsil ondan ötrü Əbu Qubeys dağının qızıl olub, onu Allah yolunda infaq etməsindən xeyirlidir."[4]

Yenə də İslam Peyğəmbəri (s) buyurur:

---

[1] Munəyətül Mürid, səh 215.
[2] Munəyətül Mürid, səh 100.
[3] Munəyətül Mürid, səh 100.
[4] Munəyətül Mürid, səh 100.

O gələcək...

"Hər kim elm öyrənərkən əcəli gəlsə və vəfat etsə, əgər hədəfi İslam dinin canlandırmaqdan ötrü olarsa, Behiştdə onunla peyğəmbərlərin arasında bir dərəcə cənnət olar."[1]

İslam Peyğəmbərinin (s) elm tələb edənlər barəsində buyurduğu kəlamların qısası bunlardan ibarət idi.

20. HƏYAT YOLDAŞININ HAQQI

وَأَمَّا حَقُّ رَعِيَّتِكَ بِمِلْكِ النِّكَاحِ فَأَنْ تَعْلَمَ أَنَّ اللَّهَ جَعَلَهَا سَكَنًا وَمُسْتَرَاحًا وَأُنْسًا وَوَاقِيَةً، وَكَذَلِكَ كُلُّ وَاحِدٍ مِنْكُمَا يَجِبُ أَنْ يَحْمَدَ اللَّهَ عَلَى صَاحِبِهِ، وَيَعْلَمَ أَنَّ ذَلِكَ نِعْمَةٌ مِنْهُ عَلَيْهِ. وَوَجَبَ أَنْ يُحْسِنَ صُحْبَةَ نِعْمَةِ اللَّهِ وَيُكْرِمَهَا وَيَرْفُقَ بِهَا وَإِنْ كَانَ حَقُّكَ عَلَيْهَا أَغْلَظَ وَطَاعَتُكَ بِهَا أَلْزَمَ فِيمَا أَحْبَبْتَ وَكَرِهْتَ مَا لَمْ تَكُنْ مَعْصِيَةً، فَإِنَّ لَهَا حَقَّ الرَّحْمَةِ وَالْمُؤَانَسَةِ، وَمَوْضِعُ السُّكُونِ إِلَيْهَا قَضَاءَ اللَّذَّةِ الَّتِي لَا بُدَّ مِنْ قَضَائِهَا وَذَلِكَ عَظِيمٌ. وَلَا قُوَّةَ إِلَّا بِاللَّهِ.

"Evlənmək yolu ilə sənin ixtiyarında olanın, (həyat yoldaşının) haqqı odur ki, biləsən, Allah onu rahatlıq qaynağı, ünsiyyət və sənin qoruyanın qərar verib. Həmçinin, siz ər və arvaddan hər biriniz digərinizin vücuduna görə Allaha şükür etməlisiniz. Bil ki, bu, Allahın ona verdiyi nemətdir. Bu nemətlə xoş rəftar etməyiniz vacibdir. Bu nemətin qədrini bil və onunla xoş rəftar et.

Doğrudur ki, istədiyin və istəmədiyin işlərdə zövcənin sənə itaəti çətin və səndən ona itaət gərəkdir. O, yerə qədər ki, günah olmasın. Lakin, o qadının sənin boynunda da mehribançılıq və ünsiyyət haqqı vardır. Sənin məqamının hifz olunması onun ətəyindədir. Kam almaq və ləzzət almaq özü böyük bir haqqdır. Allah tərəfindən başqa heç bir güc qüvvət yoxdur!".

Məkarimul-Əxlaq kitabında belə yazılır:

"Həqiqətən, zövcənin də sənin boynunda mehribançılıq və mərhəmət haqqı vardır. Çünki, o sənin əsirin kimidir. Onu yemək və geyimlə təmin etməli, bilmədən xətaya düçar olduğu halda onu bağışlamalısan!"

Biz əvvəlcədən, qadının iffəti barəsindəki hüquqda, evlənmək və ailə hüququ barəsində müfəssəl bəhs etdik. O bəhsdə, cəmiyyətin fəhşa və çirkinliyə düşməsi və ailə həyatının yaxşı tərzdə qurmaq yollarını bəyan

[1] Munəyətül Mürid, səh 100.

O gələcək...

etdik. Bu bəhsdə isə İmam Səccadın (ə) buyurduğu kimi həyat yoldaşının, Quran və hədis nəzərindən vəzifələrini qısa şəkildə izah edəcəyik.

Əvvəlcə qeyd etdik ki, evlənmək mübarək bir bünövrədir. Ər və arvadın bir-birinə verdiyi əhdin əsasında qurulur. Bu bünövrə, dəmir, kərpic, sement, sim və torpaqdan deyil, həyatlarının sonuna kimi davam edən aramlıq və məhəbbət evi olub, ər-arvadın bir ömür bir-birinin kənarında xoşluqla yaşayışıdır. Öz vücud ağaclarından faydalı və şirin meyvələr verir, oğlan və qız övladları tərbiyə edib cəmiyyətə təhvil verirlər.

Onu da qeyd edək ki, bu bina, o vaxt möhkəm olar ki, ərlə arvad İslamın haqq ünvanı ilə təyin etdiyi əhkamları bilsin. Əks halda, bina titrəyib dağılma həddinə düşər.

MƏHƏBBƏT VƏ MƏRHƏMƏT

İmam Səccadın (ə) bəyan etdiyi ilk xüsusiyyət, aramlıq və arxayınçılıqdır. Allah-taala, Qurani-kərimdə kişi və qadının xilqətində bu iki nəfərin aramlığından, ayə və əlamət kimi ad aparmışdır. Buyurur:

"Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda dostluq, sevgi və mərhəmət yaranması da, Onun qüdrət əlamətindəndir. Həqiqətən, bunda (bu yaradılışda) düşünən qövm üçün ibrətlər vardır."[1]

Əraf surəsində də sevgi, mərhəmət və aramlığa işarə olunur. Buyurur:

"Sizi tək bir nəfərdən (Adəmdən) xəlq edən və onunla ünsiyyət etmək (sakit rahat olmaq) üçün zövcəsini (Həvvanı) yaradan Odur!"

Bu iki ayədə, hər biri böyük İlahi bəxşişlərindən sayılan rahatlıq və sakitlikdən söz açılır. Bu rahatlıq, həm cismi, həm ruhi cəhətdəndir. Həm fərdi, həm də ictimai faydaları vardır. İnsanın evlənməməsinə görə mübtəla olduğu xəstəliklər inkar olunmazdır. Həmçinin, subay şəxslərin ruhi cəhətdən aram olmayan narahatçılıqları da məlumdur.

İctimai cəhətdən subay şəxslər az məsuliyyət hiss edirlər. Ona görə də, subaylar arasında intihar halları daha çox baş verir. Həmçinin, ən çox cinayətlər də, subay şəxslər tərəfindən baş verir. Subaylıq aləmini arxada qoyub evlənən şəxs, özündə təzə şəxsiyyət hiss edib daha çox məsuliyyətli olur.

Bu mövzunun ardınca həyatın ən yaxşı növü sayılan və hamının istəyi sayılan mərhəmət və məhəbbət mövzusu bəyan olur. Əslində, bu

[1] Rum surəsi, ayə 21.

iki xüsusiyyət, insan cəmiyyətinin məsləhətlərinin əsasını təşkil edir. Məhəbbət və mərhəmət arasında müxtəlif cəhətdən fərqlər vardır.

Birinci: Məhəbbət, işin başlanması ilə əlaqədardır. Amma sonra onlardan biri zəifləyir, məhəbbətə yox, mərhəmətə ehtiyacı olur.

İkinci: Məhəbbət, biri digərinə xidmət etməkdən ötrü böyüklərə lazımdır. Amma, uşaqlar mərhəmətin sayəsində böyüyürlər .

Üçüncü: Məhəbbət, adətən qarşılıqlı olur. Amma mərhəmət bir tərəfli və canyandırıcı olur.

Dördüncü: Kişi ilə qadının həyatı aramlıq, məhəbbət, dostluq və mərhəmətlə dolu olarsa, bu yaşayışın binasına xələl gəlməz. Əksinə, bütün bu xüsusiyyətlərdən məhrum olan həyat, zəif və dağılmaq astanasındadır. Ailə həyatı, cəmiyyətin ilk sinfi olub, hüquq dərsini oxumaq üçün bir məktəbdir İslamda kişi ilə qadının arasında olan hüquq iki növdür. Biri qanun hüququ. Digəri isə əxlaqi hüquq.

Birinci: Qanun hüququ, zövcənin xərcinin - yemək, məskən və paltar kişinin boynunda olmasıdır. Onun müqabilində qadın kişiyə tabe olub, təmkin etməlidir. Hüquq, hər hansı binanın kökünə bənzəyir.

İkinci: Əxlaqi hüquq, qadın və kişinin hər birinin ona riayət etməsi lazım olan hüquqa deyilir. Bu hüquqa riayət olunmaması, qanuna zidd olmasa da, həyatın gözəlliyi və xoşluğu həmin əxlaqa əməl etməkdir. Məsələn, məhəbbət, səmimiyyət və anlaşmaq. Bu cür hüquq, binaya çəkilən nazik qat rəngə bənzəyir.

"Xilqət qanunu" kişi ilə qadının əlaqəsini bir-birinə daha yaxın etməkdən və ailə həyatını bəşərin əsas hədəfi olan xoşbəxtlik və səadət üzərində möhkəmlətməkdən ötrü onların birini digərinə ehtiyaclı halda yaratmışdır.

Əgər maddi cəhətdən kişini qadına dayaq qərar vermişdirsə, ruhi və aramlıq cəhətindən qadın kişinin dayağı sayılır. Bu iki müxtəlif ehtiyac onları bir-birinə daha da yaxınlaşdırır.

AİLƏ HƏYATINDA İDARƏÇİLİK

Qurani-Kərim buyurur: **"Kişilər qadınlar üzərində ixtiyar sahibidirlər. Bu Allahın onlardan birini digərinə üstün etməsi və kişilərin öz mallarından (qadınlar üçün) sərf etməsinə görədir. Əməli saleh qadınlar (ərlərinə) itaət edib Allahın himayəsi sayəsində gizlin şeyləri (ərlərinin sirlərini, mal-dövlətini, namus və şərəfini) qoruyub saxla-**

O gələcək...

yırlar. (Ey kişilər!) Özbaşınalıq etmələrindən qorxduğunuz qadınlara nəsihət edin, yola (gəlməsələr) onlardan yatağınızı ayırın və (o da təsir etməsə) tənbeh edin.

Sizə itaət etdikdə isə daha onlara (əziyyət vermək üçün) başqa yol axtarmayın. Əlbəttə, Allah uca və böyükdür!"

Onu da bilmək lazımdır ki, ailə həyatı ictimaiyyətin kiçik bir üzvü olub, rəhbər və idarə edənə ehtiyacı vardır.

Kişi ailənin ixtiyar sahibi, qadın isə onun müavini və nəzarəti altındadır. Bütün bunlar kişinin vücudunda olan bəzi xüsusiyyətlərə görədir. Məsələn, (qadınların əksinə) kişilərdə hissə uymaq və fikri cəhətdən mehribançılıq qüvvəsinə qalib gəlmək, cismi cəhətdən qüvvətli olmaq daha güclüdür. Bu cəhətdən, kişi yaşayış planı çəkə bilər, digər tərəfdən isə öz qüvvəsi ilə ailə həyatını müdafiə etməyə qadirdir.

Ayədəki, **"Bu Allahın onlardan birinin digərinə üstün etməsi və kişilərin öz mallarından sərf etməsinə görədir"**cümləsi də həmin mənaya işarədir. Lakin aydın şəkildə məlumdur ki, bu vəzifəni kişilərin öhdəsinə qoyulması, nə onların insani şəxsiyyətlərinin üstün olmasına görə, nə də dərəcə və məqamlarına görə deyil. Adi həyatda müşahidə olunur ki, müavin vəzifəsində işləyən insanın şəxsiyyəti, müdirdən çoxdur. Lakin, müdir ona tapşırılan işdə məharəti olduğuna görə müdirdir.

Yuxarıdakı ayədə qadınlar iki dəstəyə ayrılırlar. **Birinci dəstə: Saleh qadınlar.** Onlar ailə həyatının nəzm və qanunu müqabilində təvazökardırlar. Təkcə ərlərinin hüzurunda yox, bəlkə də, onun olmayan vaxtında da, mal, namus, şəxsiyyət və Allahın ailə həyatına görə təyin etdiyi qanuni vəzifələr və məsuliyyətlərini layiqincə yerinə yetirirlər.

İkinci dəstə: O qadınlardır ki, öz vəzifələrindən boyun qaçırır və ailə həyatı ilə razılaşmayan nişanələr onlarda özünü göstərir. Kişilər birinci dəstə qadınların müqabilində tam ehtiram və hörmətlə rəftar etməlidir. İkinci dəstəni isə moizə və onlardan yataqlarını uzaqlaşdırmaq, nəhayət, bir nəticə vermədiyi halda, müqəddəs İslam şəriətində icazə verilən həddə qədər onları tənbeh edə bilərlər.

Ayəni qeyd etməkdə hədəfimiz, qadının xərc və nəfəqəsinin kişinin öhdəsində olmasını aydınlaşdırmaqdır.

İmam Səccad (ə) yemək, libas və qadının hüquqlarına riayət etməyi kişiyə tövsiyə edir. Dahi İslam alimləri də, xərcin kişinin boynunda vacib olmasına fətva verirlər:

"Daimi zövcənin xərci kişiyə vacibdir. O da, yemək, libas, məkan və yaşayışa lazım olan ləvazimatlardan ibarətdir. Məsələn, fərş, pal-

paltar təmizlik vasitələri və sair, qadının gündəlik həyatda onlara ehtiyacı vardır. Bu şərtlə ki, zövcə kişinin evində olub ona tabe olsun. Beləliklə, qadın şəri icazəsi olmadan evdən xaric olarsa və kişini tərk edərsə, təmin olunmağa layiq deyildir."

Məşhur İslam alimləri, qadının kişi ilə cinsi ünsiyyətində narazılıq həddinə çatmayınca xərcini kişiyə vacib bilirlər.

Qeyd etdik ki, qadının iki növ hüququ var.

Birinci: **Qanun hüququ. O** da gündəlik xərcini və yaşayışı təmin etməkdir. Əgər kişi zövcəsinin xərcini verməkdən boyun qaçırarsa, qadının haqqı var ki, şəri qanun yolları ilə kişidən öz haqqını alsın.

İkinci: **Əxlaqi hüquqlar:** Bu növ hüquqa, hər iki tərəfin riayət etməsi, yaşayışlarının davamlı olmasına səbəb olur. Belə hüquqa riayət olunmasında bir neçə göstərişə əməl etmək lazımdır.

İslam Peyğəmbəri (s) qadınların hüquqlarına aid təkidlə sifarişlər buyurmuşdur. Onların bəzilərinə işarə edirik. Peyğəmbər (s) buyurur: **"Sizlərdən ən yaxşısı, əhli-əyalına ən yaxşı münasibətdə olanlardır. Mən öz əhli əyalıma qarşı münasibətdə sizlərdən ən yaxşısıyam."**[1]

Həzrət yenə buyurur:

"Kişinin zövcəsi onun evində əsir kimidir. Allahın ən yaxşı bəndələri öz zövcələrinə qarşı mehriban olanlardır".[2]

İmam Baqir (ə) İslam Peyğəmbərindən (s) nəql edərək, buyurur:

"Cəbrail (İlahi rəsul) qadınlarla münasibətdə, mənə elə tövsiyyə etdi ki, güman edirdim ki, qadın aşkar şəkildə namusunu qorumaqda səhlənkarlıq etməyincə tələq verilməsi yaxşı deyildir."[3]

Həzrət başqa hədisdə buyurur:

"Hər kim zövcəsinin hətta bir kəlmə (nalayiq sözünə) dözə bilsə (ailə nəzmini pozmasa), Allah-taala onu Cəhənnəm atəşindən xilas edər və Cənnət ona vacib olar. Ondan ötrü iki yüz min ehsan yazar və iki yüz min günahından keçər, iki yüz min dəfə məqamını ucaldar və bədənindəki hər bir tükün sayına bir ilin ibadətini yazar."[4]

Bu bəyanlar qadınların hüquq barəsində İslam Peyğəmbərindən (s) bizə çatan ən ali və yaxşı göstərişlərdir.

Kişinin vəzifəsidir ki, ailə həyatının mühitində öz zövcəsi ilə ədəb və kəramətlə rəftar edib, onun xətalarının üstündən keçsin. Zövcəsinin

[1] Məkarimul Əxlaq, səh 216.
[2] Məkarimul Əxlaq, səh 216.
[3] Vəsail Şiə, cild 14, səh 122.
[4] Vəsail Şiə, cild 14, səh 122.

O gələcək...

pis rəftarı müqabilində səbirli olsun ki, İslam Peyğəmbərinin (s) buyurduğu əzəmətli mükafatı əldə edə bilsin.

Şübhəsiz ki, ailə həyatında müxtəlif narahatçılıqlar baş verir. Bəzən ərlə arvadın əxlaqi xüsusiyyətlərinin müvafiq olmaması səbəbindən bir sıra çəkişmələrə və mübahisələr olur ki, ər-arvadın biri digərinə qarşı soyuq münasibət göstərməsi hallarına gətirib çıxarır və qarşısı alınmadığı təqdirdə tələğa səbəb olur. Xüsusilə, ruzigarın isti soyuğunu dadmayan və həva-həvəslərinə uyan cavanlar, tez hövsələdən çıxıb bir-birinə qarşı intiqam almaq fikrinə düşürlər.

Belə amillərin qarşısını almaqdan ötrü İslam dini, ər-arvada bağışlamaq, bir-birinin xətalarına göz yummaq və hüququna riayət etməyi tövsiyyə edir.

İshaq ibni Əmmar İmam Sadiqdən (ə) kişi ilə zövcənin hüquqlarından soruşur. Həzrət cavabında buyurur:

"Zövcənin qarnını tox et, bədənini ört və xətalarına göz yum. İbrahim (ə) Saradan Allaha şikayət edir. Allah ona vəhy göndərir: Zövcə quru əyri ağac kimidir. Əgər onu düzəltmək istəsən, tez sınar. Əgər onu azad etsən vücudundan bəhrələnə bilərsən. (Zövcə ilə pis əxlaq münasibətdə olmaq narahatçılıqdan başqa bir nəticə verməz.)"[1]

Kişinin ailə həyatında diqqət etməli ən mühüm mövzu, onun əsiri və xidmətçisi deyil, zövcəsini həyatında şəriki bilməsidir. Ona görə də, şəri cəhətdən kişinin qadını iş görməyə vadar etməyə, yaxud onun əl muzduna şərik çıxmağa haqqı yoxdur. Ən əhəmiyyətlisi isə həyat yoldaşına kömək etməsidir. Məsum İmamlarımız (ə) kişinin zövcəsinə kömək etməsinə görə qazandığı çoxlu savabları nəql etmişlər ki, onlardan bəzilərinə işarə edirik.

ZÖVCƏYƏ KÖMƏK ETMƏYİN SAVABI

İslam Peyğəmbəri (s) həzrəti Əliyə (ə) buyurur:

"Ya Əli! Eşit! Allahın mənə vəhy etdiyindən başqa heç bir şey demirəm. Hər kişi evdə zövcəsinə kömək etsə, Allah-taala ondan ötrü bədənindəki tüklərin hər birinin sayına bir il oruc tutub, gecələri oyaq qalıb, ibadətlə məşğul olanın savabını əta edər. Həmçinin, səbr edənlərə, Davud, Yəqub və İsaya (ə) əta etdiklərini ona da əta edər."[2]

---

[1] Məkarimul Əxlaq, səh 216.

[2] Camius-Saadat, cild 2, səh 142.

O gələcək...

Şübhəsiz ki, bu hədisdəki bütün bu təşviqlər, mömin kişilərin öz zövcələrinə kömək etmələrinə, pis rəftar və zor etməkdən çəkinmələrinə səbəb olur.

İslam Peyğəmbəri (s) buyurur:

"Ya Əli! Hər kim evdə zövcəsinə kömək etsə və bu köməkdən inciməsə, Allah, onun adını şəhidlərin dəftərinə yazar və onun hər bir gecə-gündüzünə görə min şəhidin savabını yazar. Atdığı hər bir addıma görə həcc və ümrənin savabını bağışlayar. Həmçinin, bədənindəki damarlarının sayı qədər Behiştdə ondan ötrü şəhər salar."[1]

İslam Peyğəmbəri (s) buyurur:

"Ya Əli! Zövcəyə xidmət etmək, böyük günahların kəffarəsi sayılır. Allahın qəzəbini soyudur və Behişt hurilərinin ona qismət olmasına səbəb olur. Nəhayət, ehsan və dərəcələrinin çoxalmasında böyük rol oynayır."[2]

ÇƏTİNLİK YARADAN KİŞİLƏRİN MƏZƏMMƏTİ

İslam peyğəmbəri (s) buyurur:

"Hər kim zövcəsini günahı olmadan vursa, Qiyamətdə mən onun düşməniyəm. Qadınlarınızı vurmayın. Hər kim zövcəsini nahaqdan incitsə, Allaha və Peyğəmbərə qarşı günah etmişdir."[3]

İslam Peyğəmbəri (s) yenə də buyurur:

"Hər kim dövləti çox olan halda zövcəsini çətinlikdə qoysa, bizdən deyildir."[4]

ZÖVCƏNİN HƏYATINI YAXŞILAŞDIRMAQ

İmam Səccaddan (ə) nəql olunur. Buyurur:

"Allah dərgahında sizlərdən ən sevimlisi, zövcəsinin yaşayış səviyyəsini yaxşılaşdıranlardır!"[5]

İmam Rza (ə) buyurur: **"Kişi həyat yoldaşının yaşayış səviyyəsini yaxşılaşdırmalı və heç vaxt onun ölümünü arzulamamalıdır."**[6]

---

[1] Camius-Saadat, cild 2, səh 142.
[2] Camius-Saadat, cild 2, səh 143.
[3] İrşadul Qulub, cild 1, səh 175.
[4] Müstədrəkül Vəsail, cild 2, səh 643.
[5] Müstədrəkül Vəsail, cild 2, səh 643.
[6] Vəsail Şiə, cild 15, səh 249.

O gələcək...

Buraya qədər kişilərin həyat yoldaşlarına qarşı mehriban və mərhəmətli olmaları, onlara əziyyət verməmələri, onları çətinliyə salmayıb, köməklik göstərmələrindən bəhs olundu. İndi də, İslamda kişilərin bu xidməti müqabilində qadınlara hansı göstəriş verilir və onların həyatda hansı təsirləri olduğuna nəzər salaq.

KİŞİNİN QADININ ÜZƏRİNDƏ OLAN HAQQI

İmam Baqirdən (ə) nəql olunur: **"Qadınlardan biri İslam Peyğəmbərinin (s) hüzuruna gəlir və soruşur: Ya Rəsulallah! Kişinin qadının boynunda olan haqqı nədir? Həzrət buyurur: Öz yoldaşına itaət etsin. Onunla müxalifət etməsin, ərin icazəsi olmadan evin heç bir malından sədəqə verməsin, onun icazəsi olmadan müstəhəb oruc tutmasın, özünü ərinin ixtiyarında qoysun, atın üstündə oturmuş olsa da ərinin istəklərindən boyun qaçırtmasın, ondan icazəsiz evdən bir yerə getməsin. Əgər ondan icazəsiz bir yerə çıxarsa, evə qayıdana qədər yerin və göylərin qəzəb və rəhmət mələklərinin lənətinə düçar olar. Qadın soruşdu: Ya Rəsuləllah! İnsanlardan kişinin üzərində ən çox kimin haqqı vardır? Buyurdu: Ata-anasının. Qadınlara ən çox kimin haqqı var? Buyurdu: Ərinin. Soruşdu: Onun haqqı olan qədər mənim də haqqım varmı? Buyurdu: Xeyr! Bəlkə də, yüzdən biri qədər yox! Qadın cavab verdi: Səni Peyğəmbərliyə seçənə and olsun ki, heç bir kişi mənə malik olmayacaq! "**[1]

İslam Peyğəmbəri (s) buyurur: **"Qadının üzərində kişinin haqqı budur ki, çırağı yandırmaq, kişi evdə olmayanda, evə qayıdarkən yemək hazırlamaq, onu qarşılamaq, ona xoş gəlmisən demək, ondan ötrü su və dəsmal gətirmək, əllərini yumaq, manea olmayan halda kişinin istəklərindən boyun qaçırmamaq."**[2]

Yenə də İslam Peyğəmbəri (s) buyurur:

"Qadın ərinin haqqını olduğu kimi əda etməyincə, Allahın haqqını verə bilməz."[3]

İmam Sadiq (ə) buyurur:

"Hər bir qadın əri ondan narahat olan halda gecəni-gündüzə çatdırsa, ərini razı salmayınca Allah onun namazını qəbul etməz."[4]

[1] Məkarimul Əxlaq, səh 214.
[2] Məkarimul Əxlaq, səh 215.
[3] Məkarimul Əxlaq, səh 215.
[4] Məkarimul Əxlaq, səh 215.

O gələcək...

QADINLARIN CİHADI

İmam Baqirdən (ə) nəql olunur ki, buyurur: **"Allah-taala, cihadı kişi və qadınlara yazıb. Kişinin cihadı odur ki, öz malı və canını qurban verməklə şəhadət dərəcəsinə çatsın. Qadının cihadı odur ki, ərinin əziyyət və qeyrətinə dözsün."**[1]

Bu hədisdə İmam Baqir (ə) ev həyatını cəbhə və bu cəbhənin əsgərlərini qadınlardan ibarət olduğunu izah edir. Bu döyüşdə ən mühüm silah, kişinin əziyyət nizələri və şəmşiri müqabilində qadının səbridir. Qadın, bu cəbhədən qaçmamalı, əksinə, bütün çətinliklərə sinə gəlib aqibətini xeyirlə ömrünü başa vurmalıdır. Bir çox təcrübəsiz və tərbiyə görməmiş qadınlar bu cəhətdən məğlub olub, ev mühitini tərk etməklə öz əziz övladlarını ana mehr və məhəbbətindən məhrum edirlər. Bununla da, ərinə və övladlarına yaşayışın acısını həmişəlik daddırırlar. Onların müqabilində elə səbr və hövsələli qadınlar var ki, həyatın fırtınalı dalğaları arasında, ərinin əziyyət və qeyrət dalğalarına riayət etməklə bu həyat gəmisini istədikləri kimi sahilə çatdırırlar. Qələbə və aqibət xeyrini həm özünə, həm də övladlarına nəsib edirlər.

İmam Sadiq (ə) qadınları öz ərlərindən başqaları üçün bəzənməkdən çəkindirib, buyurur:

"Özünü ərindən başqası üçün ətirli və zinətli edən qadının namazını, yuyub aradan aparmayana qədər Allah-taala qəbul etməz. Cənabət qüsllü olan şəxslər kimi olarlar."[2]

Yenə də Həzrət, qadının ərinin qədrini bilməsi barəsində buyurur: **"Kişinin bütün zəhmətlərini görməməzliyə vurmaqla, həyatda səndən xoş gün görmədim deyən qadının bütün xeyir əməlləri silinər."**[3]

Buraya qədər müxtəsər də olsa, ərlə arvadın birinin digərinin üzərində olan hüquqlarına işarə etdik. Əgər İslam cəmiyyətində kişilər və qadınlar bu göstərişlərə əməl etsələr, şirin və xoşbəxt həyat sürərlər. Qurani-Kərim Bəqərə surəsində kişi və qadın barəsində gözəl ifadə gətirərək, buyurur:

"Oruc gecəsi qadınlarınıza yaxınlaşmaq sizə halal edildi. Onlar sizin, siz də onların libasısınız". (Hər ikiniz bir-birinizin zinətisiniz və hifz edənisiniz)"

---

[1] Məkarimul Əxlaq, səh 215.
[2] Məkarimul Əxlaq, səh 215.
[3] Məkarimul Əxlaq, səh 215.

O gələcək...

Ərlə arvadın bir-birindən ötrü libas olmaları lətif bir ifadədir. Libas bədənin örtüyü, aram və rahatlığı olduğu kimi ərlə arvad da libas kimi bir-birinin eyblərini örtsünlər və bir-birinə rahatlıq vasitəsi olsunlar.

Bu örtük, onların həyatında bütün sahələrə aid olur. Qadın və kişi bir-birinin eyib və nöqsanlarını gizlətməkdə borcludurlar. Bir-birlərinin pis hərəkətlərini başqalarına söyləməməlidirlər. Bir-biri ilə ehtiramla rəftar etməlidirlər.

Əvvəlcədən rəvayətlərdə qeyd edildiyi kimi bir-birini həlak etmək astanasına gətirən töhmət vurmaqdan uzaq olsunlar. Bir-birinin pis hərəkətlərinə səbr etməklə, Allahın böyük mükafatlarını əldə etsinlər.

İmam Səccadın (ə) buyurduğu kimi ərlə arvad bir-birinə böyük nemətdirlər. Bu nemətə şükür etməlidirlər. Həyatın yaxşı və pisliklərini öz aralarında bölüb yüksək ruhiyyəli və hədəfli olmaqla, cəmiyyətə saleh övladlar verməlidirlər. Kişinin borcudur ki, qəlbinin dərin sevgisini arvadına açsın. Necə ki, rəvayətdə İmam Sadiq (ə) İslam Peyğəmbərindən (s) nəql edir, buyurur:

"Kişinin arvadına dediyi, doğurdan da, mən səni sevirəm- sözü heç vaxt arvadın qəlbindən silinməz. Bu da səbəb olur ki, qadın ərinə eşq göstərsin və çətinliklərdə ona arxa və kömək olsun."

21. KÖLƏLƏRİN HAQQI

وَأَمَّا حَقُّ رَعِيَّتِكَ بِمِلْكِ الْيَمِينِ فَأَنْ تَعْلَمَ أَنَّهُ خَلْقُ رَبِّكَ، وَلَحْمُكَ وَدَمُكَ وَأَنَّكَ تَمْلِكُهُ لِأَنْتَ صَنَعْتَهُ دُونَ اللَّهِ وَلَا خَلَقْتَ لَهُ سَمْعًا وَلَا بَصَرًا وَلَا أَجْرَيْتَ لَهُ رِزْقًا وَلَكِنَّ اللَّهَ كَفَاكَ ذَلِكَ، ثُمَّ سَخَّرَهُ لَكَ وَائْتَمَنَكَ عَلَيْهِ وَاسْتَوْدَعَكَ إِيَّاهُ لِتَحْفَظَهُ فِيهِ وَتَسِيرَ فِيهِ بِسِيرَتِهِ فَتُطْعِمَهُ مِمَّا تَأْكُلُ وَتُلْبِسَهُ مِمَّا تَلْبَسُ وَلَا تُكَلِّفَهُ مَا لَا يُطِيقُ، فَإِنْ كَرِهْتَ[هُ] خَرَجْتَ إِلَى اللَّهِ مِنْهُ وَاسْتَبْدَلْتَ بِهِ وَلَمْ تُعَذِّبْ خَلْقَ اللَّهِ وَلَا قُوَّةَ إِلَّا بِاللَّهِ.

"Əlinin altında işləyən kölənin haqqı budur ki, biləsən, o, Rəbbinin yaratdığıdır. Əti ətindən, qanı qanındandır. Xəlq olunduğuna görə sən onun maliki deyilsən. Onu Allah yaratmışdır. Sən onun qulaq və gözünün yaradanı deyilsən və ruzisi də sənin əlində deyil. Bütün bunları, Allah yaratmış və öhdəsinə götürmüşdür. Sonra onu sənə ram etmişdir və səni ona əmin qərar vermişdir. Onu sənin əlinə əmanət kimi vermişdir. O əmanəti hifz et və onunla yaxşı rəftar et. Öz yediyindən, ona da ver. Geyindiyindən, ona da geyindir. Ona qüdrətindən artıq iş yükləmə. Əgər ondan xoşun gəlmirsə özünü Al-

lah müqabilində məsuliyyətdən qurtarmaq üçün başqası ilə dəyiş. Allahın yaratdığına əziyyət və işgəncə vermə. Allah tərəfindən başqa heç bir güc-qüvvət yoxdur!"

İmam Səccad (ə) malik barəsində əvvəlcədən bir sıra mətləblər buyurmuşdur. Həzrətin yuxarıdakı sözləri kölələr barəsindədir. O bəhsdə deyildi ki, İslam dini ilk zühurunda müvəqqəti də olsa, köləlik məsələsini qəbul edib onların birdəfəlik azad olma hökmünü verməmişdir. Bəlkə də, tədriclə kölələrin azad olması məsələsini qarşıya məqsəd qoymuşdur. İqtisadi cəhətdən kölələrin bir dəfəlik azad olunmasına imkan yox idi. Bir halda ki, İslam çarəsiz qalıb köləlik məsələsini qəbul edirsə, onlara görə hüquq təyin edib, müsəlmanlara kölələrin haqqını əda etməkdə ciddi olmağı tövsiyə edir.

İSLAM VƏ KÖLƏLƏRİN DƏYƏRİ

İslam, köləliklə azadlıq sərhədini aradan götürüb bütün müsəlmanları qardaş edir. İslam Peyğəmbəri (s) buyurur:

"Sizin kölələriniz qardaşlarınızdır. Allah-taala imtahan üçün onları sizin əlinizin altında qərar verib. Elə isə hər kimin qardaşı onun himayəsində olsa, öz yeməyindən ona yedirdər və libasından ona geyindirər. Həmçinin, gücü çatmayandan artıq iş ondan tələb etməz. Əgər onun işi çətin olarsa, ona köməklik edər."[1]

İslam Peyğəmbəri (s) kölələri ilə elə ehtiramla rəftar edirdi ki, hətta, heç kim onları kölə yaxud, kəniz deyə çağırmağa cürət etmirdi. Həzrət buyurur:

"Heç kəsə öz xidmətçisini, kölə yaxud kəniz deyə çağırmağa haqqı yoxdur. Əksinə, kişi xidmətçini "cavan", qadın xidmətçini isə "xanım"- deyə çağırın!"[2]

İslam, kölələrə elə ehtiram edib, onları əzizləyir ki, köləsinə kötək vuranı, ən pis şəxs kimi tanıdır. Bununla da, heç kim cürət etmirdi ki, Allah bəndələrini incitsin və təcavüz əllərini onlara tərəf uzatsın. İmam Sadiq (ə) İslam Peyğəmbərindən (s) belə buyurduğunu nəql edir:

"Sizə inanların ən pisindən xəbər verimmi? Əshab ərz etdilər: Bəli! Ya Rəsuləllah! Həzrət buyurur: Səfərə tək çıxan, qonaq qəbul etməyən və köləsini kötəkləyən".[3]

[1] İslam və Hüquqe bəşər, səh 204.
[2] İslam və Hüquqe bəşər, səh 204.
[3] İslam və Hüquqe bəşər, səh 204.

O gələcək...

Bu hədisdə İslam Peyğəmbəri (s) kölələrini incidənləri ən pis insan kimi tanıtdırır.

Həzrət Əlinin (ə) qulamına bəxşişi

Həzrəti Əli (ə) bir gün geyim bazarına gedib, biri üç dirhəmə, digəri isə iki dirhəmə olan köynək alır. Üç dirhəmlik libası qulamı Qənbərə verir. Özü isə iki dirhəmlik libası geyinir. Qulam ərz edir: Siz, Əmirəlmöminin kimi mənbərdə əhaliyə söhbət etdiyiniz halda üç dirhəmlik libasa daha layiqsiniz.

Əli (ə) buyurur: Mən özümü səndən üstün tutmağa həya edirəm. Çünki İslam Peyğəmbərindən eşitmişəm ki, buyurur: **"Özünüz geyindiklərinizdən kölələrə də geyindirin və özünüz yediklərinizdən onlara da yedizdirin!"**

İslam Peyğəmbəri (s) buyurur: **"Kölələriniz sizin qardaşlarınızdır. Onlara yaxşılıq edin və çətin işlərində əl tutun."**[1]

Yenə də Həzrət buyurur:

"Dostum Cəbrail, kölələrlə xoş rəftar etmək barəsində mənə o qədər tapşırdı ki, güman edirdim ki, onların azad olmalarından ötrü Allah müəyyən vaxt təyin edib."[2]

Əbuzər və libasın bölünməsi

Əbuzər Ğəffarinin iki qiymətli parçası var idi. Birini üstünə örtürdü. Bir müddət sonra onlardan birini libas tikdirib, üstünü əbası ilə örtür. Digər parçasını isə qulamına verir. Əhali, Əbuzərdən belə əməli görüb, hər iki parçanı libas tikdirib geysəydin yaxşı olardı deyə məzəmmət edirlər. Əbuzər cavabında İslam Peyğəmbərindən (s) nəql edərək, buyurur:

"Kölələrinizə, öz geyindiklərinizdən geyindirin və yediyinizdən yedizdirin."

İslam Peyğəmbəri (s) qulamı yanında piyada gedən bir atlı görür. Buyurur:

"Qulamını da mindir! O sənin qardaşındır. Ruhu sənin ruhundandır."[3]

[1] İslam və Hüquqe bəşər, səh 204.
[2] İslam və Hüquqe bəşər, səh 204.
[3] İslam və Hüquqe bəşər, səh 204.

O gələcək...

İmam Rza (ə) və kölələr

İmam Rzanın (ə) kölələrindən, Yasir və Nadir nəql edirlər ki, İmam Rza (ə) bizə buyurdu:

"Hər vaxt yemək yediyiniz halda məni başınızın üstə görsəniz, yemək tamam olmayınca yerinizdən qalxmayın."[1]

İmam Sadiqin (ə) kölələri ilə rəftarı

İmam Sadiq (ə) qulamlarından birini iş dalınca göndərir. Qulam gec qayıdır. Həzrət özü onun dalınca gedir. Görür ki, yatıb yuxudadır. Başının üstündə oturub oyanmasını gözləyir. Oyanandan sonra ona buyurur: Ey cavan! Nəyə görə gecə də, gündüz də yatırsan? Gecə istirahət etməli, gündüz isə ehtiyacınız olanı ələ gətirməlisiniz![2]

Yuxarıda yazılanlar Məsum İmamların (ə) kölələrlə hansı ehtiramla rəftar etdiyinə misaldır.

KÖLƏLƏRİN PEYMANI

İslam Peyğəmbəri (s) kölələrin şənini yüksək etməkdən ötrü onların arasında qardaşlıq peymanı bağlatdırır. Məsələn, kölələrdən Bilal Həbəşi, Zeyd ibn Harisə, Xaricət ibn Zeydi, azad şəxslərdən Xalid ibn Ruvəyhə Xəsəmi, Həmzə ibn Əbutalib, Əbu Bəkr, Əbu Quhaf kimilərlə qardaşlıq peymanı bağlatdırır. Kölələrin ən yaxşı ailələrdən evləndirirdi. İlk növbədə bibisi qızı Cəhimin qızı Zeynəbi Zeyd ibn Harislə evləndirir. İkinci mərtəbədə Ziyad ibn Ləbidi, bəni Bəyazə qəbiləsinin başçısının qızı Cuvəybərlə evləndirir. Həmçinin, azad kişilərdən Ömər, Əbu Bəkr və başqa mühacir və ənsarlar olan yerdə, azad olunmuş Usamət ibn Zeydi İslam qoşununa başçı təyin edir və rumlularla döyüşmək üçün Şama göndərir.

KÖLƏLƏRİ AZAD ETMƏYİN SAVABI

Buraya qədər kölələrin hüquqlarına dair İslam Peyğəmbəri (s) və məsum İmamların (ə) bəyanları ilə tanış olduq. Bəhsin sonunda kölələrin

[1] İslam və Hüquqe bəşər, səh 204.
[2] İslam və Hüquqe bəşər, səh 204.

O gələcək...

azad olunmasına işarə edək. "Malikin haqqı" bəhsində, kölələrin azad olunması yollarını izah etdik. Lakin kölələrin azad olunmasının savabı barəsində "Kitabul itq"kitabında çoxlu rəvayətlər gəlmişdir. Bu kitabın "Bab istihbab" qismətində nəql olunan bəzi rəvayətlərə işarə edirik. İmam Sadiqdən (ə) nəql olunaraq, buyurur: **"Hər kim öz köləsini azad etsə, Allah-taala, kölənin hər bir üzvü müqabilində, azad edənin üzvünü Cəhənnəm atəşindən azad edər."**[1]

Başqa rəvayətdə yenə də İmam Sadiqdən (ə) nəql olunur, buyurur:

"Hər kim saleh köləni, Allahın razılığına xatir azad etsə, Allah-taala onun hər üzvünə xatir azad edənin günahlarından keçər və onu Cəhənnəm atəşindən azad edər."[2]

Ərəfə günü əsir və kölələri azad etmək

Həmin kitabın səkkizinci babında İmam Sadiqdən (ə) nəql olunur buyurur: **"Həzrəti Əli (ə) öz əlinin zəhməti ilə qazandığı maldan min nəfər köləni azad etmişdir."**

Ərəfə günü günortadan sonra kölə azad etməyin savabı barəsində İmam Sadiqdən (ə) rəvayət nəql olunur, buyurur:

"Ərəfə günü əsr zamanı, Allaha daha yaxın olmaq (dua oxumaq), kölə azad etmək və sədəqə vermək müstəhəbdir."[3]

İmam Zeynul-abidinin (ə) kölələr barəsində sadaladığı dərin mənalı sözlərin məcmuəsindən bu nəticə alınır: Kölələrin hüquqlarına riayət edin, çünki, onlar sizin deyil, Allahın məxluqudurlar. Onlara əzab-əziyyət verməyin və onlarla yaxşı rəftar edin. Necə ki, Peyğəmbər və məsum İmamlar (ə) rəftar etmişdilər.

[1] Vəsail-Şiə, cild 16, səh 4-6.
[2] Vəsail-Şiə, cild 16, səh 4-6.
[3] Vəsail-Şiə, cild 16, səh 4-6.

O gələcək...

QOHUMLARIN HAQQI

22. ANANIN HAQQI

فَحَقُّ أُمِّكَ، فَأَنْ تَعْلَمَ أَنَّهَا حَمَلَتكَ حَيْثُ لا يَحْملُ أَحَدٌ أَحَدًا وَأَطْعَمَتكَ منْ ثَمَرَة قَلْبِها مَا لا يُطعمُ أَحَدٌ أَحَدًا، وَأَنَّهَا وَقَتكَ بِسَمْعِهَا وَبَصَرِهَا وَيَدِهَا وَرِجْلها وَشَعْرِهَا وَبَشرِهَا وَجَميع جَوَارِحهَا مُسْتَبشرَةً بذلكَ، فَرِحَةً مُوَابِلَةً مُحْتَملَةً لمَا فيه مَكرُوهُها وَألَمُهَا وثقلُهَا وَغَمُّهَا حَتَّى دَفَعَتهَا عَنْكَ يَدُ الْقُدْرَة وَأَخرَجَتكَ إِلَى الأَرض فَرَضيَتْ أَنْ تَشْبَعَ وتجوعُ هيَ، وَتَكسُوكَ وَتعْرَى، وَتُرْوِيكَ وَتظمَأ، وَتُظلُّكَ وتضْحَى، وَتُنَعِّمَكَ بِبُؤسِهَا، وَتُلَذِّذُكَ بِالنَّوْم بأرَقِهَا، وكان بَطْنُهَا لَكَ وعَاءً، وَحَجْرُهَا لَكَ حوَاءً وثَدْيُهَا لَكَ سقَاءً، ونَفْسُهَا لكَ وقَاءً، تُبَاشرُ حرَّ الدُّنيَا وبَرْدَهَا لَكَ وَدُونَكَ، فَتَشْكرَهَا عَلى قَدْرِ ذَلكَ وَلا تَقْدرُ عَلَيْهِ إِلاّ بعَونِ اللهِ وَتوفيقِه.

“Ananın sənin boynunda olan haqqı budur ki, o, sənə görə bir müddət dözərək səbr etmiş, halbuki, heç kəs digərinə görə belə çətinliyə səbr etməz (doqquz ay hamilələlik dövründəki zəhmətlərə işarədir). Öz canının şirəsindən sənə yemək verib, halbuki, heç kəs başqası üçün belə etməz. Ana daima bütün vücudu ilə, gözü, qulağı, əli, ayağı, tükü, dərisi və nəhayət, bütün əzalarını sənə sərf edir və bu işə görə çox sevinir. Rəbbinin qüdrət əli ilə onu səndən ayırıb torpağa tapşırana kimi ana, həmişə sənin zəhmətlərinə, narahatçılığına və ağırlığına dözür. Sənin tox, özünün isə ac olmasına razı olur (aclığa dözür ki, sən doyasan). Özünə yarıçılpaq olmağı rəva bilir ki, təki sən geyinəsən. Özü susuz qalır ki, sən sirab olasan. Özü günəşin istisinə dözür ki, təki sən kölgədə qalasan.

O, narahatlıq içində olarkən, sən nemət və xoşluqla yaşayırdın. Yuxusuz və gecəni oyaq qalmaqla, səndən ötrü yuxu ləzzətini özünə haram edir. Ananın bətni sənin vücudunun boy atma yeri, evi isə səni saxlamaq məkanı olub. Sinəsi, sənin süd içmək üçün çeşmən, şirin canı isə səni qoruyub saxlamaq vasitəsi olub.

Ana, səni yaşatmaq üçün ruzigarın isti və soyuğuna dözüb. Bütün bu zəhmətlər və xidmətlər müqabilində ona təşəkkür et. Bunun üçün Allahdan kömək istəməsən heç vaxt ananın təşəkkürünü yerinə yetirə bilməzsən. Bu yolda Allah sənə tövfiq və fürsət verməlidir ki, ananın xidmət və zəhmətlərinin əvəzini çıxasan!“

"ÜMM" (ANA) KƏLMƏSİ

"Ümm" yəni, başqa şeylərin ona birləşdiyi əsas və kök. Hədisdə oxuyuruq: **"Şərab içməkdən çəkinin ki, "ümmül"fəsaddır"** (yəni, fəsadların əsasıdır). "Ümm" sözü ərəbcə, məna cəhətdən bir neçə mənada müştərəkdir. Bu sözün "ana" mənasında işlənməsi o qədər şöhrət tapmışdır ki, bəlkə də, məcazi məna daşıyır.

"ÜMM"(ANA) KƏLMƏSİNİN QURANDA İŞLƏNMƏ YERLƏRİ

1. Həqiqi ana: **"Biz, Musanın anasına vəhy etdik ki, ona süd versin!"**[1]

2. Kök və əsas mənasında: Quran buyurur: **"Ya Məhəmməd! Sənə Quranı nazil edən odur. Onun bir hissəsi Quranın əslini və əsasını təşkil edən möhkəm, digər qismi isə mütəşabeh ayələridir.**[2]

3. Bir şeyin mərkəzi, **"Ümmül-qura" (Şəhərlər mərkəzi) Quranda Məkkəyə işarədir.** Quran buyurur: **"Ümmül qura və ətrafındakıları qorxudasan. "**[3]

Hicaz məntəqələrinin mərkəzi sayıldığı üçün bu şəhərə "Ümmülqura" deyilir. Rağib İsfahani və digər dilşünaslar yazırlar: Məkkənin "Ümmül-qura" adlanması ona görədir ki, yer kürəsi ilk yaranışında onun altında genişlənməyə başlayıb. Bəzi rəvayətlərə görə torpaq ilk quruluşunu Məkkədən başlayıb.

Quranda, İslam Peyğəmbərinin (s) zövcələri, möminlər anası adlandırılır. Quran buyurur:

"Peyğəmbər, möminlərə onların özlərindən daha üstündür. Onun zövcələri möminlərin analarıdır.[4]

Yuxarıdakı üç mənaya diqqət etməklə, "həqiqi ana, əsas, əsl və bir şeyin mərkəzi" kəlmələrinin mənaları arasındakı münasibətlər aydınlaşır.

Ana, ağacın kökü və əsli yerində, övladları isə qol-budaqları olub kök üzərində göyərirlər. Belə bağılılıq kökdən asılıdır. Ağacın əsli və kökü nə qədər şərəfli və əsil olsa, qol budağı da, əsil və kökü təmsil edəcək və kökünə oxşayacaqdır.

---

[1] Qəsəs surəsi, ayə 7.
[2] Ali İmran surəsi, ayə 7.
[3] Şura surəsi, ayə 7.
[4] Əhzab surəsi, ayə 6.

O gələcək...

ANA VƏ ƏZİYYƏTLƏRƏ DÖZMƏK

"Ümm" sözünün mənası aydın olandan sonra İmam Səccadın (ə) anasının haqqı barəsində söylədiyi mətləbə qayıdaq. İmam Səccad (ə) ananın hamilə olmaq mövzusundan başlayır. Buyurur: **Sənin anan sənə görə elə bir müddətdə çətinliklərə dözüb ki, heç kəs bir insana görə səbr etməz!**

Bu mühüm mövzu, Quranın iki surəsində geniş şəkildə izah edilmişdir. Əraf surəsində belə oxuyuruq:

"Biz insana ata-anasına yaxşılıq etməyi tövsiyə etdik. Çünki, anası onu (doqquz ay bətnində) zəhmətlə gəzdirmiş, əziyyətlə doğmuşdur. Onun (ana bətnində) daşınma və süddən kəsilmə müddəti otuz aydır. Nəhayət, (insan) kamillik həddinə yetişib qırx yaşa çatdıqda belə deyər: Pərvərdigara! Mənə mənim özümə və ata-anama əta etdiyin nemətə şükr etmək və sənə xoş gedəcək yaxşı əməl etmək üçün ilham ver, nəslimi saleh et. Mən günahlardan Sənə tövbə etdim və şübhəsiz ki, mən müsəlmanlardanam".[1]

"Loğman" surəsində isə belə buyurur:

"Biz insana ata-anasına yaxşılıq etməyi tövsiyə etdik. Anası onu (bətnində) çox zəif bir halda daşımışdır. Uşağın süddən kəsilməsi isə iki il ərzində olur. (Biz insana buyurduq): Mənə və ata-anana şükr et. Axir dönüş Mənədir."[2]

Ananın hamiləlik dövranı onun ən çətin və sıxıntılı günlərindəndir. Nütfənin rəhimdə ilk gündən rüşeym bağlaması ilə ananın halı dəyişir. Ondan ötrü dalbadal narahatçılıqlar baş verir. Bu narahatçılıq halını "viyar" adlandırırlar. Nəyə görə anada belə hallar qarşıya çıxır? Həkimlər cavab verirlər: Ananın öz enerjisindən uşağına əta etdiyinə görə öz bədənində çatışmamazlıqlar yaranaraq narahat olur!

ANANIN HAMİLƏLİK DÖVRÜ

Bu dövrdə uşağın rüşeymi nə qədər çox inkişaf edərsə, ananın canından bir o qədər şirə çəkir. Hətta, bu hal ananın sümüklərinə və əsəblərinə belə təsir edir. Bəzən, ondan yuxunu və istirahəti alır. Hamiləliyin son

[1] Əhqaf surəsi, ayə 15.
[2] Loğman surəsi, ayə 14.

O gələcək...

vaxtında ana yol yeriməyə hətta, oturub durmağa da əziyyət çəkir. Lakin, səbr, hövsələ və dünyaya gələcək övladın eşqi ilə təbəssüm edir və bütün narahatlıqlara dözür.

Hamiləlik dövründən sonra uşaq doğmaq ananın həyatında ən çətin haldır. Hətta, bəzən övladı yolunda öz canını da əldən verir. Bu dövrdə ana, ən böyük əmanət və müsafiri öz məqsədinə çatdırmalıdır. Ona görə də bu dövrdə ana, əmanətdən ötrü lazım olan bütün ehtiyatlarını görməlidir. Hərəkətlərində, dayanmaq, yol getmək, yemək və sağlamlığının bütün cəhətlərini gözləməlidir. Bütün bunlar, bu dövrdə ananın vəzifələrindən hesab olunur.

Ananın dözməli olduğu müsafirin səfərinin müddəti iki ay deyil, beş ay deyil, tam doqquz aydır. Necə ki, müsafir öz məqsədinə yetişməkdən ötrü uzun məsafəni keçməlidir, ananın müsafiri də yol arasında müxtəlif xətlərlə üzbəüz ola bilər. Uşaq doğularkən ana rahatlaşır ki, müsafiri öz yerinə çatdırdım.

Ana bətnində dörd ay və on gündən sonra uşağın rüşeyminə ruh daxil olur. Bu vaxt anaya çətin olur. Qarın və böyrəklərini ağrı tutur. Amma, bir neçə dəqiqə sonra şükür edib deyir: **"Əlhəmdulillah, uşağım diridir!"** Allah, Öz tərəfindən ona ruh verib.

Bu çətin dövrandan sonra ananın başqa çətin dövranı başlayır. Quran bu dövranı **"ardıcıl çətinlik"** adlandırıb. Süd vermək və gecə-gündüz uşaqdan muğayat olmaq dövrü. Elə dövr ki, uşağın bütün ehtiyaclarına cavab verməlisən. Bu dövrdə uşağın dili yoxdur ki, ağrıyan yerini təyin etsin. Dili təkcə ağlamaqdır. Ana bu ağlamaqdan hər şeyi anlamalıdır. Hər şeydən çətin uşağın bu dövrdə təmizlənməsidir. Müxtəlif xəstəliklərə şərait yarana bilməsinin qarşısını almaqdan ötrü ana bütün qüvvəsini bu dövrdə səfərbər etməlidir.

SÜD VERMƏK DÖVRÜ

Quran nəzərində uşaqa süd vermək dövrü tam iki ildir. Bəqərə surəsində oxuyuruq:

"Analar uşaqlarına əmizdirmə müddətini tamamlamaq istədiyi üçün tam iki il əmizdirsinlər.[1]

Əhqaf surəsində hamiləlik və süd vermə dövrü otuz ay qeyd olunmuşdur. Əgər otuz aydan, tam iki ilini çıxsaq, hamiləlik vaxtı altı ay

[1] Bəqərə surəsi, ayə 233.

olar. Məgər altı ayda uşaqın dünyaya gəlməsi mümkündürmü? İslam alimləri hədis və rəvayətlərə, ən az hamiləlik dövrünü altı ay və ən çox süd vermə dövrünü iyirmi dörd ay qeyd edirlər.

Calinus və İbni Sinadan nəql olunur ki: Özləri öz gözləri ilə altı aydan sonra uşağın dünyaya gəlməsini müşahidə ediblər.

Qeyd etmək lazımdır ki, Quranın bu ifadəsindən məlum olur ki, hamiləlik vaxtından nə qədər azalarsa, o qədər də süd vermə dövrü artırılır. Ümumilikdə, otuz aya aid olur. İbni Abbasdan nəql olunur ki, hər vaxt qadının hamiləlik dövrü doqquz ay olarsa, iyirmi bir ay süd verməlidir. Əgər hamiləlik dövrü altı ay çəkərsə, iyirmi dörd ay süd verməlidir.[1]

Təbiət qanunu da bunu tələb edir. Çünki, hamiləlik dövründəki çatışmamazlıqlar süd vermək dövründə əvəzi çıxmalıdır. Həmin səbəbdən ayədə zikr olunur: **"Tam süd vermə iki ildir."**

Hər halda, ana bu otuz üç ay müddətində ruhi, hissi və cismi cəhətdən ən böyük fədakarlıq göstərir və övladına xidmət edir.

Maraqlıdır ki, Quran əvvəl ata-ananın hər ikisinə yaxşılıq etməyi tövsiyə edir. Lakin, zəhmət və əziyyətləri bəyan edərkən, ananın zəhmətlərini əsas tutur. Bununla da, ananın böyük zəhmət və haqqına işarə olunur. Sonra buyurur: Tövsiyə edirəm ki, Mənə və ata-anana təşəkkür edəsiniz! Mənim şükrümü, sizin Xaliq və nemət verəniniz olduğuma, ata və ananıza isə bu feyz və neməti sizə çatdırmaq vəsiləsi olduğuna görədir.

UŞAĞIN QURULUŞUNDA ANANIN PAYI

Əhqaf və Loğman surələrindən zikr etməklə **"insanın ata-anasına"** yaxşılıq etmələrinə tövsiyə olunduğunu aydınlaşdırdıq. Onların hər ikisinin övladının boynunda haqqı vardır. Lakin hansının daha çox haqqı vardır: Quran ananın hamiləlik süd vermə dövründəki zəhmətlərini xüsusi qeyd edir.

Nütfənin bədəndə qərar tutması ilə uşağın ilk vücudu əmələ gəlir. Ata-ana bərabər şəkildə bu işdə rol oynayırlar. Lakin ana hamiləlik, uşağı qidalandırmaq və uşağın quruluşunda çox zəhməti vardır. Aleksis Karl yazır:

"Ata-ana uşağın ilk rüşeyminin vücuda gəlməsində bərabər rol oynayırlar. Lakin, ana, bundan əlavə uşağa lazım olan bütün qidanı

[1] Təfsir nümunə, cild 21, səh 327.

O gələcək...

özündən verir. Ananın vəzifəsi, uşağın rüşeymində atadan mühümdür. Atanın uşağın vücuda gəlməsində vəzifəsi azdır. Lakin, ana doqquz ay bu vəzifəni yerinə yetirir. Bu müddət ərzində rüşeym ananın qanının paklaşıb, ciftdən keçib ona çatmaqla qidalanır və inkişaf edir."[1]

ANANIN VƏZİYYƏTİNİN UŞAĞIN RÜŞEYMİNƏ TƏSİRİ

Ananın bütün ruhi və cismi halları uşağa təsir bağışlayır. Çünki, uşaq ana bətnində onun bir bədən üzvü hesab olunur. Ananın maddi qida və yemək cəhətindən uşağa təsiri olduğu kimi fikir və əxlaq cəhətdən də uşağın canında və cismində təsir qoyur. Əgər ana hamiləlik dövründə bərk qorxarsa, bu vaxt özündə rəngin qaçması, uşaqda isə bu işə görə böyük zərər görmək ehtimalı vardır. "Ecaze Xurakiha" kitabında yazılır:

"Əgər ana, hamiləlik dövründə bərk qorxarsa, belə ki, rəngi qaçıb titrəyərsə, uşağın bədənində "ay tutumu" adlanan ləkələr görünər.[2]

Ümumiyyətlə, ananın bütün qəm-qüssələri, əsəbləşməsi, təəccübü, pisliklər və kin-küdurəti, həsədləri, bəşərdə bütün bəyənilmiş və bəyənilməmiş sifətləri uşağa təsir bağışlayır.[3]

QURAN NƏZƏRİNDƏ SÜD VERMƏ DÖVRÜ

Quran buyurur: **"Analar övladlarını əmizdirmə müddətini tamamlamaq üçün tam iki il əmizdirsinlər. Analaron yeməyi və geyimi öz qüvvəsi dairəsində uşağın atasının üzərinə düşür. Heç kəs gücü çatmadığından artıq yüklənməz. Nə bir ana, nə bir ata uşağına görə zərər çəkməsin! (Ata öləndən sonra) bu vəzifə həmin qaydada varisin üzərinə düşür. Əgər ata-ana öz aralarında məsləhətləşib, uşaqı (iki ildən tez) süddən kəsmək qərarına gəlsələr, ikisinə də heç bir günah olmaz. Əgər siz övladınızı başqasına (süd anasına) əmizdirmək istəyirsinizsə, onun zəhmət haqqını müəyyən olunmuş qayda üzrə (şəriətə müvafiq) ödəsəniz yenə də sizə günah gəlməz. Allahdan qorxun, Allah həqiqətən sizin etdiklərinizi görəndir.[4]**

[1] Kudək (Qoftare fəlsəfi), cild 1, səh 96.
[2] Ecaz Xurakiha, cild 1, səh 172.
[3] Kudək, cild 1, səh 118.
[4] Bəqərə surəsi, ayə 233.

O gələcək...

"Validə" sözü lüğətdə, "ana" mənasındadır. Lakin "Ümm" daha geniş mənadadır. Ümm sözü anaya, nənəyə və bəzən hər bir şeyin əsas və əslinə deyilir. Əvvəlcədən bu barədə bəhs olunmuşdu. Quran, bu ayədə uşağa süd vermək və ata-ananın müxtəlif hüquqlarına yeddi bənd olmaqla göstəriş verir.

Birinci: Uşağa süd vermək haqqı anaya məxsusdur. Uşağı bu müddətdə gözləyən odur. Doğrudur ki, uşağın vilayəti atanın üzərindədir. Lakin, bu müddətdə uşağın qidalanması anaya bağlı olub, ana ilə qırılmaz məhəbbət bağlılığı olduğuna görə uşağa ana himayəçilik edir. Beləliklə, süd vermək haqqı ananındır. Tam iki il uşağına süd verir.

İkinci: Ananın öz sağlamlığını nəzərə alaraq iki ildən az süd verməyə haqqı var. Bu göstəriş, tam iki il süd vermək istəyənlər üçündür.

Üçüncü: Ananın bu dövrdəki xərci, qida, geyim və sair cəhətdən hətta, boşanmış olsa da, uşağına asudə süd versin deyə atanın öhdəsindədir.

Dördüncü: Ata-anadan heç birinin uşağın həyatını özlərinin ixtilafı ilə zay etməyə haqqı yoxdur. Kişilər ehtiyatlı olmalıdırlar ki, uşağa süd vermək dövranında uşağı anadan almasın və onun haqqını zay etməsin. Analar da öz vəzifələrini yerinə yetirib, bu fürsətdən pis istifadə etməsinlər. Bununla da, uşağa sağalmaz zərbə vurmasınlar.

Beşinci: Əgər bu dövrdə ata ölərsə, süd verən ananın və uşağın bütün xərcləri vərəsənin öhdəsindədir.

Altıncı: Uşağı süddən kəsmək ixtiyarı ata-ananın ixtiyarına qoyulmuşdur. Keçmiş ayələrdə süd vermə müddəti təyin olunmasına baxmayaraq, ata-ana uşağın cismi vəziyyətini və sağlamlığını nəzərə almaqla südü kəsə bilərlər.

Yeddinci: Ananın süd verməsinin qarşısını heç kim ala bilməz. Yalnız, ana özü bunu istəsə və ya bu işdə ona bir maneə qarşıya çıxdığı halda, uşağa süd verib saxlamaq üçün dayəyə verə bilər. Bununla da, anaya uşağı saxlamaqda kömək olunur.[1]

Buraya kimi Qurandan məlum oldu ki, süd vermək ananın haqqıdır. Bu işi, Allah-taala bir vəzifə kimi onun üçün təyin etmişdir. İndi isə bu südün ananın vücudunda necə əmələ gəldiyinə nəzər salaq.

SÜD NECƏ YARANIR?

Quran buyurur: **"Şübhəsiz ki, davarda (sağmal heyvanlarda) da sizin üçün bir ibrət vardır. Biz onların qarınlarındakı qanla ifrazat**

[1] Təfsiri nümunə, cild 2, səh 131-135.

O gələcək...

arasında olan təmiz südü sizə içirdirik. O, içənlərin (boğazından) rahat keçər."[1]

Bu ayədə buyurulur: Süd, ifrazat sistemi ilə qanın tərkibindən ayrılır. Fiziologiya elmi bu gün sübut etmişdir ki, qida maddəsi mədədə həzm olduqdan sonra geniş şəkildə mədə və bağırsaqlara yayılır. Lazım olan ünsürlər onu cəzb edib qidalandırır. Bu proses, kökləri müxtəlif tərəflərə boy atmış ağaca bənzəyir. Ana yemək yeyir, əsas vitamini qana keçir, qanın şaxə və budaqları rüşeymə bitişikdir. Uşaq nə qədər ki, ananın bətnindədir, bu yolla qidalanır. Uşaq dünyaya gələrkən göbəyinin cifti qoparılır. Bununla da qanla qidalanması kəsilir. Uşağın qida-həzm sistemi ananın sinəsinə tərəf yönəlir. Bu halda təzə dəyişiklik baş verir. Uşağın istəyinə uyğun olan süd, ifrazat və qanın tərkibindən əmələ gəlir. Südün tərkibi nə tam təmizlənmiş qan, nə də həzm olunmuş qida olmaqla qanla ifrazatın birləşməsindən ibarətdir. Qandan üstün, lakin hazır həzm olunmuş qida məhsuluna da çatmır. Ananın sinəsi, proteinli maddələri hazırlamaqdan ötrü bu işə tamamilə hazırdır. Südə lazım olan bəzi maddələr qanda mövcuddur və onlar da döş qəfəsində vücuda gəlir.

Qazoin kimi maddələr və süddə olan bəzi digər maddələr qandan keçmədən vücuda gəlir. Bir sıra maddələr və müxtəlif vitaminlər, qidanın duzu, fosfot və şəkər kimi maddələr qandan alınır. Bütün bunlar ananın sinəsində dəyişildikdən sonra südə çevrilir. Diqqət etdiyiniz kimi, südün əmələ gəlməsi müxtəlif qida maddələrinin qanla və sinədə olan vəzilərlə reaksiyasının nəticəsidir. Maraqlıdır ki, nə ifrazatın xüsusi iyi və nə də qanın rəngi südə keçmir. Alimlər deyirlər: Ananın sinəsində bir litr südün əmələ gəlməsi üçün ən azı sinədən beş yüz litr qan dövranı keçməlidir. Bununla da, südə lazım olan qidanı qandan alsın. Bir litr südün yaranmasından ötrü bağırsaqlardan çoxlu qida maddəsi keçməlidir. Bu haldadır ki, Quranın südün yaranması barəsində dediyi aydınlaşır.

Südün əsas tərkib maddələri bunlardan ibarətdir: Sodium, potasium, kalsium, maqnezium, mis, dəmir, fosfor, xlor, yod, kükürd; qazlardan oksigen, azot, karbon və şəkər maddələri süddə kifayət qədər mövcuddur. Süddə olan vitaminlərdən, B, P, A, D-ni qeyd etmək olar. Həmin səbəbdən İslam Peyğəmbəri (s) buyurur:

"Su və yeməyin yerini tamamilə tuta biləcək bir şey varsa, o da ananın südüdür."[2]

---

[1] Nəhl surəsi, ayə 66.

[2] Əvvəline daneşqah və axərine Peyambər, cild 6, səh 100.

AZ HƏCMLİ VƏ ÇOX QÜVVƏLİ MADDƏ

Süd, uşaqlıqdan qocalana qədər bütün insanlara faydası olan dadlı qida maddəsidir. Ona görə də, xəstə şəxslərə süd içmək məsləhət görülür. Südün sümüklərin inkişafına fövqəladə təsiri vardır. O səbəbdən sümük sınıqları hallarında süd içmək məsləhət görülür.

"Xalis" sözünün mənalarından biri də peyvənd və bağlılıqdır. Ola bilsin, həmin mənaya görə Quranda xalis süd ifadəsi, südün sümüklərə olan fövqəladə təsirinə işarə olsun. Maraqlıdır ki, İslamda süd verməyin hikmətlərində bu məna aydın şəkildə nəzərə çarpır. Bu mövzuda fəqihlər yazır: **"Əgər uşaq, hər hansı bir anadan süd əmib sümükləri möhkəmlənib ət bitirsə, onda uşaq o qadına məhrəm olar."** Və ya: **"Əgər uşaq, on beş gün hətta, bir gecə-gündüz süd əmərsə, məhrəmiyyət əmələ gələr".**

Əgər bu iki sözü bir-biri ilə birləşdirsək, mənası bu olar ki, hətta, uşağın bir gecə-gündüz də süd əmməsi, sümüklərin möhkəmlənməsi və ət bitməsinə səbəb olur.[1]

Onu da qeyd edək ki, İslami göstərişlərdə "ağuz"ərəbcə "liba" südünə və onun fövqəladə təsirinə təkid olunmuşdur. Hətta, fiqh kitablarında oxuyuruq: Uşağın həyatı o südə bağlıdır. Ona görə də ağuz südünü uşağa vermək vacibdir.[2] Həmçinin, həmin mövzuda. Quranın Qəsəs surəsində yeddinci ayədə buyurur: **"Musanın anasına ilham etdik ki, ona süd versin və əgər ona görə qorxsa onu dalğalara tapşırsın."**

Ananın bir çox bəyənilmiş xüsusiyyətləri süd vasitəsi ilə uşaqa keçir.

Həzrət Əli (ə) əlini Məhəmməd Hənəfiyyənin kürəyinə vurub buyurdu: **"Qorxu damarı anandan sənə keçib."**

İslam Peyğəmbəri (s) süd əmən vaxtı qadınlar içindən yalnız, Həlimə Səidinin sinəsini qəbul edir və başqa qadınlardan süd əmmir. Bura kimi ananın süd verməsinin əhəmiyyəti və bununla da, uşağın inkişafına təsiri aydın oldu.

Ana bütün vücudu ilə övladının xidmətində

Uşağın dünyaya gəlməsi anından ananın bütün vaxtı uşağa xidmətdə keçir. Ananın bir anlıq uşaqdan qafil olması bəzən onun aradan getməsinə səbəb olur. Ananın gecə-gündüz uşağı gözləməsi onun aramlıq və istira-

[1] Təfsir Nümunə, cild 11, səh 292.

[2] Şərhe Lümə, kitabun nikah, cild 5, səh 452.

O gələcək...

hətini əlindən alır. Amma, ananın təbiətinə və mehribançılığına uyğun olaraq bütün bu zəhmətləri və əziyyətləri bal kimi bilir.

İmam Səccad (ə) bu mövzunu, **"o bu işə xoşhaldır"** ifadəsi ilə bəyan edir.

ANA MƏHƏBBƏTİ

Məhəbbət, insanın mühüm ehtiyaclarından biridir ki, onun dünyaya gəlməsi ilə tələb olunur. Demək olar ki, insanın yeməyə və suya ehtiyacından sonra məhəbbətə ehtiyacı vardır.

Psixoloqlar, bu xüsusiyyəti insanın ən güclü ruhiyyəsindən sayırlar. Məhəbbət, insana təkcə uşaq vaxtı deyil, bəlkə də bütün ömrü boyu müxtəlif şəkildə bu hissə ehtiyac duyur.

Uşaqlarda elə mehriban tələblik və xüsusiləşmə hissləri görürük ki, əgər azca ondan azaltsaq, ata-anasına naz edib küsürlər. Əgər bu məhəbbətdən başqa uşağa göstərilməsini görsə, həsədlik edər. Böyük yaşda qadınların, "günü" gəlməsindən xoşları gəlmir. Cavanlarda müşahidə olunur ki, qəlbləri açmaq və ya ram etmək istəyirlər.

Bəzi psixoloqlar uşaqların xüsusi məhəbbətə ehtiyacları olduqlarına əmindirlər. Bu ehtiyaclar ananın bədəninin hərarəti və ya ananın uşağı qucağına alması və ya oxşaması ilə aradan gedir. Əgər uşağın bu ehtiyacı ödənilməsə, onun ruhunda mənfi təsir qoyur. Məşhur insanşünaslardan biri bu etiqadın təsiri altına düşüb məclislərin birində belə deyir:

"Körpə doğulduqdan sonra anasının yanında yatmalıdır və onu yataqxanaya göndərmək lazım deyildir. Çünki, əgər uşağı bu anda anasından ayırsaq, onun ananın istilik və hərarətinə olan ehtiyacı ödənilməmiş olar. Hətta, bəzi pisxoloqlar bu əqidədədirlər ki, əgər, ana hər hansı müşkülə görə uşağın yanında yata bilməsə, onun yerinə uşağa nəvaziş etməkdən ötrü başqa anadan da istifadə etmək olar. Ona görə də yetimləri pərvəriş etmək üçün xüsusi mərkəzlərə ehtiyac var."[1]

Körpə anasının məhəbbət və hərarətini hiss edirmi?

Uşaq həyatının bu dövründə söz danışa bilməz. Ona görə də, bu sualın cavabı hələlik cavabsız qalır. Amma bu suala cavab tapmaqdan ötrü bir neçə təcrübə keçirildi. Bu təcrübədə bir neçə meymuna texniki

[1] Üsule rəvanşenasi man, cild 1, səh 441.

O gələcək...

bir ana verildi. Bu təcrübələrdə meymunun balaları, maşın anaya qarşı uşaqlara məxsus bütün ehtiyac və hərəkətlərini nişan verdilər. Meymunun anasının yerinə qəbul etdiyi ən münasib canişin, qırıq ağac budağının başına dolanmış parçanı və aşağı qismətləri bükülmüş gəlincik olur.

Həmçinin, bu canişin ana, başqa bir canişin maşın anadan ki, isti süd verir, lakin, meymun balası onun qucağında otura bilməməsinə görə, ondan daha təsirli olur. Bu təcrübələrdə müşahidə olunur ki, meymun balasında ruhu narahatçılıq baş verdikdə, canişin anaya tərəf qaçır və onu qucağına alır. Bu təcrübədən belə nəticə almaq olar ki, meymun balalarının ananın bədəni ilə əlaqəyə ehtiyacları vardır.[1]

ANANIN FƏDAKARLIĞI

Ana övladının vücudunu öz vücudundan üstün bilir. Bəziləri özlərini övladına fəda edir. Öz gözünə tikan batmasına dözür, amma uşağının naləsinə dözmür. İmam Səccad (ə) buyurur: **"Ana, suyu övladına verib, özü isə susuz qalır. Özünə lazımı libas almasa da, onu uşağına alır."**

Ana uşağına qarşı iki növ məhəbbət bəsləyir. Birinci: Hissi məhəbbət. İkinci: Əqli məhəbbət. Hissi məhəbbət, bu vaxta kimi söhbət etdiklərimizdir.

Amma əqli məhəbbət odur ki, uşaqı xəstələndiyi vaxt həkimə müraciət edir. Onu cərrah həkimin ixtiyarında qoyur ki, qarnını yarsın və bağırsağını götürsün. Anası onun vəziyyətinə ağlayaraq dözsə də bu işə razılıq verir. Əgər ondan soruşsaq ki, nəyə görə uşağını həkimin ixtiyarında qoymusan? Cavab verir: Çünki, onu sağlam görmək istəyirəm. Az zərərə, mənfəətdən ötrü dözmək və övladı sağlam görmək daha məntiqlidir.

BEHİŞT ANANIN QƏDƏMLƏRİ ALTINDADIR

Ananın məqam və mərtəbəsi o qədər yüksəkdir ki, İslam Peyğəmbəri (s) Behiştə getməyin yolunu ananın ayaqları altında və ona xidmət etməkdə görür. Necə ki, başqa yerdə, Behiştə getməyin şərtini Allah yolunda cihad edənlərin şəmşirlərinin kölgəsində tanıtdırır. İndi də İs-

[1] Üsule rəvanşenasi man, cild 1, səh 434.

O gələcək...

lam Peyğəmbərinin (s) ananın haqqı, ehtiramı və məqamı barəsindəki söylədiklərinə işarə edək:

İslam Peyğəmbəri (s) buyurur: **"Cənnət anaların qədəmləri altındadır.**[1]

Həzrət Musa (ə) üç dəfə Allah dərgahına tövsiyə olunmasını ərz edir: Allah-taala, hər dəfə onu Öz pak zatına tövsiyə edir. Sonra yenə də tövsiyə olunmasını istəyir. Allah ona iki dəfə anasını, üçüncü dəfə isə atasını tövsiyə edir.

Bir nəfər, İslam Peyğəmbərinin (s) hüzuruna gəlib ərz edir: **Ya Rəsuləllah! Kimə yaxşılıq edim? Buyurur: Anana! Ərz edir: Daha kimə? Buyurur: Anana! Yenə ərz edir: Daha kimə? Buyurur: Anana! Dördüncü dəfə buyurur: Atana yaxşılıq et!**

Yuxarıdakı iki rəvayətdən bir sualın cavabı aydın olur. O da budur ki, ananın haqqı çoxdur yoxsa, atanın? Cavab budur ki, ananın haqqı atadan üç dəfə çoxdur. Bəli! Ananın üç dövrdə, hamiləlik, süd vermək və övlad böyütmək dövrlərində xüsusi rolu vardır. Doğrudur ki, ata, uşağın və ananın dolanışığında mühüm rol oynayır, ailəni idarə edir, yemək, geyim və bütün ehtiyacları təmin edir, amma, bütün bunlar övladı anaya təhvil verməklədir. O da bir anda baş verir. O, anadır ki, bütün vücudu ilə övladını böyütməlidir.

ANAYA XİDMƏT, YAXUD DÖYÜŞ CƏBHƏSİ?

Bir nəfər cavan, anası ilə İslam Peyğəmbərinin (s) hüzuruna gəlir və anasının cəbhəyə getməyə icazə verməməsini ərz edir. Peyğəmbər (s) buyurur:

"Ananın xidmətində ol! Cəbhəyə getməkdən savabı az deyildir!"[2]

23.ATANIN HAQQI

وَأَمَّا حَقُّ أَبيكَ فَتَعْلَمَ أَنَّهُ أَصْلُكَ، وَأَنَّكَ فَرْعُهُ، وَأَنَّكَ لَوْلاهُ لَمْ تَكُنْ. فَمَهْمَا رَأَيْتَ في نفسك ممَّا يُعْجِبُكَ فاعْلَمْ أنَّ أَبَاكَ أَصْلُ النِّعْمَةِ عَلَيْكَ فِيهِ وَاحْمَدِ اللَّهَ وَاشْكُرْهُ عَلَى قَدْرِ ذَلِكَ وَلا قُوَّةَ إلاّ باللهِ.

[1] Mizanul-Hikmət, cild 10, səh 712-713.

[2] Mizanul-Hikmət, cild 10, səh 712-713.

O gələcək...

"Atanın, sənin üzərində olan haqqı budur ki, o sənin vücudunun kök və mənşəyi olmasını bilməlisən. Sən onun bir şaxəsisən. Sənin varlığın onunla bağlıdır. Özündə müşahidə etdiyin, bəyəndiyin və səni təəccübləndirən, bu nemətlərin əsli, bil ki, atadandır. Elə isə, Allaha pərəstiş et və Ona bu nemətə görə şükr et! Allah tərəfindən başqa heç bir güc qüvvə yoxdur!"

ATA KÖK, OĞUL BUDAQ

Həzrət Zeynul-abidin (ə) bu haqqın əvvəlində, elmi və fəlsəfi məsələyə işarə edir. O da əsl səbəb və nəticə məsələsidir. Əgər səbəb olmasa, nəticə də olmaz. Əslində bütün məxluqatın vücudu bağlı və qeyri-müstəqildir. Beləliklə, bu qanun bütün maddə aləmində özünü biruzə verir. İmam Səccad (ə) övladlara atanın vücudunun əzəmətini bəyan edərək aşkar şəkildə buyurur: Ata əsas və kökdür. Övlad isə budaqdır. Kök olmasa, övladın vücudu dünyaya gəlməz və zühur etməz. Bəs, övladda hər nə biruzə verirsə, öz kökü və əsli olan atadan hekayətdir.

İmam Səccadın (ə) bəyanında diqqəti cəlb edən başqa bir mühüm mövzu da budur ki, övlad dünyaya gəlib maddi həyata qədəm atarkən öz inkişafına başlayır və kamal hərəkətinə davam edir. Lakin, ola bilsin, ata elə bir vəziyyətdə olsun ki, maddi inkişafı tamam və ya tamamlanmaq halında olsun. Beləliklə, ata və övladın maddi hərəkəti zamanı, ata öz inkişafını qurtarmağa doğru gedir (qocalıq), halbuki övlad inkişaf və maddi kamal qülləsinə tərəf hərəkət edir. Ata, günbəgün zəiflədiyini və qocaldığını hiss etdiyi halda, övlad güclənir və qürurlanır. Övlad özünü atadan güclü bilir və tədricən bu ona qürur və təkəbbür gətirir. Bu halda övladda özünü atasından üstün tutmaq ehtimalı da yaranır ki, bu da övladın atasına ehtiram etmək vəzifəsini unutmağa, yaxud, düzgün yerinə yetirməməyə səbəb olsun.

Həzrət, kamal və inkişaf cəhətdən müvəffəqiyyət səbəbindən təkəbbür halına düşməyəsən deyə, bunların maddi mənşəyinin atadan olduğunu övlada anlatmaq istəyir. Övlad, müstəqil varlığının olmaması məsələsini anlamaqla, qürur və təkəbbürdən nicat tapar.

İmam Səccadın (ə) bu haqqın bəyanında buyurduğu üçüncü mövzu neməti tanımaq, təşəkkür və şükür etmək hissini oyatmağa diqqət etməklə, övladın öz vəzifəsini atası müqabilində Allahın buyurduğu kimi icra etməsidir. Bununla da valideynin üzünə ağ olmaq zərərindən qurtarsın.

Sonra İmam Səccad (ə) atanın haqqına diqqət, onun müqabilində vəzifəsini yerinə yetirmək fürsətini yalnız Allah-taala tərəfindən insana nəsib edildiyini izah edir. Ona görə də bu imkanı Allahdan istəmək lazımdır.

Keçən bəhslərdə Qurani-Kərimdə Loğman və Əhqaf surələrində ananın haqqı və insanı ata-anası barəsində yaxşılığa dəvət edən ayələri izah etdik. Bu bəhsdə isə həmin ayələrin təfsirində nəql olunan rəvayətlərə və atanın hüququna işarə edəcəyik.

RƏVAYƏTLƏRDƏ ATANIN MƏQAMI

Ravi nəql edir ki, İmam Sadiqdən (ə) bu ayə barəsində sual etdim: **"Valideynlərə yaxşılıq etmək**"dən məqsəd hansı yaxşılıqdır? Həzrət buyurdu: Ata-ananla kamil şəkildə həmsöhbət ol və onunla yaşa. Onların sənə möhtac olmağına və zəhmətə düşmələrinə şərait yaratma. Özləri ehtiyacsız olsalar da, bu işi görmə. Sonra İmam Səccad (ə) sual soruşanın diqqətini başqa ayəyə cəlb edərək oxuyur: **"Özünüzün xoşladığınız şeylərdən xərc edin!"** Rəvayətin ardında buyurur:

Allahın buyurduğu: **"Əgər ata-anandan biri sənin yanında qocalıb əldən düşsələr onlara ən kiçik sayılan uf kəlməsini də demə!**"- ayədən məqsəd budur ki, onları əziyyətedici sözlərlə incitmə. Əgər səndən narahat olub səni vursalar da, onlarla yaxşı sözlərlə danış. Misal üçün, onlara de: **"Allah sizi bağışlayıb Öz rəhmətinə aid etsin!"** Ayədəki **"Təvazökar qanadlarını onlara aç"** sözündən məqsəd, onlara dolu və açıq gözlə baxmayasan. Yalnız, rəhmət və mərhəmətlə nəzər sal. Səsini səslərindən ucaltma, əlini onların əllərindən, qədəmini qədəmlərindən qabağa qoyma. **"Qədəmini onların qədəmindən irəli qoymamaq"-** yəni, onlarla uca və əziyyətedici səslə danışma. Üzünü onlara turşutma. Heç bir işdə onlardan önə keçmə və sözün tam mənasında onların ixtiyarında ol!

Üsuli-Kafi kitabında İmam Sadiqdən (ə) nəql olunur ki, buyurur:

"Bir nəfər İslam Peyğəmbərinin (s) yanına gələrək ərz edir: Mənə tövsiyə edin! Həzrət buyurur: Atəşdə yanan vəziyyətində olsan da, Allaha şirk qoşma! Yalnız, qəlbində imanına arxayın olsan, zahirdə (təqiyyə ünvanı ilə) zərurət üzündən bu işi görə bilərsən. Ata-anana itaət et və onlara yaxşılıq göstər. İstər diri, istər ölmüş olsalar. Əgər valideynlərin sənə əmr etsələr ki, mal-dövlətindən ver, hökmən bunu yerinə yetir. Çünki, bu işin özü imandandır".[1]

[1] Üsuli-Kafi, cild 2, səh 157.

O gələcək...

Bu hədisdə İslam Peyğəmbəri (s) istər həyatda olsun istərsə də, vəfat etmiş olsalar, valideynlərə ehsan və yaxşılıq etməyi tövsiyə edir. Ata-ananın məqamını o dərəcədə bəyan edir ki, hətta, əmr etsə ki, mal-dövlət və zövcəni tərk et, ona tabe olmalıdırlar. Bu əmri yerinə yetirmək, iman əlaməti kimi tanıtdırır.

Başqa rəvayətdə İslam Peyğəmbəri (s) yalnız, atanın haqqı barəsində buyurur:

"Atanı adı ilə çağırmayın. Ondan öndə yol getməyin. Ondan əvvəl oturmayın. Onun sizi təhqir etməyinə şərait yaratmayın."

Beləliklə, övlad atanın məqamını gözləməklə ata-anasına kamil şəkildə ehtiram göstərməlidir.

Başqa rəvayətdə İmam Sadiqdən (ə) bir nəfər soruşur: **Atam qocalıb. Çox zəifləyib. Belə ki ehtiyac zamanı onunla birlikdə olmalıyam. Belə işi yerinə yetirimmi? Həzrət buyurur: "Əgər qüdrətin çatırsa, hökmən bu işi gör! Öz əlinizlə onun ağzına tikə qoyun. Bunun təsiri, sabah Qiyamət günü Behiştin sənə qismət olması ilə nəticələnər! "**

Bu hədisdə İmam Sadiq (ə) övladlara buyurur və tövsiyə edir ki, necə ki, bir gün siz zəif idiniz, ata sizin əlinizdən tutub ehtiyacınızı yerinə yetirirdi, indi də sizin vəzifənizdir ki, atanız üçün həmin işi görəsiniz. Bu günkü dünyada qocalar və yaşlılar üçün xüsusi evlər tikmək, həmçinin, özləri belə yerlərdə yaşamaq istəyən qocaları ora cəlb etmək tələb olunan və bəyənilmiş işdir. Lakin, çox təəssüflər olsun ki, bəziləri belə yerləri bəhanə edib, öz əxlaqsızlıq və yersiz niyyətlərini həyata keçirməklə ata-analarını zorla ev mühitindən çıxarıb belə yerlərdə yerləşdirirlər. Onlar bu əməllə valideynlərinin ruhiyyəsinə böyük zərbə vurmuş olurlar. Onların qəm-qüssələrini artırır, ölümlərini tezləşdirirlər. Ata-ananın haqqı və məqamı o qədər böyükdür ki, hətta, müsəlman olmasalar belə, İslam onların ehtiramını saxlamasını övladlara göstəriş verir.

Yenə də başqa rəvayətdə İmam Baqir (ə) buyurur: **"Üç şey var ki, Allahtaala, bu işin heç kimə tərk olunmasına icazə verməmişdir: 1. Əmanəti mömin ya fasid də olsa, qaytarmaq. 2. Saleh və kafir də olsa, əhdə vəfa etmək. 3. Saleh və pis iş sahibi olsa belə, ata-anaya yaxşılıq etmək."**

CAVANLARIN VƏZİFƏLƏRİ

Rəvayətlərdə müqəddəs İslam dininə etiqadı olan cavanların vəzifələri məlum olur. Onlar, ata-analarının onların üzərində böyük

haqları olduğunu bilməlidirlər. Vəzifələri budur ki, valideynlərinin haqqını tanısınlar, onlara qarşı diqqətsiz olub, qəzəblə baxmasınlar. Valdeynlər öz vəzifələrinə yaxşı əməl etməsələr belə, övlad bir vəzifə kimi bunları yerinə yetirməlidir.

İmam Sadiq (ə) buyurur: **"Hər kim valideynin üzünə hirs və qəzəblə baxsa, onlar övlad haqqında vəzifələrini yerinə yetirməsələr də, Allah övladın namazını qəbul etməz.**[1]

Göründüyü kimi bu hədisdə aşkarcasına bildirilir ki, əgər valideynin övladına zülm etməsi fərz olunsa da, onu görməməzliyə vurub övladçılıq vəzifəmizi yerinə yetirməliyik.

GÜNAHLARIN TƏSİRİ VƏ ATANIN QƏTLİ

Məhəmməd ibn Səhldən rəvayət olunur ki, Müntəsərin xilafəti dövründə günlərin birində gözüm, üzərində şahların şəkli çəkilmiş xalçaya düşdü. Altında farsca yazılmış, yazıya diqqət etdim. O xalçada bir padşahın şəklini gördüm ki, başında tac və altında bu sözlər yazılmışdı: Bu atasının qatili, Xosrov Pərvizin şəklidir. Atasının qətlindən sonra altı aydan çox şahlıq etməmişdir. Ondan başqa şəkilləri də gördüm. Birdən gözüm xalçanın sol tərəfinə düşdü. Padşahın şəklini gördüm ki, altında yazılmışdır. "Bu şəkil Yəzid ibn Vəlid ibn Əbdül Məlik, əmisi oğlu Vəlid ibn Yəzid ibn Əbdül Məlikin qatilinin şəklidir. Şahlıq müddəti altı ay olub. Sonra Müntəsərin şəklinə baxdım. Zehnimə gəldi ki, Müntəsərin də xəlifəliyi altı aydan çox çəkməyəcək. Çünki, o da atasının qatili olub.[2]

Bəli, Mütəvəkkil bəni Əbbas xəlifələrindən biri idi. Əmirəl-möminin Əlinin (ə) müqəddəs vücuduna qarşı kinli olub, onun adını həmişə "Əbu Turab" ləqəbi ilə yad edərdi. Özünün sarayındakı ümumi məclislərindən birində Həzrətin adına hörmətsizlik edib, ona cəsarət edir. Cavan oğlu Müntəsər Əbbasi məclisdə idi. Atasının Əliyə (ə) qarşı bu çirkin rəftarından qəzəblənir. Bəzən ona etiraz edir, bəzən də sakit dayanırdı və günlərin birində böyük şəxsiyyətlərdən təşkil olunmuş ümumi məclisdə, Mütəvəkkil Həzrətin müqəddəs adını çirkinliklə yad edir. Müntəsər çox qəzəblənib atasına etiraz edir. Mütəvəkkil hamının gözü önündə oğlu Müntəsəri təhqir edir. Ona bu məzmunda bir şer deyir.

[1] Üsuli-Kafi, cild 2, səh 349.

[2] Tətimmətil-Müntəha, səh 243.

O gələcək...

"Bu cavana bax! Əmisi oğlunun arxasınca hirslənib qəzəblənir. Başın ananın övrətinə olsun!"

İyirmi beş yaşında cavan Müntəsər ümumi məclisdə atasının bu hörmətsizlik və təhqirinə dözə bilməyir. Ona görə də, intiqam almaq fikrinə düşüb atasını öldürmək planı çəkir.

MÜTƏVƏKKİLİN QƏTLİ VƏ BU ÖLÜMÜN TƏSİRİ

Atasını qətlə yetirmək fikrinə düşən, əslində öz planını onların əli ilə həyata keçirmək istəyən Müntəsər, bu məsələni, Mütəvəkkilin sarayında onun sirrini bilən bir neçə nəfər türk qulamları ilə müzakirəyə qoyur.

Gecələrin birində Mütəvəkkil sarayda özünün xüsusi şərab məclisini təşkil edib, yeyib-içməklə məşğul idi. Gecə yarıdan keçir. Sarayın məclis işlərinə baxan Bəğai Səğir məclisin dağılmasını elan edib, xəlifənin istirahət vaxtı olduğunu bildirir. Hamı saraydan çıxır. Sarayda təkcə, Mütəvəkkilin yanında böyük məqamı olan Fətih ibn Xaqan qalır. Bu vaxt türk qulamları sıyrılmış qılıncla xəlifənin otağına həmlə edirlər. Fətih ibn Xaqan Mütəvəkkilin canını qorumaq üçün özünü onun üstünə atsa da, bu işin faydası olmur. Hər ikisini tikə-tikə edirlər və həmin gecə, qanlı nizələri ilə Müntəsərə xilafət salamı verirlər.

Bu əhvalatda doğrudur ki, Mütəvəkkil (məsuliyyətsiz ata) özü öz qətlinə səbəb olur və həzrət Peyğəmbərin (s) bu hədisinə aid olur: Əliyə (ə) buyurur: **"Ya Əli! Allah lənət eləsin o valideynə ki, övladlarının onların üzünə ağ olmasına şərait yaradırlar"**[1] Lakin digər tərəfdən, atasını qətlə yetirmək günahının təsiri Müntəsərin ömrünün altı aydan çox çəkməməsinə və həyat qapısının bu dünyada əbədi bağlanmasına səbəb olur.

Mütəvəkkilin ardıcıl məzəmmətləri inadkarlıq atəşinin daha çox şölələnməsi və nəticədə, öz övladı vasitəsi ilə canını yandırmağa səbəb olur. Əli (ə) bu barədə buyurur:

"Məzəmmət və acıqlanmaqda ifrata varmaq inadkarın atəşini çoxaldır!"[2]

[1] Cəvan (qoftare fəlsəfi), səh 462.
[2] Cəvan (qoftare fəlsəfi), səh 462.

O gələcək...

ATANIN ÖVLADA ŞƏRİ HAQQI

Mühəqqiq Ərdəbili yazır: **"Ağıl və rəvayətlər, valideynin üzünə ağ olmağın haram olduğuna dəlalət edir. Ayələr və rəvayətlər, valideynə itaətin vacib olmasını bildirir."** Sonra yazır, Fəqihlər deyirlər: **"Əgər İmam tərəfindən cəbhəyə getmək əmri verilməsə və ya kafirlər müsəlmanların ölkələrinə hücum etməyən halda, ata-ana övladlarını döyüşə getməkdən saxlaya bilərlər".**[1]

Şəhid Saninin "Qəvaid" kitabında bu mövzudakı ifadəsi belədir: "Şübhəsiz ki, əcnəbilərə haram və vacib olan, ata və anaya da o cürdür. Ata-ananın bu sahədə xüsusi hökmü vardır.

Birinci: Mübah səfər (övlada), ata-ananın icazəsi olmadan qadağandır.

İkinci: Şübhəli məsələlərdə də olsa, valideynə itaət vacibdir. Çünki, şübhəli məsələnin tərki müstəhəbdir.

Üçüncü: Əgər xüsusi hökm olmasa, valideyin övladının cəbhəyə getməsinə mane ola bilər.

Dördüncü: Əgər iş namaz qılmaqla valideynə itaət arasında təzad olsa, namazı gecikdirib valideynə itaət etmək vacibdir.

Beşinci: Valideyn bəzi vaxtlar övladını camaat namazından saxlaya bilər.[2]

24. ÖVLADIN HAQQI

وَأَمَّا حَقُّ وَلَدِكَ فَتَعْلَمَ أَنَّهُ مِنْكَ وَمُضَافٌ إِلَيْكَ فِي عَاجِلِ الدُّنْيَا بِخَيْرِهِ وَشَرِّهِ، وَأَنَّكَ مَسْئُولٌ عَمَّا وَلِيتَهُ مِنْ حُسْنِ الأَدَبِ وَالدِّلالَةِ عَلَى رَبِّهِ وَالْمَعُونَةِ لَهُ عَلَى طَاعَتِهِ فِيكَ وَفِي نفْسِهِ، فَمُثَابٌ عَلَى ذَلِكَ وَمُعَاقَبٌ، فَاعْمَلْ فِي أَمْرِهِ عَمَلَ الْمُتَزَيِّنِ بِحُسْنِ أَثَرِهِ عَلَيْهِ فِي عَاجِلِ الدُّنْيَا، الْمُعْذِرِ إِلَى رَبِّهِ فِيمَا بَيْنَكَ وَبَيْنَهُ بِحُسْنِ الْقِيَامِ عَلَيْهِ وَالأَخْذِ لَهُ مِنْهُ. وَلا قُوَّةَ إِلا بِاللَّهِ.

"Biləsən ki, övladın haqqı, dünyada o səndən olub və sənə bağlıdır. Xeyiri və şəri sənindir. Ona yaxşı tərbiyə verməkdə və yol göstərməkdə, Allah-taalaya və sənə itaət etməkdə, məsul və öhdədarsan. Bu vəzifəni yerinə yetirdiyin halda, savab qazanarsan. Əgər səhlənkarlıq etsən, əzaba düçar olarsan. Elə isə, onun barəsində yaxşı əməl et ki, dünyada bəhrəsini alasan. Axirətdə, ona yaxşı himayə etdiyinə və nəticə aldığına görə Allah dərgahında üzrün olmasın. Allah tərəfindən başqa heç bir güc və qüvvə yoxdur!"

[1] Üsuli-Kafi, cild 2, səh 349.

[2] Üsuli-Kafi, cild 2, səh 349.

O gələcək...

İmam Səccadın (ə) övladların hüquqları barəsində xatırladığı məsələnin xülasəsi bunlardır.

Birinci; Ata, övladının ona bağlı olmasını unutmamalı, həmçinin, xeyir və şəri onunla əlaqədar olmalıdır.

İkinci: Övladın yaxşı ədəblə tərbiyəsi və Allaha-itaət etməsinə tərəf yönəldilməsi də atanın vəzifəsidir.

Üçüncü: Yaxşı iş görərsə, ataya savab, pis iş gördüyü halda, əzabla nəticələndiyi üçün, övladın əməllərinin təsirləri barəsində qəflətdə olunmamalıdır.

Dördüncü: Ata, Qiyamətdə Allahın müqabilində həm övladı, həm də üzünü ağa çıxara biləcək şəkildə övladını böyüdüb başa çatdırmalıdır.

İmam Səccad (ə) əvvəlki mövzularda valideynin haqqını bəyan edib, övladın onların müqabilində vəzifələrini aydınlaşdırdı. İndi də qarşılıqlı haqq kimi, valideynlərin öhdəsindəki övladların hüquqlarına işarə edib buyurur:

Şübhəsiz ki, övladların şəxsiyyətlərinin əsası, kişi ilə qadının öz yaradılış qanununa uyğun olaraq bir-biri ilə ailə peymanı bağlamasıdır. Onlar bilməlidirlər ki, onların vücudlarının meyvələri cəmiyyətə təhvil veriləcək. Bir sıra şəxsiyyət əsasları var ki, ata-ananın xüsusiyyətləri ilə bağlı olub irsən övlada keçir. Əslində, övladlar ata-analarının ruhiyyələrinin tam şəkildə güzgüləridirlər. Əlbəttə, bunlar bir sıra xüsusiyyətlərdir ki, nəsildən nəsilə irsən keçir. Bu, bütün bitki, heyvan və insanlarda olan ümumi yaradılış qanunudur. Bu barədə geniş bəhsə ehtiyac olduğuna görə bura qədər kifayətlənirik.

Uşaq Allah-taalanın əmri ilə maddə və dünya aləminə gəldiyi zamandan müqəddəs İslam dini, valideynlərin öhdəsinə ağır vəzifə və məsuliyyət qoyur. Onlar, ilk növbədə məsuliyyətlərini tanımalı, ikinci növbədə isə bu vəzifələri yerinə yetirməkdə Allahdan fürsət tələb etməlidirlər. İndi isə, qısa şəkildə bu vəzifələrə işarə edirik. Ata-analar övladları xoşbəxtliyə və kamala çatdırmaq yolunda tərbiyədə iki əsasa diqqət etməlidir.

Birinci: Faydalı istedadları canlandırmaq:

İkinci: Düzgün olmayan meyl və şəraitləri aradan aparmaq.

Müvəffəq tərbiyəçi odur ki, uşaqın bütün istedadlarını elmi və əməli təcrübələrlə tədriclə oyatsın və yatmış halətindən fəaliyyət halına salsın. Başqa tərəfdən valideynlərin və ya babaların qoyduğu bəzi bəyənilməmiş xüsusiyyətləri aradan aparıb, pərvəriş tapmasına şərait yaratmasınlar. İmam Sadiq (ə) bu barədə buyurur: **"Valideynlərə öv-**

O gələcək...

ladları barəsində üç şey vacibdir. 1. Onu ananın ixtiyarında qoysun. 2.Ona yaxşı ad qoysun. 3. Ədəbli olmağında həddən ratıq çalışsınlar."[1]

İmam Səccad (ə) "Səhifeyi Səccadiyyə" kitabında övladları üçün dua etdikdə buyurur:

"İlahi! Mənə övladlarımın ədəbli və tərbiyəli olmasında və onlara yaxşılıq etməkdə kömək ol!"[2]

Bu cümlələrlə övlad tərbiyə etməyin çox ağır iş olduğu məlum olur ki, bu işdə hamı, Allah-taaladan kömək diləməlidir.

ÖVLADLARIN HÜQUQU

Övlad dünyaya gələn andan valideynlərin boynuna bir sıra hüquqlar qoyulur. Onlardan birincisi, yaxşı ad seçməkdir. Çoxlu rəvayətlərdə bu işə təkid olunmuşdur. Onlardan bəzilərinə işarə edirik: İslam Peyğəmbəri (s) buyurur: **"Övladlarınıza peyğəmbərlərin adlarını qoyun. Ən yaxşı ad Əbdullah və Əbdül-rəhimdir."**[3]

İslam Peyğəmbəri (s) buyurur: **"Övladların valideynlərin boynunda üç əsas haqqı vardır. 1. Yaxşı ad. 2. Xətt və savad öyrətmək. 3. Həddi büluğa çatdıqda evləndirmək".**[4]

Bu hədisdə, savad və evlənməkdən əlavə, yaxşı ad qoymaq da sifariş olunur. Həzrət Əli (ə) Nəhcül-bəlağədə, övladın atanın boynunda olan haqqı barəsində buyurur:

"Övladın atanın boynunda haqqı, ona yaxşı ad seçmək, yaxşı İslam ədəbini və Quran öyrətməkdir."[5]

Bu hədisdə ad seçmək bildirilir.

İSLAM PEYĞƏMBƏRİNİN (s) VASİTƏSİ İLƏ PİS ADLARIN DƏYİŞMƏSİ

İslam Peyğəmbəri (s) pis adları və pis yer adlarını yaxşıları ilə dəyişirdi. Hər kimin öz pis adından xoşu gəlmirdisə, ona xəcalətdən nicat verirdi. Bu barədə aşağıdakı misallara diqqət edək:

---

[1] Töhəfül-Uqul, səh 238.
[2] Səhifeyi Səccadiyyə, övlada dua.
[3] Məkarimul Əxlaq, səh 220.
[4] Müstədrəkül- Vəsail, cild 2, səh 618
[5] Nəhcül Bəlağə. Qısa kəlmələr, səh 391.

O gələcək...

İmam Sadiq (ə) İslam Peyğəmbərindən (s) nəql edir ki, Peyğəmbər (s) pis adam və şəhər adlarını dəyişdirirdi.

Ömərin "Asiyə"(yəni, günahkar) adlı qızı var idi. İslam Peyğəmbəri (s) onun adını dəyişib "Cəmilə" (yəni, gözəl) qoyur.

Ümmü-Sələmənin qızı Zeynəbin adı əvvəlcə, "Bərrə" (yəni, yaxşı iş görən) idi. Bu addan özünü bəyənmək mənası hiss olunurdu. O qadın barəsində deyirdilər: Bu adla paklıq iddiası etmək istəyir. Əhalinin təhqir və töhmətinin qarşısını almaqdan ötrü İslam Peyğəmbəri (s) onun adını dəyişib "Zeynəb" qoyur.

Əhməd ibn Heysəm İmam Rzadan (ə) soruşur: Nəyə görə ərəblər öz övladlarına it, pələng və ona bənzər adlardan qoyurdular? Həzrət cavabında buyurur: **"Ərəblər döyüş və müharibə adamları idilər. Bu adları onlara qoymaqda məqsəd, onları çağırdıqda düşməni qorxuya salmaq idi."**[1]

PİS AD, TƏHQİR VƏ MƏZƏMMƏTƏ SƏBƏB OLUR

Ərəb qəbilələrinin başçılarından birinin adı "Cariyə" idi. "Əqrəbül-Məvarid" adlı lüğət kitabında "Cariyə" sözünün ərəbcə mənasında yazılır: "Cariyə", zəhərli ilan növlərindən birinin adıdır.

Qəbilə başçısı Cariyənin güclü və yaxşı nitq qabiliyyəti var idi. O və bir dəstə, Müaviyənin zalım hökumətindən narazı idilər. Müaviyə bu mövzunu hiss edirdi və əhalinin gözü qarşısında onu təhqir edib, adını məsxərəyə qoymağı qərara alır. Müaviyə Cariyə ilə üzbəüz gəlib fürsəti əldən verməmək üçün ona belə deyir: "Tayfan və qəbilənin yanında nə qədər alçaqsan ki, adını "ilan" qoyublar?" Cariyə fikirləşmədən cavab verir: "Sən özün, tayfan və qəbilənin yanında o qədər alçaqsan ki, adını Müaviyə qoyublar". Yəni, dişi it. Müaviyə çox narahatlıqla ona deyir ki, "Sakit ol! Anasız! Cariyə cavab verir: Mənim anam var! Allaha and olsun! Sənin qəzəbini özündə yetişdirən qəlblər, bizim sinələrimizdədir. Müaviyə dedi: "Allah sənin kimilərini cəmiyyətdə çoxaltmasın."[2]

İkinci misal, Müaviyənin dövründə yaşayan böyük bir tayfanın başçısı, "Şərik ibn Əvər" adlı bir kişi barəsindədir. Bədheybət bir görkəmi var idi. Adı Şərik idi. Bu ad, insan üçün yaxşı deyil. Atasına, "Əvər" deyirdilər. Əvər, ərəbcə bir gözü eyibli olana deyirlər.

[1] Kudək (qoftare fəlsəfi) cild 2, səh 228.
[2] Kudək (qoftare fəlsəfi) cild 2, səh 229.

O gələcək...

Müaviyənin qüdrətinin tüğyan etdiyi günlərin birində Şərik ibn Əvər onun məclisinə daxil olur. Müaviyə ona deyir: Sənin adın Şərikdir, Allahın isə şəriki yoxdur. Sən Əvərin oğlusan. Sağlam gözlü səndən yaxşıdır. Pis üzün var. Xoş üzlü, pis üzlüdən yaxşıdır. Nəyə görə qəbilən səni özünə başçı seçib? Şərik cavabında deyir: Allaha and olsun ki, sən Müaviyəsən. Müaviyə "av-av"edən itə deyilir. Sən "av-av" etdin. Adını Müaviyə qoydular. Sən Hərbin oğlusan, halbuki, sülh müharibədən yaxşıdır. Sən Səxrin (daşı) oğlusan halbuki, düz yer, daşlıqdan yaxşıdır. Bütün bunlarla necə oldu ki, səni müsəlmanlara rəhbər seçiblər. Bu sözlər Müaviyəni məğlub edir və Şərikə and verir ki, onun məclisindən çıxsın.[1]

Əzaların naqis və surətin çirkin olması, insanda təhqirlik hissi əmələ gətirdiyi kimi pis ad və ləqəb də insana təhqirlik hissi verir. Ona görə də, İslam tövsiyə edir ki, övladlarınıza yaxşı ad qoymaqla onların ruhlarını təhqirlik hissindən xilas edin. Bu ad onların şəxsiyyətinə çox təsir edir.

Bura kimi qısa da olsa, valideynlərin vəzifələrindən olan yaxşı ad seçmək barəsində bəhs etdik. İndi də onların iş vəzifəsi barəsində bəhs edəcəyik. İmam Səccad (ə) bu vəzifəyə işarə edərək buyurur:

"Ata övladını yaxşı ədəblə tərbiyə etmək və Allahı ona tanıtdırmaqda məsuliyətlidir."

İndi də rəvayətlərdə övladın tərbiyə olunması barəsindəki göstərişlərə nəzər salaq.

ÖVLADIN TƏRBİYƏSİNDƏ MƏHƏBBƏTİN ROLU

Şübhəsiz ki, uşaq, cismi cəhətdən qidaya ehtiyacı olduğu kimi ruhi cəhətdən də qidalanmağa möhtacdır. Cismin qidası ananın südü və Allahın yaratdığı münasib yeməklərlə təmin olunur. Lakin, ruhun qidası, ata-ananın lazımi təlimləri və dəqiq müşahidələri ilə əmələ gəlir. Övladın, həm qidaya, həm də məhəbbətə ehtiyacı vardır. Məhəbbət, övladın canı sayılır.

İslam Peyğəmbəri (s) buyurur: **"Övladlarınızı sevib, onlara məhəbbət bəsləyin. Hər vaxt onlara vədə versəniz, ona əməl edin. Çünki, övlad atasını özünə ruzi verən kimi dərk edir."**

Bu hədisdə iki ən mühüm tərbiyə mövzusuna işarə olunur: Birinci, övladı çox istəmək və ona mehr-məhəbbət göstərmək. İkinci, uşaqa verilən vədələrə vəfadar olmaq. Bununla da, övlad uşaq vaxtından əhd

[1] Kudək (qoftare fəlsəfi) cild 2, səh 59.

pozan və vədə xilaflığına meyl etməsin. Övlada məhəbbət göstərməyin müxtəlif yolları vardır. Onlardan biri uşağı öpmək və nəvaziş etməkdir. İslam Peyğəmbəri (s) buyurur:

"Övladlarınızı öpün! Çünki, övladlarınızı öpməyin müqabilində, Allah-taala elə bir məqam vermişdir ki, hər dərəcə arasında beş yüz il fasilə vardır."

Həmin mövzuda Əli (ə) buyurur:

"Övladı öpmək rəhmətdir. Qadını öpmək şəhvətdir. Ata-ananı öpmək ibadətdir, kişinin qardaşını öpməsi dindir."[1]

Məhəbbəti izhar etməyə, valideyndən qeyriləri üçün məhdud yaş həddi vardır. Elə ki, o vaxtdan keçdi öpmək qadağandır. İmam Sadiq (ə) bu barədə buyurur:

"Qız altı yaşına çatdıqda yad kişi onu öpməməlidir. Oğlan uşaqı yeddi yaşına çatdıqda yad qadın onu öpməməlidir."

İslam Peyğəmbəri (s) İmam Həsənlə İmam Hüseyni (ə) çox sevirdi və onları nəvaziş edib öpürdü. Günlərin birində Həzrət öz övladlarını öpərkən, onların hüzurunda olan Əqrə ibn Habisi deyir: Mənim on oğlum var, lakin onların heç birini öpməmişəm. Həzrət buyurdu: **"Əgər Allah, məhəbbəti sənin qəlbindən götürübsə, onun mənə heç bir bağlılığı yoxdur!"**

Bu söhbətdən göründüyü kimi İslam Peyğəmbəri (s) o şəxsin övladlarını öpməməsini onun qəlbinin qəsavətində görür.

MƏHƏBBƏTDƏ İFRATA YOL VERMƏK

Müqəddəs İslam dini, valideynləri övladlarına qarşı məhəbbət izhar etmələrinə göstəriş vermələri ilə bərabər onları ifrat dərəcədə olan məhəbbətdən çəkindirmiş və ifrat məhəbbətin nəticələrini onların nəzərinə çatdırmışdır. İmam Baqir (ə) bu barədə buyurur:

"Ən pis atalar, övladlarına məhəbbət göstərməkdə həddi aşıb ifrata varanlar! Ən pis övlad isə, vəzifələrini yerinə yetirməkdə səhlənkarlıqları ilə atanı özlərindən narazı salanlardır."[2]

Bu hədisdə, ifrat məhəbbətin törətdiyi bədbəxtliklərə işarə olunur. Məhəbbətdə ifrat, övladın təkəbbürünə səbəb olur və onu öz sözünü diktə etməyə cəhd edən şəxsə çevirir. Əli (ə) bu barədə buyurur:

[1] Məkarimul Əxlaq, səh 219.
[2] Tarixri Yaqubi, cild 2, səh 320.

O gələcək...

"Ən pis ruhi hal, özünü bəyənmək və özündən razı olmaqdır."[1]

Qızlar, ən yaxşı övladlar

Valideynlər, Allah-taalanın onlara verdiyi övladların qədrini bilməlidirlər. Valideynlər, övladın İlahi əmanət olmaları və onların müqabilində öz məsuliyyətlərini bilməlidirlər. Onların tərbiyəsində çox çalışmalıdırlar. İslam Peyğəmbərinin (s) nəzərində qız uşaqları oğlanlardan daha çox məhəbbət və nəvaziş tələb edir. Ona görə də görürük ki, Məsumların (ə) rəvayətlərində qız uşaqlarına daha çox məhəbbət göstərilməsinə təkid olunub. Aşağıdakı misallara diqqət edək:

Həzifə Yəməni İslam Peyğəmbərindən (s) nəql edərək, buyurur: **"Ən yaxşı övladlarınız qızlarınızdır.**[2]

Yenə də Həzrətdən nəql olunur, buyurur: **"Qızlar ehsan, oğlanlar isə nemətdirlər. Ehsana mükafat və savab veriləcək. Nemət barəsində insandan sorğu-sual olunacaq."**[3]

İslam Peyğəmbərinə (s) müjdə verilir ki, Allah sizə qız uşağı bağışlayıb. Əshab bu xəbəri eşitməklə üz gözlərini turşudaraq narazılıq halı alırlar. Həzrət buyurur: **Sizə nə oldu? Bu nə haldır baş verib? Qız uşağı bir güldür ki, onu iyləyərəm. Ruzisi də Allahladır."**

Yenə də İslam Peyğəmbəri (s) buyurur: **Ən yaxşı övladlar özlərini qoruyan qız uşaqlarıdır. Hər kimin bir qızı olsa, Allah onun ata-anasını atəşdən hifz edər. Hər kimin iki qızı olsa, Allah onlarla valideynlərini behiştə salar. Hər kimin üç qızı və ya üç bacısı olsa, Allah ondan cihad və sədəqə əmrini götürər."**

İbni Abbas, İslam Peyğəmbərindən (s) nəql edir ki, buyurur:

"Hər kim bazara girib əhli-əyalına töhfə alsa, ehtiyaclı şəxslərə sədəqə verən hökmündədir! Qızlar, oğlanlardan üstün tutulmalıdır. Çünki, hər kim qızını sevindirsə, sanki İslam övladlarından olan bir köləni azad etmişdir."

Övladlarınızı elə tərbiyə edin ki, izzətiniz olsun

İmam Səccad (ə) övladların haqqı barəsində bəzi yerdə belə buyurur:

"Övladlarınızla elə rəftar edin ki, verdiyiniz yaxşı tərbiyənin təsiri onların ictimai gözəllik camallarına səbəb olsun. Onu elə yetişdir ki,

[1] Şərhe Ğürər və Dürər, cild 4, səh 173.
[2] Məkarimul Əxlaq, səh 219-220.
[3] Müstədrəkül-vəsail, cild 2, səh 615.

O gələcək...

dünyasının müxtəlif yollarında abırlı və izzətlə yaşayış edib, sənin camalının qaynağı hesab olunsun!"

Əvvəlcədən işarə etdik ki, məhəbbətdə ifrat, övladda təkəbbür əmələ gətirir. Bu işin nəticələrindən biri də uşaqın ictimaiyyətdə tüfeyli böyüyüb, özünə etimad edə bilməməsidir. Atalar uşaq yaşlarından öz övladlarında müstəqillik və özlərinə etimad etmək xüsusiyyətini yetişdirməlidirlər. Bununla da, onlar müxtəlif müşküllər müqabilində möhkəm dayanıb sinə gələrlər.

Bu mövzunu İmam Sadiq (ə) Loğman haqqında buyurur: **"Loğman öz oğluna belə dedi: Ey oğlum! Əgər uşaqlıqda ədəb öyrənsən, böyüyəndə ondan bəhrələnərsən. Hər kim ədəb öyrənmək istəsə, ona ciddi yanaşar. Hər kim ədəb öyrənməkdə ciddi olsa, əxlaq və tərbiyə elmlərini öyrənməkdə özünü zəhmətə salar. Hər kim tələb yolunda ciddi olsa, nəhayət, məqsədinə yetişər və ondan fayda götürər!**

Əziz oğlum! Həmişə öz nəfsini, vəzifələrini və vacib işlərini yerinə yetirməyə məcbur et! Öz canını insanlar tərəfindən sənə gələ biləcək əzab-əziyyətlərin müqabilində səbirli və dözümlü olmağa hazırla. Əgər dünyada böyük izzət və məqama yetişmək istəyirsənsə, əhalidən tamahını yığışdır və onlara ümüdvar olma. Peyğəmbərlər və Allah adamları əhalidən öz mənfəət gözünü çəkməklə böyük və ali məqamlara nail olublar."[1]

Bu göstərişdə Loğman-həkimin, övladına özünə etimad ruhiyyəsi verməklə, əhalinin əlində olanlardan gözünü çəkməsini tövsiyə etməsini görürük. Atalar övlad tərbiyəsində bu göstərişlərə diqqət etməklə övladların müstəqil və tərbiyəli böyüməsinə səbəb olurlar.

25. QARDAŞIN HAQQI

وَأَمّا حَقُّ أَخيكَ فَتَعْلَمَ أَنّهُ يَدُكَ الَّتي تَبسُطُهَا، وَظَهْرُكَ الَّذي تَلْتَجئُ إِلَيه، وَعِزُّكَ الَّذي تَعْتَمدُ عَلَيه، وَقُوَّتُكَ الَّتي تَصُولُ بهَا، فلا تَتَّخذهُ سلاحًا عَلَى مَعصيَة اللهِ وَلا عُدَّة للظُّلم بحَقِّ اللهِ، ولا تَدَعْ نُصرتَهُ عَلى نفْسه وَمَعُونته عَلَى عَدُوِّه وَالْحَوْلَ بَيْنَهُ وبَيْنَ شَيَاطِينه وتَأديَة النَّصيحَة إِليه وَالإِقبَال عَلَيْهَ فَي اللّه فَإِنْ انقادَ لرَبّه وَأَحْسَنَ الإِجَابَةَ لَهُ وَإِلاّ فَلْيَكُن اللهُ آثرَ عِنْدَكَ وَأَكْرَمَ عَلَيْكَ منْهُ

"Qardaşının haqqı barəsində, onu özünə iş gördüyün əlin, arxa və dayağın, pənah apardığın şəxs, etimad etdiyin və hücuma keçdiyin qüvvən bilməlisən.

[1] Kudək (qoftare fəlsəfi) cild 2, səh 293-294.

O gələcək...

Allaha qarşı günah etdikdə ondan silah ünvanı kimi istifadə etmə. Ondan Allahın yaratdıqlarına qarşı zülm atəşi kimi istifadə etmə. Özünə görə dost ol. Düşməninə görə ona kömək ol. Şeytandan xilas olmaqdan ötrü ona kömək edib, azda olsa haqqını yerinə yetir. Allaha xatir ona tərəf get. Əgər Allaha itaət etsə, Onu qəbul etsə, lap yaxşı. Əks halda, Allah sənin üçün müqəddəm və daha hörmətli olsun!"

İmam Səccad (ə) qardaşın haqqı barəsində üç mətləbə işarə edir:

Birinci: Qardaş bir əl kimi həmişə insanın güc və qüdrətinə səbəb olur. Bu güc və qüdrəti, günah etməkdə istifadə etmə.

İkinci: Özünə kömək, düşmənlərinə qarşı ona arxa ol.

Üçüncü: Onu Şeytanın yolundan azad edib, Allahına tərəf qaytar. Əgər qəbul etməsə, Allahın əmr və göstərişini ona izah et.

İSLAMDA QARDAŞLIQ NÖVLƏRİ

Qardaşlıq məsələsi, İslam və Quranın mühüm məsələlərindən biri olub iki qismə bölünür. **Birinci:** Əsl qardaş, ata-anadan bir olub, bir-birinə ən yaxın insani bağlılıqda olan qardaşlar. Bu bağlılıq, onların bir-birindən irs aparmasına səbəb olur. İrs aparmaqda ikinci təbəqələrdə olub, xüsusi hökmləri vardır. **İkinci:** İman qardaşları. Əslində, bu qardaşlıq bütün müsəlmanları bir-birinə bağlayır və dünyada müsəlmanların vəhdətinə səbəb olur.

"Əx" sözü ərəbcə lüğətdə, qardaş, rəfiq və yoldaş mənasındadır. Sözün kökü "əxəvudur". Əslində, o şəxsə deyilir ki, ata-ana da və ya onların birində başqası ilə şərik olsun. "Müfrədat" lüğət kitabında süd qardaşı da, bu mənadan hesab edir. "Əx" kəlməsinin ərəbcə istifadəsi, "əb"və "ümm" kimi çoxdur. "Müfrədat" kitabında sözün əsl mənasını zikr etdikdən sonra yazır: Hər kim başqası ilə, qəlbdə, dində, sənətdə, alverdə, dostluqda və digər işlərdə şərik olsa, ərəb ona "əx" deyir. Qurani kərimdə, bu söz həm əsl mənasında, həm də məcazi mənada işlənmişdir.

Fərid Vəcdi, "Dairətul Maarif" kitabında yazır: "İxvan" sözü "əx" sözünün cəm şəkli olub, rəfiq mənasındadır. Əgər "əx" həqiqi qardaş mənasında olsa, cəm şəkli "ixvətun" şəklində gələr. Lakin, Fərid Vəcdinin dediyinin əksinə olaraq Quranda Nur surəsində "İxvanihinnə" sözü, həqiqi qardaş mənasında işlənmişdir.

Qurandan istifadə etməklə demək olar ki, "İxvət" və "İxvan" sözlərinin mənasının fərqi burdadır ki, "İxvan" sözü, istər həqiqi, istərsə də

qeyri-həqiqi qardaşlar mənasında işlədilir. "İxvə" sözü isə yalnız, həqiqi qardaşlar mənasında işlədilir. Məsələn: Yusif surəsində oxuyuruq: **"Öz yuxunu qardaşlarına nəql etmə!"** Nisa surəsində gəlib: **"Həqiqətən, möminlər qardaşdırlar".** Quran və rəvayətlərdə, möminləri həqiqi qardaş bilirlər.

İSLAMİ QARDAŞLIĞIN ƏHƏMİYYƏTİ

Qurani-Kərim buyurur: **"Möminlər bir-birləri ilə qardaşdırlar. Elə isə qardaşlarınız arasında sülh bərqərar edin və Allahın rəhmətini qazanmaqdan ötürü təqvalı olun!"**[1]

Bu ayə, İslam dininin ən geniş və təsirli şüarlarından birini bəyan edir. Müsəlman insanların bağlılığı o qədər üstündür ki, onlar bir-birləri ilə qardaş hesab olunurlar. Əslində, İslam dini bütün müsəlmanları bir ailə kimi bilir və bu məsələ həcc mərasimində daha çox hiss olunur. Biri şərqdən, digəri qərbdən gəlsə də, hamı bir-birinə qardaş kimi baxırlar. Bu da, Quranın bəyanıdır. İslam Peyğəmbərinin (s) sözlərinə diqqət etdikdə belə oxuyuruq: **"Müsəlman müsəlmanın qardaşıdır. Heç vaxt ona zülm etməz. Ondan köməyini əsirgəməz və onu hadisələr bərabərində tək qoymaz."**[2] Başqa hədisdə Həzrət buyurur:

"İki dini qardaş, bir-birinin əlini yuyan iki əl kimidir."[3]

Bu hədisdə İslam Peyğəmbəri (s) müsəlman qardaşları iki əl kimi fərz edir. Yəni, bütün müsəlmanları fərdləri əllər olan bir bədənə bənzədir.

MÖMİN, MÖMİNİN QARDAŞI

İmam Sadiq (ə) buyurur: **"Mömin, möminin qardaşıdır. Ona yol göstərən göz hökmündədir. Heç vaxt ona xəyanət və zülm etməz. Onu aldadıb hiylə gəlməz. Verdiyi hər bir vədəsinə əməl edər."**[4]

Digər bir hədisdə Həzrət buyurur:

"Mömin möminin qardaşıdır. Hər biri bədənin əzalarına bənzərlər ki, hər bir üzvü ağradıqda, digəri də ağrıyar. Onların hamısının

[1] Hücurat surəsi, ayə 10.
[2] Mühəccətul beyza, cild 3, səh 332.
[3] Mühəccətul beyza, cild 3, səh 332.
[4] Üsuli-Kafi, cild 2, səh 166.

O gələcək...

ruhu bir ruhdandır. Möminin ruhu Allahla, günəşin nurunun günəşlə bağlılığı kimidir."[1]

QARDAŞLIQ ƏN BÖYÜK NEMƏTDİR

Qurani-Kərim, Ali-İmran surəsində qardaşlıq nemətini insanlara çatdıraraq, buyurur:

"Hamılıqla Allahın ipindən (dinindən) möhkəm yapışın, bir-birinizdən ayrılmayın! Allahın sizə verdiyi neməti xatırlayın ki, siz bir-birinizə düşmən ikən O, sizin qəlblərinizi (İslam ilə) birləşdirdi və Onun neməti sayəsində bir-biriniz ilə qardaş oldunuz."[2]

Ayənin nazil olma səbəbi, bir-biri ilə düşmən olan "Ovs və Xəzrəc"adlı iki qəbilə barəsindədir. İslam Peyğəmbəri (s) Mədinəyə gələrkən onların arasında sülh və qardaşlıq bərqərar etdi. Doğrudur ki, bu qardaşlıqdan sonra müxtəlif səbəblərdən dində düşmənçiliyə qayıtmaq istəsələr də, Peyğəmbər (s) vaxtında onların ixtilaf atəşini söndürə bilir.

Peyğəmbər (s) müsəlmanlara göstəriş verir ki, dostluq, məhəbbət və qardaşlıqlarını bir-birinə elan etsinlər. Çünki, bu işin qardaşlıqda çox böyük təsiri vardır. Həzrət buyurur: **"Sizlərdən müsəlman qardaşlarınızdan birini dost tutduqda, bu dostluğu ona elan edin!"**[3]

MÖMİN QARDAŞIN ZİYARƏTİNİN SAVABI

"Kafi" kitabında, **"Mömin qardaşın ziyarəti"** fəslində, onlardan bəzilərinə işarə etməklə bu əməlin çoxlu savablarına işarə olunur.

İmam Sadiq (ə) buyurur: **"Hər kim dini qardaşını Allaha xatir ziyarət etsə, Allah ona buyurar: Bəndəm! Məni ziyarət etdin, savabın Mənim öhdəmdədir. Mən, sənin əməlinin savabında Behiştdən başqa bir şey bəyənmirəm!"**

Başqa rəvayətdə İmam Baqir (ə) buyurur: **"Müsəlman, qardaşını ziyarət etməkdən ötrü evindən xaric olsa və onun bu işi yalnız, Allahın razılığını ələ gətirməkdən ötrü olsa, Allah-taala, yetmiş min Mələikəni**

[1] Üsuli-Kafi, cild 2, səh 166.
[2] Ali-İmran surəsi, ayə 103.
[3] Mühəccətul beyza, cild 3, səh 331.

O gələcək...

ona vəkil edər. Mənzilinə qayıdarkən səsləyərlər: Xoş halına! Behişt sənə şirin olsun!"[1]

İslam dini, müsəlmanların belə gözəl göstərişlərlə vəhdət və birliyinə zəmanət vermişdir. Belə göstərişlər sayəsində möminlər şirin həyat tərzi keçirirlər.

Həzrət Əlinin (ə) nəzərində qardaşlar və onların vəzifələri

Əmirəl-möminin Əli (ə) buyurur: **"Qardaşlar iki dəstədirlər: Birinci: İnanılmış və həqiqi qardaşlar. İkinci: Zahiri qardaşlar. Amma, həqiqi qardaşlar insanın əli, qanadı və malı kimidirlər. Elə isə nə vaxt belə inanılmış qardaş tanıdın, malını onun yolunda bağışla. Əlinlə ona kömək et. Hər kimlə dostdursa dost ol, hər kimlə düşməndirsə, ona düşmən ol! Sirrini saxlayıb, eybini gizlət, yaxşılıqlarını aşkar et. Bil ki, onlar, qırmızı kibritdən də az tapılandırlar. Lakin, zahiri qardaşlardan yalnız, zahirdə bəhrələn və istifadə et. Bu yolda onlardan rabitəni üzmə. Ancaq, olanların batinindən bundan artıq bir şeyin intizarında olma! Onların şirin danışıq və rəftarı müqabilində, yaxşı rəftar edib şirin danış!"**

Bu bəyanda Həzrəti Əli (ə) insanların həqiqi və zahiri dostları müqabilindəki vəzifəsini təyin edir. Onlardan bəhrələnmə və vəzifə yollarını tanıtdırır. Yaxşı dostlardan ötrü mal, can və köməklərindən keçməli, zahiri dostlara isə gündəlik həyatda zahiri rəftarla kifayətlənməliyik.

QARDAŞLIQDA İNSAFA RİAYƏT ETMƏK

Həzrəti Əli (ə) buyurur: **"Qardaşlıq əlaqəsi, insaf və ədalətli rəftarla davam tapa bilər."**[2]

Həzrət Məhəmməd (s) yeddi yaşında süd anası Həlimə Sədiyyəyə buyurur: **Qardaşlarım hardadırlar?** Cavab verir: **Əziz övladım! Onlar, Allahın sənin vücuduna xatir bizə mərhəmət etdiyi qoyunları otarırlar.** Həzrət buyurdu: **Anacan mənim barəmdə insafla rəftar etməmisən!** Anası soruşur: **Nəyə görə?** Buyurdu: **Məgər layiqdir ki, mən xeymədə oturub süd içəm, amma qardaşlarım biyabanda günün altında qalsınlar.**[3]

---

[1] Mühəccətul beyza, cild 3, səh 177.
[2] Müstədrəkül Vəsail, cild 2, səh 61.
[3] Əl-Hədis, cild 1, səh 285.

O gələcək...

Bu mövzuda yenə də İslam Peyğəmbəri (s) buyurur: "**Əməllərin ağası üçdür: İnsafa riayət etmək Allah yolunda qardaşa kömək etmək, hər halda Allahı zikr etmək!"**[1]

İMAM SADİQİN (ə) NƏZƏRİNDƏ QARDAŞLAR

İmam Sadiq (ə) buyurur: **"Qardaşlar üç dəstədirlər. Bir dəstə qida hökmündə olub, insanın ona həmişə ehtiyacı vardır. Bu dəstə şəxslər aqillərdir. İkinci, o dostlar ki, insan üçün dərd və xəstəlik kimidirlər. Bu cür insanlar nadanlar və ağılsızlardır. Üçüncü: Şəfa verən dərmanlar kimidirlər. Belə şəxslər, aqil və zirəkdirlər."**

Qardaşın hüquqları bəhsinin sonunda İslam Peyğəmbərindən (s) mömin qardaşın möminin üzərində olan otuz ədəd haqqını zikr etmək yerinə düşərdi. Bəlkə də, bu rəvayət, həmin mövzuda ən geniş və ətraflı rəvayətdir.

İSLAM PEYĞƏMBƏRİNİN (s) NƏZƏRİNDƏ QARDAŞIN OTUZ HAQQI

İslam Peyğəmbəri (s) buyurur: **"Müsəlmanın müsəlman qardaşının üzərində otuz haqqı vardır. Hər bir müsəlman bu hüquqları yerinə yetirməyib və ya müsəlman qardaşından bunlar barəsində halallıq almayınca, qiyamətdə üzrlü olmaz: Onun xətalarını bağışlasın. Narahatçılıq zamanı ona qarşı mehriban olsun. Sirrini gizlin saxlasın. Səhvlərinin əvəzini çıxsın. Üzrünü qəbul etsin. Pis danışanların müqabilində onu müdafiə etsin. Həmişə onun xeyrini istəsin. Onunla dostluğu qorusun. Onunla əhdinə riayət etsin. Xəstələnən vaxtı onu yoxlasın. Ölən vaxtı onun dəfnində olsun. Dəvətini qəbul etsin. Hədiyyəsini qəbul etsin. Xeyirxahlığını qiymətləndirsin. Onun nemət olmasına şükür etsin. Ona kömək etməyə çalışsın. Onun namusunu qorusun. Onun istəyini yerinə yetirsin. İstəyinə şəfaət etsin. Asqıran vaxtı onu salamlasın. İtirdiyini tapmaqda kömək etsin. Salamına cavab versin. Danışığını yaxşı bilsin. Hörmətini saxlasın. Andlarını təsdiq etsin. Dostunu dost tutsun. Onunla düşmənçilik etməsin. İstər zalım, istərsə də məzlum olsa, ona kömək etməyə çalışsın. Zalım vaxtı**

[1] Müstədrəkül Vəsail, cild 2, səh 308.

O gələcək...

onu zülm etməkdən saxlamaqla kömək etsin. Məzlum olan vaxtı ona haqqını almaqda kömək etsin. Onu müxtəlif hadisələrdə tək qoymasın. Özünə istədiyi yaxşılıqlardan ona da istəsin. Özünə istəmədiyi pisliyi ona da istəməsin.

ÜMUMİ HÜQUQLAR

26. KÖLƏ AZAD EDƏNİN HAQQI

وَأَمّا حَقُّ الْمُنْعِم عَلَيْكَ بالْوِلاءِ فَأَنْ تَعْلَمَ أَنَّهُ أَنفَقَ فيكَ مَالَهُ، وَأَخرَجَكَ من ذُلِّ الرِّق وَوَحْشَته إِلَى عزِّ الْحُرِّيَة وأُنسها، وَأَطْلَقَكَ منْ أَسْرِ الْمِلْكة، وَفكَّ عَنْكَ حلَقَ الْعُبُودِيَّة وَأَوْجَدَكَ رَائحَة الْعزِّ، وَأَخرَجَكَ منْ سجْنِ الْقَهْرِ، وَدَفَعَ عَنْكَ الْعُسْرَ، وبَسَطَ لَكَ لَسَانَ الإِنْصَافَ، وَأَبَاحَكَ الدُّنْيَا كُلَّهَا فَمَلَّكَكَ نفْسَكَ، وَحَلَّ أَسْرَكَ، وَفرَّغَكَ لعبَادَة رَبكَ، وَاحْتَمَلَ بذَلكَ التَّقْصيرَ في مَاله، فَتَعْلَمَ أَنَّهُ أَوْلَى الخَلْق بكَ بَعْدَ أُولي رَحمكَ في حَيَاتكَ وَمَوْتكَ، وَأَحَقَّ الخَلْق بنَصْرِكَ وَمَعُونَتكَ وَمُكَانفَتكَ في ذات اللهِ، فَلاَ تُؤثرْ عَلَيْه نفْسَكَ مَا احْتَاجَ إِلَيْكَ.

“Sənə azadlıq neməti bağışlayıb azad edənin haqqı odur ki, biləsən, o, öz malını sənin azad olmağına xərcləməklə, səni köləlik və onun vəhşətindən azadlıq izzətinə və aramlığa çıxartdı. Səni mülk olmaq əsirliyindən xilas edib, köləlik halqalarını boynundan kənarlaşdırdı. Sənin izzətinə səbəb odur. Səni, qəhr zindanından azad edib, çətinliklərdən qurtardı. Ədalət dilini sənə açdı. Bütün dünyanı sənə mübah etdi. Əsirlikdən azad edib azadlıq ixtiyarının cilovunu sənin əlinə verdi. Rəbbinə itaət etməkdən ötrü sənə aramlıq verdi. Öz malının azalmasına dözdü. Elə isə, qohumlarından sonra insanlar arasında, həyatında və ölümündə sənə ən yaxın adam odur. Allah yolunda kömək olunmalı ən layiqli şəxsdir. Elə isə, nə qədər ki, möhtacdır özünü ondan qabağa salma!”

Bu bəhsdə İmam Səccad (ə) azad olunmuş köləyə xəbərdarlıq edir ki, səni öz pulu və sərvəti ilə azad edən şəxs, köləliyin vəhşətindən, başqalarının köləliyindən, başqalarının sənin üstündə malik olmasından, iqtisadi müstəqillik, əqidə və fikir azadlığı, başqalarından xilas olub yalnız, Allaha bəndə olmaq azadlıqlarını sənə bəxş etmişdir. Belə şəxsin, azad olunmuş kölənin boynunda haqqı vardır. O da köməklik haqqıdır. Kölə, heç bir vaxt belə şəxsdən qabağa düşməməli və hər yerdə onun ehtiramını gözləməlidir.

Biz keçmiş bəhslərdə, malik və kölənin hüquqları, köləliyin yaranması, tarix boyu kölələrin əziyyətləri, onların azadlığa çıxması amilləri, xüsusilə, İslamda köləliklə mübarizə və tədriclə azadlığa dəvət barəsində geniş bəhs etmişik. Bu bəhsdə onları təkrar etmək deyil, yalnız, digər mövzulara o cümlədən, azadlıq, əqidə azadlığı, fikir azadlığı, məkan seçmək və sair barəsində bəhs edəcəyik.

O gələcək...

FİKİR AZADLIĞI

Fikir azadlığı, bəşərin ən əsas hüquqlarından biri sayılır. Hər bir insanın fikirləşməyə və təfəkkürə dalmaqda haqqı var. Fikir azadlığından məqsəd budur ki, hər bir insanın haqqı var ki, istədiyi hər bir mövzu barəsində fikirləşsin. Heç kimin haqqı yoxdur ki, insanın fikir və etiqadlarını nəzarətə alıb, ona bu işdə mane olsun.

Əgər deyilsə ki, kölənin cismi, malikin ixtiyarındadır, lakin malikin kölənin etiqad və fikirləşməsinə mane olmağa ixtiyarı yoxdur. Kölə fikir və etiqad cəhətdən azaddır. Aydındır ki, kölənin azad fikirləşməsinə şərait yolu yoxdur. Əgər fərz etsək ki, kölə azad fikirləşir amma, görəsən imkan var ki, bu fikirlərini həyata keçirə bilsin? Heç vaxt! Beləliklə, İmam Səccad (ə) buyurur: **"Səni azad edən, səni başqalarının köləliyindən nicat verib, başqalarının qəhrində vaqe olmaqdan xilas edən odur."** Bununla, belə bir mövzuya işarə edir ki, azadlıqdan sonra azad fikirləşib onu həyata keçirə bilərsən. Beləliklə, demək olar ki, kölə azad olmaqla, fikri azadlığı da əldə edir.

İslam dini öz tərəfdarlarına azad fikirləşmək hüququnu verib, təhqiq və mütaliə yolunu onlara izah etmişdir. Həzrəti Əli (ə) bu barədə buyurur:

"Hər kim müxtəlif fikirlər və nəzərlərlə üzbəüz olsa, xəta və səhvi tanıyıb, haqla batili bir-birindən ayıra bilər. Bu fikirlərin düzgünlüyünü və səhvini anlayar."

İslamda etiqadı və fikirləri zorla ram edib, qarşısını almamaqla yanaşı, insanın vəzifəsini və dəyərini onların ağlı, biliyi və təfəkkürünə əsasən təyin edir. Hədisdə var: **"Bir saat fikirləşmək yetmiş ilin ibadətindən üstündür."**

Quran bir çox ayələrdə insanları təfəkkür və azad fikirləşməyə dəvət edir və bu haləti, bəşərin ən yaxşı xüsusiyyəti kimi qeyd edir. Quran buyurur:

"O kəslər ki, sözü (öyüd nəsihəti) dinləyib onun ən gözəlinə (düzgününə) uyarlar. Onlar Allahın doğru yola yönəltdiyi kimsələrdir. Ağıl sahibləri elə onlardır!"[1]

Başqa ayədə buyurur: **"Məgər korla görən eyni ola bilərmi? Bəs nəyə görə təfəkkür etmirsiniz?"**[2]

[1] Zumər surəsi, ayə 18.
[2] Ənam surəsi, ayə 50.

O gələcək...

ETİQAD AZADLIĞI

Keçmiş əqidələr və insanların məzhəb etiqadları müxtəlif xüsusi müqəddimatlar əsasında vücuda gəlir. Təlim və tərbiyə növləri, fikir və etiqadların digər amillərindəndir. Fikir və etiqadı dəyişməkdən ötrü məcburiyyət və zorla deyil, məntiq və tutarlı dəlillərdən istifadə etmək lazımdır. Necə ki, Quran əqidə azadlığı barəsində buyurur:

"Dində məcburiyyət və zorakılıq yoxdur. Artıq doğruluq (iman) azğınlıqdan (küfrdən) aydın fərqlənir.[1]

Başqa surədə buyurur: **"Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları iman gətirməyə sənmi məcbur edəcəksən?"**[2]

Yenə başqa yerdə buyurur: **"Və de ki: Haqq Rəbbinizdəndir. Kim istəyir inansın, kim istəyir inanmasın (kafir olsun). Biz, kafir və zalimlərdən ötrü bir atəş hazırlamışıq."**[3]

Həmin mövzuda başqa ayədə oxuyuruq: **"Ya Peyğəmbər! Mənim bəndələrimə öyüd-nəsihət ver. Sən ancaq öyüd verənsən. Sənin onları ikrah və məcbur etməyə haqqın yoxdur."**[4]

Yenə də başqa ayədə buyurur: **"(De ki:) Rəbbinizdən sizə çoxlu parlaq dəlillər gəlmişdir. Kim (onları) görsə, lehinə, kim görməsə, əleyhinədir. Mən sizə nəzarətçi deyiləm."**[5]

Zikr olunan ayələr insanda əqidə azadlığından söz açır. Dində məcburiyyət və zorakılıq yoxdur. Etiqad seçmək də azaddır. Lakin İslam ağıl, məntiq, elm və təhqiq dini olduğuna görə kor-koranə təqlidlərinin qarşısını alır. Allahdan qeyrisinə, aya, günəşə, ulduzlar və inəklər kimi məxluqatlara ibadət və pərəstiş etməyi bəşərin cəhalətinin nəticəsi kimi qələmə verir və hamını elmə tərəf dəvət edir.

MALİKİYYƏT AZADLIĞI

İmam Səccad (ə) azad olunmuş köləyə buyurur: Səni azad edən malik, dünyada istədiyinə (halal yolla) malik olmağı sənə mübah etmişdir.

---

[1] Bəqərə surəsi, ayə 256.
[2] Yunus surəsi, ayə 99.
[3] Kəhf surəsi, ayə 29.
[4] Ğaşiyə surəsi, ayə 21-22.
[5] Ənam surəsi, ayə 104.

O gələcək...

Sənə fikir, əqidə, söz və malikiyyət azadlığı bağışlamışdır. Beləliklə, azad olunmuş kölə, mal-dövlətə malik olmasında da, tamamilə azaddır.

Məlum olduğu kimi fərdi malikiyyət, insanın fitrətindən qaynaqlanır və həyatın rövnəqli olmasında, insanda ürək isintisi yaradır. İslam da, fərdi malikiyyəti müqəddəs bilib, öz qanunlarında tamamilə bu hüquqdan himayə etmişdir. Quran buyurur:

"Kişilərin öz qazandıqlarından öz payı, qadınların da öz qazandıqlarından öz payları vardır."[1]

Bununla da, məlum olur ki, İslamda hər kim halal yolla nə qədər mal-dövlət qazanarsa, öz haqqı sayılır. Quran yenə də bu mövzuda buyurur:

"Ey iman gətirənlər! Qarşılıqlı razılıqla edilən alış-veriş müstəsna olmaqla, bir-birinizin mallarınızı haqsız bəhanələrlə yeməyin! "[2]

Beləliklə, halal zəhmətdən qazanılmış mal halal olub, insanın şəxsi malı sayılır. Hədislərdə var, əgər müsəlman öz halal mal-dövlətini qorumaq yolunda öldürülsə, şəhid hökmündədir. Rəvayətdə, məsum İmamdan (ə) nəql olunur, buyurur:

"Hər kim mal-dövlətini qorumaq yolunda ölsə, şəhiddir."[3]

Əlbəttə, bir məsələ də aydındır ki, malikiyyət azadlığı o demək deyil ki, hər kəs istədiyi yolla mal-dövlət toplasın. Bəli! Əkinçilik, heyvandarlıq, ticarət, sənətkarlıq və bu kimi digər sənətlərlə qazanılan mal-dövlət, insanın öz malı sayılır. Ancaq, qanunsuz yollarla, o cümlədən, oğurluq, al-verdə aldatma, çəkidə azaltma, sələmçilik, qəsb etmək kimi yollarla ələ gələn mal-dövlət, sahibininki sayılmır və İslam belə hallarla qəti şəkildə mübarizə aparır. Həmçinin, insanın halal yolla qazandığı mal-dövlətin İslami maliyyatları və vergiləri da vardır. Əgər müsəlman bu dini və şəri vergiləri öz halal mallarından ayırıb müstəhəqqinə verməsə, (məsələn, xums, zəkat və s), aşağıdakı zikr olunacaq Quran ayəsinin aydın nümunəsi hesab olunacaq. Quran buyurur:

"Qızıl-gümüş yığıb onu Allah yolunda xərcləməyənləri şiddətli bir əzabla müjdələ!" "O gün (Qiyamət günü), yığdıqları qızıl-gümüş Cəhənnəm atəşində qızdırılıb alınlarına, böyürlərinə və kürəklərinə dağ basılacaq. (və onlara:) Bu sizin özünüz üçün yığıb saxladığınız mallardır. Yığdığınızın (əzabın) dadın! - deyiləcəkdir."[4]

---

[1] Nisa surəsi, ayə 32.
[2] Nisa surəsi, ayə 29.
[3] İslam və huquqe bəşər, səh 316.
[4] Tövbə surəsi, ayə 34-35.

O gələcək...

Bura kimi kölənin azad olması, malikin hüququ, etiqad, malikiyyət, fikir və söz azadlıqları barəsində bəhs olundu. İmam Səccad (ə) azad olunmuş kölənin vücudunda təşəkkür və nemətlər müqabilində Allaha şükr etmək hissini oyadır. Bununla da, ona xəbərdarlıq edir ki, malikin sənin barəndə etdiyi bu mühüm xeyirxahlığı heç vaxt unutma!

27. AZAD OLUNMUŞ KÖLƏNİN HAQQI

وَأَمَّا حَقُّ مَوْلاكَ الْجَارِيَةِ عَلَيْهِ نِعْمَتُكَ فَأَنْ تَعْلَمَ أَنَّ اللهَ جَعَلَكَ حَامِيَةً عَلَيْهِ، وَوَاقِيَةً وناصِرًا وَمَعْقِلا، وَجَعَلَهُ لَكَ وَسِيلَةً وَسَبَباً بَيْنَكَ وَبَيْنَهُ فَبالْحَرِيِّ أَنْ يَحْجُبَكَ عَنِ النَّارِ فَيَكُونَ فِي ذَلِكَ ثَوَابٌ مِنْهُ فِي الآجِلِ، وَيَحْكُمُ لَكَ بِمِيرَاثِهِ فِي الْعَاجِلِ إِذَا لَمْ يَكُنْ لَهُ رَحِمٌ، مُكَافَأَةً لِمَا أَنْفَقْتَهُ مِنْ مَالِكَ عَلَيْهِ وَقُمْتَ بِهِ مِنْ حَقِّهِ بَعْدَ إِنْفَاقِ مَالِكَ، فَإِنْ لَمْ تَقُمْ بِحَقِّهِ خِيفَ عَلَيْكَ أَنْ لا يَطِيبَ لَكَ مِيرَاثُهُ. وَلاَ قُوَّةَ إِلَا بِاللهِ.

“Sənin azad etdiyin kölənin haqqı budur ki, biləsən, Allah, səni onun köməkçisi, himayəçisi və pənah yeri qərar vermişdir. Allah, səni onunla Özü arasında vasitə təyin etmişdir. Yaxşı olar ki, bu işə görə Allah, sənə Cəhənnəmdən nicat versin və bu savab, Axirətdə ondan sənə çatan olsun. Dünyada da, əgər azad etdiyin kölənin öləndə varisi olmasa, ondan irs aparırsan. Çünki, sən malını onun yolunda xərc etmisən və onun haqqını qaytarmısan. Əgər malını onun yolunda xərc etdikdən sonra onun hörmətini gözləməsən (minnət qoysan), ondan sənə qalan irs sənin üçün şirin olmaz”!

“Məkarimul-Əxlaq” kitabında bu hüquq belə bəyan olunmuşdur.

“Azad etdiyin kölənin haqqı odur ki, biləsən, Allah-taala Özünə yaxın olmaqdan ötrü onun azad olunmasında səni vasitə qərar vermişdir. Həmçinin, onu atəşlə sənin aranda maneə qərar vermişdir. Bil ki, bu işin mükafatı dünyada malını ona görə xərc etdiyin üçün (əgər kölənin qohumu olmasa) öləndən sonra irsi sənə çatması, Axirət də isə Behiştdir.”

Hədisdə “Məvali” kəlməsi təkrar olmuşdur. Bu ad bir sıra yerlərdə müxtəlif mənalarda işlənilir. Onlardan, rəbb, malik, seyyid, nemət verən, azad olunmuş nasir, sevilən, tabe, qonşu, bibi oğlu, nemət verilmiş və sair mənaları qeyd etmək olar.

Bu hədisdə “Məvali” kəlməsi, **“azad olunmuş kölə”** mənasındadır. Əvvəlki bəhsdə İmam Səccad (ə) kölə azad edənin haqqı barəsində məsələlər buyurmuşdur. Bu bəhsdə isə azad olunmuş kölənin hüquqları barəsində bəhs olunmuşdur.

O gələcək...

İnsan mümkündür ki, başqasına xidmət göstərib bağışladığı zaman özündə qürur və təkəbbür hiss edib, minnət qoysun. İmam Səccad (ə) kölə azad edən malikdə bu qürur və təkəbbürü aradan aparmaqdan ötrü buyurur:

"Heç vaxt güman etmə ki, təkcə sənin onun boynunda haqqın var! Xeyr! Bəlkə də, onun da, (azad olunmuş kölənin) sənin üzərində haqqı vardır. Onu əda etməlisən."

AZAD OLUNMUŞ KÖLƏNİN VƏZİFƏLƏRİ

O vəzifələr bunlardan ibarətdir: Sən onu azad etməklə, Allaha yaxın olursan. Bununla da, onun vasitəsilə sənlə Cəhənnəm atəşi arasında fasilə olur. Axirətdə də, nicat tapanlardan olursan. Bu əməlin dünyadakı təsiri budur ki, əgər azad etdiyin kölə dünyadan köçsə və qohumlarından heç kəs qalmasa, yerdə qalan irsi sənə çatır. Çünki, ondan ötrü mal-dövlətini xərcləmisən. Bu da, kölə bəhsində şəri hökmə işarədir.

Köləni azad edən malik o vaxt ondan irs aparır ki, əvvəla, köləni Allahın razılığına görə azad etmiş olsun. İkincisi, kölənin yaxın qohumları olmamış olsun. Nəticədə, köləni azad etməyin həm bu dünyada, həm də axirətdə mükafatı olur.

Keçən bəhslərdə, kölə azad etməyin savabları barəsində söhbət açmışdıq. Bu bəhsdə isə qısa da olsa, kölənin bəzi hüquqlarına işarə edəcəyik. İndi də bu barədə nəql olunan rəvayətlərə nəzər salaq.

KÖLƏ AZAD EDƏNİN MƏQAMI

"Vəsail-Şiə" kitabının **"kölə azad etmək"** fəslində İmam Baqirdən (ə) belə bir rəvayət nəql olunur, Həzrət İslam Peyğəmbərindən (s) nəql edir, buyurur:

"Hər kim kölə azad etsə, Allah-taala, azad olunmuşun hər bir bədən üzvü müqabilində azad edənin bədən üzvünü atəşdən qoruyar."

Başqa hədisdə İmam Sadiqdən (ə) nəql olunur buyurur:

Günlərin birində Fatimə binti Əsəd İslam Peyğəmbərinə (s) ərz edir: Qərara almışam ki, bu kənizi Allah yolunda azad edəm! Peyğəmbər (s) buyurdu: Əgər belə etsən, Allah-taala onun hər bir üzvü müqabilində sənin üzvünü Cəhənnəm odundan azad edər.

O gələcək...

ŞİƏLƏRİN İMAMLARI VƏ KÖLƏLƏRİ AZAD ETMƏK

Hədislərdən birində oxuyuruq, İmam Sadiq (ə) buyurur:

"İmam Baqir (ə) vəfat edərkən altımış köləsi var idi, onlardan iyirmisini Allah yolunda azad edir."

Şiələrin məsum İmamları (s) özləri hər yerdə və zaman kölə azad etməkdə öndə getməklə, dünya və axirətin savabını öz tərəfdarlarına nişan verirdilər.

28. EHSAN EDƏNİN HAQQI

وَأَمّا حَقُّ ذي المَعْرُوف عَلَيكَ فَأَنْ تَشْكُرَهُ وتَذْكُرَ مَعْرُوفَهُ وتَنْشُرَ لَهُ الْمَقَالَةَ الْحَسَنَةَ، وَتُخلصَ لَهُ الدُّعَاءَ فيمَا بَينَكَ وبَيْنَ اللّه سُبْحَانَهُ، فَإنّكَ إذَا فعَلْتَ ذلكَ كُنْتَ قَدْ شَكَرْتَهُ سِرًّا وَعَلانيَةً. ثُمَّ إنْ أمْكنَ مُكافَأتَهُ بالفعْلِ كَافأتَهُ وإلاّ كُنْتَ مُرْصِدًا لَهُ مُوطنًا نَفسَكَ عَلَيْهَا.

"Sənə yaxşılıq və ehsan edənin haqqı odur ki, ona təşəkkür edəsən və yaxşılığını yada salasan. Onun barəsində yaxşı sözlər yayıb, özünlə Allah arasında ona dua edəsən. Çünki, sən bu işinlə ona qarşı gizlin və aşkarda təşəkkür etmiş olursan. İmkan tapdıqda, onun yaxşılığının əvəzini çıx. İmkanın olmasa belə, bu fikirdə olmaqla, özünü belə bir işə hazırlaşdır!"

Hər bir insanın batinində ona yaxşılıq edənə qarşı təşəkkür və yaxşılıq etmək xüsusiyyəti var. Əgər bəzilərində bunun əksi müşahidə olunursa, bu da onların vücudunda olan rəzilət sifətlərinin nəticəsindəndir. Bu sifətlər, insanda yaxşı xüsusiyyətlərin qarşısına sədd çəkir. Doğurdan da, yaxşı tərbiyə olunmuş və İslam dininin bəyənilmiş əxlaqi xüsusiyyətlərinin özündə cəm etmiş bir şəxsin batinində, daim yaxşılıq və başqalarına qarşı təşəkkür hissi dolaşır. Belə şəxslər, Allahdan fürsət axtarırlar ki, möminlərin xidmətində olsunlar. İmam Səccad (ə) bu əməlin yolunu belə bəyan etmişdir:

Birinci: Yaxşılıq edənin xeyir işinin müqabilində təşəkkür edilsin.

İkinci: Başqasının yaxşılığını yadında saxla və hər yerdə onun xeyir işini təbliğ et. Həmçinin, onun haqqında Allaha dua et! Əgər belə etmiş olsan, gizlin və aşkarda onun təşəkkürünü yerinə yetirmiş olursan.

O gələcək...

Üçüncü: Özünü bu yaxşılığın əvəzini çıxmağa hazırlaşdır. İmkan həddində özündə belə bir təsəvvür yarat ki, nə vaxt imkanın olsa, bu yaxşılığın əvəzini çıxacam.

YAXŞILIQ VƏ PİSLİK BƏRABƏR DEYİLDİR

Qurani-Kərim öz əxlaqi təlimində belə buyurur:

"Yaxşılıqla pislik eyni ola bilməz. (Ey mömin kimsə!) Sən pisliyi yaxşılıqla dəf et. Belə olduqda, aranızda düşmənçilik olan şəxsi sanki, yaxşı bir dost kimi görərsən!"[1]

Ayədə buyurur: Yaxşılıq müqabilində yaxşılıq təbii bir işdir. Bəlkə də, bu əməl hamıya vacibdir. Mühüm odur ki, insana hətta, pislik olunsa da, onun müqabilində yaxşılıq göstərsin. Bununla da Quranın, **"Pisliyi yaxşılıqla dəf et!"** - əmri öz yerini tutsun.

SALAMA ONDAN DA YAXŞI CAVAB VERİN

Qurani-Kərimdə oxuyuruq: **"Sizə salam verildiyi zaman onu daha gözəl alın və ya (eynilə sahibinə) qaytarın! Şübhəsiz Allah hər şeyi hesaba alandır!"**[2]

"Təhiyyət" (salam) lüğətdə, əslində "həyat" və başqalarına həyat istəmək mənasındadır. Bu dua, **"Salamun Əleykə"** və ya **"Həyyakəllah"** şəklində əda olunur. Bu söz insanların bir-birinə qarşı göstərdikləri hər növ məhəbbətə aid olur. Ən aydın nümunəsi isə həmin, "Səlamun Əleykə" deməkdir. Lakin, bir sıra rəvayət və təfsirlərdən məlum olur ki, insanın əməli cəhətdən bir-birinə məhəbbət göstərməsi də, "Təhiyyət" sözünün mənasında işlənilir.

Əli ibn İbrahimin təfsirində İmam Baqir və İmam Sadiqdən (ə) nəql olunur:

Ayədə "təhiyyətdən" məqsəd, salam və hər cür yaxşılığa deyilir. "Mənaqib" kitabında belə bir rəvayət var:

Kənizlərdən biri İmam Həsənə (ə) bir şaxə gül hədiyyə edir. İmam onun müqabilində kənizi azad edir. Bu işin səbəbini soruşduqda isə buyurur: Allah-taala buyurur: **"Sizə salam verildiyi zaman onu daha gözəl alın!"** Sonra əlavə edir: **Ən yaxşı salam, kəniz azad etməkdir".**

[1] Fussilət surəsi, ayə 34.

[2] Nisa surəsi, ayə 86.

O gələcək...

Beləliklə, ayədə ümumi olaraq hər cür izhar məhəbbətə, istər sözlə, istərsə də əməllə olsun, hökm verilir ki, daha yaxşı cavab verin.[1]

YAXŞILIĞIN MÜKAFATI YAXŞILIQDIR

Qurani-Kərim buyurur: **"Yaxşılığın əvəzi ancaq yaxşılıqdır"**[2]

Doğrudur ki, İslami rəvayətlər və təfsirlərdə müfəssirlər ehsan sözünü yalnız, tövhid və İslami mərifət mənasında olduğunu qeyd edirlər. Lakin, bütün bunlar ayənin aydın nümunələrindəndir. Yoxsa, yaxşılıq həm əməldə, həm də sözdə olan hər bir xeyir işə aid olur. İmam Sadiqdən (ə) hədislərdən birində nəql olunur, buyurur:

"Quranda mənası ümumiyyət çatdıran ayələr çoxdur. Ravi soruşur: Hansı ayədir? Buyurur: Allahın bir sözü var ki, mömin, kafir, yaxşı əməl sahibi, pis iş görənə də aiddir. O, da yaxşılıq müqabilində yaxşılıqdır. Hər kimə yaxşılıq olunsa, yolu bu deyil ki, sən də ona yaxşılıq edəsən, bəlkə də, ona daha yaxşı yaxşılıq etməlisən. Çünki, həmin qədər olsa, o səndən üstündür. Ona görə ki, işi başlayan odur.[3]

Rağib İsfahani, "Müfrədat" kitabında yazır: "Ehsan", ədalətdən üstündür. Çünki, ədalət odur ki, insan boynunda olanı ədа etsin və yalnız, ona aid olanı götürsün. Lakin, ehsan budur ki, öhdəndə olandan çox verib, haqqından az götürəsən.

ALLAHIN EHSANININ CAVABI

Allah-taala Quranın Qəsəs surəsində buyurur: **"Allahın sənə verdiyindən özünə axirət qazan. (Malını Allah yolunda sərf et!) Dünyanın nəsibini də unutma!"**

Bu bir həqiqətdir ki, insan həmişə gözünü Allahın ona ehsan əta etməsinə dikib. Onun dərgahından hər cür xeyiri tələb edir. Allahdan hər növ intizarı var. Belə olan halda necə ola bilər ki, Allah-taala aşkar tələbi və ya başqa tələbləri görməyərək onlara əhəmiyyət verməsin. Bu sözə oxşar Nur surəsinin 22-ci ayəsində var, buyurur:

"Möminlər əfv edib bağışlasınlar. Məgər siz Allahdan bağışlanmağı istəmirsinizmi?"

---

[1] Təfsiri nümunə, cild 4, səh 42.

[2] Ər-Rəhman surəsi, ayə 60.

[3] Təfsiri Nuru Səqəleyn, cild 5, səh 199.

O gələcək...

Bu cümləni başqa ifadə ilə belə məna etmək olar. Bəzən, Allah-taala insana elə əzəmətli nemət bəxş edir ki, insanın onların hamısına ehtiyacı yoxdur. Elə bir əqli qüvvə verir ki, təkcə özünü yox, bütöv bir ölkəni idarə edə bilər. Elə bir elm verir ki, təkcə özü yox bəlkə də, bütün insanlar ondan istifadə edə bilər. Elə mal-dövlət verir ki, bütün dünyanm dərdinə dəyər. Belə İlahi bəxşişlərin zehni mənası odur ki, onun hamısı sənin deyildir. Bəlkə də, sən bunları başqalarına ötürməkdə Allahın vəkilisən. Allah bu nemətləri sənə verib ki, sənin əlinlə bəndələrinə çatdırsın![1]

BAŞQALARI İLƏ DOSTLUQ ETMƏK

Qeyd olunan ayələrdən məlum olur ki, Quran başqalarına yaxşılıq etməyin nə qədər mühüm olduğunu bildirir. Xüsusilə o kəslərə ki, bizlərə yaxşılıq edirlər. Hədis kitablarında da, bu mövzuda maraqlı hədislər qeyd olunub. Onlardan bəzilərinə işarə edirik. "Kafi" kitabında insanlara məhəbbət fəsli adlı hissəsində ilk rəvayətdə belə nəql olunur: İmam Baqirdən (ə) nəql olunur, buyurur:

"Bəni Təmim" qəbiləsindən bir nəfər ərəb İslam Peyğəmbəri (s) hüzuruna gələrək, ərz edir: Mənə tövsiyə edin! Həzrətin ona buyurduğu tövsiyələrdən biri də bu idi. **İnsanlara qarşı dostluq və məhəbbətli ol ki, səni də sevsinlər.**[2]

İmam Sadiqdən (ə) nəql olunur, buyurur: **"İnsanlarla yaxşı rəftar etmək, ağılın üçdə bir hissəsidir.**[3]

İslam Peyğəmbəri (s) buyurur: **"Hər kimə yaxşılıq olunsa, onun əvəzini çıxmalıdır. Əgər imkanı olmasa, xatırlamalıdır. Əgər xatırlasa, ehsan edənə təşəkkür etmişdir."**[4]

Başqa yerdə İslam Peyğəmbəri (s) buyurur:

"Bu əmələ ləyaqəti olan və olmayana da yaxşılıq et! Əgər ləyaqətli şəxsə yaxşılıq etmisənsə, bu ona layiqdir, yox əgər ləyaqətsizə yaxşılıq etmisənsə, sən özün bu yaxşılığa layiqsən."[5]

Bəhsimizin sonunda İmam Səccadın (ə) ifadəsində gələn "məruf" kəlməsini izah edək. "Məruf" sözü, hər bir işin yaxşı olması, ağıl və

[1] Təfsiri nümunə, cild 16, səh 157.
[2] Üsuli-kafi, cild 2, səh 642-643.
[3] Üsuli-kafi, cild 2, səh 642-643.
[4] Üsuli-kafi, cild 2, səh 642-643.
[5] Tərcume və şərhe risalətul hüquq, Sipehri, səh 149.

O gələcək...

şəriətlə sabit olmasına deyilir. Həmçinin, o şəxsə "məruf" deyilir ki, Allah adamı olub, vacib və müstəhəb işlərdə insanlara kömək etmiş olsun.

"Məruf" sözü "münkər" sözünün ziddidir. "Məruf" şəriət və ağılla vacib və müstəhəb sayılan əməllərə məxsusdur. Lakin, mübaha məruf deyilməz. Çünki, mübah (ixtiyarı iş) hər cür üstünlükdən boşdur.[1]

Üstünlüyü olmayan əməldə isə xeyir yoxdur. Məruf nə varsa, xeyirdir. İbni Abbasdan nəql olunan hədisdə oxuyuruq:

"Məruf və tanınmış saleh şəxslər Qiyamət günü məhşərə daxil olarlar. Məruf olduqlarına görə günahlarının hamısı bağışlanmış, yaxşılıqları isə yerində qalmışdır. Ehsanları o şəxsə verərlər ki, günahları yaxşılıqlarından çox olar və yaxşılıqlarına görə bağışlanar. Sonra hamısı Behiştə daxil olarlar. Beləliklə, insanlar barəsində ehsan və yaxşılıq hamını, dünya və Axirətdə cəmləşdirəcək. Budur ehsan və yaxşılıq edənin haqqının ödənilməsi![2]

29. AZANÇININ HAQQI

وَأَمّا حَقُّ الْمُؤَذِّن فَأَنْ تَعْلَمَ أَنّهُ مُذَكِّرُكَ بِرَبكَ وَدَاعِيكَ إِلَى حَظِّكَ وَأَفْضَلُ أَعْوَانكَ عَلَى قَضَاءِ الْفَرِيضَةَ الَّتِي افتَرَضَهَا اللهُ عَلَيْكَ فَتَشْكُرَهُ عَلَى ذَلكَ شُكرَكَ لِلْمُحْسِنِ إِلَيكَ. وَإِنْ كُنْتَ فِي بَيْتِكَ مُهْتَمًّا لِذَلكَ لَمْ تَكُنْ للهِ فِي أَمْرِهِ مُتَّهِماً وَعَلِمْتَ أَنَّهُ نِعْمَةٌ من اللَّهِ عَلَيْكَ، لا شَكَّ فِيهَا، فَأَحْسِنْ صُحْبَةَ نِعْمَةِ اللَّهِ بِحَمْدِ اللَّهِ عَلَيْهَا عَلَى كُلِّ حَالٍ. وَلا قُوَّةَ إِلا بِاللهِ.

"Azan verənin haqqı budur ki, biləsən, Pərvərdigarını sənə xatırladıb, nəsibinə (bəhrənə) tərəf dəvət edir. Allahın sənə vacib buyurduqlarını yerinə yetirməkdə, sənə ən yaxşı köməkçidir. Onu, bu xidmətinə görə sənə ehsan edən kimi qiymətləndir. Onun Allaha görə etdiyi bu işdən bədbin olmamalısan. Sən bilirsən ki, şübhəsiz, o Allahın nemətidir. Allahın neməti ilə yaxşı rəftar et. Allah tərəfindən başqa heç bir güc və qüvvə yoxdur!"

İmam Səccadın (ə) bu bəhsdə buyurduqlarının xülasəsi budur ki, hər bir müsəlman bilməlidir ki, azan verənin onun üzərində haqqı vardır. Çünki, o, aşağıdakı mühüm işləri yerinə yetirir:

Birinci: İnsana, Rəbbini xatırladır.

İkinci: Namaz tərəfindən ona yetişən faydaya tərəf dəvət edir.

[1] Məsələm mənim qarşımda çay var, istəsəm içərəm, istəməsəm yox. Bu mübah işdir.
[2] Şərhe Risalətul Hüquq, Qapançı, cild 2, səh 57.

O gələcək...

Üçüncü: Allahın insana vacib etdiklərini yerinə yetirməkdə, ən yaxşı köməkdir. Beləliklə, ona elə təşəkkür etməlisən ki, ehsan edənin təşəkkürü kimi olsun. Əgər kimsə evində azan verənin işindən xoşu gəlmirsə, Allahın əmri olan bu işdə, ona bədbin olmamalıdır. Bunu da bilməlidir ki, azançı Allahın nemətlərindəndir. İnsan, Allahın nemətinə ehtiram etməlidir. Nemətə ehtiram, hər halda ona şükr etməklə ələ gəlir.

Gündəlik həyat işləri və məşğuliyyət, gecə-gündüz insanı özünə məşğul edir və onu Allahdan qafil edir. Azançı, Pərvərdigarın nida edəni hökmündə olub, insana maddi ləzzətlər içində qərq olmaqdan nicat verir. Özünün ruhu oxşayan nəğməsi ilə onun əlindən tutub, namazın əsası olan, kamal və səadətə tərəf çəkir. Fiqh və hədis kitablarında azan verən şəxsin yüksək məqam və hörməti barəsində çox mətləblər vardır. Azançıya elə savab və mükafatlar verilib ki, çox az adamlar bu savabı əldə edə bilərlər. İslamda azançıdan ötrü xüsusi hüquq vardır ki, bu hissədə ona işarə edəcəyik. İmam Səccad (ə) əxlaqi cəhətdən də azançının haqqını əda etməyə tövsiyə edir.

AZAN SÖZÜNÜN LÜĞƏTDƏ MƏNASI

Azan, ərəbcə lüğətdə "elan" mənasındadır. Tövbə surəsində oxuyuruq:

"Bu Allahdan və Onun Peyğəmbərindən saziş bağladığınız müşriklərə elandır"!

İslamda "azana", o cəhətdən azan deyilir ki, azançı öz uca səsi ilə namaz vaxtının daxil olmasını elan edir. Ərəf surəsində buyurur:

"Bu zaman onların arasında bir azançı elan edəcəkdir".[1]

Azanın şəri olunma tarixi

Azan, İslam Peyğəmbərinin (s) Mədinəyə hicrətinin ilk ilində təyin olunub. Bu mövzuda digər nəzərlər də vardır. Bəzilərinin nəzərinə görə azanın şəri olması müsəlmanların sayının çoxalması və namazın vaxtının bilinməsinin onlara müşkül olması ilə başlayır. Bu zaman müsəlmanlar, namazın vaxtının hamıya çatdırılması və bu savabdan məhrum olmamaqdan ötrü məsləhətə başlayırlar. Bəziləri bundan ötrü zəng vurulmasını təklif edirlər. Lakin İslam Peyğəmbəri (s) bu cür çağı-

[1] Əraf surəsi, ayə 44.

O gələcək...

rışın xaçpərəstlərə aid olması səbəbindən qəbul etmir. Bəziləri şeypurdan istifadə olunmasını təklif edirlər. Bu da yəhudilərə aid olduğundan Peyğəmbər (s) qəbul etmir. Bəziləri dəf çalmağı məsləhət bilirlər. Bu da, rumluların işidir deyə Həzrət qəbul etmir. Bəziləri atəş yandırmağı təklif edirlər. Peyğəmbər (s) buyurur: Bu da məcuslara aiddir. Bəziləri bayraq qaldırmağı məsləhət bilirlər. Həzrət susur. Nəhayət, onların müəyyən bir mövzuda ittifaqı olmur. Bu zaman Cəbrail nazil olur. Peyğəmbər (s) Əlinin (ə) evində idi. Azan hökmünü müsəlmanlara xəbər verirlər.

Şeyx Səduq özünün, "Mən la yəhzuruhul-fəqih" kitabında nəql edir: İmam Sadiqdən (ə) nəql olunur, buyurur:

"Cəbrail İslam Peyğəmbərinə (s) nazil olanda, Həzrət Əli (ə) evində yatmışdı. Cəbrail, azan və iqamə dedi. Sonra Peyğəmbər (s) buyurdu: Əli can! Eşitdin? Ərz etdi! Bəli! Ya Rəsulallah! Buyurdu: Hifz etdin? Həzrət Əli (ə): Bəli! Ya Rəsulallah! Buyurdu: Elə isə, Bilala öyrət! Həzrət azanı Bilala öyrətdi.

AZANIN ŞƏRİ HÖKMÜ

Kişi və qadına müstəhəbdir ki, gündəlik namazdan əvvəl azan və iqamə desinlər. Məşhur fəqihlər, mütləq şəkildə azan və iqamənin deyilməsinə və savabının çox olmasına təkid edirlər. Bəzi kitablarda, o cümlədən "Cüməl", "Məqnə" "Nihayə", "Məhsub Vəsilə", "Mühəzzəb" və "Əhkamun-nisa" kimi kitabın müəllifləri camaat namazında, kişilərə azanın vacib olmasını bildirirlər.

Aşağadakı hallarda azanın saqit olması, alimlər arasında məşhurdur:

Birinci: Cümə günü, cümə namazı qılarkən, yaxud, zöhr namazını qılarkən.

İkinci: Ərəfə günü, əgər əsr namazı zöhrlə birlikdə qılınsa, azan saqitdir.

Üçüncü: Qurban bayramı gecəsində, məşərul həramda olub, işa namazını məğrib namazı ilə birlikdə qılan vaxt.

Dördüncü: Müstəhazə qadının əsr və işa namazlarını zöhr və məğrib namazından dərhal sonra qılarsa.

Beşinci: Özünü bövl və ğaitin xaric olmasından saxlaya bilməyənin əsr və işa namazında.

Bu beş yerdə bu namazları fasiləsiz olaraq əvvəlkindən sonra qıldıqda azan saqit olur.[1]

[1] Ürvətul-Vüsqa, azan və iqamə fəsli.

O gələcək...

Azan və iqamə demək şəraiti aşağıdaklardan ibarətdir.

Birinci: Niyyət. Azan və iqamədə axıra kimi niyyət olunmalıdır. Beləliklə, qəsd qürbətsiz deyilən azan və iqamə düzgün deyildir.

İkinci: İman. Azançı mömin olmalıdır. İmam Sadiqdən (ə) bu barədə hədis var. Amma, həddi buluğa yetişmək azanda şərt deyildir. Xüsusi ilə əhaliyə elan olunan azanda, bu şərt deyildir. Elan azanında kişinin olması şərtdir. Kişilərin də namazında, kişi azançı olması şərtdir.

Üçüncü: Azanla iqamə arasında tərtib gözlənilməlidir.

Dördüncü: Azan və iqamənin cümlələri arasında ardıcıllığı gözləmək.

Beşinci: Ərəbcə səhih oxumaq.

Alimlər, azan və iqamənin müstəhəb əməllərini də zikr etmişlər. Onlardan:

Birinci: Müstəhəbdir ki, təzə doğulmuş uşağın sağ qulağına azan, sol qulağına isə iqamə deyilsin.

İkinci: Biyabanda, cin və başqa şeydən dəhşətə gələn zaman azan demək savabdır.

Üçüncü: Qırx gün ət yeməyənin qulağına azan demək müstəhəbdir.[1]

Bura kimi şiə alimlərinin, azan və iqamənin deyilməsinin təkidi haqqında bəhs etdik. İndi də əhli-sünnə alimlərinin bu barədə nəzərinə işarə edək.

Əhli-sünnə alimlərindən Maliki, Əbu Hənifə, Şafei, azan və iqamənin deyilməsinin müstəhəb olmasında şiə alimləri ilə müvafiqdirlər.

Onlar da, azan və iqamənin bütün namazlarda, vətəndə, səfərdə, camaat və tək namazda, vacib deyil, müstəhəb olduğunu deyirlər. Lakin Əhməd ibn Hənbəli, azan və iqamənin kifayi vacib[2] olmasını bildirir. Şafei və Malikinin də əshabı bu nəzərdə olublar.[3]

AZANIN SÖZÜNDƏ İXTİLAF

Şiələr bu əqidədədirlər ki, **"Həyyə əlal-fəlah"** iki dəfə deyilməlidir. Həmçinin, **"Həyyə əla xeyril-əməl"** də, iki dəfə deyilməlidir. Lakin, əhli-sünnə bu sözlərin yerinə **"Əssəlatu xeyrün minən-növm"** deyilməsi

[1] Ürvətul-Vüsqa, azan və iqamə fəsli.

[2] Yəni, bir nəfərin deməsi ilə, başqalarından saqitdir, amma heç kəs deməsə hamı günahkardır.

[3] Şərhe Risalətul Hüquq, Qapançı, cild 2, səh 90.

əqidəsindədirlər. Amma, ixtilafın haradan başlanması barəsində şiələr **"Həyyə əla xeyril-əməl"** cümləsinin, İslam Peyğəmbərinin (s) dövründə təyin olunmasına əmindirlər. Peyğəmbər (s), Əhli-beyt (ə) və məsum İmamlar (ə) hamısı tarixən, **"Həyyə əla xeyril-əməl"** cümləsini işlətmişlər.

Həzrət Əlidən (ə) nəql olunur ki, İslam Peyğəmbərindən (s) eşitdim ki, buyurur:

Sizlərin ən yaxşı əməli namazdır. Bilala buyurur ki, namazda **"həyyə əla xeyril-əməl"** desin!

Amma, əhli-sünnə alimləri mötəqiddirlər ki, **"həyyə əla xeyril-əməl"** cümləsi, İslam Peyğəmbərinin (s) dövründə olub və Həzrət onu deyib. Lakin, sonradan Ömər ibn Xəttab göstəriş verir ki, **"həyyə əla xeyril-əməl"** cümləsini, **"Əssalatu xeyrun minə-novm"** cümləsi ilə əvəz etsinlər.

Sədəddin Təftəzani "Şərh-Üzəd" kitabının haşiyəsində Ömərdən nəql edir:

"Ömər dedi: Üç şey var ki, İslam Peyğəmbərinin dövründə var idi, amma mən onu haram edirəm və sizi bu işi görməkdən çəkindirirəm. Biri "həcc təmättö", ikinci, "mütə" (siğə), üçüncü, azanda "həyyə əla xeyril-əməl" deməkdir."

Məşhur İslam alimi Quşçu özünün "Şərh-Təcrid" kitabının "İmamət" bəhsinin sonunda qeyd olunan hədisi nəql edir və Ömərin bu sözləri deməsini də nəql edir: **Hər kim bu üç əməli yerinə yetirsə, onu cəzalandıracağam!"** - Alim yazır: Mən bilmirəm, Ömər hansı sənədə və dəlilə əsasən, Peyğəmbərin (s) dövründə olan bu üç əməli ləğv etməyi iddia edir? Görəsən, İlahi hökmlərə dəxalət edib, dəyişməkdə özünü haqlı bilirmi? Onun bu işə şəri icazəsi varmı? Bu sualın cavabını, həmin əqidəyə mötəqid olanlar verməlidirlər!

AZANIN SÖZLƏRİ

"Vəsailüş-Şiə" kitabında nəql olunmuş çoxlu rəvayətlərdə azanın sözləri aşağıdakılar kimi qeyd olunmuşdur:

1. **Allahu Əkbər. 4-dəfə.**
2. **Əşhədu ən-la İlahə illəllallah. 2-dəfə.**
3. **Əşhədu ənnə Məhəmmədən Rəsulullah. 2-dəfə.**
4. **Həyyə əlas-səlah. 2-dəfə.**
5. **Həyyə ələl-fəlah. 2-dəfə.**
6. **Həyyə əla xeyril-əməl. 2-dəfə.**

O gələcək...

7. Allahu-Əkbər. 2-dəfə.

8. La ilahə illəllah. 2-dəfə.

Lakin azanın, **"Əşhədu ənnə Əliyyən vəliyullah"** cümləsi, azanın əsl tərkib hissəsi olmayıb, azanda deyilməsi savabdır. Hədislərdə bu cümlənin də deyilməsinə təkid olunmuşdur.

İMAM RZA (ə) AZANIN HİKMƏTİ BARƏSİNDƏ

Şeyx Səduq İmam Rzadan (ə) nəql edir ki, Həzrət buyurur:

"Həqiqətən, müsəlmanlar bir neçə səbəbə görə azana əmr olunmuşdular. O onlardan, namazı unudanlara xatırlatmaq, qafilləri agah etmək, namazın vaxtını bilməyənlərə xəbərdarlıqdır. Həmçinin, azançı öz azanı ilə insanları Allahın ibadətinə dəvət edir. Onları namaza meyilli edib, Allahın təklifinə iqrar etdirir. İman və İslamını aşikar elan edib, unudanlara xatırladır.

Azançıya namazı elan etdiyinə görə azançı deyirlər. Azan, təkbirlə Allahu Əkbər başlayıb, la ilahə illəllah deməklə bitir. Çünki, Allah-taala Öz adını əvvəldə və sonda, La ilahə illəllah deməyi sevir. İki dəfə təkrar edir ki, eşidənə təsir etsin. Əgər birinci cümləni deməklə qafil ayılmasa, ikinci cümlə ilə özünə gələr. İmanın əsli şəhadəti deməkdir. Beləliklə, şəhadəti demək iki dəfə qərara alınmışdır. Necə ki, başqa hüquqlarda da, iki şahid tutulur. Bəndə, Allahın təkliyinə və Peyğəmbər (s) risalətinə iqrar etdikdə, imanın bütün rükununa iqrar etmiş olur. Çünki, imanın əsası, Allaha və Peyğəmbərinə iqrar etməkdir. Şəhadət verdikdən sonra namaza dəvət edir. Çünki azan, əsasən namaza dəvətdən ötrü təyin olunmuşdur. Bu da, azanın sözləri arasında namaza olan nidadır. Daha sonra nicat və hidayət olunmağa dəvət olunur. Sonra "**Həyyə əla xeyril-əməl"**lə, ən yaxşı əmələ dəvət olunur. Nəhayət, azan sonda, Allahın adı ilə sona yetir.[1]

AZAN VERMƏYİN SAVABI

İmam Sadiqdən (ə) nəql olunur ki, İslam Peyğəmbəri (s) buyurur:

"Hər kim müsəlman şəhərlərindən birində bir il azan versə, Behişt ona vacib olar!"[2]

Başqa yerdə İmam Baqirdən (ə) nəql olunur ki, buyurur:

[1] Vasailüş-Şiə, cild 4, səh 646.

[2] Vasailüş-Şiə, cild 4, səh 613-616.

O gələcək...

"Behiştə daxil olacaq ilk şəxslərdən biri də, Bilaldır. Soruşdular: Nəyə görə? Həzrət buyurur: Çünki, ilk azançı olub!"[1]

Başqa yerdə, yenə də İmam Baqirdən (ə) nəql olunur ki, İslam Peyğəmbəri (s) buyurur:

"Azan verən, qılıncını sıyırıb İslam düşmənləri ilə cihad edən kimidir!"

Həzrət Əli (ə) buyurur:

"Qiyamət günü azan verənlər, uca boylu və boyunları yuxarı çəkilmiş halda gələrlər!"[2]

Şeyx Səduq öz kitablarından birində İslam Peyğəmbərindən (s) rəvayət nəql edir ki, Həzrət buyurur:

"Allaha görə azan verənə, Allah-taala qırx min şəhidin, qırx min saleh şəxsin savabını əta edər. Onun əli ilə ümmətimdən qırx min günahkar Behiştə daxil olar. Agah olun! Azançı Allahın təkliyinə şəhadət verərkən, yetmiş min mələikə ona salam verər və ondan ötrü istiğfar edərlər. Qiyamət günü Allah-taala məxluqatın hesabını bitirənə kimi onlar, Allahın ərşi sayəsində olarlar. Azançının, Peyğəmbərin (s) risalətinə şəhadətinə xatir, qırx min mələk ona salam göndərir![3]

30. PİŞNAMAZIN HAQQI

وَأَمّا حَقُّ إِمَامِكَ فِي صَلاتِكَ فَأَنْ تَعلَمَ أَنَّهُ قَدْ تَقَلَّدَ السِّفَارَةَ فِيمَا بَيْنَكَ وَبَيْنَ اللَّه وَالْوِفَادَةَ إِلَى ربكَ، وتَكَلَّمَ عَنْكَ وَلَمْ تَتَكَلَّمْ عَنْه، ودعا لَكَ وَلَمْ تَدْعُ لَهُ، وَطَلَبَ فِيكَ وَلَمْ تَطْلُبْ فيه، وكَفَاكَ هَمَّ الْمَقَامِ بَينَ يدي اللهِ وَالمُسَاءَلَةَ لَهُ فِيكَ وَلَمْ تكفه ذَلك، فَإِنْ كَانَ فِي شَيْءٍ مِنْ ذَلِكَ تَقْصيرٌ كَانَ به دُونَكَ، وَإِنْ كَانَ آثماً لَمْ تَكُنْ شَرِيكَهُ فِيه وَلَمْ يَكُنْ لَهُ عَلَيكَ فَضلٌ، فَوقَى نَفْسَكَ بنَفْسه، وَوَقى صلاتَكَ بصَلاته، فتَشْكرَ لَهُ عَلى ذلك. ولا حَوْل ولا قوَّة إلا بالله.

"Camaat namazında, sənin pişnamazının haqqı budur ki, biləsən, o, Allaha tərəf seyr etməyi Allahla sənin aranda öz öhdəsinə götürmüşdür. O, bu məqamda sənin tərəfindən söz danışır və sən onun tərəfindən danışmırsan. O səndən ötrü dua edir, amma sən ondan ötrü dua etmirsən. O səndən ötrü Allahdan istəyir, amma sən ondan ötrü

[1] Vasail-Şiə, cild 4, səh 613-616.
[2] Vasail-Şiə, cild 4, səh 613-616.
[3] Vasail-Şiə, cild 4, səh 613-616.

O gələcək...

istəmirsən. Allah-taalanın dərgahında dayanmaq və sənin tərəfindən istəmək kimi əhəmiyyətli və məsuliyyətli bir işi öz öhdəsinə almışdır. Sən isə ona görə bir şeylə kifayətlənməyib, öhdənə bir şey almırsan. Əgər bu işdə bir eyb qarşıya çıxsa, sən yox, o cavabdehdir. O, özünü sənə, namazını isə sənin namazına sipər qərar verib. Elə isə buna görə də, ona təşəkkür etməlisən. Allah tərəfindən başqa heç bir güc-qüvvət yoxdur!"

İmam Səccadın (ə) buyurduqlarının xülasəsi budur:

Namaz qılan bilməlidir ki, pişnamaz, Allahla onun arasında vasitə olub, onun tərəfindən söz danışır, dua edir və dua məqamında onun tərəfindən təvazökarlıq və razi-niyaza dözür. Əgər onun namazında qüsur və naqislik olarsa, imam camaat cavab verər, günahında da, heç kəs şərik deyildir.

Pişnamazın, arxasında durub namaz qılanın heç bir üstünlüyü yoxdur, bəlkə də, pişnamaz, Allah dərgahında sənin namazını qoruyandır.

Bu fəsildə bəhs, namazın əslindən yox, pişnamazdan gedir. Mehrabda duran pişnamaz, bütün namaz qılanları Şeytanla döyüşə və mübarizəyə cəm etmişdir. Həmçinin, pişnamaz, bütün namaz qılanları, Allahın feyz və rəhmətini qazanmağın qaynağına cəlb etmiş, qəlb karvanını Allaha tərəf çəkib, onların hamısının tərəfindən ən nəhayət təvazökarlıq və pişnamazlığı ilə dövlətli və kasıbı bir yerə cəm etmişdir. Padşah-rəiyyət, ağ-qara, alim-cahil, dövlətli-kasıb, hamısını bir sıraya düzüb, təkəbbürü aradan aparmışdır.

CAMAAT NAMAZININ HİKMƏT VƏ TƏSİRLƏRİ

Allah-taala, insanların kamal yolunu seyr edib, möminlərin ibadətin bərəkət və təsirlərindən bəhrələnmələrindən ötrü bəzi ibadətləri birlikdə və xüsusi vaxtda qərar vermişdir. Camaat namazının təsirləri aşağıdakılardan ibarətdir:

Birinci: Hamının namazda eyni halda rukuya, səcdəyə gedib təşəhhüdü deməsilə, Allah-taalanın əzəmət və camalının insanların qəlbinə nüfuzu.

İkinci: Müsəlmanların camaat namazı vasitəsilə şövkət və əzəmətlərin cilvələnməsi.

Üçüncü: Bir sıra işlərin nəzmini tanıyıb pişnamaza iqtida etməklə, işlərin yola düşməsi.

O gələcək...

Dördüncü: Beş vaxt camaat namazının vasitəsilə ictimai bağlılıq, ülfət və qardaşlığın vücuda gəlməsi.

Beşinci: Camaat namazı qılınması sayəsində, namaz qılanların bir-birinə şəhadət vermələri və alış verişdə inanıb etimad etmələri.

Altıncı: Camaat namazının ilk vaxtda bərpa olunmasına görə Allaha yaxın olub, dualaların qəbul olunması.

Yeddinci: Camaat namazında insan bütün maddi aləmə olan meyillərindən ayrılıb, "Təkbirətul-ehram" deməklə, Allahdan başqa hər şeyi arxada qoyub, yalnız, Allaha təvəccö etməsi.

Səkkizinci: Camaat namazları səbəb olur ki, məscid və ibadətgahlar düzəldilsin. Bu da, həm zahiri, həm də batini düzəlişdir.

Doqquzuncu: Namaz qılanların bir-birindən xəbərdar olması, camaat namazı sayəsində qardaşlıq və ülfətin möhkəmlənməsi.

Onuncu: Müxtəlif şəxslərin bir yerə toplanması, kasıb-dövlətli, qara-ağ, ağa-nökər, alim-cahil hamısı bir sırada dururlar. Camaat namazı, insanlar arasında millətçilik və ayrı-seçkiliyi aradan qaldıran ən yaxşı amildir.

Ayrı-seçkilik və ictimai təbəqələşmə, camaat namazında iştirak etməklə aradan götürülür. Müsəlmanları camaat namazına rəğbətləndirən rəvayətlər arasında bu, təsirlərin bir çoxu şərh edilmişdir. Bu rəvayətlərdən bəzilərini nəql etməklə, camaat namazının savabı ilə tanış olaq.

CAMAAT NAMAZININ ƏHƏMİYYƏTİ AŞKARDA OLMASIDIR

İmam Rzadan (ə) nəql olunur ki, buyurur: **"Camaat namazı o, cəhətdən şəriətdə təyin olunub ki, bəndələrin Allah müqabilində ixlası və təslim olması yalnız, pərdəsiz və aşkarda ibadəti ilə təhəqqüq tapır. Bu işin cəmiyyət içində baş verməsi, şərq və qərbdə insanların yalnız, tək Allahları olmasına dəlalətdir. Münafiq və xar olunmuş, dili ilə iqrar etdiyini aşkarda yerinə yetirsin və bununla da, onların İslamda olmaları aşkar olsun. Bunlardan əlavə, camaat namazında insanların bir-birinin əlindən tutub köməklik göstərmələri, Allaha pərəstiş və dostluq asanlaşır. Camaat namazı, Allahın nəhy buyurduğu bir çox şeylərdən çəkinməsinə səbəb olur."**

Başqa bir rəvayətdə İmam Sadiq (ə) camaat namazının fəziləti barəsində buyurur:

O gələcək...

"İslam Peyğəmbəri (s) buyurur: Hər kəs gündəlik namazlarını camaatla qılsa, onun barəsində xeyirə fikirləşin."

Bu həmin məsələdir ki, əvvəlcədən işarə etmişdik. O da namaz qılanların bir-birinə etimad etmələridir. Əvvəlki rəvayətdə İmam Rza (ə) buyurur: Ümumiyyətlə, Allah-taala, camaat namazını şəriətdə təyin edib ki, bəndəlik və Allaha ibadət insanların gözü önündə aşkarda keçirilsin. Dünyanın şərq və qərbində hamı bu İlahi fərizəni dərk etsinlər.

Həmçinin, İmam (ə) həmkarlıq və köməkliyə işarə edərək, buyurur: Camaat namazının bərəkətlərindən biri də, cəmiyyətdə pis və bəyənilməmiş işlərin qarşısı alınır, insanlar arasında yaxşı işlər artır.

Məşhur İslam alimi Hacı Mirzə Cavad Mələki Təbrizinin "Əsrarus-salat" kitabından

Camaat namazının şəriətdə təyin olunmasının əsas hikməti, Allah qarşısında vəzifələrini yerinə yetirməkdə müsəlmanların birliyinin olmasıdır. Bu birliyin hədsiz dərəcədə faydaları vardır. Bundan əlavə, camaat namazının, nəfslərin kamala yetib, Allah yolunda qüvvət tapması və Onun rəhmətinin cəlb olunmasında böyük rolu vardır. Çünki, əgər onlardan hər birisinə Allahın rəhməti aid olsa, xüsusilə əgər onların birliyi Allaha görə və Onun yolunda olsa, bu rəhmət, ləyaqətləri olmasa da, hamıya aid olar.

Cəmiyyətin qəlblərinin birliyi, az suların bir-biri ilə birləşməsi kimidir. Belə sular birləşərkən, az su hökmündən xaric olub, kür su olur. Bununla da, az nəcasətlə paklıqları aradan getməz.

Ümumiyyətlə, mühüm qəlblərin birliyidir. Bəs hər kəs, qəlbləri Allah yolunda bir-biri ilə bağlı olan cəmiyyətlə namaz qılmağa fürsət tapsa və camaat namazı qılsa, ravayətlərdə camaat namazının fəziləti barəsində nəql olunanlara aid olmasına ümidvar ola bilər. Lakin, hər kim camaata qarşı qəlbində kin-küdurət olan halda camaat namazı qılsa və rəvayətlərdə Allahın camaat namazına verdiyi savaba ümidvar olsa, bilsin ki, bu arzu qürur və özünü aldatmaqdan başqa bir şey deyildir.

Qəlbini paklaşdırıb nəfsini təmizləyən hər bir pişnamazı, sözsüz ki, hamı tanıyıb sevəcəkdir. O da öz növbəsində həmin İlahi məhəbbətin onunla möminlər arasında olduğuna xatir, onlara qarşı özlərindən də qabaq məhəbbətli olub, onları çox sevər. Nəticədə, onların camaat namazları İlahi istək üzrə olub, savabı çox olacaqdır.

Lakin qəlbləri bir-birinə qarşı kin-küdurətdə olub, müxalif niyyətli, zahirdə bir yerə yığışıb camaat namazı qılanlar, biri digərinin pisliyi-

ni istəyənlər, Allahın başqasına verdiyi nemətə xatir həsəd aparanların namazları heç də güman edilmir ki, bu İlahi feyzə çatsın və belə cəmiyyətin Allah yanında fəziləti olsun. Çünki, ibadətin əsası budur ki, qəlbə müsbət təsir qoyub onu nurlandırsın.[1]

CAMAAT NAMAZININ SAVABI

Əbu Səid Xidri, İslam Peyğəmbərindən (s) nəql edərək buyurur:

"Əsr namazından sonra Cəbrail yetmiş min mələklə nazil olaraq buyurdu: Ya Məhəmməd! Allah-taala salam göndərir və səndən əvvəl heç bir peyğəmbərə vermədiyi iki hədiyyəni sənə bağışlayır. Peyğəmbər (s) soruşur: O iki hədiyyə nədir?

Cavab verir: Birinci: Bir rəkət "vitr" namazı. İkinci: Gündəlik beş vaxt namazı camaatla birlikdə qılmaq.

Peyğəmbər (s) soruşdu: Mənim ümmətim üçün camaat namazında nə savab var? Cəbrail buyurur:

Ya Məhəmməd! Camaat namazında iki nəfər olsa, hər bir rəkətin müqabilində, Allah-taala onların hər birinə yüz əlli rəkət namazın savabını yazar. Üç nəfər olarsa, Allah-taala onların hər birinə hər bir rəkətə görə iki yüz əlli rəkət namazın savabını yazar. Namaz qılanlarının sayı dörd nəfərə çatarsa, Allah-taala onların hər birinə, hər bir rəkətin müqabilində min iki yüz rəkət namazın savabını yazar. Əgər namaz qılanların sayı beş nəfərə çatarsa, hər bir rəkətin müqabilində, Allah-taala onların hər birinə min üç yüz rəkət namazın savabını yazar. Əgər namaz qılanların sayı altı nəfərə çatarsa, hər bir rəkətin müqabilində, Allah-taala onların hər birinə iki min dörd yüz rəkət namazın savabını yazar. Əgər namaz qılanların sayı yeddi nəfərə çatarsa, hər bir rəkətin müqabilində, Allah-taala onların hər birinə dörd min altı yüz rəkət namazın savabını yazar. Əgər namaz qılanların sayı səkkiz nəfərə çatarsa, hər bir rəkətin müqabilində, Allah-taala onların hər birinə doqquz min altı yüz rəkət namazın savabını yazar. Əgər namaz qılanların sayı doqquz nəfərə çatarsa, hər bir rəkətin müqabilində, Allah-taala onların hər birinə on doqquz min rəkət namazın savabını yazar. Əgər namaz qılanların sayı on nəfərdən çox olarsa, yer və göylərdəki dəryalar mürəkkəb, ağaclar qələm, bütün cin, insan və mələikələr yazan olsalar, onların namazlarının bir rəkətinin savabını yazmağa qüdrətləri olmaz.

[1] Şərh Risalətul-hüquq, Sipehri, səh 155.

O gələcək...

Ya Məhəmməd! Möminin təkbirlə (Allahu-Əkbərlə) qoşulduğu camaat namazının savabı, ondan ötrü vacib olmayan yetmiş həcc və min ümrədən üstündür."[1]

Başqa bir rəvayətdə, ravi İmam Sadiqdən (ə) soruşur: **"İki nəfərlə camaat namazı bərpa olurmu? Buyurur: Bəli! İkinci nəfər pişnamazın sağ tərəfində durmalıdır"**[2]

Başqa bir hədisdə nəql olunur ki, Cuhni adlı bir nəfər İslam Peyğəmbərinin (s) hüzuruna gəlir və soruşur: Mən səhralıqda yaşayıram. Azandan sonra zövcəm, övladlarım və xidmətçilərimlə birlikdə camaat namazı qılıram. Bu camaat namazı sayılırmı? Həzrət buyurur: Bəli!

Bütün bu rəvayətlərə diqqət etdikdən sonra nəyə görə Əmirəlmöminin Əlinin (ə) şiələri bu qədər savabı əldən verməlidirlər? Məgər bu, ən pis xəsarət sayılmazmı?

PİŞNAMAZLARDAN ƏHVALATLAR

Camaat namazının savabı barəsində qısa şəkildə rəvayətlər nəql etdikdən sonra yerinə düşər ki, tarixçi Qapançının **"Şərhi risalətulhüquq"** kitabında nəql etdiyi bir neçə əhvalata işarə etməklə bu bəhsimizi sona yetirək.[3]

Birinci: Mucrim adlı bir nəfər ərəb, pişnamazın arxasında birinci sırada durub namaz qılırmış. Pişnamaz öz qiraətinin arasında bu ayəni oxuyur:

"Məgər biz öndə gedənləri həlak etmədikmi? Sonra isə başqalarını da onlara birləşdirdik!"

Ərəb bu sözü eşitcək üçüncü sıraya keçir. Pişnamaz öz qiraətində bu ayəni oxuyur:

"Biz cinayətkarlara belə cəza veririk".

Ərəb öz-özünə deyir: Allaha and olsun ki, məndən başqa heç kimi nəzərdə tutmayıb! Ayaqqabısını götürüb məsciddən qaçır!

İkinci: İbrahim, Musa və Hacı Əhməd adlı üç qardaş vardı. Onlar köməkli bir məscid tikdirərək camaat namazından ötrü bir nəfər pişnamaz təyin etmiş, məscidi birlikdə idarə edirdilər. Günlərin birində pişnamaz namazda bu ayəni qiraət edir:

"Həqiqətən, bu deyilənlər əvvəlki kitablarda mövcuddur. İbrahimin və Musanın kitablarında."

---

[1] Şərh Risalətul-hüquq, Qapançı, cild 2, səh 144-145.
[2] Vəsail-şiə, cild 5, səh 379.
[3] Şərh Risalətul-hüquq, Qapançı, cild 2, səh 147-148.

O gələcək...

Namaz qurtardıqdan sonra Hacı Əhməd pişnamaza belə müraciət edir: Məgər bilmirsən ki, bu məscidi biz qardaşlar tikib idarəsində də müştərəkik? Pişnamaz cavab verir: Bəli! Bəs necə olur ki, o iki qardaşımın adını namazda çəkirsən, amma məni yaddan çıxarırsan?!

Pişnamaz cavabında buyurur: Bu Quran ayələridir, onu artırmaq olmaz.

Hacı Əhməd cavab verir: Xeyr! De ki: Bu mənim o iki nəfərə qarşı məhəbbətimdir. Əgər bundan sonrakı namazda mənim də adımı çəkməsən əlimdəki əsa ilə səni möhkəm əzişdirəcəm! Pişnamaz canının qorxusundan növbəti namazda oxuyur:

"İbrahimin, Musanın və Hacı Əhmədin kitablarında" Namazdan sonra namaz qılanlar pişnamazdan soruşurlar: Hacı Əhmədin adını hardan Qurana saldın?! Cavab verir: Möhkəm əsa zərbəsilə hədələmək səbəb oldu ki, Hacı Əhmədin adı Qurana düşsün!

Üçüncü: Nəql olunur: Bir nəfər pişnamaz, bazardan vedrə alıb, məscidə namaza gəlir. Namaz qılarkən vedrəni gözünün qabağına qoymaqdan utanıb, onu arxa tərəfinə qoyur. Rükuya gedərkən vedrə yadına düşür. Güman edir ki, vedrəni oğurladılar. Ona görə də, başını rükudan qaldırarkən: "Rəbbəna! Ləkəl həmd!" (İlahi Sənə həmd olsun!) - deməyin əvəzinə, buyurur: "Rəbbəna! Ləkəs-sətl!" (İlahi! Vedrəni Sənə tapşırdım!). Bu zaman, arxada namaz qılanlardan biri deyir: Əs-sətlu xəlfəkə la bəsə bi!" (yəni, vedrə yanındadır, bir şey olmayıb)

Dördüncü: Bir nəfər pişnamazın arxasında namaz qılırmış. Pişnamaz nə qədər çalışırsa, "Fatihə" surəsi yadına düşmür. Bədəninə titrəmə düşür. Başlayır: "Əuzu billahi minəş-Şeytanir-rəcim" cümləsini təkrar-təkrar deməyə. Bu vaxt arxadan bir nəfər deyir: Şeytanın günahı yoxdur, sən namazı unutmusan!

Bəli! Camaat namazı barəsində zikr olunmuş savablar, həm pişnamaza, həm də arxada namaz qılana aiddir.

31. YOLDAŞIN HAQQI

وَأَمّا حَقُّ الجَليسِ فَأَنْ تُلينَ لَهُ كَنَفَكَ وَتُطيبَ لَهُ جانِبَكَ، وَتُنْصِفَهُ في مُجارَاةِ اللَّفْظِ ولا تُغْرِقَ في نَزْعِ اللَّحْظِ إذا لَحظتَ وتَقْصُدَ في اللَّفْظِ إلى إفْهامِه إذا لَفظتَ. وَإنْ كُنْتَ الجَليسَ إلَيْه كُنْتَ في القيامِ عَنْهُ بالخِيارِ وَإنْ كانَ الجَالِسَ إلَيْكَ كانَ بالخِيارِ. ولا تَقُومُ إلَا بإذْنِهِ وَلا قُوَّةَ إلا بالله.

O gələcək...

“Məclis yoldaşının haqqı odur ki, biləsən, onunla mülayim davranmalı, açıq ürəklə qəbul etməli, xoş gəlmisənlə qarşılamalı və danışıqda onunla insaflı olmalısan. Bir dəfə görməklə ondan nəzərini çəkmə. Danışıqda hədəfin onu başa salmaq olsun. Əgər bu yoldaşlıq zamanı sən onunla oturmaqdan ötrü onun yanına daxil olsan, ixtiyar sənindir. Nə vaxt istəsən dura bilərsən. Yox, əgər bu işdə o sənə müqəddəm olsa, ixtiyar onundur. Ondan icazə almamış durub məclisi tərk etmə. Allahdan başqa heç bir güc-qüvvət yoxdur”.

“Məkarimul-Əxlaq “ kitabında bu cümlələr yazılıb:

“Məclis yoldaşının xətalarını unut, yaxşılıqlarını yadda saxla və qulağına yalnız yaxşı sözlər de!”

Beləliklə, səninlə bir yerdə oturub-duran dostunun hüquqları bunlardır:

1. Onunla yaxşı rəftar et.
2. Danışıqlarında onun barəsində insafa riayət et.
3. Danışanda hədəfin onu anlatmaq olsun.
4. Məclisdə oturmaq haqqına riayət et.
5. Əgər əvvəl özün onun yanına gəlmisənsə, ondan icazəsiz məclisi tərk etmə.
6. Xətalarını görməməzliyə vur.
7. Onun haqqında həmişə yaxşı fikirlər niyyətində olasan.

İmam Səccad (ə) bu kitabda yoldaş, dost və məclis yoldaşının hüquqlarına işarə etmişdir. Əslində, ola bilsin, bu üç söz bir mənaya işarə olsun. Lakin, bəzi fərqlər var ki, dost və yoldaşın hüquqlarında onlara işarə olunacaq.

İNSAN İCTİMAİ VARLIQDIR

Bu bəhsdə, məclis yoldaşından məqsəd, həmişə bir məclisdə oturub və ya bir-biri ilə yoldaşlıq edənlərdirlər. Hər halda, insanın kiminləsə bir yerdə oturması, hüquq və haqqın olmasına səbəb olur. Ümumiyyətlə, bəşər övladı bütün ömrü boyu bir nəfər məclis yoldaşına, dosta və həmkara möhtacdır. Çünki, insanın ictimai yaşayış meyilli olması artıq bir həqiqətdir. İnsan tənhalıqdan əziyyət çəkir və qürbət hissi keçirir. Əksinə, yaxşı yoldaş və dostla olmağından ruhlanır və xoşhal olur.

O gələcək...

DOSTUN İNSANIN ŞƏXSİYYƏTİNDƏ ROLU

Hər bir insanın yoldaşı, dostu və həmkarının onun şəxsiyyətinin formalaşmasında, dünya və Axirətinə böyük təsiri vardır. Yoldaşın mənfi yaxud, müsbət rəftarı insanın həyatının müxtəlif mərhələlərində öz əsərini qoyur. Bu təsir o dərəcədədir ki, İslam Peyğəmbəri (s) insan şəxsiyyətinin meyar və mizanını onun dostunun şəxsiyyəti ilə ölçür, buyurur: **"Hər kəs öz dostunun yolunda və rəftarında olar."**[1]

İnsanın dost və yaxşı yoldaşının olmaması onun üçün böyük bir müsibətdir. Həzrət Əli (ə) buyurur:

"Hər kim, Allaha görə dost tutduğu şəxsi əldən verərsə, bədəninin ən şərəfli əzasını əldən vermiş şəxs kimidir."[2]

Dostun insanın həyatında böyük rol oynadığından, onun seçilməsində çox diqqət olunmalıdır. Bununla da yaxşı dostun əldən verilməsinin qarşısı alınar.

LƏYAQƏTLİ DOSTUN SEÇİLMƏSİ

İmam Sadiq (ə) dost seçmək barəsində buyurur: **"Hər kim sənə qarşı üç dəfə qəzəblənsə və eyni halda sənin barəndə pis söz danışmasa belə şəxs dostluğa layiqdir. Onu özünə dost seç."**[3]

Daimi və müvəqqəti dostlar

Həzrət Əli (ə) bu barədə buyurur:

"Hər kim, doğru imtahandan sonra birini özünə dost seçsə, bu dostluq möhkəm və məhəbbətləri çox olar."[4]

Həzrət yenə bu mövzuda buyurur:

"Hər kim araşdırmadan başqası ilə dostluq peymanı bağlasa, əxlaqsız və cinayətkar şəxslərlə yoldaşlıqa məcbur olar."[5]

Pislərlə yoldaşlıq etməyin təsiri

Həzrəti Əbdül-Əzim Hüseyni, İmam Baqirdən (ə), o da babası İmam Əlidən (ə) nəql edir, buyurur:

---

[1] Şafi, cild 1, səh 192.
[2] Şərhe Gürər və Dürər, cild 5, səh 472.
[3] Tarixi Yəqubi, cild 2, səh 383.
[4] Şərhe Gürər və Dürər, cild 5, səh 397-398.
[5] Şərhe Gürər və Dürər, cild 5, səh 397-398.

O gələcək...

"Pislər və şər adamlarla yoldaşlıq etmək, insanın yaxşı və saleh şəxslərə qarşı pis fikirdə olmasına səbəb olur."

İmam Sadiq (ə), İslam Peyğəmbərindən (s) nəql edir, buyurur:

"Üç dəstə var ki, onlarla yoldaşlıq etmək qəlbi öldürər: Birinci: Şərəfsiz, abırsız və imansız şəxslərlə yoldaşlıq etmək. İkinci: Qadınlarla çox danışmaq. Üçüncü: Dövlətlilərlə oturub-durmaq."[1]

Yuxarıdakı iki hədisdə, iki tayfa pislərlə oturub durmağı qəlblərin ölməsinə səbəb olması vurğulanır. Onlardan bir tayfası, təkəbbürlü sərvətlilərdir. Başqa bir hədisdə İmam Baqirdən (ə) sərvətlilərlə yoldaşlıq etmək haqqında soruşan bir kişinin cavabında buyurduğunu oxuyuruq:

"Ey kişi! Sərvətlilərlə çox da oturub-durma. Çünki, insana pis təsir qoyur. Belə şəxslərlə oturub-duran şəxs, onunla yoldaşlıqdan əvvəl öz vücudunda Allahın ona verdiyi neməti görüb duyurdu, lakin sərvətli ilə yoldaşlıq etdikdən sonra özündə olan neməti unudub, sərvətlinin mal-dövlətinə göz dikər və öz nemətindən qəflətdə qalar."[2]

Başqa bir hədisdə İslam Peyğəmbəri (s) buyurur:

"Ölülərlə oturub-durmayın! Soruşdular: Ya Rəsuləllah! Ölü kimdir? Buyurdu: Allahı yaddan çıxarıb, hər şeyi mal-dövlətdə görən sərvətli bir şəxs."[3]

Belə şəxsin qəlbi ölmüş olar. Ona görə də İslam Peyğəmbəri (s) ondan ölü kimi ad aparır. Ölülərlə oturub-durmağın nəticəsi isə insanın qəlbinin ölməsidir. Bu cəhətdən də, İslam Peyğəmbəri (s) nəzərində onlarla oturmaq, münasib deyildir.

Şeyx Səduqun "Sefatuş-Şiə" kitabında Əmirəlmöminin Əlidən (ə) nəql olunur, Həzrət buyurur: **"Şərəfsiz şəxslərlə yoldaşlıq etmək, yaxşı insanlara qarşı bədbinlik əmələ gətirir. Yaxşı və saleh şəxslərlə yoldaşlıq etmək, pislərin yaxşılara qoşulmasına səbəb olur. Yaxşıların günahkarlarla yoldaşlıq etmələri, salehlərin fasiqlərə qoşulmasına səbəb olur. Elə isə hər kimin işi sizə şübhəlidirsə və dini cəhətdən onu tanımırsınızsa, oturub-durduqları şəxslərə baxsın! Əgər dindar şəxslərdirsə, onda Allahın dinindədir. Əgər oturub-durduğu, Allahdan qeyrisinin dinindədirsə, onun Allahın dinindən heç bir bəhrəsi yoxdur. Çünki, İslam Peyğəmbəri (s) buyurub: Hər kimin Allaha və qiyamət gününə imanı varsa, kafirlə qardaşlıq edib, günahkarlarla yoldaşlıq etməz. Əks halda, özü də fasiq olar!"**[4]

---

[1] Biharul-Ənvar, cild 74, səh 191.
[2] Biharul-Ənvar, cild 74, səh 194-195.
[3] Biharul-Ənvar, cild 74, səh 194-195.
[4] Biharul-Ənvar, cild 74, səh 194-195.

O gələcək...

BELƏ ŞƏXSLƏRLƏ YOLDAŞLIQ EDİN

Həzrət Zeynul-abidin (ə) övladına belə buyurur:

"Din və bilik əhli ilə yoldaşlıq edin. Əgər onları tapa bilməsəniz, təklikdə qalın ki, sağlam qalasınız. Əgər əhali ilə oturmaqdan başqa çarəniz olmasa, pis söz danışmayıb, söyüş söyməyən mürüvvət əhli ilə bir məclisdə olun!"

İmam Sadiqdən (ə) nəql olunur, buyurur:

"Hər kim şəkk-şübhədə olan şəxslərlə yoldaşlıq edərsə, özü də şəkk-şübhəli olar."

Alimlərlə yoldaşlıq etmək

İslam Peyğəmbəri (s) buyurur: **"Alimlər və bilik əhli ilə oturub-durun ki, sizi beş şeydən beş şeyə dəvət edərlər:**

1. Sizi şəkk-şübhəli haldan çıxarıb yəqinliyə çatdırarlar.

2. Sizi işdə riyakarlıq və təkəbbür halından ixlaslı olmağa dəvət edər.

3. Dünyaya meyilli olub ona bel bağlamaqdan zöhd və pəhrizkarlığa dəvət edər.

4. Təkəbbür və özünü öyməkdən təvazökarlıq və mülayimliyə dəvət edər.

5. Düşmənçilik və kinayəçilikdən dostluq və məhəbbətə dəvət edər."

Bu hədisdən alimlər və bilik əhli ilə yoldaşlıq etməyin böyük rolu və İslam Peyğəmbərinin (s) bu barədə müsəlmanlara tövsiyə etməsinin səbəbi də aydın olur.

AĞILLI İNSANLA DOSTLUQ VƏ YOLDAŞLIĞIN ROLU

İmam Sadiq (ə) buyurur: **"Səmimi dostlar və qardaşlar üç dəstədirlər: Birinci, o kimsələr ki, qida kimi həyatda zəruridirlər. İnsan bütün hallarda onlara möhtacdır. Onlar ağıllı dostlardır. İkinci, o kəslər ki, vücudları xəstəlik və ağrı kimidir. Onlar axmaq dostlardır. Üçüncü, o kəslər ki, vücudları şəfaverici olub, infeksiyaya qarşı olan dərman kimidir. Onlar, çox ağıllı dostlardır."**[1]

[1] Təhəful-uqul, səh 239.

O gələcək...

Xəlifə Mötəsim vəzirin qonaqlığında

Fəzl Mərvan Abbasi vəzirlərindən biri idi. O, ləyaqət və xidmətinə görə bütün məmurlardan xəlifəyə yaxın olub onun yanında böyük məqama malik idi. Özünü camaatın gözündə xəlifənin yaxın adamlarından olduğunu göstərməkdən ötrü xəlifəni axşam üstü qonağlığa dəvət edir. Xəlifəni yaxşı qəbul etməkdən ötrü evinə ən yaxşı xalçaları, parçaları və rəngarəng gülləri düzdürür. Çoxlu qızıl və gümüş qab-qaşıq alır. Ən yaxşı meyvə və şirniyyatlar hazırlatdırır. Xəlifə gəlib otağa girərkən bu mənzərədən təəccübə gəlir və ürək ağrısı bəhanəsi ilə oranı tərk edir.

Vəzir bu gözlənilməz işdən nigaran olur. Təşkil etdiyi məclisin nəticəsini anlayıb səhvini düzəltmək fikrinə düşür. Artıq fikirləşməyə vaxt yox idi. O həssas anlarda yaxın ağıllı dostu İbrahimlə məsləhətləşib məsələni ona açır. İbrahim huşdarlıqda məşhur idi. Bir an fikirləşib vəzirə dedi: Sən xəlifədən ayrılma və müşayət ünvanı ilə onunla saraya gedib mənim məktubumu gözlə. Məktubum sənə yetişəndə onu xəlifənin hüzurunda ucadan oxu. Vəzir dostunun göstərişi üzrə yola düşür. Çox çəkmir ki, ona bir məktub gətirirlər. Məktubda yazılır: Cəvahir və xalçaların sahibləri gəliblər. Deyirlər ki, xəlifənin məclisi qurtardı, icazə verin mallarımızı aparaq. Mötəsim məktub barəsində soruşur. Vəzir əhvalatı məktub üzrə ona nəql edir. Xəlifənin batini əqidəsi dəyişir. Anlayır ki, bunlar hamısı borc imiş. Nəticədə çox huşyar bir dostun köməyi ilə vəzir də nicat tapır.[1]

YAXŞI DOSTUN XÜSUSİYYƏTLƏRİ

İmam Sadiq (ə) buyurur:

"Dostluq və sədaqətin həddi-hüdudu var. Hər kimdə bu meyar və xüsusiyyətlər varsa onu dostluqda sadiq sana bilərsən:

Zahiri və batini sənin lə bir olsun. Sənin abır-həyanı öz abır həyası bilsin. Dünya malı və məqam onun sənə qarşı olan münasibətini dəyişməsin. İxtiyarında olan güc və qüdrətdən səni məhrum etməsin. Səni dünyada olan gözlənilməz hadisələrə qurban verməsin."[2]

Bütün bunlar yaxşı yoldaşın xüsusiyyətləridir. Tapaq və yoldaş olaq!

[1] Cəvan (Qoftare fəlsəfi) cild 2, səh 337.
[2] Cəvan (Qoftare fəlsəfi) cild 2, səh 343.

O gələcək...

Peyğəmbərin (s) qəlbi pak yoxsullarla yoldaşlıq etməsi

Qurani-Kərim buyurur: **"Səhər-axşam Rəbbinin rizasını diləyərək Ona ibadət edənlərlə birlikdə özünü səbirli apar (nəfsini qoru). Fani dünyanın bər-bəzəyini arzu edib nəzərlərini onlardan (yoxsul möminlərdən) çevirmə. Qəlbini Bizi xatırlatmaqdan qafil etdiyimiz, nəfsinin istəklərinə uyan və hər işində ifrata varan bir kimsəyə itaət etmə!"**[1]

Bu ayədən məlum olur ki, insanların dəyəri məqam və mal-dövlət deyildir. Ayənin nazil olma səbəbində nəql olunur:

Bir dəstə təkəbbürlü sərvətlilər İslam Peyğəmbərinin (s) hüzuruna gələrək Salman Abuzər, Süeyb və Xubab kimi imanlı, yoxsul şəxslərin Həzrətin yanında oturmalarına işarə edib dedilər: Ya Məhəmməd! Əgər özün məclisin baş tərəfində oturub iyləri bizə əziyyət edən və libasları pambıqdan olan bu yoxsulları yanından uzaqlaşdırsan biz də sənə qoşulub sənin məclisində iştirak edərik. Bu zaman ayə nazil olur ki, ya Peyğəmbər! Onların aldadıcı sözlərinə uyma. Ya Peyğəmbər! Təkcə o kəslərlə oturub dur ki, yalnız Allahın pak zatını tələb etsinlər. Pis əməllərinin nəticəsində qəlblərini Məni yada salmaqdan qafil etdiklərimizlə oturma![2]

Yuxarıdakı ayə, yaşayış mühitində təbəqələşmə ruhiyyəsini aradan aparır və sərvətlilərlə yoxsullar arasında rabitə yaratmaq istəyir. Ayədə buyurur: Nəfsə pərəstiş və Allahdan qəflət olmaq arasında rabitə vardır. Hər kim nəfsinə pərəstiş edirsə, Allahdan qəflətdədir. Qafillərə öz məclisinə yol vermə. Əksinə, səhər-axşam Allaha pərəstiş edənlərə öz evində yer ver!

Necə ki, Allah-taala İslam Peyğəmbərinə (s) buyurur: Məclisində təqvalı və fəzilət sahibi olanlara yer ver. Onlara böyük ehtiram göstər. İmam Səccad (ə) da yoldaşlıq barəsindəki bu bəhsində yaxşı və saleh dostlara ehtiram göstərməyi tövsiyyə edir. Onlarla ədəblə söhbət edin. Açıq ürəklə qarşılayıb, xudafizləşərkən ehtiramına tamamilə riayət edin.

32. QONŞUNUN HAQQI

وَأَمّا حَقُّ الجَارِ فَحفْظُهُ غَائبًا وكَرَامَتُهُ شَاهدًا ونُصْرَتُهُ وَمَعُونتُهُ فِي الحَالَين جَميعاً لا تَتَّبعْ لَهُ عَوْرَةً ولاَ تَبحَثْ لَهُ عَنْ سَوْءَ[ة] لتَّعْرِفهَا، فإنْ عَرَفتَهَا مَنْهُ عَنْ غَيْرِ إرَادَة مِنْك وَلا تَكلُّفٍ كُنْتَ لِمَا عَلِمْتَ حِصْناً حَصِيناً وَسِتْرًا سَتِيرًا، لَوْ بَحَثتِ الأَسِنَّةُ عَنْهُ

[1] Kəhf surəsi, ayə 28.

[2] Təfsiri-nümunə, cild 12, səh 414.

O gələcək...

ضَميرًا لَمْ تَتَّصلْ إلَيْه لانطوَائه عَلَيه. لا تَسْتَمعْ عَلَيه منْ حَيْثُ لا يَعْلَمُ. لا تُسَلِّمْهُ عنْدَ شَديدة، ولا تَحْسُدْهُ عنْدَ نعْمَة. تُقيلِ عَثْرَتَه وتَغْفرْ زَلَتَهُ. ولا تَدَّخرْ حلْمَكَ عَنْهُ إذا جَهلَ عَليْكَ، ولا تَخرُجْ أنْ تَكوُنَ سَلْمًا لَهُ. تَرُدُّ عَنهُ لسَانَ الشَّتيمَة، وتُبْطلُ فيه كَيْدَ حَامل النَّصيحَة، وتُعَاشرَهُ مُعَاشَرَةَ كَريمَة. وَلا حَوْلَ وَلاَ قُوَّةَ إلا بَاللهِ.

“Qonşunun haqqı budur ki, olmayan vaxtı onun abır-həyasını qoruyan, olarkən isə hörmətini saxlayan ol. Sirrini axtarmaq niyyətində olmayıb həmişə ona köməkçi ol. Pisliklərini görməməzliyə vur. Əgər qəsd üzündən olmadan onun pis işini bilsən, bildiyini möhkəm qala və nizə ilə də yırtılmayan pərdə içində saxla. Çünki, bu iş dolaşıq və gizlindir. Bilməsə də, onun zərərinə söz danışma. Çətin anlarda onu bada vermə. Qonşunda nemət görsən ona həsəd aparma. Xətalarından keçib günahlarını bağışla. Əgər sənə qarşı nadanlıq edərsə, səbrlə müqabilində dayan. Ona qarşı pis söz işlətmə. Əgər kimsə onunla pisləşsə qarşısını al. Onunla hörmətlə rəftar et. Allahdan başqa heç bir güc-qüvvət yoxdur“

“CAR” (QONŞU) SÖZÜNÜN LÜĞƏTDƏ MƏNASI VƏ İSTİFADƏSİ

Ərəbcədən “car” sözü lüğətdə qonşu mənasındadır. Quranda Nisa surəsində, yaxın və uzaq qonşulardan ad aparılıb. Çünki, onlar bir-birlərinə yaxındırlar. Qonşulardan Quranda “qitəun mütəcavirat” yəni, bir-birinə yaxın kəsiklər ünvanı ilə ad aparılıb.[1]

Yenədə Quranda pənah olmaq məsələsi barəsində buyurur:

“Əgər müşriklərdən kimsə səndən aman istəsə, ona aman ver.”[2]

İcarə və isticarə sözləri, hər ikisi “car” kökündən olub, aman və pənah mənasında işlədilir. Sanki qonşu qonşunun pənah və amanındadır. Dilçi alim Rağib İsfahani yazır: Qonşunun haqqı ağılca və şəriətcə böyük olduğuna görə hər kimin üzərində böyük haqq olsa və ya başqasının haqqını böyük bilsə, ərəbcə ona “car” deyərlər. Məsələn, ayədə buyurur:

“Mən sizin aman yerinizəm və sizin haqqınızı böyük sanıram.”[3]

Qeyd etdik ki, Qurani-Kərimdə, yaxın və uzaq qonşulara aşkar şəkildə işarə olunmuşdur. İndi də Quranın bu barədə nəzərinə diqqət edək.

[1] Qamuse Quran, cild 2, səh 88.
[2] Tövbə surəsi, ayə 6.
[3] Ənfal surəsi, ayə 48.

O gələcək...

QURANDA QONŞUNUN HÜQUQU

Nisa surəsində oxuyuruq: **"Allaha ibadət edin və Ona şərik qoşmayın! Ata-anaya, qohum-əqrabaya, yoxsullara, yaxın və uzaq qonum-qonşuya, yaxın yoldaş və dostlara, (pulu qurtarıb yolda qalan) müsafirlərə, sahib olduğunuz qul və kənizlərə yaxşılıq edin!"**[1]

Yuxarıdıkı ayədə, Allahın, bəndələrin hüquqları barəsində həmçinin, insanlarla birlikdə yaşamağın ədəblərindən bəhs olunmuşdur. Ümumiyyətlə, ayədə on göstərişə işarə olunmuşdur.

Ayədə buyurur: "Yaxın qonşu". Yaxın qonşudan məqsəd kimdir? Müfəssirlər müxtəlif nəzəriyyələr irəli sürür. Bəziləri onları yaxınlıqda olan qohumlar kimi məna edirlər. Lakin, bu təfsir, əvvəlki ayələrdə işarə olunmuş qohumları nəzərə alsaq, bu məna uzaq nəzərə gəlir. Bəlkədə, ayədə yaxın məkan nəzərdə tutulur. Çünki, ən yaxın qonşuların haqqı və ehtiramı daha böyükdür. Yaxud, o qonşulardır ki, din və məzhəb cəhətdən insana daha yaxındırlar.

Ayənin davamında buyurur: "Uzaq qonşular". Uzaqdan məqsəd, məkan cəhətdən uzaq olmaqdır. Çünki, bəzi rəvayətlərə görə insanın evindən qırx o tərəfə onun qonşusu sayılır. Gələcək bəhslərdə bu rəvayətlərə işarə edəcəyik. Qonşu sözü məhdud mənada olub, təkcə yaxın qonşulara deyilir. İslamda, bu sözün mənasına genişlik verməkdən ötrü "uzaq qonşu" adından istifadə etməkdən başqa çarəsi yoxdur. Ola bilər uzaq qonşulardan məqsəd **qeyri-müsəlmanlar** olsun**.** Çünki, İslamda **qonşuluq** haqqı təkcə müsəlmanlara deyil, müsəlmanlarla yaşayan qeyri-müsəlmanlara da aiddir.

Quranın, yaxın və uzaq qonşular barəsində nəzərini bildikdən sonra rəvayətlərdə İslam Peyğəmbərindən (s), məsum İmamlardan (ə) bizə çatan mətləblərə qısa da olsa diqqət edək

RƏVAYƏTLƏRDƏ QONŞULARIN HÜQUQLARI

Rəvayət kitablarında qonşunun ehtiramı və insanın həyatda əmin-amanlıqla yaşamasında onun rolu bizə bəyan olmuşdur. Əvvəlcə, "Müstədrəkül-Vəsail" kitabından, İslam Peyğəmbərindən (s) nəql olunan geniş bir hədisə diqqət yetirək: İslam Peyğəmbərindən (s) nəql olunur, buyurur:

[1] Nisa surəsi, ayə 36.

O gələcək...

"Hər kim evinin qapısını, qonşusunun onun mal və namusuna əmin olmadığına xatir bağlasa, qonşusu mömin deyildir. Peyğəmbərə dedilər: Ya Rəsuləllah! Qonşunun qonşusunun üzərində haqqı nədir? Buyurdu:

Qonşunun qonşusuna ən kiçik haqqı budur ki, əgər ondan borc istəsə, ona borc versin. Əgər kömək istəsə, ona kömək etsin. Bir şeyi istifadə edib qaytarmasını istəsə ona versin. Bəxşiş və hədiyyəyə ehtiyacı varsa, ondan əsirgəməsin. Dəvətini qəbul etsin. Xəstələndiyi halda, onu yoxlasın. Dünyadan köçsə, dəfnində iştirak etsin. Qonşusuna xeyir və nemət çatsa, xoşhal olsun. Əgər ona müsibət baş versə, qəminə şərik olsun. Evini qonşusunun evindən uca tikməklə onun yaşayışına əziyyət etməsin. Ən mühüm budur ki, qonşunun qapısının havasının qarşısını almaqla, onun evinə təmiz havanın girməsinin qarşısını almasın. Bazardan aldığı meyvə yaxud, başqa şeydən, qonşusunda olmadığını bildiyi halda, ona da versin. Yaxud, aldığı şeyi, qonşunun uşaqlarının görüb dözə bilməyəcəklərini bilsə, üstü örtülü evə aparsın.

Sonra İslam Peyğəmbəri (s) buyurdu: **Sizə dediklərimi eşidin! Qonşuların haqqını əda edin! Allah-taala çoxlarına rəhmətini aid edər. Qonşular barəsində, mənə elə tövsiyə edilmişdir, güman edirdim ki, qonşu irs aparanlardan biridir."**[1]

Bu geniş həcmli hədisdə, İslam Peyğəmbəri (s) digər mövzulardan əhəmiyyətli olan üç məsələyə toxunmuşdur:

Birinci: Qonşunun mal və abır-həyasının əhəmiyyəti. Ümumiyyətlə, hər bir insanın evi, əmin-amanlıq yeri sayılır. Əgər bu məhəl əmniyyətini itirsə demək olar ki, insan ən əmin yerini əldən vermişdir. Bu aramlıq hər bir insanın həyatda olan ən böyük haqqı sayılır və heç kimin onu pozmağa ixtiyarı yoxdur. İslam Peyğəmbəri (s) buyurur: Əgər qonşu elə öz yaşayış tərzi ilə qonşusunun əmin-amanlığına təhlükə törətsə, belə şəxs mömin və ləyaqətli insanlar sırasından kənardadır. Ona görə də sual edən, İslam Peyğəmbərindən (s) soruşur: Qonşunun qonşusunun üzərində haqqı nədir? Bu vaxt İslam Peyğəmbəri (s) qonşunun hüquqlarını lazımi şəkildə bəyan edir.

İkinci: Evlərinizi hündür tikməklə qonşulara əziyyət verməyin. Bildiyimiz kimi İslam Peyğəmbərinin (s) risaləti dövründə uca binalar yox idi. Necə ki, Hicaz və Məkkədə də belə binalar yox idi. Lakin, Peyğəmbərin gətirdiyi din və təlimlər bütün zamanlara aid olduğundan və bu səbəbdən, bəsirət gözü ilə uzaqgörənlik edib, qonşuların evlərindən uca evlər tikib onlara çatan havanın və yollarının qarşısını

[1] Müstədrəkül-vəsail, cild 2, səh 79.

O gələcək...

almağı nəhy buyurmuşdur. Bu da, İslam dininin qanunlarının ümumi olmasının sirlərindən biri olub, bu dinin son haqq din olmasına dəlildir.

Bu günkü yaşayışın ən böyük müşküllərindən biri həmin, məskən və yaşayış yerini tapmaqdır. Bu müşkül təkcə bizim ölkənin yox, bəlkədə bütün dünyanın müşkülünə çevrilib. Təxminən, demək olar ki, bu müşkül, bu gün həll olunmaz bir məsələyə çevrilib. Qərb mədəniyyəti uca binalarda yaşamaq yolunu seçib və onun da acı nəticələrini dadıblar.

Üçüncü: Qonşu özünə aldığından, qonşusunda olmadığı halda ona verməlidir. Xüsusilə, kiçik uşaqları bu məsələdə daha çox nəzərə almaq lazımdır. Əgər aldığından bir şey vermək istəməsə, yaxud imkanı olmasa, aldığı şeyi qonşusunun görə bilməyəcəyi şəkildə üstüörtülü evinə aparmalıdır. Çünki, İslam Peyğəmbəri (s) buyurur: Əgər açıq qəlbli olmasanız qonşunuza olan nemətə dözə bilməzsiniz. Bu da, İslam Peyğəmbərinin (s) qonşunun haqqı barəsində tövsiyə etdiyi mühüm bir psixoloji məsələdir.

QONŞUYA ƏZİYYƏT HARAMDIR

İmam Sadiq (ə) buyurur: **"Hər kim qonşusunun əziyyət çəkməsinə səbəb olsa, Allah dərgahında məlun və tərk olunmuşdur."**[1]

Əksinə, qonşunun sevincinə səbəb olmaq günahların bağışlanmasına səbəb olur. İslam Peyğəmbərindən (s) nəql olunur, buyurur:

"Hər kim dünyadan köçsə və üç qonşusu ondan razı olsa, Allahın rəhmət və bağışlamağına aid olar."[2]

Yenə də İslam Peyğəmbərindən (s) nəql olunur, buyurur:

"Allaha və qiyamət gününə inanan, qonşusuna əziyyət etməz."[3]

Digər bir hədisdə İslam Peyğəmbərindən (s) nəql olunur, buyurur:

"Qonşunun qonşuya ehtiramı, övladın anaya olan ehtiramı kimidir. Sözsüz, riayət olunmalıdır."[4]

Qonşudan şikayət

İmam Sadiq (ə) buyurur: **"Bir nəfər İslam Peyğəmbərinin (s) yanına gəlib qonşusundan şikayətlənir. İslam Peyğəmbəri (s) üzünü**

[1] Müstədrəkül-Vəsail, cild 2, səh 78-79.
[2] Müstədrəkül-Vəsail, cild 2, səh 78-79.
[3] Müstədrəkül-Vəsail, cild 2, səh 78-79.
[4] Müstədrəkül-Vəsail, cild 2, səh 78-79.

O gələcək...

ondan çevirir. Ərəb yenidən gəlib şikayətlənir. Peyğəmbər (s) həzrət Əliyə (ə), Salmana və Miqdada buyurur: Gedin car çəkin ki, Allahın və mələklərin lənəti o şəxsə olsun ki, qonşusuna əziyyət edir."[1]

Qonşularla xoşrəftarlıq

İslam Peyğəmbəri (s) buyurur: **"Yaxşılıq etmək və yaxşı qonşu olmaq, ruzini artırar və şəhərlərin abadlaşmasına səbəb olar."[2]**

"Fiqhur-Rza" kitabında İmam Rzadan (ə) nəql olunur, buyurur: **"Qonşularına, yoldaşlarına və oturub-durduğun şəxslərə qarşı yaxşı rəftar et. Çünki, Allah-taala, qonşun barəsində səndən sual edəcək. İslam Peyğəmbəri (s) buyurur: Allah-taala qonşular barəsində mənə verdiyi tapşırıqdan güman edirdim ki, qonşum məndən irs aparacaq."[3]**

Qonşularınızdan muğayat olun

İslam Peyğəmbərindən (s) nəql olunur, buyurur:

"Qonşusu ac olan halda, özü qarnı tox yatan kəs mömin deyil!"[4]

Başqa hədisdə buyurur: **"Qonşusunun acından qarnı burulan halda, özü tox yatan kimsə, mənə iman gətirməmişdir. Qonşusu çılpaq olan halda, özü geyimli olan kimsə də mənə iman gətirməmişdir."[5]**

Həzrət Əli (ə) öz nümayəndəsi Osman ibn Hənifəyə məktub yazarkən belə buyurur:

"Məgər mən o halda tox olum ki, ətrafımda qarınları ac, qəlbləri və cigərləri teşnə olanlar olsunlar?"[6]

Pis qonşu

İslam Peyğəmbərindən (s) nəql olunur, buyurur:

"Pis qonşudan Allaha pənah aparıram. Evində oturub gözləri ilə sənə baxır, qəlbi ilə səni izləyir. Əgər bir şey baş versə və səni xeyirdə görsə, narahat olar. Əgər sənə giriftarçılıq və bəla üz versə, xoşhal olar."[7]

---

[1] Müstədrəkül-Vəsail, cild 2, səh 78-79.
[2] Müstədrəkül-Vəsail, cild 2, səh 78-79.
[3] Müstədrəkül-Vəsail, cild 2, səh 80.
[4] Müstədrəkül-Vəsail, cild 2, səh 80.
[5] Müstədrəkül-Vəsail, cild 2, səh 80.
[6] Müstədrəkül-Vəsail, cild 2, səh 80.
[7] Müstədrəkül-Vəsail, cild 2, səh 80.

O gələcək...

Ev almazdan öncə qonşular barədə araşdırma aparmaq

İslam Peyğəmbəri (s) buyurur: "**Ev və məskən almazdan öncə, qonşuluğunda olanlar barəsində soruşun. Yol getməzdən əvvəl yol yoldaşınızı təyin edin.**"[1]

QONŞULUĞUN HƏDDİ

İmam Sadiq (ə) Əmirəl-möminin Əlidən (ə) nəql edərək buyurur: **Məscidin və evin qonşusu, dörd tərəfdən qırx evdir.**"[2]

İmam Səccad (ə) qonşunun haqqı barəsində buyurur: **"Evinin dörd tərəfindən qırx ev o tərəfə qonşularındır. Onların haqqına riayət edib onlarla sülh və əmin-amanlıqda yaşamaqdan ötrü Allahdan fürsət dilə!"**

33. YOL-YOLDAŞININ HAQQI

وَأما حَقُّ الصَّاحب فَأَنْ تَصْحَبَهُ بالفَضلِ مَا وَجَدْتَ إِلَيه سَبيلاً وإلا فَلا أَقَلَّ منَ الإنصَاف، وَأَنْ تُكرمَهُ كَمَا يكرمُك، وَتحْفَظَهُ كَمَا يحْفَظُك، ولا يَسْبقُك فيمَا بَينَك وبَينَهُ إِلَى مكرَمَة، فَإِنْ سَبَقَك كَافَأتَهُ. ولا تُقَصِّرَ به عَمَّا يَسْتَحقُّ منَ الْمَوَدَّة. تُلْزمُ نفسَك نصيحَتَهُ وَحيَاطَتَهُ وَمُعَاضَدتَهُ عَلَى طَاعَة رَبه وَمَعُونتَهُ عَلَى نَفْسه فيمَا لا يَهُمُّ به منْ مَعْصيَة رَبه، ثُمَّ تكون [عَلَيْه] رَحْمَةً ولا تَكونُ عَليه عَذاباً. ولا قُوَّةَ إلا بالله.

"Yoldaşının haqqı odur ki, mümkün qədər, onunla bağışlayan və ehsanla yoldaşlıq et. Mümkün deyilsə, ən azı onun haqqında insafla riayət et. Sənə ehtiram və hörmət etdiyi kimi, sən də onun ehtiramını gözlə. Sənin abır-həyanı gözlədiyi kimi, sən də onun abır-həyasını gözlə. Çalış ki, heç bir kəramətli işdə səndən qabağa düşməsin. Əgər səndən qabağa düşsə, xeyirli işlə əvəzini çıx. Nə qədər bacarırsansa, yoldaşlığınızı qoruyun. Onu qoruyaraq pənahı olmağı özünə vacib bil. Allah-taalaya itaətdə ona kömək ol. Günah iş görməsini qərara almasının qarşısını al. Ondan ötrü rəhmət qaynağı ol və ona əziyyət verən olma! Allahdan başqa heç bir güc-qüvvət yoxdur "

İmam Səccadın (ə) bu bəhsdəki sözlərinin xülasəsi bunlardır:

[1] Müstədrəkül-Vəsail, cild 2, səh 80.
[2] Müstədrəkül-Vəsail, cild 2, səh 80.

O gələcək...

Birinci: İmkan olan hala qədər yoldaşın barəsində mərhəmət edib, onunla yaxşı rəftar et və onun haqqında ən azı insafa riayət et.

İkinci: O sənin ehtiramını gözlədiyi kimi sən də onun ehtiramını gözlə. Xeyir işlərdə səndən öndə getməsin. Əgər səndən qabağa düşüb sənə yaxşılıq etsə, sən də onun müqabilində yaxşılıqla əvəzini çıx.

Üçüncü: Dostluqda, məhəbbətdə, nəsihətdə və Allaha itaət etməkdə əlindən gələni ona köməklik göstər.

Dördüncü: Günaha düşərək Allahın əmrindən çıxmasının qarşısını al və ona qarşı əziyyət deyil, rəhimli ol!

Ərəbcə "söhbət" sözü yoldaşlıq və həmişə bir yerdə olan yoldaşa deyilir. "Sahib" sözü də yoldaş mənasındadır. Məşhur dilçi alim Rağib İsfahani yazır: "Sahib" sözü, daim bir-birinin yanında olmağa yoldaşlıq deyilir. Quranda buyurur:

"(Yusif dedi:) Ey mənim iki zindan yoldaşım! (sizə nə bir xeyir, nə də bir zərər verə bilən) ayrı-ayrı tanrılar daha yaxşıdır, yoxsa hər şeyə qadir və qalib olan bir Allah?"[1]

Başqa ayədə buyurur:

"Allah Özünə nə yoldaş, nə də övlad götürmüşdür."[2] Ayədə yoldaşdan məqsəd, zövcədir. Yenə də buyurur:

"Sizin yoldaşınız nə haqq yoldan sapmış, nə də azmışdır"[3] Ayədə məqsəd, İslam Peyğəmbəridir (s).

"Əshab" sözü, sahib sözünün cəmidir. Dost və yol-yoldaşı mənasındadır. "Əshab" sözü, Quranda yetmiş yeddi dəfə işlədilmişdir. Ən çox cənnət, nar və cəhim kəlmələrinə nisbət verilmişdir. Bəzən də, "Əshabus-səbt", "Əshabul-Mədyən", "Əshabul-Kəhf", "Əshabu-yəmən", "Əshabul-qubur", "Əshabul-fil" və sair mənalarına nisbət verilmişdir.[4]

Bir halda ki, "sahib" sözünün, yoldaş və dost mənasında olması, Həzrəti Yusifin də zindanda ətrafında olanları "yoldaş" adlandırması, Quran, Peyğəmbəri insanların dostu adlandırması aydın oldu, deyə bilərik ki, "sahib" və ya "müsahib" o şəxsdir ki, insanın yol yoldaşı və həmkarı olsun. Bu yoldaşlıq, qısa müddətli və uzun müddətli ola bilər. Bu yoldaşlıq, insanlar arasında haqq yaradır ki, hər bir şəxsin vəzifəsidir ki, bu hüquqlara riayət etsin.

---

[1] Yusif surəsi, ayə 39.
[2] Cin surəsi, ayə 3.
[3] Nəcm surəsi, ayə 2.
[4] Qamuse Quran, cild 4, səh 109.

O gələcək...

İNSANIN DOSTUNDAN XASİYYƏT GÖTÜRMƏSİ

İnsanın adi xüsusiyyətlərindən biri də, onun başqalarından tez xüsusiyyət götürməsidir. İnsan həm özü xüsusiyyət qəbul edir, həm də öz xüsusiyyəti ilə başqasına təsir edir. İnsanın şəxsiyyətinin formalaşmasının yollarından biri də, onun bu xüsusiyyətidir. Belə olduğuna görə müqəddəs Quran məntiqində insanlara xəbərdarlıq olunur və qiyamətdə insanın nadan və qafil dostlarından necə peşman olduğu təcəssüm olunur. Həmin səbəbdən insan qiyamətdə fəryad edir ki, ey kaş fılankəsi dost tutmayaydım! Lakin bu əfsusluq onun halına heç bir təsir qoymur. Qurani-Kərim bu mövzuda buyurur:

"**O gün zalim əllərini çeynəyib deyəcəkdir: Kaş ki, mən Peyğəmbər vasitəsilə (özümə) doğru bir yol tutaydım. Vay halıma! Kaş filankəsi özümə dost etməyəydim. And olsun ki, Quran mənə gəldikdən sonra məni ondan o azdırdı! Şeytan həmişə insanı xar edəndir!**"[1]

Bu ayələrdə, insanın qiyamət günündəki vəziyyəti bəyan olunur. O da insanın nadan dostuna görə qiyamətdə çəkdiyi həsrətdir. Ayədə "yəğuzzu" sözü, "ğəzzə" kökündən olub, dişləməyə deyilir. Adətən, bu ifadə, şiddətli təəssüflənən şəxs barəsində işlədilir. Məsəl var deyərlər: Filankəs həsrət barmağını yeyir. Ərəbcə barmaq yerinə "əl" deyilir.

Oxuduğumuz ayələr Qiyamət səhnəsini canlandırır. Lakin çoxları var ki, bu dünyanın özündə pis dost və yoldaşın əlindən fənaya uğramışdır.

RƏVAYƏTLƏRDƏ NADAN DOSTLAR BARƏSİNDƏ

İnsanın bu bəlalara mübtəla olmamasından ötrü rəvayətlərdə dostluğu qadağan olunmuş şəxslərə işarə edirik:

Həzrət Əli (ə) pis dostun insana təsiri barəsində buyurur:

"Şər insanlarla dostluqdan çəkinin! Çünki, insanın təbiəti özü də bilmədən, qarşı tərəfin pislik və çirkinliklərini oğurlayır. Sənin bu işdən xəbərin də olmur."[2]

Həmin mövzuda İmam Sadiq (ə) buyurur:

"Hər kim özünə pis dost seçsə, onun pisliyindən özünün sağlam ruhiyyəsindən bir şey qalmaz."[3]

---

[1] Furqan surəsi, ayə 27-29.

[2] Şərhe Nəhcül-Bəlağə, İbn Əbil Hədid, cild 20, səh 272.

[3] Müstədrəkül-Vəsail, cild 2, səh 65.

O gələcək...

Yenə də Həzrət buyurur: **"Hər kim axmaqla dost olmaqdan çəkinməsə, onun axmaqcasına gördüyü işlərin təsiri altına düşəcək və tezliklə xoşagəlməz əxlaqa malik olacaq."**[1]

Yerində deyilmiş bəyanlardan məlum olur ki, insan, xasiyyət qəbul etmək xüsusiyyətinə görə digərlərinin rəftar, hərəkət və davranışını özündə tez icad edir. Əgər insanın ətrafındakılar pis, axmaq və nadan şəxslər olarsa, istər istəməz onlarda olan davranışların şəraiti onda da əmələ gələcək. Nəticədə, çəkindiyi və ehtiyat etdiyinin ona mübtəla olduğunu anlayacaq.

Həkimlər deyirlər: Bəzi xəstəliklər var ki, sirayət edicidirlər. Sağlam şəxs, belə xəstənin yanından keçdiyi halda ona mübtəla olur və digərlərinə keçirmək təhlükəsində qalır. Bunlar, cismdə olan xəstəliklər deyil, bəlkə də, ruhi və rəvani xəstəliklərdir ki, digərlərinə keçə bilərlər. Həzrət Əlinin (ə) buyurduğu cümlədə oxuyuruq**: "Sənin təbiətin pislik və şər işi pis yoldaşdan oğurlayır."** Bu da həmin çirkin xüsusiyyətlərin insanın özünün də xəbəri olmadan dostundan ona sirayət etməsinə işarədir. İmam Sadiqin (ə) buyurduğuna diqqət etsək, oxuyuruq:

"Hər kim pislərlə dostluq etsə, onların pis xüsusiyyətlərinin özünə keçməsindən amanda deyildir. Yaxud, hər kim ağıldan kəm insanlarla yoldaşlıq etsə, özü də bu xəstəliyə mübtəla olmaq yolunda qərar tutmuş və o vaxt ayılacaq ki, artıq dostunun pis xüsusiyyətlərindən yaxa qurtara bilmir!"

AXMAQ DOSTA TABE OLMAĞIN NƏTİCƏSİ

Bir nəfərin evində su quyusuna ehtiyacı olur. Fəhlə çağırıb, evin içində bir quyu qazdırır. İş qurtaranda görür ki, evin içi torpaqla doludur. Təəccübdə qalıb nə edəcəyini bilmir. Axmaq bir dostu var idi. Onun yanına gedib ondan məsləhət istəyir. Dostu ona deyir: Fəhlənə de ki, evin başqa bir tərəfində, başqa bir quyu qazıb torpağı ora töksün. Kişi dostunun göstərişi üzrə əməl edir. Evin bir tərəfində başqa bir quyu qazdırıb, birinci quyunun torpağını ora tökür. Sonradan anlayır ki, ikinci quyunun torpağını nə edəcək? Yenə də dostunun məsləhətinə gəlir. O isə deyir: İndi də torpağı birinci quyuya töküb özünü bu işdən rahat et!

[1] Müstədrəkül-Vəsail, cild 2, səh 64.

Nadan darğa ilə məsləhət

Günlərin birində, bir kişinin inəyi yemək istəyərkən başı ilişib qabın içində qalır. İnəyin sahibi nə qədər fikirləşirsə, bir çarə qıla bilmir. Naəlac qalıb kəndin darğasının yanına məsləhətə gedib müşkülü ona nəql edir. Darğa deyir: Özüm hadisə yerinə gedib baxmayınca bir söz deyə bilmərəm. İnəyin sahibi darğanı özü ilə hadisə yerinə aparır. Darğa səhnəni görcək deyir: İnəyin başını kəsin! İnəyin başını kəsirlər. Bu zaman baş qabın içinə düşür və çölə çıxara bilmirlər. Darğa deyir: İndi ki, belədir qabı sındırıb başı çölə çıxarın. Axmaq darğanın fikrindən həm inəyin başı kəsildi, həm də qab sındırıldı. Axmaq dosta tabe olmağın nəticəsi budur.[1]

Həzrəti Süleyman peyğəmbərdən nəql olunur, buyurur:

"Dostlarına baxmamış, heç kimin barəsində qəzavət etməyin. Çünki, insan, dostları və yoldaşları vasitəsilə xüsusiyyətləşir."[2]

Həzrət Əli **(**əleyhissalam) buyurur:

"Bu altı sifətə malik şəxslərlə dostluq və yoldaşlıq etməyin faydası yoxdur:

1. Əgər sənə söz desə, yalan desə.

2. Əgər sən də ona söz desən, səni də yalançı sansa.

3. Sən onu əmin tanıyasan, o isə sənə xəyanət etsə.

4. Səni əmin tanıyan halda, sənə töhmət vursa.

5. Əgər ona nemət versən, təşəkkür etmək fikrində olmasa.

6. Nemətə qarşı küfr etsə və sənə nemət versə, boynuna minnət qoysa.

Bəs belə şəxslərlə dostluq etmək lazım deyildir."[3]

BELƏ ŞƏXSLƏRLƏ YOLDAŞLIQ ETMƏYİN

İmam Baqir (ə) buyurur: **"Atam mənə vəsiyyət edib buyurdu: Oğlum! Beş tayfa ilə mütləq şəkildə nə yoldaşlıq və nə də dostluq edərək həmsöhbət olub yol getmə! Soruşdum: Sənə qurban olum atacan! O beş tayfa kimlərdir? Buyurdu:**

Əvvəla, fasiq şəxslərlə yoldaşlıq etmə. Çünki, səni bir qarın yeməyə satacaq. Bəlkə də, ondan da aza satar. Soruşdum ki, ondan az

[1] Kəşkül Təbəsi, cild 1, səh 174.

[2] Səfinətül-bəhar, cild 2, səh 27.

[3] İsnə əşəriyyə, səh 231.

O gələcək...

nədir? Buyurdu: Səni bir loxmaya da satar. Lakin istədiyinə çatmaz. İkinci dəstə kimlərdir? – deyə soruşdum. Buyurdu: Paxıl şəxslərlə yoldaşlıq etmə. Çünki, onun malına şiddətli ehtiyacın olduğu halda, səni öz malından məhrum edər. Soruşdum: Üçüncü dəstə kimlərdir? Buyurdu: Çox yalançılarla yoldaşlıq etmə. Çünki, belə dost ilğım kimidir. Yaxın itaət yolunu sənə uzaq edər və yolu uzaq olan günahı sənə yaxınlaşdırar. Dördüncü tayfa kimlərdir? – deyə yenə soruşdum. Buyurdu: Nadan və ağıldan kəm insanlarla yoldaşlıq etmə. Çünki, o, sənə xeyir vermək istədiyi halda zərər verər. Nəhayət soruşdum: Beşincilər kimdirlər? Buyurdu: Qohum-əqrabaları ilə əlaqəsini kəsənlərlə də yoldaşlıq etmə. Çünki, mən, Quranda onların üç dəfə Allah-taala tərəfindən lənətləndiklərini görmüşəm."[1]

İmam Baqir (ə) əvvəlcə bu bəyanda buyurur: Fasiqlə yoldaşlıq etmə. "Fasiq" sözü lüğətdə, həddən xaric olmaq mənasındadır. Sözün kökü "fisq"-dir. Yəni, Allahın hökmünü görməməzliyə vurmaq, təcavüz və zülm etmək, xurmanın öz qabığından çölə çıxması, bəndənin Allahın əmrindən çıxması, əyyaşlıq və qeyrətsizlik mənalarında işlənilir. Fasiq şəxs Allahın haram buyurduqlarından kənara çıxmışdır. Hər kimin haram buyurulanlara ehtiramı olmasa, heç kimə hətta, dostuna da məhəl qoymaz.

İkinci dəstə paxıllardır. "Boxl" sözü lüğətdə, xəsislik, əli bərk, az xərc edən, tamahkar, pulsevər və rüsvayçı mənalarında işlənilir. "Kəzzab" sözü də mübaliğə şəklində olub çox yalan danışana deyilir.[2]

İmam Səccad (ə) buyurur: Qohum-əqrabasından üz döndərən, Quranda üç yerdə lənətlənmişdir. O üç yerə işarə edirik:

1.**"Əgər üz döndərsəniz, sizdən yer üzündə fitnə-fəsad törətmək və qohumluq tellərini qırmaqdan başqa bir şey gözləmək olarmı? Onlar Allahın lənət elədiyi kar və gözlərini kor etdiyi kimsələrdir."**[3]

Bu ayələr bir dəstə münafiq barəsində nazil olmuşdur. Allah-taala buyurur: Əgər müxalifət yolunu tutub Allahın əmrindən boyun qaçırsanız və Kitabdan (Qurandan) üz döndərsəniz, yer üzündə fəsad törətmək və qohumluq tellərini kəsməkdən başqa, sizdən heç bir iş intizarında olmaq olarmı? Bu məna, o vaxt ələ gəlir ki, ayədəki "təvəlləytum" sözü, "təvəlla" kökündən olub, üz çevirmək mənasında olsun. Amma, əgər bu kəlmə, "vilayət" kökündən, yəni, hökumət mənasında olsa,

[1] Kəşfül-Ğimmə, cild 2, səh 293.
[2] Fərhənge bozorge camei novin.
[3] Muhəmməd surəsi, ayə 22-23.

O gələcək...

müfəssirlərin əksəriyyəti ayəni belə məna edirlər: Əgər hökumət cilovu əllərinizə keçsə, fitnə-fəsad, qan tökmək və qohumluq tellərini kəsməkdən başqa, sizdən başqa bir iş intizarında olmaq olarmı?

2.**"Allahla əhd bağladıqdan sonra onu pozanlar, Allahın birləşdirilməsini əmr etdiyi şeyləri (qohumluq əlaqələrini) qıranlar, yer üzündə fitnə-fəsad törədənlər isə lənətə düçar olacaqlar. Onları axirətin pis aqibəti (Cəhənnəm) gözləyir."**[1]

Allah-taala bu ayədə, dünyanın etiqadı və əməli fəsadını üç cümlədə bəyan edir:

1. Allahın əhdlərini pozmaq. Bu da fitri, əqli və şər`i əhdlərə aiddir.

2. Əlaqələri kəsmək. İstər Allahla, istər İlahi rəhbərlərlə, istərsə də Allahın yaratdıqları məxluq və qohumları ilə olsun.

3. Yer üzündə fəsad törətmək.

3.**"O kəslər ki, Allahla (Ona iman gətirmək və itaət etmək barəsində) əhd bağladıqdan sonra onu pozur, Allahın birləşdirilməsini əmr etdiyi şeyləri (qohumluq əlaqələrini) parçalayır və yer üzündə fitnə-fəsad törədirlər. Məhz bələləri (dünyada və axirətdə) ziyana uğrayanlardır!"**[2]

Onların qohum-əqrabaları ilə əlaqələrinin bərpasının əhəmiyyəti o dərəcədədir ki, İslam Peyğəmbəri (s) buyurur:

"Qohum-əqrabalarla əlaqələrin bərpası şəhərləri abad edir və ömürləri uzadır. Bu işin sahibi xeyirxah olmasa da belədir."[3]

İMAM HƏSƏNİN (ə) YOLDAŞLIQ BARƏSİNDƏ CÜNADƏYƏ DEDİYİ SÖZLƏR

İmam Həsən Müctəba (ə) öz vəsiyyətində Cünadə ibn Üməyyəyə buyurur:

"Öz nəfsindən həmişə hesab apar. Əgər çətinliyə düşsən, kişilərlə yoldaşlıq et. Bu xüsusiyyətlilərlə yoldaşlıq et: O kəslər ki, sənə zinət olsunlar. Hüzuruna gedərkən səni qəbul edib qorusun. Onun köməyinə ehtiyacın olsa, sənə kömək etsin. Ona söz deyərkən sözünü təsdiqləsin. Onunla dostluq əhdi bağladığın halda, əhdində möhkəm olsun. Əgər əlini onun fəzilətinə tərəf uzatsan, əlindən tutsun. Əgər səndən abır-həyanın aradan getməsinə səbəb olası bir şey baş versə,

[1] Rəd surəsi, ayə 25.
[2] Bəqərə surəsi, ayə 27.
[3] Təfsiri Nümunə, cild 1, səh 105.

O gələcək...

onu gizlətsin. Əgər sənin tərəfindən yaxşılıq görsə, onu nəzərə alsın. Əgər ondan bir şey istəsən sənə versin. Əgər ruzigarın hadisələri ilə qarşılaşsan, sənin lə bərabər və qardaş olsun!"[1]

Əmirəl-möminin Əli (ə) alim və bilik sahibləri ilə oturub durmağı belə bəyan edərək, buyurur:

"Yalnız sağlam düşüncəli, ağlı və Allahdan qorxan şəxslərlə yoldaşlıq et. Yalnız, öz nəfsini paklayan alimlərlə yoldaşlıq et. Sirrini yalnız, əhdinə əməl edən vəfadar möminə söylə!"

Həzrət buyurur: **"Bilin! Alimlərlə oturub, onlara tabe olmaq elə bir işdir ki, ona görə insana mükafat verilər. Alimə tabe olmaq, ehsana çatıb, günahların aradan getməsinə səbəb olur. Həmçinin, bu əməl möminin axirət azuqəsi, dünyada və ölüm anında şərəfidir."**[2]

34. ŞƏRİKİN HAQQI

وَأَمّا حَقُّ الشَّرِيكِ، فَإِنْ غَابَ كَفَيْتَهُ، وَإِنْ حَضَرَ سَاوَيْتَهُ، ولا تَعْزِمْ عَلَى حُكْمِكَ دُونَ حُكمه، وَلا تَعمَلْ بِرَأيِكَ دُونَ مُناظرَته، وتَحْفَظُ عَلَيْه مَالَهُ وَتَنْفِي عَنْهُ خيَانتَهُ فَيمَا عَزَّ أو هَانَ فَإِنَّهُ بَلَغَنَا أَنَّ «يَدَ اللهِ عَلَى الشَّرِيكَيْنِ مَا لَمْ يَتَخاوَنا». وَلا قُوَّةَ إلا باللهِ.

"Şərikin sənin boynunda haqqı odur ki, olmayan vaxta onun işlərinə yetişəsən. Əgər yanında olarsa, onunla birlikdə ol. Onun fikrini bilməmiş, öz qərar və fikrin əsasında nəticə alma. Onun malını ondan ötrü hifz et. Onun işlərinin az və ya çoxuna xəyanət etmə. Çünki, bizə çatıb ki, nə qədər ki, iki şərik bir-birinə xəyanət etməyiblər, Allahın əli onların üstündədir. Allahdan başqa heç bir güc-qüvvət yoxdur."

"Şirk, şirkət, müşarikət", hər üçü şərik olmaq mənasındadır. "İşrak" da şərik etmək mənasındadır. Quranda, "Taha" surəsində oxuyuruq:

"Onunla (Harunla) arxamı möhkəmləndir. Onu işimə ortaq (şərik) et!"[3] Yəni, Musanın qardaşını, Fironu dinə dəvət etmək işinə şərik et.

Ortaq və ya şərik o kəsdir ki, bir şeydə və ya bir işdə başqası ilə ortaq olsun. Furqan surəsində oxuyuruq:

"O (özünə) heç bir övlad götürməmişdir. Mülkündə heç bir şəriki yoxdur."[4]

---

[1] Şərhe Risalətul-hüquq, Qapançı, cild 2, səh 210.
[2] Şərhe Risalətul-hüquq, Qapançı, cild 2, səh 209.
[3] Taha surəsi, ayə 31-32.
[4] Furqan surəsi, ayə 2.

O gələcək...

Allahın, kainata hökumət və tədbirində heç bir şəriki yoxdur. Şərikdən məqsəd müstəqil şərikdir. Yoxsa, kainatın tədbirindən ötrü çoxlu mələklər və qeyri-mələklər yaratmışdır.

"Şirk" addır. Yəni şirk əməli. Həmçinin, şərik və nəsib mənasındada gəlmişdir. Bəziləri: **"Yoxsa onların göylərdə bir şəriki var?"**[1] –ayəsində, "şərik" sözünün, "nəsib və bəhrə" mənasında olduğunu iddia edirlər. Müşrik o kəsdir ki, Allaha şərik qərar verir.[2]

ŞƏRİ CƏHƏTDƏN ŞİRKƏTƏ BAXIŞ

Şəriətdə "şirkət" yalnız, o hala deyilir ki, bütün xüsusiyyətlərindən oxşar iki malı bir yerə qatsınlar və hər bir şərikin o maldan istifadəsinə icazələri olsun.[3]

Bəzi İslam alimləri şirkətin, ərəbcə və ya qeyri-ərəbcədə tələffüz olunmasını şərt bilirlər. Əqd vasitəsilə bir-birilə şirkəti olanlar, həddi buluğa yetmiş, aqil, qəsd və ixtiyarlı olmalıdırlar. Həmçinin, öz mallarından da istifadə etməyə icazələri də olmalıdır. Səfeh şəxsin şirkəti düzgün deyildir.

Əllamə Hilli, özünün "Qəvaidul-Əhkam" kitabında yazır:

"Şirkət dörd qismdir: 1. Malların şirkəti. 2.Bədənlərin şirkəti. 3.Fikir mübadiləsində şirkət. 4.Nağd pul şirkəti. Birincidən başqa hamısı batildir." Beləliklə, şirkət yalnız, mallarda, o da şəriətin qoyduğu şərtlərlə düzgündür.

ALVERDƏ ƏDƏB QAYDALARINA RİAYƏT

Müqəddəs İslam dinində, ticarət və müamilənin düzgün, faydalı və halal olmasından ötrü bir sıra göstərişləri vardır. Hamı onlara riayət etməlidir. Ona görə də "Vəsailüş-Şiə" kitabında, ticarətin ədəbləri haqqında xüsusi bəhs açılmışdır. Şirkət də alverdən sayıldığına görə bu barədə də qeyd olunmuşdur. Lakin şirkət, müştərək olduğuna görə bu ədəblərə hər iki tərəf riayət etməlidir. Bu rəvayətlərdən birində İmam Sadiq (ə) buyurur:

"İslam Peyğəmbəri (s) buyurur: Hər kim alver edirsə, beş göstərişə əməl etməlidir. Əgər riayət etməsə alver etməsin:

[1] Fatir surəsi, ayə 40.
[2] Qamuse Quran, cild 4, səh 20.
[3] Əl-Xilaf Şeyx Tusi, cild 1, səh 138.

O gələcək...

1. **Riba (sələm) almaqdan çəkinsin.**
2. **Alverdə and içməsin.**
3. **Malın eybini gizlətməsin.**
4. **Satarkən malı tərifləməsin.**
5. **Mal alarkən onu pisləməsin."**

Digər bir hədisdə, İbn Tavus özünün "İstixarat" kitabında Əhməd ibn Məhəmməd ibn Yəhyadan belə nəql edir: Bir dəstə dostlarla ticarət etmək qararına gəldik. Səfərə yola düşərkən qərara aldıq ki, İmam Sadiqin (ə) hüzuruna gedib Ona salam ərz edək və bu işdə ondan xeyir-dua istəyək. Sonra İmam Sadiqin (ə) hüzuruna gedib məsələni həzrətə nəql etdik. İmam buyurdu:

"Sənə lazımdır ki, danışığında doğru olasan. Ticarətdə malının eybini gizlətməyəsən. Səndən mal alanı özü bilmədən aldatma. Çünki, alverdə aldatmaq haramdır. Özünə istədiyini başqalarına da istə. And içməkdən çəkin. Çünki, yalan and, insanı atəşə atır. Haqqa riayət edən tacirdan başqa bütün tacirlər ziyandadır. Nə vaxt ticarət üçün səfərə çıxmaq istəsən, dua et və Allahdan xeyir istə! Çünki, atam İslam Peyğəmbərindən (s) nəql edir ki, həzrət öz əshabına Quran təlim etdiyi kimi səfərə çıxarkən, istixarə etməyi də tövsiyə etmişdir."[1]

RƏVAYƏTLƏRDƏ ŞİRKƏT BARƏSİNDƏ

İslam Peyğəmbəri (s) buyurur:

"Həqiqətən, Allah-taala buyurur: İki şərik, nə qədər ki bir-birinə xəyanət etməyiblər, Mən onların arasında üçüncüyəm. Bəs hər vaxt xəyanət etsələr, Mən onların arasından gedərəm."[2]

Hüseyn ibn Muxtardan nəql olunur ki, İmam Sadiqə (ə) ərz etdim: Bir nəfərin şəriki var. Ona aydın olur ki, şəriki ona bir miqdar xəyanət etmişdir. Haqqı var ki, şərikinin xəbəri olmadan xəyanət etdiyi qədər onun malından götürsün? Həzrət buyurdu:

Necə də pis bir iş! Bunlar şərik olmuşdular ki, Allahın pənahında olub bir-birlərinə xəyanət etməsinlər. Mən özüm bunu sevirəm ki, əgər şəriklərdən biri yoldaşından xəyanət görsə, onun üstünü örtsün və şərikinin xəbəri olmadan malından bir şey götürməsin."[3]

---

[1] Vəsailüş-Şiə, cild 2, səh 284.
[2] Nəhcül-fəsahə, 767-ci kəlmə.
[3] Vəsailüş-Şiə, cild 13, səh 178.

Yuxarıdakı iki rəvayətdə gördüyümüz kimi iki şərik bir-birinə xəyanət etməyib, müştərək mallarından icazəsiz istifadə etməsinlər. Çünki, bu iş, şərikin haqqı ilə uyğun deyildir. İmam Səccad (ə) ortaq barəsində bir neçə mövzunu xatırladır:

Birinci: Şərik öz şəriki olmayan vaxtda icazəsiz ortaq maldan istifadə etməməlidir. Bəlkə də, o olmayan vaxtı onun işlərinə yetişməlidir.

İkinci: Şərik olan vaxtı onun haqqına riayət edib, bərabərlik və birliyə riayət etməlidir.

Üçüncü: Şərikinin nəzərinin əksinə qərara gəlməsin və bilsin ki, əvvəldən əhd ediblər ki, bir-birinə qarşı əmanətdar olacaqlar.

Dördüncü: Şərik, şərikinin malının qoruyucusu olub, ona heç bir xəyanəti rəva bilməsin. Bilsin ki, Allah-taala, nə qədər ki, bir-birlərinə xəyanət etməyiblər Öz lütf və mərhəmətini onlardan əsirgəmir. Lakin, xəyanət baş verərsə, Allah Öz rəhmətini onların üzərindən götürür!

35. MAL-DÖVLƏTİN HAQQI

وَأمّا حَقُّ المَالِ، فَأَنْ لا تَأْخُذَهُ إلاّ منْ حلِّه، ولا تُنْفقَهُ إلاّ في حلِّه، وَلا تُحَرِّفْهُ عَنْ مَوَاضعه، ولا تَصْرفَهُ عَنْ حَقَائقه، ولاَ تَجْعَلْهُ إذا كَانَ منَ اللَّهَ إلاّ إلَيه وَسَبَباً إلى الله. ولاَ تُؤَثرَ به عَلى نَفسك مَنْ لَعَلَّهُ لا يَحْمَدُك، وَبالْحَريِّ أَنْ لاَ يُحْسنَ خلافتَهُ في تَركَتك ولا يَعْمَلُ فيه بطاعَة ربك فتكونَ مُعينًا لَهُ عَلى ذلك أو بمَا أَحْدَثَ في مَالك أَحْسَنَ نَظرًا لنَفْسه، فَيَعْمَلَ بطاعَة رَبه فيَذْهَبَ بالْغنيمَة وتَبُوءَ بالإثم وَالْحَسْرَة وَالنَّدَامَة مَعَ التَّبعَة وَلاَ قُوَّةَ إلا بالله.

“Sənin boynunda mal-dövlətin haqqı budur ki, onu yalnız, halal yolla qazanıb, halal yolda sərf edəsən. Onu yersiz sərf edib yerini dəyişmə və Allah tərəfindən sənə verilmiş malı yalnız, Allah yolunda və bu yolda vəsilə sayılan şeydən ötrü sərf et. Sənə təşəkkür etməyəni özünə üstün qərar vermə. Bu yolda, Allaha itaəti tərk etmə, belə ki, başqalarına və varisinə kömək üçün özündən bir irs qalsın. O, bundan da yaxşısını səndən gözləyir. Elə et onu, Allaha itaət yolunda sərf etsin. Qəniməti o aparır, günah yükü və peşmançılıq isə sənin boynunda qalır. Allahdan başqa heç bir güc-qüvvət yoxdur!”

İmam Səccadın (ə) bu bəhsdə buyurduğu mövzular aşağıdakılarda xülasə olunur:

O gələcək...

1. Mal-dövlət ələ gətirmək və xərc etmək hansı yollarla olmalıdır.

2. Mal-dövlətin özünə görə yeri və məhəlli vardır ki, ordan ayrılmamalıdır. Həmçinin, mal-dövlət bəzən yalnız, xüsusi yerlərdə sərf olunmalıdır.

3. Allah tərəfindən verildiyinə görə Allah yolunda da sərf olunmalıdır.

4. Mal-dövlətdən, yaxşı və ağılla istifadə olunmalıdır. Yoxsa, varisin əlinə düşərək, maldan dünya və axirəti üçün yaxşı istifadə edəcək. Bu vaxt bəhrə ona, zərər və ziyan isə malı qazananın boynuna düşəcək.

MAL SÖZÜNÜN LÜĞƏTDƏ MƏNASI

İnsanın malik oduğu hər bir şey maldır. "Qamus" və "Əqrəbul-Məvarid" adlı lüğət kitablarında yazır: Malik olunan hər bir şeyə mal deyilir. Həmçinin, köçərilərin yanında heyvanlara da "mal" deyilir.

Dilçi alim Rağib İsfahani yazır: Mala o cəhətdən mal deyirlər ki, həmişə meyl edən və aradan gedəndir. (Bu dəstədən o dəstəyə meyl edir) Bu barədə məsəl var deyərlər: Mal, zinakar qadın kimi bir şeydir bir gün əttarın, bir gün də qəzet satanın evindədir. Quran buyurur**: "Mal və övlad dünyanın zinətidir**."[1]

MÜLKİYYƏTİN NÖVLƏRİ

Mülkiyyət iki növdür: Həqiqi mülkiyyət və etibari mülkiyyət. Həqiqi mülkiyyət, bir mövcudun başqa bir möcuda yaranışda malik olmasıdır. Məsələn, səbəb və məlul. Nümunə üçün nəfsin, zehni surətlərə hakim olmasını qeyd etmək olar. Nəfs, hər vaxt bir gülü təsəvvür etmək istəsə, o anda gül şəkili zehnə gəlir. Əgər diqqətini azaltsa, gül zehindən gedər. Allah-taala, bütün mövcudatların həqiqi malikidir. Quran buyurur:

"Göylərdə və yerdə nə varsa, hamısı Allaha məxsusdur. Allah hər şeyi (elmi və qüdrəti ilə) ehtiva etmişdir."[2]

Həqiqi malikiyyət, malikdən başqasına intiqal olunmağa qabil deyildir. Çünki, təkvini əhatə, nəql və intiqal oluna bilməz. Etibari mülkiyyət isə bir mövcudun başqa bir mövcuda elə malikliyidir ki, o şeydən istifadə etsin və onda başqalarının istifadəsinin qarşısını ala bil-

[1] Kəhf surəsi, ayə 46.

[2] Nisa surəsi, ayə 126.

O gələcək...

sin. Məsələn, insanın öz mal-dövlətinə olan malikiyyəti. Belə malikiyyət insanların bir-biriləri ilə əlaqələrindən yaranır. Ona görə etibari deyilir ki, maliklə mülk arasında həqiqi və təkvini bağlılıq yoxdur. Həmin səbəbdən etibari malikiyyət, nəql və intiqal oluna bilər.

İNSAN, YARANIŞIN ƏSASI

İslami nöqteyi-nəzərdən, insan, yaranışın əsl məhvəri olub bütün mövcudatlar onun xidmətindədirlər. Quran, İlahi nemətləri sayır və onları insan üçün yarandığına işarə edərək bir neçə yerdə buyurur:

"Yer üzündə nə varsa, hamısını sizin üçün yaradan Odur! (Allahdır)"[1]

"(Ey insanlar!) Məgər Allahın yerdə və göydə olanları sizə ram etdiyini, aşkar və gizli nemətlərini sizə bolluca ehsan etdiyini görmürsünüzmü?"[2]

"**Ey camaatım! Allaha ibadət edin. Sizin Ondan başqa heç bir tanrınız yoxdur. O sizi yerdən (torpaqdan) yaradıb orada sakin etdi."**[3]

"**Onlara (əlinizin altında olanlara) Allahın sizə verdiyi maldan verin!"**[4]

Sadalanan ayələrdən məlum olur ki, mal əslində Allaha məxsusdur. Bəs onun bağışlanması sizin üçün çətin olmamalıdır. Zikr olunan ayələrdən məlum olur ki, insan, yaranışda əsldir. Allah hər şeyi hətta, mal-dövləti də ondan ötrü yaratmışdır. İslam dininin nizamnaməsindən biri də iqtisadi sistemdir. Bu sistem ümumi olub, bəşərin maddi ehtiyaclarını, yemək, geyim, məskən, müdafiə sistemi, mədəni yayım, sağlamlıq, bəzi ruhi ehtiyacların ödənilməsi və insanın gözəllik tələblərini təmin etməkdən ötrü qərara alınmışdır.

DÜNYA, İSLAM NƏZƏRİNDƏ

Dünya həyatının həqiqəti barəsindəki ayə və rəvayətlər üç qismə bölünür:

1. Onlardan bəziləri dünyanı məzəmmət edir. Dünya bərəsində "oyun və boş şey" ifadələri Quranın Muhəmməd surəsinin 36-cı ayəsi,

[1] Bəqərə surəsi, ayə 29.
[2] Loğman surəsi, ayə 20.
[3] Hud surəsi, ayə 61.
[4] Nur surəsu, ayə 33.

O gələcək...

Ənam surəsi 64-cü ayə, Ənkəbut surəsi 20-ci ayələrdə işlənilmişdir. Həmçinin, dünya barəsində, "az azuqə, qürur yeri, mal-dövlət yığmaq yeri və fəxrlənmə yeri" kimi ifadələrə də rast gəlirik.

2. Digər ayə və rəvayətlərdə dünya həyatı barəsində elə fikirlər söylənilir ki, dünyanın sevimli və bəyənilmiş olduğunun əlamətləridir. Məsələn, dünya barəsində gələn ifadələrdən, "Allahın fəzli", Tövbə surəsi-28, Nəhl surəsi-16, Nisa surəsi-37, Nur surəsi-24-cü ayələrdə işlənmişdir. O cümlədən, dünya barəsində "Xeyir" ifadəsi Quranın Bəqərə surəsinin 180, 251, 272-ci ayələri, Adiyat surəsinin 6-cı ayəsi və Məaric surəsinin 70-ci ayəsində gəlib. "Rəhmət" ifadəsi Hud surəsinin 9-cu ayəsi, İsra surəsinin 100-cü ayəsi, Kəhf surəsinin 82-ci ayəsində qeyd olunub. Dünya barəsində "Həsənə"(ehsan) sözü, Əraf surəsinin 130-cu ayəsi və Tövbə surəsinin 50-ci ayəsində gəlmişdir. Bunların müqabilində, bəzi ayə və rəvayətlərdə xüsusi şəraitdə maddi məhrumiyyətdə qalmaq məzəmmət olunmuşdur.

3. Ayə və rəvayətlərin üçüncü dəstəsi, yuxarıdakı iki dəstə ayə və rəvayətlərin izahına varır. Belə ki, ibtidadən iki dəstə ayə və rəvayətlərdə nəzərə gələn ziddiyyəti aradan aparır. Belə ayələr, dünyanı, əgər axirət üçün müqəddimə qərar verilərsə, məhbub olduğu bəyan olunur. Belə olan halda, dünya bəyənilib ona bir növ əsalət verilir. Nümunə üçün aşağadakı ayədə buyurur:

"**Bizimlə qarşılaşacaqlarına (qiyamət günü dirilib hüzurumuzda duracaqlarına, cəzamıza yetişəcəklərinə) ümid etməyən, (axirətdən vaz keçərək) dünyanı bəyənib ona bel bağlayan və ayələrimizdən qafil olanların, məhz onların qazandıqları günaha görə düşəcəkləri yer Cəhənnəmdir."**[1]

DÜNYA, RƏVAYƏTLƏRDƏ

Həzrət Əli (ə) buyurur: **"Dünya, Allaha yaxın olanların ticarət yeridir."**[2]

İslam Peyğəmbəri (s) buyurur: **"Dünya, axirət tarlasıdır."** Və ya **"Dünya, axirətə yaxşı köməkdir."** Həmçinin, başqa yerdə buyurur:

"Saleh (halal) mal, saleh şəxslərə necədə yaxşıdır!"[3]

[1] Yunus surəsi, ayə 7-8.
[2] Nəhcül-Bəlağə, Sübhi Saleh ,131-ci hikmət.
[3] Vəsailüş-Şiə, cild 12, səh 17.

Bu rəvayətlərdən məlum olur ki, dünya axirətə müqəddimə üçün yaxşıdır. Rəvayətlərdə, "ticarət yeri, tarla və kömək" ifadələrindən məlum olur ki, dünya olmasa, insanın axirəti də yoxdur. Lakin, bəzən insan dünyanın axirətə müqəddimə olduğunu unudub, ona əsalət verir və hesab edir ki, dünya əsas hədəfdir. Belə olduqda, isə yalnız, öz rifahı üçün çalışıb, Allahdan qafil olur. Quran bu barədə buyurur:

"Əgər Allah (bütün) bəndələrinə bol ruzi versəydi, onlar (günah etməklə) yer üzündə həddi aşardılar."[1]

Yaxud, başqa yerdə buyurur: **"İnsana bir nemət (sağlamlıq, vardövlət) verdiyimiz zaman (Bizdən) üz çevirib uzaq gəzər. Ona bir pislik üz verdikdə isə məyus olar."**[2] Başqa surədə buyurur:

"Xeyr! Kafir insan azğınlıq edər. Özünün dövlətli olduğunu (bir şeyə ehtiyacı olmadığını) gördüyü üçün!"[3]

İlahi rəhbərlər, mal-dövləti kifayət edənə kimi təşviq edirlər. Rəvayətlərdən birində İslam Peyğəmbərindən (s) nəql olunur, buyurur:

"İlahi! Muhəmmədə, Əhli–beytinə və onları sevənlərə kifəyət qədər ruzi ver!"[4] Nəhcül-bəlağədə oxuyuruq:

"Dünyada, kifayətindən artıq tələb etmə və əlinə yetişənə də şükr et!"[5]

Ayə və rəvayətlərdən, dünyada mal-dövlətin insanın iqtisadi həyatında doğru və düzgün ideologiya ilə mühüm olduğu aydın olur. İndi də, İslam dini mal kəsb edib xərc etməkdə bizlərə hansı göstərişlər verməsinə nəzər salaq. İmam Səccad (ə) bu məsələnin mühüm olduğundan ona hüquqi nisbət verir.

MAL-DÖVLƏT QAZANMAQ VƏ TOPLAMAQ

Az-çox da olsa, bəşərin dünya malına məhəbbəti vardır. Lakin belə bir bəhs qarşıya çıxır ki, görəsən insanın dünya malına məhəbbəti fitri və təbiidir yoxsa, sonradan və arizidir? Bəziləri iddia edirlər ki, bu meyl insanda təbii olub, yaşayış fitrətində mövcuddur. Bəlkə də, heyvanlarda da təbii istəklərinə görə malik olmaq meylləri vardır.

Alimlərin nəzəriyyələrinə əsasən, insanda mal-dövlətə əlaqə və meyl, heç də müstəqil və təbii bir meyl deyildir. Bəlkə də, insanın sonra-

[1] Şura surəsi, ayə 27.
[2] İsra surəsi, ayə 83.
[3] Ələq surəsi, ayə 6-7.
[4] Biharul-ənvar, cild 73, səh 59.
[5] Nəhcül-Bəlağə, Sübhi Saleh, 45-ci xütbə.

O gələcək...

dan həyatdakı ehtiyaclarını ödəməkdən ötrü, yemək, libas, və məskən övladı saxlamaq, cinsi meylləri doydurmaq və sair kimi şeylərə ehtiyac vaxtında meylli olur.

Heyvanlar, öz hədəflərinə görə ehtiyacları olduqları əşyalara malik olmağa çalışırlar. Onlarda malik olmağın ən aşkar surəti qida, yuva və yaşayış məskənidir. Heyvanlarda malik olma meyli, adətən aclığın təsiri, cinsi meyl və balasından müğayat olmağına görədir.

Vilyam Ceyms, yaşayış mühitində malikiyyəti şəxsiyyətin çoxalması və ya psixoloji ruhiyyənin artımı kimi qiymətləndirir. Yazır: **"Mən, insanda təkcə ruh qüvvəsi deyildir. Bəlkə də, insanın libası, evi, miniyi, mülkü və bankdakı hesablarının hamısına aid olur. Bütün bunların hamısı insanda, mehr qüvvəsinin yaranmasında rol oynayırlar."**[1]

Mal-dövlətə məhəbbət fitri olmasa da, insanın həyatında fitri meyilləri doydurmaq, qüdrət və qüvvə ələ etməsində rolu olduğuna görə insanın çox istəklərinin təhəqqüq tapması və şəxsiyyətinin formalaşmasında çox təsirlidir. Bütün bunlar, tədricən mal-dövləti, insanların nəzərində əsas və sevimli bir amilə çevirir. Quran bu barədə buyurur: **"Həqiqətən, insan var-dövlətə çox hərisdir."**[2]

İmam Sadiq (ə) buyurur: **"Halal yolla mal yığıb, abır-həyasını qoruyub, borcunu ödəyib, qohum-əqrabası ilə əlaqə yaratmaq istəməyən kəsdə xeyir olmaz!"**[3]

MAL-DÖVLƏT QAZANMAQ HƏDƏFİ

"Günlərin birində, İslam Peyğəmbəri (s) öz əshabı ilə birlikdə sübh tezdən əziyyətlə çalışan güclü bir cavanı görür. Həzrətin ətrafındakılar onun işləməsindən təəssüflənib deyirlər: Ey kaş! Bu güclü və qüvvətli cavan öz gücünü Allah yolunda işlədəydi! İslam Peyğəmbəri (s) buyurdu: Bu sözü deməyin! Əgər o cavan, öz zəhmətilə, özünü dilənçilik zillətindən qurtarıb insanlara əl açmamaqdan ötrü çalışırsa, bu əməllə Allah yoluna tərəf gedir. Əgər öz zəhmətilə zəif valideynləri və gücsüz uşaqlarının həyatını idarə edib, ehtiyaclarını yerinə yetirməkdən ötrü çalışırsa, yenə də Allah yolunda çalışır. Lakin, çalışmağı dünya malı toplayıb əhali qarşısında fəxr etmək və

[1] Bozorgsal və cəvan (Qoftare fəlsəfi), cild 1, səh 272-274.
[2] Adiyat surəsi, ayə 8.
[3] Vəsailüş-Şiə, cild 12, səh 19.

O gələcək...

malı ilə öyünmək olsa, bu zaman fikri napak və çirkin olub Şeytan yolunda çalışır."[1]

Bu hədisdən belə bir nəticəyə gəlirik ki, insan yaşayışını idarə edib əhaliyə əl açmırsa, öz abır-həyasını satmamaqdan ötrü çalışıb maldövlət qazanırsa, Allaha ibadət edən bəndə hökmündədir. Belə sərvət nəinki məzəmmət olunmur, bəlkə də, həyatda hər bir insanın mühüm vəzifəsidir. Məsum İmamlarımızın (ə) rəftar və əməlləri bu məsələnin bariz nümunəsidir. İmam Sadiq (ə) buyurur:

"Məhəmməd ibn Münkədir nəql edir: Zənn etməzdim ki, Əli ibn Hüseyn (İmam Səccad əleyhissəlam), Məhəmməd ibn Əli kimi oğlundan yaxşısını öz canişini təyin etsin. Bu fikirlə günlərin birində qərara aldım ki, ona moizə edim və bu işi ona işarə edim. Lakin, o mənə nəsihət etdi. Məhəmməd ibn Münkədirin dostları ondan imamın ona etdiyi nəsihət barədə soruşdular. İsti günlərin birində, gündüz günorta vaxtı Mədinənin ətrafındakı küçələri gəzirdim. İmam Baqirə (ə) rast gəldim. O, dolu və ağır bir şəxs idi. İki qara qulamı ilə birlikdə işləməklə məşğul idilər. Öz-özümə fikirləşdim ki, Qureyş tayfasının böyüklərindən biri, günün bu isti çağında dünya ardıcadır. Gedim ona moizə edim.

Yaxınlaşıb salam verdim. Alnından tər sel kimi axırdı. Ərz etdim: Qureyşlərin böyüklərindən birinin günün bu istisində dünya ardınca olması necədir? Əgər bu halda əcəl tamam olarsa, nə olar?

Həzrət cavabında buyurdu:

- Əgər ruhu alan mələk, bu halda mənim sorağıma gəlsə, Allahın itaətində olmuş hesab olaram. Ailə uşağımın dolanışığından ötrü işləyirəm. Əhaliyə əl açmaram. Mən qorxuram ki, ölüm mələyi mənim sorağıma gəldikdə, günah halında olmayım!

Dedim: Doğru deyirsiniz, ey Peyğəmbər övladı! Mən sizə nəsihət vermək istədim, lakin siz mənə nəsihət etdiniz!"[2]

Bəli! İlahi rəhbərlər yaşayışlarını dolandırmaqdan və ehtiyac əllərini bəzi pis fitrətlərə açmamaqdan ötrü həmişə, işdə çalışıblar. Öz tərəfdarlarına ehtiyac əllərini əhaliyə tərəf uzatmayıb, öz zəhmətilə dolanmağa tövsiyə ediblər. İslam nöqteyi-nəzərində hər kim öz arvad-uşaqlarını dolandırmaqdan ötrü halal zəhmətlə çalışırsa, döyüş cəbhəsində düşmənlə cihad edənlər kimidir! İmam Sadiq (ə) yenə buyurur:

---

[1] Mühəccətül-beyza, cild 3, səh 140.

[2] Vəsailüş-Şiə, cild 12, səh 9-10.

O gələcək...

"Hər kim öz arvad-uşaqlarını dolandırmaqdan ötrü halal zəhmətlə çalışırsa, Allah yolunda düşmənlə cihad edənlər kimidir!"[1]

Əksinə, hər kim öz arvad-uşaqlarını buraxıb, onların rifahından ötrü çalışmasa, Allahın rəhmətindən məhrumdurlar.

İslam Peyğəmbərindən (s) nəql olunur buyurur: **"Allahın rəhmətindən məhrumdurlar! Allahın rəhmətindən məhrumdurlar. O kəslər ki, haqqı boyunlarında vacib olanların haqqını zay etsələr!"**[2]

HALAL YOLLA PUL QAZANMAQ

İmam Baqir (ə), İslam Peyğəmbərindən (s) nəql edir ki, "Həccətul-vidada" buyurdu:

"**Bilin! Cəbrail mənə xəbər vermişdir ki, heç kimin ruzisi tamam və kamal verilməyincə dünyadan getməz! Elə isə, Allahdan qorxub günah etməyin və ruzi üçün çalışmaqda müxtəsər yol tutun. Əgər ruziniz bir az gecikərsə, bu sizi günahla ruzinizi qazanmaq üçün haram yola əl atmağa vadar etməsin. Çünki, Allah-taala bəndələri arasında haramı yox, halal ruzini bölmüşdür. Elə isə, hər kim səbr etsə, Allah-taala onun ruzisini halal yolla yetirər. Lakin, ismət pərdəsini yırtıb, tələsik haram yolla ruzi qazanmaq istəsə, ruzisi azalar və qiyamət günü onunla haram ruzinin hesabı aparılar!"**[3]

Bu hədisdə, səbr etmək mühüm sayılır. Əgər insanın ruzisi gec çatıb meyli üzrə olmasa, tələsib haram yola düşməli deyil. Çünki, Qiyamətdə Allah dərgahında bu işin hesabını verəcəkdir!

ZƏHMƏTLƏ VƏ ZƏHMƏTSİZ RUZİ

İmam Sadiq (ə) buyurur: "**Ruzi, iki qismə bölünür. Bir qismi, tələb etməsə də sahibinə çatar. İkinci qisim isə tələb etmək və ardınca getməyə bağlıdır. İnsanın qismətinə düşən ruzi tələb etməsə də, ona yetişəcək. Lakin, insanın tələb etdiyi ruzini yaxşı olar ki, halal yolla özü qazansın. Əgər həmin ruzini haram yolla qazanıb götürsə, ruzisi sayılır ancaq, qiyamətdə onunla haram yolla qazandığına görə hesab çəkiləcək!"**[4]

[1] Vəsailüş-Şiə, cild 12, səh 43-44.
[2] Vəsailüş-Şiə, cild 12, səh 43-44.
[3] Vəsailüş-Şiə, cild 12, səh 27.
[4] Vəsailüş-Şiə, cild 12, səh 29.

O gələcək...

Nəql olunan rəvayət, İmam Səccadın (ə) ruzini haram yolla deyil, halal yolla qazanılması barədə buyurduqlarının təkmilidir. Həzrət buyurmuşdur: Mümkündür ki, sənin haram yolla qazandığın ruzi, varislərin əlinə keçsin və onlar o maldan xeyirxahlıqla bəhrələnsinlər, lakin qiyamətdə acı nəticəsi sənə çatacaq.

Əmirəl-möminin Əli (ə) buyurur: **"Qiyamət günü ən böyük həsrət budur ki, birisi qeyri-şəri yolla mal-dövlət yığsın və bu mal başqasına irs çatmaqla, başqası onu Allah yolunda xərcləsin. O kişi Behiştə gedər. Ancaq malı qazanan Cəhənnəmə düşər!"**[1]

Bəli! Bu ən böyük xəsarətdir ki, sənin haram yolla qazandığın mal, dünyada başqasının əlinə düşsün və o da bunu halal yolda sərf etsin. İkinci şəxs, həm dünyada, həm də Axirətdə bəhrə aparır. Bədbəxt o şəxsdir ki, həm dünyada əziyyətlə haram qazanır, həm də axirətdə onun əzabına düçar olur!

36. TƏLƏBKARIN HAQQI

وَأَمّا حَقُّ الغَرِيمِ الطَّالِبِ لَكَ فَإِنْ كُنْتَ مُوسِرًا أَوفَيتَهُ وكَفَيتَهُ وَأَغْنَيتَهُ وَلَمْ تَرْدُدْهُ وتَمْطُلْهُ فَإِنَّ رَسُولَ اللَّه صَلَّى اللهُ عَلَيْهِ وَآله – قَالَ – «مَطلُ الغَنِيِّ ظُلْمٌ». وَإِنْ كُنْتَ مُعْسِرًا أَرْضَيتَهُ بِحُسْنِ القَوْلِ وَطَلَبتَ إِلَيهِ طَلَبًا جَمِيلاً وَرَدَدتَهُ عَنْ نفْسِكَ ردًّا لَطِيفًا، وَلَمْ تَجْمَعَ عَلَيْهِ ذَهَابَ مَالِهِ وَسُوءَ مُعَامَلَتِهِ فَإِنَّ ذلِكَ لؤمٌ. ولا قُوَّةَ إلاّ بِاللهِ.

"Tələbkarın sənin boynun da haqqı budur ki, mümkün qədər, onun haqqını verəsən, işini yoluna qoyub ehtiyacını ödəyəsən və onu gecikdirib məəttəl qoymayasan. Çünki, İslam Peyğəmbəri (s) buyurur: "İmkanı olub borcunu verməmək zülmdür." Əgər yoxundursa, onu yaxşı dillə xoşhal et, aramlıqla ondan möhlət istə və onu xoşluqla özündən qaytar (səndən inciyib getməsin). Malını ondan alıb onunla pis rəftar etmə. Çünki, bu iş alçaqlıqdır! Allahdan başqa heç bir güc-qüvvət yoxdur!"

İmam Səccad (ə) kitabın bu hissəsində tələbkarın haqqında xülasə olaraq belə buyurur:

1. Borclu öz borcunu ödəməyə imkanı olduğu halda, təxirə salmadan borcunu ödəməlidir. Tələbkarla elə rəftar eləməlidir ki, onu özündən incitməsin. Əgər elə etməsə, özünün alçaqlığını nişan vermişdir. Çünki, həm qarşı tərəfin malını almış, həm də onunla dava-dalaş etmişdir. Belə şəxs məzəmmətə layiqdir.

[1] Nəhcül-Bəlağə, Sübhi Saleh ,429-cu hikmət.

O gələcək...

İnsanın həyatının xüsusiyyətlərindən biri də enişli-yoxuşlu olmasıdır. İnsan həm dövlətli, həm də fəqir və möhtac ola bilər. Hər iki halda çalışmalıdır ki, möhkəm iradə ilə özünü saxlasın. Dövlətli vaxtı tüğyan etməməli və möhtac olan zaman şəxsiyyətini sındırmamalıdır. Müqəddəs İslam məktəbinin ən mühüm məsələlərindən biri də, borc vermək, başqalarına kömək və borcunu qaytara bilməyənlərə möhlət verməkdir. Bu barədə Qurani-Kərimdə çoxlu ayə zikr olunub və bu məsələnin əhəmiyyətini açıqlayır. İndi də, bu ayələrdən bəzilərinə işarə edək.

QURANDA BORC VERMƏYƏ BAXIŞ

Təğabun surəsində, mal-dövlət barədə söhbət açılaraq onu fitnə kimi bəyan etdikdən sonra buyurulur:

"**Əgər Allaha (Allah yolunda) gözəl (könül xoşluğu ilə) borc versəniz, Allah sizin üçün onun əvəzini qat-qat artırar və sizi bağışlayar. Allah qədirbilən və həlimdir!"**[1]

"Qərz" (borc) sözü ərəbcədən, bir şeyin qət olunmasına deyilir. Əgər "həsənə" (gözəl), sözü ilə birlikdə işlənərsə, maldan ayırıb xeyir işə sərf etmək mənasındadır. Ayədən məlum olur ki, borc vermək günahların bağışlanmasına səbəb olur. Həmçinin, məlum olur ki, Allah-taala da Öz bəndələrinə bu əməlin müqabilində böyük mükafatlar verməklə, onlara təşəkkür edir. Hədid surəsində oxuyuruq:

"**Kimdir o kəs ki, Allah yolunda könül xoşluğu ilə borc versin, Allah da onun əvəzini qat-qat artırsın?! Onu həm də çox qiymətli bir mükafat gözləyir!"**[2]

Yenədə həmin surədə buyurur:

"Şübhəsiz ki, infaq (Allah yolunda xərc) edən kişi və qadınların, Allah yolunda gözəl (könül xoşluğu ilə) borc verənlərin mükafatları qat-qat artırılacaqdır. Onları həmdə çox qiymətli bir mükafat gözləyir!"[3]

Bəziləri ehtimal verirlər ki ayədəki, "gözəl borc" sözündən məqsəd, bəndələrə borc verib sonra onu almaqdır. Çünki, Allahın Özünün borca ehtiyacı yoxdur. Mömin bəndələrin borca ehtiyacları vardır. Lakin ayələrin mənasından məlum olur ki, "gözəl borc" sözündən məqsəd,

[1] Təğabun surəsi, ayə 17.
[2] Hədid surəsi, ayə 11.
[3] Hədid surəsi, ayə 18.

O gələcək...

"Allah yolunda xərc etmək" nəzərdə tutulur. Bununla belə bəndələrə borc vermək də böyük fəzilət sayılır.[1]

Quranın Bəqərə surəsində buyurur: "**Allah yolunda (könül xoşluğu ilə halal maldan) yaxşı borc verən kimdir ki, Allah da onun mükafatını (əvəzini) qat-qat artırsın?! Allah (kimisini) sıxıntıya salar (ruzisini azaldar), (kimisinin də) ürəyini açar (bol ruzi verər). Siz (dünyada) gördüyünüz işlərin əvəzini almaq üçün Onun hüzuruna qaytarılacaqsınınız."**[2]

QURANDA RİBA (SƏLƏMÇİLİK) HAQQINDA

Qeyd etdiyimiz kimi İslam dinində ən mühüm məsələlərdən biri də, borc vermək və ümumiyyətlə, sədəqə və Allah yolunda xərc etməklə yoxsullara kömək etməkdir. Borc verənin niyyəti yalnız, Allaha görə olmalıdır. Bu barədə, Quran ayələrini də zikr etdik. Bunun müqabilində Quran elə bir məsələni də açmışdır ki, bu gün əksər cəmiyyətlər ona mübtəla olmuşdur. Bəqərə surəsində oxuyuruq:

"**Ey möminlər! Əgər doğrudan da iman gətirmişsinizsə, Allahdan qorxub sələmdən qalan məbləğdən (faizdən) vaz keçin! Əgər belə etməsəniz, o zaman Allaha və Onun Peyğəmbərinə qarşı müharibəyə girişdiyinizi bilin! Yox, əgər tövbə etsəniz, səmayəniz (mayanız) sizindir. Beləliklə, nə siz zülm edərsiniz, nə də sizə zülm olunar."**[3]

Birinci ayədə deyilir: Sələm yemək, iman ruhu ilə yol getməz. İkinci ayədə sələm yemək, Allah və Peyğəmbəri ilə müharibə kimi göstərilib. Əgər sələmçi bu işdən tövbə edərsə, onun barəsində ədalətlə hökm olunar. Yəni, əsl sərmayələri gəlirsiz olaraq onlara qaytarılar. Bu zaman nə sələmçi zalim olar, nə də borcluya zülm olunmuş olar. Həmin surədə başqa ayədə buyurur:

"**Sələm (faizli borc verməklə) yeyənlər (qiyamət günü) qəbirlərindən ancaq Şeytan vurmuş (dəli) kimi qalxarlar. Bunların belə olmaları: "Alış-verişdə sələm kimi bir şeydir!"- dedikləri ucbatındandır. Halbuki, Allah alış-verişi halal, sələm almağı isə haram etmişdir. İndi hər kəs Rəbbi tərəfindən gələn nəsihəti qəbul etməklə (bu işə) son qoyarsa, keçmişdə aldığı (sələmlər) onundur. Onun işi Allaha aid-**

[1] Təfsiri-Nümunə, cild 23, səh 344.
[2] Bəqərə surəsi, ayə 245.
[3] Bəqərə surəsi, ayə 278-279.

O gələcək...

dir. Amma (yenidən sələmçiliyə) qayıdanlar cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar! Allah sələmi (sələmlə qazanılan malın bərəkətini) məhv edər, sədəqələri (sədəqəsi verilmiş malın bərəkətini) isə artırar. Allah kafir və günahkarı sevməz."[1]

Ərəbcə "xətb" sözü, insanın öz müvazinətini saxlaya bilmədən yol getməsi və ya durmasına deyilir. Bu ayədə sələm yeyən divanə və yol gedə bilməyənə oxşadılıb. Yəqin ki, bu sözdən məqsəd, sələm yeyənlərin cəmiyyətdəki yollarına işarədir ki, onların bu əməli dəlilikdir. Yəni, onlarda, həmdərdlik, köməklik, insani hisslər və dostluğun mənası yoxdur.

Yaxud, ayədən məqsəd, qiyamətdə əməllərinin təsirindən dəlilər kimi qalxıb məşhur olmalarıdır? Əksər müfəssirlər ikinci ehtimalı qəbul edirlər. Çünki, insanın o dünyadakı vəziyəti, bu dünyadakı əməllərinin təcəssümüdür. Ehtimal da var ki, hər iki məna nəzərdə tutulmuşdur.

İmam Sadiq (ə) hədislərin birində buyurur:

"**Sələm yeyən dünyada bir növ dəlilik xəstəliyinə mübtəla olmayınca dünyadan getməz!"**[2]

Bu məqamda belə bir sual qarşıya çıxır ki, dəlilik və divanəliyin qaynağı Şeytandandırmı? Yaxud, dəlilik bir çox tanınmış amillərin səbəbindən əmələ gəlmiş bir növ ruhi xəstəlikdirmi? Cavab olaraq belə demək lazımdır: Bəziləri mötəqiddirlər ki, ayədəki "Şeytan vurmuş" sözündən məqsəd, bir sıra ruhi xəstəliklərdən kinayədir. Bu cür ifadə, o zaman ərəblər arasında çox işlədilirmiş. Lakin çox da uzaq nəzərə gələn deyil ki, Şeytan insana toxunmaqla, insan bir sıra hiss üzvlərini əldən versin və bunun da nəticəsində düzgün təfəkkür və məntiqi fikirləşmək qüdrəti insanda yox olsun! Hər halda bu ayədə, dünya və Axirətdə sələm yeyənlərin vəziyyəti bəyan olunur.

SƏLƏMÇİLƏRİN MƏNTİQİ

Sələm yeyənlər deyirdilər: Alış-veriş də sələm kimi bir şeydir. Onların nə fərqi var? Hər ikisi müamilədir. Quran onların cavabında buyurur: Allah-taala alış-verişi halal, sələm yeməyi isə haram buyurmuşdur. Fərq çox aydındır. Çünki, adi alış-verişdə hər iki tərəf bərabər olub, alverin xeyir və zərərində şərikdirlər. Halbuki, sələm alverində sələmçi heç vaxt zərər görmür. Bundan əlavə, adi alver və ticarətdə hər iki tərəf

[1] Bəqərə surəsi, ayə 275-276.
[2] Təfsiri-Nümunə, cild 2, səh 272.

O gələcək...

istehsal və məsrəfdə qədəm atırlar. Halbuki, sələmçinin bu əməlində heç bir müsbət cəhət yoxdur. Bütün bunlardan əlavə, sələmçiliyin yayılması ilə sərmayələr napak şəxslərin əlinə düşür və iqtisadiyyatın kökləri təzəlzül tapır. Halbuki, düzgün ticarət, sağlam sərvətin artmasına səbəb olur. Sələmçilikdə təsəvvür olunan başqa zərərlərdən biri də, sələmçilik cəmiyyətin təbəqələri arasında düşmənçilik və müharibələrin sərçeşmələri sayılır. Amma, düzgün ticarət belə deyildir.

Ali-İmran surəsinin 130-cu və Nisa surəsinin 159-cu ayələrində də sələm barəsində bəhs olunmuşdur. Lakin, ixtisar üzündən biz onlara işarə etmirik. Nəticə budur ki, İslam, infaq, sədəqə və borclar verməyə təşviq edir. Ancaq, sələmçilik və təbəqələşmənin vücuda gəlməsinin qarşısını alır.

BORCLUYA MÖHLƏT VERİLMƏSİ

İmam Səccad (ə) buyurur: **"Borclu mümkün qədər, öz borcunu saxlamadan ödəməlidir. İmkanı olmadığı halda borcunu ödəməyə qüdrəti çatana qədər ona möhlət verilməlidir."** Qurani-Kərim bu barədə buyurur:

"**Əgər sizə borclu olan şəxs çətin vəziyyətdə olarsa, ona vəziyyəti yaxşılaşıncaya qədər möhlət verin! Əgər bilmək istəyirsinizsə, (borcu) ona bağışlamağınız daha yaxşıdır!"**[1]

Keçmiş bəhslərdə, borc və sələmçilik barədə olan ayələri araşdırdıq. Bu ayədə, tələbkarın heç bir faiz olmadan öz haqqını almasının ardınca borclunun da hüquqlarından birinə toxunulur. O da budur ki, əgər borclular öz borclarını verməkdə qüdrətləri yoxdursa, cahiliyyət dövründəki kimi onun üstünə faiz gəlib sıxıntıda saxlamamalı, əsl borcunu qaytarmaqdan ötrü ona möhlət verilməlidir. Bununla da, borclunun nə vaxt imkanı olsa, öz borcunu qaytarsın. Əslində, həmin ayənin izahı olan İslam qanunlarında aşkar şəkildə göstərilir ki, borclunun öz borcunu qaytara bilməməsindən ötrü onun həyatında zəruri olan şeylərini ondan almağa heç kimin icazəsi yoxdur. O cümlədən, tələbkar borcludan zəruri sayılan ev və başqa yaşayış vasitələri deyil, qeyri zəruri şeyləri tələb etməyə haqqı vardır. Bu da İslamda zəif təbəqələrin hüquqlarını müdafiə edən bir növ insani haqqdır.

Ayənin ardınca bundan da yuxarı mərhələyə işarə olunur. O da budur ki, həqiqətən, əgər borclu öz borcunu ödəyə bilmirsə və tamamilə

[1] Bəqərə surəsi, ayə 280.

O gələcək...

acizdirsə, yaxşı olar ki, tələbkar bir addım da böyük bir insani addım atsın və öz pulundan Allaha xatir keçsin. Bu əməl, hər cəhətdən tələbkarın insaniyyətinə xeyir gətirər. Hər kim bu işin mənafesini anlasa onu təsdiqləyər.

Əgər bu ayəni, İmam Səccadın (ə) buyurduğu: "**Malını ondan alıb onunla (tələbkarla) pis rəftar eləmə. Çünki, bu alçaqlıqdır"**– sözləri ilə müqayisə etsək onda görərik ki, Quran və onun ardınca İmamət, (İmamlar) şəri məsələri müsəlmanlara necə də gözəl ifadə ilə çatdırıblar. Tələbkar və borclunun hüquqlarını ən yaxşı üslubla izah etmişlər.

Bu hüquq bəhsinin sonunda mərhum Feyz Kaşaninin "Şafi" kitabının ikinci cildində, borcunu qaytarmaqdan aciz olana, onu bağışlamağın savabı haqqında gətirdiyi rəvayətlərin bəzisinə işarə edirik:

İmam Sadiq (ə) hədislərin birində buyurur:

"Kim istəyir, o gün ki, Allahın kölgəsindən (rəhmətindən) başqa heç bir kölgə yoxdur, Haqqın kölgəsində qərar tutsun? (Bu cümləni üç dəfə təkrar edir. Camaat yığışıb bu məsələnin cavabını gözləyir) Həzrət buyurur: Hər kim borcludursa və borcunu qaytara bilmirsə, ona möhlət verin! Yaxud, öz haqqınızı ona bağışlayın. Bu əməlin nəticəsi, Qiyamət günü həzrəti Haqqın rəhmətində qərar tutmaqdır!"[1]

Yenə də İmam Sadiq (ə) hədislərin birində buyurur: **"Günlərin birində, İslam Peyğəmbəri (s) mənbərə çıxıb buyurur: Həmd və tərif Allaha məxsusdur. Peyğəmbərlərə salam olsun! Sonra buyurur: Ay camaat! Hər kim şahiddir və mənim sözlərimi eşidirlər olmayanlara da xəbər versinlər. Agah olun! Hər kim borcunu qaytara bilməyənə qüdrəti olana qədər möhlət versə, Allah-taala tələbkarın borcu qayıdana qədər, hər günü üçün bütün malının sədəqə verməsinin ölçüsündə ondan ötrü savab yazar."**[2]

Sonra İmam Sadiq (ə) Quran ayəsinə işarə edir: "**Əgər sizə borclu olan şəxs çətin vəziyyətdə olarsa, ona vəziyyəti yaxşılaşıncaya qədər möhlət verin! Əgər bilmək istəyirsinizsə, (borcu) ona bağışlamağınız daha yaxşıdır!"** Buyurur: Borclu çətin vəziyyətdədirsə, öz malınızı ona sədəqə verin! Bu sizin öz xeyirinizədir.

İslam Peyğəmbəri (s) buyurur:

"İnsana qüdrəti olan halda borcunu saxlayıb təxirə salması halal olmadığı kimi tələbkara da halal deyil ki, borclunun imkanı olmayan halda ondan borcunu tələb etsin!"[3]

[1] Şafi, cild 2, səh 110.
[2] Şafi, cild 2, səh 110.
[3] Şafi, cild 2, səh 110.

O gələcək...

İmam Sadiqə (ə) buyurdular: **"Əbdurrəhman ibn Siyabənin boynunda ölmüş bir kişinin borcu vardı. Biz onunla söhbət etdik ki, onun borcundan keçib ona bağışlasın, o isə qəbul etmədi. İmam buyurdu: Vay olsun ona! Məgər bilmir ki, əgər bağışlasa, hər dirhəmin müqabilində on dəfə artıq mükafatı var? Əgər bağışlamasa, bir dirhəmin müqabilində bir dirhəm savab aparır!"**[1]

37. HƏMKARIN HAQQI

وَأَمّا حَقُّ الخَلِيطِ فَأَنْ لا تَغُرَّهُ ولا تَغُشَّهُ ولا تُكَذِبَهُ ولا تُغَفِّلَهُ ولا تَخدَعَهُ ولا تَعمَلْ في انتقاضِهِ عَمَلَ الْعَدُوِّ الَّذي لا يُبقي عَلَى صَاحِبِهِ وَإن اطْمَأَنَّ إليكَ اسْتَقْصَيتَ لَهُ عَلَى نَفْسِكَ وَعَلِمْتَ أَنَّ غَبْنَ الْمُسْتَرْسِلِ رِبًا. ولا قُوَّةَ إلاَ باللهِ.

"**Həmkarınla sənin aranda olan haqq budur ki, onu aldatmayasan, yalan deyib ona hiylə işlətməyəsən, onu qəflətdə saxlamayasan və düşmən kimi öz qarşı tərəfini diqqətə alıb, onun işlərini pozmayasan. Sənə etimad etdiyi halda mümkün qədər onu doğrult. Bilki, sənə etibar edən şəxsi aldatmaq sələm əməli kimi hesab olunur. Allahdan başqa heç bir güc-qüvvət yoxdur!"**

İmam Səccad (ə) buyurur: Hər kim sənlə hər növ yoldaşlıq və həmkarlıq edərsə, sənin üzərində haqqı vardır. O da budur ki, onu aldatmayasan və ona qarşı hər cür hiylə və kələkdən çəkinəsən. Onunla düşmən kimi rəftar etməyəsən. Sənə etimad etdiyi halda ona zərbə vurmayasan!

Keçən bəhslərdə yoldaşın və dostun hüquqları barəsində çoxlu ayə və rəvayətlər zikr etdik. Onların həmkarlıqla bağlılığı olduğu üçün onları təzədən təkrarlamırıq. Lakin, həmkarlığa aid bir neçə rəvayətə işarə edəcəyik.

HƏMKARLIQ BARƏDƏ RƏVAYƏTLƏR

İmam Sadiq (ə), İslam Peyğəmbərindən (s) nəql edir, buyurur:

"**İnsanların ən xoşbəxti o kəsdir ki, əhali ilə alicənablıqla həmkarlıq etsin!"**[2]

[1] Şafi, cild 2, səh 110.

[2] Biharul-ənvar, cild 74, səh 185.

O gələcək...

Bu hədisdə, insan səadətinin amillərindən biri kimi, yaxşı həmkar və səmimi dostları olması qeyd edilir. Yenə də həmin mövzuda, İslam Peyğəmbərindən (s) nəql olunur, buyurur:

"Alimlərdən soruşun, ariflərlə əlaqəniz olsun və fəqirlərlə oturub-durun!"[1]

Bu hədisdə də, İslam Peyğəmbəri (s) cəmiyyətə öz rabitələrini arif və hikmətli şəxslərdən kəsməməyi tövsiyə edir.

YAXŞI DOSTUN XÜSUSİYYƏTLƏRİ

İslam Peyğəmbəri (s) buyurur:

"Allah-taala, hər kimə bir xeyir yetirmək istəsə, ona saleh bir dost yetirər. Əgər Onu unutsa, xatırladar, əgər xatırlasa, ona kömək edər."[2]

İnsanın seçdiyi dostu sağlam əqlli və təcrübəli olmalıdır. Əvvəlki bəhslərdə qeyd etdik ki, nadan və ağılsız dostlardan çəkinmək lazımdır. İkinci, dost dindar olub niyyəti xeyirli olmalıdır. Üçüncü, dostun yaxşı bəyənilmiş əxlaqi xüsusiyyələri olmalıdır. Çünki, pis dost, insanı şər və xətaya çəkəcək. Dördüncü, dostluğa meyli olsun və insanla həqiqi dost olmalıdır.

İmam Səccad (ə) insanı dostluqda, hiylə və məkrdən çəkindirir. Hiyləgər insan aqil deyildir. İnsanın batini ilə əməli fərqli olduqda məkrli və hiyləgər olur. İmam Sadiq (ə) buyurur:

"**İslam Peyğəmbəri (s) buyurur: Hiyləgər, mənim ümmətimdən deyildir"**[3]

Əmirəl-möminin Əli (ə) yalançılığa mübtəla olan şəxs barəsində buyurur:

"Yaxşı olar ki, insan, yalançılığa mübtəla olmuş şəxslə, dostluq və qardaşlıq etməsin! Çünki, belə xasiyyətə mübtəla olmuş şəxs, doğru danışdığı halda da, yalan kimi qələmə veriləcək."[4]

Bu bölümdə bəyan olan haqqın xülasəsi budur ki, yaxşı dost və yoldaş, Allah-taalanın böyük nemətlərindən olub, insanın boynunda haqqı vardır. Onun haqqını hiylə və kələklə zay etmək olmaz. Əksinə, hər bir dost öz dostunun haqqını gözləməlidir.

---

[1] Biharul-ənvar, cild 74, səh 185.
[2] Şərhi risalətul-hüquq, Qapançı, cild 2, səh 289.
[3] Üsuli-kafi, cild 2, səh 336.
[4] Üsuli-kafi, cild 2, səh 337.

O gələcək...

38. İDDİAÇI VƏ ƏLEYHİNƏ İDDİA OLUNMUŞ ŞƏXSİN HAQQI

وَأمّا حَقُّ الخَصْمِ المُدَّعِي عَلَيْكَ، فَإنْ كَانَ مَا يَدَّعِي عَلَيكَ حَقّاً لَمْ تنفَسخ فِي حُجَّتِه وَلَمْ تَعمَلِ فِي إبطَالِ دَعْوَتِه وكُنْتَ خَصْمَ نفْسِكَ لَهُ والحَاكِمَ عَلَيْهَا والشَّاهِدَ لَهُ بحَقِّهِ دُونَ شَهَادَةِ الشُّهُودِ، فَإنَّ ذَلِكَ حَقُّ اللَّهِ عَلَيْكَ، وَإنْ كَانَ مَا يَدَّعِيه بَاطِلاً رَفَقْتَ بِهِ وَرَوَّعْتَهُ وناشَدتَهُ بدينه وكَسَرْتَ حِدَّتَهُ عَنكَ بذكرِ اللهِ وَأَلْقَيْتَ حَشْوَ الكَلامِ وَلَغَطِه الَّذِي لا يَرُدُّ عَنْكَ عَادِيَةَ عَدُوِّكَ بَلْ تَبُوءُ بِإثمه وَبهِ يَشْحَذ عَلَيْكَ سَيفَ عَدَاوَتِه لأَنَّ لَفْظَةَ السُّوءِ تَبعَثُ الشَّرَّ. وَالخَيْرُ مُقمِعَةٌ لِلشَّرِّ. وَلاَ قُوَّةَ إلا باللهِ.

“Sənə qarşı iddiaçının haqqı budur ki, əgər iddiasında doğrudursa, dəlilini sındırma və iddiasını batil etmə. Özün onun xeyrinə və öz əleyhinə hökm et. Şahid olmayan halda, ona şahid ol. Çünki, bu, Allahın sənin üzərinə qoyduğu haqqdır. Əgər öz iddiasında batildirsə, onunla yumuşaq rəftar et və onu qorxudaraq dininə and içdir. Allahı ona xatırlatmaqla batil yolunun qarşısını al. Onunla çox da pis davranma, çünki, bu işin düşməninin sənə qarşı təcavüzünün qarşısını almaz. Bəlkə də, onun günahına giriftar olub, onun düşmənçilik şəmşiri sənə qarşı daha da itilənər. Çünki, pis söz şər gətirər və yaxşı söz şərri aradan götürər. Allahdan başqa heç bir güc-qüvvət yoxdur!”

Sözün qısası budur ki, sənə qarşı iddiası olan şəxs, iki haldan xaric deyildir. Ya iddiasında doğrudur. Bu vaxt haqq onunladır. Bu anda onun haqqı sənin boynunda budur ki, iddiasını qəbul edib öz əleyhinə hökm verəsən. Çünki, burada haqq, Allahdır. Əgər iddiasında batildirsə, onun haqqı sənin boynunda budur ki, onunla yumuşaq rəftar edib, həddini aşmağın qarşısını alasan. Acı sözlərinlə onun acılığını çoxaltma ki, acı şəmşir sənə qarşı, daha da acılansın. Bəlkə də, səbr və aramlıqla öz səhvini ona başa salmağa çalış!

وَأمّا حَقُّ الخَصْمِ الْمُدَّعَى عَلَيه فَإنْ كَانَ مَا تدَّعِيه حَقًّا أَجْمَلْتَ فِي مُقَاوَلَتِه بمَخرَجِ الدَّعْوَى، فَإنَّ للدَّعْوَى غلْظَةً فِي سَمْعِ الْمُدَّعَى عَلَيهِ. وَقَصَدْتَ قَصْدَ حُجَّتِكَ بالرِّفقِ وَأمْهَلَ الْمُهْلَةَ وَأبْيَنِ الْبَيَانِ وَأَلطَفِ اللُّطْفِ ولَمْ تَتشَاغَلْ عَنْ حُجَّتِكَ بمُنازَعَتِه بالقِيلِ وَالقَالِ فتَذهَبَ عَنْكَ حُجَّتُك ولاَ يَكونَ لَكَ فِي ذَلِكَ دَرْك. ولا قُوَّةَ إلا باللهِ.

“Əleyhinə iddia etdiyin şəxsin sənin boynunda haqqı budur ki, əgər ona qarşı iddianda haqqlısansa, davadan xaric olmaqdan ötrü onunla yumuşaq rəftar et. Çünki, qarşı tərəfin qulağında sənin iddi-

anın çox təsiredici əsəri vardır. Tam aramlıq və aydınlıqla öz dəlilini ona başa sal və onunla dəyişməyə görə öz dəlilindən əl götürmə. Çünki, dəlil əlindən çıxandan sonra ələ gətirmək çətindir. Allahdan başqa heç bir güc-qüvvət yoxdur! "

Qısası, əgər haqq sənindirsə, onun haqqı sənin boynunda odur ki, rahatçılıqla öz dəlilini ona bəyan edəsən və öz iddianı sübuta yetirəsən. Öz dəlilini elə bəyan et ki, haqqın aradan getməsin!

İXTİLAF VƏ ŞİKAYƏTİN MƏNBƏYİ

İnsanların dünyada qısa ömürlərindəki arzularından biri də aram və əmniyyətlə yaşamaqdır. Heç kim razı deyil ki, həyatda kimsə onların haqqına təcavüz etsin. İnsan, eşq və məhəbbətlə həyat sürmək istəyir. Dava və ixtilafı xoşlamır. Lakin, başqa tərəfdən, insanı hərislik və arzular əhatə etmişdir. Özündə olan təkəbbür və öyünmək hissi onu məcbur edir ki, öz haqqına qane olmayıb başqalarının haqqına təcavüz etsin. Həmin səbəbdən insanlar arasında müharibə və ixtilaflar yaranmağa başlayır. Təbii ki, hər hansı mühitdə insan cəmiyyəti çox olarsa, ixtilaf və çəkişmədə çox olacaqdır. Bu ixtilaf və çəkişmədə hər iki tərəf eyni halda haqq ola bilməz. Şübhəsiz ki, tərəflərdən biri təcavüzkardır. Bu cəhətdən, cəmiyyətdə olan ixtilafları həll edib, hərənin haqqını özünə verə bilən ədalətli bir qaziyə ehtiyac duyulur. Əvvəlcədən işarə etdik ki, peyğəmbərlərin göndərilmələrinin səbəblərindən biri də cəmiyyətdə ixtilafları aradan qaldırmaqdır.

İSLAM DİNİ İXTİLAFLARIN KƏSİLMƏSİNƏ DƏVƏT EDİR

İslam dininin məntiqi, insanları ilk növbədə bir-birinə qarşı məhəbbət və mərhəmətə dəvət etməsidir. Bundan da üstün, onları bir-birinə qarşı bağışlamaq və əvf hissi ilə baxmağa səsləyir. Həyatlarında ixtilafların kök atmasına yol verməməyi tövsiyə edir. Allah-taala, Quranda mühacir və ənsardan sonra gələn tabeinlər barəsində buyurur:

"**Onlardan (mühacirlərdən və ənsardan) sonra gələnlər (tabein) belə deyirlər: Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş (din) qardaşlarımızı bağışla. Bizim qəlblərimizdə iman gətirənlərə qarşı kinə, həsədə yer vermə. Ey Rəbbimiz! Sən, həqiqətən, şəfqətli və mərhəmətlisən!"**[1]

[1] Həşr surəsi, ayə 10.

O gələcək...

Onlardan ötrü zikr olunan üç xüsusiyyət bunlardır: **Birinci:** Özlərinin islahı və tövbə etməklə bağışlanmaq fikrindədirlər. **İkinci:** Özlərindən əvvəlki iman gətirənlərə qarşı böyük qardaş kimi baxıb, hər cəhətdən ehtiramlarını qoruyurlar. **Üçüncü:** Hər cür kin, həsəd və düşmənçiliyi qəlblərindən atmaq istəyirlər.

"Ğill" ərəbcədən lüğətdə, bir şeyin gizli nüfuzuna deyilir. Ona görə də ağacların altından axar suya da "ğilәl" deyilir. Həsəd və düşmənçilik gizli şəkildə insanın qəlbinə nüfuz etdiyindən ona "ğill" deyirlər. Bəs "ğill" təkcə həsəd yox, bəlkə də, insanın qəlbinə gizli nüfuz edən bütün çirkin sifətlərə deyilir. Ayədən göründüyü kimi əsl müsəlmanların fikri, bir-biriləri arasında dostluq və qardaşlıq yaratmaqdır.

Əvvəlki ayədə deyilənlər, onların dünyadakı işlərinə bağlı idi. Lakin, əbədi həyat olan axirətə görə onların barəsində "Əraf" surəsində buyurur:

"**Biz onların (cənnət əhlinin) ürəklərindəki kin-küdurəti çəkib çıxardarıq. Onların (qaldığı yerin) altından çaylar axar. Onlar (Rəbbinin bu lütfünü gördükdə) deyərlər: Bizi bura gətirib çıxaran Allaha həmd olsun!"**[1]

Bəşərin ömür boyu axtardığı şirin və səadətli yaşayışı, Allah Behiştdə onlara vədə vermişdir. Ayələrdən məlum olur ki, İslam dini ilk növbədə insanları kinsiz və düşmənçilikdən uzaq həyata dəvət edir. Belə olmayan halda, onların arasında ixtilaf yaranacaq. İslamda bundan əlavə, xüsusi "barışdırma və islah etmək" göstərişi vardır.

İXTİLAFLAR ARADAN GETMƏLİDİR

"Kafi" kitabında, **"İnsanlar arasında islah"** adı ilə rəvayətlər vardır. Öz din qardaşları arasında islah işləri aparmaq müsəlmanların vəzifəsidir. Bundan əlavə, onların arasında ibadət ünvanı ilə də islah işləri aparmalıdırlar. İmam Sadiq (ə) bu barədə buyurur:

"Allahın ən çox sevdiyi və qəbul etdiyi sədəqə, müsəlmanlar arasında islah işi aparıb, mübahisəli vaxtı onları bir-birinə yaxınlaşdırmaqdır!"[2]

Digər bir hədisdə İmam Sadiq (ə) buyurur:

"Mənim üçün iki nəfərin arasında islah işi aparmaq, iki dirhəm sədəqə verməkdən üstündür."[3]

[1] Əraf surəsi, ayə 43.
[2] Üsuli-kafi, cild 2, səh 209.
[3] Üsuli-kafi, cild 2, səh 209.

O gələcək...

Əgər islah işi ilə müsəlmanlar arasında razılaşma olmasa, onların işi məhkəmə və qəzaya çəkiləcək. İslam dini, yaşayış mühitində ədaləti hərtərəfli bərpa etməkdən ötrü çoxlu məhkəmə göstərişləri təyin etmişdir. Bu yüksək dərəcəli ali və dəqiq hökmlərlə hər bir şəxs cəmiyyətdə öz hüquqi haqqına layiqincə çata bilər. Mühakimədə bir neçə qanun şərt buyurulmuşdur. Əvvəla, məhkəməni aparan hakim, müsəlmanlar arasında ən ədalətli şəxslərdən olub, ixtilafda olanların hər ikisinə eyni gözlə baxmalıdır. İkinci, qazi öz qəzavətində yalnız, Allahın razılığını əsas götürməlidir. Bu bəhsimizdə, İslam dininin bir neçə qəzavət göstərişlərinə işarə edirik.

MƏHKƏMƏ QANUNLARI

Avropa ölkələrində məhkəmə barəsində atılan ən yüksək addımlar aşağıdakı üç mövzuda xülasə olunur:

1. Hakim, canilərin hansı təbəqədən olmasına baxmayaraq mühakimə etməkdə müstəqil və toxunulmazdır.

2. Hakim öz ehtiyaclarını ödəməkdən ötrü kifayət dərəcədə imkana malik olmalıdır. Bununlada, hər hansı bir sərvətli cinayətkar müqabilində, puluna gözü düşüb hökmündə xəyanət etməsin.

İngiltərə dövləti bu barədə ən böyük addım atmışdır. Hakimlərdən ötrü məvacib təyin olunmamışdır. Bəlkədə, hakimin ixtiyarında məbləği yazılmamış ağ dövlət çekləri qoyulmuşdur. Hakim istədiyi və ehtiyacı olan vaxt bu çeklərə məbləği yazır və pulunu istənilən dövlət bankından ala bilər.

3. Məhkəmədə hamı hakimin nəzərində bir olub, heç kimə üstünlük verilməli deyildir.

Bu üç qanun, bu gün avropa ölkələrində əməli olan ən böyük məhkəmə qanunlarındandır. Lakin, İslam dininin məhkəmə göstərişləri bunlardan daha kamil şəkildə müsəlmanların ixtiyarında qoyulmuşdur.

QAZİNİN QÜDRƏTİ

Müqəddəs İslam dinində qazilərə o qədər ixtiyar və qüdrət verilmişdir ki, hətta, dövlət üzvləri arasında hakim və ya onun xüsusi müavinindən başqa heç kimə o qədər qüdrət verilməmişdir. Əmirəlmöminin Əli (ə) Misirə göndərdiyi Malik Əştər adlı nümayəndəsinə fərman ünvanı ilə belə yazır:

O gələcək...

"Şəhərin qazisini əhalinin ən bilikli, layiqli və pak şəxslərindən birini təyin et. Öz yanında qazinin rütbə və məqamını o qədər böyük göstər ki, dövlət üzvlərindən, dostlardan və həmkarlardan heç kəs bu məqamı qəlblərindən də keçirməsinlər. Ey Malik! Qaziyə qüdrət cəhətdən verilən bu məqam ona görədir ki, əl-qolu açıq olmaqla, vəzifəsindən asılı olmayaraq, azad şəkildə, qorxusuz-hürküsüz bütün cinayətkarları mühakimə edə bilsin və onların barəsində qanunu icra etsin!"[1]

QAZİNİN MAL-DÖVLƏTDƏ MÜSTƏQİLLİYİ

İslam qanunları, qazinin yaşayışında ehtiyacı olduğu bütün imkanları və müstəqilliyi qərara almışdır. Bu cəhətdən, qaziyə ən böyük müstəqillik verilmişdir. Əmirəl-möminin Əli (ə) həmin məktubda yazır:

"Beytül-maldan, qaziyə o qədər ver ki, insanlardan heç kimə ehtiyacı olmasın!"

Bu göstərişdə Həzrət öz nümayəndəsinə fərman verir ki, qazi üçün hüquq ayıranda diqqətli ol. Ola bilsin sənin təyin etdiyin maaş onun ehtiyacını ödəməsin və bu da fürsət tələblərin ondan istifadə etməsinə səbəb olsun.

QAZİNİN MƏHKƏMƏDƏ VƏZİFƏLƏRİ

Mühakimə bəhsində üçüncü mövzu qazinin müttəhim və iddiaçılara bərabər şəkildə və bir gözlə baxmasıdır. Müqəddəs İslam dinində, məhkəmədə bərabərlik məsələsində o qədər diqqətə yer verilmişdir ki, demək olar ki, təkcə avropada yox, yüz əsrlər sonra belə bəşəriyyətdə bu bərabərlik kimi qanun qərara gəlməyəcək. İslam nöqteyi nəzərindən məhkəmədə qazinin vəzifələri bunlardır:

1. İxtilafı olan iki tərəf arasında tamamilə bərabərliyi bərqərar etmək. Müqəddəs İslam dinində qərara alınıb ki, məhkəmədə ixtilafı olan iki tərəfi bərabər yerbə otuzdurub hətta, məclisin yuxarı-aşağı tərəfində olmalarında da bərabərliyə riayət olunmalıdır. Əgər tərəflərdən biri böyük şəxsiyyələrdən digəri ən pis adamlardan olsa da, qazi bu bərabərliyə tam riayət etməlidir. Onların arasında heç bir ayrı-seçkiliyə

[1] Nəhcül-bəlağə, 53-cü məktub.

O gələcək...

yol verməməlidir. Bu mövzuda nümunə üçün aşağıdakı əhvalata diqqət edək.

Harun və qazinin təyini

Tarix yazır: Abbasi xəlifələrindən olan Harun ər-Rəşid, həcc əməllərini yerinə yetirdikdən sonra Mədinəyə qayıdır. Mədinə əhalisi, şəhər qazisinin dünyasını dəyişdiyindən ondan şəhərə təzə bir ədalətli qazi təyin etməsini xahiş edirlər. Mədinənin iki nəfər ədalətli və pak alimlərini xəlifəyə təklif edirlər. Harun, hansının qazilik məqamına daha layiqli olduğunu bilməkdən ötrü onlardan birini öz yanına çağırtdırır. Vəziri yanında olarkən alimə deyir: Mənimlə vəzirim arasında bir mülk üstündə ixtilafımız var. İxtilafın səbəbini də ona danışıb bu məsələnin hökmü barəsində onun nəzərini tələb edir. Alim bir qədər fikirləşdikdən sonra deyir: Bu işdə haqq xəlifə ilədir. Belə deyib, xəlifənin xeyirinə hökm verir. Harun ona getməyə icazə verir. Sonra göstəriş verir ki, ikinci alimi gətirsinlər. Həmin məsələni olduğu kimi ikinci alimə də açıqlayıb ondan qəzavət etməsini istəyir. İkinci alim buyurur: Mən qəzavət edə bilmərəm, çünki, məhkəmə şəraiti mövcud deyil. Davanın bir tərəfində sizsiniz ki, məclisin yuxarı başında oturmusunuz. Halbuki, vəzir sizin mühakimənizin qarşı tərəfidir və sizin qabağınızda durub. İslam qanuna görə məhkəmə zamanı hər iki tərəf bərabər şəkildə bir yerdə oturmalıdırlar. Harun alimin azad ruhundan xəbər verən bu sözlərini eşidib ləzzət alır və dərhal onu qazi mənsəbinə təyin edir.

2. İki tərəf arasında bərabərliyi bərqərar eləməkdən ötrü qazi hətta, baxışında və işarəsində də bərabərliyə riayət etməlidir. Məhkəmədə, birinə digərindən çox baxmamalıdır. Hətta, hər ikisinə eyni səviyyədə işarə etməlidir.

3. Qazinin vəzifəsidir ki, məhkəmə zamanı hər iki tərəflə eyni miqdarda söhbət etsin. Haqqı yoxdur ki, biri ilə çox digər ilə az danışsın.

4. Qazi məhkəmə zamanı hər iki tərəfə qarşı eyni baxışla baxmalıdır. Haqqı yoxdur ki, birinin üzünə xoş, digərinə pis baxsın.

Əmirəl-möminin Əli (ə) Məhəmməd ibn Əbu Bəkrə əmrində yazır:

"Əhali ilə təvazökarlıqla rəftar et. Həmişə üzü açıq və gülərüz ol. İstər gözünün ucu ilə, istərsə də açıq gözlə baxsan, hamıya bir gözlə bax. Bununla da sərvətlilər səni tamaha tərəf çəkib, zəiflər ədalətindən məyus olmasınlar!"[1]

[1] Nəhcül-bəlağə, 27-ci məktub.

Başqa məktubda öz nümayəndələrindən birinə yazır:

"Hamı ilə bir tərzdə rəftar et. İstər gözünün guşəsi ilə baxmaqda, istər açıq üzlə baxmaqda, istər birinə işarə etməkdə, istərsə də, onlara salam verməkdə bir ol! Bununla da, sərvətlilərin səni tamaha salmaq istəmələrinin qarşısı alınar və zəiflər sənin ədalətindən məyus olmazlar."[1]

MƏŞHUR İSLAM ALİMİ "ŞƏHİD ƏVVƏLİN" QAZİNİN VƏZİFƏLƏRİ BARƏDƏ DEDİKLƏRİ

"Qaziyə vacibdir ki, bərabərlik, salam, müxtəlif ehtiramlar, qulaq asmaq və insafda hər iki tərəfi bərabər nəzərə alsın. Əgər ixtilafda olanların biri müsəlman, digəri kafir olsa, qazi, oturmaqda müsəlmanı kafirdən yuxarıda otuzdura bilər. Məsələn, müsəlman oturmuş halda, kafir isə ayaq üstə ola bilər. Bu halda qaziyə vacib deyil ki, qəlbində hər iki tərəfə eyni səviyyədə meyilli olsun."[2]

Bu hökm, qazinin yalnız məhkəmə zamanı iki tərəfə nisbət vəzifələrindən sayılır.

"Əgər iki tərəfdən biri danışıqda digərindən qabağa düşsə, qazi onun sözünə qulaq asmalıdır. Əgər hər ikisi birdən danışığa başlasa, qazi sağ tərəfdə olanı birinci dinləyə bilər. Əgər hər ikisi sükut etsə, qazi deyə bilər: Hansınız iddiaçısınızsa öz iddianızı bəyan edə bilərsiniz. Yaxud desin: Hər ikiniz sözə başlaya bilərsiniz. Qazinin onlardan birini müxatəb qərar verməsi məkruhdur.

İDDİAÇI VƏ ƏLEYHİNƏ İDDİA OLUNAN

İddiaçı və münkir kimdir? Şəhid Əvvəl buyurur: İddiaçı o kəsdir ki, əgər öz iddiasından əl çəksə, ixtilaf aradan gedər. Münkir isə onun müqabilində qərar tutub. Yəni, bu cür deyil ki, əgər getsə, ixtilaf yatar bəlkə də, iddianın müqabilində cavab verməlidir. Əleyhinə iddia olunmuş da cavab verməkdə üç haldan kənarda deyildir. Yaxud cavabında iddianı qəbul edir, ya rədd edir, ya da sükut ixtiyar edir. Bunların hər biri üçün qazinin xüsusi hökmü vardır.

[1] Nəhcül-bəlağə, 46-cı məktub.

[2] Əl-lümətüd-Dəməşqiyyə, kitabul Qəza.

O gələcək...

DƏLİL (ŞAHİD) VƏ AND, QƏZAVƏTİN ƏSASI

İmam Sadiq (ə) İslam Peyğəmbərindən (s) nəql edir, buyurur:

"Şahid iddia edənindir. And içmək isə əleyhinə iddia olunanındır."[1]

Əbu Bəsir İmam Sadiqdən (ə) nəql edir ,buyurur:

"Allah-taalanın sizin qanınız barəsində verdiyi hökmü ilə mallarınızın hökmü fərqlidir. Mallarınızda hökm etmişdir ki, iddia edənin şahidi (dəlili) olmalıdır. Əleyhinə iddia olunan isə and içməlidir. Amma qan bahalarınızda əleyhinə iddia olunanın şahidi olmalı, iddiaçı isə and içməlidir. Bununla da müsəlmanın qanı batmasın."[2]

İmam Rza (ə) ondan soruşulan sualın cavabında buyurur:

"**Qan məsələsindən başqa hər yerdə iddiaçının şahidi və əleyhinə iddia olunana isə and içilməsinin səbəbi, əleyhinə iddia olunanın öz inkarına görə şahid gətirmək imkanı olmamasıdır. Lakin, qan məsələsində əleyhinə iddia olunmuş öz inkarına şahid tutmalıdır. Bu bir ehtiyatdır və bunun vasitəsilə müsəlmanın qanının batması qorunur. Bundan əlavə, bu əməlin özü qatildən ötrü bir növ əzab və cinayətin qarşısının alınmasıdır. Əleyhinə iddia olunan üçün şahid tapmaq çox çətindir. Çünki, onun qatil olmamasına şəhadət verən çox az adam olar!"**

Bu rəvayətlərdən, İslamda qəzavətin meyarı aydın oldu. Bunlar, iddiaçı və əleyhinə iddia olunanın hökmləri idi. Lakin İmam Səccad (ə) bu mövzuda yalnız, əxlaqi cəhətlərə toxunmuşdur. İmam Səccad (ə) iddiaçı və iddia edənin əxlaqi vəzifələrini onlara xatırladır, haqqı onlar üçün belə aydınlaşdırır: Sənin əleyhinə düşmənçilik iddiası edənin sözü haqqdırsa, onun lehinə və özünün əleyhinə şəhadət ver. Ona zülm etməyib, haqqını tamamilə ödə. Əgər iddiasında batildirsə, onunla mülayim rəftar et və onun işində mehribançılıqdan başqa yol tutma. Allahı onun barəsində qəzəbləndirmə.

Amma, sənin kiminsə əleyhinə iddia etdiyinin haqqı odur ki, əgər öz iddianda haqlısansa, onunla yumşaq və gözəl tərzdə danış. Onun haqqını ədа et. Əgər öz iddianda batilsənsə, Allahdan qorx və Ona tərəf tövbə et. Öz iddiandan əl götür. İmam Səccad (ə) iddiaçı və münkiri haqqı və həqiqəti görməyə dəvət etməklə onları bir-birinə qarşı zülm və sitəmdən çəkindirir. Bəli! Yaxşı olar ki, hər kimin birisilə mal və hü-

[1] Vəsailüş-Şiə, cild 18, səh 170-173.

[2] Vəsailüş-Şiə, cild 18, səh 170-173.

O gələcək...

quqda ixtilafı olsa, İmam Səccadın (ə) göstərişlərini gözünün önünə gətirsin, bununla da həqiqətə çatıb nicat əhli olsun!

Bu bəhsin sonunda qeyd olunmalı mövzulardan biri də budur ki, ixtilaflı tərəflər öz ixtilaflarını həll etməkdən ötrü adil və vilayəti olan şəxsə müraciət etsinlər. Buna görə də zalim qazilərə üz tutmaqdan çəkinsinlər.

39. MƏŞVƏRƏT İSTƏYƏNİN HAQQI

وَأمّا حَقُّ المُسْتَشير، فَإنْ حَضَرَكَ لَهُ وَجْهُ رَأْي جَهَدْتَ لَهُ في النَّصيحَة، وَأَشَرْتَ عَلَيه بمَا تَعْلَمُ أَنَّكَ لَوْ كُنْتَ مَكانَهُ عَملْتَ به، وَذَلكَ لَيَكنْ منْكَ في رَحْمَة وَلين، فَإنَّ اللّينَ يُؤْنسُ الْوَحْشَةَ وَإنَّ الْغلْظَ يُوحشُ مَوضعَ الأُنْس. وَإنْ لَمْ يَحْضُرْكَ لَهُ رَأْيٌ وَعَرفْتَ لَهُ مَنْ تثقُ برَأيه وَترْضَى به لنَفْسكَ دَلَلْتَهُ عَلَيْهَ وَأَرْشَدتَهُ إلَيْه، فَكنْتَ لَمْ تَأْلُهُ خيرًا وَلَمْ تَدَّخرْهُ نُصْحاً. ولا حَوْلَ وَلاَ قُوَّةَ إلا بالله.

“**Səninlə məşvərətə gələnin haqqı, aydın nəzəriyyən olduğu halda ondan əsirgəməməkdir. Bildiyini ona da öyrət. Öz tərəfindən, “sənin yerinə olsaydım belə edərdim” deməklə ona qarşı mehribançılığının nişanəsini göstər. Çünki, yumuşaq rəftar vəhşəti aradan aparır və çətin tutmaq, insanı vəhşətə çəkir. Məsləhət verə bilmədiyin halda onu etimad etdiyin şəxsin yanına istiqamətləndir. Onun barəsində səhlənkarlıq etmə və bacardığını ona nəsihət elə. Allahdan başqa heç bir güc-qüvvət yoxdur!**”

İmam Səccadın (ə) məşvərət istəyənin haqqı barədə sözünün qısası budur ki, bu məşvərət, məşvərət edənin boynuna haqq gətirir. Əgər məsləhət verən, tələb olunan sahədə nəzəriyyə sahibidirsə, öz məşvərətində səhlənkarlıq göstərməməli və öz nəzərini ona aydın şəkildə bəyan etməlidir. Əgər o məsələdə məşvərət etməyə qüdrəti yoxdursa, yaxşı tanıyıb etimad etdiyi bir şəxsin yanına göndərməlidir.

İSLAMDA MƏŞVƏRƏT MÖZUSU

İslam dininin ən mühüm məsələlərindən biri bütün işlərin möhkəm olmasına səbəb olan məşvərət məsələsidir. Məşvərətsiz görülən iş, çiy və naqis olar. Hər hansı bir şəxs, nə qədər təfəkkürə və güclü ağıla malik olsa belə, yenə də məsələyə müxtəlif nöqteyi-nəzərdən baxmaqda,

O gələcək...

məsləhət və məşvərətə ehtiyacı vardır. Lakin məsələ şüurla araşdırılsa, başqalarının ağıl və müxtəlif təcrübələri bir-birinin köməyinə gəldikdə, tamamilə aydın və çox az nöqsanlı olur. Məşvərət mövzusu İslamda o qədər mühümdür ki, hətta, vəhydən əlavə, özünün güclü təfəkkür qüvvəsindən bəhrələnən İslam Peyğəmbəri (s) də məşvərətdən istifadə edirdi. Çünki, bir tərəfdən müsəlmanlara, gündəlik yaşayışlarında məşvərətdən istifadə etməklə onun böyük əhəmiyyətini çatdırmalı, digər tərəfdən isə əhalidə təfəkkür qüvvəsini möhkəmlətməyə çalışırdı. İslam Peyğəmbəri (s) şəriət qanunlarında deyil, müsəlmanların ümumi tədbir işlərində həmişə, müsəlmanlarla məşvərətləşirdi. Bu işdə, nəzəriyyə sahiblərinə böyük ehtiram göstərirdi.

MƏŞVƏRƏTİN NƏTİCƏLƏRİ

Birinci: Öz işlərini məsləhət və məşvərət üzrə aparan camaat, çox az giriftarçılığa mübtəla olurlar. Əksinə, özlərinə öyünərək, başqalarının fikrindən ehtiyacsız bilənlər fikri cəhətdən fövqəladə yüksək səviyyədə olsalar da, təhlükəli səhvlərə giriftar olurlar. Öz nəzərinə arxalanmaq, insan şəxsiyyətini alt-üst edir, təfəkkürün qarşısını alır və istedadlarını məhv edib aradan aparır.

İkinci: Başqaları ilə məşvərət edərək müvəffəqiyyətə çatan şəxs, çox az insanların ona həsəd aparmasına düçar olar. Çünki, başqaları əslində, onun qələbəsini özlərininki bilirlər. İnsan çox vaxt öz gördüyü işə həsəd aparmır. Həmçinin, əgər bu məşvərətdən məğlub olarsa, camaatın məzəmmət dili ona qarşı bağlanar. Çünki, heç kim öz işinin nəticəsinə etiraz etməz bəlkə də, qarşı tərəfin məğlubiyyətinə görə ona can yandırarlar.

Üçüncü: Məşvərətin yaxşı nəticələrindən biri də insanın dost və düşmənlərinin dəyərinin məlum olmasıdır. Bu tanışlıq, qələbə yolunun ondan ötrü həmvar olmasına səbəb olur. Ola bilsin, İslam Peyğəmbəri (s), fövqəladə təfəkkür qabiliyyəti olmasına baxmayaraq məşvərətdən istifadə etməsi, qeyd olunan bu səbəblərə görə olsun.

MƏŞVƏRƏT, QURAN BAXIMINDAN

Quran buyurur: **"[Ya Məhəmməd!] Allahın mərhəməti səbəbinə sən onlarla (döyüşdən qaçıb sonra yanına qayıdanlarla) yumşaq rəftar**

etdin. Əgər kobud, sərt ürəkli olsaydın, əlbəttə onlar sənin ətrafından dağılıb gedərdilər. Artıq sən onları əfv et, onlar üçün (Allahdan) bağışlanmaq dilə, işdə onlarla məsləhətləş, qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən, Allah (Ona) təvəkkül edənləri sevər!"[1]

"Fəzz" sözü ərəbcə, sözləri tünd olan şəxsə deyilir. "Ğəlizəl-qəlb" o kəsə deyilir ki, daşürəkli olsun. Bu iki kəlmə, hər ikisi kobudluq və hirs mənasında olsa da, adətən biri sözdə, digəri isə əməldə kobud olmağa deyilir.[2]

"Ühüd" döyüşü ilə əlaqədar İslam Peyğəmbərinə (s) nazil olan bu ayə, layiqli rəhbərə lazım olan xüsüsiyyətlərdən birini xatırladır. O da budur ki, xəta edib sonradan peşman olaraq öz xətalarına iqrar edənlərin müqabilində, rəhbərdə bağışlamaq və güzəşt hissi olmalıdır. Təbiidir ki, rəhbərlik məqamında qərar tutan bir şəxsdə, yaxşı rəftar və insani hisslərə malik ruhiyyə olmazsa, tezliklə öz planlarında məğlubiyyətə uğrayacaq və əhali onun ətrafından dağılacaqdır. Bununla da, rəhbərliyini davam etdirə bilməyəcəkdir.

İslam Peyğəmbəri (s) bu ayədə, Allah-taala tərəfindən göstəriş alır ki, onlarla məşvərət etsin. Doğrudur ki, ayədə "iş" sözünün geniş mənası olub çox işlərə aid olur, lakin şübhə yoxdur ki, Peyğəmbər (s) İlahi hökmlərdə heç vaxt insanlarla məşvərət etməz. Belə işlərdə tamamilə vəhyə tabe idi. Beləliklə, bu cür məşvərətlər təkcə, İlahi hökmlərin cəmiyyətdə necə icra olunmasına aidiyyatı var idi. Başqa sözlə desək, İslam Peyğəmbəri (s) qanun təyin etdikdə heç vaxt insanlarla məşvərət etmirdi. Təkcə qanunun cəmiyyətdə necə icra olunma tərzi barədə əhali ilə məsləhətləşirdi. Necə ki, "Bədr" döyüşündə İslam qoşunları bir məntəqədə ordu salmaq istəyirdilər ki, həzrətin Hübab ibn Münzir adlı köməkçisi ərz edir: Ya Rəsulullah! Bu yerdə qoşun salmaq, Allahın əmridir yoxsa, özünüz məsləhət bildiniz? Həzrət buyurdu: Bu barədə Allahdan xüsusi əmr gəlməyib. Münzər ərz edir: Bura ordu üçün münasib yer deyil. Peyğəmbər də onun sözünü bəyənib ordunun yerini dəyişir.

Şura surəsində oxuyuruq: "**O kəslər üçün ki Rəbbinin dəvətini qəbul edər (iman gətirər), namaz qılar, işlərini öz aralarında məsləhətməşvərətlə görər, onlara verdiyimiz ruzidən (Allah yolunda) sərf edərlər."**[3]

[1] Ali-İmran surəsi, səh 159.
[2] Təfsiri-nümunə, cild 3, səh 141.
[3] Şura surəsi, ayə 38.

O gələcək...

Bu ayədə, namaza və haqqın bərpa olunmasına dəvətdən sonra mühüm məsələ sayılan, şura və məşvərət məsələsinə təkid olunur. Bu surənin adının "Şura" qoyulması da həmin münasibətlədir.

MƏŞVƏRƏT, RƏVAYƏT BAXIMINDAN

İslam Peyğəmbəri (s) və məsum İmamlarımızdan (ə) məşvərət barədə çoxlu rəvayələr nəql olunmuşdur. Əvvəlcə, əsl məşvərət barəsində İslam Peyğəmbərindən (s) nəql olunur ki, buyurur:

"Heç kim indiyə kimi məşvərət etməklə bədbəxt olmayıb və öz fikrinə qürrələnməklə də xoşbəxtliyə çatmayıb."[1]

Həzrət Əli (ə) buyurur: "**Hər kim öz nəzərinə arxalanaraq iş görsə həlak olar və hər kim böyük şəxsiyyətlərlə məşvərət etsə, onların ağlında şərik olar."**[2]

İslam Peyğəmbərindən (s) yenə də nəql olunur ki, buyurur:

"Əgər hakimləriniz sizin ən yaxşı və saleh, qüdrətli və səxavətli şəxslərinizdən olub işlərini məşvərət üzrə görsə, yerin üstü sizin üçün altından yaxşıdır! (yəni, yaşamağa daha layiqsiniz). Lakin, hakimləriniz, sizin ən pislərinizdən, sərvətlilərinizdən və paxıl şəxlərinizdən olub işlərində məşvərət etməsə, bu zaman sizin üçün yerin altı üstündən yaxşıdır."[3]

İmam Kazim (ə) buyurur:

"**Ey Hişam! Dindar və mömin şəxslərlə oturub-durmaq, dünya və axirətdə şərəf sayılır. Aqil şəxslərlə məşvərət etmək, Allah tərəfindən verilmiş bərəkət qaynağı, xoşbəxtlik və fürsətdir. Bəs əgər ağıllı şəxs birinə nəsihət etsə, onunla müxalifət etməsin ki, zəhmətə düşər."**[4]

KİMLƏRLƏ MƏŞVƏRƏTLƏŞƏK?

"Vəsailüş-Şiə" kitabında kimlərlə məşvərət etmək barəsində çoxlu rəvayət gətirilmişdir. İmam Sadiq (ə) atasından nəql edir, buyurur:

"İslam Peyğəmbərindən (s) soruşuldu: Həzm nədir? Buyurdu: Ağıl sahibləri ilə məşvərətləşib onlara tabe olmaq."[5]

---

[1] Təfsiri-nümunə, cild 3, səh 145.
[2] Nəhcül-bəlağə, 141-ci hikmət.
[3] Təfsiri-nümunə, cild 3, səh 145.
[4] Töhəful-uqul, səh 293.
[5] Vəsailüş-Şiə, cild 18, səh 424-427.

O gələcək...

İmam Sadiq (ə) buyurur: **"İslam Peyğəmbərindən (s) həzrət Əliyə (ə) tövsiyə olunanlardan biridə bu idi: Məşvərətdən möhkəm arxa yoxdur. İşlərdə düşünüb tədbir tökmək istəyən ağıldan da, üstün bir ağıl yoxdur."**[1]

İmam Baqir (ə) buyurur: **"Tövratda dörd sətir yazılıb. Onlardan birinci sətirdə budur: Hər kim işlərində məsləhətləşməsə, peşman olar."**[2]

Əmirəl-möminin Əli (ə) buyurur:

"Məşvərət etmək kimi möhkəm iş yoxdur!"[3]

İmam Sadiq (ə) buyurur:

"**Öz işlərində o kəslərlə məşvərət et ki, Allahdan qorxusu olsun."**[4]

Yenə də İmam Sadiq (ə) buyurur:

"Ağıllı adamlarla məsləhətləş. Çünki, belə şəxslər işin xeyirini istəyirlər. Ağıllı mömin şəxslərlə müxalifət etməkdən çəkin, çünki, bu iş insanın dünya və axirətin fəsadına gətirib çıxarır."[5]

İmam Sadiq (ə) buyurur:

"Məşvərətin də öz həddi var. Əgər yerində olmasa, zərəri məşvərət edənə hamıdan çox çatar. Əvvəl: Ağıllı adamla məşvərət olunsun. İkinci: Azad və dindar şəxslə məşvərət olunsun. Üçüncü: İnsanla dostluq və qardaşlıq hissi olanla məşvərət olunsun. Dördüncü: Əgər sirrini ona açsan, öz sirri kimi möhkəm saxlasın."

KİMLƏRLƏ MƏŞVƏRƏT ETMƏYƏK?

Şübhəsiz ki, hər kim insanın məşvərət veräni ola bilməz. Keçən bəhslərdə rəvayətlərdə oxuduq ki, doğru və düzgün nəzəriyyə sahibləri ilə məşvərətləşmək lazımdır. Allahdan qorxan, mömin, doğru danışan və əmin şəxslərlə məsləhətləşmək insana fayda verər. Lakin, bəzi şəxslərlə məşvərətləşmək insanın geridə qalıb pis günə düşməsinə səbəb olur.

Əmirəl-möminin Əli (ə) məşvərətləşməyi məsləhət olmayan şəxsləri öz məktubunda Malik Əştərə belə tanıtdırır, buyurur:

1."Paxıl şəxslərlə məşvərətləşmə. Çünki, səni fəqirlərlə qorxudub, səxavətli olmaqdan saxlayacaq."

[1] Vəsailüş-Şiə, cild 18, səh 424-427.
[2] Vəsailüş-Şiə, cild 18, səh 424-427.
[3] Vəsailüş-Şiə, cild 18, səh 424-427.
[4] Vəsailüş-Şiə, cild 18, səh 424-427.
[5] Vəsailüş-Şiə, cild 18, səh 424-427.

O gələcək...

2. "Qorxaq şəxslərlə də məşvərətləşmə. Çünki, onlar səni mühüm işlər görməkdən çəkindirəcək."

3. "Həris şəxslərlə də məşvərətləşmə. Çünki, onlar mal-dövlət, sərvət toplamağı, zülm və sitəmi sənin nəzərində yaxşı cilvələndirəcəklər."[1]

Əvvəlcədən qeyd etdiyimiz kimi məşvərət, həqiqət yolunu nişan vermək, haqqa çatmaqda insana kömək göstərmək və məsləhət sayılır. Paxıl, qorxaq və həris kimi rəzilət sifətlərinə malik olan şəxsləri, məşvərətçi kimi qərar tutmamalıdılar. Çünki, onlar məşvərət alana nəinki köməklik göstərmirlər, əksinə onu həlakətə tərəf aparıb, təhlükəli vəziyyətdə qoyurlar. Ona görə də görürük ki, İmam Səccad (ə) bu hüquqda buyurur: Məşvərət edənin haqqı budur ki, əgər dərdə dəyən nəzəri varsa, ona desin, yoxsa, onu yaxşı məsləhət verənin yanına göndərsin. Çünki, məşvərətdən hədəf, həqiqətə çatmaqdır.

Bəhsimiz, məşvərət və müşavirədən getdiyinə görə bəhsin sonunda İslamın zühurunun əvvəllərində altı nəfərdən ibarət xəlifə seçmək səlahiyyətinə malik olan şuraya işarə edirik.

İSLAMIN ZÜHURUNUN ƏVVƏLLƏRİNDƏ ALTI NƏFƏRLİK ŞURA

Əhli sünnə alimlərinin və təfsirçilərinin bir dəstəsi keçən bəhsimizdə şahid kimi qeyd etdiyimiz, Ali-İmran surəsinin 159-cu ayəsini bu "altı nəfərlik şuraya" işarə kimi şərh edirlər.

Burada işarə etmək yerinə düşərdi ki, bu mətləb həqiqətdən çox uzaqdır və aşağıdakı dəlillərə əsasən heç də məntiqli deyildir:

Birinci: Peyğəmbərin (s) canişini və İmamın seçilməsi yalnız, Allah-taala tərəfindəndir. Necə ki, etiqadi kitablarda sübuta yetirmişdik. Çünki, İmam da peyğəmbər kimi rəhbərliyə layiq sifətlərə o cümlədən, ismət, kamil elm və sairə malik olmalıdır. Onun da tanınması yalnız, Allahın əlindədir. Peyğəmbəri məşvərətlə seçə bilmədiyimiz kimi İmamı da məşvərətlə seçə bilmərik.

İkinci: Altı nəfərdən ibarət şura, heç vaxt məşvərət qanunlarına uyğun olmamışdır. Çünki, əgər məqsəd, bütün müsəlmanlarla məşvərət idisə, bəs altı nəfərin nə mənası var? Əgər məqsəd, müsəlman ümmətinin mütəfəkkirləri ilə məşvərət etmək idisə, ümmətin mütəfəkkirləri yal-

[1] Nəhcül-bəlağə, 53-cü məktub.

nız, bu altı nəfər deyildi. Necə ki, İslam Peyğəmbərinin (s) nüfuzlu məşvərətçilərindən sayılan Salman, Əbuzər, Miqdad və İbn Abbas kimi şəxsiyyətlər və hədis söyləyənlər bu şuraya buraxılmamışdılar. Beləliklə, müşavirləri yalnız, o altı nəfərə münhəsir etmək olmaz. Onlar yalnız, kiçik bir məşvərət heyəti idilər.

Əgər məqsəd, güclü nüfuz sahiblərinin nəzərlərinin toplanması və bu da başqaları tərəfindən qəbul olunması sayılırdısa, yenə də düzgün deyildi. Çünki, Ənsar tayfasının mütləq başçısı, Səd ibn İbadə və Bəni Ğəffar tayfasının başçısı, Əbuzər kimi nüfuzlu şəxsiyyətlər bu şurada yox idilər.

Üçüncü: Bildiyimiz kimi bu müşavirənin çətin və təhlükəli şəraiti var idi. Müxaliflər ölümlə qorxudulmuşdular. Halbuki, İslam dininin məşvərət hökmündə belə bir hökm ola bilməz və yoxdur.[1]

40. MÜŞAVİRİN HAQQI

وَأمّا حَقُّ المُشيرِ عَلَيْكَ فَلا تتَّهمْهُ فيمَا لا يُوافِقُكَ عَلَيه منْ رَأْيه إذا أَشَارَ عَلَيْكَ فَإنَّمَا هِيَ الآرَاءُ وَتَصَرُّفُ النَّاس فيهَا وَاختلافُهُمْ. فَكُنْ عَلَيه فِي رَأيه بِالخيَارِ إذا اتَّهمْتَ رَأيَهُ، فَأمّا تُهْمتُهُ فَلا تَجُوزُ لَكَ إذَا كَانَ عنْدكَ ممَّنْ يَسْتَحقُّ الْمُشَاوَرَةَ. وَلا تَدَعْ شُكرَهُ عَلَى مَا بَدَا لَكَ من إشْخاصِ رَأيه وَحُسْن وَجْه مَشورَتَه، فإذا وَافقَكَ حَمدتَ اللَّهَ وَقَبلْتَ ذلكَ من أخيكَ بالشُّكرِ والإرْصَادِ بَالْمُكَافَأة فِي مَثلهَا إنْ فَزعَ إلَيْكَ.وَلا قُوَّةَ إلا بالله.

“Sənin müşavirinin və öz nəzərlərini sənin ixtiyarında qoyanın haqqı budur ki, sənin nəzərinlə düz gəlməyən nəzəriyyəyə işarə etdiyinə görə onu müttəhim sayma. Çünki, nəzəriyyə mərhələsində insanlar müxtəlif olub, nəzəriyyələri fərqlidir. Əgər məşvərət etdiyin şəxsin nəzəriyyəsinə qarşı bədbinsənsə, onu qəbul etməkdə azadsan. Sənin yanında məşvərət almağa layiq görülən halda, onu müttəhim etmək yaxşı deyil. Əgər öz məsləhətində sənə yaxşı çıxış yolu göstərərsə, ona təşəkkür etməyi unutma. Allaha da bu nemətə görə həmd və səna et. Elə bir halda ol ki, əgər bir gün sənin lə məşvərət etsə, ona yaxşı mükafat verə biləsən. Allahdan başqa heç bir güc-qüvvət yoxdur!”

İmam Səccadın (ə) müşavirin haqqı barəsinə sözünün qısası budur ki, əgər onun məşvərət nəzəriyyəsi sənin nəzərinlə müvafiq deyilsə,

[1] Təfsiri-nümunə, cild 3, səh 147-148.

O gələcək...

onu bu işdə müttəhim sayma. Əgər istədiyin mövzuda nəzəriyyəsi sənin nəzəriyyənlə düz gəlsə, bu nemətə görə Allaha şükür və müşavirin müvafiq nəzəriyyəsindən təşəkkür et!

MÜŞAVİRƏDƏ ƏMANƏT VƏ SƏDAQƏT

Keçən bəhsimizdə izah olundu ki, kimlərlə məsləhətləşmək olar. Rəvayətlərdən yaxşı müşavirin xüsusiyyətlərini qeyd etdik. Bu mövzuda bir neçə rəvayəti nəzərdən keçirək. İmam Sadiqdən (ə) nəql olunur, buyurur:

"Bir nəfər, əmirəl-möminin Əlinin (ə) hüzuruna gəlir və ərz edir: Gəlmişəm ki, sizinlə İmam Həsən, İmam Hüseyn, Abdullah və Cəfərin evlənmələri barəsində məşvərət edəm. Həzrət buyurdu: Hər kim məşvərət etməyə layiq görünürsə, əmindir və əslində ayırd etdiyini bəyan edir. Bu vaxt məsələ barəsində öz nəzərini bildirir."[1]

Başqa rəvayətdə yenə də İmam Sadiqdən (ə) nəql olunur, buyurur:

"Hər kim din qardaşı ilə məşvərətə gəlsə və müşavir həqiqətdə, anladığını ona deməsə, Allah-taala onun məşvərət qüvvəsini ondan alar."[2]

Bu iki rəvayətdə, iki mühüm mətləb bəyan olur. Birinci rəvayət deyir: Hər kim məşvərət olunmağa layiq görülürsə, əmindir. Əmin şəxs isə heç vaxt xəyanət etməz. Bəs məşvərət edən, məsləhət verənə qarşı töhmət vurmamalı və ona qarşı bədgüman olmamalıdır. Necə ki, İmam Səccad (ə) onu bir haqq kimi ünvanlamışdır. İkinci rəvayətdə bəyan olunur: Müşavir, Allahla özü arasında nə qənaətə gəlirsə, onu bəyan etməlidir. Əgər səhlənkarlıq etsə, Allah-taala onun məsləhət qüvvəsini ondan alar. Çünki, məşvərət neməti müqabilində şükr etməmiş olur.

MƏŞVƏRƏT VƏ ƏTRAFINDAN MƏSLƏHƏT ALMAQ

Məşvərət mövzusunun cəlbedici cəhətlərindən biri budur ki, insan özündən aşağı şəxslərlə də məsləhətləşə bilər. Müşavirin yüksək səviyyəli və ya böyük şəxs olması şərt deyil. Həmin mövzuda, Fuzeyl ibn Yəsar İmam Sadiqdən (ə) nəql edir, buyurur:

[1] Vəsailüş-Şiə, cild 8, səh 427.
[2] Vəsailüş-Şiə, cild 8, səh 427.

O gələcək...

"İmam Sadiq (ə) bir mövzu barəsində mənimlə məşvərət etdi. Ondan soruşdum ki, mənim kimi bir nəfərin məsləhəti, sizin kimi bir şəxsiyyətin dərdinə dəyirmi? Həzrət buyurdu: Bəli! Hər vaxt səndən məsləhət istəsəm, istifadə edirəm."[1]

Üçüncü rəvayəti Həsən ibn Cəhim nəql edir:

"İmam Rza (ə) atasından yad edərək buyurdu: O həzrətin ağlı o həddə idi ki, zəmanəsində heç kimin ağlı ona çata bilməzdi. Lakin, bəzən qara dərili kölələrlə məsləhətləşirdi. Həzrətə dedilər: Məgər qara dərili kölə ilə məşvərət edirsiniz? Həzrət buyurur: Çox ola bilsin ki, Allah-taala həqiqəti onun dili ilə bəyan etsin. İmam, bağ və bostan işlərində adətən qulamı ilə məsləhətləşirdi."[2]

Müşavirin Həzrət Əlinin (ə) nəzərində

Seyyid Rəzi "Nəhcül-Bəlağədə "nəql edir ki, Əmirəl-möminin Əli (ə), Abdullah ibn Abbas onunla məsləhətləşdikdən sonra məşvərət olunan məsələ barəsində onun nəzəri ilə razılaşmadıqda buyurur:

"Sənə vacibdir ki, mənimlə məşvərətləşəsən. Əgər mənim nəzərim səninkilə düz gəlməsə, mənə tabe olmalısan!"[3]

Əli ibn Məhziyarın da İmam Baqirdən (ə) nəql etdiyi cümlələr də, İmam Səccadın (ə) sözləri ilə uyğundur, buyurur:

"İmam Baqir (ə) mənə məktub yazır ki, bir nəfərlə məşvərət edim və hər nəyi səlah bilirəmsə onu seçim. Çünki, məşvərət olunan şəxs öz şəhərinin mühiti və vəziyyəti ilə daha yaxından tanışdır. Hökumətlə necə rəftar etməyimi daha yaxşı bilir. Məşvrət mübarək işdir. Allah-taala, Quranda Peyğəmbərə buyurur: "İşlərində əhali ilə məşvərət et. Nəticə aldıqdan sonra isə Allaha təvəkkül et!" Əgər müşavirin dediyi düzgün olsa, mən onun dediyi düzgün məsləhətdən istifadə edərəm. Əgər doğru olmasa, ümüdvaram ki, Allahın istəyi ilə onu doğru yolda qərar verəm. İşində onunla məsləhətləş. Yə`ni, onlardan xeyir-dua tələb et!"[4]

Əmirəl-möminin Əli (ə) buyurur:

"İnsana həmişə məşvərət kimi arxa lazımdır."[5]

---

[1] Vəsailüş-Şiə, cild 8, səh 428.
[2] Vəsailüş-Şiə, cild 8, səh 428.
[3] Biharul-ənvar, cild 75, səh 104.
[4] Biharul-ənvar, cild 75, səh 104.
[5] Biharul-ənvar, cild 75, səh 104.

O gələcək...

41. NƏSİHƏT İSTƏYƏNİN HAQQI

وَأَمّا حَقُّ المُسْتَنصح فَإنَّ حَقَّهُ أَنْ تُؤَدِّيَ إلَيه النَّصيحَةَ عَلَى الحَقِّ الَّذي تَرَى لَهُ أَنّهُ يحْمِلُ وَتخرِجُ المَخرَجَ الَّذي يَلينُ عَلى مَسَامعه، وتُكلِمُهُ منَ الكَلامَ بمَا يُطيقُهُ عَقلُهُ، فَإنَّ لكلِّ عَقلٍ طبقَةً منَ الكلامِ يَعْرِفُهُ ويَجْتَنِبُهُ، وَلْيَكنْ مَذهَبَكَ الرَّحْمَةَ. ولا قُوَّةَ إلا باللهِ.

“Səndən nəsihət istəyənin sənin üzərində olan haqqı, dözümü olan miqdarda ona nəsihət verməkdir. Elə yolla sözə başla ki, qulağına xoş gəlsin və onun ağılı miqdarında onunla danış. Çünki, hər bir ağılın sözü başa düşüb dərk etməsindən ötrü müəyyən dərəcədə danışmaq lazımdır. Məsləhət verməkdə mehribançılıq yolunu tutmalısan!“

İmam Səccadın (ə) nəsihət istəyənin haqqı barəsinə sözünün qısası budur ki, ona qabiliyyəti olan qədər nəsihət et və onunla elə danış ki, qəbul olunası olsun. Bu işdə çox mehribançılıq göstər.

“Nəsh” sözü ərəbcə lüğətdə, xalis olmaq və xalis etməyə deyilir. Ərəbcə: “Nəsəhu əsəl” cümləsi, balı saflaşdırıb xalis etməyə deyilir. “Nihayə” kitabında yazır: “Nəsh” lüğətdə, saf mənasındadır. “Nush” sözü isə ixlas mənasındadır. “Əqrəbul-Məvarid” kitabında müəllif yazır: “Nəsəhəhu, nəshən və nusuhən”, yə`ni, ona nəsihət verdi və onu saflaşdırdı.[1]

İslam əxlaq məktəbində ən mühüm və dəyərli mövzulardan biri də insanların bir-birinə qarşı nəsihət verməsi və xeyirxah olmalarıdır. Qurani-Kərim İlahi peyğəmbərləri cəmiyyətin nəsihət verənləri kimi tanıtdırır. Nümunə üçün aşağıdakı ayələrə diqqət yetirək.

PEYĞƏMBƏRLƏR, CƏMİYYƏTİN NƏSİHƏT VERƏNLƏRİ

Həzrət Nuh (ə) öz tayfasına belə buyurur: “**Mən sizə Rəbbimin əmrlərini təbliğ edir və öyüd-nəsihət verirəm. Allahdan (gələn vəhy ilə) sizin bilmədiklərinizi bilirəm!”**[2]

Saleh peyğəmbər barəsində Quran buyurur:

[1] Qamuse Quran, cild 7, səh 71.

[2] Əraf surəsi, ayə 62.

"Saleh onlardan üz döndərib belə dedi: Ey camaatım! Mən sizə Rəbbimin əmrini təbliğ etdim və sizə öyüd-nəsihət verdim. Lakin siz nəsihət verənləri sevmirsiniz!"[1]

Həzrət Şüeyb peyğəmbər barəsində Quran buyurur:

"Şüeyb onlardan üz döndərib belə dedi: Ey camaatım! Mən sizə Rəbbimin əmrini təbliğ etdim və sizə öyüd-nəsihət verdim. İndi kafir bir tayfadan ötrü necə yas tutum?"[2]

Bütün peyğəmbərlərin hədəfi, insanlara öyüd-nəsihət verib onları düzgün yola yönəltmək olub. Hər bir insan, xeyirxah və nəsihətçi insanı açıq ürəkliyi ilə qəbul edir. Lakin, pak tövhid fitrətini əldən verib, peyğəmbərlərin nəsihətlərinə qulaq asmayan insanları tezliklə şiddətli əzab tutar. Maraqlıdır ki, Şeytanda insanı nəsihət yolu ilə aldadıb yoldan çıxarır. Əraf surəsində Şeytan barəsində oxuyuruq:

"(Şeytan) həm də onlara (Adəm və Həvvaya): "Mən, əlbəttə, sizin xeyirxah məsləhətçilərinizdənəm"– deyə and içdi."[3]

Buradan aydın olur ki, bəzən düşmən, xeyirxah adı ilə insanı yoldan azdıra bilər. Necə ki, Adəm və Həvva barəsində bu işi görmüşdü.

Gördüyümüz kimi Quranda peyğəmbərlər nəsihət verən və xeyirxah kimi tanıtdırılmışdır. İmamlardan (ə) da belə rəvayətlər var ki, möminlər bir-birinə qarşı nəsihətçi və xeyirxah olmalıdırlar.

MÖMİNLƏR BİR-BİRİNİN NƏSİHƏT VERƏNLƏRİDİR

İmam Sadiq (ə) buyurur: **"Möminin başqa mömini nəsihət etməsi vacibdir."**[4]

Mərhum Əllamə Məclisi, özünün "Miratul-Uqul" kitabında yazır: Rəvayətdə nəsihətdən məqsəd, möminə din, dünya, təlim-tərbiyət və qafil şəxsləri tanıtdırmaqla ona yol göstərməkdir. Zərəri ondan dəf edib, onun xeyrinə çalışmalıdır. Əgər qəbul etməsə, "əmr be məruf və nəhy əz münkər" cəhətindən öz xeyirxahlığını ona bildirsin.

İslam Peyğəmbəri (s) buyurur: **"Özünün nəsihətçi olduğu kimi sizlərdən hər biriniz digərinizə nəsihət etməlidir."**[5]

Bu rəvayət nəsihətin bütün cəhətlərinə görə hamıya aiddir.

---

[1] Əraf surəsi, ayə 79.
[2] Əraf surəsi, ayə 93.
[3] Əraf surəsi, ayə 21.
[4] Üsuli-kafi, cild 2, səh 208.
[5] Üsuli-kafi, cild 2, səh 208.

O gələcək...

NƏSİHƏTÇİLƏR ƏN YAXŞI İNSANLARDIR

İmam Sadiq (ə), İslam Peyğəmbərindən (s) nəql edir, buyurur: "**Qiyamət günü, Allah dərgahında ən böyük mənzilət və məqamı olan şəxslər onlardır ki, yer üzündə Allah bəndələrinə ən çox nəsihət ediblər!"**[1]

Bu hədisdə "məşvərət"-dən məqsəd, ola bilsin, insanların hidayətindən ötrü həqiqi addım atanlar olsun. Yaxud, ola bilsin, cəmiyyətin işlərinə ən çox əhəmiyyət verənlərdir.

İmam Sadiqdən (ə) nəql olunur, buyurur: "**Allah bəndələrinə nəsihət etmək sizə lazımdır. Nəsihətdən üstün bir əməl görmədim!"**[2]

Bu rəvayətlərdə ən çox qeyd olunan məsələ, nəsihətin hədəfidir. O da budur ki, qeyd olunan dəyər və savablar o zaman insana çatır ki, Allaha görə xalisanə nəsihət verilsin. Lakin nəsihətdən hədəf, Şeytani fikirlər, o cümlədən, özünü göstərmək və ya maddi hədəflərə görə olsa, insana məhrumiyyətdən başqa bir şey qalmaz.

İslam Peyğəmbəri (s) Məkkədə, Mina çölündəki xütbəsində bu mövzuya işarə edərək buyurur:

"**Üç şey var ki, heç bir müsəlmanın qəlbi onda xəyanət etməməlidir. Birinci: Allaha görə xalis əməldə. İkinci: Müsəlmanların hakimlərini nəsihət etməkdə. Üçüncü: Camaat namazında yaxud, müsəlmanların toplantısında iştirak etməkdə."**[3]

Bu hədisdə İslam Peyğəmbəri (s) əməlin cəhətini Allaha görə qərara alır. Nəsihət, təkcə cəmiyyətin adi üzvləri üçün deyil, bəlkədə, cəmiyyətin hakimləri və rəhbərlərinə də aiddir. Bu barədə keçən bəhslərdə danışmışdıq.

NƏSİHƏTİN YOLU

Keçən bəhslərdə, rəvayətlərdən məlum oldu ki, nəsihətin qarşı tərəfdə əsər qoymasından ötrü Allaha görə nəsihət etmək lazımdır. Həmçinin, nəsihət, qarşı tərəfin qəbul etməsi ölçüsündə olmalıdır. Hamıya istədiyimiz qədər nəsihət verə bilmərik. Bəlkə də, nəsihətin yolu-

[1] Üsuli-kafi, cild 2, səh 208.
[2] Üsuli-kafi, cild 2, səh 208.
[3] Şərhi risalətul-hüquq, Qapançı, cild 2, səh 389.

O gələcək...

nu, ölçüsünü və həddini bilib, hansı sözün nəsihət olduğunu və qarşı tərəfə necə çatdırmağı dərk etməliyik.

İmam Səccad (ə) buyurur: **"Heç də icazə yoxdur ki, istədiyini deyəsən. Çünki, İslam Peyğəmbəri (s) buyurur: Allah rəhmət eləsin o kəsə ki, yaxşı söz danışa və fayda götürə. Yaxud, sakit olsun və sağlam qalsın!"**[1]

Əmirəl-möminin Əli (ə) buyurur: "**Yolunu danışa bilmədiyiniz və həqiqətindən agah olmadığınız sözü danışmaqdan çəkinin! Çünki, dediyin söz, ağlının dərəcəsinə dəlalət edir və dediyin ifadə mərifət və agahlığından xəbər verir."**[2]

Nəsihət etməyin yollarından biri də odur ki, eşidən nəsihətdən yorulmasın. Əksinə, yüksək meyllə qulaq assın. Əmirəl-möminin Əli (ə) buyurur:

"Ən yaxşı söz odur ki, eşidənlər ondan meyilsiz olmayıb, ağılları çətinliyə salmasın."[3]

Həmin mövzunu İmam Səccad (ə), nəsihət istəyənin bir haqqı ünvanı ilə bəyan edərək buyurur: Nəsihətin onun qulağında aram və yumşaq eşidilsin. Elə söz danışılsın ki, ağıl və idrakın qəbul etməyə qüdrəti olsun. İslam Peyğəmbəri (s) buyurur: Biz peyğəmbərlərin məmuriyyəti var ki, insanlarla öz ağılları səviyyəsində söhbət edək!

İmam Səccad (ə) buyurur: Nəsihətdə qorxutmaq və vəhşətdən deyil, mehribançılıq və mərhəmət yolundan istifadə etmək lazımdır. Çünki, belə nəsihətin heç bir təsiri yoxdur. Təsiri olmayan nəsihətin isə faydası yoxdur.

Bu bəhsin sonunda xəlifə Mənsur Dəvaniqinin İmam Sadiqdən (ə) istəyinə işarə edirik.

Xəlifə Mənsurun İmam Sadiqdən (ə) nəsihət istəməsi

Mənsur Dəvaniqi, İmam Sadiqi (ə) saraya çəkməklə, özünün haqq olmasını camaata nişan verməkdən ötrü həzrətə xəbər göndərir. Xəbərdə yazır: "Nəyə görə camaat kimi bizim sarayımıza gəlib-getmirsiniz?" Mənsur elə fikirləşir ki, İmam Sadiq (ə) onun bu məharətinə görə hesab açacaq. Lakin İmam (ə) cavabında buyurur:

"**Ey Mənsur! Bizim dünyada bir şeyimiz yoxdur ki, ona görə sizdən qorxaq və sənin yanında axirətlik də bir şey yoxdur ki, ona ümidvar olaq! Beləliklə, mənim sənin yanına gəlməyimin nə mənası?"**

[1] Suxən və suxənvəri, səh 44.
[2] Şərh Ğürər və dürər, cild 2, səh 320.
[3] Fehreste movzuye Ğürər və dürər, səh 332.

O gələcək...

Bu söz, Mənsura çox ağır gəlir və ona görə də sözünü dəyişib belə yazır: "Siz bizim sarayımıza gəlib bizə nəsihət edin. Biz də sizin nəsihətinizdən bəhrələnək!"

İmam (ə) cavabında yazır:

"**Ey Mənsur! Hər kim dünya nemətlərinə yetişmək istəyərsə, səni nəsihət etməz. Çünki, aydındır ki, nəsihətin bir miqdarı dünyanın vəfasızlığı və qiymətsizliyi barəsindədir. Dünyanı istəyən nəsihətçi bu işi görməz. Çünki, onun hədəfi dünyadır. Ancaq, axirət tələbində olan şəxs də sənin lə yoldaş və həmsöhbət olmayacaq."**[1]

Bu da məlumdur ki, Mənsur kimi şəxslərlə oturub-durmaq, əsl hədəfin əksinədir. Ağıllı insan isə hədəfinin əksinə hərəkət etməz!

42. NƏSİHƏT EDƏNLƏRİN HAQQI

وَأمّا حَقُّ النَّاصِحِ فَأَنْ تُلِينَ لَهُ جَنَاحَكَ ثُمَّ تشرأب لَهُ قَلبَكَ وَتفْتَحَ لَهُ سَمْعَكَ حتَّى تَفْهَمَ عَنهُ نصيحَتَهُ، ثُمَّ تنْظرَ فِيهَا، فَإِنْ كَانَ وُفْقَ فِيهَا للصَّوَاب حَمدْتَ اللَّهَ عَلى ذَلك وَقبلْتَ منْهُ وَعَرَفْتَ لَهُ نَصِيحَتَهُ، وَإِنْ لَمْ يَكنْ وُفْقَ لَهَا فِيهَا رَحمْتَهُ وَلَمْ تتَّهمَهُ وَعلمْتَ أَنَّهُ لَمْ يألُكَ نُصْحًا إلا أَنَّهُ أخطأَ إلا أَنْ يَكونَ عِنْدَكَ مُسْتَحِقًّا لِلتُّهْمَةِ فلا تَعْبَأ بشيءَ مِنْ أَمْرِهِ عَلى كلِّ حَالٍ. ولا قوَّةَ إلا باللهِ.

"**Nəsihət verənin haqqı sənin üzərində budur ki, ona qarşı təvazökar olasan. Ona ürək bağlayıb, qulaq as ki, söylədiyini anlayasan. Sonra onun dediklərində fikirləş. Əgər düz nəsihət edibsə, buna görə Allaha həmd və səna et, ondan qəbul et və nəsihətinin qədrini bil. Əgər düzgün nəsihət verməmişsə, onunla mehriban ol və onu ittiham etmə. Bilki, xətadan başqa, sənin üçün xeyirxahlıqda heç bir səhlənkarlıq etməmişdir. Əgər sənin nəzərində töhmətə layiq olsa, hansı halda olursa, heç bir sözünə etimad etmə. Allahdan başqa heç bir güc-qüvvət yoxdur!"**

İmam Səccadın (ə) nəsihət verənin haqqı barədə sözünün qısası budur ki, insan, özünün nəsihət verəninin müqabilində təvazökarlıqla onun sözlərinə qulaq asmalı və sözlərində diqqətlə fikirləşməlidir. Əgər düzgün nəsihət vermişsə, buna görə Allaha şükr etməli və nəsihət verənin qədrini bilməlidir. Əgər düzgün nəsihət verməmişsə, tələsik ittiham etməsin və bilsin ki, o, xeyirxahlıqdan başqa bir şey istəmirdi. Yalnız, sözlərində səhvə yol verib və onun sözlərinə əməl etməsin.

[1] Əl-İmam Sadiq və Məzahib Ərbəə, cild 1, səh 108.

O gələcək...

Keçən bəhslərdə, nəsihəti qəbul edənin haqqı barəsində İmam Səccadın (ə) söylədiklərinə uyğun olan ayə və rəvayətləri zikr etdik. İndi də Əlinin (ə) "Qürərül-Hikəm" kitabında nəsihət verənin haqqı barəsində söylədiklərinə işarə edək. Həzrət buyurur: "**Sənin yanında ən istəkli, o şəxs olmalıdır ki, sənə mehribançılıq və ürək yanğısı ilə nəsihət verir.**"[1]

Yenə də buyurur:

"**Hər kim nəsihət verənin nəsihətindən üz döndərsə, qiyamətdə atəşdə yandırılar!**"[2]

Əmirəl-möminin Əli (ə) xütbələrinin birində buyurur:

"**Mehriban, ürəkyandıran və təcrübəli nəsihət verənin müqabilində günah edib nəsihətinə əməl etməmək, insanın peşmançılığına səbəb olar.**"[3]

Həzrət yenə də buyurur:

"**Sizə nəsihət hədiyyə edəndən nəsihətini qəbul edib, onu hifz edin və yadınızda saxlayın. Hər vaxt ehtiyac olsa, istifadə edin.**"[4]

Başqa yerdə buyurur:

"Sənə qarşı insanların ən mehribanı o kəsdir ki, sənə özünü islah etməkdə kömək edib, dinində nəsihət verir. Beləliklə, belə şəxs sənə köməkçi və insanların sənə ən çox nəsihət verənidir."[5]

Həzrət yenə də buyurur:

"**İnsanın ən böyük macal və tofiqlərindən biri budur ki, mehriban nəsihət verənlərə qulaq asır və onları əməl etməkdən ötrü xatirində saxlayır.**"[6]

Başqa yerdə buyurur:

"Sənin nəsihət verənin, sənə qarşı mehribandır. Sənə yaxşılıq edəndir. O, öz nəzərində həyatın sonunu görür. İtaətdə sənin təqsirlərini biləndir. Ona tabe olmağın, kamal və səadətinə, müxalifət etməyin isə fəsada düşməyinə səbəb olar!"[7]

Əmirəl-möminin Əli (ə) sözlərinin sonunda nəsihət edənə buyurur:

"**Ona əhali arasında deyil, gizlində nəsihət ver. Camaat arasında aşkarda nəsihət etmək, qəlbinin sınmasına səbəb olar!**"[8]

---

[1] Şərh Ğürər və dürər, cild 5, səh 51.
[2] Şərh Ğürər və dürər, cild 5, səh 350.
[3] Şərhi risalətul-hüquq, Qapançı, cild 2, səh 412.
[4] Şərh Ğürər və dürər, cild 2, səh 242.
[5] Şərh Ğürər və dürər, cild 2, səh 486.
[6] Şərh Ğürər və dürər, cild 6, səh 20.
[7] Şərh Ğürər və dürər, cild 6, səh 139.
[8] Şərh Ğürər və dürər, cild 6, səh 172.

O gələcək...

43. BÖYÜKLƏRİN HAQQI

وَأَمّا حَقُّ الكبير فَإِنَّ حَقَّهُ تَوقِيرُ سنِّه وَإِجْلال إِسْلامه إِذَا كَانَ مِنْ أَهْلِ الْفَضلِ في الإِسْلام بتَقْديمه فِيَه وتَرْك مُقَابَلَته عِنْدَ الخِصَامِ ولا تَسْبِقْهُ إِلَى طَرِيق، وَلا تَؤُمَّهُ فِي طَرِيق وَلا تَسْتَجْهَلْهُ. وَإِنْ جَهِلَ عَلَيْكَ تحَمَّلْتَ وَأَكْرَمتَهُ بحَقِّ إِسْلامِه مَعَ سِنِّه فَإِنَّمَا حَقّ السِّنِّ بقَدْرِ الإِسْلام. ولا قوَّة إلا بالله.

"Yaşlıların (səndən böyükün) haqqı budur ki, ona yaşına görə hörmət elə və əgər İslamda fəzilət sahibi sayılırsa, dinini böyük hesab et. Belə ki, onu müqəddəm bil və onunla düşmənçilikdən çəkin. Ondan qabaqda yol getmə. Yol gedərkən arxadan gəlib onu ötmə və onunla nadanlıq etmə. Əgər sənlə nadanlıq etsə, döz! Yaş və İslama xatir ona ehtiram göstər. Çünki, yaş böyüklüyü İslama bərabərdir. (yə`ni, uzun müddət ərzində İslama xidmət etdiyinə görə möhtərəm olur) Allahdan başqa heç bir güc-qüvvət yoxdur! "

"Kibər" ərəbcə yaşın böyüklüyü və ehtiramın çoxluğuna deyilir.

Quranda buyurur:

"**Zəkəriyya: Ey Rəbbim! Üzərimə qocalıq çökdüyü və zövcəm doğmayan olduğu halda, mənim necə oğlum ola bilər?"**[1]

Ayədə qocalıqdan məqsəd, yaşlı olmaqdır. Başqa surədə buyurur:

"(Onlar gedən kimi) İbrahim bütləri parça-parça edib yalnız aralarındakı böyük bütü saxladı."[2]

Ayədə böyükdən məqsəd, cüssə və heykəl cəhətdəndir. Həmçinin, bu söz, rəhbər və hakim mənasında da gəlmişdir.

Quranda buyurur:

"**Firon dedi: Çünki o, həqiqətdə sizə sehr öyrədən böyüyünüzdür."**[3]

İmam Səccadın (ə) yaşlılar barədə sözünün qısası budur ki, qocalara, yaşlarına, qocalıqlarına və müsəlman olmalarına görə ehtiram olunmalıdır. Həmçinin, onlarla kobud rəftar olunması da pislənmişdir. Qurani-Kərim, insanın bu dövrü barəsində nə buyurur?

[1] Ali-İmran surəsi, ayə 40.
[2] Ənbiya surəsi, ayə 58.
[3] Taha surəsi, ayə 71.

O gələcək...

İNSAN HƏYATININ ƏVVƏLİ VƏ SONU ƏZİYYƏTLƏDİR

İnsanın həyatı zəif uşaqlıq dövranı ilə başlayıb, əldən düşmüş qocalıq günləri ilə sona yetir. Yəni, insanın həyatının əvvəli və sonu zəiflik və qüdrətsizliklədir. Bu fərqlə ki, uşaqlar inkişaf yolunu keçib, qüdrət və qüvvə əldə etməklə həyat yollarını keçirlər. Onlara keçən hər gün, cavanlıqlarına qüvvə verir. Gündən-günə qüvvətlənirlər. Lakin qocalar özlərinin xüsusi yollarını keçib, üzüaşağı hərəkətdədirlər. Onlara keçən hər gün, qocalıq və qüvvətsizliklərinə əlavə olur. Qurani-Kərim bu barədə buyurur:

"**Sizi zəif bir şeydən (nütfədən) yaradan, gücsüzlükdən (körpəlikdən) sonra qüvvətli (cavan) edən, qüvvətli olduqdan sonra (yenidən) taqətsiz və qoca edən Allahdır.**"[1]

Başqa ayədə buyurur:

"**Hər kəsə uzun ömür versək, onu xilqətcə dəyişib tərsinə çevirərik. (Qüvvəsini alar, gözünün nurunu aparar, hafizəsini zəiflədib bildiklərini unutdurar, özünü də uşaq kimi edərik). Məgər bu işi dərk etməzlərmi?**"[2]

İnsanın qocalıq vaxtında bütün qüvvələri dəyişib zəifliyə doğru gedir. Anlamaq, başa düşməməzliyə, hafizə unutqanlığa, qüvvə zəifliyə, kamal naqisliyə, qüdrət acizliyə, gözəllik solğunluğa və çirkinliyə çevrilir. Son günlərini yaşayan qocalar, heç bir təzə mətləb hifz etməyə qadir olmadıqlarından əlavə, bəlkə də, keçmişdə öyrəndiklərini də yaddan çıxarırlar. Qurani-Kərim bu barədə buyurur:

"Allah sizi yaratmışdır sonra yenə də (əcəliniz çatanda) öldürəcəkdir. Sizin bir qisminiz ömrün ən rəzil (ixtiyar) çağına çatdırılar ki, (vaxtilə) bildiyi hər şeyi unudar."[3]

Hər kimin ömrü uzun olarsa, qocalıq dövrünə çatıb müxtəlif hadisələrə, o cümlədən, müsibətlərə düçar olar. Qocalığa görə cismi qüvvələri tamamilə işdən düşər. Ruhi qüvvələri zəifləyər, batini və zahiri fəaliyyətləri azalar.

[1] Rum surəsi, ayə 54.
[2] Yasin surəsi, ayə 68.
[3] Nəhl surəsi, ayə 70.

O gələcək...

Qocalıq, cəmiyyətdən kənarlaşmaq

Qocalığın ən böyük müsibətlərindən biri də budur ki, təbii olaraq insanı cəmiyyətin fəaliyyətindən uzaqlaşdırır, zəiflik və qüvvətsizliyin üzündən naçar olaraq əhalinin çox qaynar yerlərini tərk edib, adətən ev mühitində yaşayırlar. Bundan da müsibət qocalara odur ki, ailə və ev mühitində haqq tanımaz övladlar və övlada bənzərlər, onlarla yaxşı rəftar etməyib, onlara qarşı mehribansızlıq etsinlər. Bəzən də, onlarla kobud rəftar oluna bilər və ailə mühitində kobud şəkildə təhqir olunaraq çölə çıxarılmaq ehtimalı var. Dözümləri az olan qocalar, bu vəziyyətə çox da davam gətirməyib həyatlarını dəyişirlər.

Ruhi sıxıntıya görə ölüm

Amerika Cərrahlar Kollecinin üzvü Doktor Adolf yazır: "Xəstəxanaların birində, sümük nahiyəsindən xəsarət almış yetmiş yaşlı bir qadını müalicə edirdim. Müalicə zamanı xüsusi aparatla yoxlanıldıqda məlum oldu ki, sınmış sümüklərinin sağalması tez başa gələcək. Bu müstəsna sağalmağa görə onu təbrik etdim. Qadın daha əl arabası ilə deyil, qoltuq ağacı ilə yeriyə bilərdi.

Onu müalicə edən cərrah mənə dedi: Bu qadın iyirmi dörd saatdan sonra xəstəxanadan çıxarıla bilər, artıq sağalmışdır. Tez sağaldığına görə qadının üzü gülürdü. Birinci gün, (yəni, mən qadının cərrah həkimi ilə söhbət etdiyim gün) həmişə oduğu kimi bir nəfər qız onu yoxlamağa gəldi. Mən ona dedim: Sabah ananızı xəstəxanadan çıxara bilərsiniz. Artıq ananız kifayət qədər sağalıb və qoltuq ağacı ilə yeriyə bilər.

Qız öz planlarından mənə bir şey demədən, bir başa anasının sorağına gedib onunla - əri ilə onun xəstəxanadan evə qayıtmağına razı olmamasından, onu qocalar evində yerləşdirmək haqqında müzakirəyə başladı. Bir neçə saat sonra mən hələ də xəstəxanada idim. Məni qoca qadının yanına çağırdılar. Əvvəlcə, halı yaxşı olan bu qadın artıq ölmüşdü. Lakin sümük sınığından deyil, bəlkə də, qəlbinin sınmasından dünyasını dəyişmişdi. Sınmış sümük sağaldı, lakin sınmış qəlb sağalmadı."[1]

Bəli! Bu günkü dünya, qocaları mehr ocağı sayılan ailə mühitindən ayırıb, qocalar evinə göndərir. Onların dərdlərinə dərman etmək əvəzinə, dərdlərini artırırlar. Lakin, İslam dini bu mövzuda qocaların hüququ adı ilə onların ən yaxşı şəkildə ehtiramına göstəriş verir.

[1] Qoftare fəlsəfi (Bozorgsal və cıvan), cild 2, səh 342.

O gələcək...

RƏVAYƏTLƏRDƏ QOCALARIN EHTİRAMI HAQQINDA

"Üsuli-Kafi" kitabında, **Ağsaqqal müsəlmanın ehtiramının vacib olması** mövzusunda çoxlu rəvayətlər gətirilib. Biz bu rəvayətlərə işarə etməklə, İslam əxlaqı məktəbində yaşlılara necə ehtiram olunmasını bəyan edəcəyik. Rəvayətlərdə, ağsaqqaları olan ailələrə, onları qocalar evinə göndərməkdənsə, belə şəxslərdən necə müvazib olmaları bəyan olunur.

İmam Sadiqdən (ə) nəql olunur, buyurur:

"Qoca və yaşlı müsəlmana ehtiram göstərib hörmətini saxlamaq, Allahın ən çox xoşuna gələn işlərdəndir."[1]

Başqa bir rəvayətdə yenə də İmam Sadiqdən (ə) nəql olunur ki, İslam Peyğəmbəri (s) buyurur:

"Hər kim qoca və yaşlının qədrini bilib ona ehtiram etsə, Allah-taala onu qiyamət gününün heybət və vəhşətindən amanda saxlayar."[2]

Yenə də başqa rəvayətdə İmam Sadiqdən (ə) nəql olunur, buyurur:

"Üç dəstə var ki, yalnız münafiq şəxslər olar ki, onların haqqını tanımasın: Saqqalını İslam yolunda ağardan. Quran və İlahi vəhyi həml edəni. Cəmiyyətdə ədalətlə rəftar edən adil hakimi."[3]

Üçüncü rəvayətdə İbn Sənan, İmam Sadiqdən (ə) nəql edir ki, Həzrət mənə buyurdu:

"Qoca və mömin müsəlmana ehtiram göstərmək, Allah-taalaya ehtiramdır. Hər kim qoca möminə ehtiram göstərsə, Allah-taalaya ehtirama başlayıb. Hər kim mömini yüngül tutub, hörmətsizlik etsə, Allah-taala, ona ölməmişdən əvvəl elə bir kəsi mübtəla edər ki, ona qarşı həmin hörmətsizliyi edər."[4]

Bəli, budur əməl və əksül-əməl. "Hədisi Qüdsüdə" Allah-taala buyurur:

"**Saqqalın ağartısı mənim nurumdur. Mən Öz nurumu cəhənnəm atəşinə atıb əzab verməkdən həya edirəm."**[5]

"İbni Əbi Şeybə" nəql edir ki, **İslam Peyğəmbəri (s) ağ tükü saqqaldan yolmağı qadağan etdi, buyurdu: O, möminin nurudur**!"[6]

[1] Üsuli-kafi, cild 2, səh 657.
[2] Üsuli-kafi, cild 2, səh 657.
[3] Üsuli-kafi, cild 2, səh 657.
[4] Üsuli-kafi, cild 2, səh 657.
[5] Şərhi risalətul-hüquq, Qapançı, cild 2, səh 445.
[6] Şərhi risalətul-hüquq, Qapançı, cild 2, səh 445.

O gələcək...

"Hüzeyl" qəbiləsindən bir nəfər İslam Peyğəmbərinin (s) hüzuruna gəlir və ərz edir:

"Ey Allahın Peyğəmbəri! Mənim yaşım çoxalıb. Sümüklərim və qüdrətim zəifləyib. Belə ki, namaz və orucumu lazım olan kimi yerinə yetirə bilmirəm. İslam Peyğəmbəri (s) buyurur: Sözlərini təkrar et. Sənin ətrafında olan bütün mövcudat sənin halına yanır. Necə ola bilər ki, Allah-taala sənə rəhm etməsin?"[1]

Allah-taala Lut peyğəmbərin tayfasının şəhərlərini alt-üst edib dağıtmağı sübhə kimi təxirə salır. Lut bu təxirin səbəbini soruşur. Cəbrail ərz edir: Allah-taala buyurur: Bu cəmiyyətin arasında saqqalı ağarmış bir kişi arxası üstə yatıb. Onun saqqalının ağlığına görə əzabı sübhə kimi təxirə saldım ki, o da üzü üstə çevrilsin.

İslam Peyğəmbəri (s) buyurur:

"Allah-taala, hər gün sübh və şam vaxtı qoca mömin kişinin ağarmış saqqalına baxıb buyurur: Ey Mənim bəndəm! Yaşın çoxalıb. Sümüklərin boşalıb. Bədəninin dərisi nazilib. Əcəl yaxınlaşıb. Vaxt çatıb ki, Mənə tərəf gələsən. Məndən utan ki, Mən, sənin ağ saqqalını cəhənnəm atəşində yandırmaqdan həya edirəm. Sonra İslam Peyğəmbəri (s) ağladı. Peyğəmbərdən soruşdular: Ağlamağının səbəbi nədir? Buyurdu: Ağlayıram ki, Allah ona əzab verməkdən həya edir, bəs o, necə Allahdan utanmır?!"[2]

Yenədə başqa bir rəvayətdə İmam Sadiqdən (ə) nəql olunur, buyurur:

"**Allah-taala yetmiş yaşlı qoca kişilərə ehtiram göstərir. Səksən yaşlı qocalardan isə həya edir. Bəs əmr edir ki, onların günahlarını bağışlayıb əməllərinə yaxşı işlər yazılsın!"**[3]

QOCALARA EHTİRAM ƏZABDAN XİLAS OLMAQDIR

Qocalara ehtiram mövzusunda İslam Peyğəmbəri (s) buyurur:

"**Hər kim ağsaqqal mömin kişiyə ağ saqqalına görə ehtiram etsə, Allah-taala onu Cəhənnəmin əzab və narahatlıqlarından amanda saxlayar."**[4]

[1] Şərhi risalətul-hüquq, Qapançı, cild 2, səh 445.
[2] Şərhi risalətul-hüquq, Qapançı, cild 2, səh 445.
[3] Şərhi risalətul-hüquq, Qapançı, cild 2, səh 445.
[4] Şərhi risalətul-hüquq, Qapançı, cild 2, səh 445.

O gələcək...

Buraya qədər İmam Səccadın (ə) sözlərinə münasib olaraq, rəvayətlərdə qoca və ağsaqqalların ehtiramı barəsində bəhs etdik. Belə bir nəticəyə gəldik ki, hər bir cəmiyyətdə qocaların sayı çox ola bilər və bu müasir mədəniyyətə malik dünya, onların çarəsini, qocaları isti ailə yuvalarından ayırıb qocalar evlərinə aparmaqda bilir. Lakin müqəddəs İslam, əvvəla ağsaqqalın başının ağ tükünü bərəkət və əzəmət nişanəsi sayır. İkinci, göstəriş verir ki, onlara çox ehtiram göstərilsin. Bəli! Onlar ömürləri qürub etməyə yaxın olan günəşə bənzəyirlər. Onların müqabilində müxalifət göstərməməli və onlara qəzəb gözü ilə baxılmamalıdır. Bir mətləbi qəbul etməliyik ki, onlar yaşlarının çoxluğuna görə hövsələsiz olub, aclığa, susuzluğa və bir çox çətinliklərə dözə bilmirlər.

Rəvayətlərdən məlum olan başqa mətləblərdən biri də budur ki, Allah-taala, qocaları cəhənnəm atəşində yandırmaqdan həya edir. Ona görə də, qocalar da həya edib, qoca vaxtlarında günahlardan çəkinməlidirlər. Hətta, günaha adət edənlər belə, tezliklə özlərini tövbə suyu ilə yumalı, özlərinə qarşı Allahda mərhəmət və məğfirət yaratmalıdırlar.

44. KİÇİKLƏRİN HAQQI

وَأَمّا حَقُّ الصَّغيرِ فَرَحْمتُهُ وتَثقيفُهُ وتَعْليمُهُ وَالعَفْوُ عَنْهُ وَالسِّترُ عَلَيهِ وَالرِّفْقُ به وَالمَعُونَةُ لهُ وَالسِّترُ عَلى جَرائِرِ حَداثَتِه فإنَّهُ سَبَبٌ لِلتَّوبَةِ وَالْمُدارَاةُ لَهُ وتَرْكُ مُماحَكتِه، فإنَّ ذلِكَ أدنى لِرُشْدِه.

"Kiçik yaşlının haqqı budur ki, ona mehribançılıq göstərəsən. Tərbiyə və təlim verib xətalarına göz yumasan. Onunla yumşaq rəftar edəsən. Ona kömək edib uşaqlıq etdiyi səhvləri bağışlayasan. Çünki, bu tövbəyə səbəb olar. Həmçinin, onu bir daha bu işə tərəf gəlməməyə məcbur edər. Çünki, bu əməl, onun inkişafına daha yaxındır."

İmam Səccadın (ə) kiçiklərin haqqı barədə sözünün nəticəsi budur ki, təlim və tərbiyə zamanı uşaqlarla mehriban olub, eyblərini örtməli və həmişə onlara kömək etmək lazımdır.

Şübhəsiz ki, uşaqların tərbiyə olunmasında xoşrəftar olmaq ən mühüm təsiredici yollardan biridir. Bu hissiyyat, uşaqda düzgün şəkildə istifadə olunarsa, səadət və xoşbəxtliyin qaynağıdır. Uşaqların şəxsiyyətlərinin formalaşması və tərbiyələrinin möhkəm olma yollarından biri də uşağa şəxsiyyət kimi diqqət edib, mərhəmətlə yanaşmaqdır. Mehribançılıq olmayan ailədə böyümüş uşaq, özündə bir növ həqarət

və xarlıq hiss edəcək. Belə uşağın ruhiyyəsi sınmış və hər cür inhiraf yollarına düşmək təhlükəsində var. Ona görə də İmam Səccad (ə) uşağın xətalarını görməməzliyə vurub, onun şəxsiyyətinin hər şeydən ötrü alçaldılmasına yol verilməməsinə işarə edir.

İslam Peyğəmbəri (s) öz tərbiyət məktəbində kiçik yaşlı uşaqlar barəsində belə buyurur:

"Övladlarınıza ehtiram göstərin və onların yanında öz rəftar və ədəblərinizi islah edin!"[1]

İmam Səccad (ə) uşağın böyüklərin üzərində olan hüquqlarından, təlim-tərbiyə və pərvərişinə işarə edir. Bu barədə məsum İmamların (ə) yolunu nümunə kimi göstərə bilərik.

UŞAQDA MƏHƏBBƏT YARATMAQ

İmam Həsən (ə) bir gün öz uşaqlarını və qardaşı uşaqlarını çağırıb onlara buyurdu:

"Sizin hamınız bu günkü cəmiyyətin uşaqlarısınız. Ümüdvaram ki, sabahkı cəmiyyətin böyükləri olasınız. Elm öyrənin və bilik yolunda çalışın. Hər birinizin yaxşı hafizəsi olmasa, müəllimin dediklərini yazıb öz yanınızda saxlayın və lazım olan vaxtda onlara müraciət edin."

Bu hədisdə, İmam Həsən (ə) övladlarında elm və bilik əldə etməyə qarşı məhəbbət oyatmaqdan ötrü qorxutmaq və hədələmək yolu ilə deyil, bəlkə də ən yaxşı mehribançılıqla onlarda bu işə qarşı məhəbbət icad edir. O da onlara, bu gün uşaq, sabah isə cəmiyyətin böyükləri olmalarını xatırlatmasıdır. Bu hədisdə istifadə olunan yol, bu günkü dünyanın tərbiyə və təlim məsələlərində ən yaxşı və təsiredici yoldur. Hər bir ailə bu yolla, öz uşaqlarını elm və bilik əldə etməyə sövq etməklə onlara yaxşı ümidlər verə bilər. Bu zaman uşaqlar eşq və əlaqə ilə elm dalınca gedib, bilik əldə edərlər. Bu yolda heç bir güc və qorxutma vasitələrindən istifadə etməyə ehtiyac yoxdur.

UŞAQLARIN TƏRBİYƏ YOLU

Uşaq və böyüklərin istedadlarının ən yaxşı inkişaf yollarından biri yaşayış mühitinin azad olmasıdır. Zorakılıq və zülmkarlıq olan mühitdə sözsüz ki, inkişafdan söz ola bilməz. Əksinə, azad və sağlam mühitdə

[1] Qoftare fəlsəfi (kudək), cild 2, səh 90.

O gələcək...

istedadlar açılır və inkişaf edir. Ona görə də İslam məktəbində hər nə qədər imkan varsa, müəllimə zor və gücdən istifadəyə icazə verilmir. İslam Peyğəmbəri (s) bəşərin müəllimi idi. İbni Məsud nəql edir:

"Bir nəfər İslam Peyğəmbərinin (s) hüzuruna gəlir. Söz demək istədikdə, birdən qorxub dayanır. Həzrət buyurur: Qorxma! Mən şah deyiləm."[1]

İslam Peyğəmbəri (s) buyurur:

"Hər kimin yanında uşaqı varsa, onun pərvərişində uşaq kimi olmalıdır!"[2]

Həzrət Əli (ə) buyurur:

"Hər kimin uşağı varsa, onun tərbiyəsindən ötrü özünü uşaq həddinə qədər aşağı salmalıdır!"[3]

İslam Peyğəmbəri (s) buyurur:

"Allah rəhmət eləsin o ataya ki, öz uşağının yaxşı olub, xeyirxah kimi böyüməsində ona kömək olsun. Ona ehsan etsin, uşaqlıq dostu olsun və onu ədəbli alim kim yetişdirsin!"[4]

Peyğəmbərin (s) uşaqlara ehtiramı

İslam Peyğəmbəri (s) səfərdən qayıdarkən uşaqlarla rastlaşır. Onların ehtiramına görə dayanır və buyurur ki, uşaqları gətirin. Uşaqları yerdən götürüb Həzrətə verirlər. İslam Peyğəmbəri (s) bəzilərini qucağına, bəzilərini də çiyninə mindirir. Bu vaxt öz əshabına buyurur: Uşaqları qucağınıza alın və çiyninizə mindirin. Uşaq bu işdən həddən artıq xoşhal olar və şadlığından dərisinə sığmaz. Uşaqlar bu şirin xatirəni heç vaxt unutmazlar və çox vaxt bir müddət sonra bir yerə yığışıb bu şirin xatirəni bir-birinə söyləyərlər. Fəxrlənərək biri deyər ki, Peyğəmbər (s) məni qucağına alıb. Səni çiyninə mindirmişdi. Başqası deyər: Peyğəmbər (s) öz əshabına buyurdu ki, səni çiyninə götürsün."[5]

Uşağın xətalarını görməməzliyə vurmaq

İmam Səccad (ə) buyurur: **"Uşağın kiçik xətaları bağışlanmalı və görməməzliyə vurulmalıdır!"**

Bəzi günahların bağışlanılıb görməməzliyə vurulması, əxlaq məktəbində istifadə olunan ən mühüm mövzulardan biridir. Bəzən eybləri

[1] Qoftare fəlsəfi (kudək), cild 1, səh 479.
[2] Qoftare fəlsəfi (kudək), cild 1, səh 130.
[3] Qoftare fəlsəfi (kudək), cild 1, səh 130.
[4] Qoftare fəlsəfi (kudək), cild 2, səh 262.
[5] Möhəccətul-beyza, cild 3, səh 366.

O gələcək...

görməməzliyə vurmaq və çox şeydə həssas olmamaq, islah məsələsində çox təsirlidir. İmam Sadiq (ə) buyurur:

"**İnsanlarla yaşayışın səlahı, dolu bir peymanəyə bənzər ki, onun iki də biri anlaşmaq və agahlıq, üçdə biri isə özünü görməməzliyə vurmaqdır.**"[1]

İslam Peyğəmbəri (s) rəvayətlərin birində görməməzliyin dəyəri barəsində buyurur:

"**İmanlı şəxsin yarısı, başqalarının xətasına göz yummaqdır.**"[2]

Əlbəttə, bu sahədəki qafillik də iki qisimdir: **Bəyənilmiş və bəyənilməmiş**. İslam təlimlərində və övliyaların məsləhət gördüyü qəflət və görməməzlik, ağıl və məsləhətdən qaynaqlanan bəyənilmiş bir qəflətdir. Qəflət edən şəxs, bu işi yaxşı və pak niyyətlə yerinə yetirir.

Valideyn və müəllimlərin uşaqların kiçik xətalarına göz yummaları, əgər doğru və öz yerində olarsa, tərbiyəvi məsələlərdə müsbət təsir göstərəcəkdir. Məsələn, bütün dünyada uşaqlar arasında az-çox da olsa, xırda oğurluq halları müşahidə olunur. Malik olmaq hissi uşaqda həddən artıq tez inkişaf edir və ətrafında gördüyü hər şeyi özününkü bilir. Başqa uşaqların oyuncaqlarını özününkü bilib, oğurluğa da əl ata bilər. Bəzən atasının cibinə əl atıb pul götürür. Belə halda ata soruşanda ki, mənim cibimdən pul götürülüb? Ana gileylənərək deməli: Məgər bu evdə kimsə bu çirkin işə əl atar? Ata üzürxahlıq edib deyir: Ola bilsin cibimdən düşüb. Yaxud, meyvə satandan on manat əvəzinə beş manat almışam. O gecə, pulu götürən uşaq fikrə gedəcək. Bu nə işdi mən gördüm? Yaxşı oldu ki, kimsə başa düşmədi. Qərara alır ki, birdə belə işə əl atmasın və özünün abır-həyasının getməsinə səbəb olmasın. Belə halda, xilaf iş görən uşağın işini, onun islah olmasından ötrü görməməzliyə vurmaq lazımdır.

İmam Səccad (ə) buyurur:

"**Uşaqların xətaları ilə belə rəftar etmək, onların islahına səbəb olur.**"

45-46. DİLƏNÇİ VƏ DİLƏNİLMİŞİN HAQQI

وَأَمّا حَقُّ السَّائِلِ فَإِعْطَاؤُهُ إِذا تَيَقَّنتَ صِدْقَهُ وَقَدَرْتَ عَلَى سَدِّ حَاجَتِه، وَالدُّعَاءُ لَهُ فِيمَا نزَلَ بِه، وَالْمُعَاوَنَةُ لَهُ عَلَى طِلبَتِه، وَإِن شَككتَ فِي صِدْقِه وَسَبَقْتَ إِلَيه التُّهْمَةُ لَهُ

[1] Töhəful-uqul, səh 264.

[2] Qoftare fəlsəfi (əxlaq), cild 1, səh 405.

O gələcək...

وَلَمْ تَعْزِمْ عَلَى ذَلِكَ لَمْ تَأْمَنْ أَنْ يَكُونَ مِنْ كَيْدِ الشَّيْطَانِ أَرَادَ أَنْ يَصُدَّكَ عَنْ حَظِّكَ وَيَحُولَ بَيْنَكَ وَبَيْنَ التَّقَرُّبِ إِلَى رَبِّكَ فَتَرَكْتَهُ بِسَتْرِهِ وَرَدَدْتَهُ رَدًّا جَمِيلًا. وَإِنْ غَلَبَتْ نَفْسُكَ فِي أَمْرِهِ وَأَعْطَيْتَهُ عَلَى مَا عَرَضَ فِي نَفْسِكَ مِنْهُ، فَإِنَّ ذَلِكَ مِنْ عَزْمِ الْأُمُورِ.

DİLƏNÇİNİN HAQQI

"Dilənçinin sənin boynunda haqqı odur ki, əgər hazır sədəqən varsa, ona ver və ehtiyacını ödə. Fəqirliyinin aradan getməsindən ötrü ona dua et və istəyinə kömək et. Əgər onun sözünün doğruluğuna şəkk edirsənsə və əlində buna dəlilin yoxdursa, ola bilsin bu Şeytanın sənə olan tələsidir və bununla, sənin Allaha yaxın olmaq bəhrəni əlindən alsın. Allahla sənin aranda pərdə olsun. Onda, onu öz halına burax və yaxşı cavab ver. Əgər bu halda da ona bir şey versən, yerində iş görmüsən!"

DİLƏNİLMİŞİN HAQQI

وَأَمَّا حَقُّ الْمَسْئُولِ فَحَقُّهُ إِنْ أَعْطَى قُبِلَ مِنْهُ مَا أَعْطَى بِالشُّكْرِ لَهُ وَالْمَعْرِفَةِ لِفَضْلِهِ وَطَلَبَ وَجْهَ الْعُذْرِ فِي مَنْعِهِ، وَأَحْسَنَ بِهِ الظَّنَّ. وَاعْلَمْ أَنَّهُ إِنْ مَنَعَ [ف]مَالَهُ مَنَعَ وَأَنْ لَيْسَ التَّثْرِيبُ فِي مَالِهِ، وَإِنْ كَانَ ظَالِمًا فَإِنَّ الْإِنْسَانَ لَظَلُومٌ كَفَّارٌ.

"Dilənçinin boynunda, sual etdiyi şəxsin haqqı odur ki, əgər bir şey verərsə, təşəkkür və qədirdanlıqla ondan qəbul olunsun. Əgər verməsə, xoşluqla onu üzürlü bilsin və onun barəsində yaxşı nəzərdə olsun. Bil ki, əgər bir şey vermədisə, zalim də olsa, öz haqqından vermədi və heç bir məzəmmət yeri yoxdur. Çünki, insan sitəmkar və haqqı gizlədəndir."

İmam Səccad (ə), "dilənçi və dilənilmişin haqqı" barəsindəki sözünün qısası budur ki, imkan olan həddə insan dilənçini boş qaytarmasın və onun fəqirliyinin aradan getməsindən ötrü dua etsin. Dilənçinin sözlərində şəkk edərsə öz şəkkinə fikir verməyib, binanı qoysun ki, Şeytan onu İlahi feyzə çatmasından məhrum etməkdən ötrü vəsvəsə edir. Əgər dilənçiyə bir şey verməyə imkanı yoxdursa, ehtiram və alicənablıqla onu yola salsın. Sual olunmuşun haqqının xülasəsi budur ki, əgər bir şey bağışlayarsa, ona təşəkkür edib qədirdanlıq göstərsin. Əgər bir şey verə bilməsə də onu ittiham edib məzəmmət etməsin. Çünki, insan öz malını çox sevir.

O gələcək...

YERLİ VƏ YERSİZ SUALLAR

İslam nəzərində ümumi olaraq, öyrənməkdən ötrü olan suallar bəyənilmişdir. Bəlkə də, bu işə əmr olunmuşdur. Quran bu barədə buyurur:

"**Əgər bilməsəniz, zikr əhlindən soruşun!"**[1]

Sual, alim olmaqdan ötrü bir yoldur. Lakin, İmam Səccadın (ə) bu bəhsindəki "sual edən və sual olunmuş"-lar və onların hüquqlarından məqsəd, mütləq soruşanlar deyildir. Bəlkə də, insanın pula olan sualı fəqir və miskinlərin suallarıdır. Görəsən belə dilənçiliyin əsli İslamda bəyənilmişdirmi? Bir şey şübhəsizdir ki, İslam dinin nəzəri bu mövzuda mənfidir və belə sual və ya dilənçilik haramdır. Yalnız, xüsusi zərurət halında, fəqir öz canını xətərdə görərsə, bu vaxt canını qorumaqdan ötrü başqasından bir şey istəyə bilər. Bu vaxt hər kimdən bir şey istənilsə, dərhal müsbət cavab verilməlidir. Quran, "Məaric" surəsində buyurur:

"**O kəslər ki, onların mallarında müəyyən bir haqq (pay) vardır. Dilənən və (hər şeydən) məhrum olan (lakin abırına qısılıb dilənməyən) kimsə üçün."**[2]

Beləliklə, dilənçini boş qaytarmaq düzgün deyildir. Əz-Zuha surəsində buyurur: "**Dilənçini də qapından qovma!"**[3]

Ayədə məqsəd, xüms, zəkat və sair vacib hüquqlardan, yaxud qeyri-vaciblərdən söhbət olması barəsində müfəssirlər arasında müxtəlif nəzəriyyələr var. Bəziləri əmindirlər ki, ayədə məqsəd, qeyri-vacib olanlardır və vacib şəri vergilərə aid deyil. Çünki, vacib şəri hüquq, hamının malında vardır. İstər pərhizkar, istərsə də qeyri-pəhrizkar olsun. Əgər belə məna olunsa, ayənin mənası budur: Namaz qılanlar özlərinə vacib bilsinlər ki, öz mallarından Allah yolunda fəqir-füqəraya versinlər.

İkinci ayədə, "qovmaq" sözü, dilənçi ilə qaba şəkildə rəftara aiddir. Ayədəki dilənçidən məqsəd, kimin olması barəsində təfsirçilər arasında müxtəlif nəzərlər var: **Əvvəl:** Elmi və etiqadi sahədə bir şey bilmək istəyənləri qovma. **İkinci:** Maddi cəhətdən fəqirlikdə olub qapına gələnləri qovma. **Üçüncü:** Hər iki məna nəzərdə tutula bilər.[4]

---

[1] Nəhl surəsi, ayə 43.
[2] Məaric surəsi, ayə 24-25.
[3] Zuha surəsi, ayə 10.
[4] Təfsiri-nümunə, cild 27, səh 107.

O gələcək...

DİLƏNÇİLİYİN RƏVAYƏTLƏRDƏ MƏZƏMMƏT OLUNMASI

Məsum İmamların (ə) rəvayətlərində camaat arasında xalqa əl uzadıb dilənmək şiddətlə məzəmmət olunmuşdur. Çünki, əhalidən dilənmək, Allaha etimadsızlıq və dilənənin insanlar arasında zillətə düşməsinə səbəb olur. Digər tərəfdən, möminin izzəti var və dilənməklə öz izzət və şəxsiyyətinə zərbə vurur. İslam Peyğəmbəri (s) rəvayətlərin birində buyurur:

"**Allah-taala bir şey var ki, onu Özü üçün sevir ancaq, bəndəsi üçün bəyənmir. Bəndənin kiməsə əl açmağını bəyənmir və Allahın qəzəbinə səbəb olur. Lakin bəndəsinin Ondan bir şey istəməsini çox sevir. Allah yanında Ondan bir şey istənilməsindən sevimli bir şey yoxdur. Bəs sizlərdən heç biriniz hətta, ayaqqabı bağı da olsa, Allahdan bir şey istəməkdə həya etməyin!"**[1]

Məlum olduğu kimi hədisdə bəndənin başqasından bir şey istəməsindən məqsəd, dilənməklə əhalinin malından bir şey istəməsidir. Aydındır ki, hər kim camaatdan dilənsə, Allaha olan etimadını əldən vermişdir. İndi ki, ən yaxşı şeylər Allahın yanındadır, bəs hər şeyi Allahdan istəyək!

Başqa rəvayətdə yenədə İslam Peyğəmbərindən (s) nəql olunur, buyurur:

"Əhali arasında dilənməkdən çəkinin! Çünki, dilənmək, dünyada zillət və fəqirliyə, Qiyamətdə isə uzun müddətli hesaba səbəb olur."[2]

Başqa bir rəvayətdə İmam Sadiq (ə) buyurur:

"Allah rəhmət eləsin o bəndəyə ki, iffətli olub dilənməkdən çəkinir. Çünki, əhalidən dilənmək dövlətli olmağa deyil, dünyada zillətə səbəb olur."[3]

İNSANIN HÖRMƏTİNİ HİFZ ETMƏK

Əmirəl-möminin Əlinin (ə) İmam Həsənə (ə) etdiyi tövsiyə və vəsiyyətlərdən biri də, insanın kəramət və ehtiramının qorunması, dilənməyin isə insan şəxsiyyətinin məhv olmasının səbəbi kimi tanıtdırır, buyurur:

[1] Şərhi risalətul-hüquq, Qapançı, cild 2, səh 478-479.
[2] Şərhi risalətul-hüquq, Qapançı, cild 2, səh 478-479.
[3] Şərhi risalətul-hüquq, Qapançı, cild 2, səh 478-479.

O gələcək...

"Oğlum! Səni məqsədinə çatdırsa da, öz nəfsini hər cür zillət və qiymətsiz şeylərlə bulaşdırma. Çünki, bu yolda əldən verdiyin abırhəyanı və şəxsiyətini heç vaxt təzədən ələ gətirə bilməzsən. Başqasının da köləsi olma ki, Allah səni azad yaratmışdır."

Həmin vəsiyyətnamənin başqa qismətində yazır:

"Əgər qüdrətin çatsa ki, sənlə Allah-taala arasında heç bir nemət sahibi vasitə olmasın, belə də et. Çünki, sən öz payını alıb qismətinə çatacaqsan. Allah tərəfindən gələn az nemət, məxluqat tərəfindən gələn çox nemətdən möhtərəmdir. Doğrudur ki, bütün nemətlərin hamısı Allah tərəfindəndir."[1]

Göründüyü kimi İmam, öz övladına özünü aşağı səviyyəyə salmamağı, tez gələn gəlir barəsində fikirləşməməyi və ehtiyac əlini əhaliyə tərəf uzatmamağı tövsiyə edir. Çünki, hamının ruzi verəni Allahdır. Bu yolda insanın şəxsiyyəti korlanmalı deyildir. Çünki, dilənmək, insanın şəxsiyyətini alçaldır.

Əmirəl-möminin Əli (ə) başqa yerdə buyurur: **"İnsanlardan dilənmək, gözəl danışan dili qüdrətsiz edir. Şücaətlinin qəlbini sındırır. Azad və qüvvətlini kölə yerində qərar verir. Abır-həyasını aparıb ruzisini batil edir!"**[2]

Həmin dəlilə görə İmam (ə) mübarək məktubunda buyurur: Əgər qüdrətin çatsa ki, ruzini ələ gətirməkdə heç bir nemət sahibini Allahla özün arasında vasitə qərar vermə və ondan hacətinin həll olub, müşkülatlarının aradan getməsini tələb etməyəsən, onda Allaha təvəkkül et! Bu işi gör. Çünki, az da olsa qismətin yetişəcək və başqalarının çoxundan yaxşıdır. Doğrudur ki, o nemət sahibinin də özündən heç bir şeyi yoxdur. Hər şey Allahın yanındadır!

DİLƏNÇİLİYİN ZİLLƏTİNDƏN ÇƏKİNİN

İmam Zeynul-abidin (ə) buyurur:

"**Başqasından hacətini istəmək, həyatda zillətin qaynağı, həyanın aradan getməsi, şəxsiyyətin yüngüləşməsi və fəqirliyin gəlməsinə səbəb olur."**[3]

İmam Sadiq (ə) də həmin hədisə oxşar bir rəvayətdə buyurur:

[1] Nəhcül-Bəlağə, Sübhi Saleh, 31-ci məktub.
[2] İslami əxlaq, təlim və tərbiyə, səh 329.
[3] Biharul-ənvar, cild 78, səh 136.

O gələcək...

"Başqasından hacətini istəmək, həyatda izzətin və həyanın aradan getməsidir. İnsanların əllərində olandan ehtiyacsızlıq hiss etmək, möminin dinində izzətinə səbəb olur. Tamahkarlıq fəqirlik gətirər."[1]

Başqa bir rəvayətdə İslam Peyğəmbərindən (s) nəql olunur ki, buyurur**:**

"Hər kim əhaliyə qarşı özündə dilənmək qapısı açsa, Allah-taala onun üzünə yetmiş fəqirlik qapısını açar ki, onlardan ən kiçiyi budur ki, geyinməyə bir şeyi olmaz.[2]

Başqa bir rəvayətdə yenə də həmin mövzuda İslam Peyğəmbəri (s) Əbuzərə vəsiyyətində, buyurur**:**

"Ey Əbuzər! Camaatdan bir şey dilənməkdən çəkin! Çünki, bu iş, zillət və tez yetişən fəqirlikdir. Qiyamət günündə isə uzun müddət hesabı var. Ey Əbuzər! Əlini dilənmək adı ilə camaata tərəf uzatma. Lakin, istəmədiyin halda sənə bir şey çatsa, onu qəbul et!"[3]

İmam Rzadan (ə) nəql olunur, buyurur:

"Bir nəfər İslam Peyğəmbərinin (s) hüzuruna gəlir və ərz edir: Mənə elə bir şey öyrət ki, Behiştə getməyimə səbəb olsun. Həzrət buyurdu: Qəzəblənmə, camaatdan dilənmə və özünə nə bəyənirsənsə onu da camaata bəyən!"[4]

Həzrəti Əliyə (ə) nisbət verilən divanlardan birində buyurur:

"Əgər gecəni tam azadlıqla sübhə çatdırmaq istəyirsənsə, tələş və çalışmağı bəndənin köləsi qərar ver. Bütün meyllərini camaatın mallarından qət et və heç bir ünvanla camaatın malına gözünü tikmə!"

Aşağıdakı məzmunda olan iki sətir divanda, İmam Həsənə (ə) nisbət verilir, buyurur:

"Bütün insanlardan, Allaha təvəkkül etməklə özünü ehtiyacsız et. Bu vaxt yalançılıqdan doğruluğa doğru ehtiyacsız olacaqsan. Ruzi və mərhəməti Allahdan istə ki, Ondan başqa ruzi verən yoxdur!"

Yenə Həzrət Əliyə (ə) nisbət verilən başqa divanlardan birində buyurur:

"Uca qüllələrdən ən ağır daşları həml etmək, mənim üçün camaatın yanında minnət çəkməkdən daha yaxşıdır. Camaat mənə deyir: Qazanmaq ardır. Halbuki, ar və xəcalət, dilənməyin zillətindədir."

Əmirəl-möminin Əli (ə), Ərəfatda camaatdan dilənən bir nəfər görür. Taziyanə ilə ona anladır, buyurur:

---

[1] İslami əxlaq, təlim və tərbiyə, səh 329.
[2] Şərhi risalətul-hüquq, Qapançı, cild 2, səh 484.
[3] Şərhi risalətul-hüquq, Qapançı, cild 2, səh 484.
[4] Şərhi risalətul-hüquq, Qapançı, cild 2, səh 484.

O gələcək...

Vay olsun sənə! Belə bir gündə Allahdan başqasındanmı istəyirsən?

İslam Peyğəmbəri(s) buyurur**:**

"Camaatdan bir şey istəməyin! Bu vaxt bir nəfər fəqir içəri girib Peyğəmbərdən (s) kömək tələb etmək istədi. İslam Peyğəmbəri (s) bu cümləni təkrarladı: Hər kim bizdən istəsə, ona əta edirik. Hər kim Allahdan ehtiyacsızlıq istəsə, Allah onu (camaata) ehtiyacsız edər."[1]

Başqa bir nəqldə buyurur:

"Hər kim bizdən dilənməsə, bizim yanımızda daha əzizdir"

Fəqir kişi bir şey istəməyib öz evinə qayıdır. Həyat yoldaşı soruşur: Nəyə görə Peyğəmbər (s) bizə kömək etməsini istəmədin? Kişi əhvalatı qadına olduğu kimi nəql edir. Fəqir, səhra və biyabana gedir. Tikan qırmaqla dövlətləşir. Günlərin birində İslam Peyğəmbərinin (s) hüzuruna gəlir və əhvalatı olduğu kimi Həzrətə nəql edir. Həzrət buyurur**:** Həmin ki, demişdim! Hər kim Allahdan ehtiyacsızlıq istəsə, Allah onu (camaatdan) ehtiyacsız edər.

Buraya qədər dilənçiliyin məzəmmət olunması barədə bəhs olundu. Bəhs etdiyimiz rəvayətin məzmunu bu idi ki, dilənçilik, insanın vüqar və dəyərini aradan aparır. Onun ruhiyyəsini çətinliklərə salır və fəqirlik qapılarını onun üzünə açır. Bəs insan nə qədər ki, imkanı var camaatdan bir şey diləməkdən çəkinsin. Lakin, əgər doğurdan da möhtac olsa və başqasına ağız açmaqdan başqa yolu yoxdursa, İslam burada da göstəriş verir ki, hər kəsə ağız açmasın, bəlkə də əhlindən istəsin.

ƏL AÇILMALI ŞƏXSİN XÜSUSİYYƏTLƏRİ

Əmirəl-möminin Əli (ə) buyurur:

"Hacətin zay olması, qeyri-əhlinə əl açılmasından yaxşıdır."[2]

Həzrət başqa yerdə buyurur:

"Üzün suyu (abır-həya) donmuş suya bənzəyir. İstəmək onu tökür. Bəs diqqət et, gör kimin yanında üzünün suyunu tökürsən!"[3]

Məqsəd, dilənçilik olunmamasıdır. Əgər qərar olsa kiməsə əl açılsın, bax gör kimə əl açırsan! Başqa yerdə Əmirəl-möminin Əli (ə) buyurur:

"**Hacətini yerinə yetirməyib, əlini sinənə qaytarmağından qorxduğun şəxsdən bir şey istəmə!"**[4]

---

[1] Şərhi risalətul-hüquq, Qapançı, cild 2, səh 483.
[2] Nəhcül-Bəlağə, Sübhi Saleh, 66-cı hikmət.
[3] Şərhe Ğürər və Dürər, cild 6, səh 243-264.
[4] Şərhe Ğürər və Dürər, cild 6, səh 243-264.

O gələcək...

İmam Sadiq (ə) də həmin hədisə oxşar bir rəvayətdə buyurur:

"Hacətin zay olması, qeyri-əhlinə əl açılmasından yaxşıdır."[1]

İmam Baqir (ə) buyurur:

"**Sənin, əhli olmayan şəxsdən hacət istəməyin, əfi ilanın ağzındakı bir dirhəmə ehtiyacın olduğu kimidir. Lakin ondan qorxursan."**[2]

Şair demişkən: "Hacətləri kərim və xoşsifət şəxslərdən istəmək lazımdır. Oyunbaz və ədəbsizlərdən yox.

Bir nəfər ərəb, əmirəl-möminin Əlinin (ə) hüzuruna gəlir və ərz edir: Ya Əmirəl-möminin! Mən üç dirhəmin giriftarıyam. Biri: Bədənimin dərdinə görə, digəri fəqirliyimə, üçüncüsü isə cəhalət və nadanlığıma görədir. Həzrət cavabında buyurur: Ərəb qardaş! Öz bədəninin xəstəliyini həkimə göstər. Nadanlıq və cəhalət xəstəliyini alimə ərz et. Fəqirliyini isə kərim şəxsə söylə. Sail cavab verdi: Siz, həm həkimsiniz, həm alimsiniz, həm də kərimsiniz! Həzrət göstəriş verir ki, beytül-maldan üç min dirhəm ona bağışlayırlar. Buyurur: Min dirhəm xəstəliyinin xərci, min dirhəm nadanlığına görə xərc et, min dirhəmlə də fəqirliyini aradan apar.

İmam Həsəndən (ə) hacət

Bir nəfər İmam Həsənin (ə) yanına gəlir və həzrətin müqabilində əyilib öz hacətini yerə yazır. İmam da onu müşahidə edirdi. Ərəb belə yazır:

Mənim yanımda heç bir şey qalmayıb ki, onu bir dirhəmə satıb hacətimi alam. Sizin mənim halıma nəzər salmağınız kifayətdir. Yalnız, bir miqdar abır-həyam qalmışdı və onu hifz edirdim. İndi də sizi ona müştəri tapdım!

İmam Həsən (ə) öz xadimini çağırıb soruşur ki, sənin yanında nə qədər pulumuz qalıb? Ərz edir ki, on iki min dirhəm pul qalıb. Həzrət buyurur: Onu bu fəqirə təqdim et! Mən ondan həya edirəm. Xadim sanki, təəccüblənən kimi olur ki, yəni, bütün pulları ona verim? Həzrət buyurdu: Ver! Allaha xatir yaxşı niyyətdə ol. Xadim pulları sailə verəndə, Həzrət saili səsləyib, buyurur: Bizi üzürlü bil. Bundan artıq bir şeyimiz yox idi. Sonra belə məzmunda bir şer buyurdu:

Tələsik bizim yanımıza gəldin, sənə az pay çatdı. Əgər başqa vaxtı gəlsəydin və bizə möhlət versəydin, səhlənkarlıq etməzdik. Bu az bir

[1] Töhəful-uqul, səh 264.

[2] Töhəful-uqul, səh 264.

O gələcək...

hədiyyəni al, sanki heç bir mal satmamısan və müamilə etməmisən. Sanki, bizdə sənin abır-həyanın müştərisi deyilik və onu almamışıq.[1]

İnsanın sailə verdiyi sədəqə əvvəlcə, Allahın əlinə çatır. Sədəqə barəsində olan rəvayətlərdən zikr etdik. Bu cəhətdən sailə heç də minnət qoyub, onun şəxsiyyətinə zərbə vurmaq olmaz. Bu hədisdə gördük ki, İmam Müctəba (ə) özünün yüksək dərəcəli məqam və ruhiyyəsi ilə saillə necə rəftar edir. Əvvəla, evində hər nəyi vardısa sailə verir. İkinci, az verdiyinə görə üzürxahlıq istəyir. Bu da əslində, Həzrətin məktəbinin tərəfdarlarına böyük bir tərbiyəvi dərsdir.

İmam Hüseyndən (ə) hacət

İbni Əsakir özünün "Tarix Kəbir" kitabında yazır: Bir nəfər dilənçi Mədinənin küçələrindən keçərək İmam Hüseynin (ə) evinin yanına çatır. Qapını döyüb belə deyir:

Bu vaxta kimi heç bir dilənçi sənin hədiyyəndən məyus olmamış, hər kim qapını döymüşsə, məyus olmamışdır. Sizlər, bəxşiş sahibi və sərçeşməsi sayılırsınız. Alicənab babalarınız isə fasiqləri məhv edənlərdir!

Həzrət namaz halında idi. Namazı tez qılıb dilənçiyə tərəf gəlir. Fəqirin solmuş üzünü müşahidə edir. Qənbəri çağırıb buyurur: Nə qədər pulumuz var? Ərz edir: İki yüz dirhəm varımızdı. Əmr etmişdiniz ki, onu da övladlarınıza verim. Həzrət buyurur: Onlardan da ehtiyaclı gəlib. Get pulu gətir. Qənbər pulu gətirib fəqirə verir. Həzrət fəqirin şerinin cavabında belə buyurur:

Bu hədiyyəni götür. Mən səndən üzr istəyirəm. Bil ki, sənə qarşı mərhəmət və mehribançılığım var. Əgər başqa cür olsaydı, bizim hədiyyəmiz sizin başınızdan yağardı. Lakin, zəmanə dəyişib və dünya bizim əlimizdə azdır.

Fəqir ərəb hədiyyəni alıb geriyə çölə çıxır və bu məzmunda şer deyir:

Siz Əhli-beytə pak və təmizlik libası geyindirilib və hər yerdə adınız çəkilsə, sizlərə salam göndərirlər. Böyüklərimizsiniz. Kitab elmi, İlahi vəhy və Quran sizin evinizdədir. Hər kim nisbət verilərkən Əlinin övladlarına nisbət verilməsə, heç bir iftixarı yoxdur![2]

[1] Şərhi risalətul-hüquq, Qapançı, cild 2, səh 504.
[2] Şərhi risalətul-hüquq, Qapançı, cild 2, səh 506.

O gələcək...

47. XOŞHAL EDƏNİN HAQQI

وَأمّا حَقُّ مَنْ سَرَّكَ اللهُ به وَعلَى يَدَيه، فَإنْ كَانَ تَعَمَّدَهَا لَكَ حمدْتَ اللهَ أوّلاً ثُمَّ شَكَرْتَهُ عَلَى ذلكَ بقدْره في مَوْضع الجَزَاء وكافَأتَهُ عَلَى فَضْل الاَبْتدَاء وَأرْصَدْتَ لَهُ الْمُكافَأة، وَإنْ لَمْ يَكُنْ تعَمَّدَهَا حَمدْتَ اللهَ وشَكرتَهُ وعلمْتَ أنَّهُ منْهُ، تَوَحَّدك بهَا وأحْبَبتَ هذا إذ كَانَ سَبَبا منْ أسْبَابَ نعَم اللهِ عَلَيْكَ وَترْجُوَ لَهُ بَعْدَ ذلكَ خيرًا، فإنّ أسْبَابَ النِّعَم بَرَكةٌ حَيثُ مَا كانتْ وَإنْ كَانَ لَمْ يَتعَمَّدَ. ولا قوَّةَ إلا باللهِ.

"Allahın, sənin xoşhal olmağını onun ilə yerinə yetirdiyi şəxsin haqqı odur ki, əgər onun məqsədi sənin şadlanmağın olubsa, onda əvvəlcə Rəbbinin şükrünü yerinə yetir sonra isə səni xoşhal edənin haqqı müqabilində hər nə qədər layiqdirsə, mükafatın ver və ehsan etməklə, bu yaxşılığın əvəzini çıxmağa çalış. Onun yaxşılığı, sənin ehsanının başlanması ilə bir olsun. Əgər onun hədəfi sənin şadlığın olmayıbsa, onda Allaha tərif və şükürlər et və bil ki, bu şadlıq, Allah tərəfindən olub, sənin şadlıq qaynağındır. Bu vaxt səni şadlandıranı, Alahın onu səni şadlandırmaqdan ötrü onu bir vasitə qərar verdiyinə görə onu dost tut və onun xeyrini istə! Çünki, nemətlərin səbəbləri bərəkətdirlər. Harda olursa, onun hədəfi bu olmasa da, sən onu dost tut!"

HƏYATDA İNSANIN MÜXTƏLİF HALLARI

Yaşadığımız bu günkü dünyada müxtəlif hallarla qarşılaşırıq. Bəzən insanın həyatı çətinliklərlə dolu olur. Bu çətinliklər dağıdıcı dalğalar kimi insanın nicat gəmisinin qarşısına çıxır və onun sahilə çatmasının qarşısında böyük maneə olur. Bəzən də insanın həyatında xoşhallıq dalğaları dövr edir, belə ki, şadlığından dərisinə sığmır. İslam və Quranın nicatbəxş proqramları insanı, bu iki halətin arasında mötədil şəkildə səadət və xoşbəxtliyə tərəf aparır. Ən dərin qəmlərdə, insan Allahdan ümüdünü üzməməli və bütün nicat qapılarının onun üzünə bağlandığını fikirləşməməlidir. Həmçinin, şadlıq vaxtı da qəflətə düşüb, özünü unutmamalı və nəticədə Allahı yaddan çıxartmamalıdır. Əksinə, hər iki halda, Allah həmişə yadda olmalıdır. Şadlıq vaxtı bilsin ki, bütün bu nemətlər ona, Allah tərəfindəndir. Əgər qəlblər ona tərəfdirsə, bilsin ki, bu da Allahın istəyidir. Giriftarçılıqda da diqqət Allaha tərəf olmalı-

O gələcək...

dır ki, xoşagəlməz hadisələr, insan həyatına çox böyük təsir qoya bilər. Sözün qısası, şadlıq və qəm vaxtında ifrat və təfritdən özünü gözləsin. İnsanı şadlandıran bəzən, dünya və məqam, bəzən, sərvət, qüdrət və imkan, bəzən də başqalarının ona ehsanıdır. İmam Səccad (ə) bu mövzuda, insanı xoşhal edənin hüquqlarına aid yuxarıdakı mətləbləri buyurmuşdur.

MÖMİNLƏRİ XOŞHAL ETMƏYİN SAVABI

"Üsuli-Kafi" kitabında, **"Möminləri sevindirmək"** ünvanı ilə hədislər nəql olunmuşdur. Bu rəvayətlərdə, möminlərin sevindirilməsi məsələsinin əslinə və əhəmiyyətinə işarə olunmuşdur. Bəzi rəvayətlərdə bu işin savabına işarə olunduğundan onların bəzilərini nəzərdən keçiririk:

İmam Baqir (ə) nəql edir ki, İslam Peyğəmbəri (s) buyurur:

"**Hər kim bir mömini sevindirsə, məni sevindirib və hər kim məni sevindirsə, Allahı sevindirmiş kimidir."**[1]

Həyatda, Allah və Peyğəmbərin razılığını ələ gətirməkdən ötrü çalışan insana, bu əməlin yollarından biri kimi başqalarını sevindirməyi məsləhət görmək olar. Bu mövzu, cəmiyyətdə kin-küdurətin və düşmənçiliyin aradan getməsində böyük müsbət təsir göstərə bilər. Yenə də başqa rəvayətdə İmam Baqirdən (ə) nəql olunur, buyurur:

"Kişinin mömin qardaşının üzünə təbəssüm etməsinin savab və mükafatı vardır. Müsəlman qardaşdan zərərli şeyləri kənarlaşdırmağın özü savab və ehsandır. Allaha ən sevimli ibadət, mömin qardaşın qəlbini şadlandırmaqdır."[2]

Bu hədisdə də, mömin qardaşın üzünə təbəssüm və onun müşkülünü həll etməyi müsəlmanların bir-birinə qarşı mehribançılıqlarına dəlalət edir. Bundan əlavə, hədisdə mömin qardaşı şadlandırmaq ibadət sayılır. Çünki, hədisdə buyurur: Möminin qəlbini şad etməkdən sevimli bir ibadət yoxdur. Beləliklə, başqalarının şadlığı yolunda çalışanlar əslində, Allah yolunda olunmuş ibadətlərin ən yaxşı nümunəsidir. Başqa hədisdə İmam Baqir (ə) buyurur:

"Musa ibn İmranın (ə) münacatında gəlib ki, Allah-taala Musaya buyurur: Ya Musa! Mənim elə bəndələrim var ki, Behişt onlardan ötrü

[1] Üsuli-kafi, cild 2, səh 188.
[2] Üsuli-kafi, cild 2, səh 188.

O gələcək...

mübahdır və Mən Behiştdə onlara hökumət bağışlayacağam. Musa ərz etdi: Pərvərdigara! Behiştdə xüsusi məqamları olanlar kimlərdir? Buyurdu: Hər kim möminin qəlbinə şadlıq gətirsə!"

Hədisin davamında gəlir:

"Əgər bir nəfər mömin, elə bir ölkədə yaşasa ki, hakimi zalim və təcavüzkardır, oradan qaçıb əhalisi Allaha şirk qoşan yerdə yaşasa və müşriklərin pənahında qərar tutsa, ölüm vaxtı çatanda Allah-taala ona vəhy edər: Ey Mənim bəndəm! Əgər Mənim Behiştimdə yerin olsaydı səni orada məskunlaşdırardım. Lakin, Mənə şərik qoşana Behiştdə yer yoxdur. Atəşə xitab gələr: Onu özünə çək! Lakin onu çox incitmə. Günortaya yaxın onun ruzisi gələcək. Soruldu: Haradan? Allah-taala buyurdu: Allah istədiyi yerdən."

Bu hədis sitəmkar və zalım hakimin əlindən qaçıb müşriklərin pənahında qərar tutan möminlərə aiddir. Bu barədə Quran buyurur:

"Şübhə yoxdur ki, Allah Özünə şərik qoşanları əfv etməz, amma istədiyi şəxsin bundan başqa olan günahlarını bağışlar."[1]

Bu hədisdə bəyan olur ki, möminləri xoşhal edənlər Behiştə gedib orada xüsusi məqamda olarlar. Başqa bir hədisdə İmam Sadiqdən (ə) nəql olunur, buyurur:

"Bir nəfər möminin xoşhal olmasına səbəb olan müsəlman təsəvvür etməsin ki, təkcə onu xoşhal etmişdir! Bəlkə də, Allaha and olsun! Bizləri də (məsum İmamları) xoşhal etmişdir. Bəlkə də, Allaha and olsun! Peyğəmbəri də xoşhal etmişdir!"[2]

Bəli! Məsum İmamlarımız (ə) və alicənab Peyğəmbərimiz (s) tərəfdarlarının bir-birilə mehriban olub, xoşhal olmalarını, birinin digərinə fəda olmağa hazır olduqlarını gördükdə, onlarda öz tərəfdarlarını xoşhallıqlarından xoşhal olurlar.

XOŞHALLIĞIN İNSANLARIN NİCATINDA ROLU

Hədislərdən birində İmam Sadiqdən (ə) nəql olunur, buyurur:

"Qiyamət günü mömin qəbirdən qaldırılanda, yanında və arxasınca ona oxşar şəxslər hərəkət edəcəklər. Qiyamətin hər hansı bir dəhşət və vəhşəti qarşıya çıxsa, yanındakılar ona deyəcəklər: Qəmgin olma, qorxma, Allah tərəfindən sənə xoşhallıq və şadlıq müjdəsi var.

[1] Nisa surəsi, ayə 48.
[2] Üsuli-kafi, cild 2, səh 188.

O gələcək...

Allah dərgahında hesab-kitab edənə qədər bu şəxslər həmin möminlə birlikdə olarlar. Onunla yüngül hesab çəkib ona deyilər: Behiştə tərəf get. O şəxs gedərkən, yanındakı həmin şəxsləri yenə də görüb onlara deyər: Allah sizə rəhm eləsin! Mən qəbirdən çıxandan bu vaxta kimi mənimlə olub, mənə köməklik göstərmisiniz. De görüm siz kimsiniz? Cavabında deyərlər: Biz həmin şadlıq və sevinclərik ki, sən dünyada mö`min qardaşının qəlbinə salmışdın. Allah bizi həmin sevincdən yaradıb ki. sənə müjdə verək!"[1]

Bu hədisdə, qiyamətdə əməllərin təmsil olunmasından söz açılır. Belə ki, hər bir əməlin öz şəkli olacaq. Dünyada möminlərə qarşı olunan xoşhallıq xüsusi gözəlliklə təmsil olunmuş, insanın önündə və ardınca hərəkətə gəlirlər. Bununla da, insanı Qiyamətin qorxulu və vəhşətli keçidlərindən ötürüb, həmişə öz sahibinə, Allahın mərhəmət müjdələrini çatdırırlar.

İmam Sadiqin (ə) tərəfdarları əməl sahibidirlər

Ravi Kuleyni nəql edir ki, Nəcaşi bir nəfəri Əhvaz məntəqəsinə fərmandar təyin etmişdi. Nəcaşinin işçilərindən bir nəfər İmam Sadiqin (ə) hüzuruna gəlib ərz etdi: Mən, Nəcaşiyə çoxlu maliyyat borcluyam. Verməyə də gücüm çatmır. Sizin onunla aranız yaxşıdır. Əgər məsləhət bilsəniz, ona bir məktub yazın ki, mənim halımı nəzərə alsın. Həzrət belə bir məktub yazır:

"Bismillahir-rəhmanir-rəhim. Din qardaşını sevindir, Allah da səni sevidirsin!"

Bu şəxs, İmam Sadiqin (ə) məktubunu Nəcaşiyə verir. Məclis xəlvət olduqda, Nəcaşi İmam Sadiqin (ə) məktubunu öpüb gözünün üstünə qoyub dedi: Hacətin nədir? Ərz etdi: Məndən on min dirhəm maliyyat istəyirlər. Nəcaşi göstəriş verir ki, ondan maliyyat almasınlar. Sonra soruşur: Səni xoşhal etdimmi? Bəli! – deyə cavab verir. Sonra Nəcaşi göstəriş verir ki, ona bir at, qulam və bir kəniz də hədiyyə etsinlər. Sonra soruşur: Xoşhal oldunmu? Ərz edir: Bəli! Sonra Nəcaşi üstündə oturduğu fərşi də ona hədiyyə verir. Sail, bütün əhvalatı İmam Sadiqə (ə) nəql edir. Həzrət də xoşhal olur. Ərz edir: Siz də xoşhal oldunuz? Buyurdu: Bəli! Allaha and olsun ki, Peyğəmbər də xoşhal oldu![2]

[1] Üsuli-kafi, cild 2, səh 190-191.
[2] Üsuli-kafi, cild 2, səh 190-191.

O gələcək...

Başqalarını sevindirmək daim insanladır

Başqa bir hədisdə İmam Sadiqdən (ə) nəql olunur, buyurur:

"**Hər kim mömin qardaşını sevindirsə, Allah-taala, bu sevincdən xoş əxlaq bir şəxsi xəlq edər ki, ölüm vaxtı həmin müsəlmanın yanına gəlib, Allahın kəramət və razılığını ona müjdə verər. Sonra qəbrə daxil olana qədər onunla olar. Qəbirdə həmin müjdəni təzədən ona xatırladar. Qiyamət günü qəbirdən qaldırılarkən, yenə həmin cümlələrini onun üçün təkrarlayar. Qorxulu və vəhşətli hallarda, həmişə ona ürək-dirək və müjdə verər. Mömin şəxs, bütün bu məhəbbəti onda gördükdən sonra ondan soruşar: Allah sənə rəhm eləsin, sən kimsən? Cavabında deyər: Mən, həmin şadlıq və xoşhalam ki, filan mömin şəxsin qəlbinə atmışdın!"**[1]

Yenə də başqa bir hədisdə Hişam, İmam Sadiqdən (ə) nəql edir, buyurur:

"**Allah dərgahında ən yaxşı əməllərdən biri də mömini sevindirməkdir."** Sonra sevindirməyin nümunələrinə işarə edir: "**Əgər acdırsa, onu doyuzdursun. Şiddətli giriftarçılığı ondan dəf etsin. Borclarını qaytarsın!"**[2]

Bütün bu rəvayətlərdən məlum olur ki, İslam, dünya və axirət dinidir. Ən yaxşı yaşayış mühiti, o mühitdir ki, insanlar orada bir-birinə qarşı dost və mehriban olsunlar. Bir-birinə qarşı düşmənçilik və kinküdurətdən çəkinsinlər. Məsum İmamlarımız (ə), bütün bu rəvayətlərdə öz tərəfdarlarını bir-birinə xidmət göstərməyə dəvət etməklə, dünyanı fəzilətli şəhərə çevirmək ümüdünü doğrultmağı tövsiyə edir.

48. SƏNƏ PİSLİK EDƏNİN HAQQI

وَأمّا حَقُّ مَنْ سَاءَكَ القَضَاءُ عَلَى يَدَيه بِقَوْل أَوْ فِعْل فَإِنْ كَانَ تَعَمَّدَهَا كَانَ العَفْوُ أَوْلَى بِكَ لِمَا فيه لَهُ من القَمْع وَحُسْنَ الأَدَبَ مَعَ كَثِيرٍ أَمْثاله منَ الخَلْق، فإنَّ الله يَقُولُ وَلَمَنِ انتَصَرَ بَعْدَ ظُلْمه فَأولئك مَا عَلَيْهِمْ منْ سَبيل. إنَّمَا السَّبيلُ عَلى الَّذين يظلمونَ النَّاسَ وَيَبغونَ في الأَرْض بغَيرِ الحَقّ، أُولَئك لَهُمَّ عَذابٌ أَليمٌ. وَلَمَنْ صَبَرَ وَغَفَرَ إنَّ ذلك لَمِنْ عَزْمِ الأُمُورِ

[1] Üsuli-kafi, cild 2, səh 190-191.
[2] Üsuli-kafi, cild 2, səh 190-191.

O gələcək...

وَقَالَ عَزَّ وَجَلَّ وَإِنْ عَاقَبْتُمْ فَعَاقِبُوا بِمِثْلِ مَا عُوقِبْتُمْ بِهِ وَلَئِنْ صَبَرْتُمْ لَهُوَ خَيْرٌ لِلصَّابِرِينَ هَذا فِي الْعَمْدِ فَإِنْ لَمْ يَكُنْ عَمْدًا لَمْ تَظْلِمْهُ بِتَعَمُّدِ الْانتِصَارِ مِنْهُ فَتَكُونَ قَدْ كَافَأْتَهُ فِي تَعَمُّدٍ عَلَى خَطَأٍ. وَرَفِقْتَ بِهِ وَرَدَدْتَهُ بِأَلْطَفِ مَا تَقْدِرُ عَلَيْهِ. ولا قُوَّةَ إلا بالله.

"Qəza və qədərdən, sənə pisliyi dəymiş (və ya ittifaqən, onun əli ilə sənə pislik yetişən) şəxsin sənin boynunda haqqı budur ki, əgər qəsdən bu işi görübsə, sənə yaxşı olar ki, onu bağışlayıb, ondan keçəsən. İnsanlarla bu cür yaxşı və ədəblə rəftar et. Çünki, Allah-ta-ala buyurur: "Zülmə məruz qaldıqdan sonra (həddi aşmadan) onun əvəzini çıxanlara heç bir cəza verilməz. Nəhayət, buyurur: Bu, doğru işlərdəndir! Yenə də Allah-taala buyurur: "(Ey möminlər!) İntiqam almaq məqsədilə (birinə) cəza verəcək olsanız, sizə nə cəza verilibsə, onu da o cür cəzalandırın. Agər onlardan (intiqam almayıb) səbr etsəniz, bu, səbr edənlər üçün daha xeyirlidir! Bu mövzu, pisliyin qəsdən olması haqqında idi.

Əgər onun sənə pisliyi qəsdən olmazsa, qəsdən ondan intiqam almağa çalışma. Bununla, qəsdən olan işi xəta ilə dəyişirsən. Hər nə qədər bacarırsansa, onunla mülayim rəftar et!"

İmam Səccad (ə), "**pislik edənin haqqı**" barəsindəki sözünün qısası budur ki, sənə pisliyi dəyənin işi iki haldan xaric deyildir. Ya qəsdən bu işi sənin haqqında görüb, bu vaxt sənə yaxşı olar ki, onu bağışlayasan. Əlbəttə, bunu o halda et ki, sənin bağışlamağından sui-istifadə etməmiş olsun. Yaxud, səhvən və xəta üzündən sənə pisliyi keçib. Bu zaman onun əvəzini çıxmaq istəsən, sənin bu işin xətadan olan işin əvəzini qəsdən çıxmaqla bitir. Bu da müsəlmana yaraşan iş deyil. Bu halda daha yaxşı olar ki, onun xətasını ən yaxşı rəftar və mülayimətçiliklə bağışlayıb yola verəsən.

ƏVF VƏ BAĞIŞLAMAĞA DƏVƏT

Çox az insan tapılar ki, həyatda hər tərəfli şəkildə xəta və səhvə yol verməsin və başqalarının hüquqlarını tamamilə yerinə yetirsin. Əgər qərar olsa ki, intiqam hissinə uyğun olaraq hər kimin qüdrəti olsa, həmin anda öz qisasını alsın, onda cəmiyyətdə bir sıra silsiləvari toq-quşmalar yarana bilər. Bəlkə də, bu proses gündən-günə şiddətlənərək

ağır nəticələrə səbəb ola bilər. Ona görə ki, əvvəla, intiqam həmlələrinin keyfiyyət və kəmiyyət cəhətindən nəzarətə alınıb qorunması çox çətindir. İkincisi, əgər fərz etsək ki, intiqamın keyfiyyətini nəzarətə alaq, ilk törədilmiş cinayətin dəqiq ölçüsü, caninin və üzərində cinayət olunmuşun nəzərində bərabər deyildir. Beləliklə, fərz olunsa ki, müqabil tərəf öz intiqam həmləsində, öz nəzərində kəmiyyət və keyfiyyətə riayət edərsə, başqa tərəf müqabilin nəzərində ədalətə riayət olunmaz halda qalır. Ona görə də, tərəf müqabil hiss edir ki, mən də öz intiqamımı almalıyam və yenidən şiddətli toqquşmalar başlayır. Bu atəş və intiqam silsilələrini kəsə biləcək yeganə qüvvə, insanın əvf və bağışlamaq ruhiyyəsidir. Əgər doğru araşdırsaq, biləcəyik ki, intiqam, intiqam alanın üzərində heç bir müsbət əsər qoymur. Yalnız, müvəqqəti təskinlik yerdə qalır. Halbuki, əfv və bağışlamaqla, insan ən yaxşı ruhi təskinlik və mənəvi rahatçılıq ələ gətirir. İslam göstərişlərində, xüsusilə Qurani-Kərimdə bu mövzuya, maraqlı və diqqəti cəlb edən ifadələrlə işarə olunmuş, ən mühüm İslami vəzifələrdən biri kimi tanıtdırılmışdır. Biz, Quran bəhsinə başlamazdan əvvəl, İmam Səccadın (ə) sözlərindəki Quran ayələrinin mətninə işarə edirik.

MÖMİNLƏRDƏN KÖMƏK İSTƏMƏK

Kömək istəmək və əl tutmaq, möminlərin nişanələrindəndir. Quran "Şura" surəsində buyurur:

"**O kəslər ki, hər vaxt zülmə məruz qalsalar, təslim olmayıb başqalarından kömək istəyərlər."**[1]

Məlumdur ki, başqalarının kömək istəmələri müqabilində, köməklik göstərmək vəzifəsi də durur. Əslində, məzlum, həm zülmün müqabilində müqavimət göstərməli, həm də başqa möminlərdən kömək istəməlidir. Möminlər də bu tələbin müqabilində məzluma kömək etməlidirlər. "Ənfal" surəsində həmin məsələyə işarə olunur, buyurur:

"**Lakin əgər onlar (müsəlmanlar) din yolunda sizdən kömək istəsələr, onlara kömək göstərmək sizə vacibdir."**[2]

Bu göstəriş əslində, zalimlərə, möminlərin öz dindaşlarının zülmü müqabilində sakit oturmayacaqları barədə xəbərdarlıq edir. "Şura" surəsində pisliyə qarşı pislik cavabında buyurur:

[1] Şura surəsi, ayə 39.
[2] Ənfal surəsi, ayə 72.

O gələcək...

"Hər hansı bir pisliyin cəzası onun özü kimi bir pislikdir. Bununla belə hər kəs pislik edəni bağışlasa və (onunla) barışsa, onun mükafatı Allaha aiddir. Həqiqətən, Allah zalimləri sevməz!"[1]

Əlbəttə, zalimin işi pisliklə tanınmalıdır. Necə ki, ayədə ona işarə olunmuşdur. Lakin vacib deyil ki, onun cəzası pisliklə qaytarılsın. Əgər ayədə pislik edənin cavabında "pislik" sözü işlədilmişdirsə, əvvəlcə qeyd olunmuş zalimə görədir. Yaxud, zalimin işinin pisliyini nişan verməkdən ötrü bu ifadə işlənilmişdir. Yaxud da, ola bilsin bu səbəbdəndir ki, cəza, əzab və əziyyət sayılır, əziyyət isə zatən pisdir. Doğrudur ki, zalimin qisası öz-özlüyündə pis iş adlandırılmır. Bu ayə, Bəqərə surəsindəki ayəyə oxşayır, buyurur:

"Sizə qarşı həddini aşanlara siz də həmin ölçüdə həddi aşın (cavab verin). Allahdan qorxun (qədərindən artıq əvəz çıxmayın) və bilin ki, Allah müttəqilərlədir."[2]

Kömək istəmək heç də eyib deyildir. Bu barədə Quranda buyurur:

"Hər kim zülmə məruz qaldıqdan sonra kömək tələb etsə, ona heç bir irad tutulmaz"[3]

ƏFV VƏ GÜZƏŞT ƏN YAXŞI YOLDUR

İmam Səccad (ə) öz sözlərində başqa ayəni zikr edir, buyurur:

"Əlbəttə, hər kəs (pisliyə) səbr edib (qisası) bağışlasa, (onun bu hərəkəti şəriətcə) çox bəyənilən əməllərdəndir!"

Bundan əlavə, İmam Səccad (ə) Nəhl surəsinində gələn ayəyə işarə edir, buyurur:

"(Ey möminlər!) İntiqam almaq məqsədilə (birinə) cəza verəcək olsanız, sizə nə cəza verilibsə onu da o cür cəzalandırın. Əgər onlardan (intiqam almayıb) səbr etsəniz, bu, səbr edənlər üçün daha xeyirlidir!"[4]

Bəzi rəvayətlərdə bu ayə "Ühüd" döyüşündə nazil olmuşdur. İslam Peyğəmbəri (s) öz əmisi Həmzənin cəsədini tikə-tikə gördükdə, narahat olur və buyurur:

"İlahi! Həmd və səna Sənin üçündür. Sənə şikayət edirəm. Gördüyüm mənzərə müqabilində Səndən kömək istəyirəm! "Sonra buyurur:

[1] Şura surəsi, ayə 40.
[2] Bəqərə surəsi, ayə 194.
[3] Şura surəsi, ayə 41.
[4] Nəhl surəsi, ayə 126.

O gələcək...

"**Əgər onlara qələbə çalsam, parça-parça edəcəm! Parça-parça edəcəm! Parça-parça edəcəm!"** Bəzi rəvayətə görə buyurur: Onlardan yetmiş nəfərini bu cür edəcəm! Sonra bu ayə nazil olur. İslam Peyğəmbəri (s) buyurur: "**İlahi! Səbr edərəm! Səbr edərəm!"**[1]

ƏFV VƏ VAZ KEÇMƏYİN FƏRQİ

Qurani-Kərimdə "Nur" surəsində buyurur:

"**Aranızda olan fəzilət və sərvət sahibləri, qohum-əqrabaya, miskinlərə və Allah yolunda hicrət edənlərə (heç bir şey verməyəcəkləri, heç bir köməklik göstərməyəcəkləri barədə) and içməsinlər. Onları əfv edib, (cəzalandırmaqdan) vaz keçsinlər! Məgər siz Allahın sizi bağışlamağını istəmirsiniz? Allah bağışlayan və rəhm edəndir!"**

Qeyd olunan ayə, Nur surəsində "İfk "əhvalatının ardınca gəlib. Bu ayədə, belə bir həqiqətə işarə olunmuşdur ki, sizlərdən hər biriniz Allahın sizi bağışlamağını istədiyi kimi siz də, başqaları ilə münasibətdə sizin hüququn pozulması qarşıya çıxan hadisələrdə başqalarını cəzalandırmaqdan vaz keçin!

Maraqlısı budur ki, ərəb dilində "əfv "sözü ilə "səfh" (vaz keçmək, göz yummaq) arasında məna cəhətdən fərq vardır. Rağib yazır: Günaha göz yummaq (səfh) bağışlamağın ən ali mərtəbəsidir. Çünki, bu halət, günahdan minnət qoymadan vaz keçməkdir. Hər kim intiqamını əfv etsə, lakin dili ya işarə ilə sonradan qarşı tərəfin günahını xatırlatsa, əslində əfv etməmişdir.

PİSLİYƏ YAXŞILIQLA CAVAB

Qurani-Kərimdə, əfv və bəxşişdən də mühüm bir mərhələyə işarə olunmuşdur. O da budur ki, pisliyə yaxşılıqla cavab verilsin. Şübhəsiz ki, bu əməl insanlığın ən ali ruhi səviyyəsi olub, xüsusi əxlaq və ruhiyyə istəyir. Həmçinin, təcavüzkar və günahkarlara dərs veriləcək ən yaxşı yoldur. Bütün bunlar cəmiyyət arasında düşmənçilik və ədavətə son qoymaqdan ötrü ən yaxşı yollardır. Quranın "Fussilət" surəsində bu mətləbə ən yaxşı şəkildə işarə olunur, buyurur:

"**Yaxşılıqla pislik eyni ola bilməz! (Ey mömin kimsə!) Sən pisliyi yaxşılıqla dəf et! Belə olduqda aranızda düşmənçilik olan şəxsi yaxın**

[1] Təfsiri-nümunə, cild 11, səh 457.

O gələcək...

bir dost kimi görürsən! Bu (xislət) yalnız (dünyada məşəqqətlər) səbr edənlərə verilir və yalnız böyük qismət (savab, fəzilət) sahiblərinə əta olunur!"[1]

Bu ayədə əvvəlcə, "yaxşılıqla dəf etmək" yolunun möcüzəli təsirinə işarə olunur və bildirilir ki, bu yolla ən qatı düşmənləri, ən səmimi dostlara çevirmək olar. Həmçinin, təkid olunur ki, belə xüsusiyyət yalnız, möhkəm iman, elm və əməli fəzilət sahibi, səbr və dözümlü, nəfsani istəklərinin qarşısını ala biləcək şəxslərə qismət olur.

"Yaxşılıqla dəf etmək" yolunun möcüzəli təsiri ondan başlanır ki, təcavüzkar şəxslər həmişə qarşı tərəfin intiqamının intizarındadırlar. Adətən batində vicdanları özlərini bu intiqamın müstəhəqqi bilirlər. Lakin, elə ki onların intizarının əksinə olaraq pisliyə yaxşılıqla cavab görsələr, yatmış vicdanları oyanar və batindən onları islah etməyə başlayar. Onların vicdanları, bu işlə qarşı tərəfin günahsız, özlərinin isə günahkar olduğunu onlara nişan verər. Bununlada, öz pis yollarını dəyişməyə məcbur olarlar.

QÜDRƏT OLAN VAXTDA ƏFV ETMƏK

Ümümiyyətlə, birinin əfv və bağışlamağına o vaxt əfv deyilir ki, intiqam almağa qüdrəti olmuş olsun. Bu halda intiqam almaqdan vaz keçsin. Lakin, bir halda ki, birisi initiqam almağa qadir deyil, deyə bilməz ki, bağışladım. Bu məsələni sübuta yetirməkdən ötrü aşağadakı iki nümunəyə işarə edirik:

Həzrəti Yusifin bağışlaması

Quranda Yusif peyğəmbərin və cinayətkar qardaşlarının əhvalatında bu məsələyə işarə olunub. Qardaşlar üçüncü dəfə Misirə səfərə çıxdıqda, Yusiflə tanışlıqlarının müqəddiməsi hazırlanır. Quran buyurur:

"**Onlar (qardaşlar): Yoxsa sən Yusifin özüsən?! – dedilər. O da: Mən Yusifəm, bu da qardaşımdır. Allah bizə lütf etdi. Kim Allahdan qorxub pis əməllərdən çəkinsə və səbr etsə, (bilsin ki) Allah yaxşı işlər görənlərin mükafatını əsla zay etməz! – deyə cavab verdi."**[2]

Bu vaxt Yusif onların keçmiş günahlarını onlara xatırladıb soruşdu: İndi sizin barənizdə nə etmək lazımdır? Dedilər: Ey Yusif! Biz xətakarıq!

[1] Fussilət surəsi, ayə 34-35.
[2] Yusuf surəsi, ayə 90.

O gələcək...

Bizi hər nə cür cəzalandırsan, haqlısan! Amma, bizə qarşı alicənablıq et və bizi bağışla! Yusif cavablarında buyurdu:

"**Yusif dedi: Bu gün sizə (etdiklərinizə görə) heç bir məzəmmət yoxdur. Allah sizi bağışlasın! O, rəhm edənlərin mərhəmətlisidir!"**[1]

Bu əhvalatdan göründüyü kimi Yusifin intiqam almağa hər cür imkanı var idi. Lakin bununla belə onları əfv edir.

İslam Peyğəmbərinin (s) Məkkənin fəthində əfvi

Hicrətin səkkizinci ilində, İslam Peyğəmbəri (s), Məkkəni nizami cəhətdən mühasirəyə aldıqda, "Məscidül-Hərama" gəlib, "Həcərül-Əsvədi" öpür və bu ayəni oxuyur:

"**Haqq gəldi, batil getdi. Həqiqətən, batil gedəsidir!"** Göstəriş verir ki, bütün bütləri sındırsınlar. Sonra **"La ilahə illəllah vəhdəhu lə şərikə ləh " –** şüarını oxuyur. Məkkə əhlinə xitab edərək buyurur: **"Özünüz barədə nə deyirsiniz? Nə fikirləşirsiniz?"** Dedilər: "**Xeyir söz deyirik. Sizin barənizdə yaxşı gümandayıq. Kərim qardaş və kərim qardaş oğlu ki, indi qalibsən!"**

İslam Peyğəmbəri (s) buyurdu: Mən bu gün sizə qardaşım Yusifin dediyini deyirəm: "**Bu gün sizə (etdiklərinizə görə) heç bir məzəmmət yoxdur. Allah sizi bağışlasın! O, rəhm edənlərin mərhəmətlisidir!"** Sonra buyurur: **Sizin hamınızı intiqamdan azad etdim!**

İslam Peyğəmbərinin (s) tam qüdrəti var idi ki, Məkkə əhlini etdikləri cinayətlərə görə tamamilə məhv etsin. Lakin bir neçə nəfər ağır cinayətə mürtəkib olan şəxslərdən başqa hamını azad edir.[2]

Bu barədə Əmirəl-möminin Əli (ə) buyurur:

"**Tam qüdrət olan yerdə, əfvin fəzilət və dəyəri zühur edir!"**[3]

Həzrət həmin mətləbə işarə edir ki, bağışlamaq o yerdə ünvanlanır ki, tərəfin intiqam almağa tam qüdrəti olmuş olsun. Yoxsa, intiqama qüdrəti olmayanın bağışlamaqdan başqa çarəsi yoxdur. Həzrət başqa cümlədə buyurur:

"**Ən yaxşı əfv, o əfvdir ki, qüdrət və qüvvədən qaynaqlansın!"**[4]

"Nəhcül-Bəlağə "də qısa kəlmələr qismətində buyurur:

"**Düşməninə qələbə çalarkən əfv və bağışlamağı, qələbə nemətinə şükür qərar ver!"**[5]

---

[1] Yusuf surəsi, ayə 92.
[2] Tarixi Peyambəre İslam, 324.
[3] Şərhe Ğürər və Dürər, cild 4, səh 432.
[4] Şərhe Ğürər və Dürər, cild 4, səh 435.
[5] Nəhcül-Bəlağə, Sübhi Saleh, 11-ci hikmət.

O gələcək...

Bəli! Azad insanların böyük ruhiyyələri belə tələb edir ki, intiqam almağa tam qüdrət və qüvvələri olan halda, igidlik və mərdliklə qarşı tərəfi bağışlayıb onda batini dönüş yaratsınlar.

49. MİLLƏTİN HAQQI

وَأمّا حَقُّ أَهْلِ ملَّتك عَامَّةً فَإضْمَارُ السَّلامَة وَنشْرِ جَنَاحِ الرَّحْمَة وَالرِّفْقِ بِمُسيئهمْ وَتَألُّفُهُمْ وَاسْتِصْلاَحُهُمْ وَشُكرُ مُحْسنِهِمْ إلى نَفْسه وَإلَيْكَ، فَإنَّ إحْسَانهُ إلى نَفْسه إحْسَانهُ إليكَ إذا كفَّ عَنْك أذاهُ وَكَفَاكَ مئونتَهُ وَحَبَسَ عَنك نفْسَهُ فَعَمِّهِمْ جَميعًا بدَعْوَتك وَانصُرْهُمْ جَميعاً بنُصْرَتك وَأنزلَتهُمْ جَميعاً منْك مَنَازلَهُمْ، كَبيرَهُمْ بمَنْزلَة الْوَالدِ وَصَغيرَهُمْ

بمَنْزلَة الْوَلَد وَأَوْسَطَهُمْ بمَنْزلَة الأَخ. فَمَنْ أَتاكَ تَعَاهَدْتَه بلُطْفٍ وَرَحْمَةٍ. وَصِلْ أَخَاكَ بمَا يَجبُ لِلأَخ عَلى أَخيهِ.

“Ümumiyyətlə, millətin sənin boynunda haqqı odur ki, qəlbinin dərinliyində onların salamatçılığın istə, rəhmət və mərhəmət qanadını onlara aç. Pisləri ilə güzəştlə rəftar edib, onlarla ünsiyyətdə ol və islah olmalarını istə. Onlara, özlərinə və sənə yaxşılıq etdiklərinə görə təşəkkür et. Onların özlərinə yaxşılığı, sənə yaxşılığı kimidir. Çünki, sənə əziyyət verməkdən çəkinib, zəhmətə salmayıblar. Onların hamısına dua et. Öz köməkliyinlə, onların hamısına köməklik göstər. Hər birinə məqamına görə ehtiram et. Onların böyüklərini öz atan, kiçiklərini öz övladın kimi tanı. Orta yaşlılarını öz qardaşın bil. Hansı yanına gəlsə, ondan rəhmət və mərhəmətlə əhvalını soruş. Qardaşınla qardaş hüququ kimi rəftar et!”

“MİLLƏT” SÖZÜ LÜĞƏTDƏ

“Millət” sözü, sözün tək şəklindədir. Cəm şəkli, “miləl” şəklində işlədilir. Bu söz, əqidə, iman, camaat və firqə mənasında işlənilir. Quranda buyurur:

“**İbrahimin pak dininə tabe olun”.**

Millət, din kimidir. Onu da şəriətin adı kimi Allah-taala, peyğəmbərlərin vasitəsilə insanlara göndərmişdir. Millətlə din arasında fərq bu-

dur ki, millət, Allaha və tək-tək şəxslərə nisbət verilmir. Məsələn, deyə bilmərik ki, Allahın milləti və ya Zeydin milləti. Amma millət təkcə, peyğəmbərə nisbət verilir. Lakin, dini həm Allaha, həm də şəxslərə nisbət verə bilərik. Məsələn, Allahın dini, Zeydin dini və sair.[1]

Xülasə, din, Allaha, peyğəmbərə və şəxsə nisbət verilə bilər. Amma, millət, yalnız, rəhbər və dini gətirənə nisbət verilə bilər. Quranda, din bəzən, tayfa və onun kimi şeylərə də nisbət verilib. Məsələn, həzrət Yusifin Quranda dediyi sözdə oxuyururq:

"**Mən Allaha inanmayan və Axirəti də inkar edən bir tayfanın dinini tərk etdim! Mən ata babalarım İbrahim, İshaq və Yəqubun dininə tabe oldum!"**[2]

Başqa surədə müşriklərin dilindən buyurur:

"Biz bu sözü sonuncu dində də eşitməmişik. Bu ancaq bir uydurmadır."[3]

Bu söz, bütpərəstlərin də təriqətlərinə aiddir. Quran buyurur:

"**Allah bizi, sizin (batil) dininizdən xilas etdikdən sonra biz sizin dininizə dönsək, Allaha qarşı yalan uydurmuş oluruq."**[4]

Bütün bu lüğət barəsindəki bəhsdən sonra aydın olur ki, İmam Səccad (ə) bu bölmədə, millət və dindaş hüquqları barəsində söhbət edir. Başqə sözlə desək, İslam millətindən bəhs olunur.

İslam və ictimaiyyətə əhəmiyyət

İslam dini öz nəzəriyyəsində, insanı ictimai bir mövcud kimi tanıyır və onun təkamülünü ictimaiyyətin sayəsində bilir. Bu məsələni, Qurani-Kərimdə insanlara olunan ümumi xitablardan aydıncasına başa düşmək olar. Bu mövzudakı ayələrin nümunələrinə işarə edirik.

İnhiraf yollardan çəkinmək

Quran buyurur:

"**Bu, şübhəsiz ki, Mənim doğru yolumdur. Onu tutub gedin. Sizi Allahın yolundan sapdıracaq yollara uymayın. Allah sizə bunları tövsiyə etdi ki, bəlkə, pis əməllərdən çəkinəsiniz!"**[5]

Bu ayədə Allah-taala, şəxslə yox, insanlarla söhbət edir.

[1] Müfrədate Rağib (mellət).
[2] Yusuf surəsi, ayə 37-38.
[3] Sad surəsi, ayə 7.
[4] Əraf surəsi, ayə 89.
[5] Ənam surəsi, ayə 153.

O gələcək...

Birliyə və vəhdətə dəvət

Quran buyurur:

"**Hamınız bir yerdə Allahın ipindən (İslam və Qurandan) möhkəm yapışın, bir-birinizdən ayrılmayın! Allahın sizə verdiyi neməti xatırlayın ki, siz bir-birinizə düşmən ikən O, sizin qəlblərinizi (İslam ilə) birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz."**[1]

Bu ayədə, vəhdət, birlik və qardaşlıqdan bəhs olunur. Dünənki düşmənlər bu günki qardaşlardır. Özgələr də bu işdən təəccübə gəlirlər. Məsələn, İngilis alimi Can Dyun Port yazır:

"Məhəmməd" bir nəfər sadə ərəb idi. Özünün kiçik, ayaqyalın və ac tayfasını, inzibati və əxlaqlı bir cəmiyyətə çevirdi. Dünya millətləri arasında onları əxlaqlı və mədəni bir millət kimi tanıtdırır. Otuz ildən az müddətdə bu yolla, imperiyaları məğlub edib, İran soltanların aradan aparır. Suriyanı, Bəhreyni və Misiri özünə ram edir. Fəthlərinin sorağı atlantik okeanından Xəzər dənizinə və Seyhun çayına qədər çatır."[2]

Məhşur siyasətçi və hind alimi "Nehru" yazır:

"Ərəblərin keçmişi, Asiya və Avropaya necə sürətlə yayılmaları bəşər tarixinin möcüzələrindən biridir. Ərəbləri oyadıb, onların özlərində etimad və qüdrət hiss etmələri, İslam dininin planlarının təsirindən idi. Bu din, 570-ci ildə Məkkədə dünyaya gəlmiş, "Məhəmməd" adlı təzə peyğəmbərin vasitəsilə başlayır."

Bu iki nümunə, bəhsimizin mövzusuna aid müxtəsər tarix idi. Bu cür etiraflardan dünyada o qədər qeydə alınıb ki, onların hamısından ötrü xüsusi kitab lazımdır.

Təfriqələrdən çəkilib ictimai qanunları hifz etmək

Quran buyurur: "**(Allah tərəfindən) açıq-aydın dəlillər gəldikdən sonra bir-birindən ayrılan və ixtilaf törədən şəxslər kimi olmayın! Onlar böyük bir əzaba düçar olacaqlar"**[3]

Bu ayədə söhbət, birlik və ayrılıqdan gedir. Müsəlmanlar özlərindən əvvəlki, yəhudi və xaçpərəstlər kimi təfriqə və ayrılığa yol verməməlidirlər. Quranın təfriqə və ayrılığın qarşısını almağa təkidi o cəhətdəndir ki, əgər belə bir hadisə düşsə, (necə ki düşüb) müsəlmanların

[1] Ali-İmran surəsi, ayə 103.
[2] Ozre təqsir be pişqah Muhəmməd və Quran, səh 77.
[3] Ali-İmran surəsi, ayə 105.

O gələcək...

əzəmət və birliyi aradan gedəcəkdir. Quran başqa yerdə buyurur:

"**Allaha və Onun peyğəmbərinə itaət edin. Bir-birinizlə çəkişməyin, yoxsa qorxub zəifləyər və gücdən düşərsiniz. Səbr edin, çünki Allah səbr edənlərlədir!**"[1]

Bu ayədə, rəhbərlikdən itaət və ixtilaflardan çəkinməyə tövsiyə olunur. Əks halda, cəmiyyətin abır-həyasının getməsi və şəninin aşağı düşməsinə gətirib çıxarır. Bundan əlavə, belə keşməkeşlər cəmiyyətin əzəmətlə qarşıya apardığı hədəflərini puça çıxarır. Çünki, mühitdə, düzgün və müvafiqətçiliklə yaşamaq, hədəf gəmisini həmişə məqsədə tərəf çəkir. İxtilaf isə bütün bu hərəkəti tamamilə saxlayır.

QARDAŞLIQ VƏ DOSTLUQ MÜSƏLMANLARIN ŞÜARIDIR

Keçən ayələrdən məlum olur ki, Quran bizləri yersiz ixtilaf və çəkişmələrdən çəkindirir və bu işin acı nəticələrini çatdırır. Bunların müqabilində Quran, müsəlmanları qardaşlıq və dostluğa dəvət edir, buyurur:

"**Həqiqətən, möminlər (dində) qardaşdırlar. Buna görə də iki qardaşınızın arasını düzəldin və Allahdan qorxun ki, bəlkə, rəhm olunasınız.**"[2]

İctimai ixtilaflarda güzəştin rolu

Qeyd etdik ki, insan, ictimai mövcuddur və şübhəsiz ki, ictimaiyyətdə yaşayan şəxslər öz mənafelərini güdəcəkdir. Bu cəhətdən də cəmiyyətdə ictimai çəkişmələr baş verir. Bəs, biz necə rəftar etməliyik ki, cəmiyyətdə ixtilafdan məhfuz qalaq? İslam əxlaq məktəbində elə göstərişlər var ki, əgər bir dəfə onlara əməl olunarsa, insan bütün ixtilaflardan amanda qalar. "Üsuli-Kafi" kitabında iki mühüm fəsil var: "**Güzəşt etmək" və "həmkarlıq".**

İmam Sadiq (ə), İslam Peyğəmbərindən (s) nəql edir buyurur:

"**Üç şey var ki, əgər insanda olmasa, heç bir əməl ondan qəbul olmaz: Birinci: Onu Allaha qarşı günah etməkdən çəkindirən qorxu və təqva qüvvəsi. İkinci: İnsanlarla güzəştlə rəftar etmək. Üçüncü: Helm və möhkəm nəfsə malik olsun ki, nadanların nadanlıqlarına güzəştə gedə bilsin.**"[3]

[1] Ənfal surəsi, ayə 46.
[2] Hücurat surəsi, ayə 10.
[3] Üsuli-kafi, cild 2, səh 116.

O gələcək...

Başqa bir rəvayətdə İmam Baqirdən (ə) nəql olunur, buyurur:

"Həzrət Cəbrail, İslam Peyğəmbərinin (s) hüzuruna gəlir və buyurur: Ey Peyğəmbər! Allah salam göndərir və buyurur: Mənim bəndələrimlə güzəştlə rəftar et!"[1]

Başqa bir rəvayətdə İmam Sadiq (ə) İslam Peyğəmbərindən (s) nəql edir, buyurur:

"Allah-taala, mənə insanlarla güzəştlə rəftar etməyə əmr etmişdir!"[2]

GÜZƏŞT VƏ ONUN TƏSİRLƏRİ

Keçən bəhsdə işarə etdik ki, Mərhum Kuleyni, "Üsuli-Kafi" kitabında iki mühüm fəsl, **"güzəşt etmək"** və **"həmkarlıq"**, adı altında rəvayətlər nəql etmişdir. Onu da qeyd edək ki, məna cəhətdən, "güzəşt" və "həmkarlıq" bir-birinə yaxındır. Çünki, "güzəşt", insanın cəmiyyətdə mülayim rəftar edib bir çox namülayimliklərə dözməsidir. Bəzən bu iki terminin arasında fərq qoyurlar. O da budur ki, "güzəşt"də, insanların əziyyətlərinə dözmək xüsusiyyəti var, amma bu halət "həmkarlıqda" yoxdur. Əllamə Məclisi özünün "Miratul uqul" kitabında yazır:

"Həmkarlıq", insanın bütün hallarda mülayim, ülfət, danışıq və əməlində zorakılığa yol verməməsidir."[3]

İmam Baqirdən (ə) nəql olunur, buyurur:

"Hər bir şeyin kilidi var, imanın da kilidi həmkarlıqdır"[4]

Bu hədisdə "iman", hifzində çalışmalı olduğumuz "qəlbə" oxşadılmışdır. Bu qəlbin kilidi isə həmkarlıq və mülayim rəftar etməyə bənzədilib. Həmkarlıq, əslində insanın qəlbində imanını qoruyur və Şeytanın qəlbə girməsinin qarşısını alır. Əgər bu xüsusiyyət, insanda aradan gedərsə, hər cür çirkinlik və fəsad onun yerini tuta bilər.

Başqa bir rəvayətdə İmam Baqir (ə) İslam Peyğəmbərindən (s) nəql edir, buyurur:

"**Əgər həmkarlıq görünmək qabiliyyətinə malik olan bir məxluq olsaydı, məxluqatların arasında ondan üstünü olmazdı."**[5]

Başqa bir rəvayətdə İmam Baqirdən (ə) nəql olunur, buyurur:

---

[1] Üsuli-kafi, cild 2, səh 116.
[2] Üsuli-kafi, cild 2, səh 116.
[3] Miratul-uqul, cild 8, səh 233.
[4] Üsuli-kafi, cild 2, səh 118.
[5] Üsuli-kafi, cild 2, səh 120.

O gələcək...

"**Allah-taala, güzəşt edəndir. Hər kim bu cür olsa, onu sevir və mülayimliyə verdiyi mükafatı hər rəftara vermir!"**[1]

Başqa bir rəvayətdə İmam Sadiq (ə) İslam peyğəmbərindən (s) nəql edir, buyurur:

"**Həmkarlıq və mülayimlik bəyənilmiş, qabalıq və zorakılıq isə bəyənilməmiş sifətdir."**[2]

Bu mövzuda nəql olunan rəvayətlərdən İmam Səccadın (ə) sözlərinin mənasını daha yaxşı anlayırıq. İmam (ə) buyurur: Öz dindar və millətinin pisləri ilə yaxşı və mülayim şəkildə rəftar edin. Onların yaxşı və salehlərinə təşəkkür edin. Öz köməkliyini onlardan əsirgəmə və onların hər birinə özünə görə məqam ver. Millətinin böyük və ağ-saqqalları öz mehriban atan, kiçiklərini əziz övladın, orta yaşlılarını isə öz qardaşın kimi bil. Sənə vacib olan hüquqları onların barəsində tam yerinə yetir!

İmam Səccad (ə) keçən bəhslərdə böyük, kiçik və qardaş barəsində geniş şəkildə bəhs etmişdir. Bu qismətdə onların hüquqlarının sonunda buyurur: Onlardan hər biri sənin yanına gəlsə. Onu mərhəmət, açıq üzlü, mehriban, və təbəssümlə qarşıla. Qardaşınla necə rəftar edirsənsə, onlarla da o cür rəftar et!

Bununla da, İmam Səccad (ə), müsəlmanın öz din qardaşlarının hüquqlarına necə riayət etmələrinə yol göstərir. Ümumilikdə demək olar ki, İmam Səccad (ə) müsəlmanlara öz dindaşlarının və millətinin hüquqlarına riayət etməsinə çox təkid etmişdir. Allah-taaladan, bütün bu zikr olunan hüquqlara riayət etməkdə tofiq və fürsət istəyirik!

50. KİTAB ƏHLİNİN HAQQI

وَأَمّا حَقُّ أَهْلِ الذِّمَّة فَالحُكْمُ فِيهِمْ أَنْ تَقبَلَ منْهُمْ مَا قَبلَ اللهُ، وَتَفِي بِمَا جَعَلَ اللهُ لَهُمْ منْ ذمَّتِهِ وَعَهْده وَتكلُهُمْ إلَيهِ فيمَا طلبُوا منْ أَنْفُسهِمْ وَأَجْبرُوا عَلَيْه وَتحْكِمَ فيهِمْ بمَا حَكَمَ اللهُ به عَلَى نفسكَ فيمَا جرَى بَيْنَكَ [وَبَيْنهمْ] منْ مُعَامَلَة وَلْيكنْ بَينَكَ وَبيْنَ ظُلمهمْ منْ رعَايَة ذمَّة اللَّهَ وَالْوَفاءِ بعَهْده وَعَهْدِ رَسُولِ اللّه – صَلَّى اللهُ عَلَيْه وَآله – حَائلٌ فَإنَّهُ بَلغَنَا أَنَّهُ قَالَ «مَنْ ظَلمَ مُعَاهدًا كُنْتُ خَصْمَهُ» فَاتَّقِ اللَّهَ. ولا حَوْلَ ولا قُوَّةَ إلا باللهِ.

[1] Üsuli-kafi, cild 2, səh 119.

[2] Üsuli-kafi, cild 2, səh 120.

O gələcək...

فَهذه خَمْسُونَ حَقًّا مُحيطًا بكَ لا تَخرُجْ مِنْهَا فِي حَالٍ مِن الأَحْوَال، يَجِبُ عَلَيْكَ رِعَايَتُهَا وَالْعَمَلُ فِي تَأْدِيَتِهَا وَالاسْتِعَانَةُ بِاللهِ جَلَّ ثَنَاؤُهُ عَلَى ذلِكَ. وَلاَ حَوْلَ وَلا قُوَّةَ إِلا بِاللهِ وَالْحَمْدُ لِلّهِ رَبِّ الْعَالَمِينَ.

"Kitab əhlinin (İslam dinin pənahında olanların) sənin boynunda haqqı budur ki, Allahın onlardan qəbul etdiyini sən də qəbul et. Allahın onlardan ötrü təyin etdiyi əhdə və peymana vəfadar ol. Onları məcbur olduqları və istədiklərinə tərəf irşad et. Onlarla alverdə Allahın hökmünə əməl et. İslam pənahında, Allahla və Peyğəmbəri ilə əhdlərinə vəfa etdiklərinə görə onlara zülm etmə. Çünki, bizə çatıb ki, Allah buyurur: «Hər kim əhd bağladığı tərəfə zülm etsə, onun tərəf müqabili və düşməni Mənəm!» Allahdan qorx. Allahdan başqa heç bir güc-qüvvə yoxdur!"

«Zimmə» sözü lüğətdə, əhd və peyman mənasındadır. Qurani-Kərimdə gəlib:

"Necə ola bilər ki, onlar sizə qalib gəlsələr, nə bir anda, nə də bir əhdə əməl edərlər.» «Onlar bir mömin barəsində nə bir anda, nə də bir əhdə əməl edərlər."[1]

"Əqrəbül-Məvarid" kitabında yazır: Yəhudi və xaçpərəstlərdən o kəslərə "zimmi" (Kitab əhli) deyilir ki, müsəlmanlarla əhd-peyman bağlayıb, İslam dinin pənahında yaşasınlar. Bu kəlmə Quranda iki dəfə işlənmişdir.[2]

Nəhcül-Bəlağədə oxuyuruq: "**Müsəlman ümmətinin içində yaşayan başqa millətlərdən, cizyə və xərac verən kitab əhlidir".**

Kitab əhli, hər hansı bir səmavi kitabların tərəfdarı olan qeyri-müsəlmanlardır. Bunlara, "Əhli zimmə"də deyilir. Əgər müsəlmanların beytül-malına maliyyat və xərac versələr, İslam ölkəsində məskən salıb, İslam qanunlarının himayəsində qərar tutarlar.

İslam dövləti, onlardan maliyyat almaqla, onların canlarını və mallarını hifz edir. İslam qanunlarına görə əhli-zimmə öz aralarında olan etiqadi ixtilafları barəsində öz ruhanilərinə müraciət edə bilərlər. Əgər ixtilafları maliyyat və ya hüquqi məsələlərə aid olarsa, bu zaman İslami məhkəmələrə müraciət etməlidirlər. İslam qazisi onların barəsində İslam hüquq qanunlarına əsasən hökm etməlidir.

[1] Tövbə surəsi, ayə 8-10.

[2] Qamuse Quran, cild 3, səh 24.

O gələcək...

KİTAB ƏHLİ İLƏ QARŞIMIZDA OLAN VƏZİFƏLƏR

Dedik zimmə əhli, kitab əhli sayılan yəhudi və nəsranilərdir. İndi isə görək Quran bizim kitab əhlinin qarşısındakı vəzifəmizi necə bəyan edir:

"Kitab əhlindən Allaha və qiyamət gününə iman gətirməyən, Allahın və Peyğəmbərinin haram buyurduqlarını haram bilməyən və haqq dini qəbul etməyənlərlə həqir vəziyyətdə öz əlləri ilə cizyə verincəyə qədər vuruşun."[1]

Əsl həqiqətdə, İslam onlar üçün müsəlman və müşriklərin orta həddi sayılan bir sıra hökmlər təyin etmişdir. Çünki kitab əhlinin səmavi dinin nümayəndələri olduğundan müsəlmanlara oxşamaqla yanaşı, bir tərəfdən də müşriklərlə oxşar cəhətləri vardır. Elə bu dəlilə görə onları öldürməyə icazə vermir. Lakin kitab əhli ilə onların sağlam bir dini azlıq kimi müsəlmanlarla tam dinc bir şəraitdə yaşamağa razı olub, islamı möhtərəm sayıb və müsəlmanların əleyhinə təxribatla məşğul olmadıqları halda keçinməyə icazə verir.

CİZYƏ NƏDİR?

"Cizyə" sözü, cəza sözündən olub, İslam hökumətinin pənahında yaşayan qeyri-müsəlmanlara aiddir. Bu advermə ona görədir ki, onlar İslam hökumətinin, onların mal və canlarını qorumağın müqabilində hökumətə verdiyi "cəza"dır (mükafatdır). Rağib İsfahani də öz lüğət kitabında həmin mənaya işarə edir.

Bəziləri mötəqiddirlər ki, bu sözün kökü qeyri-ərəbidir. Fars dilindəki, nizami qüvvələri möhkəmlətməkdən ötrü "kizyət" ünvanı ilə əhalidən alınan verginin adından götürülüb. Lakin, çoxları əmindirlər ki, bu söz xalis ərəb sözü olub, İslam hökumətinin azlıqda olan məzhəblərinin əmin-amanlığını qorumaqdan ötrü onlardan aldığı vergiyə deyilir.[2]

İslamdan əvvəl cizyə

Bəziləri mötəqiddirlər ki, ilk dəfə cizyə alan şəxs, Sasani padşahlarından Ənuşirəvan olmuşdur. Bu mətləb doğru olmasa da, bir şey

[1] Tövbə surəsi, ayə 29.
[2] Təfsiri-nümunə, cild 7, səh 356.

O gələcək...

şübhəsizdir ki, Ənuşirəvan öz millətindən cizyə almışdır. İyirmi yaşından yuxarı və əlli yaşından aşağı, hökumət işçilərindən olmayan bütün şəxslər adam başı 12, 8, 6, 4 dirhəm fərqləri ilə hər il cizyə verməli idilər. Bu verginin yığılma səbəbi kimi, hər bir ölkənin öz müstəqilliyini və nizami qüdrətini möhkəmlətməkdən ötrü kömək vasitəsi kimi göstərirdilər. Bu yolda bir dəstə əməli şəkildə öz cismi qüvvələri ilə bu işə kömək edir, digər bir dəstə isə ticarət və başqa işlərlə məşğul olduqlarına görə ildə bir dəfə adambaşına vergi verməklə, öz malları ilə vəzifələrini yerinə yetirirdilər.

Cizyə verənlərin yaşlarının 20 və 50 arasında olması bu mətləbə aydın dəlildir ki, hər kim başqa işlərlə məşğul olduqları üçün ölkənin əmniyyətinə xatir silah gəzdirə bilməsə, onun yerinə "cizyə" verməlidir. İslam dinində müsəlmanlara cizyə vermək vacib deyildir. Çünki, İslam, cihadı hamıya vacib buyurmuşdur. Azlıqda olan məzhəblər bu cihaddan azad olduqlarına görə onlardan cizyə alınır. Həmçinin, onların uşaqları, qadınları, qocaları və korlarının da cihaddan azad olmaları bu məsələnin ikinci dəlilidir. Bütün bunlardan məlum olur ki, cizyə təkcə maliyyə köməyidir ki, müsəlmanların əhli kitabın malının, canının və əhli-əyalının əmniyyətini qorumaq məsuliyyəti müqabilində onlardan alınır.[1]

Beləliklə, cizyənin müsəlmanlar tərəfindən əhli kitabı bir növ ram etməsi nəzəri, bu məsələnin hikmətini başa düşməyənlərin fikridir. Onlar bilmirlər ki, əgər kitab əhli müsəlman ölkəsində zimmə halına düşsə, müsəlman hökumətinin vəzifəsidir ki, onlara qarşı hər cür təcavüz və hüquqsuzluğunun qarşısını alıb, onların canlarını və maldövlətlərini qorusun. Bundan əlavə, bu halda olan kitab əhli müsəlman ölkəsində baş verən heç bir müharibədə və müdafiə məsələsində iştirak etməyi öhdəsinə almır və azaddırlar. Əslində, kitab əhli az miqdarda maliyyat ödəməklə müsəlman hökumətinin bütün üstünlüklərindən bəhrələnirlər. Quran ayəsində buyurur ki, kitab əhlindən cizyə alarkən onlar təvazökar halətində olmalıdırlar. Əslində, bu təvazökarlıqdan məqsəd, İslam və Quranın müqabilindəki təvazökarlıqdır. Başqa sözlə desək, azlıqda yaşayan bir dəstənin əksəriyyət və hakim olan bir dəstə ilə müsalimətamiz yaşamağına işarədir.[2]

[1] Təfsiri-nümunə, cild 7, səh 356.
[2] Təfsiri-nümunə, cild 7, səh 355.

O gələcək...

ŞƏRİƏTDƏ CİZYƏNİN HÖKMÜ

Cizyənin hökmlərində bəhs olunan birinci məsələ bundan ibarətdir ki, cizyə kimlərdən alına bilər və şəraiti nədir? Cizyənin kimlərdən alınması sualının cavabında demək olar ki, məşhur İslam alimlərindən Mühəqqiq, "Şərae" kitabında yazır:

"Cizyə öz dinlərini iqrar edənlərdən alınır. Onlar, yəhudi, xaçpərəst və kitab əhli olmaları şübhəli olan məcusilərdir."[1]

Əmirəl-möminin Əli (ə) buyurur:

"**Məcusilər qan bahası və cizyə verməkdə yəhudi və xaçpərəstlər hökmündədirlər. Çünki, keçmişdə kitabları olub."**[2]

Rəvayətdə var ki, onların peyğəmbərlərinin adı "Damast" olub. On iki min inək dərisinin üzərinə yazılmış "Camast" adlı kitabları sonradan yandırılmışdır.

Qeyri-kitab əhlindən cizyə alınmır. Beləliklə, cizyə, yalnız bu üç firqədən alınır. Bütpərəst və müşriklərə gəldikdə isə onlara İslam ölkəsində yer yoxdur, o ki qaldı cizyə alınıb onları qoruyasan! Bu üç firqədən alınan cizyənin də xüsusi şəraiti vardır. Kitab əhli bu şəraitə əməl etməlidirlər. Həmçinin, onların uşaq və divanələrindən cizyə alınmır.

Cizyənin miqdarı

İslam alimləri arasında məşhur budur ki, cizyənin müəyyən şəri miqdarı yoxdur. Bəlkə də, miqdarı, rəhbər və cizyə verənin qüdrətinə bağlıdır. İslam tarixindən ümumi şəkildə məlum olan odur ki, müxtəsər miqdarda cizyə təyin olunmuşdur. Bəzən bir dinar miqdarında, bəzən də dediyimiz kimi cizyə verənin vergi qüdrəti nəzərə alınaraq cizyə təyin olunmuşdur.

Cizyənin şərtləri

Cizyənin altı şərti var:

1. Kitab əhli cizyəni qəbul etsin.

2. Amanda olan münafiq şəxslərin işini görməsin. Məsələn, müsəlmanlarla müharibə etmək niyyətində olmasın.

3. Müsəlmanlara qarşı mal və namus cəhətdən əziyyəti olmasın. Belə ki, onlardan hər kim Peyğəmbərə söyüş versə, öldürüləcək.

---

[1] Şərayiul-İslam, ketabe cihad, bəhse cizye.

[2] Cəvahirul-kəlam, cild 21, səh 229.

O gələcək...

4. İslam dininin qadağan etdiklərinə zahirdə və cəmiyyət içində mürtəkib olmasınlar. Məsələn, donuz əti yemək, şərab içmək və məhrəmlərlə evlənmək kimi şeyləri cəmiyyət içində izhar etməsinlər. Əgər adı çəkilənlərə mürtəkib olsalar, onlarla bağlanan əhd pozulmuş hesab olunur.

5. Müsəlman ölkəsində kilsələri olmayıb, kilsə zəngini vurmasınlar və öz evlərini müsəlmanların evlərindən hündür tikməsinlər.

6. Müsəlmaların qanunlarının onlara da cari olmağını qəbul etsinlər.[1]

MÜSƏLMANLARIN ZİMMƏ ƏHLİ MÜQABİLİNDƏ MƏSULİYYƏTLƏRİ

Əmirəl-möminin Əli (ə) Kufə əhlinə cihada aid şiddətli xütbəsində buyurur:

"**Mənə xəbər çatıb ki, Müaviyənin qoşunundan bir dəstə, bir nəfər müsəlman qadını və İslam dininin pənahında zimmə əhlindən olan bir qadının zinət əşyalarını əllərindən alıb aparmışdır. Biçarə qadınlar fəryad çəkib kömək istəmiş və mallarının qaytarılmasını tələb etmişlər. Sonra zalımların qoşunu, kimsə onlardan azalmadan, yaralanmadan və heç birinin qanı tökülmədən sağ-salamat öz yerlərinə qayıtmışlar. Elə isə bu işdən ötrü müsəlmanın ürəyi partlayıb ölərsə, bu işdən ötrü qəm çəkib ölməyə layiqdir!"**[2]

Sözün tam mənasında, müsəlmanların rəhbərinin ən yüksək məhəbbət və insani hisslərini nişan verən bu aydın xütbədən məlum olur ki, İslam, öz pənahına aldığı şəxslərin haqqına təcavüz olunmasına necə həssas və onların barəsində lazım olanlara riayət edəndir!

"Bəli! Əmirəl-möminin Əli (ə) xaçpərəst bir kişinin Kufə bazarında dilənçilik etdiyini gördükdə soruşur: Bu kimdir? Cavab verirlər: Xaçpərəst bir kişidir. Buyurur: Bu vaxta kimi onu işlətmisiniz, indi ki, qocalıb əldən düşüb, bu vəziyyətlə onu küçəyə atmısınız? Göstəriş verir ki, müsəlmanların beytül-malından ehtiyacını ödəyənə qədər ona pul versinlər!"[3]

[1] Cəvahirul-kəlam, cild 21, səh 229.
[2] Nəhcül-bəlağə, 27-ci xütbə.
[3] Vəsailüş-Şiə, cild 11, səh 49.

O gələcək...

VƏDƏ VƏ ƏHDƏ VƏFA

İmam Səccadın (ə) kitab əhli və zimmə əhli barəsində mühüm hesab etdiyi və ona təkid etdiyi əxlaqi mövzulardan biri də onlarla bağlanmış əhd-peymana əməl etməkdir. Allah-taala Qurani-Kərimdə buyurur:

"**Əhdinizə vəfa edin! Həqiqətən, əhd barəsində sizdən soruşulacaq."**[1]

Yenə də buyurur:

"Möminlər o kəslərdir ki, öz əhdlərinə və əmanətlərinə qarşı vəfadar və riayət edəndirlər."[2]

Bu iki ayədə vədə və əhdi-peyman mövzusu mühüm sayılır və onlara sadiq olmağı möminlərin aşkar nişanələrindən hesab olunur. Bu barədə insanın sorğu-sual olunacağına işarə olunur. Bu barədə İslam Peyğəmbəri (s) və Məsumlardan (ə) bizə çatan rəvayətlər də, bunları bir daha təsdiqləyir.

İmam Sadiqdən (ə) nəql olunur, buyurur:

"**Möminin öz qardaşına vədə verməsi kəffarəsi olmayan and kimidir."**[3]

Müsəlman öz andına əməl etdiyi kimi, vədəsinə də əməl etməlidir.

İslam Peyğəmbəri (s) buyurur:

"**Hər kimin Allaha və qiyamətə imanı varsa, vədəsinə əməl etməlidir!"**[4]

Həzrət başqa yerdə buyurur:

"Qiyamət günü sizlərdən mənə ən yaxın olanınız, sözündə ən doğru olan, əmanəti ən yaxşı əda edən, əhdinə ən yaxşı vəfa edən, əxlaqi cəhətdən ən yaxşı olanınız və əhaliyə ən yaxın olanlarınızdır!"[5]

MÜSƏLMAN VƏ YA KAFİRLƏ PEYMAN

İslam Peyğəmbəri (s) buyurur:

"**Üç şey var ki, onların heç birində heç kimə rüsxət yoxdur: 1.Müsəlman və ya kafirlə bağlanan əhdə vəfada. 2. Müsəlman və**

[1] İsra surəsi, ayə 34.
[2] Muminun surəsi, ayə 8.
[3] Üsuli-kafi, cild 2, səh 364.
[4] Üsuli-kafi, cild 2, səh 364.
[5] Tarixi Yəqubi, cild 2, səh 392.

O gələcək...

kafir də olsa, ata-anaya ehtiram və yaxşılıq. 3. Müsəlmandan yaxud kafirdəndə olsa, əmanəti əda etmək."[1]

Ayə və rəvayətlərdə gələnlərin hamısı İmam Səccadın (ə) bu hüquq bölməsində söylədiklərini təsdiqləyir. Beləliklə, hər kim zimmə əhlinin haqqını əda etsə, Allah və Rəsulunun haqqını əda etmişdir. Əks halda, qarşı tərəfə zülm etmişdir.

İslam Peyğəmbəri (s) buyurur:

"**Əhdinə vəfa etməyənlə, qiyamət günü düşmənçilik edərəm!"**

Qurani-Kərim göstəriş verir ki, İslam düşmənlərindən hər kim sizə pislik etməsə, sizdə onlara pislik etməyin. Buyurur:

"**Allah sizə din yolunda sizinlə vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxşılıq etməyi və onlarla ədalətlə rəftar etməyi sizə qadağan etməz. Allah ədalətli olanları sevər!"**[2]

Quran, kitab əhlini müsəlmanlarla olan müştərək etiqadlarında həmkarlıq etməyə dəvət edir və onları dağınıq olmaqdan çəkindirir. Buyurur:

"**(Ya Məhəmməd!) Söylə ki: Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan (fərqi olmayan) bir kəlməyə tərəf gəlin! (O kəlmə budur ki): Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi (özümüzə) Rəbb qəbul etməyək! Əgər onlar yenə də üz döndərərlərsə, o zaman (onlara) deyin: İndi şahid olun ki, biz, həqiqətən, müsəlmanlarıq. (Allaha təslim olanlarıq)"**[3]

İmam Səccəd (ə) kitabın sonunda buyurur:

"**Bu əlli ədəd haqq (hüquq), sənin bütün vücudunu əhatə etmişdir. Həyatının heç bir sahəsində bu hüquqlardan boyun qaçıra bilməzsən. Bunlara əməl edib riayət etmək sənə vacibdir. Bu hüquqları yerinə yetirməkdə Allah-taaladan kömək və qüdrət istəməlisən. Allahın diqqət və nəzəri olmasa heç bir güc-qüvvə yoxdur. Aləmlərin Rəbbi olan Allaha həmd və səna olsun!"**

[1] Məcmueyi vərram, cild 2, səh 121.
[2] Mumtəhinə surəsi, ayə 8.
[3] Ali-İmran surəsi, ayə 64.

O gələcək...

MÜNDƏRİCAT

MÜƏLLİFİN ÖN SÖZÜ

Müəllifin ön sözü ... 3
Haqq ... 4
Haqq lüğətdə ... 4
Haqqın mənası ... 5
Haqq, elmi termində ... 6
Haqla mülkün fərqi ... 8
Haqqın növləri və bölümləri ... 9
Hüquq, İmam Səccadın (ə) nəzərində ... 12
İnsan və məsuliyyət ... 12
Hüquq kitabı və imam Səccadın (ə) həyatı ... 14
"Hüquq" kitabının bəzi tərcümə və şərhləri ... 16
Hüquq kitabının sənədinin araşdırılması ... 17

HÜQUQ RİSALƏSİNİN" MÜQƏDDİMƏSİ

"İmam Səccadın (ə) hüquq risaləsi adı ilə tanınmış kitabi" ... 22
Hüquq risaləsinin müqəddiməsinin tərcüməsi ... 23
1. Allahın haqqı ... 25
Peyğəmbərlərin göndərilməsinin son hədəfi Allaha pərəstişdir ... 25
İnsanın müsibətli halda Allaha pənah aparması,
onun fitri olmasına dəlildir ... 27
Lüğətdə ibadət sözünün mənası ... 28
Quranda «əbd» sözünün mənası ... 29
İslamda ibadətin həddi ... 30
Bütün hallarda ibadət ... 37
Səmimi qəlblə ibadət ... 38
İbadətdə ifrata yol verməmək ... 39
Allahın zatına şərik qoşma ... 41
İbadətdə şərik ... 42
Gizli şirk ... 44

2. Nəfsin haqqı 45
Nəfs sözünün lüğətdə mənası və istifadə yerləri 45
Quranda nəfs sözünün mənaları 46
Hikmət sahiblərinin nəfsin növləri barəsində nəzərləri 47
Nəfsin quranda qisimləri və mərtəbələri 48
1. Əmmarə nəfsi 48
2. Ləvvamə nəfsi 49
3. Müsəvvələ nəfsi 51
4. Mütməinnə nəfsi 53
Nəfsin fiqhi cəhətdən hüququ 55

BƏDƏN ÜZVLƏRİNİN HAQQI

3. Dilin haqqı 58
Dil, insanda ən böyük nemətdir 58
Bəlağətli sözün təsiri 61
Dil, behişt və ya cəhənnəmə daxil olmağın ən mühüm amili 63
Dilin bəlaları 64
Şəri baxımdan dilin dəyəri 82
4. Qulağın haqqı 83
Eşitməyin insanın təkamülündə rolu 84
Qulağın quruluşu 84
Qurani-Kərimdə qulağın gözə və qəlbə üstün olmasının səbəbi nədir? 86
Qulağın şəriətdə dəyəri 87
5. Gözün haqqı 88
Görmək üzvü, neçə elmin hədəfi 89
Gözdən düzgün şəkildə bəhrələnmək 89
Naməhrəm qadınlara baxmaq haramdır 91
Şəriətdə bəzi yerlərdə naməhrəmə baxmaq istisna olunub 92
İbrətamiz baxış 94
İmam Əliyyən-Nəqi (ə) və Xəlifə Mütəvəkkil 95
Gözün fizioloji quruluşu 96
Göz kürəsinin təbəqələri 97
Gözün kürəsinin şəffaf mühitləri 99

Göz xəstəlikləri ... 100
Gözün şəri cəhətdən dəyəri ... 101
Allahın xalis bəndələri necə yol gedirlər? ... 103
Məsdərin iş görən mənasında işlənməsi burada təkid üçündür ... 103
İslam peyğəmbərinin (s) yol yeriməsi ... 104
Qiyamətdə şahidlər ... 105
Ayaq və onun fiziki quruluşu ... 108
Ayağın şəriətdə dəyəri ... 110
7. Əlin haqqı ... 111
Əl, fəsadın mənbəyi ola bilər ... 112
Qətl, əlin günahıdır ... 113
Əl ilə beyət etmək ... 113
Cizyənin əllə verilməsi ... 114
Əlin fiziki quruluşu ... 115
Əlin şəriətdə dəyəri ... 116
Əlin dəyəri onun əmin olması ilədir ... 117
8. Qarnın haqqı ... 117
İnsanın qidaya ehtiyacı var ... 118
Qida maddələrini siz yaratmısınız, yoxsa Allah? ... 119
Qidanın insanın ruhuna təsiri ... 120
Mədənin sağlamlığı haqqında ən mühüm göstəriş ... 123
Xaçpərəst həkimin Harun barəsində nəzəri ... 124
İslamda başqa sağlamlıq göstərişləri ... 124
Qarının şəri hökmü ... 126
9. Namus haqqı ... 155
Cinsi hissiyyat ... 127
İslam və ailə həyatı ... 129
İslam və qadınlardan qaçmaq ... 132
Zina, böyük günahlardandır ... 132
Zinanın dünya və axirətdəki təsirləri ... 134
Ölümü yada salmaqla zinadan amanda qalmaq ... 136

Ölüm nədir? 136
Ölümün həqiqəti 137
Zinanın şəriətdə hökmü 138

İBADİ ƏMƏLLƏRİN HAQQI

10. Namazın haqqı 142
Namaz, ən böyük ibadətdir 142
Quranda namaz vaxtları 143
Quranın ən çox ümidverici ayəsi 143
Hər halda Allahı xatırlamaq 145
Əsl namaz 146
Namazın fərdi təsirləri 148
Təvazökarlığın amilləri 150
Namazın ictimai təsiri 150
Namazın əxlaqi təsirləri 152
Namaz və kamala maneələr 153
Namaz və günahın bağışlanması 155
11. Orucun haqqı 155
Orucun İmam Sadiq (ə) nəzəriyyəsində hikməti 156
Oruc, İslamdan əvvəl 157
Quranda orucun vaxtı 158
"Ramazan" sözü lüğətdə 159
Oruc və səbr 159
Rəvayətlərdə Orucun fəzilət və təsirləri 160
Birinci rəvayət 160
İkinci rəvayət 160
Üçüncü rəvayət 160
Dördüncü hədis 161
Oruc və günahların bağışlanması 161
Oruc və fəqirlə dövlətli arasında bərabərlik 161
Nəhcül-bəlağədə həzrət Əlinin (ə) nəzərində Oruc 162
Bəhrələnməyən Oruc tutanlar 163
Ğəzzalinin nəzərinə görə Orucun təsirləri 164

Oruc və insanın sağlamlığı 165
Vəzilər 166
Aleksey Safrinin "Tibbi Oruc" nəzəriyyəsi 169
Orucun sirləri və batini şəraiti 170
12. Həccin haqqı 171
Kəbə, ilk ev 171
Kəbənin üstünlükləri 172
Həcc, ilahinin vacib buyuruğudur 173
Həcc, insanların ruhlarının seyridir 175
Həcc və günahların bağışlanması 176
Həcc və Allahdan qeyrisini çağırma 177
Həccin təəccüblü bərəkətləri 178
13. Sədəqənin haqqı 178
Quran nəzərində "Sədəqə" 180
İnfaq və təbəqələşmə müşkülünün həlli 181
Gizlin və aşkar sədəqələr 183
İnfaq və sədəqənin insan həyatındakı rolu 184
Sədəqə və onun təsirləri rəvayətlərdə 185
14. Qurbanlığın haqqı 188
"Hədy" sözü lüğətdə 189
Qurbanlıq 189
Qurbanlığın yaranma tarixi 191
Qurbanlıq, şəri və əqli bir işdir 192

HAKİM DAİRƏLƏRİN HAQQI

15. Hakimin haqqı 196
Həzrəti Əlinin (ə) nəzərində hakimin vücudunun zəruriliyi 197
İmam Rzanin (ə) nəzərində hakimin vücudunun zəruriliyi 197
Qələbə, rəhbərlikdədir 198
Adil rəhbərlərin tanınması və onlardan itaət 201
Ədalətli hakim ehtirama layiqdir 202
Hökumət məsələlərinə elm və agahlıq 203
Çəkinmək və qorxu 203

Əfv və bəxşiş 204
Əhdə vəfa 205
Ölkənin və əhalinin gündəlik işlərindən xəbərdar olmaq 205
Tüğyangər və zalım hakimlər 205
Həzrət Əlinin (ə) nəzərində xəyanətkar hakim 207
Əbuzər və onun istəyinin rəddi 208
16. Ustadın haqqı 209
Elmin məqamının əhəmiyyəti 210
Müəllimin məqamının əhəmiyyəti 211
Ustad və müəllimin rolu 212
Hansi müəllimi seçək? 213
İmam Baqirin (ə) nəzərində müəllimin haqqı 214
Həzrət Əlinin (ə) nəzərində müəllimin haqqı 214
Quranda müəllimin ehtiramı 215
Müəllimin tərbiyəverici sözləri 216
Müəllim yaxud psixoloq? 217
17. Movlanın haqqı 219
Quldarlığın tarixi 220
İslam dininin kölәlik barədə nəzəri 220
İslamda kölələrin tədriclə azad olunmasının səbəbləri 222
İslamda kölələrin azad olunma yolları 223
Əməli və əxlaqi yollar 224

ADİ ŞƏXSLƏRİN HÜQUQLARI

18. Əhalinin haqqı 228
Rəhbərlikdə ədalət 229
Səxavətlə ədalətin fərqi 229
Peyğəmbərlər və ədalətə dəvət 230
Hakimlə əhalinin qarşılıqlı hüquqları 232
19. Şagirdin haqqı 235
Yaxşı müəllimin xüsusiyyətləri 236
İslam peyğəmbərinin (s) nəzərində, elm ardınca olanların məqamı 239

20. Həyat yoldaşının haqqı..... 240
Məhəbbət və mərhəmət 241
Ailə həyatında idarəçilik..... 242
Çətinlik yaradan kişilərin məzəmməti..... 246
Zövcənin həyatını yaxşılaşdırmaq..... 246
Kişinin qadının üzərində olan haqqı..... 247
Qadınların cihadı 248
21. Kölələrin haqqı..... 249
İslam və kölələrin dəyəri..... 250
Kölələrin peymanı..... 252
Kölələri azad etməyin savabı 252

QOHUMLARIN HAQQI

22. Ananın haqqı 256
"Ümm" (ana) kəlməsi..... 257
"Ümm"(ana) kəlməsinin quranda işlənmə yerləri..... 257
Ana və əziyyətlərə dözmək 258
Ananın hamiləlik dövrü..... 258
Süd vermək dövrü 259
Uşağın quruluşunda ananın payı..... 260
Ananın vəziyyətinin uşağın rüşeyminə təsiri..... 261
Quran nəzərində süd vermə dövrü..... 261
Süd necə yaranır? 262
Az həcmli və çox qüvvəli maddə 264
Ana məhəbbəti 265
Ananın fədakarlığı..... 266
Behişt ananın qədəmləri altındadır..... 266
Anaya xidmət, yaxud döyüş cəbhəsi?..... 267
23. Atanın haqqı..... 267
Ata kök, oğul budaq 268
Rəvayətlərdə atanın məqamı..... 269
Cavanların vəzifələri 270
Günahların təsiri və atanın qətli 271

Mütəvəkkilin qətli və bu ölümün təsiri 272
Atanın övlada şəri haqqı 273
24. Övladın haqqı 273
Övladların hüququ 275
İslam peyğəmbərinin (s) vasitəsi ilə pis adların dəyişməsi 275
Pis ad, təhqir və məzəmmətə səbəb olur 276
Övladın tərbiyəsində məhəbbətin rolu 277
Məhəbbətdə ifrata yol vermək 278
25. Qardaşın haqqı 280
İslamda qardaşlıq növləri 281
İslami qardaşlığın əhəmiyyəti 282
Mömin, möminin qardaşı 282
Qardaşlıq ən böyük nemətdir 283
Mömin qardaşın ziyarətinin savabı 283
Qardaşlıqda insafa riayət etmək 284
İmam Sadiqin (ə) nəzərində qardaşlar 285
İslam peyğəmbərinin (s) nəzərində qardaşın otuz haqqı 285

ÜMUMİ HÜQUQLAR

26. Kölə azad edənin haqqı 288
Fikir azadlığı 289
Etiqad azadlığı 290
Malikiyyət azadlığı 290
27. Azad olunmuş kölənin haqqı 292
Azad olunmuş kölənin vəzifələri 293
Kölə azad edənin məqamı 293
Şiələrin imamları və kölələri azad etmək 294
28. Ehsan edənin haqqı 294
Yaxşılıq və pislik bərabər deyildir 295
Salama ondan da yaxşı cavab verin 295
Yaxşılığın mükafatı yaxşılıqdır 296
Allahın ehsanının cavabı 296
Başqaları ilə dostluq etmək 297

29. Azançının haqqı 298
Azan sözünün lüğətdə mənası 299
Azanın şəri hökmü 300
Azanın sözündə ixtilaf 301
Azanın sözləri 302
İmam Rza (ə) azanın hikməti barəsində 303
Azan verməyin savabı 303
30. Pişnamazın haqqı 304
Camaat namazının hikmət və təsirləri 305
Camaat namazının əhəmiyyəti aşkarda olmasıdır 306
Camaat namazının savabı 308
Pişnamazlardan əhvalatlar 309
31. Yoldaşın haqqı 310
İnsan ictimai varlıqdır 311
Dostun insanın şəxsiyyətində rolu 312
Ləyaqətli dostun seçilməsi 312
Belə şəxslərlə yoldaşlıq edin 314
Ağilli insanla dostluq və yoldaşlığın rolu 314
Yaxşı dostun xüsusiyyətləri 315
32. Qonşunun haqqı 316
"Car" (qonşu) sözünün lüğətdə mənası və istifadəsi 317
Quranda qonşunun hüququ 318
Rəvayətlərdə qonşuların hüquqları 318
Qonşuya əziyyət haramdır 320
Qonşuluğun həddi 322
33. Yol-yoldaşının haqqı 322
İnsanın dostundan xasiyyət götürməsi 324
Rəvayətlərdə nadan dostlar barəsində 324
Axmaq dosta tabe olmağın nəticəsi 325
Belə şəxslərlə yoldaşlıq etməyin 326
İmam Həsənin (ə) yoldaşlıq barəsində Cünadəyə dediyi sözlər 328
34. Şərikin haqqı 329

Şəri cəhətdən şirkətə baxış 330
Alverdə ədəb qaydalarına riayət 330
Rəvayətlərdə şirkət barəsində 331
35. Mal-dövlətin haqqı 332
Mal sözünün lüğətdə mənası 333
Mülkiyyətin növləri 333
İnsan, yaranışın əsası 334
Dünya, İslam nəzərində 334
Dünya, rəvayətlərdə 335
Mal-dövlət qazanmaq və toplamaq 336
Mal-dövlət qazanmaq hədəfi 337
Halal yolla pul qazanmaq 339
Zəhmətlə və zəhmətsiz ruzi 339
36. Tələbkarın haqqı 340
Quranda borc verməyə baxış 341
Quranda riba (sələmçilik) haqqında 342
Sələmçilərin məntiqi 343
Borcluya möhlət verilməsi 344
37. Həmkarın haqqı 346
Yaxşı dostun xüsusiyyətləri 347
38. İddiaçı və əleyhinə iddia olunmuş şəxsin haqqı 348
İxtilaf və şikayətin mənbəyi 349
İslam dini ixtilafların kəsilməsinə dəvət edir 349
İxtilaflar aradan getməlidir 350
Məhkəmə qanunları 351
Qazinin qüdrəti 351
Qazinin mal-dövlətdə müstəqilliyi 352
Qazinin məhkəmədə vəzifələri 352
Məşhur İslam alimi "Şəhid Əvvəlin" qazinin vəzifələri barədə dedikləri 354
İddiaçi və əleyhinə iddia olunan 354
Dəlil (şahid) və and, qəzavətin əsası 355

39. Məşvərət istəyənin haqqı 356
İslamda məşvərət mözusu 356
Məşvərətin nəticələri 357
Məşvərət, Quran baxımından 357
Məşvərət, rəvayət baxımından 359
Kimlərlə məşvərətləşək? 359
Kimlərlə məşvərət etməyək? 360
İslamın zühurunun əvvəllərində alti nəfərlik şura 361
40. Müşavirin haqqı 362
Müşavirədə əmanət və sədaqət 363
Məşvərət və ətrafından məsləhət almaq 363
41. Nəsihət istəyənin haqqı 365
Peyğəmbərlər, cəmiyyətin nəsihət verənləri 365
Möminlər bir-birinin nəsihət verənləridir 366
Nəsihətçilər ən yaxşı insanlardır 367
Nəsihətin yolu 367
42. Nəsihət edənlərin haqqı 369
43. Böyüklərin haqqı 371
İnsan həyatının əvvəli və sonu əziyyətlədir 372
Rəvayətlərdə qocaların ehtiramı haqqında 374
Qocalara ehtiram əzabdan xilas olmaqdır 375
44. Kiçiklərin haqqı 376
Uşaqda məhəbbət yaratmaq 377
Uşaqların tərbiyə yolu 377
45-46. Dilənçi və dilənilmişin haqqı 379
Dilənçinin haqqı 380
Dilənilmişin haqqı 380
Yerli və yersiz suallar 381
Dilənçiliyin rəvayətlərdə məzəmmət olunması 382
İnsanın hörmətini hifz etmək 382
Dilənçiliyin zillətindən çəkinin 383
Əl açılmalı şəxsin xüsusiyyətləri 385

47. Xoşhal edənin haqqı 388
Həyatda insanın müxtəlif halları 388
Möminləri xoşhal etməyin savabı 389
Xoşhallığın insanların nicatinda rolu 390
48. Sənə pislik edənin haqqı 392
Əvf və bağışlamağa dəvət 393
Möminlərdən kömək istəmək 394
Əfv və güzəşt ən yaxşı yoldur 395
Əfv və vaz keçməyin fərqi 396
Pisliyə yaxşılıqla cavab 396
Qüdrət olan vaxtda əfv etmək 397
49. Millətin haqqı 399
"Millət" sözü lüğətdə 399
Qardaşlıq və dostluq müsəlmanların şüarıdır 402
Güzəşt və onun təsirləri 403
50. Kitab əhlinin haqqı 404
Kitab əhli ilə qarşımızda olan vəzifələr 406
Cizyə nədir? 406
Şəriətdə cizyənin hökmü 408
Müsəlmanların zimmə əhli müqabilində məsuliyyətləri 409
Vədə və əhdə vəfa 410
Müsəlman və ya kafirlə peyman 410

İSLAMDA HÜQUQ NƏZƏRİYYƏSİ

Texniki redaktor: Elnur ƏHMƏDOV
Bədii redaktor: Fəxri VƏLİYEV
Səhifələyici: Sədaqət KƏRİMOVA

Yığılmağa verilmişdir: 26.01.2015
Çapa imzalanmışdır: 16.02.2015
Nəşrin ölçüsü: 70x100 1/16
Fiziki çap vərəqi: 26,5
Sifariş: 018/15. Sayı: 500 ədəd.

NURLAR
NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Bakı, Az1122, Zərdabi pr. 78 / Tel: 4977021
Faks: 4971295 / E-poçtu: office@nurprint.com

O gələcək...